ƏLİYEV ÜMÜDVAR QƏNBƏR OĞLU

# KEÇİD DÖVRÜNÜN MİLLİ İQTİSADİ PROBLEMLƏRİ

Monoqrafiya

**Bakı – 2008**

downloaded from KitabYurdu.org

KBT 65.02
Ə 64
*Elmi redaktor:* i.e.d., prof. **Manafov Q.N.**

*Rəyçilər:* i.e.d., prof. **Əhmədov M.A.**
i.e.n., dos. **Eminov N.O.**

64 Əliyev Ü.Q. Keçid dövrünün milli iqtisadi problemləri.
Monoqrafiya. Bakı: Azərnəşr, 2008

Monoqrafiyada Azərbaycan Respublikasında yeni iqtisadi sistemin formalaşdığı şəraitdə bazarın iqtisadi ilkin şərtlərinin meydana gəlməsi, onların tədricən bütövlükdə iqtisadiyyatı əhatə edə bilən təsərrüfatçılıq mexanizminə çevrilməsi və bu təsərrüfatçılıq mexanizminin formalaşmasının iqtisadi əsası kimi çıxış edən xüsusi mülkiyyət münasibətlərinin yaradılmasının ona uyğun gələn bazar mexanizmi ilə milli iqtisadiyyatın formalaşdırılmasını qarşılıqlı asılılıqda öyrənilməsinə xüsusi önəm verilmişdir.

Monoqrafiyanın əsas konsepsiyası araşdırılan problemin öyrənilməsi səviyyəsi də nəzərə alınmaqla müəllifin elmi mövqeyinə əsaslanmaqla formalaşdırılmışdır.

Həmçinin burada iqtisadiyyatda bazar münasibətlərinin genişlənməsi ilə iqtisadi inkişaf və dünya iqtisadiyyatına inteqrasiya üçün bazar mexanizminin rolu ön plana çəkilmişdir.

Monoqrafiyadan ali məktəblərin iqtisadi yönümlü fakültələrinin müəllimləri, tələbələri, eləcə də aspirantlar, elmi işçilər və geniş oxucu kütləsi istifadə edə bilər.

$\frac{0601000000}{M-651(07)2008}$ qrifli nəşr

© «İqtisad Universiteti» nəşriyyatı, 2008
© Əliyev Ü.Q., 2008

downloaded from KitabYurdu.org

# MÜNDƏRİCAT

**GİRİŞ**…………………………………………………. **5**
***I Fəsil. Milli iqtisadiyyatın formalaşmasının nəzəri-metodoloji əsasları***……………………………….. ***10***
1.1. Klassik və müasir elmi baxışlar sistemində milli iqtisadiyyat ………………………………………….. ***10***
1.2. Milli iqtisadiyyat konsepsiyasında iqtisadi təhlükəsizlik problemləri …………………………… ***28***
***II Fəsil. Yeni iqtisadi sistemin institutsional əsaslarının yaradılması və bazar mühitinin formalaşması***…………………………………………… ***51***
2.1. Yeni mülkiyyət münasibətlərinin qərarlaşması və mülkiyyət çox növlüyünün təşəkkülü…………… ***51***
2.2. Rəqabət mühitinin formalaşdırılması bazar mexanizminin səmərəli fəaliyyətinin mühüm şərti kimi………………………………………………….. ***78***
2.3. Bazar mühitinin yaradılması şəraitində sahibkarlıq fəaliyyətinin xüsusiyyətləri……………….. ***93***
***III Fəsil. Keçid iqtisadiyyatında bazar mexanizminin qərarlaşması problemləri***…………………….. ***136***
3.1. Təsərrüfat mexanizminin təkamülü şəraitində bazar mexanizminin fəaliyyət xüsusiyyətləri………. ***136***
3.2. Keçid iqtisadiyyatında tələb və təklifin formalaşmasının ümumi prinsipləri və fərqli cəhətləri…………………………………………………….. ***155***
3.3. Qiymətin əmələgəlməsinin bazar mexanizminin formalaşması xüsusiyyətləri……………………… ***178***
***IY Fəsil. Keçid iqtisadiyyatı şəraitində bazar mexanizminin iqtisadiyyatın dövlət tənzimlənməsi ilə qarşılıqlı əlaqəsi***…………………………………………. ***198***
4.1. Keçid iqtisadiyyatında iqtisadiyyatın dövlət tənzimləməsinin bazar mexanizminin təkmilləşməsinə təsiri……………………………………………… ***198***

downloaded from KitabYurdu.org

4.2. Makroiqtisadi sabitliyin təmin edilməsində bazar mexanizmi və dövlət tənzimlənməsinin nisbəti………………………………..………… ***220***
4.3. Bazar mexanizminin fəaliyyəti şəraitində iqtisadiyyatın inhisarsızlaşdırılması və dövlətin antiinhisar siyasətinin əsas istiqamətləri……………..…..… ***239***
4.4 Dövlətin antinflyasiya siyasətinin bazar mexanizminin səmərəli fəaliyyətində rolu………………… ***258***
***V Fəsil. Milli iqtisadiyyatda bazar mexanizminin formalaşmasının sosial-iqtisadi nəticələri……………*** ***278***
5.1. İqtisadi resurslara görə gəlirlərin formalaşması və dinamikasına bazar mexanizminin təsiri…. ***278***
5.2. Milli iqtisadiyyatda əmək bazarının formalaşması və məşğulluğun təmin edilməsində bazar mexanizminin əhəmiyyəti………………………… ***312***
***İstifadə edilmiş ədəbiyyat…………….………………*** ***349***

downloaded from KitabYurdu.org

# GİRİŞ

Hər bir formalaşmış iqtisadi sistemdə olduğu kimi sosializm cəmiyyəti də özünəməxsus təsərrüfatçılığın sosial-iqtisadi alətlərini hərəkətə gətirə bilən təsərrüfat mexanizmi yaratmışdır. Lakin bu təsərrüfat mexanizmi öz mövcudluğu dövründə obyektiv iqtisadi gerçəklikdən irəli gələn amillərə deyil, subyektivizmə üstünlük verirdi. İqtisadi proseslərə inzibati qaydada müdaxilə isə nəinki iqtisadi inkişafa təkan vermirdi, hətta ona mane olan amilə çevrilirdi. Tarixi təcrübədə sosialist təsərrüfat mexanizminin özünü doğrultmaması inzibati amirlik iqtisadi sistemindən imtina ilə yanaşı iqtisadiyyatda hakim mövqeyə malik olan sosialist təsərrüfat mexanizminin də sındırılmasını zəruri etdi.

Mövcudluğu dövründə ifrat dərəcədə mərkəzləşdirməyə əsaslanan sosialist təsərrüfat mexanizmi resursların səmərəsiz istifadəsinə gətirib çıxardığından müasir dünya üçün iqtisadi baxımdan həyat qabiliyyətli olmadığını sübut etmişdir. Sosializmdən imtina edən bütün ölkələr bazar iqtisadiyyatı sistemini özlərinə alternativsiz iqtisadi inkişaf yolu seçmişlər. Şərqi Avropa və SSRİ-yə daxil olan indiki müstəqil ölkələr kimi Azərbaycan Respublikası da öz müstəqilliyini siyasi cəhətdən bəyan etməklə özü üçün müasir dünyada mütərəqqi iqtisadi inkişaf yolu olan və sosial baxımdan tənzimlənən bazar iqtisadiyyatı yolunu seçdi. Uzun müddət inzibati – amirlik iqtisadi sistemi şəraitində yaşamış Azərbaycan Respublikasında yeni iqtisadi sistemin əsaslarının yaradılması, xüsusi ilə bazar mexanizminin iqtisadi alətlərinin səmərəli hərəkətə gətirilməsi o qədər də asan məsələ deyildi. İqtisadi inkişafda kəskin şəkildə baş verən geriləmələr, istehsalın səviyyəsinin aşağı düşməsi, işsizlik, inflyasiya və s. digər amillər iqtisadiyyata bazar elementlərinin daxil edilməsi qarşısında kifayət dərəcədə maneələr yaradırdı. Ona görə də iqtisadiyyatda elə köklü kompleks islahatların aparılması tələb olunurdu ki, o, ölkənin mövcud

downloaded from KitabYurdu.org

durumuna uyğun gəlməklə nisbətən qısa bir müddətdə yaranmış böhranlı vəziyyəti aradan qaldıra bilsın və səmərəliliyə nail olmaq məqsədi ilə yol verilən hədd daxilində bazar elementlərinin iqtisadiyyatda hərəkətə gətirilməsi üçün mümkün mühit formalaşdırsın. Mülkiyyət münasibətlərində aparılan və aparılması nəzərdə tutulan köklü dəyişikliklər sosialist təsərrüfat mexanizminin fəaliyyətini mümkünsüz etmişdir. Bəzən hətta inzibatçılığa əsaslansa da belə, bazar elementlərinin iqtisadiyyata daxil edilməsi cəmiyyətin mənafelərinin gözlənilməsi və uzlaşdırılması baxımından çox zəruridir. Əks təqdirdə, təklifin həddindən artıq aşağı olduğu, tələblə kəskin uyğunsuzluğu şəraitində iqtisadiyyat miqyasında qiymətin liberallaşdırılması istənilən nəticəni verməzdi. Rəqabət mühitinin formalaşması üçün zəruri olan özəl mülkiyyət formalarını yeni iqtisadi sistemin bazası kimi formalaşdırmadan bazar mexanizminin elementlərinin hərəkətə gətirilməsi də çətinliklərlə qarşılaşırdı. Ona görə də keçidin ilkin mərhələsi üçün bazar mexanizminin elementlərinin tam hərəkətə gətirilməsi məcmu tələblə məcmu təklifin səmərəlilik səviyyəsini aşağı salardı. Digər tərəfdən də iqtisadi rıçaqların tam hərəkətə gətirilməsi onsuz da çox aşağı səviyyədə olan sosial durumu daha da pisləşdirərdi. Təbii ki, iqtisadiyyatın mövcud durumu tələb edirdi ki, bazar elementlərinin tətbiqi və bütövlükdə bazar mexanizminin formalaşması dünya təcrübəsindən istifadə etməklə Azərbaycan gerçəkliyinə uyğun, elmi cəhətdən əsaslandırılmış milli iqtisadi maraqları nəzərə alan çevik, işlək bazar mexanizminin elementlərinin fəaliyyəti üçün iqtisadi mühit formalaşdırılsın.

Bütün bu dediklərimiz dünya təcrübəsini və Azərbaycan gerçəkliyini özündə əks etdirən formalaşma mərhələsində olan milli iqtisadiyyatımızda bazar mexanizminin yaradılması qanunauyğunluqları və xüsusiyyətlərinin elmi cəhətdən öyrənilməsini aktuallaşdırırdı.

downloaded from KitabYurdu.org

Bazar mexanizmi elementlərinin kifayət dərəcədə qədim tarixi köklərinin olmasına baxmayaraq onun bazar mexanizmi kimi sistemləşdirilmiş, ümumiləşdirilmiş elmi təhlili klassik məktəbin iqtisadçıları tərəfindən (V. Petti, A. Smit, D. Rikardo və s.) verilmişdir. Klassiklər azad kapitalizmin meydana gəlməsi, təşəkkülü və inkişafı qanunauyğunluqlarını araşdırdıqlarından bazar mexanizmini də təşəkkül mərhələsində öyrənmişlər. Bazar münasibətlərinin inkişafının daha mükəmməl səviyyəsinə uyğun olaraq neoklassik məktəbin nümayəndələri dəyişilən ictimai-iqtisadi şəraitə uyğun bazar mexanizminin səciyyəvi cəhətlərini (A.Marşal, K.Menger, F.Vizer, F. Xayek və başqaları) araşdırmışlar. Bazar mexanizmi həmçinin K.Marks və F.Engels tərəfindən marksist metodologiyaya uyğun təhlil edilmişdir. Maraqlıdır ki, ümumiləşdirilmiş şəkildə bazar mexanizmini öyrənən marksist məktəb nəticə etibarı ilə kapitalizmin labüdən sosializmə gətirib çıxaracağını əsaslandırırdı. Həm də, bu zaman onlar daha çox isbat etməyə çalışırdılar ki, bazar elementləri müəyyən həddən sonra məhsuldar qüvvələri inkişaf etdirmək iqtidarında deyil, ona görə də cəmiyyət məhsuldar qüvvələrin inkişafına təkan verə biləcək yeni bir sosial forma axtarıb tapmalıdır ki, bu da sosializm olacaq.

XIX əsrin sonu XX əsrin əvvəllərində bazar iqtisadiyyatında kifayət dərəcədə keyfiyyət dəyişiklikləri baş verdiyindən klassik məktəb tərəfindən yaradılmış «görünməz əl» nəzəriyyəsi — kapitalizmin avtomatik özünütənzimləməsi mexanizmi iqtisadi inkişafa o qədər də çevik təkan vermək imkanına malik deyildi.

Doğrudur, bu dövrdə yeni yaranan neoliberalizm cərəyanı klassik prinsipləri saxlamaqla məhdud miqyasda iqtisadiyyata dövlətin müdaxiləsinin zəruriliyini məqbul hesab edirdi. Onlara görə iqtisadi sarsıntıların yaranmasının başlıca səbəbi kimi çıxış edən azad rəqabətin pozulmasının qarşısının alınması, ona əlverişli şəraitin yaradılması dövlətin iqtisadiyyata müdaxiləsinin həddini müəyyənləşdirməlidir.

downloaded from KitabYurdu.org

Kapitalizmin iqtisadi inkişaf alətlərinin digər iqtisadi amillərlə (faydalılıq, təkliflə faydalılığın qarşılıqlı əlaqəsi, iqtisadiyyatın dövlət tənzimlənməsi və s.) qarşılıqlı əlaqələri A. Marşall, C.M.Keyns, L.Valras, V.Paretto, L.Mizes, F. Xayek, M. Fridmen, A. Laffer, T. Veblen, O. Dolan, C. Robinson və başqaları tərəfindən tədqiq edilmişdir. Bu iqtisadçılar müxtəlif iqtisadi nəzəri məktəb və cərəyanlara məxsus olmalarına baxmayaraq müasir sivilizasiyalı dünyada bazar təsərrüfat mexanizminin alternativini görmürdülər. Sözsüz ki, bazar mexanizminin klassik anlamı müasir anlamla tam üst-üstə düşmürdü. İqtisadi inkişafdakı keyfiyyət dəyişiklikləri öz təsirini iqtisadi alətlərin fəaliyyətinə göstərməyə bizməzdi.

İqtisadi inkişafda baş verən keyfiyyət dəyişiklikləri bazar iqtisadiyyatına sosial yönümlülük verirdi. Bu sosial yönümlülük müxtəlif iqtisadi məktəblərin tədqiqat predmeti olmuşdur.

Son dövrlər sosial yönümlü tənzimlənən bazar iqtisadiyyatının təsərrüfat mexanizminin ümumi qanunauyğunluqları P. Samuelsonun «Ekonomiks», K.R. Makkonell, S.L. Bryunun eyni adlı «Ekonomiks», N. Qreqori Menkyunun «Makro iqtisadiyyat» əsərlərində və digər əsərlərdə öz əksini tapmışdır.

Bazar elementlərinin nəinki iqtisadi tərəqqiyə, hətta sosial inkişafa təsiri elə qaçılmaz faktdır ki, hətta SSRİ – nin mövcudluğu dövründə bazar elementlərindən istifadə edilməməsini sosialist təsərrüfat mexanizminin çatışmazlığı kimi göstərməyə imkan da verə bilər. Təbii ki, həmin dövrün sosial – iqtisadi şəraiti sovet iqtisadçısına bazar mexanizminin üstünlüklərini axıra qədər ardıcıl araşdırmağa imkan yaratmazdı. Sosialist ölkələrində bazar dəyişiklikləri bu ölkələrin iqtisadçılarına bazar münasibətlərinə ideoloji mövqedən deyil, iqtisadi mənafelər baxımından, resurslardan istifadənin səmərəlilik dərəcəsi baxımından yanaşmağa imkan verdi.

Belə ki, yeni yaranan iqtisadi sistemin təsərrüfat mexanizminin formalaşması bir sıra rus iqtisadçılarının-

downloaded from KitabYurdu.org

L.İ. Abalkin, M.U Lemeşev, Y.V. Morozov, V.A.Pavlov, A.V. Sidoroviç, A.Y. Livşits, M.N. Çepurin, E.A. Kiselyova, R.İ.Xasbulatov və başqalarının tədqiqat obyektinə çevrilmişdir.

Son əsrdə ikinci dəfə müstəqillik əldə edən Azərbaycan Respublikasının iqtisadçı alimlərindən A.A.Nadirov, T.S.Vəliyev, Z.Ə. Səmədzadə, Ş.H.Hacıyev, İ.A.Kərimli, Ə.İ.Bayramov, A.K. Ələsgərov, A.Ş. Şəkərəliyev, Ə.Ə.Əlirzayev, Ə.P.Babayev, T.Ə.Quliyev, M.X.Meybullayev, Ş.M.Muradov, A.F.Musayev, N.M. İmanov, İ.Ə. Feyzullabəyli, H.B.Allahverdiyev, Q.N.Manafov, F.A.Nəsrullayev, A.İ.Şirəliyev və başqaları yeni iqtisadi sistemə keçid dövründə bazar mexanizminin elementlərinin formalaşması qanunauyğunluqları və xüsusiyyətlərini ayrı-ayrı səpkidə tədqiq etmişlər.

Nəticədə Azərbaycan iqtisadiyytında bazar münasibətlərinin formalaşmasının müxtəlif tərəfləri o, cümlədən də bazar mexanizminin elementlərinin formalaşması problemləri fərqli aspektlərdə və konkret nəticələr əldə etmək məqsədi ilə araşdırılmışdır.

Qeyd etmək lazımdır ki, respublikamızda milli iqtisadiyyatın bazar mexanizmi ilə qarşılıqlı asılılıqda formalaşması problemləri indiyədək xüsusi olaraq öyrənilməmişdir. Monoqrafiya milli iqtisadiyyatla bazar mexanizminin keçid dövründə formalaşması qanunauyğunluqları və xüsusiyyətlərinin elmi- praktiki problemlərinin kompleks və sistemli araşdırılmasına həsr edilmişdir.

downloaded from KitabYurdu.org

# I FƏSİL

# MİLLİ İQTİSADİYYATIN FORMALAŞDIRILMASININ NƏZƏRİ-METODOLOJİ ƏSASLARI

*Demokratiya şəxsi azadlıq deyil, daha çox azad insanlar arasında yaşamaq deməkdir. (Müəllif)*

## 1.1. Klassik və müasir elmi baxışlar sistemində milli iqtisadiyyat

İqtisadi ədəbiyyatda milli iqtisadiyyat təliminin ilkin tədqiqatçıları kapitalizm cəmiyyətinin nümayəndələri, klassik iqtisadi nəzəriyyə məktəbinin yaradıcıları A.Smit və D.Rikardo olmuşlar. Onlar hesab edirdilər ki, milli iqtisadiyyatın formalaşması cəmiyyətin iqtisadi inkişafının qanunauyğun nəticəsidir. Hər bir ölkə iqtisadi inkişafının müəyyən mərhələsində müstəqil milli iqtisadiyyat formalaşdırmaq səviyyəsinə gəlib çıxacaqdır. Ölkələr iqtisadi inkişaf səviyyələrinə görə bir-birindən fərqləndikləri üçün milli iqtisadiyyatın formalaşmasına bir qrup ölkələr tez, digər qrup ölkələr isə gec gəlib çıxırlar. Milli iqtisadiyyat ölkənin istehsal sahələri arasında iqtisadi əlaqələrin çevikliyini, təkrarlığını, milli maraqların ödənilməsini tələb etdiyindən onun formalaşması da bu münasibətlərin kifayət dərəcədə yetkinləşdiyi kapitalizm cəmiyyətində baş verir. Kapitalist istehsal münasibətləri müxtəlif iqtisadi alətləri hərəkətə gətirməklə (kapitalın sərbəst şəkildə bir sahədən digərinə axması, milli resurslardan səmərəli istifadənin bazar mexanizmi, əmək bölgüsünün dərinləşməsi) iqtisadiyyatın bir tam kimi inkişaf etməsini stimullaşdırır. İqtisadiyyatın bütün sahələri istehsal amillərinin səfərbər edilməsi nəticəsində gəlir gətirmək imkanına malik olduğundan heç bir sahə kapitalın diqqətindən kənarda qalmır. A.Smit, D.Rikardo öz dövrlərinin inkişaf etmiş ölkəsi olan İngiltərənin iqtisa-

downloaded from KitabYurdu.org

diyyatını tədqiq edərək bu qənaətə gəlmişlər ki, bazar iqtisadi münasibətlərinin sistemli inkişafı İngiltərənin iqtisadi həyatında bir tamlıq yaratmışdır ki, bu da milli iqtisadiyyat üçün səciyyəvidir (126.s.71-77).

Artıq XVII-XVIII əsrlərdə İngiltərədə kapitalist münasibətləri kifayət dərəcədə inkişaf etmişdi. İnkişaf etmiş ölkənin iqtisadiyyatı onu təşkil edən struktur ünsürlərinin qarşılıqlı əlaqə və təsiri şəklində fəaliyyət göstərirdi. Həm də bu fəaliyyət xarici aləmdən təcrid olunmuş şəkildə deyil, onunla sıx əlaqədə baş verirdi. Bu baxımdan, milli iqtisadiyyat dedikdə daxili və xarici iqtisadi amillərin təsiri altında qarşılıqlı əlaqə və asılılıqda olan və fəaliyyət göstərən təsərrüfat ünsürlərinin ölkə miqyasında mövcud xüsusi kompleksini başa düşmək olar. Milli iqtisadiyyat daha çox mənafelərin uzlaşdırılması yolu ilə ümummilli, ümumxalq, ümumdövlət mənafelərinin reallaşmasına şərait yaradır və bu amillərin inkişafına xidmət edir.

Milli iqtisadiyyatın ümummilli mənafelərin reallaşmasına daha əlverişli şərait yaratmaq imkanına malik olması alman iqtisadçısı F.Listin də iqtisadi tədqiqatlarında diqqət mərkəzində olmuşdur. F.List öz tədqiqatlarının nəticəsi olaraq bu qənaətə gəlir ki, müstəqil milli iqtisadiyyatı formalaşdıran amillərin çevik qarşılıqlı asılılıqda əlaqəsini təmin etməklə bütövlükdə ölkə iqtisadiyyatının kifayət dərəcədə sürətli inkişafına nail olmaq mümkündür. Sonralar F.Listin milli iqtisadiyyat konsepsiyası Almaniya iqtisadiyyatının inkişafının proqram sənədlərindən birinə çevrilmişdi. Almaniya gerçəkliyində «milli iqtisadi inkişaf» konsepsiyasının diqqət mərkəzində saxlanılmasının nəticəsi olaraq XX əsrin əvvəllərindən başlayaraq Almaniya dünyanın ən qabaqcıl ölkələrindən birinə çevrilmişdir. İqtisadi inkişaf səviyyəsinə görə alman iqtisadiyyatına uyğun gələn bir sıra qərb ölkələri öz milli inkişaf konsepsiyalarının işlənib hazırlanmasında F.Listin nəzəriyyəsindən ölkələrinin gerçəkliyinə uyğun gələn səviyyədə istifadə etməyə başladılar. Məsələn, Avstriya və İsveçdə sosial

downloaded from KitabYurdu.org

yönümlü iqtisadiyyatın formalaşmasının əsasını məhz alman modeli təşkil etmişdi.

Azərbaycan Respublikasının siyasi suverenlik əldə etməsi ölkə iqtisadçılarının da diqqətini milli iqtisadiyyatın formalaşması problemlərinin öyrənilməsinə yönəltmişdir.

Respublikanın tanınmış iqtisadçı alimlərindən Azərbaycan Respublikası MEA-nın akademiki Z.A.Səmədzadə, AMEA müxbir üzvləri Ş.M.Muradov, professorlardan Ş.H.Hacıyev, İ.A.Kərimli, Ə.P.Babayev, M.X.Meybullayev, A.Ş.Şəkərəliyev və başqalarının əsərlərində milli iqtisadiyyatın formalaşmasının bu və ya digər mühüm problemləri tədqiqat obyekti olmuşdur. 1998-ci ildə Azərbaycan Asiya Universiteti tərəfindən nəşr edilmiş «Azərbaycan iqtisadiyyatı» monoqrafik əsərinin müəllifləri respublikamızda «milli iqtisadi inkişaf» problemlərinin araşdırılması baxımından təqdirəlayiq bir iş görmüşlər.

Milli iqtisadiyyat probleminin ilkin tədqiqatçılarına əsaslanan müasirlərimiz milli iqtisadiyyatın üç formasını fərqləndirirlər. «Sivilizasiyalı müstəqil milli iqtisadiyyat», «müstəmləkə xarakterli milli iqtisadiyyat», «yarımmüstəmləkə xarakterli milli iqtisadiyyat». Milli iqtisadiyyatın tədqiqatçılarının hansı mövqedən yanaşmalarından asılı omayaraq göstərilən meyarları nəzərə almadan milli iqtisadiyyatın tam elmi məzmununu açmaq mümkün deyil. Bütün bu meyarları nəzərə alaraq T.S.Vəliyev yazırdı: «Tarixi təcrübə birmənalı təsdiq edir ki, «sağlam (sivilizasiyalı, normal) milli iqtisadiyyat» kateqoriyası ilə o ölkələr xarakterizə olunurlar ki, onlarda real siyasi, hüquqi, milli və ümumiyyətlə, dövlət müstəqilliyi hakim mövqe tutmuş və tutur». (122. s.194)

Prof. Ş.H.Hacıyev hələ 2000-ci ildə yazdığı «Azərbaycan dünya birliyinə doğru yolda: xarici iqtisadi inkişaf strategiyası» monoqrafiyasında Azərbaycanın iqtisadi inkişaf xüsusiyyətlərinin konturlarını müşahidə etmiş və sonralar bir sıra əsər və məqalələrində Milli iqtisadiyyatın formalaşdırılmasının spesi-

downloaded from KitabYurdu.org

fikliyini (yüksək iqtisadi artım tempi) iqtisadi inkişafın H.Əliyev «Uğur» modeli kimi elmi cəhətdən əsaslandırmışdı.

Bu model digər iqtisadi inkişaf modellərindən aşağıdakılarla fərqləndirilir.

1. «Uğur» modelinin paradiqmasını faydalılıq, səmərəlilik təşkil edir. Yüksək artım tempi səciyyəvidir.
2. Universal iqtisadi inkişaf qanunlarının milli xüsusiyyətləri nəzərə alınır.
3. Spesifik iqtisadi qanunlardan çevik istifadə olunur.
4. Milli iqtisadi sistemlərin özünəməxsusluğu nəzərə alınır. Bəzi ölkələr ilə eyniləşdirmələr aparılır. Tam fərqlilik diqqət mərkəzində saxlanılır.

Milli iqtisadiyyat tarixi bir kateqoriya olduğundan şübhəsiz ki, bu və ya digər ölkənin məhsuldar qüvvələrinin müxtəlif inkişaf səviyyəsinə uyğun gəlir. Müxtəlif tarixi dövrlərdə isə milli iqtisadiyyatın formalaşdırılması kifayət dərəcədə fərqli formada baş verir. SSRİ-nin dağılması ilə Rusiya kimi inkişaf etmiş nəhəng bir ölkədə dərhal milli iqtisadiyyat quruculuğuna başlanılmışdır.

Ona görə də müasir dövrdə milli iqtisadiyyatın elmi cəhətdən araşdırılması Rusiya iqtisadi ədəbiyyatında da özünə geniş yer tapmışdır. Belə ki, M.K. Bunkina milli iqtisadiyyatı ən sadə şəkildə məhdud ərazidə iqtisadi həyatın spesifik milli formada təşkili kimi müəyyənləşdirsə də, onu kifayət dərəcədə mürəkkəb orqanizmi kimi araşdırır. (29.s.14) Əsasən milli iqtisadiyyatın üç amili bir-birindən fərqləndirilir. İlkin kimi milli iqtisadiyyatın iqtisadi əsası mülkiyyət münasibətləri götürülür, ölkənin təsərrüfat sisteminin fəaliyyət göstərdiyi və inkişaf etdiyi iqtisadi şərait milli iqtisadiyyatın iqtisadi zəmini kimi çıxış edir. Ölkənin təsərrüfat sisteminin fəaliyyət göstərdiyi milli iqtisadiyyat siyasi sistem, hakimiyyətin formasını müəyyənləşdirir.

Bununla yanaşı, bir qrup iqtisadçıların fikrincə milli iqtisadiyatın təşkilatı əsası dövlət tərəfindən idarə olunan mürəkkəb obyekt kimi fəaliyyət göstərən və inkişaf edən milli təsərrüfat sistemidir. (98 s.14-20)

downloaded from KitabYurdu.org

Çox ehtimal ki, keçmiş sovet məkanındakı milli iqtisadiyyat tədqiqatçıları təbii-tarixi inkişaf yolundan sapdırılmış ölkələrin xüsusiyyətlərini nəzərə almaqla elmi araşdırmalar aparmışlar. Kapitalizmin qanunauyğun nəticəsi kimi meydana gələn milli iqtisadiyyat inkişaf etmiş ölkələrdə daha fərqli xüsusiyyətlərə malik olurlar. Sağlam sivilizasiyalı milli iqtisadiyyat kifayət dərəcədə inkişaf etmiş müstəqil dövlətlər üçün səciyyəvidir. Bu qrup ölkələr (Almaniya, Fransa, İngiltərə, ABŞ, Yaponiya və onlarla başqaları) kifayət qədər uzun müddət müstəqil olsalar da, sözsüz ki, müasir sivilizasiyalı müstəqil milli iqtisadiyyatı birdən-birə qurmamışlar. Sivilizasiyalı müstəqil milli iqtisadiyyat qurmuş ölkələr arasındakı iqtisadi münasibətlər bərabərhüquqluluq və qarşılıqlı fayda prinsipi əsasında həyata keçirilir. Bu proses qlobal xarakterli olduğundan heç bir ölkə digərinə öz iradəsini zorla qəbul etdirə bilməz. Hər bir ölkə beynəlxalq əmək bölgüsünün üstünlüklərindən maksimum dərəcədə öz milli iqtisadiyyatının inkişaf üçün istifadə etməyə çalışır.

Uzun müddət böyük bir qrup ölkələrin iqtisadiyyatı «müstəmləkə xarakterli milli iqtisadiyyat» kimi səciyyələnmişdir. XIX əsrin sonu, XX əsrin əvvəlləri üçün dünya ərazisi qabaqcıl kapitalist ölkələri tərəfindən bölüşdürülüb qurtarmışdır. Dünya iki hissəyə: metropoliya və müstəmləkə ölkələrinə parçalanmışdır.

Metropoliyalarda sivilizasiyalı müstəqil milli iqtisadiyyat formalaşdırıldığı halda müstəmləkə ölkələrinin iqtisadiyyatı siyasi və iqtisadi cəhətdən tam asılı vəziyyətə düşmüşdür.

«Müstəmləkə xarakterli milli iqtisadiyyat» aşağıdakı cəhətləri ilə səciyyələnir:

1. Ölkə iqtisadi və siyasi cəhətdən asılıdır. Bir ölkənin ərazisi digər ölkə tərəfindən işğal edilib. Ölkədə hakimiyyət dairələri xarici ölkənin (Metropoliyanın) iradəsini ifadə etdiyindən ölkə müstəmləkəçi ölkənin qanunları ilə idarə edilir.

2. Ölkə iqtisadi cəhətdən asılı olduğundan iqtisadiyyat bir-

downloaded from KitabYurdu.org

tərəfli inkişaf etdirilir. Müstəmləkə ölkələrinin iqtisadiyyatı xammal bazası olmaq etibarı ilə müstəmləkəçi ölkələrin iqtisadiyyatının əlavəsinə çevrilir. Ölkə iqtisadiyyatı çox bəsit quruluşa malik olur. Sənaye nisbətən zəif inkişaf edir.

3. Müstəmləkə ölkələrinin təbii sərvətləri müstəmləkəçilər tərəfindən insafsızcasına qarət edilir. Əhalinin güzaranı acınacaqlı dərəcədə pis olur. Dünya miqyasında aclıq və yoxsulluğun çox hissəsi bu ölkələrin payına düşürdü.

4. Bu ölkələrin iqtisadiyyatı xarici kapitalın maraqlarına uyğun gəldiyi dərəcədə inkişaf etdirilirdi. Ölkədə milli burjuaziyanın maraqları xarici kapitalın maraqları ilə ziddiyyət təşkil etdiyindən iqtisadiyyatın tam gücü ilə işləməsinə nail olmaq mümkün deyildir.

5. Xarici kapitalın maraqları resurslardan intensiv istifadəni şərtləndirdiyindən iqtisadiyyatın müəyyən sahələrində nisbətən mütərəqqi texnologiya tətbiq edilirdi. Həmin ölkələrin müstəqillik əldə etdiyi dövrdə mövcud mütərəqqi texnologiya iqtisadiyyatın yenidən qurulmasında əsas rol oynamışdır.

XX əsrin əvvəllərindən dünya müstəmləkə sistemi dağılmağa başladı. Milli mübarizə nəticəsində əksər ölkələr siyasi müstəqillik əldə etdilər. XX əsrin 60-cı illərində müstəmləkə sisteminin demək olar ki, dağılması başa çatmış və yeni milli dövlətlər yaranmışdır. Bu qrup ölkələr siyasi müstəqillik əldə etsələr də, uzun müddət iqtisadi cəhətdən inkişaf etmiş ölkələrdən asılı qaldıqlarına görə müəyyən müddət sivilizasiyalı müstəqil milli iqtisadiyyat qura bilmirlər. İnkişaf etmiş ölkələr çalışırlar ki, müstəmləkəçilikdən azad olmuş ölkələr onların iqtisadi və siyasi nüfuz dairəsindən kənarda qalmasın. Müstəmləkəçilikdən yeni azad olmuş milli respublikalarda da iqtisadiyyat inkişaf etmiş ölkələrin iqtisadi təsiri altında formalaşan «yarımmüstəmləkə xarakterli milli iqtisadiyyat» kimi səciyyələnir.

Svilizasiyalı müstəqil milli iqtisadiyyatın formalaşdırılması bir sıra siyasi, iqtisadi, sosial şərtlərin mövcudluğu şə-

downloaded from KitabYurdu.org

raitində mümkündür. Təbii ki, göstərilən şərtlər də bütövlükdə dünya birliyi ölkələrinin, o cümlədən də sivilizasiyalı müstəqil milli iqtisadiyyat quran ölkələrin mövcud iqtisadi inkişaf səviyyəsindən çox asılıdır.

1. Hər şeydən əvvəl ölkə siyasi cəhətdən müstəqil olmalıdır. Siyasi cəhətdən müstəqil olmayan dövlət müstəqil milli iqtisadiyyatın qurulması üçün zəruri olan bütün komponentləri hərəkətə gətirmək imkanından məhrum olduqları üçün sözün əsl mənasında müstəqil milli iqtisadiyyat yarada bilməzlər. Siyasi müstəqillik svilizasiyalı mustəqil milli iqtisadiyyatın formalaşdırılmasının yeganə şərti olmasa da əsas şərtidir. Dünya ölkələrinin tarixi təcrübəsi göstərir ki, svilizasiyalı müstəqil milli iqtisadiyyat tarixən siyasi cəhətdən müstəqil olan dövlətlərdə (İngiltərə, Fransa, Almaniya və s.) ya da siyasi müstəqillik əldə edildikdən sonra (məsələn, ABŞ) formalaşdırılmışdır.

2. Sivilizasiyalı müstəqil milli iqtisadiyyatın qurulmasının mühüm şərtlərindən biri də ölkə daxilində əmək bölgüsünün kifayət dərəcədə əhatəli olmasıdır. Əmək bölgüsünün kifayət dərəcədə inkişafı iqtisadiyyatın səmərəli quruluşunun da mühüm şərtidir. İqtisadiyyatın səmərəli quruluşunun formalaşdığı şəraitdə ölkə miqyasında resurslardan istifadənin keyfiyyəti də yüksək olur.

3. Sivilizasiyalı müstəqil milli iqtisadiyyatın formalaşdırılmasında bazar mühitinin mövcudluğu heç də az əhəmiyyətli rol oynamır. Cəmiyyət bazar münasibətlərinin üstünlüklərindən istifadə edərək bütövlükdə iqtisadi artıma nail olur. Ölkə dünya təsərrüfat sisteminin bərabərhüquqlu bir üzvünə çevrilir. İqtisadi inkişafın nəticələri daha çox ümumxalq maraqlarının ödənilməsinə şərait yaradır. İqtisadi inkişafın milli maraqlara uyğunluğu təmin olunur.

4.Siyasi müstəqillik şəraitində dövlətin daxili və xaricdən cəlb olunması mümkün olan resursların milli iqtisadiyyatın formalaşdırılması tələblərinə uyğunlaşdıra bilməsi

downloaded from KitabYurdu.org

bacarıq və qabiliyyəti də svilizasiyalı müstəqil milli iqtisadiyyatın formalaşdırılmasında diqqət mərkəzində saxlanılmalı problemlərdəndir.

SSRİ-nin süqutu milli respublikalarda müstəqil iqtisadiyyatın formalaşmasının əsasını qoydu(18). Keçmiş ittifaq respublikaları SSR İttifaqına müxtəlif iqtisadi inkişaf səviyyələrində daxil olmuşlar, 70 ilə yaxın bir dövrdə birlikdə olmalarına baxmayaraq, iqtisadi inkişaflarında kifayət dərəcədə uyğunluqla yanaşı onlar bir-birindən bir sıra əsaslı göstəricilərə görə köklü şəkildə fərqlənirdilər. Bu fərqlilik qabarıq şəkildə əmək haqqının səviyyəsində, mərkəzi dövlət büdcəsindən ayrılan vəsaitin məbləğində, dövlət büdcəsinin formalaşdırılmasında ayrı-ayrı respublikaların payında aşkar təzahür edirdi. Baxmayaraq ki, Azərbaycan ittifaq dövlətindən dotasiya almayan üç respublikadan (RSFSR və Ukrayna) biri idi, o büdcədən əksər respublikalarla müqayisədə az vəsait alırdı (məsələn nəyə görəsə Azərbaycan büdcədən Gürcüstana nisbətən az vəsait almışdır) və əmək haqqının səviyyəsinə görə respublikalar arasında axırıncı yerlərdən birini tuturdu. Bu, hər şeydən əvvəl, müttəfiq respublikaların iqtisadi inkişafında ittifaq dövləti tərəfindən balanslaşdırılmamış siyasətin yeridilməsinin və milli maraqların gözlənilməməsinin nəticəsi idi. Bəzi respublikalarda sənaye müəssisələrinin çox cüzi bir hissəsi (Ermənistanda 7%-i) ittifaq tabeliyində olduğu halda bizim respublikamızın sənaye müəssisələrinin 90%-dən çoxu ittifaq tabeliyində olmuşdur. SSRİ dövründə onun ərazisi daxilində mövcud bütün resurslar ittifaq dövlətinin mülkiyyəti elan olunmuşdur. Müttəfiq respublikaların formal olaraq ərazi sərhədləri məlum olsa da heç bir respublika bu sərhədlər daxilində mövcud resurslardan sərbəst istifadə imkanı və hüququna malik deyildir. SSRİ miqyasında nəhəng bir xalq təsərrüfatı kompleksi fəaliyyət göstərirdi ki, hər bir milli respublikanın iqtisadiyyatı bu kompleksin elementi kimi çıxış edirdi. Milli respublikaların iqtisadiyyatı inzibati qaydada SSRİ xalq

downloaded from KitabYurdu.org

təsərrüfatı kompleksinin səmərəli fəaliyyətinin təmin edilməsinə cəlb edilmişdir. Bu isə istər istəməz respublikalarının iqtisadiyyatının eybəcər quruluşunun formalaşmasına gətirib çıxarırdı. Milli respublikalarda ittifaq dövlətinin mənafeyinə uyğun gələn sahələr inkişaf etdirilir, milli maraqlar diqqət mərkəzindən kənarda qalırdı. Bakı və Sumqayıt kimi əhalinin cəmləşdiyi iri sənaye mərkəzlərində böyük kimya sənaye müəssisələri kompleksinin yerləşdirilməsi heç bir sağlam məntiqə sığmırdı. Bəlkə də bu kimya kompleksindən Azərbaycana çatan gəlir (işçilərin əmək haqqı) onun təbiətinə və insanlarının sağlamlığına vurulan ziyandan dəfələrlə az idi. Yaxud mərkəzi dövlət tərəfindən neftin daşınıb aparılması və bu neftdən gələn gəlirin cüzi bir hissəsinin Azərbaycana qaytarılması (büdcə vasitəsi ilə) vəsaitin çatışmaması üzündən Abşeron torpağının sıradan çıxmasına, şoranlaşmasına gətirib çıxarmışdır.

Milli respublikalarda mövcud sərhədlər daxilindəki resursların respublikaların iqtisadi inkişafına istiqamətlənməməsi üzündən milli resurslardan istifadədə qeyri-səmərəliliyə yol verilmişdir. Bu israfçılığın nəticəsində digər respublikalarda olduğu kimi Azərbaycanda da təbii coğrafi şəraitdən irəli gələn ənənəvi sahələrdə istehsalın səviyyəsi kəskin şəkildə aşağı düşmüşdür. SSRİ-nin süqutu ərəfəsindən başlayan bu aşağı enmə meyli neft sənayesini, pambıq və tütün istehsalını, ipəkçiliyi və s. sahələri geniş əhatə edərək iqtisadiyyatımızda kəskin böhranlı bir vəziyyət yaratmışdır. İqtisadiyyatımızın bu və ya digər sahələri sadalanan istehsal sahələri ilə sıx bağlı olduqlarından böhranın təsirindən özlərini qoruya bilməmişlər. İqtisadiyyatın strateji məqsədi olan əhalinin güzəranı daha da pisləşmişdir. Doğrudur, SSRİ-yə daxil olan indiki, müstəqil ölkələrdə onların iqtisadi asılılığı klassik müstəmləkəçilikdən və yeni müstəmləkəçilikdən kifayət dərəcədə fərqli formada baş vermişdi. Hətta bəzi iqtisadi alət və siyasi amilləri nəzərə alsaq bu ölkələrin iqtisadiyyatını nisbi

downloaded from KitabYurdu.org

müstəqil milli iqtisadiyyat da adlandırmaq olar. İttifaqa daxil olan hər bir respublika ittifaq büdcəsinə ödədiyi vəsaitin bir qismini geri almaq imkanına malik idi. Siyasi hakimiyyət tamamilə başqa bir dövlətə deyil, bu respublikaların birgə dövlət qurumuna məxsus idi. Digər tərəfdən də, dünyanın müasir inkişafı qloballaşma «bayrağı altında» getdiyindən qloballaşan dünyada milli iqtisadiyyatların xüsusi problemləri yaranır (115.s.55).

Beləliklə, Azərbaycan milli iqtisadiyyatının formalaşdırılmasına belə bir vəziyyətdə gəlib çıxmışdır. SSRİ-nin mövcudluğu dövründə Azərbaycan iqtisadiyyatı «milli iqtisadiyyatın» heç bir təsnifatına uyğun gəlmirdi. Azərbaycanın özünün müstəqil olmadığı şəraitdə sözsüz ki, svilizasiyalı müstəqil milli iqtisadiyyatdan söhbət gedə bilməzdi. Digər tərəfdən isə Azərbaycan iqtisadiyyatı nə klassik müstəmləkəçilik, nə də yeni müstəmləkəçilik şəklində mövcud olmadığından onun iqtisadiyyatını sırf «müstəmləkə xarakterli milli iqtisadiyyat», yaxud da «yarımmüstəmləkə xarakterli milli iqtisadiyyat» da adlandırmaq düzgün olmazdı. Müstəmləkə və yarımmüstəmləkə xarakterli milli iqtisadiyyatlar üçün bir ölkənin sərvətinin tamamilə başqa bir ölkənin — metropoliyanın (məsələn, Hindistanın sərvətindən İngiltərinin iqtisadi inkişafında istifadəsi) iqtisadi inkişafına cəlb olunması səciyyəvi olduğu halda Azərbaycanın sərvəti tamamilə ölkə hüdudlarından kənarda olan başqa bir ölkə tərəfindən deyil, özü də tərkibində olduğu bir dövlət — mərkəzi dövlət tərəfindən səfərbər olunurdu. Mərkəzi dövlət tərəfindən cəlb olunan sərvətin müəyyən hissəsi isə bütövlükdə müdafiyə qabiliyyətinin təmin edilməsinə, (o cümlədən də Azərbaycanın) əhalinin güzəranının nisbətən yaxşılaşdırılmasına sərf edildiyindən mərkəzi dövlətin müstəmləkə xarakteri o qədər də qabarıq təzahür etmirdi. Ona görə də Azərbaycan iqtisadiyyatını iqtisadi ədəbiyyatda özünə o qədər də geniş yer tapmamış «nisbi müstəqil milli iqtisadiyyat» kimi səciyyələndirmək fik-

downloaded from KitabYurdu.org

rimizcə daha doğru olardı. Bu «nisbi müstəqillik» hər şeydən əvvəl SSRİ-nin dövlət quruluşundan irəli gəlirdi. Formal da olsa SSRİ-nin konstitusiyasına görə o bərabərhüquqlu dövlətlərin ittifaqı idi. Bu ittifaqa daxil olan milli respublikaların iqtisadiyyatı bütün ölkə əhalisinin nisbi bərabər həyat səviyyəsinin təmin edilməsinə yönəldilmişdir. «Müstəmləkə və yarımmüstəmləkə xarakterli milli iqtisadiyyat» ölkələrində isə əhalinin həyat səviyyəsi onların asılı olduqları ölkələrin əhalisinin həyat səviyyəsindən müqayisəolunmaz dərəcədə aşağıdır.

SSRİ-nin dağılması ilə Azərbaycanda formalaşan milli iqtisadiyyatın tədqiqatçıları hesab edirlər ki, «Azərbaycanda müstəqil milli iqtisadiyyatın formalaşmasının qanunauyğunluqları, xüsusiyyətləri və problemlərinin nəzəri səpkidə tədqiqi iqtisadi proseslərə tarixi səpkidə, məntiqi ardıcıllıqla yanaşılmasını tələb edir.

Azərbaycan Respublikası siyasi müstəqilliyinin ilk günündən başlayaraq müstəqil-milli iqtisadiyyat yaratmaq məqsədi ilə bir sıra hüquqi aktlar qəbul etdi. Bu hüquqi aktlardan «Azərbaycan Respublikasının iqtisadi müstəqilliyinin əsasları haqqında Azərbaycan Respublikasının Konstitusiya Qanunu», «Mülkiyyət haqqında» Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikasının Konstitusiyası və bir sıra iqtisadi münasibətləri tənzimləyən digər hüquqi aktlar ölkəmizdə müstəqil- milli iqtisadiyyatın formalaşdırılmasında müstəsna rola malikdirlər. Bu hüquqi aktlara əsasən ölkə ərazisinin hüdudları daxilində torpaq, yerin təki, daxili sular və ərazi suları, qitə şelfi, bitkilər və heyvanlar aləmi, hava hövzəsi Azərbaycan Respublikasının müstəsna mülkiyyəti elan edildi. Bundan sonra isə Azərbaycan Respublikasının qarşısında duran ən məsuliyyətli vəzifə mülkiyyət üzərindəki müstəsna səlahiyyətlərindən istifadə edərək müstəqil milli iqtisadiyyatın formalaşdırılması vəzifəsinin yerinə yetirilməsidir. Müstəqil milli iqtisadiyyatın formalaşdırılması hər şeydən əvvəl iqtisadiyyatda köklü islahatlar aparılmasını zəruri edir. Bu islahat-

downloaded from KitabYurdu.org

ların əsas istiqamətlərindən biri müstəqil milli iqtisadiyyatın tələblərinə uyğun gələn iqtisadiyyatın səmərəli quruluşunun formalaşdırılması olmalıdır. İqtisadiyyatın quruluşu maksimum dərəcədə resurslardan istifadənin səmərəli sistemini yaratmaqla milli maraqların ödənilməsinə xidmət etməlidir. SSRİ-nin mövcudluğu dövründə dövlətin mərkəzləşdirilmiş sərt iqtisadi siyasəti Azərbaycan iqtisadiyyatının quruluşunu da deformasiyaya uğratmışdır. Respublika əhalisinin zəruri yaşayış vasitələrinə olan tələbi (çörək, ət, süd, yağ və s.) əsasən idxal hesabına ödənilmişdir. Müstəqilliyimizin ilk illərində bu cür iqtisadi siyasətin nəticəsi olaraq ərzaqla təchizat sahəsində son dərəcə kəskin problemlər yaranmışdır. Hətta bu problemlər yenicə bərpa edilmiş müstəqilliyi təhlükə altında qoymaq həddinə gəlib çatmışdır. Müstəqilliyimizi istəməyən qüvvələr müxtəlif yollardan istifadə edərək ölkəmizi yenidən öz təsiri altına salmağa çalışırdı. Yalnız çevik struktur siyasəti yeritməklə, ölkəmizdə hər cür əlverişli şəraiti olan zəruri yaşayış vasitələri istehsal edən sahələri dirçəltmək yaranmış bu təhlükədən qurtarmaq mümkün idi.

Bu məqsədlə dövlət səviyyəsində qəbul edilən «Sahibkarlığın inkişafının öncül istiqamətləri» proqramı ərzaq məhsulları istehsalını prioritet istiqamət elan etdi. Bu siyasətin nəticəsi olaraq qeyd etmək lazımdır ki, ərzaq problemi qısa bir müddətdə nəzərə çarpacaq dərəcədə yumşaldılmışdır. Çörəyə, ət və süd məhsullarına olan tələbin əhəmiyyətli hissəsi milli istehsal hesabına ödənilməyə başlandı. Zəruri yaşayış vasitələri istehsalının ölkə daxilində dirçəldilməsi onların qiymətlərinin də aşağı düşməsinə səbəb olmuşdur (məsələn, unun qiyməti 90-cı ilin əvvəlləri ilə müqayisədə 2 dəfə aşağı düşmüşdür).

Bu gün Azərbaycan iqtisadiyyatının səmərəli quruluşunun formalaşmasına təsir göstərən başlıca amillərdən biri də dövlət mülkiyyətinin özəlləşdirilməsidir. Dövlət müəssisələrinin özəlləşdirilməsi bazar iqtisadiyyatının tələblərinə uyğun çevik fəaliyyət göstərən müəssisələr şəbəkəsi yaratmaqdadır. Bu sərbəst fəaliyyət göstərmək imkanına malik

downloaded from KitabYurdu.org

olan müəssisələr isə formalaşmaq mərhələsində olan müstəqil milli iqtisadiyyatımızın formalaşmasının digər şərtləri ilə yanaşı daha çox bu ilkin həlqələrin, özəl bölmənin inkişafından asılıdır. Təsərrüfat subyektlərinin iqtisadi dirçəlişi istər-istəməz bütövlükdə iqtisadi inkişafa, iqtisadiyyatın sağlamlaşmasına gətirib çıxarır. Həm də özəlləşən müəssisələrin müəyyən müddətdən sonra öz profilini dəyişə bilməsi imkanı iqtisadiyyatın quruluşunu təkmilləşdirməklə, bütövlükdə iqtisadiyyatın daha çox ümummilli maraqlara uyğun tələbatın ödənilməsinə yönəldilməsinə şərait yaradır. Sosializm dövründə bizdə belə bir təsəvvür yaranmışdı ki, istehsal vasitələri üzərində mülkiyyət münasibətlərində nisbi bərabərlik sosial ədalətin əsasını təşkil edir. Lakin yaddan çıxarırdıq ki, istehsal vasitələrinə bu cür münasibət bölgüdə doğrudan da zəhmətkeşlərin maddi rifahının yüksəldilməsinə şərait yaratmırdısa, deməli o, öz qarşısında duran vəzifənin öhdəsindən gələ bilmirdi. Ona görə də bu gün istehsal vasitələrinə münasibəti köklü surətdə dəyişməklə, istehsal vasitələrini çevik hərəkətə gətirmək qabiliyyətinə malik olan sahibinə verməklə (özəlləşdirmə yolu ilə) bütövlükdə iqtisadiyyatın işlək mexanizmini yaratmaq mümkün olmuşdur. Sahibkarların iqtisadi imkanları fərqli olduğundan iqtisadi inkişafın mövcud səviyyəsinə uyğun gələn sahibkarlığın təşkilati, hüquqi formaları da yaranır. Birinci özəlləşdirmə proqramına uyğun olaraq ilkin mərhələdə əsasan, kiçik və orta müəssisələrin özəlləşdirilməsi üstünlük təşkil edirdi. Ona görə də, Azərbaycanda müstəqil milli iqtisadiyyatın formalaşması göstərilən sinqulyar xarakterli müəssisələrin inkişafına əlverişli şərait yaradılmasından çox asılıdır.

Məlumdur ki, sivilizasiyalı müstəqil milli iqtisadiyyat sənayenin yüksək inkişafı ilə səciyyələnir. Çox məhdud miqdarda inkişaf etmiş ölkələr (ABŞ, Yaponiya, Almaniya, Fransa, İngiltərə və s.) dünya sənaye məhsulunun yarıdan çoxunu istehsal edirlər. Onların sivilizasiyalı bir iqtisadiyyat qurmasında sənayenin inkişaf etdirilməsi əvəzsiz rol oyna-

downloaded from KitabYurdu.org

mışdır. Doğrudur, Azərbaycan hələ SSRİ-nin tərkibində olduğu dövrdə də sənaye cəhətdən kifayət dərəcədə inkişaf etmişdir. Öz dövrünə görə Azərbaycan neft sənayesi, neft maşınqayırması, neft-kimya sənayesi, boru prokat və s. sahələr inkişaf etmiş sahələrdən hesab olunurdu. Lakin bu sahələr Azərbaycan iqtisadiyyatının tələblərindən daha çox ittifaq dövlətinin maraqlarına uyğun gəlirdi. Odur ki, ittifaq dövlətinin dağılması ilə bu müəssisələrin əksəriyyəti iflic vəziyyətinə düşdü. Ona görə də bu gün Azərbaycanın qarşısında duran mühüm vəzifələrdən biri də dünya təcrübəsindən istifadə edərək milli maraqlara daha çox uyğun gələn müasir sənaye sahələrinin inkişaf etdirilməsidir. Doğrudur, yeni, müasir sənaye sahələrinin inkişaf etdirilməsi kifayət qədər kapital qoyuluşu tələb edir. Azərbaycanın isə imkanları məhduddur. Bu isə hakimiyyət orqanlarından daha çevik, daha təşəbbüskar olmağı tələb edir. Bu təşəbbüskarlıq hər şeydən əvvəl öz əksini ölkə iqtisadiyyatına xarici kapitalın cəlb edilməsi məharətində tapmalıdır. Xarici sərmayənin kapitalcəlbedici sahələrə stimullaşdırmaqla həm bütövlükdə iqtisadiyyatın dirçəldilməsi, həm də müasir istehsal infrastrukturu yaratmaq mümkündür. Xarici kapitalın maraqlarının ödənilməsi isə milli mənafelərimizlə ziddiyyət təşkil etməməlidir. Bu mənafelərin maksimum dərəcədə uzlaşdırıldığı şəraitdə qarşılıqlı fayda götürmək mümkündür. Əks təqdirdə iqtisadiyyatımız xarici kapitalın təsiri altına düşə bilər. Həm də xarici kapital ölkə sənayesinin inkişaf etdirilməsinin yeganə investisiya mənbəyi deyildir. Burada daxili mənbələrinin səfərbər edilməsi əlverişli investisiya mühitinin formalaşdırılması da əhəmiyyətli rol oynaya bilər. Əlverişli investisiya mühitinin formalaşdırılması ölkəmizin imkanlı adamlarını təkcə ticarətə deyil, həm də sənayeyə kapital qoymağa maraqlandırır.

Müstəqil milli iqtisadiyyat qurmaq proqramının mühüm tərkib hissələrindən biri də aqrar bölmənin inkişaf etdirilməsi olmalıdır. Nəzərə alsaq ki, sabitlik dövründə Azərbaycanda

downloaded from KitabYurdu.org

istehsal olunan milli gəlirin 30%-dən çoxu kənd təsərrüfatı istehsalının payına düşürdü, onda məlum olar ki, respublikamızda aqrar bölmənin inkişaf etdirilməsi nə dərəcədə əhəmiyyətli rola malikdir. Azərbaycan SSR-də kənd təsərrüfatı məhsulları istehsalının böyük xüsusi çəkiyə malik olmasına baxmayaraq, əksər məhsullar (pambıq, tütün, yun və s.) xammal şəklində ixrac olunduğundan respublika iqtisadiyyatına külli miqdarda ziyan dəyirdi. Milli iqtisadiyyatın formalaşdırılması isə tələb edir ki, səmərəli fəaliyyət göstərən emal müəssisələri şəbəkəsi yaratmaqla istehsal hazır məhsul fazasına qədər davam etdirilsin. İnkişaf etmiş ölkələrin iqtisadiyyatı üçün məhsulların son istehlak halına salınmasına qədər davam etdirilməsi səciyyəvidir. Hazır məhsul ölkədə bitmiş texnologiyanı səciyyələndirməklə yanaşı iqtisadiyyat üçün xammala nisbətən daha çox gəlir gətirmək imkanına malikdir. Artıq ölkəmizdə aparılan aqrar islahatlar bu bölmədə əsaslı dəyişikliklər etməklə onu milli iqtisadiyyatımızın formalaşdırılmasının əsas mənbələrindən birinə çevirmişdir.

Məlumdur ki, mütləq mənada müstəqillik yoxdur. Heç bir ölkə, hətta təbii sərvət baxımından zəngin olsa belə, dünya ölkələrindən təcrid olunmuş şəkildə fəaliyyət göstərmir. Əksinə, ölkələr daha çox inkişaf etdikcə onların xarici aləmlə inteqrasiyası da güclənir. Ona görə də hər bir ölkə xarici iqtisadi əlaqələrində balanslaşdırılmış iqtisadi siyasətə əsaslanmalıdır. Balanslaşdırılmış xarici iqtisadi siyasət beynəlxalq iqtisadi inteqrasiyanın üstünlüklərindən istifadə əsasında müstəqil milli iqtisadiyyatın formalaşdırılmasının real alətinə çevrilməlidir.

SSRİ dövründə xarici iqtisadi fəaliyyət mərkəzi dövlət tərəfindən həyata keçirildiyindən respublikamızda bu sahədə kifayət dərəcədə təcrübə yox idi. Ona görə də xarici iqtisadi fəaliyyət xatirinə xarici ölkələrlə iqtisadi münasibətə girmək səhv olardı. Həm də inkişaf etmiş ölkələr yeni müstəqillik əldə etmiş postsovet məkanındakı respublikalara daha çox xammal bazası və ucuz işçi qüvvəsi bazarı kimi baxdıqlarından

downloaded from KitabYurdu.org

heç də çox böyük həvəslə bu ölkələrlə bərabər hüquqlu əsasda iqtisadi münasibətə girmək istəmirlər. Ona görə də yeni müstəqillik əldə etmiş ölkələrdə siyasi hakimiyyət mövcud şəraiti real qiymətləndirməklə xarici iqtisadi əlaqələrini «bərabər hüquqluluq və qarşılıqlı fayda» prinsipi əsasında qurmağa çalışmalıdır, heç bir ölkənin onun daxili işinə qarışmasına imkan verməməlidir.

Siyasi müstəqilliyin uzun müddət saxlanılması iqtisadi müstəqilliksiz mümkün olmadığından siyasi hakimiyyətin iqtisadi islahatlar proqramı ölkə iqtisadiyyatını dünya ölkələrinin iqtisadiyyatına uyğunlaşdırmağa yönəldilməlidir. Bu iqtisadi islahatlar proqramının mühüm tərkib hissələrindən biri isə ölkənin iqtisadi inkişafının təmin edilməsidir. Müstəqil milli iqtisadiyyat yaratmaq istəyən hər bir ölkə iqtisadi islahatlar vasitəsi ilə ölkənin iqtisadi inkişafını stimullaşdırmalıdır. Ölkənin təbii sərvətləri, resursları, elmi-texniki potensialı bütövlükdə milli iqtisadiyyatın formalaşdırılmasına yönəldilir. Resurslardan səmərəli istifadə və onların artırılması sistemini yaratmadan sağlam sosial yönümlü bazar iqtisadiyyatının Azərbaycan milli modelini yaratmaq mümkün deyildir. Məlumdur ki, Azərbaycan kifayət dərəcədə zəngin təbii ehtiyatlara və kifayət dərəcədə əmək ehtiyatlarına (əhalinin 55%-ə yaxını, yəni 4,7 milyonu əmək qabiliyyətlidir) malikdir. Lakin mövcud texnologiyanın aşağı səviyyəsi təbii və əmək resurslarından səmərəli istifadə etməyə imkan vermir. Müasir elmi-texniki və texnoloji yeniliklərdən istifadə etmədən iqtisadi inkişafın maddi təminatı olan ümumi milli məhsulu, ümumi daxili məhsulu artırmaq o qədər də asan deyil. Milli iqtisadiyyatın inkişafını səciyyələndirən əsas iqtisadi göstəricilərdən biri olan ÜDM-in Azərbaycanda adambaşına düşən hissəsi inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrlə müqayisədə 3 dəfədən də çox aşağıdır. Bu qrup ölkələrdə adambaşına düşən ÜDM 6 min dollar təşkil etdiyi halda Azərbaycanda bu rəqəm 1800-2000 dollar təşkil edir.

downloaded from KitabYurdu.org

Təbii ki, iqtisadi potensialın nisbətən zəif hərəkətə gətirildiyi şəraitdə iqtisadi inkişafı təmin etmək o qədər də asan deyil. Sivilizasiyalı müstəqil milli iqtisadiyyatın yaradılması isə iqtisadi inkişafın təmin edilməsindən çox asılıdır.

Qeyd etmək lazımdır ki, təkcə Azərbaycanda deyil, keçmiş SSRİ məkanında mövcud olan indiki müstəqil dövlətlər eyni zamanda müstəqil milli iqtisadiyyat yaratmaq problemi ilə qarşılaşmışlar. Bu ölkələrin iqtisadi inkişafında mövcud olan ümumilik və fərqlilik bu ölkələrdə «milli iqtisadiyyatın» formalaşmasına öz təsirini göstərməyə bilməz. Belə ki, digər ölkələr kimi Azərbaycan Respublikası da ümumi qanunauyğunluqlarla yanaşı real gerçəklikdən irəli gələn xüsusiyyətləri nəzərə almaya bilməz. Təkcə onu qeyd etmək lazımdır ki, ölkənin müharibə vəziyyətində olması, resursların bir qisminin erməni işğalçıları tərəfindən zəbt olunması, müstəqil milli iqtisadiyyatın formalaşdırılması üçün iqtisadi potensialımızı tam hərəkətə gətirməyə imkan vermir.

Müstəqilliyin ilkin illərində Azərbaycana nisbətən sabit sosial iqtisadi şəraitə malik olan Özbəkistan iqtisadi potensialını müstəqil milli iqtisadiyyatının formalaşdırılmasına istiqamətləndirmək imkanı əldə etdi.

Bu ölkədə hazırda struktur siyasətinin əsas istiqaməti kimi zəngin mineral ehtiyatların (əlvan və nəcib metallar, kimya sənayesi və s.) sənaye emalı bazası gücləndirilmiş, xalq istehlakı malları istehsalı yerli istehsal hesabına həyata keçirilir, ekoloji mühit sağlamlaşdırılır. Struktur siyasəti vasitəsi ilə iqtisadiyyatda quruluş dəyişikliklərinə nail olunur. Yeni formalaşan iqtisadiyyat sahələri daha çox milli maraqlara uyğun gəldiyindən müstəqil milli iqtisadiyyyatın formalaşdırılmasının bir amilinə çevrilir. Yeni mütərəqqi sahələr yaranır ki, bunun da vasitəsi ilə ölkə dünya birliyinə inteqrasiya edir.

Bu ölkədə struktur siyasətinin strateji məqsədi rəqabət qabiliyyətli məhsulla dünya bazarına çıxmaq, dönərli valyutanın sabit daxilolmalarına nail olmaqdan ibarətdir. (98. s.35)

downloaded from KitabYurdu.org

MDB ölkələri arasında Qazaxıstan Respublikası da öz spesifikliyi ilə fərqlənir. Bu ölkədə də bütün sahələrin sürətlə, eyni vaxtda bazara keçid (şokterapiyası) konsepsiyasından imtina edildi. Real formalaşan mövcud şərait nəzərə alınmaqla mülkiyyətin müxtəlif formalarının uzlaşdırılması yolu ilə sosial-yönümlü bazara keçid vasitəsilə müstəqil milli iqtisadiyyatın formalaşdırılması strateji məqsəd elan edildi. (104. s.13)

Nisbətən güclü iqtisadi potensiala malik olan Rusiya Federasiyasında keynsçi qanunlara üstünlük verməklə inkişaf etmiş bazarın formalaşdırılması, vergi, pul-kredit alətləri vasitəsilə sənaye istehsalına aktiv təsir göstərməklə sabitləşməyə nail olmaq strukturu siyasətinin əsası kimi müəyyənləşdirilmişdir. Bu dediklərimizdən bir daha aydın olur ki, kifayət dərəcədə güclü iqtisadi potensiala və sabit iqtisadi-ictimai şəraitə malik olan ölkələr üçün belə müstəqil milli iqtisadiyyatın formalaşdırılması asan məsələ deyildir.

Prof. S.S.Drarasov yazır: «Mənim fikrincə, milli iqtisadi inkişafın Azərbaycan modelini seçərkən sabit iqtisadi inkişaf tempinə nail olan ölkələrin (Yaponiya, Cənubi Koreya, ÇXR, Vyetnam) təcrübəsinə və bununla eyni vaxtda sıravi vətəndaşların həyat səviyyəsinin nəzərə çarpacaq dərəcədə yüksəldilməsinin təmin edilməsinə fikir vermək lazımdır» (97, s.18).

Tarixən formalaşmış ölkələrarası iqtisadi əlaqələrin SSRİ-nin dağılması nəticəsində qırılması da müstəqil milli iqtisadiyyatın formalaşmasına əngəl törətmişdir.

İctimai-iqtisadi həyatın bütün sahələrində sistemli islahatların həyata keçirilməsi, ölkələrarası iqtisadi münasibətlərin yeni prinsiplərlə qurulması keçid iqtisadiyyatı ölkələrində, o cümlədən də Azərbaycanda müstəqil milli iqtisadiyyatın formalaşmasının ilkin şərti kimi çıxış edir. Yalnız müstəqil milli iqtisadiyyatın və sivilizasiyalı milli bazarın formalaşması və təşəkkül tapması millətin real mənafelərinə, artan tələbatlarına cavab verə bilər, Azərbaycan dövlətinin iqtisadi qüdrətinin artmasına münasib imkanlar yarada bilər.

downloaded from KitabYurdu.org

Bazar mexanizminin formalaşması şəraitində təşəkkül tapan milli iqtisadiyyat resurslardan israfçılıqla istifadəni aradan qaldırmaqla hər bir ölkə vətəndaşına milli iqtisadi potensialımızdan sosial-iqtisadi problemlərinin həlli üçün əlverişli şərait yaradır. Tədricən səmərəli milli iqtisadiyyat formalaşır. Milli iqtisadiyyatın formalaşmasında göstərilən amillərlə yanaşı keçid dövründə xüsusilə aktuallıq kəsb edən şərtlərdən biri də milli iqtisadiyyatın iqtisadi təhlükəsizliyinin təmin edilməsidir.

## 1.2. Milli iqtisadiyyat konsepsiyasında iqtisadi təhlükəsizlik problemləri

Yeni müstəqillik əldə etmiş ölkələrin milli iqtisadiyyat konsepsiyasının reallaşması əhəmiyyətli dərəcədə iqtisadi təhlükəsizliyin təmin edilməsindən asılıdır.

İqtisadi təhlükəsizlik problemi heç vaxt özü-özünə yaranmamışdır. O, ümumi inkişafın hər bir pilləsində nəzərə çarpan iqtisadi artım şərtləri və istehsalla bu və ya digər formada bağlı şəkildə yaranır, mövcud olur. Konkret olaraq bu problemin tərkib hissəsi müəyyən dövr ərzində xarici və daxili şərtlər ilə əlaqədar olaraq dəyişir.

«İqtisadi təhlükəsizlik» anlayışı konyukturalı xarakter daşımır. Bu anlayış müasir cəmiyyətin həyatına daxil olmuş, bir çox ölkələrin xarici və daxili siyasətlərinin ayrılmaz tərkib hissələrinə çevrilmişdir. Məsələn, ABŞ və digər bir sıra dövlətlər özlərinin milli təhlükəsizlik strategiyalarını hazırlayırlar. İqtisadiyyat özündəyaşayış üçün vacib və əhəmiyyətli olan cəmiyyətin fəaliyyətini özündə birləşdirir. Ona görə də iqtisadi təhlükəsizliyin təmin edilməsi cəmiyyətdə ümumi milli maraqların ödənilməsinə xidmət edir. Əks təqdirdə qrup maraqları bütövlükdə iqtisadi inkişafa mane olan bir amilə çevrilir.

«Milli təhlükəsizlik» anlamı iqtisadi təhlükəsizlikdən sox geniş anlamdır. O, özünün əhatəlilik dərəcəsinə görə geniş spektrə malikdir. Lakin təhlükəsizliyə digər tərəfdən nəzər yetirdikdə onun iqtisadi aspektlərini araşdırmadan keçinmək

downloaded from KitabYurdu.org

olmaz. Ümumi şərtlər və amillər iqtisadi təhlükəsizliyi birinci sıraya çıxarmasa da, müasir cəmiyyət həyatında bu anlayış haqqında sistemli baxışlar formalaşmışdır: birincisi, odur ki, iqtisadi təhlükəsizlik milli maraqların fərdi maraqlardan tam şəkildə ayrılmasına istiqamətlənir. İkincisi, təbii resursların müxtəlifliyi, məhdudluğu ayrı-ayrı ölkələrin bu resurslarla müxtəlif cür təmin olunması, bu resurslardan istifadə etməklə dövlət siyasi mübarizə imkanını və iqtisadiyyatın qurulması imkanını əldə saxlayır. Üçüncüsü, xüsusən bank-maliyyə xidmətləri sferasında rəqabətin rolu yüksəlir.

İqtisadi təhlükəsizlik anlayışını araşdırmazdan əvvəl onun əsas komponentlərini təyin etmək lazımdır. Burada, xüsusi ilə milli dövlət maraqları qeyd edilməlidir. Bu maraqlar həm dövlətin sərhədləri çərçivəsində, həm də bu çərçivədən xaricdə də mövcuddur: dövlət suverenliyinin və müstəqilliyinin qorunması; dövlətin beynəlxalq vəziyyəti, onun beynəlxalq əmək bölgüsündə yeri, dünya ticarətində istehsalın kooperasiyalaşdırılması və ixtisaslaşdırılması, beynəlxalq maliyyə və bank sistemi, zəruri əmtəə və xidmətlər, qiymətli kağızlar bazarı, özünü qoruma və özünü inkişaf etdirmə dövlətin əsas maraqlarıdır.

İqtisadi təhlükəsizliyin mahiyyəti «inkişaf» və «dözümlülük» anlayışları arasındakı əlaqəni də aydınlaşdırmağı şərtləndirir.

İnkişaf - iqtisadi təhlükəsizliyin əsas komponentlərindəndir. Əgər iqtisadiyyat inkişaf etmirsə, onda yaşamaq imkanları aşağı düşəcək, xarici və daxili təhlükələrlə mübarizə aparmaq qabiliyyəti azalacaqdır. Davamlılıq və təhlükəsizlik iqtisadiyyatın vacib və vahid sistemi kimi onun əsas xarakteristikasıdır. Onları qarşı-qarşıya qoymaq lazım deyil, çünki onların hər biri iqtisadiyyatın bügünkü vəziyyətini fərqli xarakterizə edirlər.

İqtisadiyyatın davamlılığı ilk növbədə onun elementlərinə ümid bəslənməsi və möhkəmliliyi, sistem daxilində üfüqi, şaquli və digər əlaqələrin olması, xarici və daxili yükü saxlamaq qabiliyyəti kimi xarakterizə olunur.

downloaded from KitabYurdu.org

Təhlükəsizlik – xarici və daxili təhlükələr şəraitində, həmçinin proqnozlaşdırılmayan və az ehtimal olunan amillərin fəaliyyətini inkişaf və obyektin yaşamaq imkanı nöqteyi-nəzərindən əlaqələr sistemindəki vəziyyətini xarakterizə edir.

Hər bir ölkə, xüsusilə yeni müstəqillik əldə etmiş ölkələr kifayət dərəcədə xarici və daxili təsirə məruz qalırlar. Əgər bu ölkələri xarici və daxili təsir götürdükləri kursdan sapdıra bilmirsə, deməli ölkədə dözümlü iqtisadi münasibətlər sistemi yaradılmışdır. Əks təqdirdə, ölkə öz seçimindən sapdırıla bilər.

İqtisadi sistem nə qədər dözümlü olsa, istehsal ilə maliyyə-bank kapitalı arasındakı əlaqələr geniş olsa, iqtisadiyyat bir o qədər fəaldır, yəni onun təhlükəsizliyinin qiymətləndirilməsi kifayət qədər yüksəkdir. Sistemin komponentləri arasındakı əlaqə və proporsionallıq pozulsa, onda iqtisadiyyat təhlükəsizlik vəziyyətindən təhlükəli vəziyyətə düşür.

İqtisadi təhlükəsizliyin mahiyyətini, iqtisadiyyatın vəziyyəti və hakimiyyət institutları vasitəsilə təyin etmək olar, hansı ki, milli maraqların müdafiəsini təmin etməyə zəmanət verir, siyasəti sosial yönümdə istiqamətləndirir, hətta pis şəraitdə bütün daxili təhlükələrin təhlili göstərir ki, bunlar iqtisadiyyatın bütün vacib sferalarını əhatə etmiş, insanın həyat fəaliyyəti üçün lazım olan fundamental əsaslara toxunmuşdur.

İqtisadi təhlükəsizlik strategiyası və perspektivi keçid şəraitində necə olmalıdır? – Hərdən söyləyirlər ki, keçid şəraitində əsas məsələ – dövlətin və iqtisadiyyatın yaşamasını, fəaliyyət göstərməsini təmin etmək, sonra isə onun sabitləşdirilməsi və inkişaf perspektivlərini öyrənmək lazımdır.

İstehsalın səviyyəsinin aşağı düşməsinin lazım olan həddə çatdığını və sabitləşmənin başladığını heç kim təyin edə bilmir.

Son vaxtlar gözə görünməz qüvvəyə malik olan gələcək inkişafın çıxış nöqtəsini təyin edə bilən «sehirli əl» misalı daha çox hallanır.

«Sehirli əl» müvəqqəti iqtisadi inkişafa əlverişli şərait yaratmaq imkanına malik olsa da bazar münasibətlərini və sa-

downloaded from KitabYurdu.org

hibkarlığı inkişaf etdirmədən iqtisadi inkişafa nail olmaq mümkün deyil.

Həqiqətən də Amerikan iqtisadçısı Leontiyevin fikrincə, bazar və sahibkarlıq sükansız iqtisadiyyatın «yelkənidir». İstehsalın səviyyəsinin aşağı düşməsi sonsuzluğa qədər davam edə bilməz. Müasir dünyada iqtisadiyyatın inkişaf etdirilməsi baxımından dövlət passiv müşahidəçi rolunda çıxış etmir. Dövlət sərəncamında olan bütün iqtisadi alətləri fəal hərəkətə gətirməklə iqtisadi təhlükəsizliyin maddi əsası olan iqtisadi artımı canlandırmağa nail olur.

Dövlətin əsas iqtisadi və milli təhlükəsizlik strategiyası inkişaf ideologiyası ilə əlaqədar olmalıdır. Əgər bazar münasibətləri 15 il ərzində dövləti inkişaf yoluna çıxara bilirsə onda, qloballaşan dünyada bazar vəziyyətinin dərindən analizi bazasında istehsalın artımının əsasları iqtisadi təhlükəsizlik baxımından öyrənilməli və tədqiq olunmalıdır.

Müasir dünyada qloballaşma prosesinin gücləndiyi şəraitdə iqtisadi təhlükəsizliyin təmin edilməsi xüsusi əhəmiyyət kəsb edir. Bütün ölkələr üçün, xüsusilə də yeni müstəqillik əldə etmiş suveren milli respublikalarda iqtisadi təhlükəsizliyin təmin edilməsi ölkənin prioritet məqsədlərindən birinə çevrilir. «Müstəqilliyi qorumaq üçün, müxtəlif xarici təzyiqlərdən, təxribatlardan xilas olmaq üçün gərək Azərbaycanda yaratdığımız sabitliyi qoruyaq, möhkəmləndirək», (41. s.80) deməklə ulu öndər H.Ə.Əliyev müstəqil milli iqtisadiyyatımızda təhlükəsizlik probleminin mühüm əhəmiyyətə malik olduğunu vurğulayırdı. Milli təhlükəsizlik, xüsusi ilə onun mühüm tərkib hissəsi olan iqtisadi təhlükəsizlik konsepsiyası ümummilli H.Əliyevin təkdəl şüuru əsasında formalaşmış, yeni fərdi iqtisadi təfəkkürün məhsulu olub bütövlükdə milli iqtisadiyyat haqqında milli ictimai - iqtisadi dərkin formalaşmasının substansiyasına çevrilmişdir.

İqtisadi təhlükəsizlik, ümumimilli təhlükəsizliyin mühüm tərkib hissəsidir. Milli təhlükəsizlik iqtisadi təhlükəsizlikdən geniş anlayış olub özündə hərbi informasiya, energetika, eko-

downloaded from KitabYurdu.org

logiya və digər təhlükəsizliyi ehtiva edir. Təhlükəsizliyin təmin edilməsi dövlətin başlıca funksiyasıdır. Ümumi milli təhlükəsizlik, xüsusi ilə onun mühüm ünsürü olan iqtisadi təhlükəsizliyin XX əsrin ikinci yarısından başlayaraq bütün ölkələr üçün (böyüklüyündən və kiçikliyindən asılı olmayaraq) xüsusi aktuallıq kəsb etmişdir. Müasir iqtisadi ədəbiyyat əsasən inkişaf etmiş ölkələrin real gerçəkliyini tədqiq edərək iqtisadi təhlükəsizliyin nəzəri-praktiki problemlərini işləyib hazırlamışdır. Təbii ki, inkişaf etmiş ölkələrin iqtisadi təhlükəsizlik konsepsiyası yeni müstəqillik əldə etmiş ölkələr üçün o qədər də işlək mexanizmə malik olmasa da kifayət dərəcədə nəzəri və praktiki əhəmiyyətə malikdir. Ona görə də iqtisadi təhlükəsizliyin ümumi problemlərini araşdırmaq yerinə düşər. İqtisadi təhlükəsizliyin mahiyyəti dövlət, institut və hakimiyyət orqanları tərəfindən milli mənafelərin təminatlı müdafiəsi, sosial yönümlü siyasətin yeridilməsi, hətta daxili və xarici əlverişsiz şəraitin mövcud olduğu dövrdə kifayət dərəcədə müdafiə potensialını təmin etməkdən ibarətdir. Başqa sözlə, iqtisadi təhlükəsizlik təkcə milli maraqların qorunması deyil, dövlət institutlarının milli maraqların reallaşması və müdafiəsi mexanizmini hazırlamalı, milli iqtisadiyyatın inkişafına şərait yaratmalı, cəmiyyətdə sosial-siyasi sabitliyə nail olmalıdır. Bu və ya digər ölkənin iqtisadi inkişaf səviyyəsi iqtisadi təhlükəsizliyin şərtlərinin reallaşma mexanizmini müəyyənləşdirir. İnkişaf etmiş ölkələrdə iqtisadi təhlükəsizliyin sosial yönümlü problemləri xüsusi ilə diqqət mərkəzində olur.

İqtisadi təhlükəsizliyin göstəriciləri sisteminə aşağıdakılar daxildir:

1. Həyat səviyyəsi və keyfiyyəti
2. İnflyasiyanın tempi
3. İşsizlik norması
4. İqtisadi artım
5. Büdcə kəsirliyi
6. Dövlət borcu

downloaded from KitabYurdu.org

7. Dünya iqtisadiyyatına qovuşmaq səviyyəsi
8. Qızıl-valyuta ehtiyatlarının səviyyəsi
9. Gizli iqtisadiyyatın fəaliyyəti miqyası

İqtisadi təhlükəsizliyin təmin edilməsi üçün bu göstəricilərdən çox onların əngəlliyi böyük əhəmiyyətə malikdir. Dünya ölkələri iqtisadi inkişaf səviyyələrinə görə biri-birindən kifayət dərəcədə fərqləndiklərinə görə iqtisadi təhlükəsizliyin göstəriciləri də fərqli formada fəaliyyət göstərir. Məsələn, inkişaf etmiş ölkələrdə iqtisadi inkişafın müasir səviyyəsi üçün gizli iqtisadiyyat, işsizlik, inflyasiya, büdcə kəsirliliyi təhlükəli həddə gəlib çata bilməz. Lakin inkişaf etməkdə olan və yeni müstəqillik əldə etmiş ölkələrdə inflyasiyanın, işsizliyin, büdcə kəsirliliyinin nəzarətdən kənarda qalması, gizli iqtisadiyyatın qarşısının alınmaması bu ölkələrin mövcudluğunu təhlükə altına alar.

İqtisadi təhlükəsizliyin göstəriciləri bu və ya digər ölkələrin iqtisadi inkişaf səviyyəsindən asılı olaraq fərqli şəkildə qarşıya çıxır. Normal iqtisadi inkişaf səviyyəsinə malik ölkələrə nisbətən bazar sisteminə yeni keçən ölkələrin iqtisadi təhlükəsizliyinin təmin edilməsi obyektiv amillərə nisbətən daha çox subyektiv amillərdən asılıdır. Keçid dövrünü yaşayan hər bir ölkənin iqtisadi müstəqilliyinin əsas şərti olan iqtisadi təhlükəsizliyin təmin edilməsi ölkə başçısının təcrübəsindən, səriştəliliyindən və yeri gəldikdə risk etmək qabiliyyətindən çox asılıdır.

Azərbaycan ərazisinə görə dünyanın 110, əhalisinə görə isə 86 ölkəsindən biridir. Dünya bazarının formalaşmasında da əhəmiyyətli rola malik deyil.

SSRİ-nin dağılması ilə qloballaşan dünyada dünya siyasətinin yeni prinsiplərlə formalaşması Azərbaycanı geosiyasi vəziyyətinə görə dünyanın aparıcı ölkələrinin iqtisadi-siyasi maraqlarının toqquşmasının düyün nöqtəsinə çevirməklə respublikamızı dünyanın ən böyük dövlətlərinin nüfuz dairəsinə gətirdi.

SSRİ-nin mövcudluğu dövründə müttəfiq respublikaların təhlükəsizliyinin təmin edilməsini öz üzərinə bir öhdəlik kimi götürən ittifaq dövləti 80-ci illərin ortalarından başlaya-

downloaded from KitabYurdu.org

raq milli respublikalar üçün təhlükə törətməyə başlamışdır. Qazaxıstan, Özbəkistan, Gürcüstan, Pribaltika hadisələri göstərirdi ki, ittifaq öz ömrünü şərəfsizcəsinə başa vurmaqdadır. Belə ki, iqtisadi müstəqillik haqqında qanunun qəbul edilməsi ilə 90%-dən çoxu ittifaq tabeçiliyində olan Azərbaycanın sənaye müəssisələrinin əhəmiyyətli hissəsi ittifaq tabeçiliyindən çıxarılmış və müəssisələr dünya ölkələrinin təsərrüfat subyektləri ilə müstəqil şəkildə əlaqə yaratmaq imkanı əldə etmişlər. Xarici iqtisadi əlaqənin sərbəst bir subyektinə çevirilmək Azərbaycanın müstəqilliyinin ilkin illərindən başlayaraq əhəmiyyətli rol oynamağa başlamışdır. SSRİ-nin dağılması ilə Azərbaycanın dünya xəritəsində geosiyasi vəziyyətinin dəyişməsi nəinki iqtisadi təhlükəsizliyin təmin edilməsi məqsədi ilə, həmçinin siyasi-hərbi təhlükəsizliyin təmin edilməsi məqsədi ilə milli təhlükəsizlik konsepsiyasının qəbul edilməsini zərurətə çevirirdi.

Müstəqilliyin ilkin dövründə keçid iqtisadiyyatı ölkələri üçün iqtisadi təhlükəsizliyin spesifik təzahür forması olan ərzaq qıtlığı ölkəni «ölüm və olum» problemi ilə üz-üzə qoydu. Ərzaq qıtlığının aradan qaldırılması iqtisadi təhlükəsizliyin təmin edilməsinin ən zəruri ünsürünə çevrildi. Dövlət malik olduğu bütün inzibati və iqtisadi alətləri bu problemin həllinə yönəltmək məcburiyyətində qaldı. O, sahibkarlığın inkişafında ərzaq məhsulları istehsal edən sahələrə dövlət qayğısının artırılmasını və ona üstünlük verilməsini diqqət mərkəzinə gətirdi. Həyata keçirilən iqtisadi islahatlar içərisindən zəncirin elə həlqəsini müəyyənləşdirdi ki, nəticədə nəinki ərzaq qıtlığı aradan qaldırıldı, həmçinin digər sahələrin də iqtisadi inkişafına təkan verildi. Məsələn, idarəetmə strukturlarında aparılan islahatlar iqtisadi fəaliyyətin liberallaşdırılmasına gətirib çıxardı. Taxıl məhsulları şirkətinin, məcburi dövlət taxıl tədarükünün ləğvi çox qısa müddətdə ölkəyə taxıl gətirilməsini, taxıl istehsalını nəzərə çarpacaq dərəcədə stimullaşdırdı. Bu gün, hətta mütəxəssislər tərəfindən birmənalı şəkildə qəbul

downloaded from KitabYurdu.org

olunmayan aqrar islahatların müsbət nəticələri qaçılmazdır. On beş il öncə əvvəl əlçatmaz hesab olunan 2 mln. ton taxıl istehsalı reallıqdır. 2007-ci ildə tutumu 500 min ton olan Bakı taxıl terminalının istifadəyə verilməsi çörək problemini Azərbaycan üçün birdəfəlik həll etmişdir. Artıq ət istehsalında da SSRİ dövründəki ən yüksək həddə çatmışıq.

Ölkənin iqtisadi təhlükəsizliyinin formalaşmasının başlıca istiqamətlərindən biri də xarici iqtisadi əlaqələrin səmərəli quruluşunun formalaşmasıdır. Belə ki, ölkənin xammal ixracatçısından tədricən hazır məhsul ixracatçısına çevrilməsi, ölkənin xarici ticarətinin məhdud miqdarda ölkələrdən asılılığının aradan qaldırılması iqtisadi təhlükəsizliyin başlıca problemlərindəndir. Çünki xarici iqtisadi əlaqənin heç bir iştirakçısı Azərbaycanı özünə tabe etdirmək imkanına malik olmamalıdır. Doğrudur, müstəqilliyin ilkin illərində bərabər hüquqluluq əsasında beynəlxalq iqtisadi əlaqəyə girmək o qədər də asan olmamışdır. Maddi maraqlarımızın bir hissəsini strateji məqsədlərə çatmaq üçün qurban vermək məcburiyyətində qalmışıq. Dünya bazarına xam neftlə çıxmaqla, başqa ölkələrin ərazisindən neft daşımalarına yüksək haqq verməklə götürə biləcəyimiz mənfəətin bir hissəsini itirmişik.

Azərbaycan Respublikasında iqtisadi təhlükəsizlik problemini tədqiq edən iqtisadçılar hesab edirlər ki, yeni müstəqillik əldə etmiş ölkələrin iqtisadi təhlükəsizliyinin təmin edilməsində «milli iqtisadiyyatın rəqabətqabiliyyətliliyi» və «iqtisadi mühitin yaxşılaşdırılması» əhəmiyyətli rol oynayır. (38. s.21-23) Təbii ki, keçid dövrünü yaşayan hər bir ölkə kimi Azərbaycan Respublikası da sivilizasiyalı ölkələrdə olduğu kimi iqtisadi təhlükəsizliyin təmin edilməsində göstərilən amillərin təsirindən bacarıqla istifadə etməlidir. İnkişaf etmiş ölkələr həyat səviyyəsi və keyfiyyəti, iqtisadi artıma nisbətən büdcə kəsirliyinin aradan qaldırılması və gizli iqtisadiyyatın məhdudlaşdırılması istiqamətində geniş fəaliyyət göstərdikləri halda, inkişaf etməkdə olan və yeni müstəqillik əldə etmiş ölkələr

downloaded from KitabYurdu.org

isə dövlət borcu problemini, dünya iqtisadiyyatına qovuşmağı, qızıl-valyuta ehtiyatlarının yaradılması, inflyasiyanın tempinin aşağı salınmasını, işsizlik probleminin nisbətən yumşaldılmasını xüsusilə diqqət mərkəzində saxlamağa çalışırlar. Bu heç də o demək deyildir ki, yeni müstəqillik əldə etmiş ölkələr həyat səviyyəsi məsələsini, büdcə kəsirliyini, gizli iqtisadiyyatla mübarizəni diqqət mərkəzindən kənarda qoymalıdırlar. Sözsüz ki, belə düşünmək çox sadəlövhlük olardı. Bu kimi problemlərin uzun müddət diqqət mərkəzindən kənarda qalması da ölkənin müstəqilliyini təhlükə altına ala bilər. Ona görə də, hər bir ölkə, o cümlədən də Azərbaycan iqtisadiyyatının dirçəldilməsinə istiqamətlənmiş iqtisadi islahatlar proqramı iqtisadi dirçəlişə uyğun olaraq, iqtisadi təhlükəsizliyin bütün göstəricilərini özündə əks etdirməlidir. İqtisadi islahatların maddi təminatının ölkə daxilində kifayət dərəcədə olmaması bu təminatın dövlət borcları hesabına həyata keçirilməsinə zərurət yaradır. Doğrudur, dövlətin keçid dövründə daxili borc götürməsi imkanı o qədər geniş olmadığından xarici borc (BVF, Dünya Bankı, inkişaf etmiş ölkələr və sair ölkələrdən) almaq məcburiyyətində qalır. Lakin bu xarici borcun məbləği təhlükəli bir həddə gəlib çatmamalıdır. Bu borcun məbləği ölkənin iqtisadi potensialı ilə müəyyənləşdirilməlidir. Həmin borcun təyinatı üzrə istifadəsi dövlət orqanlarının xüsusilə diqqət mərkəzində olmalıdır. Hal-hazırda Azərbaycan Respublikasında MDB respublikaları ilə müqayisədə adambaşına düşən xarici borcun məbləği heç də böyük bir məbləğ təşkil etmir. Orta hesabla hər bir Azərbaycan vətəndaşının payına 230 ABŞ dolları məbləğində xarici borc düşür ki, bu da ölkə iqtisadiyyatının bu borcu geri qaytarmaq imkanı daxilindədir.

Yeni müstəqillik əldə etmiş ölkələrin iqtisadi təhlükəsizliyinin təmin edilməsində qızıl-valyuta ehtiyatlarının yaradılması xüsusilə əhəmiyyət kəsb edir. Müstəqillik əldə etdiyi ilk dövrdə heç bir qızıl-valyuta ehtiyatına malik olmayan yeni

downloaded from KitabYurdu.org

yaranmış ölkələr həmin ehtiyatların yaradılması çətinliyi ilə qarşılaşmışlar. Digər ölkələr kimi Azərbaycan Respublikası da iqtisadi potensialını tədricən hərəkətə gətirməklə dünya birliyinə inteqrasiya etmiş və həmin ölkələrlə qarşılıqlı faydalılıq prinsipi əsasında xarici ticarət əlaqələri yaratmışdır. Azərbaycan xarici bazarlarda daha çox ehtiyac olan təbii sərvətləri ilə müstəqil şəkildə dünya bazarına çıxmaq imkanı əldə etmişdir. Bu xarici əlaqələr vasitəsilə tədricən də olsa valyuta ehtiyatları yaratmışdır. Bu valyuta ehtiyatlarının saxlanması və istifadəsi funksiyasını öz üzərinə götürən dövlət orqanları - Maliyyə Nazirliyi və Milli Bank dövlətin strateji məqsədlərinin reallaşmasında bu valyutadan müstəsna istifadə hüququna malikdir. Milli Bankın sədrinin hesabatına görə, 2006-cı ildə Milli Bankın dönərli valyuta ehtiyatları 1,400 mln. ABŞ dolları təşkil etmişdir ki, dünya maliyyə bazarındakı dəyişikliyə uyğun valyuta ehtiyatlarının 20%-nin AVRO-ya çevrilməsi də nəzərdə tutulmuşdur. Keçid dövründə inflyasiyanın bütün ağırlığı ilə çox sərt bir formada qarşılaşan dövlət əsasən valyuta ehtiyatları fondundan manatın sabitləşdirilməsi məqsədi ilə istifadə edirlər. Milli Bank Bakı Banklararası Valyuta Birjası vasitəsi ilə manatın dönərliyini valyuta kursunu tənzimləməklə inzibati yolla da olsa inflyasiyanı cilovlaya bilmişdi. Bunun da nəticəsində dövlət əhalinin əksər hissəsinin inflyasiyanın sarsıdıcı təsirindən tədricən də olsa qoruya bilir. Doğrudur, 2006-2007-ci illərdə inflyasiyanın səviyyəsi 16 %-dən yüksək olmuşdur. Lakin bu heç də əvvəlcədən Milli Bank tərəfindən nəzərdə tutulmuş həddən çox deyildir. Milli Bankın xarici banklarda saxladığı təqribən 1,400 milyon ABŞ dolları məbləğində vəsaitlə istənilən vaxt manatın sabitliyini təmin etmək mümkündür. Milli Bank dünya təcrübəsindən istifadə edərək milli valyuta ilə dönərli valyuta arasında «dəhliz» yaratmaqla çevik pul maliyyə siyasəti həyata keçirməyə çalışır. Qeyd edək ki, artıq Azərbaycanın 5,1 mld. dollar valyuta ehtiyatı vardır.

Bütövlükdə dünya ölkələri üçün, xüsusilə də yeni müstə-

downloaded from KitabYurdu.org

qillik əldə etmiş ölkələrdə işsizliyin qarşısının alınması, məşğulluğun təmin edilməsi iqtisadi təhlükəsizliyin mühüm amillərindən biri kimi çıxış edir. İnzibati - amirlik iqtisadi sisteminin iqtisadi əsası olan ictimai mülkiyyətin inkarı, xüsusi mülkiyyətin ləng formalaşması işsizliyin baş alıb getməsinə səbəb olur. Yeni iş yerlərinin açılması ilə tədricən işsizliyi məhdudlaşdırmaq mümkündür ki, bu da yalnız bazar sisteminə uyğun gələn yeni təsərrüfatçılıq formalarının yaradılması ilə həyata keçirilə bilər. Məşğulluğun təmin edilməsində əmək bazarının formalaşmasının da özünəməxsus rolu vardır ki, bu da tədricən iqtisadi gerçəkliyimizdə reallığa çevirir.

Yeni müstəqillik əldə etmiş milli respublikalarda iqtisadi təhlükəsizliyin təmin edilməsinə prof.A.E.Qorodetskinin baxışları da maraq doğurur. O, yazır: «Milli gəlirin bölgüsü və yenidən bölgüsünün, dövlət mülkiyyətinin özəlləşdirilməsinin kimlərin mənafeyinə uyğun həyata keçirilməsinin və ucuz idxalın təsiri altında ölkə daxilində ixrac potensialından necə istifadə olunmasının iqtisadi təhlükəsizliyin təmin olunması üçün böyük əhəmiyyəti var».(98. s.562)

İqtisadi təhlükəsizliyin daxili və xarici amillərini fərqləndirmək lazımdır. İqtisadi təhlükəsizliyin xarici amilinə xarici borcların, ixracın xammal orentasiyalı olması, daxili amilə istehsal olunan məhsulların rəqabətqabiliyyətli olmamasını göstərmək olar. Bunun əvəzini resurs potensialı ilə təmin etmək mümkündür. Maraq doğuran məsələlərdən biri də keçid dövründə və prespektivdə iqtisadi təhlükəsizliyin strategiyası necə olmalıdır məsələsidir? Bəzən hesab edirlər ki, keçid dövründə başlıca vəzifə milli iqtisadiyyatın dirçəldilməsi olmalıdır. Daha sonrakı mərhələdə sabitləşmə, prespektivdə isə iqtisadiyyatın inkişafına nail olmaq lazımdır. Bu cür ideyaların mövcudluğu «dəmir ələ» ehtiyac yaradır. Lakin iqtisadiyyat daxilən ona xas olan obyektiv qanunların təsiri altında inkişaf edir. Subyekt isə bu qanunları dərk edərək iqtisadi inkişafın amillərini çevik hərəkətə gətirməklə, eyni zamanda is-

downloaded from KitabYurdu.org

tehsalın səviyyəsinin aşağı düşməsinin qarşısını almaqla iqtisadi artıma nail olmalıdır.

İqtisadi və bütövlükdə milli təhlükəsizlik sahəsində dövlət strategiyasının əsasını inkişaf ideologiyası təşkil etməlidir (təkcə iqtisadi deyil həmçinin fəlsəfi, sosioloji, informasiya, hüquq, politologiya və geosiyasi elmi baxışlar sistemi daxil edilməlidir).

İqtisadi təhlükəsizliyi təmin etmək üçün iqtisadi islahatların bütün istiqamətlərində fəaliyyəti aktivləşdirmək, normativ-hüquqi fəzanı genişləndirmək, yeni idarəetmə institutlarını yaratmaq və institusional dəyişikliklər həyata keçirilməlidir. Ölkənin iqtisadi təhlükəsizliyini təmin etmək məqsədi ilə qarşılıqlı mənafeləri nəzərə almaqla yaxın və uzaq xarici ölkələrlə iqtisadi və siyasi münasibətləri inkişaf etdirmək vacibdir. Dövlət hakimiyyəti möhkəmləndirilməli, onun institutlarına ehtimad yüksəlməli, iqtisadi siyasətin hazırlanması və formalaşması mexanizmi səmərəliləşdirilməlidir. Qoyulan məsələləri həyata keçirmək üçün onların reallaşdırılması mexanizmi yaradılmalıdır. Bu mexanizm aşağıdakı elementləri özünə daxil edir:

- iqtisadi təhlükəsizliyin daxili və xarici təhlükəsini aşkarlamaq və proq-nozlaşdırmaq məqsədi ilə iqtisadiyyatın və cəmiyyətin monitorinqin keçirmək;
- sosial-iqtisadi göstəricilərin əngəl törətmək səviyyəsinin yol verilən həddini müəyyənləşdirmək;
- iqtisadiyyatın təhlükəsizliyinin daxili və xarici amillərini aşkarlamaq və qarşısını almaq məqsədi ilə dövlətin fəaliyyəti.

Keçid dövründə xarici iqtisadi fəaliyyət sahəsində iqtisadi təhlükəsizliyin təmin edilməsi aşağıdakılarla müəyyən olunur:

- milli maraqların gözlənilməsi ilə xarici ticarətin inkişafının tənzimlənməsi, milli iqtisadiyyatın dünya iqtisadına inteqrasiyası şəraitində xarici iqtisadi fəaliyyətin iqtisadi səmərəliliyinin yüksəldilməsi;
- hazır məhsul hesabına ixrac potensialının daha da genişləndirilməsi;

downloaded from KitabYurdu.org

- milli ixracatçıların dünya əmtəə bazarında mövqelərinin saxlanması və inkişaf etdirilməsi məqsədi ilə onların maraqlarının dövlət tərəfindən qorunması;
- yol verilən hədd daxilində milli istehsalçılara münasibətdə himayəçilik siyasəti yeritməli (inhisarçılığa gətirib çıxarmamaq şərti ilə);
- manatın sərbəst dəyişilə bilən valyutaya nisbətini sabitləşdirmək;
- ölkəni xarici ölkələrlə birləşdirən nəqliyyat arteriyalarının fasiləsiz işini təmin etmək.

Azərbaycan Respublikasında da digər ölkələrdə olduğu kimi ölkə başçısının öz üzərinə götürdüyü öhdəliklər içərisində dövlətin ərazi bütövlüyünün qorunması, suverenliyinin təmin edilməsi və müstəqilliyinin saxlanılması üstünlük təşkil edir. Bu öhdəliklərin təmin edilməsi isə bütövlükdə təhlükəsizliyin, xüsusilə də iqtisadi təhlükəsizliyin təmin edilməsindən çox asılıdır. Müstəqilliyi deklorasiya şəklində bəyan etməklə suverenliyi uzun müddət saxlamaq mümkün olmadığından, bir sıra təhlükəsizlik tədbirlərinin görülməsinə zərurət yaranır. Belə ki, Azərbaycan dövləti də müstəqilliyinin ilkin dövründə bir sıra təhlükəli problemlərlə qarşılaşmışdır. Təhlükəsizlik problemləri içərisində xarici təcavüz nəticəsində ərazimizin bir hissəsinin erməni işğalçıları tərəfindən qəsb edilməsi, inflyasiyanın baş alıb getməsi nəticəsində əhalinin var-yoxdan çıxması, əhalinin zəruri yaşayış vasitələri ilə təminatının kəskin şəkildə pisləşməsi xüsusilə diqqəti cəlb edir. Müstəqilliyin ilkin dövründə Azərbaycanın mövcud iqtisadi və siyasi durumu, həm də ölkəmizin müstəqilliyini istəməyən xarici və daxili siyasi qüvvələr bu problemin həllini təhlükəli həddə gətirib çıxarmışdır. Bəzi ölkələr Azərbaycanı öz nüfuz dariəsinə cəlb etmək marağından çıxış etdiyindən regionun digər böyük dövlətləri buna çox böyük qısqanclıqla yanaşırdılar. Azərbaycanın müstəqilliyinə qısqanclığın nəticəsi olaraq Azərbaycan blokada təhlükəsi qarşısında qalırdı. Ölkənin əsas nəqliyyat

downloaded from KitabYurdu.org

qovşağı olan Şimala çıxış vaxtaşırı olaraq bağlanır, erməni işğalı nəticəsində, İranla sərhədimizin bir hissəsi ermənilərin nəzarəti altına keçmişdir. Bütün bu çətinliklər Azərbaycanı kifayət dərəcədə zəngin bir dövlət olmasına baxmayaraq bütün potensialını tam hərəkətə gətirməyə imkan vermirdi. Onsuz da dünyada qlobal səciyyə daşıyan aclıq, yoxsulluq, ekoloji və müharibə təhlükəsi Azərbaycanın müstəqilliyinin ilk çağlarında reallığa çevrilmişdir. Təhlükəsizlik problemlərinin törəməsinin səbəblərindən biri də Azərbaycanda iqtisadi sistemin dəyişməsi olduğundan o, özünəməxsus spesifik formada təzahür etmişdir. Bu spesifiklik hər şeydən əvvəl ondan irəli gəlirdi ki, sosializm şəraitində minimum da olsa sosial müdafiəyə uyğunlaşmış əhali kortəbii bazarın qanunları ilə təkbətək qaldı. Onların müəyyən qismi onsuz da məhdud olan vəsaitlərini yaşayış vasitələrinin, ərzaq məhsullarının əldə edilməsinə sərf edərək var-yoxdan çıxdılar. İş yerlərinin kütləvi şəkildə bağlanması, müəssisələrin iflic vəziyyətə düşməsi işçiləri yaşayış vasitələri əldə etmək imkanından məhrum etdi.

Lakin keçid dövründə aparılan islahatlar iqtisadi təhlükəsizlik baxımından müəyyən problemlərin həllinə əlverişli şərait yaratmışdır. Belə ki, haqlı olaraq akademik Ə.M.Abbasov və prof. Ə.C.Qasımov yazırlar: «Azərbaycan əhalinin ərzaq və ekoloji təhlükəsizliyini təmin etmək üçün çox geniş və böyük imkanlara malikdir».(5. s.3) Azərbaycan gerçəkliyindəki iqtisadi təhlükəsizliyin ümumi cəhətləri ilə yanaşı bu spesifiklik dövlətdən daha çevik təhlükəsizlik tədbirlərinin həyata keçirilməsini tələb edirdi. Bu tədbirlər içərisində ölkənin iqtisadi potensialının iqtisadi təhlükəsizliyin təmin edilməsi üçün optimal nisbətin yaradılması xüsusi əhəmiyyət kəsb edir. İqtisadi potensialımızın bir tərəfdən islahatlar nəticəsində artırılması stimullaşdırıldığı şəraitdə, digər tərəfdən onun əhəmiyyətli hissəsi ərazimizin işğaldan azad olunmasına cəlb olunmalıdır. Bütün bunlar göstərir ki, Azərbaycan gerçəkliyi üçün təhlükəsizlik problemlərinin həlli tale yüklü pro-

downloaded from KitabYurdu.org

blemlərdəndir. Azərbaycanı çulğalayan təhlükəli problemlər yeni müstəqillik əldə etmiş əksər ölkələr üçün səciyyəvidir.

Müasir dünyanın inkişafı elə bir həddə gəlib çatmışdır ki, təhlükəsizliyin təmin edilməsi bəşər cəmiyyətinin özünün mövcudluğunu şərtləndirir. Kütləvi qırğın silahlarının dünyanın bir neçə dəfə məhv edə bilməsi imkanı, dünyada bir milyarddan çox ac və yoxsulun olması, ekoloji böhranın təhlükəli həddə çatması bir daha göstərir ki, təhlükəsizliyin təmin edilməsi qlobal xarakter daşıdığından onun həlli ayrıca bir ölkənin gücü daxilində deyildir. Bu problemlərin həlli, hər şeydən əvvəl dünya birliyi ölkələrinin imkan və səylərinin birləşdirilməsini tələb edir.

Azərbaycan da dünya birliyinin bərabərhüquqlu bir üzvü kimi təhlükəsizlik problemləri ilə: bu problemlərin həm ümumi xarakter daşıyan formaları ilə, həm də spesifik təzahürləri ilə qarşılaşır.

Azərbaycan ittifaq dövləti (SSRİ) tərkibində olduğu dövrdə iqtisadi, siyasi, hərbi təhlükəsizliyi mərkəzi ittifaq dövləti tərəfindən həyata keçirildiyindən müstəqilliyimizin ilkin dövründə də bu problemlərlə kəskin şəkildə qarşılaşmışdır. Mövcud durumumuza uyğun gələn təhlükəsizlik strategiyası və taktikasının olmaması və digər sosial-iqtisadi qeyri-müəyyənlik keçid dövrünün ilkin mərhələsində Azərbaycan dövlətinin özünün mövcudluğunu təhlükə altına almışdır.

Taleyüklü problemlərlə qarşılaşan Azərbaycan Respublikası müstəqilliyini siyasi cəhətdən bəyan etməklə milli, suveren dövlət qurmağa başlamışdır. Bu dövlət quruculuğu hər şeydən əvvəl milli iqtisadiyyatın formalaşdırılmasına istiqamətləndirilmişdir.

Milli müstəqilliyimizin ilk dövründə iqtisadi təhlükəsizliyimizi, həm də bütövlükdə təhlükəsizliyimizi təmin etmək məqsədi ilə SSRİ dövründə şəffaf olan ölkə sərhədlərini dövlət sərhədləri statusuna qaldırmaq, gömrük sistemi təşkil etmək, ölkə sərhədlərinin qorunması tədbirlərinin işlənib hazırlanması

downloaded from KitabYurdu.org

zərurətə çevrilmişdir. Yalnız bu tədbirlərin həyata keçirildiyi şəraitdə qaçaqmalçılığın qarşısının alınması, ölkə sərvətinin ölkədən qeyri-qanuni yolla daşınmasına mane olmaq mümkün olmuşdur. İlk dövrlərdə sərhədyanı gömrük məntəqələrinin təşkilindəki çətinliklər külli miqdarda sərvətimizin «əliəyri» adamlar tərəfindən xaricə daşınmasına səbəb olmuşdur.

İqtisadi təhlükəsizliyin təmin edilməsində və təşkilində mühüm əhəmiyyətə malik olan tədbirlərdən ən başlıcası ölkədə həyata keçirilən islahatlardır. Bu islahatların mühüm tərkib hissəsi olan dövlətsizləşdirmə, özəlləşdirmə sosial yönümlü bazar iqtisadiyyatına keçidi şərtləndirməklə tədricən ölkədə sahibkarlığın inkişafına əlverişli şərait yaradır. Sahibkarlığın inkişafı bütün inkişaf etmiş bazar sistemli ölkələrdə olduğu kimi Azərbaycanda da iqtisadi təhlükəsizliyin maddi təminatının yaradılmasına yönəldilib. İqtisadiyyat inkişaf etdikcə şübhəsiz ki, ölkənin müdafiə qabiliyyətinin təşkilinə, ərzaq təminatının yaxşılaşdırılmasına, ekoloji problemlərin həllinə də əlverişli şərait yaranır.

İqtisadi təhlükəsizliyin təmin edilməsi milli iqtisadiyyatın formalaşması ilə paralel getdiyindən bir sıra çətinliklərin aradan qaldırılması Azərbaycanın dünya təsərrüfatı sisteminə inteqrasiyanın güclənməsini tələb edir. Ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsi sahəsində təcrübəsi və gücünün nisbətən zəif olması onu dünya ölkələri və beynəlxalq təşkilatlarla birgə fəaliyyətə maraqlı edir. Beləliklə, qeyd etmək olar ki, iqtisadi təhlükəsizliyin təmin edilməsi yeridilən daxili və xarici siyasətdən, inkişaf etmiş ölkələrin təcrübəsindən istifadədən, həyata keçirilən islahatların müvəffəqiyyətliliyindən, mənafelərin düzgün əlaqələndirilməsindən əhəmiyyətli dərəcədə asılıdır. Təbii ki, bu amillər Azərbaycan Respublikasının iqtisadi təhlükəsizlik konsepsiyasında öz əksini tapmalıdır. Nəticə etibarı ilə iqtisadi təhlükəsizlik konsepsiyası Azərbaycanın keçid iqtisadiyyatında iqtisadiyyatın sağlamlaşdırılması və sabitləşdirilməsinə şərait yaratmaqla iqtisadi artımı stimullaşdırma-

downloaded from KitabYurdu.org

lıdır. Azərbaycan iqtisadiyyatında baş verən keyfiyyət və kəmiyyət dəyişiklikləri bir daha göstərir ki, Azərbaycan dövləti milli təhlükəsizliyimizlə yanaşı iqtisadi təhlükəsizliyi də təmin etmək iqtidarındadır. Təbii ki, keçid dövrünü yaşayan hər bir ölkə kimi Azərbaycan üçün də iqtisadi təhlükəsizliyi tam mənada təmin etmək o qədər də asan məsələ deyil. Korrupsiya, gizli iqtisadiyyat cəmiyyətimizin reallığıdır. Burada ən başlıca vəzifə bu neqativ halların təhlükəli həddə gəlib çıxmasının qarşısının vaxtında alınmasından ibarət olmalıdır.

İqtisadi təhlükəsizliyin göstəricilərinin təhlükəli həddə çıxmasının qarşısının alınmasının ən başlıca mənbələrindən biri də cəmiyyətdə mənafelərin düzgün əlaqələndirilməsidir. Mənafelərin əlaqələndirilməsinin elə optimal nisbəti tapılmalıdır ki, nəticədə milli maraqlar daha əlverişli reallaşmaq imkanı əldə edə bilsin.

Cəmiyyət bir keyfiyyət halından digər keyfiyyət halına, bir iqtisadi sistemdən digər iqtisadi sistemə keçərkən onun əsasını təşkil edən münasibətlər, o cümlədən də iqtisadi münasibətlər sisteminin dəyişməsi bu münasibətlər sistemindən törəyən sosial – psixoloji və ideoloji münasibətlərin dəyişilməsi və yeniləşməsi zərurəti yaradır. Cəmiyyət seçdiyi yeni inkişaf yolunun tələblərinə uyğun onun hərtərəfli inkişafının təminatçılarından biri olan milli mənafelərin formalaşmasını ilkin məsələlərdən biri kimi həll etməlidir. Azərbaycan Respublikasında da cəmiyyətin müasir durumu bir keyfiyət halından digərinə keçidlə səciyyələnir. Bu gün Azərbaycan müstəqilliyə qədəm qoyub, yeni sosial-iqtisadi sistemə keçir, yeni iqtisadi sistemin əsaslarının yaradılması dövrünü yaşayır. Müstəqillik yolunu seçən və milli iqtisadiyyat formalaşdıran hər bir ölkənin qarşısında duran mühüm vəzifələrdən biri də onun milli tarixi inkişaf xüsusiyyətlərini nəzərə alan bazar münasibətlərinə uyğun milli mənafelərinin reallaşdırılması mexanizminin formalaşdırılmasıdır.

Xüsusi mülkiyyətin çoxnövlülüyünə əsaslanan bazar iqtisadi sistemində təsərrüfat subyektlərinin davranış norması

downloaded from KitabYurdu.org

«mülkiyyət münasibətlərinə uyğun» müəyyənləşdirildiyindən yeni iqtisadi sistemə keçid dövründə daha çox milli maraqlara uyğun gələn xüsusi mülkiyyətin inkişafını stimullaşdıra biləcək yeni cəmiyyətin formalaşmasının mənafelərin səmərəli reallaşmasına uyğun təminatının yaradılması zərurətə çevrilir.

İnzibati amirlik iqtisadi sistemindən bazar münasibətlərinə keçid dövründə Azərbaycan Dövləti özünün milli dövlətçilik idealını yaratmalıdır. Bu milli ideala çatmaq isə elmi prinsiplərə əsaslanan milli mənafelərin mövcudluğu şəraitində mümkün ola bilər. İctimai-iqtisadi, sosial münasibətlər sistemində prinsipial, ardıcıl, mərhələlərlə aparılan islahatlar Azərbaycanın özünəməxsus milli maraqlarının formalaşmasına gətirib çıxarır.

Dünya ölkələrinin tarixi təcrübəsi göstərir ki, suveren olmayan, xüsusilə iqtisadi cəhətdən müstəqil olmayan ölkələrdə milli mənafelər üstünlük təşkil edə bilməz. Prof. Ş.Hacıyev yazırdı: «SSRİ-nin mövcudluğu dövründə milli maraqlar şəxsi maraqlara qarşı qoyulurdu. O, törəmə, ikinci dərəcəli münasibət hesab olunurdu» (32, s.360).

SSRİ-nin tərkib hissəsi olan Azərbaycanda da ittifaqın mövcudluğu dövründə Azərbaycanın milli dövlətçiliyi kimi, milli maraqları da kölgədə qalmışdı.

Azərbaycanın tarixən müəyyən dövr çar Rusiyanın, sonralar isə SSRİ-nin tərkibində olması milli dövlət maraqlarının yaranmasına imkan verməmişdir. Sosializmin mövcudluğu dövründə nəinki ayrıca bir dövlətdə, hətta həmin lagerə daxil olan ölkələr birliyində «ictimai mülkiyyətin cənnət yaradacağına» zəmanət verən ümumxalq dövlət maraqları hakim olmuşdur. Sosializmdə ictimai mülkiyyətin reallaşma imkanlarının məhdudluğu ümumxalq dövlət maraqlarının reallaşması ilə nəticələnməmişdi.

Bütün cəmiyyətlərdə milli mənafelərin formalaşmasının iqtisadi problemləri içərisində iqtisadi münasibətlərin aparıcı ünsürü olan mülkiyyət münasibətləri həlledici rola malikdir.

downloaded from KitabYurdu.org

Keçid dövründə mülkiyyət münasibətlərində və digər sahələrdə aparılan köklü dəyişikliklər elə həyata keçirilir ki, tarixən formalaşmış ictimai sosialist mülkiyyətindən bu mülkiyyətə hüquqi olanların hamısı ondan pay ala bilir. Həm də bu pay istehlak şeylərinə (zəruri yaşayış vasitələrinə) sərf olunan miqdar və formada deyil, istehsal təşkil etməyə imkan verən formada istehsal vasitələri şəklində (zavod, fabrik, torpaq və digər kənd təsərrüfatı istehsal vasitələrinin özəlləşdirilməsi) olur. Mülkiyyətin mülkiyyətçiyə qaytarılması formal xarakteri daşımamalıdır. Hər bir vətəndaşa mülkiyyətə sahib olmaqla öz imkanlarını reallaşdırmaq, özünü cəmiyyətdə təsdiq etmək üçün əlverişli şərait yaradılmalıdır. O mülkiyyətini sərbəst şəkildə reallaşdırmaq imkanı əldə etməklə cəmiyyətin milli məqsədlərinin reallaşmasına kömək etmiş olur.

İstehsal vasitələri üzərində ictimai mülkiyyət münasibətlərindəki dəyişiklik mülkiyyət münasibətlərindən törəmə münasibətlərə də - bölgüdə, mübadilə və istehlakda da dəyişikliyə gətirib çıxarır. Mülkiyyətin özəlləşdirilməsi hər şeydən əvvəl istehsal vasitələrinin bölüşdürülməsini həyata keçirməklə, cəmiyyətin bütün üzvlərini xüsusi mülkiyyətçiyə çevirməklə sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq üçün şərait yaradır. Xüsusi mülkiyyətin inkişafı tədricən dövlət tərəfindən müxtəlif iqtisadi alətlər vasitəsi ilə tənzimlənməklə əhalinin bütün təbəqələrinin istehlakının minimum səviyyəsinin təmin edilməsinə şərait yaradır. İstehlakın minimum səviyyənin təmin edilməsi ilə yanaşı xüsusi mülkiyyətçilər mülkiyyətlərini reallaşdırmaqla iqtisadiyyatı inkişaf etdirir və öz sərvətlərini artırırlar. Həyata keçirilmiş iqtisadi islahatlar kompleksinin aparıcı həlqəsi olan dövlətsizləşdirmə əmlakı, mülkiyyəti birbaşa ünvanlı istiqamətləndirir ki, kütlələrdə sahibkarlıq psixologiyası formalaşsın. Hal-hazırda Azərbaycanda dövlət mülkiyyətinin dövlətsizləşdirilməsi çox geniş miqyas almışdır. Artıq özəlləşdirmənin nəticəsində özəl sektor iqtisadiyyatımızda həlledici rola malikdir. Bu gün ÜDM-in 80%-i özəl bölmədə istehsal olunur.

downloaded from KitabYurdu.org

Burada insanlar arasındakı iqtisadi münasibətlər ictimai mülkiyyətin bərabərçilik, ələbaxımlıq psixologiyası ilə tənzimlənə bilməz.

Sahibkarlar arasındakı yeni yaranan münasibət sağlam rəqabət tələb edir. Bu cür rəqabət isə milli dövlətçilik mənafelərinin hər şeydən üstünlüyünü kütlələrdə aşılayan milli mənafelərin formalaşdığı şəraitdə mümkündür. Milli mənafelər mücərrəd bir anlayış olmayıb mövcud reallığı əks etdirməlidir.

Mövcud reallıq isə iqtisadi baxımdan ictimai mülkiyyət münasibətləri sistemindən xüsusi mülkiyyətin üstünlük təşkil etdiyi bazar münasibətlərinə keçidlə xarakterizə olunur. İnzibati-amirlik iqtisadi sistemindən bazar münasibətlərinə keçid dövründə bir sıra mühüm məsələlərin həlli qarşıya çıxır. İnzibati - amirlik sistemində milli mənafelər tamamilə kölgədə qalırdı. Tarixən azərbaycanlılarda formalaşmış sahibkarlıq, xüsusi mülkiyyətçilik meylləri qarşısında sədd çəkilirdi, heç bir təşəbbüskarlıq fəaliyyətinə yol verilmirdi. Mənafelərin uzlaşdırılması sanki əks istiqamətdə gedirdi. Marksist ideologiyanın ictimai mülkiyyət xarakterinə uyğun təlqin etdiyi ictimai mənafeyin sözdə üstün tutulması milli maraqlara uyğun gəlmirdi. Fərdi və kollektiv, həmçinin milli maraqlar sıxışdırılırdı.

Sosializmin və SSRİ-nin dağılması artıq milli respublikalarda fərdi qabiliyyətlərin, tarixən formalaşmış milli xüsusiyyətlərin üzə çıxmasına potensial olaraq şərait yaratdı. Artıq milli təəssübkeşliyə, təşəbbüskarlığa mane olan milli maraqlardan üstdə duran və milli maraqları beynəlmiləl, ittifaq maraqlarına tabe edən idarə aparatı sındırılmışdı, ittifaq sistemi dağıdılmışdı. Artıq Azərbaycan bütün sərvətinə sahib olmuşdur. İqtisadi sistemin dəyişilməsi, milli müstəqilliyin əldə edilməsi, iqtisadi münasibətlərin yeniləşməsi, bu münasibətlərə qarşı passiv olmayan milli mənafelərin yaranması, formalaşması və inkişafına zərurət yaradır.

Hər bir müstəqillik əldə etmiş dövlət qarşıya qoyulmuş strateji məqsədə çatmaq üçün özünün milli iqtisadiyyat konsepsiyasına uyğun mənafelərinin uzlaşdırılmış sistemini yaratmalıdır.

Azərbaycanda milli mənafelərin formalaşması prosesi özünəməxsus xüsusiyyətlər kəsb edir. Azərbaycanda ictimai-

downloaded from KitabYurdu.org

iqtisadi münasibətlərin tənzimlənməsi ittifaqa daxil olan digər respublikalarda olduğu kimi milli xarakteri səciyyələndirən cəhətlərdən sərfnəzər olan marksist ideologiya ilə həyata keçirilmişdir. Bu cür ideologiya isə ayrılıqda götürülmüş fərdin, individumun heç bir şey həll edə bilmədiyini təlqin etmiş, kütlələrə ələbaxımlıq psixologiyası aşılamışdır. Göstərilən neqativ halları isə milli özünüdərk yolu ilə aradan qaldırmaq mümkündür. Azərbaycanda milli özünüdərkin formalaşmasında qarşıda duran başlıca vəzifələrdən biri əhalidə «ələbaxımlıq» psixologiyasını sındırmaq, onlarda öz qüvvəsinə inam, sahibkarlıq, təşəbbüskarlıq fəaliyyəti ilə məşğul olmağa şərait və inam yaratmaqdan ibarət olmalıdır.

Müasir bazar sistemli ölkələrin təcrübəsi göstərir ki, milli özünüdərk nəticəsində nəinki öz mülkiyyətinin, o cümlədən də ölkənin sərvətinin artırılması, milli məqsədlərin reallaşması hər bir insanın başlıca vəzifəsinə çevrilə bilər. Yaponiya, Koreya, Türkiyə və bir sıra digər ölkələrin təcrübəsi göstərir ki, iqtisadi inkişafda milli özünüdərk əhəmiyyətli rol oynayır.

Tale elə gətirib ki, Azərbaycanda iqtisadi münasibətlər sistemində keyfiyyət dəyişikliyi milli iqtisadiyyatın formalaşması ilə paralel gedir.

Cəmiyyətin tarixi inkişafının təbii nəticəsi kimi çıxış edən xüsusi mülkiyyət, bazar münasibətlərini səciyyələndirən cəhətləri özündə əks etdirir. Azərbaycanın keçid dövründə qarşısında duran problemlərin ən əhəmiyyətlilərindən biri bazar münasibətlərinin əsasını təşkil edən dövlət mülkiyyətinin özəlləşdirilməsi yolu ilə xüsusi mülkiyyət münasibətlərinin yaradılmasıdır. Təbii ki, bazar iqtisadi sisteminin əsaslarının yaradılması xüsusi mülkiyyət münasibətlərinin formalaşmasını, istehsalçıların bazar münasibətlərində həlledici əhəmiyyətə malik olmasını tələb edir. Bu problemlərin həlli isə müəyyən dövr, keçid dövrünün olmasını tələb edir. Bu tədbirlərin həyata keçirilməsi həm də iqtisadi cəhətdən təhlükəsizliyin təmin edilməsini tələb edir ki, nəticədə ölkəmizdə sosial orientasiyalı və təminatlı müasir bazar iqtisadi sistemi formalaşsın.

downloaded from KitabYurdu.org

Deməli, mənafelərin uzlaşdırılması yolu ilə iqtisadi təhlükəsizliyin təmin edilməsi keçid dövrü adlandırdığımız dövrdə formalaşmağa başladığı üçün iqtisadi münasibətlərdə olan ziddiyyətləri özündə əks etdirmək məcburiyyəti qarşısında qalır.

İctimai münasibətlərdə, xüsusilə iqtisadi münasibətlər sistemində baş verən köklü dəyişikliklər (özəlləşdirmə, dövlətsizləşdirmə, xüsusi mülkiyyətin yaranması və s) insanların təfəkkürünə təsir etməklə əhalinin suveren dövlət quruculuğunda fəal iştirakına əlverişli şərait yaradır.

Keçid dövründə milli mənafelərin formalaşmasına iqtisadi münasibətlərdəki köklü dəyişikliklər aşağıdakı kimi təsir edir:

- iqtisadi islahatlar yeni iqtisadi təfəkkür formalaşdırdığı üçün, bununla da bazara keçidin mənəvi təminatı üçün əlverişli şərait yaranır;
- yeni iqtisadi təfəkkürə malik insanlar bazar prinsipləri əsasında fəaliyyət göstərən təsərrüfatçılıq formaları ilə müvəfəqiyyətlə məşğul olmaq vərdişləri əldə edirlər.

Sahibkarlıq, təşəbbüskarlıq vərdişləri milli iqtisadiyyatın inkişafına və bazar münasibətlərinə keçidə əlverişli şərait yaradır. Bazar münasibətlərinə keçid Azərbaycanın inkişaf etmiş dünya ölkələri ilə inteqrasiyasını gücləndirir. Bu iqtisadi proseslərin təsiri altında milli iqtisadiyyatın iqtisadi təhlükəsizliyinin təmin edilməsi milli maraqlara uyğun reallaşır.

Azərbaycan Respublikasında da digər ölkələrdə olduğu kimi milli iqtisadiyyatın iqtisadi təhlükəsizliyiinin təmin edilməsi milli maraqların ödənilməsinə istiqamətlənməlidir. Milli maraqlar isə mənafelər sisteminin düzgün qurulmasından çox asılıdır. Keçid dövründə mənafelər sistemində uyğunsuzluq yarandığından ictimai-iqtisadi həyatda ziddiyyətlər dərinləşə, kəskinləşə bilər. Məhz milli mənafelərə üstünlük verilməsinin gücü onda olmalıdır ki, bu ziddiyyətlərin kəskinləşməsinə əngəl törətməklə əhalinin bütün təbəqələrində milli iqtisadiyyatın formalaşmasına maraq yarada bilsin.

downloaded from KitabYurdu.org

Milli mənafelərin əlaqələndirilməsi zəruriliyini nəzərə alaraq Hegel yazırdı: «İnsanların hərəkəti onların tələbatlarından, ehtiyaclarından, onların mənafelərindən irəli gəlir... və yalnız bu amillər həlledici rola malikdirlər». (70. s.20)

Keçid iqtisadiyyatı kifayət dərəcədə ziddiyyətli olduğundan fərdi, kollektiv və ictimai mənafelərin uzlaşdırılması o qədər də asan olmur. İnsanların digər tələbatlarının ödənilməsinin başlıca vasitəsi olan əməyə tələbat ödənilmədiyindən müəyyən problemlər yarana bilir. Ona görə də dövlət təşkilatı-inzibati metodlardan istifadə edərək bütün mənafelərin reallaşmasına əlverişli şərait yaratmaqla ümummilli və dövlət maraqlarının uzlaşdırılmasına nail olmalıdır.

Lakin bu metod konkret ictimai-iqtisadi şəraitdə özünü doğrulda bilər. Uzun müddət bu metoddan istifadə neqativ nəticələrə gətirib çıxara bilər. Ona görə də milli maraqların ictimai həyatımızda özünə real yer tutması kifayət dərəcədə mövcud olan sosial problemlərin həllində ziddiyyətliliyi aradan qaldırır, milli iqtisadiyyatın bazar prinsipləri əsasında inkişaf edərək dünya iqtisadiyyatına inteqrasiyasına köməklik göstərir.

Respublikamızda milli maraqlarımızı, mənəvi ideallarımızı, tarixi inkişaf səviyyəmizi özündə əks etdirən milli mənafelərin uzlaşdırılması yolu ilə milli iqtisadiyyatın iqtisadi təhlükəsizliyinin təmin edilməsi Azərbaycanda (sivilizasiyalı) müstəqil milli iqtisadiyyatın formalaşmasının başlıca amillərindən biri kimi çıxış edir.

Bazar iqtisadi sisteminə keçən ölkələrdə milli iqtisadiyyatın formalaşması milli iqtisadiyyat konsepsiyasında onun iqtisadi təhlükəsizliyinin təmin edilməsinin zəruriliyi ilə yanaşı, yeni iqtisadi sistemin intitusional əsaslarının və sahibkarlığın inkişafı üçün rəqabət mühitinin yaradılması, milli iqtisadiyyatın bazar mexanizmi əsasında fəaliyyəti üçün mühüm şərtlər kimi çıxış edirlər.

downloaded from KitabYurdu.org

# II FƏSİL

# YENİ İQTİSADİ SİSTEMİN İNSTİTUSİONAL ƏSASLARININ YARADILMASI VƏ BAZAR MÜHİTİNİN FORMALAŞMASI

## 2.1.Yeni mülkiyyət münasibətlərinin qərarlaşması və mülkiyyət çoxnövlüyünün təşəkkülü

Azərbaycan siyasi müstəqillik əldə etdikdən sonra azad, demokratik, sosial yönümlü bazar iqtisadiyyatına keçəcəyini bəyan etdi. SSRİ-nin süqutu haqqında qəbul olunmuş deklarasiyadan sonra keçmiş müttəfiq respublikaların müstəqillik əldə etməsi həm yeni yaranmış müstəqil dövlətlərarası iqtisadi münasibətlərin, həmçinin də respublikamızın iqtisadi əsaslarının yeniləşdirilməsi zərurətini yaratmışdır. İqtisadi münasibətlərin yeniləşdirilməsi isə qısa müddətli bir akt olmayıb, keçid dövrü deyilən bir dövrdə həyata keçirilən kompleks tədbirlərin məcmusudur. Keçid dövrü yeni iqtisadi sistemi formalaşdırmaq məqsədi ilə dünya təcrübəsindən bəhrələnməklə, yerli xüsusiyyətlər də nəzərə alınmaqla ictimai – iqtisadi həyatın bütün sahələrində islahatların həyata keçirilməsini şərtləndirir. Keçid dövründə həyata keçirilən tədbirlər içərisində iqtisadi münasibətlərin yeniləşməsi xüsusi ilə diqqət mərkəzində saxlanılır. İqtisadi münasibətlər sistemində köklü dəyişiklik, keçid iqtisadiyyatının formalaşdırılması, bu sistemdə aparıcı həlqə olan mülkiyyət münasibətlərinin yeniləşməsi və onun çoxnövlüyünün yaradılmasından əhəmiyyətli dərəcədə asılıdır.

Keçid dövrünün formalaşdırılmasının iqtisadi problemləri MDB ölkələrinin və həmçinin respublika alimlərinin diqqət mərkəzində olmuşdur. Respublikamızın tanınmış iqtisadçı alimləri professor T.S.Vəliyev, prof.T.Ə.Quliyev və digərləri öz fundamental tədqiqatlarında xüsusi mülkiyyəti və onun çoxnövlüyünü yeni iqtisadi sistemin, Azərbaycan Res-

downloaded from KitabYurdu.org

publikasında formalaşmaqda olan tənzimlənən bazar iqtisadiyyatının əsası kimi götürmüşlər. Respublika Milli Elmlər Akademiyasının akademiki Z.A.Səmədzadə ictimai mülkiyyətin xüsusi mülkiyyətə transformasiyasını Azərbaycanın sivilizasiyalı dünyaya inteqrasiyasının başlıca şərtlərindən biri olduğunu öz tədqiqatlarında elmi cəhətdən əsaslandırmışdır. Milli Elmlər Akademiyasının müxbir üzvü Ş.M.Muradov bazarın quruluşunda əmək bazarının formalaşmasını və iş qüvvəsindən tədricən səmərəli istifadə mexanizminin yaranmasını xüsusi mülkiyyət münasibətlərinin üstünlüyü hesab edir.

Bütövlükdə inzibati-amirlik iqtisadi sistemindən bazar iqtisadiyyatına keçid dövründə bir sıra kompleks tədbirlər həyata keçirilir ki, bu da nəticə etibarı ilə iqtisadi fəaliyyətin bütün sahələrində xüsusi mülkiyyət münasibətlərinin həlledici rola malik olması ilə səciyyələnir.

Belə ki, rus iqtisadçısı V.N. Kriçenko keçid dövrünün formalaşdırılmasının iqtisadi prolblemlərinə toxunaraq aşağıdakıları diqqət mərkəzinə çıxarmışdır:

- respublikalararası iqtisadi münasibətlərin dövlətlərarası münasibətlərə transformasiyası;
- milli mənafelərin reallaşma mexanizminin yaradılması;
- xüsusi mülkiyyət münasibətlərinin formalaşdırılması və inkişafı yolu ilə böhranlı vəziyyətdən çıxmaq;
- dünya birliyinə yeni prinsiplər əsasında inteqrasiya və sair (63. s.6-7).

Azərbaycan Respublikası bu tədbirlərlə yanaşı öz strateji maraqlarına uyğun köklü iqtisadi islahatlarla keçid iqtisadiyyatını formalaşdırır.

Tarixən uzun bir dövr inzibati – amirlik iqtisadi sistemində yaşayan bir ölkənin qısa bir müddətdə sivilizasiyalı bazar münasibətlərinə keçməsi o qədər də asan vəzifə deyil. Yeni cəmiyyətə keçid həmin cəmiyyətin xüsusi ilə iqtisadi əsaslarının yaradılması göstərdiyimiz kimi keçid dövrünün mövcudluğunu zəruri edir. Bu keçid dövründə tarixən öz üstünlüyünü

downloaded from KitabYurdu.org

göstərən bazar sisteminin iqtisadi əsaslarının yaradılması vəzifəsi yerinə yetirilir. Sosializm dövründə qanunla qadağan olunan xüsusi mülkiyyət münsabətlərinin bərpası və onun hərtərəfli inkişafı üçün əlverişli şəraitin yaradılması, mərkəzləşdirilmiş planlaşdırmaya əsaslanan inzibati – amirlik təsərrüfat mexanizmindən imtina etməklə milli iqtisadiyyatın və bazar mexanizminin yaradılması keçid dövründə həll olunması zəruri olan problemlərin strateji istiqamətlərini müəyyənləşdirir.

Uzun müddət insanlarda xüsusi mülkiyyətçilik hissinin boğulması, ictimai mülkiyyətə «sahibsizlik» hissinin aşılanması nəticə etibarı ilə maddi nemətlərin qıtlığına gətirib çıxartdı ki, bu da əhalinin güzaranının günü-gündən pisləşməsinə səbəb oldu.

Sosialist təsərrüfat mexanizminin dəyişən iqtisadi şəraitə uyğun olaraq o qədər də çevik olmaması, planlaşdırmanın müəssisələrin fəaliyyətini məhdud bir çərçivəyə salması istehsalın nəticəsinə onların marağını azaldırdı. Təsərrüfat subyektləri arasında rəqabətin olmaması, onun formal olaraq sosializm yarışı ilə əvəz edilməsi, qiymətqoymada dövlət inhisarının mövcudluğu, tələb və təklifin nəzərə alınmaması günü-gündən müəssisələrin iqtisadi göstəricilərinin pisləşməsinə, xüsusi ilə də resurslardan səmərəsiz istifadəyə gətirib çıxarırdı. Həm cəmiyyət miqyasında, həm də müəssisə səviyyəsində mülkiyyət münasibətlərinin həddindən artıq deformasiyaya uğraması tədricən iqtisadi sistemin əsaslarının dağıdılması ilə nəticələndi. İctimai mülkiyyətin idarəedicisi və sərəncamvericisi kimi çıxış edən bürokratik dövlət idarəetmə aparatı özünü ümumxalq mülkiyyətinin sahibi kimi apararaq ondan şəxsi varlanma mənbəyi kimi istifadə edirdi. Müəssisə ümumxalq mülkiyyətində olmasına baxmayaraq onu idarə edən dövlət məmurununku hesab olunurdu. Bütün bunlar, nəticə etibarı ilə ictimai mülkiyyətin kifayət dərəcədə çevik reallaşma mexanizminə malik olmamasına və bölgüdə ədalətsizliyin meydana gəlməsinə əlverişli zəmin yaratmışdır. Kifayət dərəcədə təbii zənginliyə və canlı iş qüvvəsinə malik olmasına baxmayaraq

downloaded from KitabYurdu.org

SSRİ kimi nəhəng bir ölkədə hətta zəruri yaşayış vasitələrinin çatışmazlığı baş verdi. Cəmiyyətin «qıtlıq iqtisadiyyatı» şəraitində yaşaması adi bir hal alırdı.

SSRİ-nin və bütövlükdə sosialist ölkələrinin kapitalist ölkələri ilə yanaşı mövcudluğu müxtəlif quruluşlu ölkələrin iqtisadi əsaslarının müqayisəsinə imkan verirdi. Təbii zənginliyi ilə bir-birindən o qədər də çox fərqlənməyən Qərbi Avropanın ölkələri bazar iqtisadiyyatının üstünlüklərindən istifadə edərək Şərqi Avropa sosialist ölkələrindən çox yüksək sürətlə inkişaf etmişdir. Hətta eyni bir coğrafi şəraitdə yerləşən və eyni bir millətin iki dövləti olan Almaniya Federativ Respublikası ADR ilə müqayisədə çox yüksək iqtisadi inkişafa nail olmuşdur. Baxmayaraq ki, SSRİ hökuməti hər vasitə ilə Demokratik Almaniyaya yardım edirdi. Yaponiyanın təbii zənginlik baxımından bir sıra sosialist ölkələrindən geri qalmasına baxmayaraq o, sənaye cəhətdən inkişaf etmiş yeddi ölkədən biridir.

SSRİ – nin dağılması nəticəsində Azərbaycan siyasi müstəqilliyini yenidən bərpa etmişdir. Lakin uzun müddət cəmiyyətin iqtisadi əsaslarında köklü dəyişiklik etmədən, iqtisadi müstəqilliyə nail olmadan müstəqil, sözün tam mənasında suveren dövlət yaratmaq mümkün deyil. Azərbaycan bu gün belə bir şansa malikdir. O, artıq özünün siyasi və iqtisadi ariyentasiyasını seçmişdir. Bəyan edilmişdir ki, əsasını xüsusi mülkiyyətin çoxnövlüyü təşkil edən sosial yönümlü bazar iqtisadiyyatı və demokratik cəmiyyət qurulur. Azərbaycanın əlverişli təbii coğrafi şəraiti, kifayət dərəcədə zənginliyi imkan verir ki, cəmiyyətin iqtisadi əsaslarında köklü dəyişikliklər etməklə, nisbətən qısa bir müddətdə xüsusi mülkiyyət münasibətlərini formalaşdırmaqla, təbii sərvətlərimizi milli məqsədlərimizin ödənilməsinə yönəldilsin.

Xüsusi mülkiyyət münasibətlərinin formalaşdırlması tədricən yeni təsərrüfatçılıq səriştəsi də yaratmağa imkan verir.

Dövlət tərəfindən xüsusi mülkiyyətin formalaşmasının hüquqi bazasının yaradılması, digər şərtlərlə qarşılıqlı əlaqədə bazar mühitini formalaşdıracaq. Xüsusi müəssisələrin yaradıl-

downloaded from KitabYurdu.org

ması və onlar arasındakı əlaqənin bazar prinsipləri əsasında həyata keçirilməsi təsərrüfatçılığın bazar mexanizminin formalaşmasına və fəaliyyətinə əlverişli şərait yaradır.

Bu problemlərin həlli xüsusi ilə iqtisadi nəzəriyyə qarşısında mühüm vəzifələr qoyur. Bu baxımdan T.Ə. Quliyevin mövqeyi maraq doğurur. O, hesab edir ki, keçid dövrü «iqtisadi nəzəriyyədən» nəzəri və dərketmə (idrak) funksiyasını müvəffəqiyyətlə yerinə yetirməyi tələb edir. (64. s. 8).

İqtisadi nəzəriyyənin öz funksiyalarını müvəffəqiyyətlə yerinə yetirməsi hər şeydən əvvəl keçid dövründə kifayət dərəcədə mükəmməl iqtisadi nəzəriyyənin özünün formalaşmasından asılıdır. Belə ki, keçid dövrünün konseptual nəzəri əsasının işlənib hazırlanması «iqtisadi nəzəriyyə» elmindən əhəmiyyətli dərəcədə asılıdır. Artıq «iqtisadi nəzəriyyə» elmi və bu sahədə fəaliyyət göstərən alimlərin səviyyəsi imkan verir ki, kifayət dərəcədə spesifikliyə malik olan Azərbaycan iqtisadiyyatında keçid dövrünün formalaşması qanunauyğunluqlarını və xüsusiyyətlərini araşdırıb yeni yaranan iqtisadi sistemin konseptual əsaslarını müəyyənləşdirsinlər.

Bu konseptual bazaya uyğun olaraq Azərbaycanın qarşısında duran mühüm iqtisadi strateji problem özəlləşdirilmə yolu ilə iqtisadiyyatın əsaslarını yaradacaq xüsusi mülkiyyətin yaradılması və xüsusi mülkiyyət vasitəsi ilə düşdüyümüz böhranlı vəziyyətdən çıxmaqdan ibarətdir. Azərbaycan Respublikasının 15 ildən yuxarı müstəqilliyi dövründə həyata keçirilən iqtisadi islahatlar həm xüsusi mülkiyyətin formalaşdırılması baxımından, həm də xüsusi mülkiyyətin iqtisadi inkişafa dinamiklik vermək imkanı baxımından onun ən mütərəqqi mülkiyyət forması almasını sübut etmişdir.

Azərbaycan Respublikasında özəlləşdirmənin hər üç mərhələsi başa çatdıqdan sonra ümumi əmlakın 30% -nin dövlət bölməsini, 70% -nin isə özəl sektoru formalaşdırması nəzərdə tutulub.

downloaded from KitabYurdu.org

Dövlətsizləşdirmənin həyata keçirilməsi mülkiyyətin çoxnövlülüyünün (əsas mülkiyyət formaları; özəl (xüsusi) dövlət bələdiyyə mülkiyyəti) inkişafına əlverişli şərait yaradır.

Azərbaycanda tarixən xüsusi mülkiyyətçilik meyli, sahibkarlıq hissi güclü olmuşdur. Hətta, Azərbaycan mütəfəkkirləri cəmiyyətin tərəqqisini xüsusi mülkiyyət münasibətlərinin inkişafında görürdülər. Xüsusi mülkiyyət münasibətlərinin cəmiyyətin iqtisadi tərəqqisinin əsası olması problemi M. F. Axundovun əsərlərində də qabarıq şəkildə öz əksini tapmışdır. «Aldanmış Kəvakib» povestində, xüsusi ilə «Kəmal-üd-Dövlə məktubları» (8, s. 171,195) əsərində azadlıq, bərabərlik və ədalətlilik prinsiplərinə əsaslanan cəmiyyətin yaradılması tədbirlərindən danışılırdı. O, göstərirdi ki, sosial münasibətlərin yeniləşməsi nəticəsində yaranan yeni cəmiyyət insanların şəxsi hüquqi azadlığına və istehsal vasitələri üzərində xüsusi mülkiyyətə əsaslanacaq.

Tarixən xüsusi mülkiyyətin formalaşması və inkişafında ticarət əhəmiyyətli rol oynamışdır. Azərbaycanın əlverişli təbii – coğrafi şəraiti və mövqeyi, xüsusi ilə Avropa ilə Asiyanın kəsişməsində yerləşməsi, ölkəmizdə hələ orta əsrlərdən ticarətin geniş vüsət almasına imkan yaratmışdır.

Azərbaycan Hindistanla, Orta Asiya ilə ticarət əlaqələrinə girmişdir. İndiyədək İçəri Şəhərdə qalmış «Buxaralılar karvansarası» və «Hindistanlılar karvansarası» sübut edir ki, Bakının XIV – XVI əsrlərdə bu ölkələrlə əlaqəsi çox geniş olmuşdur. Həmin dövrdə Bakı, Şəki, Quba, Şamaxı tacirləri «Böyük ipək yolu» vasitəsi ilə Avropa ölkələri, Asiya ölkələri, xüsusi ilə Çinlə geniş ticarət əlaqələri saxlayırdılar.

Azərbaycanın təbii zənginliyi artıq XIX əsrin ortalarında bu regionda sahibkarlığın sənayeyə, xüsusi ilə neft sənayesinə keçməsinə səbəb oldu. XIX əsrin 50-ci illərindən başlayaraq Bakı quberniyasında milyonçuların sayı kəskin şəkildə artmağa başlayır. Bəlkə də həmin dövrdə Bakı dünya şəhərləri arasında hər min nəfərə düşən milyonçunun sayına görə birinci

downloaded from KitabYurdu.org

yerlərdən birini tuturdu. Milyonçular iki qrupa bölünürdülər. Bir qrup milyonçular yığdıqları sərvəti digər sənaye sahələrinə yardım kimi istifadə edirdilər. Hacı Zeynalabdin Tağıyev neftxudalıqdan əldə etdiyi vəsaiti xalqın maariflənməsinə sərf etməklə yanaşı, digər sənaye sahələrinin yaranmasına da köməklik edirdi. O, dəyirman sahibi, iri fabrikant, həm də balıq sənayeçisi idi (bütün Kürətrafı və Xəzərqırağı vətəkələr onun idi). Digər qrup milyonçuları isə «sandıq» milyonçuları adlandırırdılar.

Bakı həmin dövrdə Rusiyanın quberniyalarından biri idi. XX əsrin əvvəllərindən isə Rusiyada inqilabi hərəkat genişlənməyə başlamışdır. Bu qeyri-sabitlik Bakı neft sənayesinə təsir etməyə bilməzdi. Neftdən əldə olunan gəlir xaricə axıdılır, digər sahələrin inkişafına, o cümlədən mədəniyyət obyektlərinin, mənzillərin tikintisinə az sərf olunurdu. Rusiyada Oktyabr inqilabından və XI Qızıl ordunun Azərbaycanı işğalından sonra Azərbaycan iqtisadiyyatı, bütövlükdə iqtisadiyyatımızda çox böyük xüsusi çəkiyə malik olan neft sənayesi Rusiyanın əlinə keçdi. Rusiya bütün əyalətlərində olduğu kimi Azərbaycanda da zorakılıqla inzibati – amirliyə əsaslanan sosializm qurdu. Sosializm ictimai mülkiyyətə əsaslanaraq xüsusi mülkiyyətçiliyi məhv edir, təşəbbüskarlığı, sahibkarlığı boğurdu. Sosializm bütün mövcudluğu dövründə Azərbaycan təbiətinə yad bir ünsür kimi fəaliyyət göstərərək Azərbaycan iqtisadiyyatının birtərəfli, İttifaq iqtisadiyyatından asılı şəkildə inkişafına səbəb olmuşdur. Bütün bunlara baxmayaraq, sosializm dövründə azərbaycanlılarda sahibkarlıq hissi tamamilə öldürülməmiş, müəssisələri çox vaxtı müəssisənin rəhbərininki kimi tanımışlar. Heç kəsə sirr deyil ki, xüsusi ilə ticarət obyektləri, mağazalar, bazarlar formal olaraq dövlətinki olmuşdur. Xalq arasında onların sahibi hamıya məlum idi.

Sosializmin bir iqtisadi sistem kimi öz ömrünü başa vurması bazar iqtisadi sisteminə keçidin zəruriliyi sosializmin əsaslarını təşkil edən ictimai dövlət mülkiyyətindən xüsusi mülkiyyətə keçidi şərtləndirdi.

downloaded from KitabYurdu.org

N.M. İmanov yazır: «Xalqları öz hüquqları uğrunda mübarizələrə ruhlandıran mütəfəkkirlər buna əsaslanırdılar ki, hər bir insan Allahın ona verdiyi üç böyük haqqa – yaşamaq haqqına, azadlıq haqqına və mülkiyyət haqqına sahibdirlər. İnsan oğlu azad olmadan mülkiyyət sahibi ola bilmədiyi kimi, həqiqi azadlıq mülkiyyətsiz mümkün deyildir» (94. s.41).

Sosializm insanların müəyyən hüquq və azadlıqları ilə yanaşı mülkiyyət hüququnu xüsusi ilə də özəl mülkiyyət hüququnu məhdudlaşdırmışdır. Yeni iqtisadi sistemə keçid insanların yenidən mülkiyyət hüququnun bərpasını şərtləndirir ki, bunun da başlıca mənbəyi kimi dövlət mülkiyyətinin özəlləşdirilməsi çıxış edir.

Sosialist ölkələrində dövlət mülkiyyəti digər ölkələrdəki dövlət mülkiyyətinin yaranmasının forma, metod və prinsiplərindən əsaslı şəkildə fərqləndiyindən bu ölkələrdə dövlətsizləşdirmə həyata keçirilərkən bu fərqlilik mütləq diqqət mərkəzində saxlanılmalıdır.

Xüsusi mülkiyyətə keçid zamanı elə etmək lazımdır ki, xüsusi mülkiyyətə keçidin qarşısında duran məqsədə nail olmaqla yanaşı ictimai mülkiyyətdən onu yaradanların hər biri pay ala bilsin. Təbii ki, bu da öz əksini « Azərbaycan Respublikasında dövlət mülkiyyətinin özəlləşdirilməsi haqqında» Azərbaycan Respublikasının Qanunda və «Azərbaycan Respublikasında 1995-1998-ci illərdə dövlət mülkiyyətinin özəlləşdirilməsinin Dövlət proqramı»nda tapmışdır. Ona görə də özəlləşdirilən 49 trl. manatlıq əmlakın 65%-i ölkə əhalisi arasında bərabər qaydada hər biri 4 çek olmaqla, özəlləşdirmə payı şəklində bölüşdürülüb ki, hər bir vətəndaş çeklərin paylanması başa çatdığı vaxtdan 3 il müddətində özəlləşdirilən müəssisələrin səhmlərini almaq yolu ilə ictimai dövlət mülkiyyətlərindən öz paylarını alsınlar. Doğrudur, əhalinin bir qismi özəlləşdirmə paylarını satmaq məcburiyyəti qarşısında qalıb. Lakin dövlət ilkin bərabər şərt kimi hamıya bərabər miqdarda dövlət əmlakından pay almaq imkanı yaradıb.

downloaded from KitabYurdu.org

Bazara keçid qiymətli kağızlar bazarının formalaşması ilə bu çeklərin müəyyən qrupun əlində toplanmasına şərait yaradır (71). Təbii ki, özələşdirmə yolu ilə yaranan xüsusi mülkiyyət və vətəndaşların xüsusi vəsaiti hesabına yaranan özəl sektorun işlək mexanizmə çevrilməsi iqtisadiyyatın düşdüyü böhranlı vəziyyətdən çıxarılması külli miqdarda investisiya tələb edir. Nə dövlətin, nə də ki, vətəndaşların kifəyət dərəcədə imkanlarının olmaması tələb edirdi ki, dövlət xarici kapitalı cəlb edən sahəyə investorları stimullaşdırsın. Həm də bu sahə kapital qoyuluşunun həcmi baxımından elə bir sahə olmalıdır ki, nəticədə özəl sektorun, xidmət sferasının, intellektual mülkiyyətin də inkişafına şərait yarada bilsin.

Azərbaycan iqtisadiyyatında daha cəlbedici sahə xarici kapital üçün neft sənayesidir. Azərbaycan müstəqillik əldə etdiyi vaxtdan, XIX əsrdə olduğu kimi XXI əsrin astanasında da xarici kapitalın Bakı neftinə meyli gücləndi. Artıq 12 ölkənin 20 iri neft şirkəti ilə Xəzərin enerji ehtiyatlarının birgə işlənilməsi haqqında bağlanan Kontraktlarda nəzərdə tutulan 40 mlrd. dollar xarici kapital qoyuluşu, hətta inkişaf etmiş iri dövlətlər üçün də əlçatmaz hesab olunur.

Bu Kontraktlarda Azərbaycan tərəfindən Dövlət Neft şirkəti, xarici ölkələrdən isə xüsusi şirkətlər iştirak edirlər. Neft sənayesinin Azərbaycan iqtisadiyyatındakı xüsusi çəkisi, bu strateji sahənin inkişafı bütövlükdə iqtisadiyyatın dirçəlməsinə, maliyyə sabitliyinin yaranmasına, özəlləşmənin maddi təminatına, xüsusi mülkiyyət münasibətlərinin dirçəlməsinə şərait yaratdı.

Neft Kontraktları hesabına daxil olan xarici valyuta manatın sabitliyini təmin etməklə infilyasiyanın yüksək səviyyəsinin qarşısı alınır, əhalinin pul gəlirləri tədricən yüksəlir və əhali pulla özəlləşmədə iştirak etmək imkanı əldə edir. Neft hasilatı zamanı tətbiq olunan qərb texnologiyası neft sənayesi işçilərinin texniki biliklərini təkmilləşdirir, neft maşınqayırma müəssəsələri bu texnoloji nümunələrdən və texniki yeniliklərdən öz istehsal proseslərində istifadə edir, texniki-təhsil müəssisələri kadr hazırlığını bu tələblər əsasında qurur.

downloaded from KitabYurdu.org

Respublikamızda iqtisadiyyatın strateji sahəsi müəyyənləşdirilmiş və bu strateji istiqamət nəinki neft sənayesinin inkişafına əlverişli şərait yaradılması ilə səciyyələnir, həm də bu aparıcı həlqədən səmərəli istifadə nəticəsində iqtisadi, mənəvi, sosial sfera kompleks şəkildə inkişaf etdirilir. 2006-cı ilin 1V rübündə Neft fondunda 1,4 mlrd. ABŞ dolları məbləğində valyutamız olmuşdur ki, bu da kifayət dərəcədə sosial-iqtisadi problemlərin də həllinə şərait yaradır.

Müasir mərhələdə iqtisadiyyatın dövlət bölməsi özəlləşməyə əlverişli şərait yaratmaqla, ölkənin düşdüyü böhranlı vəziyyətdən çıxmasında əhəmiyyətli rol oynayır. Bütün bu problemlərin həlli zamanı ölkəmizə müsəlman ölkələrinin təsirini öz milli və mənəvi, dini dəyərlərimizə qayıdışı diqqət mərkəzindən kənarda qoymaq olmaz. Bu baxımdan, islam iqtisadiyyatının tələblərinə uyğun «əmlak və mülkiyyətlə bağlı münasibətlər bəsit və donuq şəkildə deyil, daima inkişafda dinamik şəkildə götürülür» (84. s.150) prinsipinə də əməl edilməlidir. Ona görə də mövcud reallığı nəzərə almaqla kənar neqativ halların mənfi təsirindən təcrid olunmaqla milli maraqlarımıza uyğun özəl mülkiyyətin formalaşdırılmasına üstünlük verilməlidir. Belə ki, ifratçılığa varmadan bütün mərhələlərdə dövlət sektoru ilə özəl sektorun optimal nisbətinin gözlənilməsi diqqət mərkəzində olmalıdır. Özəlləşdirilmə özəlləşdirilmə xatirinə deyil, iqtisadiyyatın düşdüyü böhranlı vəziyyətdən çıxmasının başlıca amili kimi həyata keçirilməlidir.

Bütün bunlarla yanaşı, keçmiş sosialist ölkələrində bazar münasibətlərinə keçidlə əlaqədar özəlləşdirmənin İngiltərə, Latın Amerikası və bir sıra digər ölkələrdəki özəlləşdirmədən məqsədini, prinsiplərini fərqləndirməsək, nəticə etibarı ilə ölkəmizdə özəlləşdirmə təhrif olunmuş formada həyata keçirilmiş olar.

Bazar iqtisadiyyatı sistemi ölkələrində özəlləşdirmə dövlət bölməsinin ümumi əmlakda payının optimal həcmi keçməsi nəticəsində səmərəli fəaliyyət göstərmək imkanının məhdud-

downloaded from KitabYurdu.org

laşması üzündən meydana gəlir. Dövlət öz mülkiyyətində olan müəyyən sahələri xüsusi sahibkarlara satmaqla özünün təsərrüfat yükünü optimal həddə qədər azaldır.

Keçmiş sosialist ölkələrində özəlləşdirmə tamamilə fərqli məqsəd güdür. O, hər şeydən əvvəl bazar iqtisadiyyatı sisteminin əsaslarını təşkil edən xüsusi mülkiyyət münasibətlərinin formalaşmasını, ictimai dövlət mülkiyyətinin bir hissəsini bunu yaradanlara əvəzsiz, ədalətli bərabər pay şəklində qaytarmaqla, həmin dövlət əmlakının qalan digər hissəsinə qatılması yolu ilə dövlət büdcəsinə və sahibkarlığın inkişafını təmin edəcək digər fondlara vəsait daxil olmasını, rəqabət qabiliyyətli istehsalın formalaşmasını və sairi təmin etməlidir.

Özəlləşdirmə sahəsində dünya ölkələrinin təcrübəsindən istifadə etməklə və Azərbaycan iqtisadiyyatının xüsusiyyətlərini nəzərə almaqla, ölkəmizdə özəlləşdirmənin həyata keçirilməsinin müvəffəqiyyətini təmin etmək üçün kifayət dərəcədə imkan var. Bu imkanın gerçəkləşməsi özəlləşdirməni həyata keçirən dövlət orqanından xüsusi ilə çevik fəaliyyət göstərməyi tələb edir.

Artıq Azərbaycan Respublikasında dövlət mülkiyyətinin özəlləşdirilməsi sahəsində həyata keçirilən tədbirlərin əsasını xüsusi mülkiyyət münasibətləri təşkil edən bazar iqtisadiyyatı həyatımızın reallığına çevıirmişdir. Təsərrüfat subyektləri arasındakı iqtisadi münasibətlər əsasən bazar prinsipləri ilə tənzimlənir, Ümumi Daxili Məhsulun 80%-dən çoxu özəl bölmədə yaranır, dövlət büdcəsinin formalaşmasında hələlik zəif də olsa müəyyən hədd daxilində iştirak edir.

Təbii ki, dövlətsizləşdirmə zamanı yol verilən neqativ hallar onun səmərəlilik dərəcəsini aşağı salmış, əhalinin geniş kütləsinin sahibkarlıq fəaliyyətinə cəlb olunmasına imkan verməmişdir.

Mülkiyyət münasibətlərinin tarixi təkamülü iqtisadi sistemlərin yeniləşməsinin əsası kimi çıxış etmişdir. Ölkələr məhsuldar qüvvələrin inkişafı baxımından ən yüksək səviyyəyə

downloaded from KitabYurdu.org

xüsusi mülkiyyətin çoxnövlüyü şəraitində nail olmuşlar. İqtisadi əsasını mülkiyyətin çoxnövlüyü təşkil edən kapitalizmin yerinə inqilabi yolla gələn sosializm hakim mülkiyyət forması olan ictimai mülkiyyəti formalaşdırmaqla mülkiyyət münasibətlərində köklü dəyişikliklər etdi.

İnzibati amirlik iqtisadi sistemi şəraitində hakim mövqeyə malik olan ictimai mülkiyyət nəticə etibarı ilə cəmiyyətin iqtisadi məqsədlərinin reallaşmamasına gətirib çıxardı. Kifayət dərəcədə təbii zənginliyə malik olan SSRİ-də əsas zəruri yaşayış vasitələrinin 80-cı illərdən başlayaraq «qıtlığı» yaranırdı. İctimai mülkiyyətin özünü təsdiq edə bilmədiyi artıq həmin dövrdən heç kimdə şübhə doğurmurdu. Ona görə də ictimai mülkiyyətin «reanimasiyasına» istiqamətləndirilmiş kosmetik tədbirlər də (fərdi əmək fəaliyyətinin genişləndirilməsi, müəssisələrin müstəqilliyinin nisbətən genişləndirilməsi) heç bir müsbət nəticə vermədi. Bu cür tarixi təcrübənin mövcudluğu sosializm lagerinə daxil olan ölkələrin sosialist inkişaf yolundan imtina etməsinə gətirib çıxardı. SSRİ-nin dağılması hələ sosializmdən imtina demək deyildir. Lakin ittifaqa daxil olan bütün respublikalar ictimai mülkiyyətdən imtina edərək bazar iqtisadiyyatına keçidi, xüsusi mülkiyyət münasibətlərinin əsaslarının yaradılmasını qarşılarına strateji milli məqsəd kimi qoydular. Azərbaycan Respublikası da müstəqilliyinin ilk çağlarından başlayaraq yeni iqtisadi sistemin əsaslarını yaratmağa başlamışdır. Bütün bunları nəzərə alaraq prof.T.S.Vəliyev yazırdı: «Müstəqil inkişaf yoluna qədəm qoyan Azərbaycan üçün mövcud iqtisadi şəraitdə demokratikləşmə relsinə salmaqdan ötrü ilk əvvəl onun əsasını təşkil edən ictimai mülkiyyət münasibətlərində köklü dəyişikliyə nail olmaq lazımdır». (122, s.228)

İqtisadi sistemin transformasiyası hər şeydən əvvəl mülkiyyət münasibətlərinin yeniləşməsini tələb edir. İnzibati-amirlik iqtisadi sisteminin iqtisadi əsasını təşkil edən ictimai mülkiyyətin transformasiyasının elmi cəhətdən əsaslandırılması iqtisadçı alimlər qarşısında mühüm vəzifələr qoyurdu. Bu vəzifələrdən ən mühümləri yeni yaranacaq mülkiyyət

downloaded from KitabYurdu.org

münasibətlərinin hüquqi bazasının real gerçəkliyə uyğunluğu meyarlarının dəqiqləşdirilməsi, xüsusi mülkiyyətin formalaşmasının əsasını təşkil edən dövlət mülkiyyətinin özəlləşdirilməsinin forma, metod və prinsiplərinin müəyyənləşdirilməsindən ibarət idi. Bu problemlərin konseptual əsasda işlənib hazırlanması daha çox iqtisadi nəzəriyyənin predmetinə uyğun gəlirdi. Mövcudluğu dövründə hakim mülkiyyət formasına çevrilmiş dövlət mülkiyyətindən mülkiyyətin çoxnövlüyünə keçidin iqtisadi-nəzəri problemlərini dövlət əhəmiyyətli ümummilli bir problem kimi işləyib hazırlamadan onun əvvəlcədən gözlənilən müsbət nəticə verəcəyinə inanmaq mümkün deyildi. Bütün bunları nəzərə alaraq rus iqtisadçıları İ.Morozov və S.Pavenski yazırdı: «Məsələyə iqtisadi nəzəriyyə mövqeyindən yanaşma özəlləşdirmə – mülkiyyətçinin dəyişdirilməsi cəmiyyətin inkişafı məsuliyyətini, bölüşdürməyi məsuliyyətini öz üzərinə götürməyə hazır olan cəmiyyətin hər bir üzvünün cavabdehliyinin müəyyən edilməsidir». (88, s.36)

Keçid dövründə həyata keçirilən tədbirlər təbii ki, cəmiyyətin formalaşmış strukturunu da nəzərə almalıdır. Bütün bunların nəzərə alınması yeni iqtisadi sistemin formalaşması prosesində mülkiyyətin bütün növlərinin inkişafına əlverişli şərait yaradılmasını şərtləndirir. Belə ki, «İndi, demokratikləşmə məzmunu ifadə edən azad iqtisadiyyatın, bazar iqtisadiyyatının təbiətinə tam uyğun gələn yeni mahiyyətli fərdiləşmiş rəngarəng mülkiyyət formalarının təşəkkül prosesi obyektiv bir qanunauyğunluq kimi çıxış edir» (124, s.6) fikri də dediklərimizin, digər iqtisadçıların da diqqətini cəlb etdiyini söyləməyə imkan verir. Mülkiyyət münasibətlərinin yeniləşməsi isə keçid dövründə həyata keçirilən tədbirləri özündə əks etdirməklə, mülkiyyətin çoxnövlüyünə şərait yaratmaqla tədricən bazar münasibətlərini formalaşdırır. Yeni iqtisadi sistemin formalaşmasının müvəffəqiyyətliliyi mülkiyyətin müxtəlif növlərinin bərabər hüququnun reallaşdırılmasına əlverişli şəraitin yaradılmasından başlanır. Mülkiyyətin çoxnövlüyünün yaradılması isə fərqli formalarda həyata keçirilir. Mülkiyyətin çoxnövlüyünün yaradılmasının ilkin mərhələsi üçün əhalinin şəxsi

downloaded from KitabYurdu.org

vəsaitindən sahibkarlıq fəaliyyəti ilə məşğul olması üçün əlverişli şərait yaradılması xarakterikdir. Əhalinin məhdud bir hissəsi də olsa müəyyən şəxsi vəsaitə malikdir. Həmin vəsaitlərin fəallığının təmin edilməsi kooperativ hərəkatının və kommersiya fəaliyyətinin genişlənməsinə şərait yaratmışdır. Sonralar həmin əhali qrupu fəaliyyət dairələrini alqı-satqı ilə məhdudlaşdırmadılar. Gəlirlərini investisiya kimi istehsal dairəsinə tətbiq etməyə başladılar. Xüsusilə tikinti sahəsi (mənzil tikintisi) bu kapitallar üçün cəlbedici olmuşdur.

Mülkiyyətin çoxnövlüyünün yaradılmasının əsas mərhələsi dövlətsizləşdirmə və özəlləşdirmə vasitəsi ilə həyata keçirilir.

İqtisadi ədəbiyyatda dövlətsizləşdirmə dedikdə dövlətin iqtisadiyyata birbaşa idarəetmə mexanizminin ləğvi yolu ilə uyğun səlahiyyətlərin mülkiyyətin xarakterini dəyişmədən müəssisə səviyyəsinə endirilməsi başa düşülür. Bu iqtisadi mənadan fərqli olaraq inzibati-amirlik iqtisadi sistemindən bazar iqtisadiyyatına keçid dövründə həyata keçirilən dövlətsizləşdirmə mülkiyyətin xarakterində də müəyyən dəyişiklik baş verməsini şərtləndirir. Mülkiyyətin xarakterində baş verən dəyişiklik mövcud cəmiyyətin, iqtisadi təbiətindən irəli gələn məzmunda keyfiyyət dəyişikliyi ilə müşahidə olunur. Bu keyfiyyət dəyişiklikləri mülkiyyət münasibətlərinin reallaşmasına əngəl törədən şəraitin aradan qaldırılmasını stimullaşdırır. Sosializm şəraitindəki dövlət mülkiyyəti ümumxalq mülkiyyəti əsasında formalaşdığı üçün onun dövlətsizləşdirilməsi həmin əmlakın müəyyən bir hissəsinin bərabər şərtlər daxilində dövlətin nüfuz dairəsindən çıxarılmasını tələb edir. Özəlləşdirmə isə dövlətsizləşdirmədən fərqli olaraq dövlət və bələdiyyə mülkiyyətinin xüsusi və ya kollektiv təsərrüfat subyektinə müxtəlif şərtlər daxilində verilməsi və ya satılması yolu ilə mülkiyyət münasibətlərinin yeniləşməsidir.

Deməli, özəl bölmənin yaradılmasının əsas mənbəyi kimi çıxış edən dövlətsizləşdirmə və özəlləşdirmə çox yaxın bir məna kəsb etmələrinə baxmayaraq müəyyən fərqli cəhətləri də

downloaded from KitabYurdu.org

özlərində ehtiva etdirirlər. Bu fərqlənmə bazar sistemli ölkələrdə dövlətsizləşdirmə, özəlləşdirmə həyata keçirilərkən özünü qabarıq şəkildə göstərir. Bu ölkələrdə həyata keçirilən dövlətsizləşdirmə dövlət mülkiyyətinin öz optimal hədd həcmini aşmasından irəli gəlir. Mülkiyyətin miqyası elə bir həddə gəlib çatır ki, artıq dövlət müəssisəsi iqtisadi cəhətdən səmərəli fəaliyyət göstərə bilmir. Dövlət müəssisənin səhmlərinin bir hissəsini satmaq yolu ilə ya qarışıq mülkiyyət əsasında fəaliyyət göstərən nisbətən çevik səhmdar cəmiyyəti yaradılır, yaxud da ümumiyyətlə müəssisəni satmaq yolu ilə xüsusi kapital tərəfindən onun özəlləşdirilməsinə nail olunur.

Özəlləşdirmənin mahiyyəti haqqında iqtisadi ədəbiyyatda fərqli baxışların olmasına baxmayaraq, özəlləşdirmə dövlətsizləşdirmənin tərkib hissəsidir. Bütün bunlarla yanaşı dövlətsizləşdirmə iqtisadiyyatın idarəedilməsinin liberallaşdırılmasını, iqtisadi tənzimlənmə imkanlarının genişlənməsini, dövlət müəssisələrinin iqtisadi əlaqələrinin bazar prinsipi əsasında qurulması və bazarın liberallaşdırılmasını da özündə əks etdirir.

Geniş mənada özəlləşdirmə dövlətin iqtisadiyyata müdaxiləsi dairəsini məhdudlaşdırmaqla, dövlətin təsərrüfatçılıq funksiyasının zəifləməsinə gətirib çıxarır.

İnzibati-amirlik iqtisadi sistemindən bazar iqtisadiyyatına keçid dövründə həyata keçirilən bu tədbirlər mülkiyyətin çoxnövlüyünü yaratmaqla bütövlükdə bazar iqtisadiyyatının əsaslarını yaradır. Bütün bunlar keçid dövründə həyata keçirilən tədbirlərin mahiyyətini əks etdirməklə yeni yaradılan iqtisadi münasibətlərin məzmununu ifadə edir.

Özəlləşdirmə əsasında yaranan xüsusi mülkiyyət münasibətləri kütlələrdə sahibkarlıq hissi aşılamaqla yanaşı bazarın iqtisadi ilkin şərtləri formalaşır, resurslardan səmərəli istifadənin bazar mexanizmini yaradır. Ona görə də özəlləşdirmənin məqsədinin reallaşması keçid dövründə həyata keçirilən iqtisadi tədbirlərlə ahəngdar səslənir. Bu, hər şeydən əvvəl, öz əksini aşağıdakılarda tapır:

downloaded from KitabYurdu.org

- təsərrüfat subyektlərinin səmərəli fəaliyyətinin təşkili, rəqabətin təmin edilməsi və bazar mühitinin formalaşması;
- struktur siyasəti; iqtisadiyyatda quruluş dəyişikliklərinin həyata keçirilməsi;
- ehtiyatların dövriyyəyə cəlb olunmasının səmərəli mexanizminin yaradılması və bu məqsədə çatmaq üçün aşağıdakıların həyata keçirilməsi:
- yeni mülkiyyət münasibətləri şəraitində sərbəst təsərrüfat subyektləri arasında iqtisadi münasibətləri tənzimləyən qanunvericilik və digər hüquqi aktların qəbul edilməsi;
- dövlət müəssisələrinin kommersiyalaşdırılması və səhmləşdirilməsi, onların daxili və xarici bazarlarda rəqabət qabiliyyətini artırmaq üçün tədbirlərin həyata keçirilməsi; müəssisələrin yenidən qurulması və modernləşdirilməsi;
- milli iqtisadiyyatın inkişafının önəmli istiqamətlərinin müəyyənləşdirilməsi və texnoloji yeniliyin tətbiqini təmin etmək;
- investisiya hərracları təşkil edərək milli iqtisadiyyata kapitalın cəlb edilməsi, özəlləşdirilən müəssisələrin qiymətli kağızlarının satışının təşkili. (17)

Dövlətsizləşdirmə və özəlləşdirmə prosesində tələsmək olmaz. Bu zaman tələsik qanunlar, xüsusən icra mexanizmi olmayan qərarların qəbul edilməsi yolverilməzdir.

Tələsmədən həyati əhəmiyyətli, hərtərəfli düşünülmüş respublika səviyyəsində qanunlar qəbul edildikdən sonra mülkiyyətin dövlətsizləşdirilməsi prosesi nə qədər çox kütləviləşdirilərsə və nə qədər tez leqallaşdırılarsa, həqiqi real bazarın formalaşmasına aparan işgüzar, azad sahibkarlığın formalaşmasına daha əlverişli şərait yaradılmış olur. Düzgün yol seçilməzsə həqiqi sahibkarların meydana gəlməsi ləngiyər və real bazarın formalaşması məsələsinin həlli də çətinləşər.

downloaded from KitabYurdu.org

Azərbaycanda iqtisadi islahatlara digər MDB ölkələrinə nisbətən gec başlanması ona bir sıra üstünlüklər vermişdi. Biz bu yolu keçmiş və ya keçməkdə olan digər ölkələrin təcrübəsini öyrənmək və onların buraxdığı səhvləri təkrarlamamaq imkanı qazanmışıq. Digər tərəfdən, mövcud iqtisadi əlaqələrin qısa müddətdə qəflətən kəsilməsi, maliyyə sisteminin pozulması, inflyasiyanın tüğyan etməsi və bütövlükdə istehsalın bir çox sahələrdə dayanmaq dərəcəsinə qədər aşağı düşməsi ilə müşayiət olunan iqtisadi böhran şəraitində özəlləşdirməyə başlamaq onsuz da ağrılı keçən bu prosesi bir qədər də çətinləşdirərdi. Təcrübə göstərir ki, müəyyən dərəcədə makroiqtisadi sabitliyə nail olmadan, özəlləşdirməyə başlamaq bu prosesin səmərəliliyini bəri başdan azaltmaq deməkdir. Milli iqtisadiyyatın formalaşdırıldığı şəraitdə milli xüsusiyyətlərə uyğun gələn mikroiqtisadiyyatı yaratmadan makroiqtisadi sabitliyə nail olmaq mümkün deyil.

Məhz bunları nəzərə alan i.e.d. Ş.S.Qafarov yazırdı: «Keçmiş iqtisadi sistemdən fərqli olaraq respublikanın öz milli xüsusiyyətlərinə uyğun olan mikroiqtisadiyyatının formalaşması obyektiv zəzurətə çevrilmişdir. Azərbaycanın müstəqil iqtisadi sisteminin formalaşması, mülkiyyətin və mənimsəmənin nəticələrinin milli mənafeyə tabe edilməsi, siyasi, iqtisadi, sosial və mənəvi özünüidarəetmə formalarının təsdiqi bir daha Azərbaycan mikroiqtisadi sisteminin reallığını ifadə edən və səciyyələndirən cəhətlərdir» (67. s.163).

Azərbaycanda bilavasitə özəlləşdirməyə başlamazdan əvvəl onun hüquqi normativ bazasının yaradılması bu prosesin kortəbii deyil, sistemli aparılmasını təmin edən amillərdəndir. Unutmaq olmaz ki, bir o qədər də sabit olmayan 1994-1995-ci illərdə iqtisadiyyatımızın liberallaşmasına, özəl sektorun inkişafına təkan verən, bütövlükdə isə sərbəst bazar iqtisadiyyatı yaradılmasının hüquqi bazası olan bir çox zəruri qanunlar və normativ sənədlər qəbul edilmişdir. Onların ən dəyərlilərindən biri də şübhəsiz ki, «Azərbaycan Respublika-

downloaded from KitabYurdu.org

sında 1995-1998-ci illərdə dövlət mülkiyyətinin özəlləşdirilməsinin Dövlət Proqramı»dır.

Özəlləşdirmənin I Dövlət Proqramının reallaşması zamanı müəyyən nöqsanlara yol verilməsinə baxmayaraq o, Azərbaycan iqtisadiyyatında bazar strukturlarının formalaşdırılmasında, bazar iqtisadiyyatının əsaslarının yaradılmasında əvəzsiz rol oynamışdır. Aşağıdakı cədvəl dediklərimizi əyani şəkildə sübut edir.

**Cədvəl 2.1**

**Azərbaycanda özəlləşdirmənin I Dövlət proqramının reallaşmasının nəticələri (30)**

| Göstəriciləri | Kəmiyyəti |
|---|---|
| özəlləşdirilmiş kiçik müəssisə və obyektlərin sayı | 20620 |
| özəlləşdirilmiş orta və iri müəssisələrin sayı | 1065 |
| səhmdarların ümumi sayı (nəfər) | 60721 |
| onlardan:<br>qapalı yazılışın nəticələri | 41512 |
| çek hərraclarının nəticələri | 19156 |
| pullu hərracların nəticələri | 153 |
| bütövlükdə özəlləşdirmə zamanı istifadə olunan çeklərin sayı (ədəd) | 300000 |
| onlardan:<br>kiçik özəlləşdirməyə | 260000 |
| çek hərraclarına qapalı yazılış | 40000 |
| istifadə olunmuş çeklərin xüsusi çəkisi % | 11 |
| mlrd.manat | 300 |
| ABŞ dolları ilə (mln) | 75 |

Özəlləşdirmənin I Dövlət Proqramının əsas üstünlüyü müvafiq dünya təcrübəsinin tənqidi yaradıcılıqla öyrənilməsi və yerli şəraitin, ən başlıcası isə xalqımızın milli mentalitetinin nəzərə alınmasında tapmasıdır. Keçid dövrünün ilkin mərhələsində əhalinin çox böyük hissəsi kiçik sahibkarlıqla məşğul olmaq imkanı əldə etmişdi (Qanunvericilik bazasının yaradılması ilə). Cədvəldən də göründüyü kimi qısa müddətlə (1995-1998-ci illərdə) 20620 kiçik müəssisə özəlləşdirilmiş, bu müəssisələrin özəlləşdirilməsinə 260000 çek cəlb olunmuşdu. İstər

downloaded from KitabYurdu.org

strateji, istərsə də taktiki məsələlərdə ifratçılığa yol verilməməsi, dövlətsizləşdirmənin bütün mərhələlərində və sahələrində tarazlığın təmin edilməsinə çalışılması da Azərbaycanda özəlləşdirmənin ən səciyyəvi cəhətlərindəndir. Bu, ilk növbədə prinsipial məsələ olan özəlləşdirmənin aparılması üsulları və formaları ilə bağlıdır. Belə ki, bir sıra ölkələrdə (Rusiya, Çexiya, Slovakiya, Baltikyanı dövlətlər) mülkiyyətin əhali arasında pulsuz bölüşdürülməsinə, yəni çek özəlləşdirilməsinə, bəzi ölkələrdə isə (Polşa, Bolqarıstan, Macarıstan) mülkiyyətin satılması üsuluna üstünlük verilmişdir. Azərbaycanda isə iki modelin uzlaşdırılması yolu seçilib. Çeklərin əhaliyə pulsuz paylanması və bu zaman vətəndaşlar arasında heç bir ayrı-seçkiliyə yol verilməməsi bilavasitə özəlləşdirmə zamanı əmək kollektivlərinin bir sıra güzəştlərdən istifadə edə bilməsi ayrı-ayrılıqda hər bir şəxsin maraqlarının təmin olunmasına yönəlmişdir. Dövlət mülkünün dövlətsizləşdirilməsi zamanı bütün müsbət nəticələrlə yanaşı kifayət dərəcədə pozuntulara da yol verilmişdir. Hər şeydən əvvəl əmlakın ilkin qiymətləndirilməsi ilə özəlləşdirmə zamanı qiymətləndirilməsində ciddi uyğunsuzluqlar yaranmışdır. Bunun nəticəsində özəlləşdirmənin I mərhələsinin 75 mln. ABŞ dolları məbləğində vəsait əldə olunmuşdur ki, bu da gözlənilən məbləğin cüzi bir hissəsini təşkil etmişdir. Sosializm şəraitində istehsal vasitələrinin 95%-dən çoxunun dövlət mülkiyyətində olması, həddindən çox mərkəzləşdirmənin mövcudluğu həm istehsalda, həm də idarəetmə sahəsində fərdi təşəbbüskarlığı boğurdu. İstehsal vasitələrinin müəssisələrin özəlləşdirilməsi yolu ilə vətəndaşlara qaytarılması, idarəetmə sahəsindəki inhisarçılığın aradan qaldırılması cəmiyyətin yeni iqtisadi sistemə keçməsinin əsasını təşkil edir. Yeni iqtisadi sistemin əsaslarının yaradılması isə mövcud bazisin keyfiyyətcə elə yeniləşməsini tələb edir ki, nəticədə milli məqsədlərin kifayət dərəcədə reallaşmasına xidmət edə bilən məhsuldar qüvvələr yarana bilsin. Bu istiqamətdə atılan ilkin addımlardan biri istehsal amillərinin birləşməsinin bazar mexanizminin yaradılmasıdır. Bunun üçün məhsuldar qüvvələrin ünsürlərinin sərbəst şəkildə alınıb-satıla bilməsi

downloaded from KitabYurdu.org

şəraitinin formalaşması əhəmiyyətli rola malikdir. İstehsal vasitələrinin sərbəst şəkildə alınıb-satılması bazar iqtisadiyyatının formalaşmasının başlıca şərtlərindəndir. İstehsal vasitələrinin alqı-satqısı onun mülkiyyətçisinin dəyişilməsi ilə müşahidə olunur. Bazar iqtisadiyyatına keçidin ilkin mərhələsi üçün isə istehsal vasitələrinin mülkiyyətçisinin dəyişilməsi təkcə alqı-satqı formasında deyil, həmçinin əvəzsiz formada da həyata keçirilməlidir. Bu, hər şeydən əvvəl ictimai mülkiyyətin (sosialist ictimai mülkiyyətin) tarixən formalaşması təcrübəsindən irəli gəlir.

SSRİ-də ictimai mülkiyyət əsasən satınalma yolu ilə deyil, mülkiyyətçinin mülkiyyətinin müsadirəsi yolu ilə formalaşdırılmışdır. Təbii ki, bütün bu xüsusiyyətlər dövlət mülkiyyətinin özəlləşdirilməsi proqramında öz əksini tapmalıdır və tapmışdır. Özəlləşdirilən müəssisələrin ictimailəşmə səviyyəsindəki fərqlilik və onların mövcud iqtisadi durumu mülkiyyət münasibətlərinin yeniləşməsi zamanı özəlləşmə formasının seçilməsində xüsusi ilə diqqətli olmağı tələb edir. Bu diqqətlilik hər şeydən əvvəl dövlət mülkiyyətinin özəlləşdirilməsini həyata keçirən dövlət orqanının mülkiyyət azadlığının təmin edilməsinə yönəldilməsində öz əksini tapmalıdır. Respublikamızda bazar iqtisadiyyatının formalaşmasının nəzəri-iqtisadi problemlərinin ilkin araşdırıcıları hesab edirlər ki, «Mülkiyyət azadlığı mülkiyyətin çoxnövlüyünü şərtləndirir. Mülkiyyətin çoxnövlüyü özünü təkcə ölkənin iqtisadi quruluşunda onların müxtəlif formalarının: dövlət, kollektiv, xüsusi mülkiyyətlərin eyni zamanda yanaşı mövcudluğunda deyil, həm də onların qarşılıqlı fəaliyyətində əks etdirir». (80, s.14) Mülkiyyət münasibətlərinin əsasını təşkil edən dövlət mülkiyyətinin özəlləşdirilməsi Azərbaycan Respublikasında «Dövlət mülkiyyətinin özəlləşdirilməsinin I Dövlət Proqramı»na uyğun olaraq əsasən dörd formada aparılır:

- kiçik dövlət müəssisələrinin özəlləşdirilməsi;
- orta və iri dövlət müəssisələrinin özəlləşdirilməsi;
- səhmdar və payçı bankların özəlləşdirilməsi;

downloaded from KitabYurdu.org

- sahə və sahələrarası investisiya fondlarının səhmlərinin satışı.

Bunlardan birinci ikisi: kiçik dövlət müəssisələrinin və orta və iri dövlət müəssisələrinin özəlləşdirilməsi bazar iqtisadiyyatının əsasını təşkil edən mülkiyyətin çoxnövlüyünün yaradılmasının əsasını təşkil edir. Nəticədə əsas mülkiyyət formalarının (xüsusi, dövlət və bələdiyyə) və onların törəmə formalarının (şəxsi, fərdi, kooperativ, səhmdar, intellektual və s.) inkişafına əlverişli şərait yaranır.

Kiçik dövlət müəssisələrinin özəlləşdirilməsi bazar sistemli ölkələrdə iqtisadi inkişafın əsas təkanverici qüvvələrindən biri olan kiçik sahibkarlığın formalaşmasına gətirib çıxarır. Kiçik sahibkarlığın təşəbbüskarlıq fəaliyyətinin reallaşması isə kiçik müəssisələrdə həyata keçir. Kiçik müəssisələrin iqtisadi inkişafdakı rolu haqqında təsəvvürə malik olmaq üçün ABŞ-da müəssisələrin ümumi sayında kiçik müəssisələrin xüsusi çəkisini göstərmək kifayətdir. Bu ölkədə 20 milyona yaxın müəssisənin 90%-ə qədəri kiçik müəssisələrin payına düşür. Özəlləşdirmənin ilkin mərhələsi kimi çıxış edən kiçik özəlləşdirmə zamanı kiçik dövlət müəssisələrinin özəlləşdirilməsi ilə yanaşı vətəndaşların məhdud məbləğdə olan vəsaiti hesabına kiçik özəl müəssisələr də yaradılır. Bazar sisteminə keçən ölkələrdə kiçik özəl müəssisələrin yaradılması imkanı orta və iri müəssisələrə nisbətən daha genişdir. Bu, hər şeydən əvvəl kiçik müəssisələrin az kapital qoyuluşu tələb etməsindən və fəaliyyət xüsusiyyətindən irəli gəlir. Müəssisələrin işçilərinin sayına görə qruplaşdırılması zamanı Azərbaycan qanunvericiliyinə görə işçinin sayı 10-dan - 50-yə qədər olan müəssisələr sənayedə kiçik müəssisələrə aid edilir ki, keçid dövründə bu cür müəssisələrin təşkili nisbətən asan olur. Digər tərəfdən, kiçik müəssisələr əsasən yerli bazar üçün işlədiyindən kiçik həcmli məhsullar və mövsümü mallar istehsal etdiklərindən nisbi əlverişli şəraitə malik olmaq üstünlükləri var.

Kiçik müəssisələrin bu cür iqtisadi cəhətdən əlverişliliyə malik olması özəlləşdirmə zamanı da özünü qabarıq şəkildə

downloaded from KitabYurdu.org

göstərmişdir. Özəlləşdirilən müəssisələr arasında kiçik müəssisələr daha çox xüsusi çəkiyə malikdir.

Dövlət Əmlak Komitəsi tərəfindən 1996-2006-cı illərdə 27270-dən çox kiçik müəssisə özəlləşdirilmişdir. Onlardan 9918-i məişət xidməti, 3322-dən çoxu ticarət müəssisə və obyekti, 595-i çörək ticarəti və çörək bişirmə obyekti, 799-dan çox sənaye müəssisəsi, 418-i tikinti müəssisəsi, 7538-i nəqliyyat vasitəsi, 554-ü yanacaqdoldurma məntəqəsi və digər obyektlərdir (50). Artıq demək olar ki, kiçik özəlləşdirmə başa çatmışdır. Kiçik özəlləşdirmə zamanı bir sıra çətinliklər özünü göstərmişdir. Bü çətinliyin ən mühümlərindən biri kiçik dövlət müəssisələrinin əmlakının qiymətləndirilməsi olmuşdur. Hələ 80-ci illərin ortalarından dövlət müəssisələri nəzdində kiçik müəssisələrin yaradılmasına qanunvericiliklə yol verilməsi bir sıra neqativ halların baş verməsinə gətirib çıxarmışdı. Belə ki, özəlləşdirmə üçün dövlət müəssisələrinin əmlakı qiymətləndirildikdən sonra özəlləşdirməyə qədər dövlət müəssisələrinin rəhbərliyinin özbaşınalığı nəticəsində qeyri-qanuni yolla ilkin olaraq dövlət müəssisələri nəzdində yaradılan, sonradan isə əsasən həmin müəssisələrin rəhbərlərinin xüsusi mülkiyyətinə keçən müəssisələrin sərəncamına verilmişdir. Buna görə də özəlləşdirmə zamanı özəlləşdirilən müəssisənin ilkin qiymətləndirilməsi ilə real qiyməti uyğun gəlmirdi. Müəssisələr hərraca çıxarılarkən elə ilkin start qiymətləri müəyyənləşdirilirdi ki, torpaq götürüb yeni müəssisə tikmək daha sərfəli hesab olunurdu.

Bazar iqtisadiyyatına keçid şəraitində mülkiyyətin yeniləşməsinin əsas istiqamətlərindən biri də orta və iri dövlət müəssisələrinin özəlləşdirilməsidir. Kiçik dövlət müəssisələrinin özəlləşdirilməsindən fərqli olaraq orta və iri dövlət müəssisələri əvvəlcə səhmdar cəmiyyətlərinə çevrilir, sonra isə özəlləşdirilir.

Keçmiş SSRİ iqtisadi məkanında bazar iqtisadi münasibətlərinin formalaşmasını nəzəri – iqtisadi cəhətdən ilkin araşdıran rus iqtisadçı alimlərdən olan A.Y.Livşits keçid dövründə mülkiyyətin çoxnövlüyü ilə yanaşı səhmdar cəmiyyətlərinin yaradılmasına üstünlük verərək yazırdı: «Nəzərə alsaq ki, bazar iqtisadiyyatının səmərəliliyi kapitalın bir sahə-

downloaded from KitabYurdu.org

dən digər sahəyə operativ və ünvanlı istiqamətləndirilməsindən çox asılı olduğundan üstünlük səhmdar cəmiyyətlərinə verilməlidir (76, s.36).

Hesab etmək olar ki, Azərbaycan gerçəkliyi də iri müəssisələrin özəlləşdirilməsi zamanı subyektiv amillərin təsirini minimuma endirmək məqsədi ilə dövlətsizləşdirmə zamanı səhmdar cəmiyyətlərinin yaradılmasına üstünlük vermişdir. Bu da öz əksini «Azərbaycan Respublikasında dövlət mülkiyyətinin özəlləşdirilməsi haqqında» Azərbaycan Respublikasının Qanunu və «Dövlət mülkiyyətinin özəlləşdirilməsinin II Dövlət Proqramı»nda öz əksini tapmışdır.

Dövlət müəssisəsinin səhmdar cəmiyyətlərə çevrilməsi «Səhmdar cəmiyyəti haqqında» Azərbaycan Respublikasının Qanununa uyğun olaraq Dövlət Əmlak Komitəsi tərəfindən hazırlanmış əsasnaməyə uyğun həyata keçirilir. Dövlət müəssisələrinin səhmdar cəmiyyətlərinə çevrilməsi özəlləşdirilən müəssisələrin texnoloji durumu və idarəçilik əlaqələri nəzərə alınmaqla həyata keçirilir. Dövlət müəssisələrinin səhmdar cəmiyyətlərə çevrilməsi zamanı heç bir əlavə şərt və məhdudiyyətlər qoyulmur (114).

Orta və iri müəssisələrin özəlləşdirilməsi zamanı səhmlərin bir qisminin özəlləşdirmə paylarına dəyişdirilməsi geniş əhali kütləsi arasında heç bir məhdudiyyət qoymadan onların mülkiyyətçiyə çevrilməsinə şərait yaratmalıdır. Özəlləşdirmə paylarının əhaliyə verilməsi 1997-ci ildə həyata keçirilib ki, bu da orta və iri müəssisələrin özəlləşdirilməsində çeklərdən səmərəli istifadə üçün imkan yaradır. Həmin dövrdən başlayaraq indiyədək hər biri 30-dan çox olmaqla çek və pullu hərraclar keçirilib. 1600-dən çox orta və iri dövlət müəssisələrini özəlləşdirmək məqsədi ilə onların səhmdar cəmiyyətlərinə çevrilməsi haqqında qərarlar qəbul edilib.

Özəlləşdirmənin ilkin mərhələsində 650-dən çox səhmdar cəmiyyətinin səhmləri çek və pullu hərraclara çıxarılıb. 608 müəssisənin səhmlərinin ən azı 55 faizi, 100-ə yaxın müəssisənin isə səhmlərinin demək olar ki, 100 faizi çek və pullu hərraclarda satılıb.

downloaded from KitabYurdu.org

**Cədvəl 2.2**

**Sahələr üzrə yaradılmış səhmdar cəmiyyətləri (2005-ci il) (30)**

| № | Sahə | Ümumi sayı | Nizamnamə kapitalının ümumi həcmi (mln.man.) |
|---|---|---|---|
| 1 | Aqrar | 407 | 1349959873 |
| 2 | Nəqliyyat | 178 | 205398625 |
| 3 | Sənaye | 313 | 2461325655 |
| 4 | Xidmət | 206 | 186150131 |
| 5 | Tikinti | 204 | 304343831 |
| 6 | Ticarət | 116 | 122730980 |
| 7 | Cəmi: | 1424 | 4629903094 |

Özəlləşdirmənin I və II dövlət proqramları bazar təsərrüfatçılığının əsas formalarından olan səhmdar cəmiyyətlərinin yaradılmasında əhəmiyyətli rol oynamışdır. Sosialist müəssisələri kifayət dərəcədə iri müəssisələr olduğundan özəlləşdirmə zamanı onların səhmdar cəmiyyətlərinə çevrilməsi müəyyən mənada özəlləşdirmənin səmərəliliyini yüksəldir. Aşağıdakı cədvəllər sahələr və illər üzrə müəssisələrin səhmdar cəmiyyətlərinə çevrilməsi haqqında tam təsəvvür yaradır.

**Cədvəl 2.3**

**Müəssisənin səhmdar cəmiyyətlərinə çevrilməsinin illər üzrə bölgüsü (30)**

| İllər | Say | Nizamnamə kapitalının ümumi həcmi (mln.manat) |
|---|---|---|
| 1996 | 2 | 1735580 |
| 1997 | 460 | 1142510896 |
| 1998 | 508 | 1058089941 |
| 1999 | 89 | 463011993 |
| 2000 | 101 | 620647455 |
| 2002 | 211 | 1256805850 |
| 2004 | 53 | 87107380 |
| Cəmi: | 1424 | 4629909094 |

downloaded from KitabYurdu.org

2005-ci ildə Respublikamızda orta və iri müəssisələr əsasında yaradılmış 1547 səhmdar cəmiyyətləri fəaliyyət göstərmişdir. Onların nizamnamə kapitalı 1085,1 mln. AZN olmuşdur.

Hər iki cədvəldən aydın görünür ki, müəssisələrin səhmdar cəmiyyətlərinə çevrilməsi özəlləşdirmənin hər iki Dövlət Proqramı dövrünü əhatə edir. Səhmdar cəmiyyətləri istehsalın təşkilinin mütərəqqi bir forması kimi, iqtisadiyyatın bütün sahələrini əhatə etməkdədir.

Orta və iri müəssisələrin bazasında yaranan səhmdar cəmiyyətlərin səhmlərinin bir qismi də pullu hərraclarda reallaşır. Burada əsas məqsədlərdən biri də həm özəlləşdirmənin gedişi zamanı meydana çıxan problemlərin həllinin, həm də digər tərəfdən isə dövlət büdcəsində keçid dövründə yaranan gərginliyin yumşaldılmasının maliyyə təminatını yaratmaqdan ibarətdir. Doğrudur, özəlləşdirilən dövlət müəssisələrinin texnoloji səviyyəsi müasir tələblərə cavab vermədiyindən müəyyən müddət fəaliyyətini dayandırmaq məcburiyyətində qalırlar. Uzun müddət dövlətin himayəsində olan bu müəssisələr dəyişilən iqtisadi şəraitə uyğunlaşa bilmirlər. Bu müəssisələrin normal fəaliyyətini təmin etmək üçün kifayət qədər maliyyə vəsaitinə ehtiyac yaranır. Lakin ölkə vətəndaşları kifayət dərəcədə pul vəsaitinə malik olmadıqlarından xarici vətəndaşların çek və pullu özəlləşdirmə prosesinə cəlb olunması da maraq doğurur. Xarici vətəndaşlar çek özəlləşdirilməsində iştirak etmək üçün xarici vətəndaşlara çek əldə etmək hüququ verən opsion əldə etməlidirlər. Xarici vətəndaşlar artıq 185 mln. ədəd dövlətsizləşdirmə opsionu əldə etmişdirlər ki, bundan da dövlət büdcəsinə 52 milyard manat həcmində vəsait daxil olub.

İstər kiçik dövlət müəssisələrinin, istərsə də orta və iri dövlət müəssisələrinin özəlləşdirilməsi mülkiyyət münasibətlərinin yeniləşməsi ilə nəticələnir. Mülkiyyət münasibətlərinin yeniləşməsinə nail olmadan Azərbaycan iqtisadiyyatında təsərrüfatçılığın bazar mexanizminin formalaşdırılması qeyri-mümkündür. Müəssisənin

downloaded from KitabYurdu.org

özəlləşdirilməsi özəlləşdirmə xatirinə deyil, konkret ünvanını tapmaq naminə aparılmalıdır. Hər bir özəlləşdirmə sahibkarlığın formalaşmasına gətirib çıxarmalıdır.

Təəssüflər olsun ki, kifayət dərəcədə özəlləşdirmə təcrübəsinin olmamasından, orta və iri müəssisələrin özəlləşdirilməsi zamanı ciddi səhvlərə yol verilib. Özəlləşdirmənin hüquqi bazasının kifayət qədər çevik olmaması özəlləşdirmə mərhələləri ilə onların proqramlarının hazırlanmasının üst-üstə düşməməsi mülkiyyət münasibətlərinin yeniləşməsində çətinliyə gətirib çıxarmaqla neqativ hallara yol verir. Çox hallarda özəlləşən müəssisə haqqında kifayət qədər məlumatın olmaması onların qeyri-qanuni yolla təsadüfi adamların mülkiyyətinə keçməsinə səbəb olur. Bu isə özəlləşmənin əsas prinsiplərindən olan ədalətliliyin pozulmasına gətirib çıxarır. Özəlləşmə zamanı yol verilən ən mühüm çatışmazlıqdan biri də əhaliyə paylanan özəlləşdirmə çekləri ilə özəlləşən səhmdar cəmiyyətlərinin çeklərə dəyişilməsi nəzərdə tutulan səhmlərinin arasında nisbətin yaradılmaması və gözlənilməməsi çeklə özəlləşdirmənin başa çatmasına az qalmasına baxmayaraq, özəlləşdirmə paylarının əhalinin əlində yığılıb qalmasına, onların qara bazarda qiymətlərinin günü-gündən aşağı düşməsinə gətirib çıxarmışdır. 2007-ci ildə bir özəlləşmə payının qara bazarda qiyməti 15-16 AZN-dən çox olmamışdır ki, bu da nəzərdə tutulan nominal qiymətdən çox aşağı olmuşdur.

Özəlləşdirmə məqsədi ilə səhmləşdirilən dövlət orta və iri müəssisələrin səhmlərinin dövriyyəsi və satışının təşkili də yarıtmaz vəziyyətdədir. Bütün bunların əsas səbəblərindən biri çek investisiya fondları, milli depozit sistemi, fond birjası, çek agentlikləri, fond mağazaları haqqında əsasnamələrin mükəmməl olmamasıdır. Çek İnvestisiya fondlarının fəaliyyətsizliyi üzündən orta və iri müəssisələrin səhmlərinin yerləşdirilməsində heç bir nəzərə çarpacaq dəyişiklik olmamışdır.

Bütün bu çatışmazlıqlara baxmayaraq, ölkəmizdə kiçik, orta və iri dövlət müəssisələrinin dövlətsizləşdirilməsi və özəlləş-

downloaded from KitabYurdu.org

dirilməsi bazar iqtisadiyyatının əsas şərti olan sahibkarlığı formalaşdırmaqla yanaşı bir sıra zəruri nəticələrə gətirib çıxarır.

Bu nəticələr hər şeydən əvvəl aşağıdakılarda öz əksini tapır:

- dövlət mülkiyyətinin özəlləşdirilməsi təsərrüfat subyektlərinin iqtisadi azadlığını təmin etməklə yanaşı büdcədə və büdcədən kənar fondlarda xeyli məbləğdə pul vəsaitinin toplanması;
- özəlləşdirmə nəticəsində əldə olunmuş pul vəsaitindən bazar münasibətlərinin inkişafı üçün məqsədli istifadə;
- özəlləşmə prosesinə ölkə əhalisi arasında heç bir ayrı-seçkilik qoymadan hamının cəlb edilməsi;
- bazar münasibətlərinin inkişaf səviyyəsinə uyğun olaraq ölkə iqtisadiyyatının dünya təsərrüfat sistemi ilə inteqrasiyanın güclənməsi.

Azərbaycan Respublikasında I fəsildə göstərdiyimiz kimi, heç də dövlətsizləşdirmənin dövlət proqramlarına uyğun olaraq dövlət müəssisələrinin tamamilə özəlləşdirilməsi nəzərdə tutulmamışdır. Digər mülkiyyət növləri ilə yanaşı dövlət mülkiyyətinin müəyyən (təxminən 30 faiz) nisbətdə saxlanılması dünya ölkələrinin təcrübəsində olduğu kimi milli maraqlarımıza uyğun gəldiyindən əmlakımızın müəyyən qisminin dövlətin mülkiyyətində saxlanılması obyektiv zərurətdir. Keçid iqtisadiyyatı ölkələrində dövlət mülkiyyətinin dünya təcrübəsinə uyğun olaraq müəyyən nisbətdə saxlanılması problemi də keçid dövründə nəzəri cəhətdən əsaslandırılmışdır. Prof.Y.E.Vlaseviç hesab edir ki, fərdi və kollektiv xüsusi mülkiyyət formasına gətirib çıxaran özəlləşdirmənin sürətləndirilməsi heç də dövlət mülkiyyətinin ləğv edilməsi demək deyildir (34, s.424).

Lakin saxlanılan dövlət mülkiyyəti inzibati-amirlik sistemindəki dövlət mülkiyyətinin eyni olmayacaqdır. Artıq bu dövlət mülkiyyəti dövlətə öz zəruri funksiyalarını yerinə yetirməyə şərait yaradacaqdır. Hal-hazırda sahibkarlığın xüsusi

downloaded from KitabYurdu.org

bir forması kimi dövlət sahibkarlığı formalaşmaqdadır. İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, dövlət sahibkarlığı yol verilən hədd daxilində kifayət dərəcədə üstünlüyə malikdir. Ona görə də keçid dövrünü yaşayan hər bir ölkə kimi Azərbaycan dövləti də dövlət bölməsinin üstünlüklərindən istifadə edərək həm ümumi iqtisadi inkişafa təkan verəcək, həm də özəl bölmənin inkişafına iqtisadi alətləri hərəkətə gətirməklə əlverişli şərait yaradacaqdır. Bü gün bütünlüklə dövlət mülkiyyətində olan neft sənayemiz nəinki özü kifayət dərəcədə inkişaf etmək imkanı əldə etmişdi, o həmçinin sosial sferanın, onunla bu və ya digər formada bağlı olan digər sahələrin də inkişafına əlverişli şərait yaratmaqdadır. 2011-ci ilə qədər ÜDM-də neft sektorunun payının 57%-ə qədər artacağı gözlənilir. Lakin tədricən digər sahələrin inkişafına əlverişli şərait yaradılması ilə yaxın gələcəkdə neft sektorunun ÜDM-də xüsusi çəkisi 44%-ə enəcək. Dövlət mülkiyyətinin özəlləşdirilməsi, özəl mülkiyyət formaları ilə yanaşı yeni prinsiplər əsasında fəaliyyət göstərən dövlət mülkiyyətinin müəyyən nisbətdə saxlanılması bazar iqtisadi mühitinin reallığı kimi səciyyələnir. Bazar mühitinin formalaşması bütün mülkiyyət formalarının keçid dövründə təşəkkülünə və inkişafına əlverişli şərait yaradır.

Bazar mühitinin formalaşdırılması Azərbaycan Respublikasının tədricən inzibati-amirlik sistemindən xilas olmasına şərait yaradır. Müasir dünya üçün mütərəqqi iqtisadi sistem olan bazar iqtisadiyyatı respublikamızda da daha inamla reallığa çevrilir.

### 2.2. Rəqabət mühitinin formalaşdırılması bazar mexanizminin səmərəli fəaliyyətinin mühüm şərti kimi

Təbii tarixi-iqtisadi inkişafın qanunauyğun nəticəsi kimi meydana gələn kapitalist iqtisadi sisteminin təsərrüfat mexanizmi obyektiv qanunların təsiri altında tədricən for-

downloaded from KitabYurdu.org

malaşmışdır. Bu təsərrüfat mexanizminin hər bir elementi mövcud cəmiyyətin iqtisadi münasibətlərinin müxtəlif tərəflərini əks etdirməklə bütövlükdə iqtisadi inkişafın müəyyənedici amilinə çevrilmişlər.

İqtisadi inkişafın bazar mexanizmi bir sıra iqtisadi ünsürlərin qarşılıqlı əlaqədə fəaliyyəti ilə şərtlənir. Bu ünsürlərdən biri də rəqabətdir. Rəqabətin meydana gəlməsi tarixən mülkiyyət ayrı-seçkiliyinin və əmək bölgüsünün şərtləndirdiyi əmtəə istehsalının meydana gəlməsi dövrünə təsadüf edir, əmtəə istehsalının inkişafı ilə iqtisadi inkişafın ən fəal ünsürünə çevrilir. İstehsal vasitələri üzərində xüsusi mülkiyyət rəqabətin mövcudluğunu şərtləndirir. Rəqabət nəticəsində istehsalçı və istehlakçıların imkanlarından daha səmərəli istifadə etməklə qalib gəlmək istəyi həmişə onları istehsalın nəticəsini yaxşılaşdırmağa stimullaşdırır.

Rəqabət bazarın təbiətinə daxilən xas olan ünsür olub bazar iqtisadiyyatını inkişaf etdirən başlıca amillərdən biri kimi çıxış edir. Belə ki, iqtisadi ehtiyatların məhdudluğu hər bir insanın öz təbii keyfiyyətlərinə, istedad və bacarığına, fəaliyyət növünü seçməyə, bu sahədə ixtisaslaşmağa və onu daha da təkmilləşdirməyə vadar edir. Bu cür ixtisaslaşma əsasında yaranan ictimai əmək bölgüsü şəraitində öz tələbatlarını ödəyən nemətləri əldə etmək üçün insanlar mübadilə əlaqələrindən istifadə etməli olurlar. Nəticədə zəruri tələbatlarını ödəyən məhsulları əldə etmək məqsədi ilə öz əməklərinin nəticələrini mübadilə edən, müxtəlif fəaliyyət növləri üzrə ixtisaslaşmış fərdlərin birgə yaşayış sistemi kimi bazar mexanizmi meydana çıxır.

Qeyd etmək lazımdır ki, bazar fərdlərinin sayı qədər iqtisadi maraqların toqquşduğu bu sistem kim tərəfindənsə şüurlu «tətbiq» olunmaqla yaranmamışdır. Başqalarına nisbətən daha çox fayda əldə etmək məqsədi ilə təsərrüfat nəticələrinin yaxşılaşdırılması marağı əmtəə-pul münasibətləri şəraitində yüksək gəlir uğrunda mübarizə tarixini keçmiş və bazar

downloaded from KitabYurdu.org

mexanizmini formalaşdırmışdır. A.Smit «Xalqların sərvətinin təbiəti və səbəbləri haqqında traktat» əsərində təsvir etdiyi kimi müxtəlif təsərrüfatçıların azadlığı şəraitində rəqabət ən səmərəli iqtisadiyyat – bazar mexanizmini yaradır. Rəqabət şəraitində hər bir fərd hələ başqalarının müəyyən etmədiyi, görüb istifadə etmədiyi istehsal və mübadilə imkanlarını tədbiq etməklə gəlirini artırmağa çalışır. Beləliklə, fərdi mənafeyini güdən bazar iştirakçısının davranışı daha səmərəli istehsal və satış imkanlarını aşkar edir. Nəticədə iqtisadi ehtiyatların daha optimal istifadəsi iqtisadiyyatın səmərəliliyini yüksəldir. Rəqabət bazar əlaqələrinə cəlb olunmuş bazarın iştirakçıları arasında xüsusi formada təzahür edən münasibətləri ifadə edir. O, bir tərəfdən istehsalçıların öz aralarında, ikinci tərəfdən isə istehlakçıların öz aralarında mənafelərinin reallaşması uğrunda mübarizəni əks etdirir. Onlar öz aralarında rəqabət mübarizəsi yolu ilə istehsalda, satışda-alışda əlverişli şəraitə nail olmağa çalışırlar. Bu mübarizə isə həmişə onları istehsalı təkmilləşdirməkdə, inkişaf etdirməkdə maraqlı edir, çünki rəqabət mübarizəsinə dözməməkdə həmişə iflasa uğramaq təhlükəsi var. Rəqabət bazar iqtisadiyyatı şəraitində müəssisələrin, xüsusi sahibkarlıq fəaliyyətinin səmərəliliyinin yüksəldilməsinin başlıca amilidir. Rəqabət nəticəsində subyektlər həmişə bir-birini ötməyə, bir-birini öz iqtisadi göstəricilərini yaxşılaşdırmağa sövq etdirir, bir-birindən geri qalmamağa çalışırlar. İqtisadiyyatda rəqabəti bazar mexanizminin mühüm elementlərindən biri kimi tədqiq edən iqtisadçılar həmişə onun bazarda iqtisadi fəaliyyətin bütün tərəflərinə təsir imkanını diqqət mərkəzində saxlamışlar. Rəqabət təsərrüfat subyektlərinin nəinki bazar əlaqələrinə, həmçinin onların bazarda üstünlük əldə etmələri üçün istehsal prosesinə fəal təsir göstərir. «Rəqabətin bazardakı fəaliyyəti bazar təsərrüfatının bütün iştirakçılarını çatdıqları nəticə ilə qənaətlənməməyə məcbur edir, yeni imkanlar axtarmağa, yeni texnologiya, istehsalın və idarəetmənin təşkilinin yeni üsullarının tətbiqinə məcbur

downloaded from KitabYurdu.org

edir». (100, s.81) Ona görə də rəqabət bazar subyektlərindən daima fəal olmağı, dəyişilən iqtisadi şəraitə çevik uyğunlaşmağı tələb edir.

Rəqabət bazar mexanizminin digər ünsürləri ilə qarşılıqlı əlaqədə səmərəli fəaliyyət göstərərək məhsuldar qüvvələrin görünməmiş dərəcədə inkişafına nail olmuşdur. Bir qrup ölkələrdə cəmiyyətin inkişafının müəyyən mərhələsində bazar mexanizmindən fərqli təsərrüfatçılıq mexanizmi yaradılmışdır.

Təbii-tarixi inkişaf yolundan sapdırılmış bir sıra sosialist ölkələri iqtisadi əsaslarını təşkil edən ictimai mülkiyyətə uyğun inzibati amirlik təsərrüfat mexanizmi yaratmışlar ki, bu təsərrüfat mexanizmi də iqtisadi inkişafa təkan verən bir qüvvəyə çevrilmək əvəzinə resurslardan «səmərəsiz» istifadə mexanizmi yaratdı.

Sosializmin dağılması yeni müstəqillik əldə edən ölkələri seçim qarşısında qoydu. Bir qrup ölkələr iqtisadi inkişafın tarixi təcrübəsini nəzərə alaraq tərəddüdsüz bazar iqtisadi inkişaf yolunu özləri üçün dünya birliyinə qovuşmağın başlıca vasitəsi kimi seçdilər. Lakin bu seçimin reallaşması kifayət dərəcədə radikal siyasi və iqtisadi dəyişiklikləri həyata keçirmədən mümkün deyildir. Belə ki, keçid iqtisadiyyatı ölkələrində bu radikal dəyişikliklərin əhəmiyyətini nəzərə alaraq prof. R.İ.Quliyev yazır: «Demokratik cəmiyyət və səmərəli bazar iqtisadiyyatı sisteminin formalaşmasının və inkişafının fundamental dayaqlarından və atributlarından birini rəqabət (siyasi və iqtisadi) mühitinin yaradılması və qorunması təşkil edir» (72,s.226).

Aydındır ki, iqtisadi sistemin dəyişilməsi dövlətin bütün funksiyalarında da köklü dəyişikliyə səbəb olur. Xüsusi ilə yeni müstəqillik əldə etmiş dövlət yeni iqtisadi sistemin formalaşdırılması ilə bağlı olan yeni funksiyalar yerinə yetirmək zərurəti ilə qarşılaşır. Dövlət bu vəzifələri yerinə yetirmək üçün müxtəlif forma, üsul və vasitələrdən istifadə edir. Bu zaman yeni iqtisadi sistemin formalaşdırılmasının qanunvericilik ba-

downloaded from KitabYurdu.org

zasının yaradılması əhəmiyyətli rol oynayır. Rəqabət mühitinin formalaşdırılmasının qanunvericilik bazasının yaradılması bütövlükdə yeni iqtisadi sistemin qanunvericilik bazasının yaradılmasının mühüm tərkib hissəsi kimi çıxış edir. Rəqabət mühitinin formalaşdırılması və qorunması mövcud məkanda rəqabəti inkar edən köhnə sistemdən qalan iqtisadi münasibətlərin sındırılmasını və yeniləşməsini tələb edir.

İdarəetmədə və bütövlükdə iqtisadiyyatda inhisarçılığın mövcudluğu şəraitində rəqabətin formalaşdırılması mümkün deyildir. Təbii ki, inhisarçılığın birdən-birə sındırılması o qədər də asan məsələ deyil. Ona görə də inhisarçılığın aradan qaldırılması tədbirlərinin həyata keçrilməsi ilə paralel inhisarçılığın səviyyəsi də müəyyənləşdirilməlidir. Keçid dövrünün ilkin mərhələsindən başlayaraq inhisarçılığın səviyyəsinin müəyyənləşdirilməsi və uyğun olaraq tənzimlənməsi yaranmaqda olan özəl bölmənin inkişafına şərait yaradan rəqabətin formalaşmasında həlledici rol oynayır. Keçidin ilkin mərhələsi rəqabətin formalaşdırılması baxımından o qədər də əlverişli olmadığından rəqabətin formalaşdırılması və qurulması dövlətin başlıca funksiyalarından birinə çevrilir. Dövlət tərəfindən rəqabətin formalaşdırılması və qorunub saxlanılması azad sahibkarlığın (hətta inhisarçı müəssisə olsa da) məhdudlaşdırılmasına deyil, onun bütövlükdə iqtisadi inkişafın təkan verən alətinə çevrilməsinə şərait yaratmalıdır. Keçid iqtisadiyyatı ölkələrində bütövlükdə iqtisadiyyatda rəqabətin formalaşdırılması o qədər də asan məsələ olmadığından dövlət tərəfindən rəqabətin formalaşdırılmasının prioritet istiqamətləri də müəyyənləşdirilir. Aqrar bölmədə özəlləşdirmənin həyata keçirilməsi və azad sahibkarlığın formalaşdırılması, dövlət mülkiyyətinin özəlləşdirilməsi, iqtisadiyyatda liberallaşdırma tədbirlərinin həyata keçirilməsi rəqabətin formalaşdırılmasının prioritet istiqamətinin əsasını təşkil edir.

Bazar sisteminə malik bütün ölkələrdə, xüsusi ilə də keçid dövrünü yaşayan hər bir ölkədə rəqabətin ədalətli aparıl-

downloaded from KitabYurdu.org

ması iqtisadi inkişafda əhəmiyyətli rola malikdir. Keçid iqtisadiyyatı ölkələrində təsərrüfat subyektləri arasında rəqabət aparmaq ənənəsinin olmaması xüsusilə haqsız rəqabətə gətirib çıxarır ki, bu da nəticə etibarı ilə istehsalın inkişafını stimullaşdırmaq əvəzinə ona mane olan bir amil kimi çıxış edir.

Haqsız rəqabət haqqında qəbul olunmuş qanun inkişaf etmiş bazar sistemli hər bir ölkənin tarixi təcrübəsinə əsaslanmaqla keçid dövrünü yaşayan ölkələrin də iqtisadi reallığını özündə əks etdirməlidir. «Haqsız rəqabət dedikdə, bazar subyektlərinin ədalətsiz üsullarla üstünlük əldə etməyə yönəldilmiş, bununla da digər bazar subyektlərinə (rəqiblərinə), yaxud onların işgüzarlıq nüfuzuna zərər vura bilən fəaliyyəti nəzərdə tutulur.

Haqsız rəqabətə aşağıdakılar aid edilir:

- rəqibin təsərrüfat fəaliyyətinin təqlidi;
- rəqibin təsərrüfat fəaliyyətinin gözdən salınması;
- rəqibin təsərrüfat fəaliyyətinə müdaxilə;
- haqsız sahibkarlıq fəaliyyəti;
- haqsız işgüzarlıq davranışı;
- istehlakçıların çaşdırılması.

Bu halların qanunla qarşısının alınması nəticə etibarı ilə bazar subyektlərinin əsassız üstünlük əldə etmək imkanını aradan qaldırır (46, s.3).

Haqsız rəqabətin aradan qaldırılması və ya məhdudlaşdırılması rəqabət mühitinin formalaşmasına və onun qorunmasına şərait yaradır.

Rəqabət bütövlükdə cəmiyyət miqyasında biznesi canlandırmaq, stimullaşdırmaq və onun səmərəliliyinin yüksəldilməsi funksiyasını yerinə yetirir. Xüsusi ilə iqtisadi inkişafında bazar münasibətlərinə keçidi qarşısında məqsəd qoyan hər bir ölkənin iqtisadiyyatı üçün rəqabət mühitinin yaradılması əhəmiyyətli rola malikdir. Keçmiş ittifaqa daxil olan ölkələrdə, o cümlədən Azərbaycanda da bazar münasibətlərinə keçidin müvəffəqiyyətliliyi bazar mühitinin formalaşması ilə

downloaded from KitabYurdu.org

bazarın elementlərinin fəaliyyəti ilə müəyyən olunur. Bazar elementlərindən biri olan rəqabətin formalaşması xüsusi və azad sahibkarlığın inkişaf etdirilməsi, iqtisadiyyatda dövlətin və istehsalçıların inhisarçı mövqeyinin aradan qaldırılması ilə müəyyən olunur. Uzun illər inzibati-amirlik sistemi şəraitində mövcud olan Azərbaycan iqtisadiyyatını düşdüyü böhranlı vəziyyətdən çıxarmaq üçün keçid dövrünün mühüm problemlərindən biri olan dövlət mülkiyyətinin özəlləşdirilməsi yolu ilə mülkiyyətin çoxnövlüyünə və təsərrüfat fəaliyyətinin azadlığına nail olmaqla rəqabətə əlverişli şərait yaradılmalıdır.

Rəqabətin formalaşdırılması və qorunması ölkənin iqtisadi inkişaf səviyyəsini və iqtisadiyyat sahələrinin makroiqtisadiyyatda tutduğu yeri də özündə əks etdirməlidir. Rəqabətin formalaşdırılması və qorunması baxımından prioritet istiqamətləri müəyyənləşdirərkən aqrar bölmədə bütün fəaliyyət növlərinə azadlıqlar verilməsini əsas istiqamətlərdən biri kimi göstərmişdik. Doğrudan da, müstəqilliyimizin ilkin illəri aqrar bölmənin inkişafındakı geriləmələr təhlükəli həddə gəlib çatmışdır. Bu bölmədə radikal islahatlar aparmadan kənd təsərrüfatı məhsullarının artımına nail olmaq mümkün deyildi. Bu radikal addımlar müəyyən dövlət himayəçiliyi ilə yanaşı yeni iqtisadi sistemə keçidlə bazar dəyişikliklərini də zəruri edirdi. Dünya təcrübəsindən məlumdur ki, rəqabət qabiliyyətlilik baxımından ən zəif bölmələrdən biri aqrar bölmədir. Digər tərəfdən isə bazar dəyişikliyi həyata keçirən ölkələr digər iqtisadiyyat sahələri kimi kənd təsərrüfatı istehsalında rəqabət mühiti formalaşdırmadan aqrar bölmənin inkişafında da köklü dəyişikliklərə nail ola bilməzlər. Lakin aqrar bölmənin əhalinin həyat səviyyəsində əvəzsiz rolunu nəzərə alaraq keçidin ilkin mərhələsində bu bölmənin inkişafını yalnız rəqabət vasitəsi ilə həyata keçirmək mümkün deyildi. Keçid dövründə dövlət öz iqtisadi gücü daxilində bütün iqtisadi alətləri çevik hərəkətə gətirməklə həm aqrar bölmənin inkişafına, həm də iqtisadiyyatımızda öncül sahələrdən hesab olunan bu bölmə-

downloaded from KitabYurdu.org

nin gələcək inkişafında əvəzsiz rol oynaya biləcək rəqabətin formalaşması və qorunmasına əlverişli şərait yaratmalıdır.

Təbii ki, keçid dövrünün ilkin mərhələsində rəqabətin formalaşmasının bir sıra problemlərlə qarşılaşması rəqabətə bazar mexanizmin əsas alətlərindən biri kimi tam fəaliyyət göstərməsinə imkan vermir. İqtisadi inkişafın yetkinlik dərəcəsindən asılı olaraq rəqabətin fərqli formada fəaliyyət göstərməsini nəzərə alaraq professor A.N.Malafayev yazırdı: «Heç bir satıcının (alıcının) əhəmiyyətli dərəcədə əmtəələrin qiymətlərinə təsir göstərmədiyi vəziyyət mükəmməl rəqabət adlanır. Əgər bu şərt gözlənilirsə bu rəqabət qeyri-mükəmməl rəqabət adlanır». (79,s.64)

Bazar iqtisadi sistemi keçid iqtisadiyyatı ölkələrində formalaşma mərhələsində olduğundan təbii ki, onun fərqləndirici cəhətlərinin təsirindən rəqabəti də istisna etmək olmaz. Bu fərqləndirici cəhətlər hər şeydən əvvəl müəssisələrin keçidin ilkin mərhələsində rəqabət qabiliyyətli olmamasında, dəyişkən iqtisadi şəraitə çevik reaksiya verə bilməməsində özünü göstərir.

Azərbaycan iqtisadiyyatının dünya təsərrüfat sisteminə inteqrasiyası kifayət dərəcədə aşağı səviyyədədir. Azərbaycan iqtisadiyyatı texnoloji cəhətdən geri qaldığından onun dünya bazarına rəqabətqabiliyyətli məhsulla çıxa bilməsindən söhbət gedə bilməz. İstehsalda ETT-nin tətbiqi səviyyəsi aşağı olduğundan material məsrəfləri yüksək olur, nəticədə isə məhsul rəqabətqabiliyyətli olmaq imkanını itirir. Bütün bu fərqləndirici cəhətlər Azərbaycan Respublikasını dünya bazarına xammalla çıxmaq məcburiyyəti qarşısında qoyur.

İnzibati-amirlik iqtisadi istemindən bazar sisteminə keçən ölkələrdə rəqabətin formalaşdırılması baxımından müəyyənedici şərtlərdən biri də dövlət mülkiyyətinin özəlləşdirilməsi, mülkiyyətin çoxnövlüyünün yaradılmasıdır. Mülkiyyətin çoxnövlüyünün yaradılması rəqabət mühitinin foormalaşdırılmasının əsasını təşkil edir.

downloaded from KitabYurdu.org

Mülkiyyətin çoxnövlüyü əsasında fəaliyyət göstərən müəssisələr rəqabətin əsas şərtləri olan istehsalda və satışda əlverişli şərait uğrunda mübarizəyə başlamasalar, tezliklə iflasa uğrayıb sıradan çıxarılar. Doğrudur, özəlləşən müəssisələrin xüsusi ilə istehsal müəssisələrinin böyük əksəriyyəti daxili bazarın dövlət tərəfindən qorunmaması üzündən öz fəaliyyətlərini bərpa edə bilmirlər. Xarici istehsalçılar hətta keyfiyyətsiz məhsullarla daxildən heç bir müqavimətlə qarşılaşmadan ölkə bazarını tuturlar. 1992-1994-cü illərdə ölkəyə gətirilən istehlak malları heç bir standarta uyğun gəlmədikləri halda belə sərbəst şəkildə dünya bazar qiymətlərindən də yüksək qiymətlərə satılmışlar.

Ölkə iqtisadiyyatında rəqabətin formalaşdırılmasına fəal təsir göstərən başlıca amillərdən biri də ticarət və xidmət sferasında azad sahibkarlığın inkişafına əlverişli şəraitin yaradılması və istehlak bazarında qiymətlərin sərbəstləşdirilməsi olmuşdur. Ticarət və xidmət sferasında sahibkarlığın formalaşdırılması digər sahələrdə sahibkarlığın formalaşdırılmasına nisbətən müəyyən üstünlüklərə malikdir. Nisbətən kiçik həcmdə kapitalla sahibkarlıqla məşğul olmaq imkanı, qısa müddətə mənfəətə olan marağının ödənilməsi əhalinin müəyyən qisminin bu fəaliyyət növünə üstünlük verməsinə gətirib çıxarır. İqtisadiyyatda struktur dəyişiklikləri nəticəsində dövlətin əsasən yeganə satıcı kimi istehlak bazarından çıxması isə bazar iştirakçılarından heç birinə bazara təsir etmək imkanı vermir. Tədricən zəif də olsa azad rəqabətə uyğun gələn və sərbəstləşdirilmiş qiymətlər əsasında fəaliyyət göstərən istehlak bazarı meydana gəlir. İstehlak bazarının liberallaşdırılması onun tədricən bazar prinsipləri əsasında fəaliyyət göstərməsi istehsalçıları da öz iqtisadi göstəricilərini yaxşılaşdırmaqla stimullaşdırır.

Zəif rəqabət məkanında azad rəqabətin formalaşması (keçid iqtisadiyyatı ölkələrində) inhisarçı müəssisələrin mövcudluğu şəraitində baş verir. Doğrudur, qanunvericilik yolu

downloaded from KitabYurdu.org

ilə dövlət inhisarı sındırılsa da, bir qism inhisarçı müəssisələr öz fəaliyyətlərini davam etdirirlər. Lakin bu fəaliyyət növü ilə başqa müəssisələrin də məşğul olmaq imkanı əldə etməsi inhisarçılığın mahiyyətində keyfiyyət dəyişikliyinə səbəb olur. Rəqabət inhisarçı rəqabət formasında təzahür edir.

İnhisarçı rəqabət şəraitində istehsalçıların məhsulların qiymətlərinə nəzarət etmək imkanları məhduddur. Çünki alıcılar və satıcılar bir-birilərinə təbii bağlı deyillər, alıcılar özləri bu və ya digər məhsulun qiymətini müəyyən edirlər.

İnhisarçı rəqabəti xarakterizə edən əsas cəhətlərdən biri də odur ki, bu şəraitdə sahəyə yeni firmanın daxil olması asandır, bu da praktiki olaraq firmalar arasında gizli danışıqların, sazişlərin yaranmasının qeyri-mümkünlüyünə səbəb olur. İnhisar rəqabəti şəraitində müəssisələrin davranışının təhlili göstərir ki, inhisarçı müəssisələr özlərini heç də həmişə sərbəst hiss etmirlər. İnhisarların inhisarçı mövqeyindən sui-istifadəyə aşağıdakı amillərin əks təsir göstərdiyi əsaslandırılmışdır. 1) Potensial rəqabət (sahədə yeni istehsalçının meydana gəlməsi imkanı) əgər sahəyə daxil olma səddi dəf edilməz deyilsə (bu fəaliyyətlə məşğul olmaq qanunla qadağan deyilsə) onda həmişə sahəyə yeni firmanın daxil olması imkanı mövcuddur. 2) Yenilikçilik rəqabəti (əmtəə istehsalının yeni texnoloji prosesi və onun istehlak xassələrinin təkmilləşməsi, yeni əmtəə əvəzləyicilərinin istehsalı). Əmtəə çeşidinin tez-tez dəyişdiyi indiki şəraitdə bu amil daha da aktualdır. 3) Əvəzləyici əmtəələr tərəfindən rəqabət. Kifayət dərəcədə əmtəələr vardır ki, bir-birini əvəzləyir. Aydındır ki, bütün əvəzləyici əmtəələrin istehsalçıları rəqib kimi çıxış edirlər. 4) İdxal malları ilə rəqabət. İstənilən ölkənin bazarı az və ya çox dərəcədə açıqlığı ilə səciyyələnirlər. Xarici malların daxili bazara düşmək imkanı var. Aydındır ki, azad ticarət şəraitində bir ölkə miqyasında istehsalı inhisarlaşdırmış firma özünü rəqabətdən təcrid edə bilməyəcək, bazarda mütləq nəzarətə malik olmayacaq (79, s.78-79). Ona görə də dəyişilmiş şəraitə uyğun inhisarçı rəqabətin yeni formaları yaranır.

downloaded from KitabYurdu.org

Yeni iqtisadi sistemə keçən hər bir ölkə inhisarçı rəqabətin ifrat forma almasını məhdudlaşdırmalı və dəyişilən şəraitə uyğun onun üstünlüklərindən istifadə etməlidir.

Keçid iqtisadiyyatı ölkələrində rəqabətin formalaşdırılması və qorunması baxımından maraq doğuran məsələlərdən biri də özəlləşdirilən kiçik və orta müəssisələrlə, özəlləşdirilmiş iri müəssisələr və dövlət müəssisələri arasındakı qarşılıqlı əlaqənin xarakteridir. Bu müəssisələrin hər biri istehsalın və satışın həcminə və müəyyən növ məhsul bazarına təsir imkanına görə kifayət dərəcədə biri-birindən fərqlənirlər və hər biri fərqli istehsal şəraitinə malikdirlər. Aydındır ki, bazar iqtisadiyyatı şəraitində mövcud iri inhisarçı müəssisələrin inhisarçı mövqeyindən sui-istifadə yolu ilə rəqabətin məhdudlaşdırılmasına yönəldilmiş hər cür fəaliyyəti «Antiinhisar fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir. Geniş mənada antiinhisar fəaliyyətinin Azərbaycanda hüquqi tənzimlənməsi Konstitusiyadan, Mülki Məcəllədən, sahibkarlıq fəaliyyəti, müəssisələr, haqsız rəqabət, təbii inhisarlar, reklam, istehlakçıların hüquqlarının müdafiəsi haqqında qanunlardan ibarətdir. Hüquqi bazanın kifayət dərəcədə mükəmməl olması heç də onun real təsir imkanına malik olması göstəricisi deyildir. Hüquqi aktların fəaliyyətinə əlverişli şərait yaradılmazsa, inhisarçılıq formalaşmaqda olan kiçik və orta müəssisələrin inkişafına mane olan bir amilə çevrilər. Rəqabətin inkişafı və qorunması bütövlükdə iqtisadiyyatı əhatə etdiyindən iqtisadiyyatı təşkil edən sahələrarası iqtisadi münasibətlərdə də antiinhisar nəzarətindən kənarda qalmamalıdır. Antiinhisar nəzarəti istehsalçılarla istehlakçıların mənafelərinin əlaqələndiricisi kimi çıxış etməlidir. Nəticədə bu cür əlaqələndirmə milli iqtisadiyyatın inkişafının bir amilinə çevrilə bilər.

Keçid iqtisadiyyatı dövründə yeni iqtisadi sistemin əsasları formalaşdırılır. Bu isə inzibati-amirlik sisteminin islahatlar yolu ilə yeniləşdirilməsi nəticəsində reallaşa bilər. Bu reallaşma

downloaded from KitabYurdu.org

prosesində subyektiv və obyektiv amillər özünəməxsus rol oynayırlar. Çox hallarda gözlənilən nəticənin alınması daha çox subyektiv amildən asılı olur. Digər amillərlə yanaşı, keçid dövründə rəqabətin reallaşmasında antiinhisar nəzarətini həyata keçirən qurumun digər dövlət tənzimləmə orqanları ilə fəaliyyətinin əlaqələndirilməsi də öz müsbət nəticəsini verir. Müvafiq dövlət orqanları istehsal və xidmət sferasında fəaliyyət göstərən müəssisələrin müxtəlif formalarda birləşə biləcəkləri haqqında antiinhisar nəzarətini həyata keçirən orqanı vaxtında məlumatlandırması yeni inhisar birliklərinin yaranmasının və zəif də olsa formalaşmaqda olan azad rəqabətin məhdudlaşdırılmasının qarşısını ala bilər.

Artıq respublikamızın iqtisadiyyatında özəl kiçik, orta, iri və dövlət müəssisələrinin bazar dəyişikliklərinin tələblərinə uyğun bir nisbəti formalaşmışdır. Həmçinin bu müəssisələr bir sıra xarici iri kompaniyalarla yanaşı fəaliyyət göstərirlər. Ona görə də rəqabətin inkişafı və qorunması elə həyata keçirilməlidir ki, nə həddindən çox himayəçiliyə yol verilsin, nədə ki, formalaşmaqda olan bazar strukturları iflasa uğrasınlar. Bu müəssisələrin hər birinin mənafelərinə uyğun maraqlarının uzlaşdırılması antiinhisar nəzarəti orqanının müvafiq dövlət orqanı ilə iş birliyinin səmərəlilik dərəcəsindən çox asılıdır. «Kiçik», «orta», «iri» müəssisələr və transmilli korporasiyalar müxtəlif inkişaf strategiyaları həyata keçirsələr də bazarın bərabərhüquqlu subyektləri kimi çıxış etməlidirlər. Bunun nəticəsində miqyasından asılı olmayaraq müəssisələrarası kooperasiyanın iqtisadi inkişafın mövcud səviyyəsinə uyğun gələn modeli formalaşa bilər. Keçid iqtisadiyyatı ölkələrində müəssisələrarası kooperasiya inzibati-amirlik iqtisadi sistemində qeyri-bazar prinsipləri əsasında formalaşan kooperasiyalaşmanın müəyyən dövr qalıqlarını saxladığından iqtisadi sistemin dəyişilməsi ilə dəyişilən iqtisadi şəraitə uyğunlaşa bilmir. Keçid dövründə iqtisadiyyatda baş verən struktur dəyişiklikləri müəssisələrarası kooperasiyanın da xarakterini dəyişərək onun bazar

downloaded from KitabYurdu.org

prinsiplərinə uyğunlaşmasını zərurətə çevirir. Təbii ki, kooperasiya iştirakçısı olan müəssisələr inkişaf strategiyalarına uyğun bazardan faydalanmaq imkanına malikdirlər. Hər bir müəssisə kooperasiyalaşmanın da üstünlüklərindən istifadə edərək bazara giriş zamanı biri digərinə mane olmadan öz real gerçəkliklərinə uyğun (müəssisənin texnoloji quruluşu, əməyin və istehsalın təşkili səviyyəsi, ixtisaslı iş qüvvəsinin hazırlıq səviyyəsi və s.) sahibkarlıq qabiliyyətlərini reallaşdırmaq imkanına malikdirlər.

Müasir qloballaşan dünyada dünya ölkələri daha çox inteqrasiya etdiyindən dünya bazarından daha çox faydalanmaq marağı rəqabətin ikitərəfli, regional və beynəlxalq təşkilatlar tərəfindən qorunmasını aktual edir.

Rəqabətin sistemli şəkildə qorunması yeni müstəqillik əldə etmiş ölkələrdə milli iqtisadiyyatın formalaşdırılmasına və inkişafına əlverişli şərait yaradır.

Rəqabətin və onun formalarının həm klassik, həm də müasir qərb iqtisadi ədəbiyyatı baxımından ətraflı araşdırmaqda, bəzən də məlum həqiqətlər üzərində dayanmaqla məqsədimiz bazar iqtisadi sisteminə keçən ölkələrdə bu problemə çox diqqətlə yanaşmaq tələbindən irəli gəlir. Yeni iqtisadi sistemə keçən bütün ölkələr kimi Azərbaycan Respublikası da iqtisadiyyatında bazar mexanizminin elementləri kimi rəqabətin formalaşmasına əlverişli şərait yaratmağa nail ola bilər.

Məlumdur ki, paraqrafın əvvəllərində söylədiklərimiz cəmiyyətin iqtisadi inkişafının qanunauyğun bir halında formalaşmış bazar sistemində rəqabətin formalaşmasını əks etdirirdi. Həmçinin, həmin cəmiyyətin iqtisadi inkişafında rəqabətin həlledici rola malik olması bazar iqtisadi sisteminin sosial iqtisadi sistemindən, xüsusi mülkiyyətin mahiyyətindən irəli gəlir. Uzun müddət inzibati-komanda iqtisadiyyatı adlanan iqtisadiyyatımızda (ictimai mülkiyyətə əsaslanan) rəqabətdən söhbət gedə bilməzdi. «Sosializm yarışı» deyilən bir bəhsləşmədən istifadə edilirdi ki, bunu da heç cürə iqtisadi inkişafın təkanverici qüvvəsi olan rəqabətlə müqayisə etmək mümkün deyildi.

downloaded from KitabYurdu.org

Yeni iqtisadi sistemin əsasları ictimai mülkiyyətə əsaslanan dövlət mülkiyyətinin özəlləşdirilməsi yolu ilə yaradılır. Rəqabətin iqtisadi inkişafın stimullaşdırıcı bir amilinə çevrilməsinin əsas mənbələrindən biri də dövlət mülkiyyətinin özəlləşdirilməsidir. Özəlləşdirmə probleminə rəqabətlə əlaqədə bir daha qayıtmaqda məqsədimiz özəlləşdirmənin müxtəlif mərhələlərinin rəqabətin yaranması, inkişafı və qorunmasına fərqli şəkildə təsir etdiyini göstərməkdir.

Yeni iqtisadi münasibətlərin formalaşmasında özəlləşdirmənin əvəzsiz rol oynadığını nəzərə alaraq prof. Ə.P.Babayev yazır: «Özəlləşdirmənin nəticəsindən asılı olaraq digər dəyişikliklərinin keyfiyyət məzmunu müəyyənləşəcək». (23, s.383) Özəlləşdirmənin həyata keçirilməsində müvəffəqiyyətə nail olunması digər amillərlə yanaşı rəqabətin də formalaşmasına əlverişli şərait yaradır.

İqtisadiyyatda rəqabətin rolu o qədər əhəmiyyətlidir ki, sağlam rəqabət mühiti formalaşdırmadan sivilizasiyalı bazara keçid mümkün deyildir. Uzun müddət inzibati-amirlik sistemində fəaliyyət göstərmiş hüquqi və fiziki şəxslər üçün ilk dövrlərdə rəqabət yad bir ünsür kimi təzahür edir. Ona görə də rəqabətin formalaşdırılması iqtisadi amillərlə yanaşı sosial-psixoloji amillərin də nəzərə alınmasını tələb edir. Rəqabət mühitinin formalaşdırılması bir sıra sosial-psixoloji, hüquqi-iqtisadi tədbirlərin həyata keçirilməsini tələb edir. Hər şeydən əvvəl, yeni yaranan özəl müəssisələrin rəqabətqabiliyyətli olmaması üzündən onlar o qədər də səmərəli fəaliyyət göstərə bilmirlər. Hətta dövlət mülkiyyətinin özəlləşdirilməsi əsasında yaranan özəl müəssisələr də rəqabətə girə bilməyəcəkləri üzündən müəyyən dövr fəaliyyətlərini dayandırırlar. Sahibkarların özlərinin o qədər də psixoloji cəhətdən hazır olmaması, qanunvericilikdə müəyyən boşluğun olması onlara fəaliyyətlərini genişləndirməyə imkan vermir. Sosial mühit heç də imkanı olanların hamısını sahibkarlıqla məşğul olmağa stimullaşdırmır. Xarici vətəndaşlarla yaradılmış birgə müəssisə-

downloaded from KitabYurdu.org

lər nisbətən rəqabətqabiliyyətli olduqlarından yerli müəssisələrin onlarla rəqabət apara bilməsi o qədər də asan məsələ deyildir. Sadalanan bu çatışmazlıqlar rəqabətin formalaşması problemlərinin yalnız bir qismini əhatə edir. Rəqabətin formalaşmasında kifayət dərəcədə obyektiv və subyektiv maneələrin olması bəzən təsərrüfat subyektlərini yolverilməz fəndlərdən istifadə etməklə üstünlüyə nail olmağa sövq etdirir. Təbii ki, bu cür fəaliyyət dövlət tərəfindən qəbul edilmiş «Haqsız rəqabət haqqında» Azərbaycan Respublikasının Qanunu ilə qadağan edilir. Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq hüquqi və fiziki şəxslərin hansı növ fəaliyyətləri haqsız rəqabət hesab olunduğunu paraqrafın əvvəllərində göstərmişdik. Bu qanunun tələblərini pozanlar isə müvafiq formada cəzalandırılır və bununçün aşağıdakı sanksiyalar nəzərdə tutulmuşdur: — yalnız məlumatlar verdiklərinə görə təsərrüfat subyektləri son üç ayda əldə etdikləri gəlirin 5 faizinə qədər maliyyə sanksiyaları; — haqsız rəqabətin aparılması ilə əlaqədar qadağaları pozduqlarına görə vəzifəli şəxslər aylıq əmək haqqının 3 mislinədək; — düzgün olmayan məlumat verdikdə və yaxud lazımi məlumatı vermədikdə aylıq əmək haqqının 3 mislinədək; — nəzarəti həyata keçirən mərkəzi icra hakimiyyət orqanının tələblərinin pozulmasına bir il ərzində təkrar yol verildikdə aylıq əmək haqqının 5 mislinədək cərimə sanksiyaları nəzərdə tutulub (107, s.139).

İqtisadi inkişafımızda baş verən kəmiyyət və keyfiyyət dəyişiklikləri güman etməyə əsas verir ki, rəqabət bir iqtisadi alət kimi bazar təsərrüfat mexanizminin real fəaliyyət göstərən bir ünsürünə çevrilməkdədir. Bazar iqtisadi sisteminin əsaslarını yaradıb onun elementlərindən kompleks şəkildə istifadə etmədən bütövlükdə iqtisadi inkişafa nail olmaq mümkün deyildir. Rəqabətin iqtisadiyyatımızda formalaşması aşağıdakı 2 əsas məsələnin həllinə kömək göstərəcək:

1) İstehsalda iştirak edən firmalar mənfəət götürmək məqsədlərinin başlıca mənbəyi olan istehlakçı üçün faydalı olan, onun üstünlük verdiyi məhsulları istehsal etməkdə maraqlıdır.

downloaded from KitabYurdu.org

2) Özünü iflasa uğramaq təhlükəsindən qorumaq üçün istehsalı elə həyata keçirəcək ki, istehsal xərcləri cəmiyyət üçün minimum olsun, əmtəələr mümkün ən az istehsal xərclərinə uyğun gəlsin. Azərbaycan iqtisadiyyatında sağlam rəqabətin formalaşdırılması onun başlıca funksiyalarından olan stimullaşdırma vasitəsi ilə ölkəyə yeni texnologiyanın gətirilməsi, rəqabətqabiliyyətli məhsul istehsalı, dünya bazarına hazır məhsulla çıxmaq, bütövlükdə iqtisadiyyatın səmərəli quruluşunun formalaşdırılması imkanı yaratmaqdadır.

Araşdırmadan məlum olur ki, rəqabət institusional əsasa daxil olmaqla yanaşı bazar mexanizminin elə bir iqtisadi alətidir ki, hər bir ölkənin, o cümlədən də yeni müstəqillik əldə etmiş ölkələrin iqtisadi qüdrətini, dünya birliyinə inteqrasiyasının keyfiyyətini, dünya bazarındakı mövqeyini, ən əsası isə iqtisadi təhlükəsizliyinin səviyyəsini onun vasitəsi ilə səciyyələndirmək mümkün olur.

Bazar mexanizminin mühüm elementlərindən biri olan rəqabətin ətraflı tədqiqi və təhlili göstərdi ki, o sivilizasiyalı mustəqil milli iqtisadiyyatın formalaşmasının mühüm şərtidir. Milli iqtisadiyyatda rəqabət mühitinin formalaşdırılması ilə respublikamızda sahibkarlığın bütün formalarının inkişafına əlverişli şərait yaradılır.

## 2.3.Bazar mühitinin yaradılması şəraitində sahibkarlıq fəaliyyətinin xüsusiyyətləri

İnzibati-amirlik iqtisadi sistemli hər bir ölkədə iqtisadi əsasını mülkiyyətin çoxnövlüyü təşkil edən sahibkarlıq qanunvericilik yolu ilə qadağan edilmişdir. Keçid dövrü yeni iqtisadi sistemin əsaslarını yaratmaqla, sahibkarlıq üçün əlverişli mühitin formalaşdırılmasını da mühüm bir vəzifə kimi qarşıya qoymuşdur.

Digər respublikalar kimi Azərbaycanın da suverenlik əldə etdikdən sonra həll edilməsi zəruri olan ən mühüm pro-

downloaded from KitabYurdu.org

blemlərindən biri də mütərəqqi iqtisadi inkişafın təkanverici qüvvəsi olan bazar mexanizmini yaratmaqla sahibkarlığı inkişaf etdirməkdən ibarətdir. Uzun müddət inzibati-amirlik şəraitində mövcud olan Azərbaycanda və bütün sosialist sistemli ölkələrdə olduğu kimi sahibkarlıqla məşğul olmaq üçün heç bir şərait olmayıb. Şəxsi yardımçı təsərrüfatı və fərdi əmək fəaliyyətini nəzərə almasaq, xüsusi mülkiyyət qadağan edildiyindən sahibkarlıq fəaliyyəti ilə də məşğul olmaq yasaq edilmişdir. Suverenlik əldə edildikdən sonra sahibkarlığı inkişaf etdirmək məqsədi ilə, hər şeydən əvvəl onun hüquqi bazası yaradılmalı və onun inkişafına mane olan hüquqi və normativ aktlar ləğv edilməli idi. Bu məqsədlə «Azərbaycan Respublikasının iqtisadi müstəqilliyinin əsasları haqqında» Azərbaycan Respublikasının Konstitusiyası (əsas Qanunu), «Mülkiyyət haqqında», «Sahibkarlıq fəaliyyəti haqqında» qəbul olunmuş, Azərbaycan Respublikasının Qanunları baza rolunu oynamışdır. Bu qanunların qəbul edilməsindən kifayət qədər müddət keçmişdir. Bu müdət ərzində keçid dövrünün xarakterinə uyğun iqtisadi həyatda əsaslı dəyişikliklər baş vermişdi. Bu dəyişikliklər sahibkarlığın inkişafına təsir göstərməyə bilməzdi. Ötən müddət ərzində sahibkarlığın inkişafına mane olan obyektiv və subyektiv amillər meydana gəlmişdir ki, bu maneələrin aradan qaldırılması üçün 2002-2006-cı illərdə Azərbaycan Respublikasında dövlət səviyyəsində qanunlar paketi qəbul edilmişdir. Qəbul edilmiş hüquqi aktlar paketi sahibkarlığın formalaşması mərhələlərində qarşıya çıxan maneələri aradan qaldırmaqla onun inkişaf perspektivlərini müəyyənləşdirir.

Yeni iqtisadi sistemin formalaşdığı şəraitdə iqtisadiyyatı artıq inzibati-amirlik sisteminin qanunlarının tələbləri ilə işlətmək mümkün deyil. Ona görə də yuxarıda adı çəkilən və digər qanunlar Azərbaycan iqtisadiyyatında bazar mexanizmini formalaşdırmaqla yanaşı ölkə iqtisadiyyatının düşdüyü böhranlı vəziyyətdən çıxarmaq vəzifəsini də həyata keçirməyi öz üzərinə götürmüş və müvəffəqiyyətlə həll etmişdi.

downloaded from KitabYurdu.org

Mərkəzləşdirilmiş idarəetmə aparatının sındırılması, ənənəvi təsərrüfat əlaqələrinin qırılması ölkədə qeyri-standart tədbirlərin həyata keçirilməsini tələb edirdi. Bu tədbirlər arasında iqtisadiyyatımızda sahibkarlığın formalaşdırılması xüsusi rol oynayır.

Sahibkarlığın formalaşdırılması isə, hər şeydən əvvəl mülkiyyətin bütün formalarının hüquqi bazasının bərabərliyi prinsipinin həyata keçirilməsi, müstəqil olaraq fəaliyyət sahələri seçilməsi və sərbəst qərarlar qəbul etməsi əsasında iqtisadi təşəbbüsün və işgüzarlığın geniş təzahürü şəraitində mümkündür. Ölkə iqtisadiyyatında sahibkarlığın formalaşdırılması və inkişaf etdirilməsi hüquqi bazanın yaradılması ilə yanaşı keçid iqtisadiyyatının xüsusiyyətlərini də nəzərə almaqla onun elmi cəhətdən əsaslandırılmış meyarlarının müəyyənləşdirilməsini tələb edir.

Kapitalizmin inkişaf mərhələlərinə uyğun olaraq sahibkarlıq haqqında baxışlar, sahibkarlıq haqqında nəzəriyyələr klassiklər tərəfindən yaradılmış və onların davamçıları tərəfindən bu tendensiya daha da inkişaf etdirilmişdi. Klassik kapitalizmdə sahibkarlıq nəzəriyyələri A.Smit, C.B.Sey və başqaları tərəfindən yaradılmışdı. Dəyişən ictimai - iqtisadi şəraitə uyğun olaraq V.Zombart, Y.Şumpeter, A.Marşal və başqaları tərəfindən inkişaf etdirilmişdir. Sahibkarlığın mahiyyətini əks etdirməkdə tamlığı baxımından və onu meyarlarının müəyyənləşdirilməsində yetkinliyi baxımından aşağıda verilən tərif maraq doğurur.

V.Korolyev yazır: «Sahibkarlıq fəaliyyəti dedikdə öz ideyalarını reallaşdırmaq və sosial-iqtisadi səmərəyə nail olmaq məqsədi ilə yeni kombinasiyaları həyata keçirən təsərrüfatçılıq subyektinin risklə əlaqədar olan təşəbbüskarlıq fəaliyyəti başa düşülür». (60, s.137)

Sahibkarlığın mahiyyətinin öyrənilməsi və tədqiqi respublikamızın iqtisadçı alimlərinin də diqqət mərkəzində olmuşdur. Respublikanın digər tanınmış iqtisadçı alimləri ilə

downloaded from KitabYurdu.org

yanaşı sahibkarlığın nəzəri və praktiki problemlərini tədqiq edənlərdən biri də Q.N.Manafov olmuşdur. Sahibkarlıq anlayışının müəyyən edilməsi baxımından Q.N.Manafovun mövqeyini diqqətinizə çatdırmaq maraqlı olar: «Sahibkarlıq, hər şeydən əvvəl iqtisadi kateqoriyadır.., çünki o bazar subyektləri arasında çoxsahəli qarşılıqlı əlaqəni əks etdirir. İkincisi, səmərəli təsərrüfatçılıq tipidir, çünki ən az məsrəflərlə, əməyin və istehsalın təşkilinin ən səmərəli metodlarını tətbiq etməklə iqtisadi fəaliyyəti həyata keçirməyə yönəldilmişdir, üçüncüsü, mütərəqqi iqtisadi təfəkkürdür, çünki o öz subyektlərində əsasən tələbata uyğun məhsullar istehsal etmək, satmaq, istehsalçılara yüksək keyfiyyətli xidmət göstərmək kimi hissləri tərbiyə edir». (81, s.35)

Sahibkarlıq fəaliyyətinin mahiyyəti müxtəlif müəlliflər tərəfindən nisbətən fərqli formada şərh edilsə də Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən qəbul edilmiş «Sahibkarlıq fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanununda daha çox bugünkü reallıq baxımından sahibkarlığın məzmunu və mahiyyəti ümumiləşdirilmişdir. Orada göstərilir ki, sahibkarlıq fəaliyyəti fiziki şəxslərin, onların birliklərinin, habelə hüquqi şəxslərin mənfəət və ya şəxsi gəlir əldə edilməsi məqsədi ilə özlərinin cavabdehliyi və əmlak məsuliyyəti ilə, yaxud digər hüquqi və fiziki şəxslərin adından qanunvericiliklə qadağan edilməyən təsərrüfat fəaliyyətinin bütün növləri, o cümlədən məhsul istehsalı, satışı və xidmətlər göstərilməsi formasında həyata keçirdikləri müstəqil təşəbbüskarlıq fəaliyyətidir. Ayrı-ayrı müəlliflər tərəfindən və qanunvericilik aktlarında sahibkarlığın mahiyyətinin hansı meyarlarla müəyyənləşdirilməsindən asılı olmayaraq sahibkarlıq insanların bacarıq və qabiliyyətlərinin ən əlverişli reallaşdırılması şərti kimi qəbul edilir. Təbii ki, sahibkarlığın formalaşması və inkişafı onun inkişafını şərtləndirən amillərlə yanaşı bütövlükdə yeni iqtisadi sistemin, bazar münasibətlərinin mükəmməlliyindən çox asılıdır.

downloaded from KitabYurdu.org

Hələ 80-ci illərin axırlarından başlayaraq qanunvericilikdəki bəzi boşluqdan istifadə edən işgüzar insanlar qeyrileqal formada malik olduqları müəssisələri açıq-aşkar özününküləşdirməyə başlamışlar. Bu müəssisələr əsasən ticarət və xidmət müəssisələrini əhatə edirdi. Qanunvericilik yolu ilə kooperativ hərəkatının hüquqi bazasının yaradılması ölkəmizdə sahibkarlığın inkişafına daha da təkan vermişdir. SSRİ-nin süqutu ilə Azərbaycanın bazar iqtisadiyyatlı iqtisadi inkişaf yolunu seçməsi yuxarıda göstərdiyimiz kimi yeni iqtisadi sistemin iqtisadi əsasını təşkil edən xüsusi sahibkarlığın formalaşmasının hüquqi bazasını yaratmağı şərtləndirdi. Bu hüquqi bazaya uyğun olaraq sahibkarlıq dövlət nəzarəti altında formalaşırdı. Keçid iqtisadiyyatında sahibkarlığın formalaşması iki istiqamətdə gedirdi. I istiqamət vətəndaşların şəxsi vəsaiti hesabına özəl müəssisələrin yaradılmasıdır, bu proses keçid dövrünün ilkin mərhələsində xüsusi ilə üstünlük təşkil etmişdir. İkinci istiqamət isə dövlət mülkiyyətinin özəlləşdirilməsinin I və II Dövlət Proqramlarına uyğun olaraq sahibkarlığın formalaşmasıdır. Artıq dövlət mülkiyyətinin özəlləşdirilməsi yolu ilə formalaşan sahibkarlıq iqtisadiyyatda həlledici rola malikdir.

Sahibkarlıq fəaliyyəti ilə məşğul olmaqda, onun növünü seçmək məsələlərində vətəndaşlar tam sərbəstdir. Sahibkarlıq fəaliyyətinin yalnız bəzi növləri xüsusi icazə əsasında həyata keçirilir. Lakin bütün bunlara baxmayaraq dövlət müxtəlif alətlərdən, həm inzibati, həm də iqtisadi alətlərdən istifadə etməklə sahibkarlığı stimullaşdırmaq imkanlarına malikdir. Azərbaycan dövləti bazara keçidin başlanğıcında bir sıra ciddi problemlərlə qarşılaşmışdır. Bu problemlər içərisində ərzaq qıtlığı xüsusi kəskinliyi ilə qarşıya çıxmışdır. Ərzaq qıtlığı probleminin həlli isə bir sıra ölkələrin Azərbaycanı təcrid etmə siyasəti yeritdiyindən daxili imkanların hərəkətə gətirilməsinə üstünlük verilməsini şərtləndirirdi. Təbii ki, keçid dövründə dövlətin iqtisadi imkanları məhdud olduğundan

downloaded from KitabYurdu.org

bütövlükdə iqtisadiyyatın inkişafına əlverişli şərait yarada bilmir. Ona görə də cəmiyyətin həyati əhəmiyyətli sahələrinin müəyyənləşdirilməsi zərurətə çevrilir. Bu məqsədlə dövlət tərəfindən sahibkarlığın inkişafının öncül istiqaməti müəyyənləşdirildi. Bu öncül istiqamətlərə maddi nemətlər istehsalı, xüsusilə ərzaq məhsulu istehsal edən sahələr daxil edildi. Digər fəaliyyət növü ilə məşğul olan sahibkarlara nisbətən maddi nemətlər istehsal edən, xidmətlər göstərən sahibkarlara vergi güzəştləri və kreditlər vasitəsi ilə üstünlük verilirdi. Cəmiyyət iqtisadi inkişafının bu və ya digər mərhələsində qarşılaşdığı problemlərin həlli zamanı sahibkarlığa fərqli yanaşmağına baxmayaraq, mülkiyyət və təşkilati hüquqi formalarından asılı olmayaraq bütün sahibkarların hüquqları, xüsusi ilə mülkiyyət toxunulmazlığı hüquqları dövlət tərəfindən qorunur. Bu hüquqları pozan dövlət orqanlarının və ya digər orqanların, yaxud onların vəzifəli şəxslərinin fəaliyyəti nəticəsində, habelə sahibkar barədə qanunvericilikdə nəzərdə tutulmuş vəzifələrin həmin orqanlar və ya vəzifəli şəxslər tərəfindən yarıtmaz yerinə yetirilməsi nəticəsində sahibkarlara dəyən zərərin, o cümlədən əldən çıxan gəlirlərin əvəzini qanunvericilikdə nəzərdə tutulmuş qaydada həmin orqanlar və vəzifəli şəxslər ödəyirlər. Sahibkarlıq təcrübəsinin zəifliyi, dövlətin sahibkara maliyyə köməyi imkanının məhdudluğu sahibkarlıq fəaliyyətinin heç olmazsa qanunvericiliklə qorunmasını zəruri edir.

Sahibkarlıqla məşğul olmaq istəyən hər bir vətəndaş, hər şeydən əvvəl istehsal amillərinə malik olmalıdır. Əhalinin məhdud bir hissəsi şəxsi mülkiyyət formasında xırda əmək aləti və vasitələrinə malik olsalar da xüsusi mülkiyyət hüququndan məhrum idilər. Onlar yalnız şəxsi əməkləri əsasında maddi tələbatlarını ödəmək imkanlarına malik idilər, muzdlu işçi cəlb etməklə təşəbbüskarlıq fəaliyyətini genişləndirmək qanunla qadağan edilirdi. 80-ci illərin sonunda istehsal vasitələrinin 88,6 faizi dövlət, 8,7 faizi kolxoz, 1,5 faizi əmtəə isteh-

downloaded from KitabYurdu.org

sal edən, xidmət göstərən kooperativlərin, 1,2 faizi isə vətəndaşların şəxsi mülkiyyətində idi.

SSRİ-nin dağılması ilə xüsusi mülkiyyətə bu yabançı münasibət də aradan qaldırıldı. Mülkiyyətin bütün çoxnövlüyünün bərabər hüquqluğu «Mülkiyyət haqqında» qanunla təsdiq edildi. «Mülkiyyət haqqında» qanunla mülkiyyətin bütün çoxnövlüyünə bərabər şərait yaradılmasının nəzərdə tutulmasına baxmayaraq təbii ki, mülkiyyət formalarına uyğun adaptasiya olunan sahibkarlıq formalarının inkişafının start vəziyyətləri fərqli idi. İnzibati amirlik iqtisadi sistemindən bazar münasibətlərinə keçid zamanı başlanğıc üçün müqayisədə orta və iri sahibkarlığa nisbətən kiçik sahibkarlıq əlverişli imkana malikdir. Keçid dövrünün ilkin mərhələsində mülkiyyətin əhəmiyyətli hissəsinin dövlətin əlində olmasına baxmayaraq, inzibati-amirlik sisteminin qalıqları dövlət sahibkarlığının formalaşmasına mane olurdu. Yuxarıda göstərildiyi kimi vətəndaşlar sərəncamlarında olan 1,2 faiz istehsal vasitələrindən sosializmin dağılması ilə daha sərbəst formada, təşəbbüskarlıq fəaliyyətlərini reallaşdırmaq imkanı əldə etdilər.

Sahibkarlığın meydana gəlməsini tarixi səpkidə araşdırarkən kiçik sahibkarlığın nisbətən ilkin meydana gəlməsi qabarıq şəkildə nəzərə çarpır. Bu qanunauyğunluq sosializmdən bazar iqtisadiyyatına keçid zamanı da özünü göstərməlidir. Sosializm şəraitində əhalinin qanuni gəlirlərinin aşağı səviyyəsi sosializmin dağılmasından sonra vətəndaşları orta və iri sahibkarlıqla məşğul olmaq imkanından məhrum edir. Ona görə də keçid dövrünün başlanğıcı üçün daha çox sahibkarlıq ticarətdə, xidmət sferasında yaranırdı ki, bu da adətən kiçik sahibkarlığı əhatə edir. Nisbətən kiçik sahibkarlığı əhatə edən bu fəaliyyət dairəsinin biznes baxımından müəyyən üstünlükləri vardır.

Bu üstünlüklər əsasən aşağıdakılardır:

- risk səviyyəsinin nisbətən az olması;
- kiçik məbləğ kapital tələb olunması;

downloaded from KitabYurdu.org

- kapitalın dövranı imkanının əlverişliliyi;
- kiçik sahibkarlığa dövlət güzəştlərinin nəzərdə tutulması;
- əhalinin geniş kütləsinin sahibkarlıq fəaliyyətinə cəlb olunması imkanının mövcudluğu.

Keçid dövründə dövlətin iqtisadi siyasətinin əsas istiqamətlərindən biri əhalinin geniş kütləsinin sahibkarlıq fəaliyyətinə cəlb olunmasından ibarət olmalıdır. (54,s.4) Təbii ki, kiçik sahibkarlıq xarakteri baxımından da bütün fəaliyyət dairələrində peşə vərdişlərindən asılı olmayaraq hamının sahibkarlıqla məşğul olmasına heç bir maneə yaratmır.

Azərbaycan iqtisadiyyatında sahibkarlığın formalaşmasını elmi cəhətdən ilkin araşdıranlardan biri olan prof.A.Abbasov ölkənin düşdüyü böhranlı vəziyyətdən çıxmasında kiçik və orta sahibkarlığın əhəmiyyətliliyini nəzərə alaraq yazırdı: «Daxili istehlak bazarının əsasən idxal məhsulları hesabına təşəkkül tapdığı indiki vaxtda dövlətin himayədarlığı sayəsində kiçik və orta sahibkarlığın inkişaf etdirilməsi son dərəcə zəruridir (3, s.44).

Kiçik sahibkarlıq əsasən iki istiqamətdə formalaşır. Bir tərəfdən vətəndaşların sərəncamında olan xırda əmək alət və vasitələri üzərindəki mülkiyyət hüququnu reallaşdırmaqla, digər tərəfdən isə məhdud məbləğdə də olsa pul vasitələrini ilkin kapital yığımı kimi istifadə etməklə kiçik sahibkarlıqla məşğul olmaq imkanı yaranır. Kiçik sahibkarlıqla məşğul olmağın bu iki istiqaməti özəlləşdirmə mərhələsinə qədər səciyyəvidir. Özəlləşdirmə başladıqdan sonra isə kiçik dövlət müəssisələrinin özəlləşdirilməsi kiçik sahibkarlığın formalaşmasının əsas mənbəyi kimi çıxış edir. Sahibkarlıq fəaliyyəti əsasən iki meyara görə biri-birindən fərqləndirilir. Kiçik dövlət müəssisələrinin özəlləşdirilməsi zamanı onların meyarlarının düzgün müəyyənləşdirilməsi kiçik özəlləşdirmənin səmərəlilik dərəcəsini müəyyənləşdirir. Bu meyarlar kimi ilk növbədə sahibkarlığın mülkiyyətə və miqyasına görə fərqləndirilməsi çıxış edir. Paraqrafın əvvəlində kiçik sahibkarlıqdan

downloaded from KitabYurdu.org

söhbət açmağımız təsadüfi deyildir. Yaranmasının tarixliyi baxımından kiçik sahibkarlığın ilkinliyi və ölkəmizdə bazar iqtisadiyyatının yaranması baxımından kiçik sahibkarlığın meydana gəlməsi və inkişafına üstünlük verilmişdir. Lakin hər bir nəzəri iqtisadi tədqiqatda olduğu kimi sahibkarlıq formalarının fərqləndirilməsi zamanı mülkiyyət meyarını diqqət mərkəzindən kənarda qoymaq olmaz.

Əslində, biz sahibkarlıq formalarının yaradılmasını və inkişafını qarşılıqlı asılılıqda, həm mülkiyyət meyarlarından, həm də fəaliyyət miqyasından asılı şəkildə nəzərdən keçiririk. Çünki çox hallarda mülkiyyətin bu və ya digər formasına sahibkarlığın müəyyən forması uyğun gəlir.(93, s.5) Məsələn, ümumi qəbul olunmuş şəkildə yanaşsaq fərdi mülkiyyət əsasında baş verən sahibkarlığa əsasən kiçik sahibkarlıq uyğun gəlir. Bu vəziyyət bazar münasibətlərinə keçid dövrünü yaşayan bütün ölkələr üçün xüsusi ilə səciyyəvidir. Fərdi sahibkarlıq bir vətəndaşın və onun ailə üzvlərinin mülkiyyəti əsasında həyata keçirilir. Bu zaman sahibkarlığın miqyasından asılı olaraq fərdi müəssisənin idarə olunması mülkiyyətçi və ya onun muzdla işə götürdüyü menecer tərəfindən həyata keçirilə bilər. Sahibkarın mənfəət götürmək maraqları fəaliyyət dairəsini genişləndirməyi tələb edir ki, bu da istər-istəməz iqtisadi inkişafın müəyyən bir mərhələsində sahibkarlığın bir funksiya olmaq etibarı ilə könüllü olaraq mülkiyyətçi tərəfindən iqtisadi maraqlarının daha dolğun ödənilməsi naminə başqasına, menecerə verilməsinə maraq yaradır.

Sahibkarlıqla əsasən iki yolla, müəssisə yaratmaqla və müəssisə yaratmadan məşğul olmaq üçün icazə (lisenziya) almaqla məşğul olunur. Hüquqi şəxs yaratmadan fəaliyyət göstərən fərdi sahibkarlar 2002-ci ildə 100 min nəfər olmuşdur. Eləcə də fərdi sahibkarlıqla əsasən kiçik müəssisə yaratmaqla və lisenziya yolu ilə məşğul olunur. 2005-ci ildə sənayedə 25113 kiçik müəssisə fəaliyyət göstərmişdi. Bu müəssisələrdə çalışanların ümumi sayı 125804 nəfər olmuşdur, 3.620 mlrd.

downloaded from KitabYurdu.org

manatlıq məhsul istehsal edilmiş, işçilərin orta aylıq əmək haqqı 263,0 min manat olmuşdur. Tikinti sahəsində də xüsusi sahibkarlıq müvəffəqiyyətlə inkişaf etməkdədir. 2005-ci ildə istifadəyə verilən 1593 min kv.m. yaşayış evlərinin cəmi 176 min kv.m. dövlət sektorunun, 1394 min kv.m. isə xüsusi bölmənin payına düşmüşdür (19,s.30,39). Bir sıra qərb ölkələrində fərdi sahibkarlığın bu təzahürlərini fərqləndirirlər. ABŞ-da fərdi sahibkarlığı iki hissəyə, xırda və kiçik sahibkarlığa ayırırlar. Onlar xırda sahibkarlıq dedikdə vətəndaşın çox primitiv əmək alət və vasitələri əsasında (dərzinin tikiş maşını, pinəçinin şotkası və s.) muzdlu əmək cəlb edilməsinin məhdudluğu şəraitində fəaliyyətini nəzərdə tuturlar. Xırda sahibkarlıq texniki təminatının primitivliyi üzündən rəqabətli deyildir və kütləvi şəkildə iflasa uğrayır və çoxlu sayda yeniləri meydana gəlir. Keçid dövrünün ilkin mərhələsində kiçik və orta sahibkarlığın üstünlük təşkil etməsi iqtisadi sistemin dəyişilməsinin xarakterindən irəli gəlirdi. Bu, ölkələrdə birdən-birə iri sahibkarlığın formalaşdırılması kifayət dərəcədə çətinliklərlə qarşılaşırdı. Nəinki keçid dövrünü yaşayan ölkələrdə, hətta bir qrup bazar sistemli ölkələrdə də kiçik və orta sahibkarlığın inkişafına üstünlük verilir. Azərbaycan reallığı da xırda sahibkarlığın inkişafı üçün əlverişli şəraitə malikdir. Əhalinin böyük əksəriyyəti xırda sahibkarlıqla məşğul olmaqla istehsalın başlıca amillərindən biri olan əmək qabiliyyətlərini reallaşdırmaqla özlərini və ailə üzvlərini yaşayış vasitələri ilə təmin etməyə çalışırlar. Ölkəmizdə kiçik sahibkarlığın inkişafı ilə yanaşı özəlləşdirmənin birinci mərhələsinin başa çatmasının qanunauyğun nəticəsi olaraq orta sahibkarlıq da özünəməxsus rol oynamaqdadır. Bir sıra ölkələrin iqtisadi inkişafında kiçik və orta sahibkarlığa çox böyük əhəmiyyət verilir. Tədqiqatçılar Türkiyədə kiçik və orta sahibkarlığın qarşısında aşağıdakı sualın durduğunu xüsusi ilə vurğulayırlar: «Ölkəmizdə kiçik və orta sahibkarlığın gücləndirilməsi üçün «Nə etməli?» sualına cavab axtararkən, atılacaq ilk addımın «Kim-

downloaded from KitabYurdu.org

lər bir şey edə bilər?» sualının cavablandırılması olduğunu düşünürük. İkinci addımda isə «Kiçik və orta sahibkarlığın gücləndirilməsi» ifadəsi ilə, nəyin nəzərdə tutulduğu açıq ortaya qoyulmalıdır.

«Kimlər bir şey edə bilər» sualının cavabında, birinci sırada iki adın yer alması gərəkdir:

1. Kiçik və orta müəssisələrin özləri
2. Dövlət

Kiçik və orta sahibkarlığın gücləndirilməsi ifadəsindən başa düşmək istədiyimiz işi 2 maddədə birləşdirmək olar:

1. Kiçik və orta müəssisələrin rəqabət gücü artırılmalıdır. Bu müəssisələr sadəcə daxili bazarda deyil, xarici bazarlarda da dövlət dəstəyinə ehtiyac duymadan iştirak edə biləcək gücə malik olmalıdırlar.
2. Yeni müəssisələrin qurulması asanlaşdırılmalı, daha əvvəl asılı bir şəraitdə çalışan insanlar və əsasən də gənc insanlar azad iş qurmağa yönləndirilməli və təşviq edilməlidir».

Kiçik və orta sahibkarlığa Türkiyədəki münasibəti ətraflı diqqətinizə çatdırmaqda məqsədimiz bu prinsiplərdən istifadə edərək Azərbaycan iqtisadiyyatında da kiçik və orta sahibkarlığa əlverişli şərait yaradılmasını diqqət mərkəzində saxlamaqdan ibarətdir (92, s.283-284).

Deyilənlərdən bir daha aydın olur ki, bazar münasibətlərinə inzibati-amirlik sistemindən keçən bütün ölkələrdə sahibkarlığın formalaşdırılması milli məqsədlər səviyyəsinə yüksəlir. Bu milli məqsədin reallaşmasının başlanğıc nöqtəsi kimi kiçik sahibkarlığın formalaşdırılması çıxış edir.

Kiçik sahibkarlığın bütün iqtisadiyyat sahələrini təmsil etmək imkanı onun bir neçə qrup müəssisələr sistemini birləşdirməyə imkan verir. Yaranmasının iqtisadi səmərəliliyi istehsal və xidmətin təşkilinin əlverişliliyi baxımından kiçik müəssisələri bir neçə qrupda birləşdirmək olar. Hər şeydən əvvəl, yerli xammal, enerji, material və iş qüvvəsi bazasında işləyən və yerli bazarı kiçik məhsullar və mövsümü mallarla təmin

downloaded from KitabYurdu.org

edən, xidmətlər göstərən müəssisələr kiçik sahibkarlığa aid edilir və birinci qrupda təsnifləndirilir.

İkinci qrup kiçik müəssisələr əsasən sənaye təyinatlı məhsulların hissələrinin istehsalı ilə məşğul olurlar. Müxtəlif ölkələrdə sənaye təyinatlı məhsulların hissələrini istehsal edən kiçik müəssisələr həmin ölkələrin sənayesinin quruluşuna uyğun gəlir. Məsələn, elektrotexnika, radiotexnika, maşınqayırma, avtomobil sənayesinin inkişaf etdiyi ölkələrdə fərdi sahibkarların müəyyən bir qismi həmin sahələrin müəyyən sifarişlərinin yerinə yetirilməsi ilə məşğul olurlar. Üçüncü qrup kiçik müəssisələr orta və iri müəssisələrin yardımçı müəssisələri kimi çıxış edir və təsərrüfat fəaliyyətlərini orta və iri müəssisənin əsas biznes planlarının yerinə yetirilməsi ilə əlaqələndirirlər.

Kiçik sahibkarlıq ölkə vətəndaşlarının geniş kütləsinin sahibkara çevrilməsi imkanının mümkünlüyü baxımından üstünlüyə malikdir. Lakin bu heç də orta və iri sahibkarlığın iqtisadi inkişafda az rol oynamasına dəlalət etmir. Kiçik sahibkarlıq o vaxt özünü doğrultmuş hesab olunur ki, o həmişə miqyasını genişləndirməklə orta və iri sahibkarlığa çevrilmək imkanına malik olsun. Çünki sahibkarlığın iqtisadi əsasının xüsusi mülkiyyət amili imkan verir ki, təşəbbüskarlıq fəaliyyətini genişləndirməklə mənfəət götürmək maraqlarını daha dolğun ödəsinlər. Heç də biz dediklərimizlə orta və iri sahibkarlığın bazar sistemli ölkələrin iqtisadi inkişafındakı rolunu azaltmaq istəmirik. Onsuz da iqtisadi inkişaf üçün istehsalın təmərküzləşməsi və mərkəzləşməsinin xarakterik olmasından kiçik müəssisələrdə maliyyə imkanlarının yaxşılaşdığı çərçivədə sahibkarlar miqyasını genişləndirərək orta və iri müəssisələr yaratmaqla mülkiyyət hüququnu daha əlverişli şəraitdə reallaşdırmağa nail olacaq. Bu zaman sahibkarlığın inkişafı baxımından dünya təcrübəsindən bəhrələnmək yerinə düşər. Hər bir ölkə öz konkret şəraitinə uyğun sahibkarlığı inkişaf etdirə biləcək amillərə üstünlük vermişdir. Məsələn, T.Özal özünün iqtisadi siyasətində pul-dəyər amillərindən ölkədə iş-

downloaded from KitabYurdu.org

güzar fəallığı canlandırmaq üçün geniş istifadə etməyə başlamış, vergi mexanizmindən, ciddi güzəştlərdən istifadə edilərək təşəbbüsçülər təşviq edilir, onların investisiya fəaliyyəti istiqamətləndirilirdi. (121, s.21)

Artıq inkişaf etmiş ölkələrdə orta və iri müəssisələr istehsalın həcmi baxımından hakim mövqeyə malikdir. Məsələn, ABŞ-ın orta və iri müəssisələri xırda və kiçik müəssisələrə nisbətən az xüsusi çəkiyə malik olmalarına baxmayaraq sənaye məhsulunun 90%-dən çoxunu istehsal edirlər. Təkcə onu demək kifayətdir ki, ABŞ-ın 600 iri korporasiyası ölkənin sənaye məhsulunun 65%-ə yaxınını istehsal edir. Müasir bazar sistemli inkişaf etmiş ölkələrin əslində iqtisadi inkişaflarının əsas təkanverici qüvvəsi kimi orta və iri sahibkarlığın inkişafı çıxış edir.

Hər il İsveçrənin Davos şəhərində dünyanın aparıcı siyasətçilərinin iri sahibkarlarla iqtisadi foruma toplanması göstərir ki, müasir dünyanın heç bir qlobal iqtisadi probleminin həlli iri sahibkarlarsız mümkün deyil, ona görə də bütün ölkələr kimi Azərbaycan da orta və iri sahibkarlığın inkişafında maraqlı olmalıdır. Çünki orta və iri istehsalın kifayət dərəcədə üstün cəhətləri vardır. İri sahibkarlar ölkənin mühüm iqtisadi problemlərinin həllində müstəsna rola malikdirlər. Onlar, hər şeydən əvvəl ölkə iqtisadiyyatının dünya təsərrüfatına qovuşmasına həlledici təsir göstərirlər. Ölkə iqtisadiyyatının qarşılaşdığı problemlərin həllində sahibkarların əvəzsiz rolunu nəzərə alaraq ölkəmizin rəhbərliyi də vaxtaşırı onlarla görüşlər keçirir, məsləhətləşmələr aparır və milli maraqlarımıza uyğun öz tövsiyələrini verir. Belə görüşlərdən birində ulu öndər H.Ə.Əliyev çıxış edərək göstərmişdir ki, sahibkarlığın inkişafı ilə bağlı görülən işlərə baxmayaraq, bu sahədə bir sıra problemlər hələ də tam aradan qaldırılmamışdır. Bunlar sahibkarlıq təşəbbüsünün reallaşmasına və daxili potensialdan daha dolğun istifadə edilməsinə imkan vermir. (43)

Bütün bu maneələr qısa bir müddətdə aradan qaldı-

downloaded from KitabYurdu.org

rılmalı, ölkənin iqtisadi inkişafına təkan verə biləcək sahibkarlığın bütün formalarına, xüsusi ilə iri sahibkarlığın inkişaf etdirilməsi milli maraqlarımıza uyğun strateji məqsədə çevrilməlidir. İri sahibkarların bu istiqamətdəki fəaliyyətləri aşağıdakı formalarda təzahür edir:

1. Müasir tələblərə cavab verən istehsal təşkil etmək məqsədi ilə ölkəyə yeni mütərəqqi texnologiyaların gətirilməsi imkanının mümkünlüyü;
2. Elmi-texniki tərəqqinin tətbiqi imkanlarının genişliyi;
3. Rəqabət qabiliyyətli məhsul istehsal etməklə dünya bazarına çıxmağın mümkünlüyü;
4. İstehsalın miqyasını genişləndirməklə yeni iş yerləri açıb işsizliyin aşağı salınmasına təsir göstərmək;
5. Marketinq xidməti vasitəsi ilə bazarda tələb və təklifin dəyişilməsinə həssaslıq və s. (9, s.12).

Bütün bunlarla yanaşı, orta və iri sahibkarlar müəssisəsini mükəmməl texnologiya ilə təchiz etdiklərindən resurslardan daha səmərəli istifadə etmək imkanına malikdirlər ki, bu da resursların məhdudluğu şəraitində xüsusi əhəmiyyət kəsb edir. Orta və iri sahibkarlıq anlayışlarını yanaşı işlətməkdə məqsədimiz heç də onlar arasında bərabərlik qoymaqdan ibarət deyildir. Orta sahibkarlıq şəraitində fəaliyyət göstərən müəssisələr dar ixtisaslaşma ilə səciyyələnir. Kəskin rəqabət şəraitində fəaliyyət göstərdiklərindən buraxılan məhsulun yüksək keyfiyyəti onların müvəffəqiyyətini təmin edir. Orta müəssisələrin maddi, maliyyə, texniki, texnoloji və kadr imkanları iri ölçülü müəssisələrə nisbətən məhdud, kiçik müəssisələrə nisbətən genişdir. İri müəssisələr daha çox kütləvi məhsullar istehsal edirlər, mükəmməl texnologiyadan istifadə etməklə dünya standartlarının tələblərinə uyğun keyfiyyətli məhsullar istehsal edirlər, kifayət dərəcədə maliyyə imkanlarına malik olmaları isə istehsal avadanlıqlarının vaxtlı-vaxtında yeniləşdirilməsinin əsası kimi çıxış edir.

downloaded from KitabYurdu.org

Orta və iri sahibkarlığın formalaşdırılması bu gün Azərbaycanda həyata keçirilən iqtisadi siyasətin mühüm tərkib hissələrindən biri kimi çıxış edir. Azərbaycan iqtisadiyyatında həyata keçirilən iqtisadi islahatlar təbii ki, tədricən də olsa orta və iri xüsusi sahibkarlığın da formalaşmasına gətirib çıxaracaqdır. Lakin orta və iri xüsusi sahibkarlığın formalaşması müəyyən bir müddət tələb edir. Ölkəmizdə həyata keçirilən iqtisadi islahatın ilkin mərhələsi özəlləşdirmə vasitəsi ilə kiçik özəlləşdirmənin həyata keçirilməsinə şərait yaradıb ki, bu da əsasən kiçik sahibkarlığın formalaşmasına şərait yaradır. «Azərbaycan Respublikasında 1995-98-ci illərdə dövlət mülkiyyətinin özəlləşdirilməsinin Dövlət Proqramı»na uyğun olaraq kiçik dövlət müəssisələrinin özəlləşdirilməsi hesabına kiçik sahibkarlığın formalaşması demək olar ki, artıq başa çatmışdır. Məhdud miqdarda (1600-ə yaxın) orta və iri müəssisənin özəlləşdirilməsinə baxmayaraq ikinci özəlləşdirmə proqramının ləng reallaşması üzündən orta və iri sahibkarlığın formalaşması nisbətən ləng gedir. İri müəssisələrin özəlləşdirilməsi bir qayda olaraq hissə-hissə 2-3 il davam etməsi də orta və iri sahibkarlığın formalaşmasına mane olan bir amil kimi çıxış edir. Azərbaycan iqtisadiyyatında həyata keçirilən islahatlar özəlləşdirmənin üç mərhələsini nəzərdə tutur ki, hər üç mərhələ başa çatdıqdan sonra iqtisadiyyatımızın səmərəli inkişafını təmin edən kiçik, orta və iri sahibkarlıq formalaşacaq (93, s.2-3).

Özəlləşdirmə başa çatdıqdan sonra əmlakın müəyyən bir qismi dövlətin sərəncamında qalır ki, bu əmlak vasitəsi ilə Azərbaycan üçün yeni sahibkarlıq forması olan dövlət sahibkarlığı formalaşır. Dövlət sahibkarlığın əsasən iki formada: bir tərəfdən dövlət müəssisəsinin səhmdar cəmiyyətinə çevirməklə bütün səhmlərin dövlətə məxsus olması, digər tərəfdən isə səhmləşdirmə yolu ilə özəlləşdirilən orta və iri müəssisələrin səhm-nəzarət paketinin dövlət tərəfindən əldə edilməsi yolu ilə həyata keçirilir. Bundan başqa, dövlət sahibkarlıqla

downloaded from KitabYurdu.org

məşğul olmaq üçün dövlət fondlarından, götürdüyü mənfəətdən, borc kapitalından, bank və digər kredit təşkilatlarının kreditlərindən də istifadə etmək imkanına malikdir.

Bütün bunlarla yanaşı, bəzən dövlət sahibkarlığı sahibkarlığın klassik anlamı ilə üst-üstə düşmür. Sahibkarlıq fəaliyyətini səciyyələndirən başlıca prinsip mənfəət götürmək olmasına baxmayaraq dövlət sahibkarlığı təsərrüfat fəaliyyəti ilə yanaşı dövlətin müəyyən etdiyi hədd daxilində tənzimləyici və idarəetmə, təsir etmə funksiyasını da yerinə yetirir. Keçid iqtisadiyyatı ölkələrində iqtisadiyyatın dövlət tənzimlənməsini tətbiq edərək Y.Yasin yazır: «Bazar münasibətlərinin inkişafından asılı olaraq iqtisadiyyatın quruluşu ixraca istiqamətlənən, daxili bazara istiqamətlənən və bazar münasibətlərinin zəif inkişaf etdiyi müəssisə və büdcə təşkilatlarına ayrılır.» (128. s.4). Təbii ki, dövlət iqtisadiyyatın formalaşmış quruluşunu nəzərə almaqla öz fəaliyyətini bu və ya digər sahədə sahibkarlığın inkişafına istiqamətləndirməlidir. Başqa sözlə, dövlət sahibkarlığının əsas aləti olan dövlət müəssisəsi özündə kommersiya müəssisələri və dövlət orqanlarının səciyyəvi cəhətlərini birləşdirir. Dövlət sahibkarlığının həyat qabiliyyətsizliyi haqqında müəyyən fərqli fikirlərin olmasına baxmayaraq Qərb ölkələrində o, mühüm iqtisadi və sosial funksiya yerinə yetirir. Müəssisənin həcminin müəyyən edilməsində əsas məsələ onun miqyasının necə olmasıdır. Ona görə də bu gün həyata keçirilən iqtisadi islahatlar dövlətin ölkənin təsərrüfat sistemindəki inhisarçılığını aradan qaldırmaqla səmərəli fəaliyyət göstərən dövlət sahibkarlığının formalaşdırılmasına yönəldilib. Özəlləşmə başa çatdıqdan sonra Azərbaycanda dövlət bölməsinin 30% səviyyəsində formalaşdırılması nəzərdə tutulub. Dövlət sahibkarlığının müəyyən üstünlükləri də vardır ki, (resursların təmərküzləşməsi, müəyyən makroiqtisadi problemlərin həllindəki çeviklik) bir sıra ümummilli problemlərin həllində əhəmiyyətli rol oynayır. Təsadüfi deyildir ki, Qərb ölkələri bazar iqtisadi sistemindən imtina etmədən

downloaded from KitabYurdu.org

müharibədən sonrakı illərdə iqtisadiyyatı bərpa etmək üçün bir sıra baza sənaye sahələrini milliləşdirilməklə iqtisadiyyatda dövlət bölməsinin payını artırmışlar.

Dövlət sahibkarlığının iqtisadiyyatda mənfi nəticələrə gətirib çıxara biləcək tərəfini də diqqət mərkəzindən kənarda qoymaq olmaz. Təbii ki, dövlət siyasətdə inhisarçı mövqeyə malik olduğundan inhisarçılığın əlamətləri bu və ya digər dərəcədə dövlət mülkiyyətinin reallaşması prosesində də baş verə bilər. Bundan başqa dövlət idarəetməsi məmurlar tərəfindən həyata keçirildiyindən dövlət mülkiyyətinin idarəedilməsi bürokratlaşma meyllidir, ondan istifadə zamanı israfçılığa yol verilməsi imkanı vardır.

İnhisarçılıq meylliliyi təkcə dövlət sahibkarlığına xas deyil. Yuxarıda deyildiyi kimi sahibkarlığın əsas həlqəsi müəssisədir. Sahibkarların fəaliyyət dairəsinin genişlənməsi müəssisənin iriləşməsinə gətirib çıxarır. Müəssisənin həcminin genişlənməsi və yaxud birləşməsi istehsalın və satışın əhəmiyyətli hissəsini onların əllərində cəmləşdirir ki, bu da həmişə inhisarçılıq doğurmaq təhlükəsi yaradır. Azərbaycan da digər ölkələrdə olduğu kimi bu inhisarçılığın yaranması təhlükəsini aradan qaldırmaq üçün «Antiinhisar fəaliyyəti haqqında» qanun qəbul etmişdir. İnzibati amirlik iqtisadi sistemindən bazar sisteminə keçən bütün ölkələrdə olduğu kimi Azərbaycan dövləti də hər şeydən əvvəl sosialist sisteminin təbiətindən irəli gələn dövlət inhisarçılığını aradan qaldırmaqla yanaşı, bazarda hakim mövqeyə malik olmaq üçün müəssisə və birliklərin inhisarlarının yaradılması səyinin qarşısını almalıdır. Sahibkarlar öz fəaliyyətlərini, xüsusi ilə iqtisadi fəaliyyətlərini birləşdirmək istədikdə mütləq səlahiyyətli orqanlardan razılıq almalıdırlar.

Baxmayaraq ki, antiinhisar tənzimlənməsinin 100 ildən çox tarixi var, bazar sisteminə keçən ölkələrdə rəqabət mühitinin formalaşdırılması baxımından inhisarçılığın qarşısının alınması xüsusi aktuallıq kəsb edir. Müəssisələr bu və ya digər formada birləşərək onsuz da zəif olan müəssisələr qarşısında

downloaded from KitabYurdu.org

öz inhisarçılıq mövqeyindən istifadə edərək əsaslandırılmamış mənfəət götürmək imkanı əldə edirlərsə, digər müəssisələrin onsuz da qənaətbəxş olmayan maliyyə vəziyyəti daha da pisləşər, onların iflas təhlükəsi güclənər. Ona görə də, sahibkarlığın fəaliyyət dairəsinin genişlənməsi müəssisələrin elə bir həcminin formalaşmasına gətirib çıxarmalıdır ki, bütün sahibkarlıq formaları bütövlükdə iqtisadi inkişafın təkanverici qüvvələri kimi çıxış edə bilsin. Sahibkarların fəaliyyət dairəsinin genişlənməsi eyni fəaliyyət növü ilə məşğul olanların fəaliyyətlərinin məhdudlaşdırılmasına istiqamətlənməməlidir, bütövlükdə iqtisadi inkişafın əsas amillərindən birinə çevrilməlidir. Sahibkarlıq formaları yalnız bərabərhüquqluluq əsasında, sağlam rəqabət şəraitində sosial arentasiyalı bazar iqtisadiyyatına keçidin müvəffəqiyyətliliyini təmin edə bilər.

Azərbaycan iqtisadiyyatında sahibkarlığın formalaşması və inkişafının mühüm problemlərindən biri də sahibkarlığın investisiya təminatı məsələsidir. Sahibkarlığın investisiya təminatı, iqtisadi inkişafın bugünkü durumu, Azərbaycan iqtisadiyyatının keçid dövründə böhranlı vəziyyətdən çıxması üçün bütün mənbələrin mobilliyinin təmin edilməsini tələb edirdi. İnvestisiya mənbələrini iki qrupda birləşdirmək olar.

1. Daxili mənbələr.
2. Xarici mənbələr.

Bu hər iki mənbənin fəallığını təmin etmək məqsədilə «İnvestisiya fəaliyyəti» haqqında və «Xarici investisiyanın qorunması haqqında» Azərbaycan Respublikasının Milli Məclisi qanun qəbul etmişdir. Hər iki qanunla dövlət mülkiyyət formasından asılı olmayaraq bütün investisiyaların, o cümlədən xarici investisiyaların qorunmasına təminat verir.

Daxili investisiya mənbələrinə aşağıdakılar aiddir:

- vətəndaşların şəxsi vəsaiti;
- qeyri dövlət müəssisə, idarə, təşkilat və qurumlarının pul vəsaiti;

downloaded from KitabYurdu.org

- dövlət orqanları, müəssisə, idarə və təşkilatlarını investisiya məqsədi ilə istifadə olunan maliyyə vəsaiti;
- ixtisaslaşdırılmış dövlət kredit təşkilatlarının maliyyə vəsaiti (sahibkarlığın inkişafının milli fondu).

SSRİ-nin dağılması müstəqillik əldə etmiş bütün respublikaların, o cümlədən Azərbaycanın da pul, maliyyə-kredit sisteminin əsaslarını sarsıtdı. İnflyasiya prosesi gücləndi. Əhalinin əksər hissəsinin maliyyə vəziyyəti inflyasiya nəticəsində daha da pisləşdi. Təbii ki, bu şəraitdə əhalinin şəxsi vəsaitindən istifadə etməklə sahibkarlığın inkişaf etdirilməsi imkanı çox məhdud idi. Ayrı-ayrı adamlar isə qeyri-qanunu yolla topladıqları külli miqdarda pulu investisiya kimi istifadə etməkdən qorxurdular. Onlar qeyri-qanunu yolla qazandıqları pulların leqallaşdırılması məqsədi ilə özəlləşdirmədən pərdə kimi istifadə etdilər. Özəlləşmə paylarının heç bir uçot olmadan qara bazarda reallaşması həmin pulların özəlləşmə paylarının məhdud sayda adamlar tərəfindən əldə edilməsinə gətirib çıxardı. Onlar səlahiyyətli orqanlardakı (əmlak komitəsi) adamlarla əlaqəyə girərək özəlləşən müəssisələri çox ucuz qiymətə özününküləşdirdilər. Sahibkarlığın inkişafı üçün qeyri-dövlət orqanlarına da arxalanmaq olmazdı. Qeyri-dövlət orqanları da hələ kifayət dərəcədə formalaşıb, inkişaf etməmişdi. Onların mükəmməl təsərrüfat əlaqələrinin qurulmaması üzündən maliyyə imkanları da çox məhdud idi. Əsas ağırlıq daxili investisiya mənbələrindən olan dövlət orqanlarının və ixtisaslaşdırılmış dövlət kredit təşkilatlarının üzərinə düşürdü. Ölkədə sahibkarlığın inkişafının öncül istiqamətlərinin müəyyənləşdirilməsi və öncül istiqamətlərin dövlət tərəfindən güzəştli şərtlərlə kreditləşdirilməsi bu istiqamətdə atılan mühüm addım kimi səciyyələnməlidir. Dövlət sahibkarlığı inkişaf etdirmək məqsədi ilə Sahibkarlığın İnkişafı Milli Fondunu yaratdı. Fondun vəsaiti dövlət büdcəsindən ödənilir. İqtisadi inkişafın imkanı daxilində sahibkarlığın inkişafına yardım göstərilməsi nəzərdə tutulur. 2007-ci ildə Sahibkarlığın

downloaded from KitabYurdu.org

İnkişafı Milli Fonduna 80 mil. AZN vəsait ayrılmışdır. Ölkəmizin iqtisadi durumunun mövcud vəziyyəti imkan vermir ki, sahibkarlığın formalaşması və inkişafında daha çox daxili mənbələrə üstünlük verilsin. Digər tərəfdən də, hətta inkişaf etmiş ölkələrdə sahibkarlığı inkişaf etdirmək məqsədi ilə xarici investisiya mənbələrindən istifadə edirlər.

Ölkəmizdə sahibkarlığın inkişafının xarici investisiya mənbəyi aşağıdakılar ola bilər:

- xarici hüquqi şəxslər;
- xarici vətəndaşlar və vətəndaşlığı olmayan şəxslər;
- xarici dövlətlər;
- beynəlxalq təşkilatlar.

Xarici investisiya cəlb etməyin meyarı ölkədə investisiya cəlbedici sahənin mövcudluğu ilə müəyyən olunur. Hələlik ölkəmizdə əsas investisiya cəlbedici sahə neft sənayesi hesab olunur. Ölkə iqtisadiyyatına investisiya qoyuluşunun 90%-dən çoxu onun payına düşür. Hal-hazırda neft sənayemizə xarici hüquqi şəxslər tərəfindən 50 mlyard dollardan çox uzunmüddətli əsaslı vəsait qoyuluşu nəzərdə tutulmuşdu. Güman etmək olmaz ki, neft sənayemizə qoyulan əsaslı vəsait yalnız bu sahənin inkişafına sərf olunur. Neft kontraktları ilə əlaqədar ölkəyə xarici vətəndaşların gəlməsi xidmət sferasının da yenidən qurulmasını, onun səviyyəsini yüksəltməyi tələb edir. Xidmət sahibkarlığının da inkişafı üçün nisbətən əlverişli şərait yaranır.

Xarici investisiya Azərbaycan iqtisadiyyatında sivilizasiyalı bazar münasibətlərinin formalaşmasının və onun dünya iqtisadiyyatına inteqrasiyasının başlıca vasitələrindən biri hesab edilir (48). Xüsusilə xarici sahibkarların Azərbaycanda birbaşa iştirakına üstünlük verirlir. Ölkə rəhbəri xarici sahibkarlarla görüşlərində bildirmişdir ki, Azərbaycan iqtisadiyyatının çiçəklənməsində onların da üzərinə böyük vəzifələr düşür. Bu vəzifələrin yerinə yetirilməsində mövcud olan bütün maneələr qanunvericilik yolu ilə aradan qaldırılacaq (37). Ona

downloaded from KitabYurdu.org

görə də ölkəmizdə investisiya fəaliyyəti ilə məşğul olmaq üçün xarici vətəndaşlara və vətəndaşlığı olmayan şəxslərə əlverişli şərait yaradılmalıdır. Xarici vətəndaşların maliyyə imkanlarının genişliyi, sahibkarlıq sahəsindəki səriştəliliyi Azərbaycanda sivilizasiyalı sahibkarlığın formalaşmasına birbaşa təsir etmək imkanına malikdir.

Xarici vətəndaşlar və vətəndaşlığı olmayan şəxslər investisiya fəaliyyətlərini aşağıdakı formalarda həyata keçirirlər:

- respublikanın hüquqi şəxsləri və vətəndaşları ilə birlikdə yaradılan müəssisələr, payçılıq iştirakı;
- tamamilə xarici vətəndaşlara məxsus olan müəssisələrin yaradılması;
- qiymətli kağızların, səhmlərin, istiqrazların alınması və s.

2005-ci ildə ölkəmizdə kapitalının əhəmiyyətli hissəsi xarici vətəndaşların olan 796 müştərək müəssisə fəaliyyət göstərmişdir. Bu müəssisələrdə 58413 nəfər işçi çalışmışdır. Bu müştərək müəssisələrdə çalışanlar respublikamızda ən yüksək əmək haqqı (orta aylıq əmək haqqı 672,7 AZN) almışlar.

Ölkəmizdə sahibkarlığın inkişafının xarici investisiya mənbələrindən biri də beynəlxalq maliyyə-kredit təşkilatlarıdır. Azərbaycan iqtisadiyyatında sahibkarlığın inkişafına kömək göstərən maliyyə-kredit təşkilatlarından Dünya Bankını və Beynəlxalq Maliyyə fondunu göstərmək olar. Bu beynəlxalq təşkilatlar fərdi layihələri maliyyələşdirməklə yanaşı, kənd təsərrüfatında sahibkarlığı inkişaf etdirmək məqsədi ilə nümunəvi fermer təsərrüfatlarının /6 təsərrüfat/ yaradılmasına 40 milyon ABŞ dolları məbləğində vəsait ayırmışdır.

Bütün bu dediklərimiz bir daha onu göstərir ki, ölkəmizdə sahibkarlığın inkişafı bütün investisiya mənbələrinin hərəkətə gətirilməsini tələb edir. Lakin diqqətdən qaçırmaq olmaz ki, xarici investisiya onun maraqlarını təmin edən sahələri inkişaf etdirməklə iqtisadiyyatımızın birtərəfli inkişafına gətirib çıxara bilər. Bizim məqsədimiz isə iqtisadiyyatın ayrı-

downloaded from KitabYurdu.org

ayrı sahələrini inkişaf etdirmək deyil, bütövlükdə milli iqtisadiyyatın inkişafı olduğundan sahibkarlığın inkişafının investisiya mənbələrinin optimal nisbətinin gözlənilməsi xüsusi əhəmiyyət kəsb edir.

Sahibkarlığın inkişafının investisiya mənbəyinin optimal nisbəti cəmiyyət üzvlərinin gəlirlərindən və bütövlükdə iqtisadi inkişafdan asılı olaraq dəyişiləcək. Tədricən daxili investisiya mənbələrinin aşkarlanması xarici investisiyanın payının azalmasına əhəmiyyətli dərəcədə təsir göstərir. Milli sahibkarlar Azərbaycanda iqtisadiyyatın səmərəli quruluşunun formalaşmasında həlledici rol oynamağa başlayırlar.

Milli sahibkarlığın formalaşdığı mühüm sahələrdən biri də aqrar bölmədir. Tarixən hər bir ölkənin iqtisadiyyatında aqrar istehsal iqtisadi inkişafda əhəmiyyətli rol oynayan sahələrdən biri olmuşdur. Sosializməqədərki dövrdə və sosializmdə aqrar bölmə Azərbaycan iqtisadiyyatının aparıcı sahəsi olub və bu gün də aparıcı sahələrindən biri olaraq qalmaqdadır. Lakin aqrar münasibətlərin müxtəlif iqtisadi sistemlərdə reallaşma imkanları fərqli olmuşdur.

Sosializmin mövcudluğu dövründə hakim mülkiyyət münasibəti olan ictimai mülkiyyətin öz təbiətinə uyğun olan iqtisadi münasibətlər sistemi yaratmışdır. Bu iqtisadi münasibətlər sistemində əhəmiyyətli rola malik elementlərdən biri də aqrar münasibətlərdir. Aqrar münasibətlərin yeniləşməsi, hər şeydən əvvəl aqrar bölmədəki mülkiyyət münasibətlərinin yeniləşməsini əks etdirməklə aqrar istehsalın xüsusi mülkiyyətin bütün çoxnövlüyü əsasında bazara keçidini təmin etməlidir. Sosializm dövründə Azərbaycanda da ittifaq dövlətinin tərkib hissəsi kimi sosializmin təbiətinə uyğun ictimai - sosialist mülkiyyətindən irəli gələn aqrar münasibətləri formalaşmışdır.

İttifaq dövləti dağıldıqdan sonra ittifaqa daxil olan digər ölkələrdə olduğu kimi Azərbaycan Respublikası da bazar prinisplərinə uyğun olaraq, aqrar sahədə də iqtisadi münasibətlərin yenidən qurulması zərurəti qarşısında qaldı. Çünki yeni

downloaded from KitabYurdu.org

iqtisadi sistemə keçid şəraitində köhnə təsərrüfatçılıq formaları ilə fəaliyyət göstərmək mümkün deyildir.

Sosializm dövründə torpaq dövlət miqyasında milliləşdirilmiş, istehsal vasitələri üzərində mülkiyyət formasından asılı olaraq kənd təsərrüfatı müəssisələrinin əsasən iki forması – kolxoz və sovxoz təsərrüfatı forması yaradılmışdı.

Aqrar bölmədə sosialist mülkiyyətinin təbiətindən irəli gələn sosialist təsərrüfatçılığı (onun formaları, prinsipləri, əlaqələri) istehsalçının istehsalın nəticəsindəki maddi marağını zəiflədirdi. Torpağın cəmiyyət miqyasında milliləşdirilməsi və kənd təsərrüfatı istehsalçılarına istifadəyə verilməsi (mülkiyyətçi ilə istehsalçının ayrılması) torpağa sahibsizlik münasibətinin yaranmasına, torpaqdan insafsızcasına istifadəyə, torpağın təbii münbitliyinin azalmasına və s. gətirib çıxarırdı. Bu da nəticə etibarı ilə Avropa ölkələri ilə müqayisədə ölkədə kənd təsərrüfatında məhsuldarlığın kəskin şəkildə aşağı düşməsi ilə müşahidə olunurdu. Məsələn, SSRİ-də bir kənd təsərrüfatı işçisi 10-12 adamı təmin edəcək miqdarda taxıl istehsal etdiyi halda Avropa ölkələrində, ABŞ və Kanada da bir kənd təsərrüfat işçisi 40-50 adamı təmin edəcək taxıl istehsal edirdi.

Bazar münasibətləri əsasında inkişaf edən ölkələrdə xüsusi mülkiyyət münasibətlərinin bütün çalarlarından konkret şəraitə uyğun istifadə edilməsi onun bazar münasibətlərinin üstünlükləri ilə üzvü surətdə əlaqələndirilməsi aqrar sahədə mülkiyyət münasibətlərinin inkişafına və təkmilləşməsinə şərait yaradır.

Təbii ki, torpaq üzərində xüsusi mülkiyyət, bütövlükdə həmin ölkələrdə mövcud olan aqrar münasibətləri sistemi torpağın münbitliyinin saxlanmasına, aqrar bölmənin texniki təminatına və bu sahədə əmək məhsuldarlığının yüksəldilməsinə əlverişli şərait yaratmışdır. Torpaq aqrar istehsalın elə təbii şərtidir ki, onun münbitliyinin saxlanılması və bərpası qayğısına qalmadan istənilən iqtisadi nəticəni almaq qeyri-mümkündür. Tarixi təcrübə göstərir ki, yalnız xüsusi mülkiyyət şəraitində torpaqdan istifadənin səmərəli mexanizminin

downloaded from KitabYurdu.org

formalaşdırılması mümkündür. Ona görə də inzibati-amirlik iqtisadi sistemindən bazar iqtisadi sisteminə keçən hər bir ölkə kimi Azərbaycanın da keçid dövründə həll etdiyi problemlərdən biri də xüsusi mülkiyyət əsasında aqrar münasibətlərin yeniləşməsi olmuşdur.

Aqrar islahatları bütövlükdə aqrar bölməni əhatə edərək torpaq islahatını, kolxoz və sovxozlarda islahatı, yeni təsərrüfatçılıq formalarının yaradılmasını, aqrar bölmədə vergiləri və s. özündə əks etdirir.

Azərbaycanın bazar iqtisadi sisteminə keçməsinin müvəffəqiyyətliyi bütövlükdə iqtisadi islahatların, o cümlədən də aqrar islahatların həyata keçirilməsindən çox asılıdır. İqtisadiyyatın bütün sahələrində olduğu kimi aqrar bölmədə də yeni iqtisadi münasibətlərin formalaşması da iqtisadçıların diqqət mərkəzində olmuşdur.

Aqrar islahatların yeni iqtisadi sistemin formalaşmasında əhəmiyyətliliyini nəzərə alaraq T.Babayev yazır: «Aqrar islahatın birinci qanadı əmlak və torpağın özəlləşdirilməsidirsə, ikinci qanadı azad sahibkarlığa əsaslanan özəl qurumların təşkilidir». (25, s.481)

İnzibati-amirlik iqtisadi sistemindən bazar iqtisadi sisteminə keçid zamanı formalaşan yeni təsərüfatçılıq formalarının təşkilati – iqtisadi forması ilə yanaşı mənsub olduğu iqtisadi sistemin xüsusiyyətlərindən irəli gələn sosial-iqtisadi təbiəti də dəyişilir.

İslahatlar, hər şeydən əvvəl cəmiyyətin iqtisadi əsası olan mülkiyyət münasibətlərini əhatə etməlidir. Mülkiyyət münasibətlərini əsaslı şəkildə yenidən qurmadan iqtisadiyyatda köklü dəyişikliklərə nail olmaq mümkün deyildir. İctimai mülkiyyətin tarixən formalaşmış kolxoz-kooperativ formasından islahatlar yolu ilə imtina aqrar bölmənin inkişafının əsas mənbələrindən birinə çevrildi.

Aqrar islahatların mühüm tərkib hissəsi olan torpaq islahatı torpağın onu becərəndən ayrı düşməsi və torpağı sahibinə qaytarılması problemini nəzərə çarpacaq dərəcədə həll

downloaded from KitabYurdu.org

etdi. İslahat həyata keçiriləndə təbii ki, əvvəlcədən onun məqsədi müəyyənləşdirilir. Torpaq islahatında da məqsəd ümumiləşdirilmiş formada desək, torpaqdan istifadənin səmərəliliyini və onun mühafizəsini təmin etməkdən ibarətdir. Bu nəticələrin əldə edilməsi isə torpağı özəlləşdirmədən mümkün deyil. Ona görə də torpağın özəlləşdirilməsi aqrar islahatların mühüm tərkib hissəsi kimi çıxış edir. Torpağın özəlləşdirilməsi respublika iqtisadiyyatının bazar münasibətlərinə keçdiyi şəraitdə torpağa sahiblik, torpaqdan istifadə və torpaq mülkiyyətinə sərəncam vermək kimi yeni hüquqi-iqtisadi münasibətlər sistemi yaratmışdır.

Torpağın özəlləşdirilməsi onun xüsusi mülkiyyətə verilməsi, alqı-satqı obyektinə çevrilməsidir. Özəlləşdirmə bütövlükdə torpaq üzərində mülkiyyət münasibətlərini bazar iqtisadiyyatının tələblərinə uyğun yeniləşdirir (120, s.8).

Sosialistcəsinə ictimailəşdirilmiş torpaq mülkiyyətinin özəlləşdirilməsi sahəsində dünya təcrübəsinin olmaması sosializmin dağılması ilə bu tədbirləri həyata keçirən bütün ölkələrdən son dərəcə diqqətli olmağı tələb edirdi.

Aqrar bölmədə əsas istehsal vasitələrindən biri kimi çıxış edən torpaq islahatlar zamanı ona xüsusi diqqətlə yanaşmağı tələb edir. Azərbaycan iqtisadiyyatının tarixən formalaşmış quruluşunda torpaqla əlaqədar olan bu və ya digər fəaliyyət həmişə əhəmiyyətli rol oynamışdır. Ona görə də, torpaq üzərində mülkiyyət münasibətlərinin yeniləşməsi zamanı torpaqdan istifadənin səmərəliliyini yüksəldən hər cür mülkiyyət münasibətlərinin formalaşmasına şərait yaradılmalıdır.

Azərbaycanda torpaq islahatı, onun özəlləşdirilməsi bir sıra xüsusiyyətlər kəsb edir. Hər şeydən əvvəl, respublikamızda ümumi torpaq fondunun əhalinin sıxlığına qeyri-bərabərliyi mövcuddur. Əhalisi nisbətən çox olan rayonların kənd təsərrüfatı üçün yararlı torpaq sahələri azlıq təşkil edir. Ona görə də müxtəlif rayonlarda, hətta müxtəlif təsərrüfatlarda adambaşına düşən torpaq payı müxtəlifdir. Torpaq

downloaded from KitabYurdu.org

sahələri münbitliyinə görə də bir-birindən fərqlidir. Aqrar islahatların gedişində torpağın özəlləşdirilməsi zamanı onun kadastrının dəqiq müəyyən edilməsi əhəmiyyətli rola malikdir. Torpaq payı verilərkən torpağın münbitliyi nəzərə alınmaqla, torpaq bölgüsü həyata keçirilmişdir. Torpaq payına həm orta və pis münbitliyə (şorlaşmış) malik torpaq daxil edilir. Əks halda torpaq payının müəyyən edilməsi zamanı yol verilən səhvlər arzu olunmaz nəticələrə gətirib çıxarar.

Torpaq islahatında ən başlıca prinsip ədalətlilik olmalıdır. Ədalətlilik prinsipi torpağın ona yad olanların əlinə düşməsinə imkan verməməlidir. Azərbaycanda torpaq islahatı zamanı qarşıya çıxan ən mühüm problemlərdən biri də ölkə ərazisinin 20 faizinin ermənilər tərəfindən işğal olunmasıdır. Respublikamızda torpaq islahatına, torpağın özəlləşdirilməsinə başlanmasına baxmayaraq işğal olunmuş rayonların əhalisinin torpağın özəlləşdirilməsində iştirakını təmin etmək o qədər də asan məsələ deyildir. Ona görə də onların müvəqqəti məskunlaşdığı kənd yerlərində istifadələrində olan torpaq sahələri xüsusi torpaq fondlarına daxil edilmiş və müvəqqəti istifadələrinə verilmişdir. İşğal olunmuş ərazilər azad olunduqdan sonra xüsusi fondlara daxil olunmuş torpaqlar icarə formasında istifadəyə verilə bilər.

Ölkəmizdə torpağın dövlət mülkiyyətində olmasına baxmayaraq şərti olsa da torpaq sahələrinin ərazi əhatəliyi baxımından mülkiyyətçiləri məlumdur. Torpaq sahələri bu və ya digər təsərrüfatın və kənd yaşayış məntəqələrinin istifadəsindədir.

Ona görə də torpaq islahatı həyata keçirilərkən ən mühüm tədbirlərdən biri də kənd yaşayış məntəqələrinin sərhədlərinin dəqiq müəyyənləşdirilməsi olmuşdur. Bu sərhədlər müəyyənləşdirildikdən sonra həmin yaşayış məntəqələrinin sakinləri özəlləşdirmə nəticəsində torpaq payı alırlar. Rayon ərazisinin bir hissəsi isə xüsusi dövlət torpağı orqanının rayon (şəhər) şöbələrinin xüsusi torpaq fondu kimi formalaşdırılır.

downloaded from KitabYurdu.org

Xüsusi dövlət torpaq orqanının ixtiyarında olan torpaq fondu təsərrüfat təyinatı və hüquqi rejimindən asılı olaraq iki hissədən ibarət olur. Birinci hissədə təhkim edilmiş /mülkiyyətdə, sahiblikdə və istifadədə olan/ torpaqlar, ikinci hissədə isə təhkim edilməmiş torpaqlar (mülkiyyətə, sahibliyə və istifadəyə verilməmiş) cəmləşdirilmişdir.

Təhkim edilməmiş torpaqlar əsasən idarə, müəssisə, təşkilat və vətəndaşlar tərəfindən əmtəəlik kənd təsərrüfatı məhsullarının istehsalı üçün istifadə olunur. Təhkim edilmiş torpaqlardan təyinatı üzrə istifadə edilmədikdə torpaq üzərində sahiblik, istifadə və mülkiyyət hüququna xitam verilə bilər.

Bazar iqtisadi sistemində keçid dövründə torpaq islahatı zamanı həyata keçirilməsi zəruri olan tədbirlərdən biri də təhkim edilmiş torpaqlarla yanaşı təhkim edilməmiş torpaqların müəyyən edilməsi olmuşdur. Təhkim edilməmiş torpaqlar xüsusi torpaq fonduna daxil edilir.

Təbii ki, torpağın özəlləşdirilməsi nəticəsində adambaşına düşən torpaq payı ilə mükəmməl fəaliyyət göstərən kənd təsərrüfatı müəssisəsi yaratmaq o qədər də asan deyil. Xüsusi torpaq fondunun yaradılması bu problemin həllinə istiqamətlənib. Xüsusi torpaq fondunu yaratmaqda məqsəd, bu fonda daxil olan torpaqları özəlləşdirmək, onların dövlət mülkiyyətindən əmtəəlik kənd təsərrüfatı məhsulları, yardımçı təsərrüfatların və təsərrüfatın bu və ya digər formalarının təşkili üçün vətəndaşların xüsusi mülkiyyətinə verməkdən ibarətdir.

Ümumi torpaq fondunun ictimai istifadə üçün nəzərdə tutulmuş hissəsi müəyyən konkret tələblərə cavab verməlidir. Məlumdur ki, ölkəmizdə kənd yerlərində əhalinin təbii artımı nisbətən yüksəkdir. Təbii ki, müəyyən dövrdən sonra bu əhalinin həyətyanı təsərrüfatla təminatına ehtiyac yanacaq. Bu məqsədlə də ümumi torpaq fondunun bir hissəsi yerli hakimiyyət orqanının sərəncamında qalmalıdır.

Ümumi torpaq fondunun bir hissəsi – yay və qış otlaq sahələri, qoruqlar, milli parklar, meşə fondu torpaqları, xüsusi təyinat-

downloaded from KitabYurdu.org

lı torpaqlar, toxumluq və damazlıq təsərrüfatlarının, dövlət kənd təsərrüfatı təcrübə, sınaq, dövlət sort sınaq məntəqələri və eləcə də elmi-tədqiqat müəssisələrinin torpaqları özəlləşdirilmir. Sanitar ehtiyaclarını təmin edən, müdafiə xarakteri daşıyan və kənd təsərrüfatı üçün istifadə edilməsi mümkün olmayan torpaqlar xüsusi torpaq fonduna daxil edilmir.

Keçid dövründə torpaq islahatı zamanı təhkim edilmiş torpağın, xüsusi torpaq fondunun, özəlləşdirilən torpağın nisbətinin düzgün müəyyən edilməsi əhəmiyyətli rola malikdir. Torpaq fondunun özəlləşdirilən və özəlləşdirilməyən hissələrinin müəyyən edilməsi, istifadə üçün yararsız torpaq sahələrinin dövlət tərəfindən yararlı hala salındıqdan sonra özəlləşdirməsinin həyata keçirilməsi aqrar islahatların səmərəliliyinin ən başlıca göstəricilərindən hesab edilməlidir.

İqtisadi islahatın mühüm tərkib hissəsi kimi torpaq islahatı da müəyyən maliyyə təminatının yaradılmasını tələb edir. Torpaq islahatının həyata keçirilməsi ilə əlaqədar və təsərrüfatçılıq üçün lazım olan xərcləri (toxum, gübrə, kənd təsərrüfatı maşınları və avadanlıqları, cins mal-qara və s. almaq üçün) ödəmək məqsədi ilə onlara dövlət tərəfindən maliyyə yardımı göstərilməlidir. Əks təqdirdə torpaq islahatından gözlənilən səmərə əldə edilməyəcəkdir.

Torpaq islahatının həyata keçirilməsində başlıca məqsəd kənd təsərrüfatı məhsullarına olan tələbatın ödənilməsinin maksimum dərəcədə daxili imkanlar hesabına həyata keçirmək, kənd təsərrüfatı məhsulları qıtlığını tədricən aradan qaldırmaq, kənd təsərrüfatı sahəsində çalışanların maddi həyat səviyyəsinin yaxşılaşması və sairədən ibarətdir. Bu məqsədlərə çatmaq üçün mülkiyyət münasibətlərinin yeniləşməsindən irəli gələn bütün təsərrüfatçılıq formalarından geniş istifadə etmək lazımdır. İqtisadi inkişafın konkret şəraitinə uyğun olaraq elə təsərrüfatçılıq forması seçmək lazımdır ki, bazar münasibətlərinin əsaslarını təşkil edən xüsusi mülkiyyətin üstünlüklərindən istifadə etməklə cəmiyyətin qarşısında duran iqtisadi problemlər həll edilsin. Keçid dövründə aqrar bölmədə təsərrü-

downloaded from KitabYurdu.org

fatçılığın hansı formasının seçilməsindən asılı olmayaraq yeni yaranan təsərrüfatlar müəyyən maliyyə vəsaiti tələb edir.

Lakin kənd əhalisinin yığıma malik olmaması, yaxud çox məhdud miqdarda vəsaitə malik olmaları dövlət tərəfindən bu sahənin həllinin diqqət mərkəzində olmasını tələb edir.

Məlumdur ki, dövlətin imkanları da iqtisadi inkişafın indiki mərhələsində tədricən genişlənir. Ona görə də torpaq islahatı ilə əlaqədar tələb olunan maliyyə vəsaitinin yalnız büdcə vəsaiti hesabına həyata keçirilməsi kifayət etməyəcək. Burada əhəmiyyətli mənbələrdən biri kimi aqrar islahatdan əldə olunmuş vəsaitin əksər hissəsinin bilavasitə bu sahənin inkişafına yönəldilməsi çıxış edə bilər.

Konkret layihələrin maliyyələşdirilməsində beynəlxalq maliyyə təşkilatlarının və bir sıra inkişaf etmiş ölkələrdə keçmiş ittifaqa daxil olan indiki müstəqil dövlətlərdə aqrar islahatlara kömək məqsədi ilə yaradılmış fond və təşkilatların da imkanlarından istifadə etmək arzu edilən nəticələri verə bilər. Azərbaycan dövləti tərəfindən torpaq alan təsərrüfatların verilən kreditlər üzrə ödəniş faizindən və torpaq vergisindən iki il müddətinə azad edilməsi torpaq islahatının müvəffəqiyyətini təmin edən başlıca amillərdəndir.

Aqrar sektorda yeni mülkiyyət münasibətlərinin formalaşması aqrar bölməyə standart prinsiplərdən yanaşmamağı tələb edir. Aqrar bölmənin istehsal vasitələri öz istehsal mənşələrinə və təyinatına görə yekcins və tez bərpa olunan deyildir. Ona görə də istehsal vasitələri üzərində mülkiyyət münasibətlərinin yeniləşməsinə xüsusi diqqətlə yanaşmaq lazımdır (10, s.4).

Torpaq islahatı zamanı diqqət mərkəzində olan başlıca problemlərdən biri də kənd təsərrüfatı müəssisələrinin mövcud maşın, traktor parkının dağılmasına imkan verməməkdir.

Torpaq alan təsərrüfatların maddi-texniki təchizatı ləğv olunan sovxoz və kolxozların maşın və kənd təsərrüfatı texnikası bazasında yaradılacaq maşın – traktor parkı tərəfindən həyata keçirilməlidir.

downloaded from KitabYurdu.org

Maşın-traktor parkının müstəqil təsərrüfat subyekti kimi fəaliyyət göstərən təsərrüfatlara göstərdikləri bütün xidmətlər müqavilələr bağlamaq yolu ilə yerinə yetirilərsə onların fəaliyyətinin səmərəlilik dərəcəsi də yüksələr.

Çox təəssüf ki, kolxoz və sovxozlarda islahatlar aparılarkən maşın-traktor parkının özəlləşdirilməsində yol verilən əyintilər aqrar bölmənin texniki təminatında ciddi problemlər yaratmışdır. Yeni yaradılan aqroservizlər bu problemləri həll etmək imkanına malikdirlər.

Aqrar islahatların həyata keçirilməsinin müvəffəqiyyətliliyini təmin edən mühüm amillərdən biri də torpaq vergisinin və torpaqla əlaqədar icarə münasibətlərinin bazar iqtisadiyyatının tələblərinə uyğun yenidən qurulmasıdır. Uzun müddət torpaqdan istifadə sisteminin düzgün, mükəmməl olmaması torpaqdan insafsızcasına istifadəyə, torpağın münbitliyinin azalmasına, ən başlıcası torpağa sahibsizlik münasibətinin yaranmasına səbəb olmuşdur.

Bazar münasibətlərinə keçid şəraitində aqrar münasibətlərinin yenidən qurulması torpaqdan səmərəli istifadəni təmin etməli, torpaqların keyfiyyətini və münbitliyini yüksəltməli, torpaqların mühafizəsini yaxşılaşdırmağa, dövlət torpaq kadastrı və yer quruluşu tədbirlərini həyata keçirmək üçün vəsaitləri səfərbər etməlidir. Təbii ki, bu dediklərimizə torpaqdan pullu istifadə nəticəsində nail olmaq mümkündür.

Torpaq üzərində mülkiyyət münasibətlərinin yeniləşməsi torpaqdan istifadənin yeni qaydalarını da müəyyənləşdirir. Torpaq üzərində ictimai mülkiyyət öz təbiətinə uyğun olaraq torpaqdan əsasən pulsuz istifadə formasını müəyyənləşdirdi. Bazar münasibətlərinə keçid bütün sahələrdə olduğu kimi xüsusi mülkiyyətin tələblərinə uyğun olaraq torpaqdan istifadənin bazar mexanizminin yaradılmasını tələb edir.

Azərbaycan Respublikasının yeni qəbul olunmuş torpaq məcəlləsinə uyğun olaraq torpaqdan istifadə pulludur. Torpaqdan pullu istifadə isə torpaq vergisi və icarə haqqı şəklində

downloaded from KitabYurdu.org

həyata keçirilir. Torpaq vergisinin müəyyənləşdirilməsinə diferensial yanaşmaq lazımdır. Əks təqdirdə, torpaq vergisi torpaqdan istifadənin səmərəliliyini yüksəltmək, kənd təsərrüfatı məhsulları istehsalını stimullaşdırmaq əvəzinə aqrar münasibətlərin yeniləşməsinə mane olan bir amilə çevirər. Torpaq vergisi torpağın keyfiyyətindən, yerləşməsindən və su ilə təchiz olunmasından asılı olaraq müəyyənləşdirilməlidir. Həmçinin, torpaq vergisi torpaq mülkiyyətçilərinin, torpaq sahələrinin və torpaqdan istifadə edənlərin təsərrüfat fəaliyyətinin nəticələrindən asılı olmayaraq, torpaq sahəsinə tədiyə şəklində hesablanır. Əks təqdirdə torpaq vergisinin tətbiqindən gözlənilən səmərə əldə olunmaz.

Torpaq vergisinin tətbiqi zamanı diqqət mərkəzində olan mühüm məsələlərdən biri də bütün torpaqların vergiyə cəlb olunması məsələsidir. Vergiyə cəlb olunan torpaqlara, kənd təsərrüfatı təyinatlı torpaqlar, yaşayış məntəqələrinin tutduğu torpaqlar, sənaye, tikinti, nəqliyyat, rabitə və başqa təyinatlı torpaqlar (dövlət büdcəsindən maliyyələşdirilən obyektlərin tutduğu sahələr istisna edilməklə) torpaq fondunda su təsərrüfatı məqsədi ilə istifadə olunmayan torpaqlar və meşə fondunda meşə təsərrüfatı məqsədləri üçün istifadə olunmayan torpaqlar daxildir.

Unutmaq olmaz ki, respublikamızda aqrar islahatlara dərinləşməkdə olan iqtisadi böhran, kənd təsərrüfatı məhsullarının əksər növlərinin azalması şəraitində başlanılmışdır.

Sosialist ictimai mülkiyyətinin təbiətinə uyğun olan sosialist kənd təsərrüfatı müəssisənin iki əsas növü - kolxoz və sovxozlar kənd təsərrüfatı məhsulları bolluğu yarada bilməmişdir. Azərbaycan 80-ci illərin ortalarından başlayaraq zəruri ərzaq məhsullarına olan tələbatının (taxıl, ət, yağ və s.) 50-70 faizini idxal hesabına ödəmişdir. Belə bir şəraitdə müstəqillik əldə edən respublikamız kənd təsərrüfatı məhsulları ilə respublikanın əhalisini təmin etmək sahəsində kəskin problemlərlə qarşılaşmışdır. Respublikamız müstəqillik əldə

downloaded from KitabYurdu.org

etdiyi dövrdə, yaxud da daha dəqiq desək, 1992-ci ilin yanvarın 1-nə kənd təsərrüfatında 1196 kolxoz, 731 sovxoz, 195 təsərrüfatlararası kənd təsərrüfatı müəssisəsi olmuşdur. Lakin bunlar sosialist tipli kənd təsərrüfatı müəssisələri olduqlarına görə bazar iqtisadi sisteminin əsasını təşkil edən xüsusi mülkiyyətin təbiətinə uyğun gəlmədi. Yeni kənd təsərrüfatı müəssisələrinin yaradılması zərurəti meydana çıxdı. Təbii ki, yeni təsərrüfatçılıq formalarının yaradılması kolxoz və sovxozlarda islahatlar aparmadan mümkün deyildi.

Kolxoz və sovxozlarda islahatlar həmin təsərrüfatların ləğvi formasında həyata keçirilmişdir.(116,s.7) Bu təsərrüfatlarda islahatlar aparılarkən onların ictimailəşmə səviyyəsinin müxtəliflik, mülkiyyət mənsubluğundakı nisbi fərq mütləq şəkildə nəzərə alınmışdır. Bu təsərrüfatların yerini bazar prinsipləri ilə işləyən yeni təsərrüfatçılıq formaları tutur. Yeni təsərrüfatçılıq formalarının yaranması probleminin həllində respublikamızda qəbul olunmuş bir sıra qanunlar, o cümlədən «Kəndli (fermer) təsərrüfatı haqqında» və «Kolxoz və sovxozların islahatı haqqında» qanunlar əhəmiyyətli rol oynayır. «Torpaq islahatının həyata keçirilməsi, torpağın xüsusi mülkiyyətə verilməsi, kolxoz və sovxozların mülkiyyətinin özəlləşdirilməsi üçün zəruri normativ hüquqi bazanın yaranması iqtisadiyyatın digər sahələrinə nisbətən kənd təsərrüfatında iqtisadiyyatın daha sürətlə aparılmasına imkan yaratmışdır». (47, s.331)

Məlumdur ki, qanunun qəbul edilməsi heç də hər şey demək deyildir, hər şeydən əvvəl, bu qanunların işlək mexanizmi yaradılmalıdır. Elə etmək lazımdır ki, kolxoz və sovxozlarda islahatlar həyata keçirilərkən, tarixən respublikamızda kənd təsərrüfatının formalaşmış strukturunda kəskin dəyişiklik yaranmasın. Kənd təsərrüfatının strukturu elə təkmilləşməlidir ki, nəticə etibarı ilə torpaqdan tam səmərəli istifadə ilə yanaşı zəruri tələbatı ödəyən kənd təsərrüfatı məhsulları, xüsusilə heyvandarlıq məhsulları və taxıl məhsullarına olan tələb maksimum dərəcədə daxili imkanlar hesabına təmin edilsin.

downloaded from KitabYurdu.org

Azərbaycan iqtisadiyyatında böyük xüsusi çəkiyə malik olan kənd təsərrüfatında da sahibkarlığın yaranması və inkişafı baxımından digər sahələrlə oxşar cəhətlər çoxdur. Kolxoz və sovxozlarda demək olar ki, özəlləşmə başa çatmışdır. Özəlləşən kənd təsərrüfatı müəsissələrinin yerində yenisinin yaranmasının ləng getməsi üzündən kənd təsərrüfatı işçilərinin böyük əksəriyyət əldə etdiyi özəlləşmə payından istifadə etməklə ya müəssisə yaratmadan kənd təsərrüfatı məhsulları istehsal edir, ya da kiçik kənd təsərrüfatı müəssisələri təşkil edir. Ölkəmizdə «Kəndli (fermer) təsərrüfatı haqqında» qəbul olunmuş qanunda kəndlinin və onun ailə üzvlərinin şəxsi əmlakı və əməyi əsasında təşkil olduğu müəyyənləşdirilmişdir ki, bu da daha çox həm mülkiyyət baxımdan, həm də miqyası baxımından fərdi sahibkarlığın hüquqi-təşkilati forması olan kiçik müəssisəyə daha çox uyğun gəlir. Təbii ki, tədricən torpaq bazarının formalaşması kənd təsərrüfatında da kiçik sahibkarlıqla yanaşı orta və iri sahibkarlığın formalaşmasına gətirib çıxaracaq. Həm də kiçik kənd təsərrüfatı müəssisələrinin texniki təminatının məhdudluğu kənd təsərrüfatı sahibkarlarını müxtəlif formada birləşərək orta və iri kənd təsərrüfatı müəssisəsi yaratmağa stimullaşdırır.

Bazar münasibətlərinin xarakterik cəhətlərini özündə əks etdirən ən mühüm kənd təsərrüfatı məhsulları istehsalçısı kimi çıxış edən kəndli (fermer) təsərrüfatı tədricən iqtisadiyyatımızda özünəməxsus yer tutmaqdadır. Bazar iqtisadi sisteminə keçid dövründə mütərəqqi təsərrüfatçılıq forması kimi formalaşan kəndli (fermer) təsərrüfatını elmi cəhətdən araşdıran iqtisadçı alimlər dünya təcrübəsini nəzərə alaraq bu təsərrüfat formasının kifayət dərəcədə üstünlüyə malik olduğunu göstərirlər. Professor Ə.C.Qasımov və başqaları yazırlar: «Kəndli (fermer) təsərrüfatlarında əmək potensialından daha səmərəli istifadə edilməsinə şərait daha da genişdir. Ailənin bütün üzvləri, yəni məktəblidən tutmuş ixtiyar qocalara qədər hamı öz imkanı dairəsində bu təsərrüfatda çalışa bilər». (69, s.98)

downloaded from KitabYurdu.org

Kəndli (fermer) təsərrüfatlarına verilən təriflər içərisində K.Mustafayevin mövqeyi də maraq doğurur. O yazır: «Xüsusi mülkiyyətə verilmiş torpaq əsasında yaradılmış kəndli-fermer təsərrüfatları əmtəəlik məhsullar istehsalı, emalı və satışı ilə məşğul olan kənd əməkçilərinin sərbəst sahibkarlıq formasıdır». (91, s.43) Tərifdə maraq doğuran cəhət kəndli-fermer təsərrüfatlarının bazar strukturu kimi sərbəstliyə malik olmasıdır. Bu şərt yeni təsərrüfatçılıq formaları üçün əsas şərtlərdən biri olmalıdır. Kəndli (fermer) təsərrüfatının yaradılması əsasən iki yolla həyata keçirilir:

- birincisi, dövlət torpaq fondundan icarə formasında istifadə ilə, yaxud həmin torpaq fondunun özəlləşdirilməsi ilə kəndli (fermer) təsərrüfatının təşkili;
- ikincisi isə, kolxoz və sovxozların ləğv edilməsi nəticəsində həmin təsərrüfatlardan alınan pay torpaqları əsasında təşkil etdikləri kəndli (fermer) təsərrüfatları (56, s.6).

Azərbaycanda bütövlükdə torpaq fondu, xüsusilə də kənd təsərrüfatı dövriyyəsində olan torpaq fondu məhduddur. Ona görə də özəl kənd təsərrüfatı müəssisələrinin yaradılması zamanı hansı formanın seçilməsi elmi cəhətdən əsaslandırılmalıdır.

Elmi cəhətdən əsaslandırılmış özəl kənd təsərrüfatı müəssisələrinin yaradılması resurslardan səmərəli istifadə mexanizmi yaratmaqla tələbatların ödənilməsində əhəmiyyətli rol oynaya bilər.

Azərbaycanın uzun müddət müstəqil olmaması, ölkə qarşısında yaranan iqtisadi problemləri müstəqil həll edə bilməməsi kənd təsərrüfatı üçün yararlı torpaq sahələrinin kənd təsərrüfatı dövriyyəsindən çıxması ilə nəticələnmişdir. Aqrar bölmədə iqtisadi münasibətlərin bazar mexanizmi əsasında yenidən qurulması həmin torpaqların münbitliyini bərpa etməklə yenidən təsərrüfat dövriyyəsinə qaytarmağa imkan verəcək.

Azərbaycanda ümumi torpaq sahəsi 8,6 mln. hektardır. Torpaq islahatı əsasən başa çatdıqdan sonra 3,8 mln. hektarı dövlət mülkiyyətində, 2,7 mln. ha bələdiyyə mülkiyyətində

downloaded from KitabYurdu.org

olmuş və 2,1 mln. ha isə xüsusi mülkiyyətə verilmişdir. Bütövlükdə, respublikamızın torpaq fondu, o cümlədən kənd təsərrüfatı üçün yararlı torpaq sahəsi bu və ya digər yaşayış məntəqələrində qeyri-bərabər yerləşmişdir. Bir qrup rayonlarda əhalinin yüksək sıxlığı ilə yanaşı kənd təsərrüfatı üçün yararlı torpaq sahəsi çox məhduddur. Ona görə də həmin regionlarda adambaşına düşən torpaq payı ilə kəndli (fermer) təsərrüfatı təşkil etmək o qədər də asan deyil. Belə fərqlər nəinki ayrı-ayrı regionlarda, hətta eyni bir rayon daxilində müxtəlif təsərrüfatlarda da fərqlidir. Əsasən kəndli (fermer) təsərrüfatı ailə təsərrüfatı kimi formalaşır. Lakin bu əsas göstərici ilə yanaşı respublikada kənd təsərrüfatı üçün yararlı torpaq sahəsi, heyvanların baş sayı, pambıqçılıq, üzümçülük, taxılçılıq üçün ayrılan torpaq sahəsi, bütövlükdə kənd təsərrüfatında çalışan işçilərin sayı kəndli (fermer) təsərrüfatının təşkilinə və həcminə öz təsirini göstərməyə bilməz. Ona görə də kolxoz və sovxozları formal şəkildə kəndli (fermer) təsərrüfatına çevirmək arzu olunmaz nəticələri verməzdi.

Fermer təsərrüfatı özəlləşdirmə payı əsasında təşkil edilən təsərrüfatlara daha çox uyğun gəlir. Lakin bazar münasibətləri gerçəklikdə elə fermer təsərrüfatlarının yaradılmasını tələb edir ki, mövcud kolxoz və sovxozlardan texniki təchizatına görə, məhsuldarlığına görə torpaq sahəsi və heyvanların sayına görə çox güclü olsun.

Beynəlxalq maliyyə təşkilatlarının köməyi ilə yaradılan nümunəvi fermer təsərrüfatları bütün imkanlarına görə vətəndaşların şəxsi əmlakı ilə yaranan fermer təsərrüfatlarından fərqlənir. Aqrar bölmədə mülkiyyət münasibətlərinin yeniləşməsinə kömək məqsədi ilə beynəlxalq maliyyə təşkilatları yeni təsərrüfatçılıq formalarının, xüsusilə fermer təsərrüfatlarının formalaşmasında yaxından iştirak edir. Belə ki, ölkəmizdə beş nümunəvi fermer təsərrüfatlarının yaradılması üçün beynəlxalq maliyyə təşkilatları 30 mln. dollar vəsait ayırmışdır.

downloaded from KitabYurdu.org

Kolxoz və sovxozlarda özəlləşdirmə aparılması nəticəsində aqrar bölmədə bazar strukturlarının yaranması meyli aşağıdakı cədvəldə özünü qabarıq şəkildə göstərmişdir.

**Cədvəl 2.4**

**Kənd təsərrüfatı müəssisələri və kəndli (fermer) təsərrüfatlarının sayı (16, s.55)**

| İllər | Kənd təsər.müəssisələri (cəmi) | O cümlədən | | | | Kəndli (fermer) təsərrüftı |
|---|---|---|---|---|---|---|
| | | kolxozlar | sovxozlar | özəl | sair dövlət | |
| 1990 | 3014 | 983 | 820 | - | 1211 | 66 |
| 1992 | 2755 | 1196 | 731 | 134 | 694 | 95 |
| 1994 | 2406 | 1125 | 720 | 117 | 444 | 815 |
| 1996 | 2613 | 982 | 569 | 746 | 316 | 4110 |
| 1998 | 5605 | - | - | 4847 | 758 | 3721 |
| 2000 | 2910 | - | - | 2500 | 410 | 3248 |
| 2001 | 2442 | - | - | 2171 | 249 | 2604 |
| 2002 | 1984 | - | - | 1663 | 321 | 2589 |

Cədvəldən (2.4) aydın görünür ki, 1998-ci ildən sovxoz və kolxozlar fəaliyyətini tamamilə dayandırmışdır. Aqrar bölmədə özəl təsərrüfat formaları həlledici rola malik olmuşdur. 2002-ci ildə 321 sair dövlət kənd təsərrüfatı müəssisəsinə qarşı qeydiyyatdan keçmiş 2589 kəndli /fermer/ təsərrüfatı, 1663 digər özəl kənd təsərrüfatı müəssisəsi mövcud olmuşdur.

Bütövlükdə, dünya ölkələrinin iqtisadiyyatında, o cümlədən ABŞ-ın iqtisadiyyatında fermer təsərrüfatı kənd təsərrüfatında qeyri-fermerlərə nisbətən əhəmiyyətli rol oynayırlar.

1988-ci ildə ABŞ-da ümumi milli məhsulun 180 mlrd. dolları kənd təsərrüfatının payına düşmüşdür ki, bu məhsulların da əhəmiyyətli hissəsi fermer təsərrüfatlarında istehsal olunmuşdu. Burada əmək qabiliyyətli əhalinin 2 faizi kənd təsərrüfatında çalışır. ABŞ ixracatından gəlirlərin 10 faizi (36

downloaded from KitabYurdu.org

mlrd. dollar) kənd təsərrüfatı məhsullarının ixracatından əldə olunub. Bütün bu nəticələrin əldə olunmasında fermer təsərrüfatlarının özünəməxsus yeri var. Təbii ki, fermer təsərrüfatları birdən-birə bu cür inkişaf səviyyəsinə gəlib çatmamışdır.

Tarixən fermerlərin gəlirləri qeyri-fermerlərin gəlirlərinin 3/4 hissəsini təşkil etmişdi. 70-ci illərdən başlayaraq ABŞ dövlətinin xüsusi qayğısı nəticəsində fermerlərin gəlirləri faktiki olaraq qeyri-fermerlərin gəlirlərindən yüksək olmuşdur. Məsələn, 1985-ci ildə orta ümumi milli gəlir 29066 dollar olduğu halda fermer ailələrinin orta gəliri 29436 dollar olmuşdur. Bunları ABŞ iqtisadiyyatından nümunə gətirməkdə məqsədimiz yeni yaranan fermer təsərrüfatlarının kənd təsərrüfatı ilə əlaqədar yaranan problemlərin avtomatik həlli olmadığını göstərməkdən ibarətdir.

Respublikamızda fermer təsərrüfatları yarandığı ilk gündən bir sıra problemlərlə qarşılaşmışdır. Kənd təsərrüfatı məhsullarının sənaye məhsullarına nisbətən həddindən çox aşağı qiymətə olması fermer təsərrüfatlarının özünün maddi-texniki təchizatını həyata keçirməsi imkanlarını məhdudlaşdırır. Bu problemlərin böyük bir qismi keçid dövrünün ziddiyyətlərindən irəli gəlir. Lakin bu o demək deyildir ki, keçid dövrü başa çatdıqdan sonra aqrar bölməni problemsiz inkişaf gözləyir. Hətta inkişaf etmiş bazar sistemli ölkələrdə də aqrar bölmə vaxtaşırı bu və ya digər problemlərlə qarşılaşır. Məsələn, ABŞ-da fermerlər qarşısında duran problemləri iki qrupa: qısamüddətli və uzunmüddətli dövrlər üçün problemlərə ayırırlar. Fermerlərin qiymət və gəlirlərinin bütövlükdə iqtisadiyyatdakı qiymət və gəlirlərdən geri qalması uzunmüddətli dövr üçün problem kimi səciyyələndirilir. Müxtəlif illərdə fermerlərin gəlirlərinin həddindən artıq qeyri-sabitliyi qısamüddətli problem adlandırılır (54, s.241).

ABŞ iqtisadiyyatında son illərdə fermerlərin gəlirlərinin yüksəlməsinin əsas mənbəyi dövlət subsidiyasıdır. Azər-

downloaded from KitabYurdu.org

baycan dövləti də hökumətin imkanları genişləndikcə fermer təsərrüfatlarının problemlərinin həllinə bu və ya digər formada köməklik göstərir. Sovxoz və kolxozların islahatı nəticəsində fermer təsərrüfatlarının yaradılması kütləvi hal almışdı. Bu islahat nəticəsində sovxoz və kolxozların ləğvi başa çatmış və onların yerlərində müxtəlif sahəli fermer təsərrüfatları yaradılır. Sovxoz və kolxozlarda yaşayan əhali həmin təsərrüfatların torpaq və digər əmlaklarından pay almaqla öz ailə təsərrüfatlarını yaradıblar. Hələlik ləğv olunmuş sovxoz və kolxozların yerində bir neçə ailənin payı əsasında təşkil olunmuş fermer təsərrüfatları daha çox xüsusi çəkiyə malikdir.

Sovxoz və kolxozlarda islahatlar aparılarkən qarşıya çıxan problemlərdən biri də həmin təsərrüfatların mal-qarasının, donuzunun, quşların özəlləşdirilməsi və bunlar əsasında heyvandarlıq istiqamətli fermer təsərrüfatlarının yaradılmasıdır. Bütün təsərrüfat dərəcələri üzrə 1992-ci ildə iri buynuzlu mal-qara 1826,2 min baş, donuzlar 1337,3 min baş, qoyunlar 5098 min baş, atlar 34,6 min baş, keçilər 193,8 min baş olmuşdur. 1992-1996-cı illərdə bu təsərrüfatların maliyyə çətinliyi üzündən heyvanların bir qismi satılıb işçilərin əmək haqqının ödənilməsinə istifadə olunmuşdu. Ona görə də sovxoz və kolxozların mal-qarasından, qoyunlarından və digər heyvanlarından pay almaqla, heyvandarlıq istiqamətli fermer təsərrüfatları yaratmaq o qədər də asan olmamışdır. Burada, əsasən heyvanların satın alınması yolu ilə yaradılan fermer təsərrüfatları üstünlük təşkil etmişdi. Bütün bü çətinliklərə baxmayaraq aqrar islahatların müvəffəqiyyətliliyi aqrar bölmədə yaradılan yeni təsərrüfatçılıq formalarının inkişafına əlverişli şərait yaratmışdır.

Bazar münasibətlərinin aqrar sektorda tədricən formalaşması, mülkiyyət münasibətlərinin yeniləşməsi, torpağa münasibətini də təkmilləşdirir, torpaq təkcə xüsusi mülkiyyətə daxil olmur, alqı-satqının torpaq islahatı nəticəsində tətbiqi tədricən iri torpaq sahiblərinin formalaşmasına gətirib çıxarır, iri torpaq sa-

downloaded from KitabYurdu.org

hibkarlığının meydana gəlməsi torpaqdan istifadənin icarə formasının tətbiqinə də şərait yaradır.

Bütövlükdə iqtisadiyyatda mülkiyyət münasibətlərinin yeniləşməsi, o cümlədən də aqrar sektordakı bazis dəyişiklikləri bazara keçidi təmin etməklə yanaşı iqtisadiyyatımızın dünya iqtisadiyyatına qovuşmasında və düşdüyü böhranlı vəziyyətdən çıxmasında əhəmiyyətli rol oynayır.

Aqrar bölmədə mülkiyyət münasibətlərinin yeniləşməsi bir sıra obyektiv və subyektiv çətinliklərlə qarşılaşmasına baxmayaraq çox güman ki, bu sahədə düşünülmüş formada aparılan islahatlar bu sahənin iqtisadiyyatda aparıcı yerini müəyyənləşdirir. Hər şeydən əvvəl, istehsalçının həm də mülkiyyətçiyə çevrilməsi əhalinin əsas ərzaq məhsullarına olan tələbatının ödənilməsindəki çətinliyini xüsusi mülkiyyət münasibətlərinin inkişafı əsasında kənd təsərrüfatı müəssisələrini inkişaf etdirməklə aradan qaldırmaq mümkün olur. Son dövrlərdə iqtisadiyyatda baş verən yüksək artım tempi kənd təsərrüfatında da özünü göstərir.

1997-ci il bazar münasibətlərinin formalaşması baxımından iqtisadiyyatımızın aqrar bölməsində dönüş ili olmuşdur. Məhz həmin ildə kənd təsərrüfatının ümumi məhsulunun dəyəri 4,1 trilyon manat olmuşdur ki, bunun da 80 faizi özəl sektordan əldə edilmişdir. Ərzaq kompleksinin vacib sahələrindən olan heyvandarlıq bütövlükdə 1996-1997-ci illərdə respublikanın bütün növ təsərrüfatlarında iribuynuzlu mar-qaranın sayı 161,8 min baş artmışdır, bu da öz növbəsində ət və süd istehsalının müvafiq olaraq 8,9 faiz və 6,6 faiz çoxalmasına səbəb olmuşdur. Daxili istehsal həcminin artması ilə heyvandarlıq məhsullarının idxalı xeyli dərəcədə azalmışdır. Əvvəlki ilə nisbətən 1997-ci ildə göstərilən ərzaqlar üstüstə 3 dəfə (77,0 min ABŞ dolları məbləğində) az idxal edilmişdir. Nəticədə satış qiymətlərinin nisbətən aşağı düşməsi, keyfiyyət göstəricilərinin yaxşılaşması meylləri müşahidə olunmuşdur. Eyni zamanda kənd təsərrüfatı məhsullarının

downloaded from KitabYurdu.org

ümumi həcmində ixrac-idxal əməliyyatları strukturunda da müsbət dəyişikliklər baş vermişdir. Bütün keçid dövrü ərzində ilk dəfə olaraq 1997-ci ildə bu göstərici üzrə müsbət saldo əldə edilmişdir, ixrac idxalı 17,0 min ABŞ dolları həcmində üstələmişdir.

Aqrar bölmədə islahatların müvəffəqiyyətliyi kənd təsərrüfatı məhsullarının istehsalının artımı ilə müşahidə olunmaqdadır. Aşağıdakı cədvəl son illərdə aqrar istehsalda yaranan dəyişiklik haqqında tam təsəvvür yaratmağa imkan verir.

Cədvəl (2.5) bir daha əyani şəkildə göstərir ki, aqrar bölmədə bazar münasibətlərinin inkişafı ölkənin düşdüyü böhranlı vəziyyətdən çıxmasında əhəmiyyətli rol oynamışdır. 90-cı illərin ortalarına qədər kənd təsərrüfatı məhsullarının istehsalı nəzərəçarpacaq dərəcədə aşağı düşmüşdür. Aqrar islahatlar öz ilkin bəhrəsini 90-cı illərin ikinci yarısından verməyə başlamışdır. Müstəqil dövlətin milli maraqlarına uyğun səmərəli kənd təsərrüfatı istehsalı quruluşu formalaşmaqdadır. Aqrar istehsal inkişaf etdikcə onun səmərəli quruluşunun formalaşması müstəqilliyimizin ilkin illərində xüsusi kəskinliyi ilə qarşımıza çıxan ərzaq probleminin həllində əvəzsiz rol oynamaqdadır. Aqrar bölmədə iqtisadi islahatların nəticəsi olaraq yaranan bazar prinsipləri ilə fəaliyyət göstərən yeni təsərrüfat formaları əsas kənd təsərrüfatı məhsulları istehsalının davamlı olaraq artımını təmin edir. 2005-ci ilin təsərrüfat nəticələri daha qənaətbəxş səviyyədədir. Bu ildə 2126,7 min ton taxıl, 1083,1 min ton kartof, 1127,3 min ton tərəvəz, 149,6 min ton ət, 1251,9 min ton süd və sair kənd təsərrüfatı məhsullarının istehsalı bir daha göstərir ki, aqrar bölmənin inkişafı daxili resursları fəal hərəkətə gətirməklə zəruri kənd təsərrüfatı məhsullarına olan tələbatımızı ödəmək iqtidarındadır.

Bununla belə, kənd təsərrüfatında bazar münasibətlərinin tədricən bərqərar olması, kənd təsərrüfatında aparılan quruluş dəyişiklikləri, habelə digər səbəblərə görə pambıq, üzüm və yaşıl çay yarpaqlarının istehsal həcmi əvvəlki dövrlərə nisbətən kəskin azalmışdır. Xüsusi ilə tütün istehsalı 2002-ci ildə 3,3 min tona qədər azalaraq əvvəlki səviyyəsinin dörddə biri qədər olmuş-

downloaded from KitabYurdu.org

dur. Bu sahədə aparılan radikal dəyişikliəlr 2005-ci ildə tütün istehsalının 7,1 min tona çatmasını gətirib çıxarmışdı. Aqrar islahatların nəticəsi olaraq iqtisadi təhlükəsizliyin mühüm tərkib hissəsi olan ərzaq təhlükəsizliyi də öz həllini tapmaqdadır. Müstəqil dövlətə xas olan mühüm xüsusiyyətlərdən biri olan kənardan asılılıq minimüm səviyyəyə endirilmişdir.

**Cədvəl 2.5**

**Kənd təsərrüfatı məhsulları istehsalı (15, s. 287; 22, s. 528-537)**

| Məhsullar | 1990 | 1997 | 1998 | 1999 | 2000 | 2001 | 2002 | 2005 |
|---|---|---|---|---|---|---|---|---|
| Ümumi yığım, min ton | | | | | | | | |
| Taxıl: | | | | | | | | |
| İlkin mədaxil şəklində | 1413,6 | 1127,1 | 950,3 | 1098,3 | 1540,2 | 2016,1 | 2195,9 | 2126,7 |
| Pambıq | 542,9 | 124,6 | 112,9 | 96,8 | 91,5 | 83,6 | 80,4 | 196,6 |
| Tütün | 52,9 | 15,1 | 14,6 | 8,6 | 17,3 | 12,7 | 3,3 | 7,1 |
| Kartof | 185,2 | 223,4 | 312,5 | 394,1 | 469 | 605,8 | 694,9 | 1083,1 |
| Tərəvəz | 856,2 | 495,4 | 502,3 | 670,8 | 780,8 | 916,4 | 974,6 | 1127,3 |
| Bostan məhsulları | 97,5 | 57,1 | 78,8 | 206,3 | 261 | 290,9 | 330,3 | 363,8 |
| Üzüm | 1196,4 | 145,3 | 144,2 | 112,5 | 76,9 | 68,1 | 62,1 | 79,7 |
| Meyvə və giləmeyvə | 367,4 | 330,9 | 390,6 | 436,5 | 477 | 497,5 | 516,8 | 625,7 |
| Çay yarpağı | 30,7 | 1,6 | 0,9 | 2,7 | 1,1 | 1,4 | 1,4 | 0,7 |
| İstehsal: | | | | | | | | |
| Ət /kəsilmiş, çəkidə/ min ton | 175,5 | 90,5 | 99,9 | 104,6 | 108,7 | 114,1 | 124,6 | 149,6 |
| Süd, min ton | 970,4 | 881,05 | 946,5 | 993,4 | 10311 | 1073,7 | 1119,8 | 1251,9 |
| Yumurta, mln ədəd | 985,3 | 492,4 | 509,0 | 526,3 | 542,6 | 555,5 | 561,6 | 874,6 |
| Yun /fiziki çəkidə/, min ton | 11,2 | 9,6 | 10,3 | 10,5 | 10,9 | 11,6 | 11,8 | 13,1 |

downloaded from KitabYurdu.org

Cədvəl «Azərbaycan kənd təsərrüfatı 2002» və «Azərbaycan statistik göstəriciləri 2006» məcmuəsi əsasında tərtib edilmişdir.

Beləliklə, yeni iqtisadi sistemə keçid dövrünü əhatə edən ötən əsrin doxsanıncı və cari yüzilliyin ilk ilində kənd təsərrüfatı istehsalı müstəqillik və yeni sosial-iqtisadi şəraitdə fəaliyyət göstərməsi ilə səciyyələnir. Belə ki, iqtisadiyyatın bazar münasibətlərinə keçməsi, kənddə aqrar islahatların həyata keçirilməsi, ictimai təsərrüfatlara məxsus torpaq və əmlakın özəlləşdirilməsi, kənd təsərrüfatı istehsalı sahəsində mərkəzi planlaşma sisteminin ləğv edilməsi, məhsul satışının sərbəstləşdirilməsi və s. bu kimi tədbirlər kənd təsərrüfatının sosial və sahə strukturuna da ciddi təsir göstərmişdir. Əhali və kəndli (fermer) təsərrüfatları mülkiyyətə sahib olduqdan sonra əsas kənd təsərrüfatı məhsulları istehsalçılarına çevrilmişdir.

Aqrar bölgədə islahatların gedişinin təhlili göstərir ki, aqrar islahatlar öz bəhrəsini verir, aqrar sahibkarlıq, aqrobiznes müvəffəqiyyətlə formalaşmaqdadır. İqtisadiyyatın digər sahələri kimi aqrar bölmə də bazar prinsipləri əsasında fəaliyyət göstərir. Bazar mühitinin formalaşması səviyyəsindən asılı olaraq bazar mexanizminin elementləri aqrar bölmənin inkişafına real təsir imkanı əldə edir.

Son dövrlərdə ölkə miqyasında sahibkarlığın inkişaf etdirilməsi məqsədi ilə daha ciddi tədbirlər həyata keçirilir. Belə ki, Azərbaycan Respublikasının Prezidenti İ.H.Əliyevin 24 noyabr 2003-cü il tarixli «Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi» və 11 fevral 2004 – cü il tarixli «Regionların sosial-iqtisadi inkişafının Dövlət proqramı» (2004-2008-ci illər) haqqında qəbul etdiyi fərmanlar sahibkarlığın inkişaf etdirilməsi ilə sosial - iqtisadi inkişafın sürətləndirilməsinə və regionların inkişafına əlverişli şərait yaratmışdır. Bu məqsədlə ölkənin, o cümlədən də regionların sosial -iqtisadi inkişafının daxili və xarici mənbələri aşkarlanmış, sahibkarlığın inkişafına mane olan amillər müəyyənləşdi-

downloaded from KitabYurdu.org

rilib və bu maneələrin aradan qaldırılması sahəsində müvafiq dövlət orqanları qarşısında duran mühüm vəzifələr müəyyənləşdirilmişdir. Bütün bu tədbirlər iqtisadiyyat miqyasında bazar prinsipləri əsasında fəaliyyət göstərən sahibkarlığın formalaşması və inkişafına əlverişli şərait yaradılması ilə səciyyələnir. Bütün bunlarla yanaşı, mülkiyyət münasibətlərinin yeniləşməsi və rəqabət mühitinin formalaşdırılması ilə sahibkarlığın inkişafına əlverişli şərait yaradılması inzibati amirlik təsərrüfatçılıq mexanizmindən bazar mexanizminə transformasiyanın başlıca şərti kimi çıxış edir.

downloaded from KitabYurdu.org

# III FƏSİL

# KEÇİD İQTİSADİYYATINDA BAZAR MEXANİZMİNİN QƏRARLAŞMASI PROBLEMLƏRİ

*Bazar iqtisadiyyatı insanlar arzuladıqları kimi yaşamağa cəhd etmək imkanı verir. (Müəllif)*

## 3.1. Təsərrüfat mexanizminin təkamülü şəraitində bazar mexanizminin fəaliyyət xüsusiyyətləri

Hər bir cəmiyyət öz iqtisadi məqsədlərinə nail olmaq üçün bazis elementlərini çevik hərəkətə gətirə bilən təsərrüfatçılıq mexanizmi yaradır. Bu təsərrüfatçılıq mexanizmi üst qurumun istəyindən daha çox cəmiyyətin obyektiv iqtisadi qanunlarının tələblərinə uyğun formalaşır. Cəmiyyətin inkişafı əsasən təkamül yolu ilə yüksələn xətt üzrə getdiyindən yaranan təsərrüfat mexanizmi də iqtisadiyyatın mövcud səviyyəsinə uyğun gəlir, inkişaf edir və təkmilləşir. Formalaşan təsərrüfat mexanizmi hər bir konkret mərhələdə cəmiyyətin sosial iqtisadi təbiətinə uyğun olaraq mülkiyyətin reallaşmasına maksimum əlverişli şərait yaratmalıdır. Təbii ki, iqtisadi sistemlərdə mülkiyyətin reallaşması imkanı iqtisadi sistemlərin mükəmməlliyi səviyyəsindən çox asılıdır. İqtisadi sistemin elementlərinin fəal hərəkətə gətirilə bilməsi həmin iqtisadi sistemə xas təsərrüfat mexanizminin çevikliyi ilə müəyyən olunur. İqtisadi sistemin bu cəhətlərini nəzərə alaraq təsərrüfat mexanizminə aşağıdakı kimi tərif vermək olar; təsərrüfat mexanizmi – cəmiyyətin konkret formalaşmış şəraitində iqtisadi qanunların köməyi ilə istifadə etdiyi təşkilati, struktur və təsərrüfatçılığın formaları, idarəetmə metodları və hüquqi formaların məcmusudur. Təsərrüfat mexanizminə verilən bu tərif heç də hamı tərəfindən birmənalı şəkildə qəbul olunmur. Y.A.Zıkov və L.A.Matveyev hesab edirlər ki, təsərrüfat me-

downloaded from KitabYurdu.org

xanizmi geniş mənada idarəetmə münasibətlərinin məcmusudur (127,s.14). Y.M.Tolpin, E.P.Dunayev isə hesab edirlər ki, təsərrüfat mexanizmi iqtisadi qanunlardan istifadə mexanizmidir, təsərrüfat mexanizmi daxilən xas olan istehsal münasibətləridir: iqtisadi sistemin obyektiv əsası və idarəetmənin konkret iqtisadi formasının məcmusudur (106,s.255). Sovet hakimiyyətinin ilk illərində cəmiyyətin iqtisadi inkişafında təsərrüfat mexanizminə V.İ.Lenin böyük əhəmiyyət verərək yazırdı: «Təsərrüfat mexanizmi saat kimi dəqiq işləməlidir» (75, s.157). Doğrudur təsərrüfat mexanizminin sosializm şəraitində saat kimi işləməsi o qədər də asan məsələ deyildi. Sosializmin sosial-iqtisadi təbiətinə uyğun subyektiv amillərin sosialist təsərrüfatında həlledici rola malik olması, obyektiv qanunauyğunluqlara məhəl qoyulmaması inzibati amirlik iqtisadi sisteminin işlək təsərrüfat mexanizminin yaradılmasına mane olurdu. Təsərrüfat mexanizmi obyektiv münasibətlər sistemi olub bütövlükdə cəmiyyətin iqtisadi məqsədlərinin, o cümlədən də insanların maddi tələbatlarının ödənilməsinə şərait yaradır. Təsərrüfat mexanizminin bu mahiyyət forması bizə imkan verir ki, təsərrüfat mexanizminin mahiyyətinin konkret tərəflərini araşdırıb onun fəaliyyət mexanizmi haqqında təsəvvürləri genişləndirək. İqtisadi sistemlərin inkişafı təkcə iqtisadi alətlərin hərəkətə gətirilməsi ilə təmin edilə bilmədiyindən təsərrüfat fəaliyyətinə aktiv təsir göstərən digər amillərin də hərəkətə gətirilməsinə zərurət yaranır. Bütün bunlar, hər şeydən əvvəl təsərrüfat mexanizminə iqtisadi mexanizmdən başqa dövlət-hüquq, təsərrüfat-hüquq, mülki-hüquq, dövlət-idarətmə, təsərrüfat idarəetmə və özünüidarəetmə ünsürlərinin daxil edilməsi zərurətindən irəli gəlir. Həmçinin, təsərrüfat mexanizminə icra hakimiyyəti və inzibati sfera da daxil edilir. Təbii ki, müxtəlif iqtisadi sistemlərin təsərrüfat mexanizmində bu adı çəkilən ünsürlərin iqtisadi inkişafda oynadıqları rolun nisbəti fərqli olacaq. Çünki təsərrüfat mexanizmi, hər şeydən əvvəl siyasi sistem daxilində yaranır və inkişaf edir. Təsərrüfat mexanizmi təkcə iqtisadi fəaliyyət dairəsini əhatə etmir, cə-

downloaded from KitabYurdu.org

miyyətin inkişafı ilə o, həm də sosial sistemin müxtəlif aspektlərini də əhatə edir. Hətta, ən məhdud mənada işlətdikdə belə təsərrüfat mexanizmini iqtisadi mexanizm ilə eyniləşdirmək olmaz. O, daimi təsərrüfat həyatının müxtəlifliyinə və dəyişkənliyinə uyğun gəlməlidir. Bu dar mənalı anlayışda təsərrüfat mexanizmi ilə iqtisadi mexanizmin fərqliliyi forma və məzmunun, təcrübə və nəzəriyyənin nisbətində təzahür edir. Təsərrüfat mexanizminin forma, alət və metodları iqtisadi həyatda baş verən hadisələrə çevik reaksiya verməklə prespektivin maraqlı və faydalı olanlarını müəyyənləşdirməlidir. Təsərrüfat mexanizminin səmərəliliyini müəyyən edən bu amillər hər bir iqtisadi sistemdə fəaliyyət göstərən təsərrüfat mexanizminin fərqliliyi vasitəsi ilə təzahür edir. Mahiyyətini iqtisadi qanun və kateqoriyalar təşkil edən iqtisadi mexanizm təsərrüfat mexanizminin nəzəri bazası olub özündə müəyyənedici xassələri əks etdirir. İqtisadi mexanizm qarşılıqlı əlaqə və asılılığı ifadə etməklə hadisələr üçün ümumini, iqtisadi inkişafın forma, vasitə və metodlarını özündə birləşdirir. İqtisadi mexanizm ictimai istehsalın yeni kombinasiyaları vasitəsi ilə müəyyən yeni yüksək səmərə alınmasına şərait yaradır. Nəticədə daha mükəmməl iqtisadi sistem şəraitində təsərrüfat mexanizmi elementlərinin fərdi səmərəliliyinin inteqrasiyası prosesi güclənir. Məsələn, bazar mexanizmi şəraitində təklifin, tələbin, qiymətin səmərəliliyinin təmin edilməsi bütövlükdə bazar sistemində səmərəlilik göstəricisi kimi çıxış edir. Yaxud inzibati amirlik iqtisadi sistemi şəraitində təsərrüfat mexanizminin mərkəzi həlqəsi olan planlaşdırmanın səmərəliliyi mənafelərin uzlaşdırılmasının səmərəliliyini təmin edərdisə bütövlükdə sosialist ictimai mülkiyyəti çevik reallaşma mexanizminə malik olardı. Müxtəlif dövrlərdə sosializmin iqtisadi inkişafına mane olan bütün amilləri təsərrüfat mexanizminin təkmilləşdirilməsi yolu ilə aradan qaldırmağa çalışmışlar. Ona görə də Sovet İttifaqı alimləri də təsərrüfat mexanizminin mahiyyətini elmi cəhətdən araşdırmışlar. Sosializm şəraitində təsərrüfat mexanizminin tədqiqatçılarından biri olan L.İ.Abal-

downloaded from KitabYurdu.org

kinin də mövqeyi maraq doğurur. O yazır: «İstehsal münasibətləri iki yarım sistemdən, mənimsəmə üsulunu ifadə edən münasibətlər (mülkiyyət münasibətləri) və təsərrüfatçılıq üsulunu əks etdirən iqtisadiyyatın fəaliyyət göstərməsi münasibətlərindən ibarətdir. İkinci qurup münasibətlər təsərrüfat mexanizmi anlayışının mahiyyətini ifadə edir» (2, s.34). Sosializm şəraitində mülkiyyətin ictimailəşmə səviyyəsi, istehsalın nəticəsinin mənimsənilməsinin bir qurup qanunların fəaliyyəti ilə məhdudlaşdırıldığından obyektiv iqtisadi inkişaf qanunlarından söhbət gedə bilməzdi.

İqtisadi qanunlar meyl şəklində fəaliyyət göstərdiklərindən bu meylli inkişafın nəticələri uzun müddət keçdikdən sonra üzə çıxır. Qısa bir müddətdə (məsələn bir ildə) bu qanunauyğun meyli görmək o qədər də asan deyil. Beləliklə, iqtisadi qanunların təsərrüfat mexanizminə təsirini uzun müddət ərzində görmək mümkündür. Ona görə də bazar sistemli ölkələrdə makroiqtisadi sabitliyin təmin edilməsi məqsədi ilə uzunmüddətli dövr üçün iqtisadi təhlildən əldə olunmuş nəticələrdən istifadə olunur. İnzibati amirlik sisteminin təsərrüfat mexanizmi isə beşillik planlaşdırmalar vasitəsi ilə cəmiyyətin inkişaf prespektivlərini müəyyənləşdirirdi.

Biz bu paraqrafda bazar təsərrüfat mexanizminin tədqiq və təhlilinə üstünlük verəcəyik. Bizcə bazar iqtisadi sistemindən fərqli olaraq digər iqtisadi sistemlərdə təsərrüfat mexanizmi mükəmməl bir forma ala bilmədiyindən o, özünə nə obyektiv fəaliyyət göstərən ünsürlər sistemi, nə də ki, cəmiyyətin siyasi qurumundan irəli gələn hüquqi-təşkilati münasibətlər sistemi yarada bilməmişdir. Tarixilik baxımından bazar təsərrüfat mexanizmi ilkin yaranıb. Bazar təsərrüfat mexanizminin rüşeymlərinin yaranması əmtəə təsərrüfatının yaranması tarixi dövrünə təsadüf edir. Lakin əmtəə təsərrüfatının hakim bir təsərrüfat formasına çevrilməsi üçün uzun bir tarixi dövr tələb olunmuşdur. Müxtəlif iqtisadi sistemlər şəraitində əmtəə təsərrüfatının digər təsərrüfat formaları ilə yanaşı mövcud olmasına baxmayaraq, yalnız kapitalizm sisteminin

downloaded from KitabYurdu.org

formalaşması ilə cəmiyyətin iqtisadi sisteminə fəal təsir göstərib, onu hərəkətə gətirən qüvvəyə çevrilmişdir. Kapitalizmin inkişafının müxtəlif yetkinlik mərhələlərinə uyğun olaraq cəmiyyətin təsərrüfat mexanizmi də inkişaf edib təkmilləşmişdir. Əmtəə təsərrüfatının inkişafının mükəmməl forması olan azad rəqabətin hökmran olduğu kapitalizm şəraitində təsərrüfat mexanizminin iqtisadi alətləri daha çox iqtisadi inkişafın ən fəal ünsürləri kimi çıxış edir. Subyektiv müdaxilə olmadan iqtisadi alətlərlə iqtisadiyyatın tənzimlənməsini A.Smit «görünməz əllə» bazar mexanizminin yaradılması kimi xarakterizə edir. Azad rəqabət şəraitində fəaliyyət göstərən bazar mexanizmi özü-özünü tənzimləyəbilmə qabiliyyətlidir. Azad rəqabət şəraitində fəaliyyət göstərən bazar təsərrüfat mexanizmi cəmiyyətin məhsuldar qüvvələrinin görünməmiş vüsət almasına gətirib çıxarmışdır. Bazar mexanizmi təsərrüfat mexanizminin ünsürlərinin tələblərinə uyğun olaraq resursların bölgüsü qaydasını müəyyənləşdirir. Bu cəmiyyətin məhdud resurslarından daha səmərəli istifadəsi üçün əlverişli şərait yaradır. Resursları cəmiyyətin daha çox tələbi olan məhsul və xidmətlərin istehsalına yönəldir. Resurslardan əlverişli, səmərəli istifadə yaratmaq baxımından təsərrüfat mexanizminə iki prizmadan yanaşmaq lazımdır. Real və obyektiv təsərrüfat mexanizmini qısamüddətli və uzunmüddətli əlaqələrin məcmusu kimi araşdırmaq lazımdır. Təsərrüfat mexanizminin uzunmüddətli əlaqələri məhsuldar qüvvələrin ictimai istehsal və təkrar istehsal prosesinə təsirini əks etdirir. Qısamüddətli əlaqələr təsərrüfat mexanizminin daimi təkmilləşməsi və ictimai münasibətlər sisteminə uyğunluğunu nəzərdə tutur (127, s.14-15).

Təsərrüfat mexanizmi mücərrəd bir anlayış olmayıb konkret sosial-iqtisadi sistemdə formalaşır və inkişaf edir. Təsərrüfat mexanizminin məzmun və mahiyyətinin, fəaliyyət dairəsinin müəyyən edilməsində mövqeyi müəllifin mövqeyi ilə kifayət dərəcədə üst-üstə düşən slavak iqtisadçısı Yan Feri-

downloaded from KitabYurdu.org

ants yazır: «Təsərrüfat mexanizminin hər şeydən əvvəl məqsəd və vəzifələri müəyyən iqtisadi sistem çərçivəsində meydana gəlir, fəaliyyət göstərir və inkişaf edir» (45, s.59).

Bazar mexanizmi istehsalın təmərküzləşməsini gücləndirir və iri müəssisələr arasında sıx təsərrüfat əlaqələrinin yaranmasına səbəb olur. Təsərrüfatdaxili əmək bölgüsü inkişaf edib dərinləşir, sahələr arasında inteqrasiya prosesi güclənir. Nəticədə iqtisadi əlaqələrin fəaliyyət dairəsi daha da genişlənib beynəlxalq əmək bölgüsünün inkişafına və dərinləşməsinə şərait yaradır. Azad rəqabət şəraitində fəaliyyət göstərən bazar təsərrüfat mexanizmi kifayət dərəcədə maddi nemətlər bolluğu yaratmışdır ki, bunların da müəyyən bir qisminin xarici bazarlarda reallaşması mütəmadi xarakter daşıyırdı. Bazar təsərrüfat mexanizmi sözün müəyyən mənasında dünya kapitalist təsərrüfat sisteminin formalaşmasının əsası kimi çıxış etmişdir.

Artıq XX əsrin əvvəllərindən başlayaraq bazar mexanizminin əsas ünsürlərindən olan təkliflə tələb arasında bir uyğunsuzluq yaranmağa başlayırdı. Təklif müəyyən mənada tələbi qabaqlamağa başlamışdı. Hətta həmin məhsulların reallaşması üçün xarici bazar da kifayət etmirdi. İnkişaf etmiş ölkələri böhran çulğalayırdı. ABŞ iqtisadiyyatında «Böyük durğunluq illəri» deyilən 1929-33-cü illər böhranı baş verdi. Bazar mexanizminin avtomatik özünü tənzimləməsi, «görünməz əl» iqtisadi inkişafın mövcud səviyyəsinə uyğun gəlmirdi. Cəmiyyətdə yaranan uyğunsuzluqların, ləngimələrin, sosial gərginliklərin təsərrüfat mexanizminin mövcud səviyyəsi ilə tənzimlənməsində müəyyən çətinliklər yaranırdı. Belə ki, təsərrüfat mexanizmini daha universal formaya çevirən yeni elementlər, təşkilati struktur və idarəetmə metodları müasir mərhələdə bazar sistemli ölkələrdə iqtisadi inkişafın əsas ünsürlərinə çevrilirdi.

XX əsrin əvvəllərindən başlayaraq başlıca kapitalist ölkələrində azad rəqabətin yerinə inhisarçılıq gəldi. Artıq iqti-

downloaded from KitabYurdu.org

sadiyyatda fərdi xüsusi kapitallar deyil, iri inhisarçı kapitallar hakim mövqeyə malik idi. Təbii ki, bazar subyektlərində bu cür keyfiyyət dəyişiklikləri onların təsərrüfatçılıq mexanizmində də keyfiyyət dəyişikliyinin baş verməsini zəruri edirdi. İstehsalın təmərküzləşməsi və kapitalist ixtisaslaşmasının səviyyəsinin yüksəlməsi təsərrüfat əlaqələrinin və təsərrüfatın təşkilinin yeni formalarını meydana gətirirdi.

Milli sərvətin böyük bir hissəsi inkişaf etmiş ölkələrdə, dövlətin əlində cəmləşdiyindən iqtisadiyyatda dövlət bölməsi əhəmiyyətli rola malikdir. 70-ci illərin sonu və 80-cı illərin əvvəlinə ABŞ-da dövlət bölməsi 20% təşkil etmişdir. Fransada son dövrlərdə həyata keçirilən milliləşdirmə nəticəsində milli sərvətin 40%-dən çoxu dövlətin əlində cəmləşmişdir. Yaponiya dövlətinin məhsuldar kapitalda payı 20%-dən çoxdur.

İstehsalın təmərküzləşməsi və ictimailəşməsi səviyyəsinin yüksəlməsi ilə paralel şəkildə istehsalın beynəlmiləlləşməsi prosesi də güclənir. Bunun nəticəsində həm ölkə miqyasında, həm də beynəlxalq miqyasda istehsalın və satışın əhəmiyyətli hissəsini öz əlində cəmləşdirən transmilli korparasiyalar (TMK) yaranır. İnkişaf etmiş ölkələrdə 80-cı illərin ortalarından başlayaraq transmilli korparasiyalar sənaye istehsalının 1/3-dən çoxuna, xarici ticarətin yarısından çoxuna, patent, yeni texnika və texnologiyanın 80%-ə yaxınına nəzarət edir. Hər birinin dövriyyəsi 2 milyard dollardan çox olan 400 multimilyarder korparasiya beynəlxalq əməliyyatların əhəmiyyətli hissəsini öz əllərində cəmləşdirmişdir.

Kapitalizmin inkişafı ilə bazar təsərrüfat mexanizminin əsas elementlərindən olan rəqabət mübarizəsi də genişlənir. Rəqabət mübarizəsinin genişlənməsi kapitalizmin bütün mərhələlərini əhatə edir. ABŞ-da 1900-cü ildə siyahıda olan 500 iri kompaniyadan 70-ci illərdə yalnız 70-i, 1917-ci ildəki 100 ən böyük iri kompaniyanın 23-ü, 1940-cı ildəki ən gəlirli 200 kompaniyadan yalnız 30-u müstəqilliyini qoruyub saxlaya bilmişdir. Bazar mexanizminin yaratdığı bu qeyri-sabitlik təsərrüfat subyektlərinin manevr etmək müstəqilliyi vasitəsi ilə

downloaded from KitabYurdu.org

istehsalın istehsal xərclərinin aşağı səviyyədə olduğu ölkələrdə təşkilini zəruri edir. Ona görə də inkişaf etməkdə olan ölkələrin sənaye malları ixracının 10%-dən 90%-ə qədəri TMK-ların payına düşür. TMK-lar istehsal sferasına 30 milyondan çox işçi cəlb etmişdir. Hətta, dünya bazarında transmilli korparasiyalar əsas firmalarla sövdələşməyə girərək inhisar qiymətlərindən istifadəyə çalışırlar.

İqtisadiyyatda dövlət bölməsinin payının artması və nəhəng təsərrüfat subyektlərinin (TMK və nəhəng firmalar) əmələ gəlməsi təsərrüfat mexanizmində keyfiyyət dəyişikliyinin də baş verməsinə səbəb olur.

Müasir mərhələdə təsərrüfat mexanizmi dövlət bölməsi miqyasında və ondan kənarda istehsalın, xidmətin və tədavülün təşkili və idarəedilməsinin spesifik forması kimi çıxış edir. İstehsal vasitələri üzərində xüsusi mülkiyyət münasibətlərinin reallaşması mexanizmini yaradan iqtisadiyyatı tənzimləmənin forma və metodları təsərrüfat mexanizminin əsas funksiyası kimi çıxış edir. İqtisadiyyatın dövlət tənzimlənməsi aşağıdakı 3 əsas formada baş verir:

- təsərrüfatın bilavasitə tənzimənməsi;
- pul-kredit vasitəsi ilə iqtisadiyyata dolayısı ilə təsir;
- iqtisadi proqramlaşdırma və planlaşdırma.

Bilavasitə tənzimləmə qlobal sosial sarsıntılar, müharibələr zamanı təsərrüfatlara tətbiq oluna bilər. Bu cür tənzimlənmənin metodları tamamilə müxtəlif ola bilər. Məsələn, müəssisələri sahələr üzrə birləşdirərək onların idarə olunmasını dövlət inhisarına götürür, xarici bazardan xammal alışını öz üzərinə götürür, istehlak mallarının bölgüsünə kartoçka sistemi və s. tətbiq edir. İqtisadiyyatın dolayısı ilə dövlət tənzimlənməsi kredit-pul sistemi vasitəsi ilə həyata keçirilir. Dövlət inhisarların iflasının qarşısını almaq məqsədi ilə subsidlər və güzəştli kreditlər verir. Dövlət kredit təşkilatlarının faiz dərəcələrinə qarışmaqla təkrar istehsal prosesinə müdaxilə edir. Şəxsi əmlaka vergiləri müəyyənləşdirməklə kapital qoyu-

downloaded from KitabYurdu.org

luşunu ya ləngidir, yaxud da stimullaşdırır. Dövlətin fəaliyyəti istehsal prosesində yaranan çətinlik və disproporsiyanın aradan qaldırılmasına, konyukturanın gözlənilməsinə yönəldilir.

İqtisadi proqramlaşdırma iqtisadiyyata dövlət müdaxiləsinin yüksək forması olub dövlətlə təsərrüfat subyektləri arasında razılıq əsasında həyata keçirilir. O, qarşıdan gələn dövr üçün iqtisadiyyatın inkişaf proqnozunun tərtibində bütün təsərrüfat üçün bütövlükdə iqtisadi siyasətin ən ümumi məqsədinin həyata keçməsi üçün bütün dövlət aparatının fəaliyyətinin əlaqələndirilməsini özündə birləşdirir.

Dövlət aparatının iqtisadiyyata müdaxiləsi həddi təsərrüfat subyektlərinin səmərəli fəaliyyətindən asılı olur. Bazar münasibətlərinin inkişafının hər bir mərhələsinə uyğun iqtisadiyyata müdaxilənin hədləri müəyyənləşdirilmişdir. Azad rəqabət dövründə iqtisadiyyata dövlətin müdaxiləsinin zəruriliyini nəzərə alaraq F.Engels yazırdı: «Nəhayət, dövlət kapitalizm cəmiyyətinin rəsmi nümayəndəsi kimi istehsala rəhbərliyi öz üzərinə götürməyə məcburdur» (82, s. 221-222).

İstehsala dövlət rəhbərliyinin genişlənməsi istər-istəməz qanunauyğun olaraq müəyyən bir mərhələdə kapitalist planlaşdırmasına gətirib çıxarır. Təbii ki, kapitalist planlaşdırması sosialist təsərrüfat mexanizminin mərkəzi həlqəsi olan planauyğun-proporsional inkişaf qanununun tələblərinə uyğun formalaşan planlaşdırmadan köklü şəkildə fərqlənir. İctimai ümumxalq dövlət mülkiyyətinə əsaslanan sosialist planlaşdırmasından fərqli olaraq kapitalist planlaşdırması xüsusi mülkiyyətə və xüsusi mülkiyyətdən irəli gələn təsərrüfatın digər elementlərinə əsaslanır, kapitalist təkrar istehsal prosesində yarana biləcək reallaşma problemlərinin, müəyyən uyğunsuzluğun aradan qaldırılmasına yönəldilib. Bazar sistemində planlaşdırmanı sosialist planlaşdırmasından fərqləndirmək üçün adətən onu indikativ planlaşdırma adlandırırlar. İndikativ planlaşdırma dövlət tərəfindən qoyulan məcburi normalara deyil, yerinə yetirilməsi məcburi olmayan prespektiv inkişa-

downloaded from KitabYurdu.org

fı xarakterizə edən nisbi göstəricilərə əsaslanır. Son 40 il ərzində əksər bazar sistemli ölkələrdə proqramlaşdırma və planlaşdırmanın külli miqdarda növləri yaranmışdı. Bunları 2 əsas kriteriyaya görə təsnifləşdirmək olar:

1. Vacibliliyi və dövlətin uyğun tədbirləri ilə möhkəmlənməsi dərəcəsi;
2. Ölkə iqtisadiyyatını əhatə səviyyəsi.

Müasir bazar sistemli ölkələrdə sahə, çoxsahəli, regional və ümummilli proqramlar geniş yayılmışdır. ABŞ-da proqramlaşdırmanın yüksək səviyyədə olmasına baxmayaraq ümumi milli səviyyədə planlaşdırma proqnozlardan kənara çıxmamış, heç bir məcburilik xarakteri daşımamışdır.

Bu meyl bazar iqtisadiyyatının Amerikan modelinin xüsusiyyətindən irəli gəlir. Burada xüsusi sahibkarlığın inkişaf imkanlarının genişliyi daha çox klassik bazar mexanizmi vasitəsi ilə, onun inkişaf edə bilməsinin əlverişliliyi ilə müəyyən olunur. ABŞ-dan fərqli olaraq Qərbi Avropa ölkələrində (müəyyən mənada özünəməxsus formada həmçinin Yaponiyada) son illərdə ümummilli planlaşdırmanın elementlərinin tətbiqi üçün əlverişli şərait yaranmışdır. 50-60-cı illərdən başlayaraq planlaşdırma Fransa və Hollandiyada geniş miqyasda tətbiq olunmuşdur, digər Avropa ölkələrinə də sonralar yayılmışdır. Fransada 5 illik dövrü əhatə edən planlar planlaşdırma baş komissarlığı tərəfindən qəbul edilir, istehsalın kəmiyyət göstəriciləri sistemini və bəzi keyfiyyət göstəricilərini əks etdirir. Fransanın iqtisadi inkişafının müasir durumunun təhlili bu qənaətə gəlməyə əsas verir ki, indikativ planlaşdırma təsərrüfat mexanizminin mühüm elementlərindən biri kimi özünü doğrultmuşdur. Fransa iqtisadiyyatının quruluşu kifayət dərəcədə modernləşmiş, onun dünya bazarında rəqabətliliyi yüksəlmişdir. Müəyyən mənada planlaşdırmanın bazar mexanizminin təsərrüfat subyektlərinə verdiyi müstəqilliyi məhdudlaşdırdığından müasir bazar sistemli ölkələrdə «plan və bazarın» uzlaşdırılmasının yeni formalarını axtarıb tap-

downloaded from KitabYurdu.org

mağa çalışırlar. Ümumi milli planlaşdırmanın məzmunundan məcburiliyi çıxarmaqla ümumi iqtisadi inkişafın proqnozu şəklinə salınır. Dövlət planlaşdırması daha çox «qarışıq» institusional formalara, təsərrüfatın dövlət və xüsusi bölməsinə əsaslanmağa çalışır.

Bazar təsərrüfat mexanizmi bazar iqtisadi sisteminin model fərqliliyindən asılı olmayaraq bütövlükdə xüsusi sahibkarlığın inkişafının bütün iqtisadi, sosial, təşkilati-hüquqi, dövlət-hüquqi ünsürlərinin daha çevik hərəkətə gətirilməsinə əlverişli şərait yaradır. O, bütövlükdə iqtisadi sistemin dinamik inkişafını təmin edən bir amil kimi çıxış edir. Rəqabət müxtəlif təzahür formalarından keçsə də cəmiyyətin inkişafının başlıca mənbəyi kimi çıxış edir. Rəqabət mübarizəsi bütün sahələrdə, o cümlədən, istehsal sahəsində əlverişliliyə nail olmaq baxımdan bütün imkanların optimal hərəkətə gətirilməsini tələb edir. Əgər ehtiyatların hərəkətə gətirilməsi zamanı optimallıq gözlənilməzsə resurslardan istifadənin səmərəlilik dərəcəsi aşağı düşər, bazar mexanizmi dəyişilən iqtisadi şəraitə çevik uyğunlaşa bilməz. Bu baxımdan inkişaf etmiş ölkələrdə bazar təsərüfat mexanizmi elmi-texniki tərəqqinin nailiyyətlərinin istehsala tətbiqinin genişləndirilməsini zərurətə çevirib. Qiymət mexanizmi ilə üstünlüyə malik olmaq imkanının məhdudluğu istehsal xərclərinin aşağı salınması, məhsul və xidmətin keyfiyyətinin yaxşılaşdırılması ilə mənafelərin üstün reallaşdırılmasını zərurətə çevirir. Beləliklə, bazar iqtisadi sisteminin müasir mərhələsi elmi-texniki biliklərin istehsala tətbiqinin genişlənməsi ilə inkişaf etmiş ölkələrdə elmin bilavasitə məhsuldar qüvvəyə çevrilməsi ilə səciyyələnir. Elmin bilavasitə məhsuldar qüvvəyə çevrilməsi prosesi elmi-texniki yaradıcılığı, istehsal, tədavül sferası və məişətin elektron avtomatlaşdırılmasını özündə birləşdirir. Elektron hesablama texnikasının yaradılması və qısa bir müddətdə təkmilləşməsi sürəti və əməliyyatların həcminin fantastik artımı, EHM-nın əsası olan baza blokunun ucuzlaşması insan fəaliyyətinin müxtəlif tərəf-

downloaded from KitabYurdu.org

lərinin avtomatlaşdırılması üçün qeyri-məhdud imkanlar açdı. Kəmiyyət proqramlı idarə olunan dəzgah və qurğuların kütləvi istehsalına başlanıldı. Müəssisə və kompaniyalar insan fəaliyyətinin müxtəlif tərəflərini yerli, milli və beynəlxalq miqyasda EHM vasitəsi ilə idarə etməyə başladı.

Mövcud olduğu 50 il ərzində elektron hesablama texnikası ölçülməz səviyyədə təkmilləşərək səmərəliliyi yüksəlmiş, insanın tələbatlarına uyğunlaşmışdır. Həm də EHM-nın istehsalı çox gəlirli sahibkarlıq sahəsidir. ABŞ-da elektron hesablama texnikasının istehsalı və istifadəsindən ildə 200 milyard, Qərbi Avropada 85 milyard, Yaponiyada 80 milyard dollardan çox gəlir götürürlər.

İnkişaf etmiş ölkələrdə maddi istehsal prosesinin müasir elektron avtomatlaşdırılması mərhələsi robot sənayesinin yaradılması ilə xarakterizə olunur. Xarici statistik məlumata görə hal-hazırda Yaponiyada 80 mindən çox, ABŞ-da 20 min, Almaniyada 8 min, Böyük Britaniyada 3 min sənaye robotları var. Kapitalist ölkələrində 2000-ci ildə sənaye robotlarının satışından əldə olunan məbləğ 10 milyard dollardan çox olmuşdur. Sənaye robotlarının təkmilləşdirilməsi dövləti elmi-tədqiqat və konstruktor işlərinin maliyyələşdirilməsinin genişləndirilməsinə məcbur edir. Bütün inkişaf etmiş ölkələrin elmi-tədqiqat və konstruktor-layihə işlərinə xərclərinin yarıdan çoxu ABŞ-ın payına düşür. Bütün bunlara baxmayaraq ABŞ kompaniyaları Yapon və Qərbi Avropalı həmkarlarına qısqanclıqla yanaşırlar. Çünki bu ölkələrdə kompaniyaların elmi-tədqiqat və konstruktor-layihə işlərinin maliyyələşdirilməsini dövlət daha konkret ünvanlı şəkildə həyata keçirir. Məsələn, Yaponiya yarımkeçiricilər sənayesinə vergi güzəştləri ilə yanaşı ildə 400 mln. dollar subsidiya verir. Fransa bu sahəyə 140, Böyük Britaniya 120, Almaniya 150 milyon dollar vəsait ayırır. Bazar mexanizminin bütün elementləri, xüsusi ilə rəqabət dünya bazarında əlverişli mövqeyə malik olmaq uğrunda adı sadalanan ölkələri mübarizəyə qaldıraraq onları

downloaded from KitabYurdu.org

yüksək inkişaf səviyyəsinə nail olmağa gətirib çıxarmışdır. Təbii ki, bu ölkələrin «inkişaf etmiş ölkələr» kimi səciyyələnməsində təsərrüfat mexanizminə iqtisadi inkişafın müəyyən mərhələsində daxil edilən yeni elementlər də təsir göstərmişdir.

Təsərrüfat mexanizminin digər əsas tarixi forması sosializm cəmiyyətində meydana gələn, inkişaf edən və sosialist ictimai mülkiyyətinin reallaşması imkanlarının məhdudluğu üzündən ömrünü başa vuran sosialist təsərrüfat mexanizmidir. Sosialist təsərrüfat mexanizmi xüsusi mülkiyyətin inkarı əsasında formalaşmış təsərrüfatçılığı tənzimləmək funksiyasını öz üzərinə götürdüyündən prinsip etibarı ilə fərqli elementlərin məcmu şəklində formalaşır. Sosialist təsərrüfatı mexanizminin tədqiqatçıları onun aşağıdakı fərqləndirici cəhətlərini xüsusi ilə qeyd edirlər: 1) inzibati-amirlik prinsipinə əsaslanan təsərrüfat mexanizmi sosializmin iqtisadi qanunlarının təzahürü, istifadəsi və reallaşmasına xidmət edir; 2) Ümumxalq, qrup və şəxsi maraq və tələbatları təmin edir; 3) Sosial-sinfi ziddiyyətlərdən azaddır, istehsal sferasının kollektivçilik əsasının möhkəmləndirilməsinə istiqamətlənib; 4) İctimai və şəxsi maddi rifahın yüksəldilməsinə istiqamətlənib; 5) Cəmiyyət miqyasında əsasən planauyğun fəaliyyət göstərir (105, s.407). Sosialist təsərrüfat mexanizmi məhsuldar qüvvələrin konkret təşkili və ictimai kombinasiyası formasını, istehsal münasibətlərinin və iqtisadi proseslərin siyasi-hüquqi tənzimlənməsini özündə birləşdirir. Sosialist təsərrüfat mexanizmini iki qrupda:

1. idarəetmənin təşkili;
2. təsərrüfat hesablı stimullaşdırmada birləşdirmək olar;

İdarəetmənin təşkilinin məzmununu idarəetmənin quruluşu, iqtisadi əlaqələrin təşkili forması və kütlələrin idarəetmədə iştirakı təşkil edir. Təsərrüfat hesablı stimullaşdırma isə əməyin ödənilməsini, qiymətin əmələgəlməsi və maliyyə-kredit alətlərini nəzərdə tutur. Təsərrüfat mexanizminin mər-

downloaded from KitabYurdu.org

kəzi həlqəsi kimi çıxış edən planlaşdırma hər iki qrup elementləri birləşdirərək cəmiyyətin inkişaf istiqamətlərini müəyyənləşdirir. İlk baxışda bazar təsərrüfat mexanizmində tətbiq olunan planlaşdırma ilə sosialist planlaşdırması müəyyən oxşar cəhətlərə malik olsa da köklü şəkildə metodoloji cəhətdən bir-birindən fərqlənirlər. Sosialist təsərrüfat mexanizminin mərkəzi həlqəsi olan planlaşdırma direktivliyi, qəbul olunmüş planların məcburiliyi, demokratik mərkəziyyət prinsipinə əsaslanması ilə bazar sistemli ölkələrdəki planlaşdırmadan fərqlənir. Sosializmdə planlaşdırmanın obyektivlikdən çox subyektiv xarakter daşıması təsərrüfat əlaqələrinin qurulmasında iqtisadi mənafelərin gözlənilməməsinə gətirib çıxarır. Təsərrüfat subyektləri tərəf-müqabil seçmək müstəqilliyini itirir.

İqtisadiyyatın idarəedilməsi əmək kooperasiyasının xarakter və miqyası ilə bilavasitə əlaqədə olub, sosialist təsərrüfat mexanizminin mərkəzi həlqələrindən birini təşkil edir. Ümumxalq mülkiyyətinin sərəncamvericisi kimi dövlət orqanları çıxış edir. Sosialist ictimai mülkiyyəti inkişafının müəyyən bir pilləsində «sahibsizlik» münasibəti doğurduğundan, onu müvəqqəti idarəetmə səlahiyyəti əldə edən dövlət orqanı işçiləri istehsalın nəticələrini maksimum dərəcədə öz mənafelərinin ödənilməsinə istifadə edirlər. Nəticədə dövlət idarəetmə orqanlarının həm mərkəzi aparatı səviyyəsində, həm də yerli orqanları səviyyəsində bürokratlaşması baş verir. Bürokratlaşmış idarəetmə aparatı idarəetmənin digər elementi olan kütlələrin idarəetmədə iştirakını sıxışdıraraq məhdudlaşdırır. Təsərrüfat hesablı stimullaşdırmada şəxsi və kollektiv maraq və mənafelərə təsir göstərən kifayət qədər müxtəlif ünsürləri özündə birləşdirir. Bu ünsürlərdən əməyin ödənilməsi, mükafatlandırma, mənfəətin bölgü mexanizmi, qiymət, maliyyələşdirmə və kreditləşdirmə qaydasını xüsusi ilə qeyd etmək lazımdır. Sosialist təsərrüfat mexanizminin elementləri müəyyən mənada nisbi müstəqilliyə malik olsalar da onların heç biri mərkəzi həlqə olan planlaşdırmanın himayəsindən kənarda

downloaded from KitabYurdu.org

qala bilməzdilər. Nəzəri cəhətdən əməyin ödənilməsində sərf olunan əməyin kəmiyyət və keyfiyyətinin əsas götürülməsinə baxmayaraq əmək haqqının əvvəlcədən nəzərdə tutulan planlı artımı işçilərdə əməyin nəticəsinə maddi marağı zəifdədirdi. SSRİ kimi nəhəng bir ölkədə, təbii-coğrafi şəraitin, istehsalın texniki səviyyəsinin və peşə hazırlığının kəskin şəkildə bir-birindən fərqlənməsinə baxmayaraq eyni peşə sahiblərinin əməyinin ödənilməsində çox az fərq (bu fərq dəfələrlə deyil faiz nisbəti ilə ölçülürdü) var idi. Sənaye işçiləri arasında bu fərq orta hesabla 10-15 manata, kənd təsərrüfatı işçiləri arasında isə təxminən 30-40 manata çatırdı. (SSRİ statistik materialları əsasında müəyyənləşdirilib). Bu isə nəticə etibarı ilə əməyin ödənilməsinin stimullaşdırıcı funksiyasının pozulmasına gətirib çıxarırdı. İşçilər arasında öz peşə hazırlıqlarını artırmağa maraq qalmırdı. Bütün bunlar, digər amillərlə birlikdə istehsalın həcminin tədricən aşağı düşməsinə səbəb olurdu. Sosializm təcrübəsi göstərirdi ki, təsərrüfat mexanizminin elementləri arasındakı uyğunsuzluq (planla bir məsələnin həlli nəzərdə tutulur, iqtisadi alətlər başqasının həllinə yönəldilir, planın rolu həddindən artıq şişirdilir) ciddi xalq təsərrüfatı problemlərinin yaranmasına səbəb olur. Belə problemlərdən biri də özünü qiymətin əmələgəlmə mexanizmində göstərirdi. Planlı qiymətin tətbiqi qiymətin əsas funksiyalarından biri olan istehsal xərclərini əks etdirməsi vəzifəsinin kobud şəkildə pozulmasına gətirib çıxarmışdır.

Qiymətqoyma sahəsində dövlət siyasətinin həyata keçirilməsi əvvəlcədən düşünülmüş şəkildə bir qrup müəssisələrin ziyanla, digər qrup müəssisələrin gəlirlə işləməsini təmin etmişdi ki, bu da nəticə etibarı ilə heç bir müəssisənin təsərrüfat fəaliyyətini təkmilləşdirməyə maraqlı etməmişdir. Hətta bəzi müəssisələr düşünülmüş şəkildə dövlətdən datasiyalar almaq məqsədi ilə iqtisadi göstəricilərini də pisləşdirmişlər. Planlı qiymətlərin tətbiqi və bütövlükdə planlaşdırma resurslardan istifadənin də səmərəlilik dərəcəsini aşağı salmışdır.

downloaded from KitabYurdu.org

Xalq təsərrüfatı miqyasında israfçılığa yol verilmişdi, kifayət dərəcədə təbii zənginliyə malik olan SSRİ kimi bir ölkədə 80-cı illərdə istehlak mallarının qıtlığı baş vermişdir. Təsərrüfat mexanizminin iqtisadi inkişafa dinamiklik vermək əvəzinə onu ləngidən bir amilə çevrilməsi təsərrüfat mexanizmində islahatlar aparılmasına, onun təkmilləşdirilməsinə zərurət yaratdı. 80-cı illərin ortalarından başlayaraq təsərrüfat mexanizmində islahatlar aparmağa cəhd edildi. İdarəetmə ərazi və sahə idarəetməsi arasında optimal nisbətin yaradılması, müəssisə və birliklərin müstəqillik və məsuliyyətinin artırılması, inzibati amirlikdən iqtisadi metodlara üstünlük verilməsi bu islahatların məzmununu təşkil etmişdir. Lakin bu islahatlar da 50-ci, 60-cı və 70-ci illərdə olduğu kimi təsərrüfat mexanizminin yeniləşdirilə bilməməsi üzündən onun ictimai istehsalın sabit səmərəli artımını təmin edə bilməməsinə gətirib çıxardı. Təsərrüfat mexanizmi öz başlıca funksiyasını yerinə yetirməsi üçün daimi təkmilləşməlidir. 70-80-cı illərdə sosialist təsərrüfat mexanizminin elementlərinin fəaliyyətindəki mütəmadiliyin pozulması həm iqtifaq miqyasında, həmçinin də respublikamızda iqtisadçıların diqqət mərkəzində olmuşdur. 1980-cı ildə respublikamızda sosialist təsərrüfat mexanizminin elmi əsaslarının işlənib hazırlanmasına həsr edilmiş konfrans keçirilmişdir. Həmin konfransın materiallarında akademik Ə.Mahmudov yazırdı: «Ölkə iqtisadiyyatının səmərəli inkişafında planlaşdırmanın yaxşılaşdırılması və təsərrüfat mexanizminin təkmilləşdirilməsinə Sov.İKP tərəfindən müəyyənləşdirilmiş tədbirlərə çox böyük əhəmiyyət verilir». (78,s.3) Sosialist idarəetmə aparatının həddindən artıq bürokratikləşməsi, ictimai mülkiyyətin miqyasının görunməmiş dərəcədə şişirdilməsi, planlaşdırmanın fəaliyyətin bütün sferasına müdaxiləsi bu təkmilləşməyə mane olan bir amilə çevrildi. Bu müdaxilə, hər şeydən əvvəl idarəetmənin çevikliyinə mane olurdu. Siyasi-iqtisadi sistemdə kifayət dərəcədə keyfiyyət dəyişikliyi baş verməsinə baxmayaraq XX əsrin əvvəllərində

downloaded from KitabYurdu.org

V.İ.Lenin tərəfindən müəyyənləşdirilmiş idarəetmə prinsipləri geniş istifadə olunurdu. Təsərrüfat hesablı stimullaşdırma çox məhdud bir çərçivəyə salınmışdır. Müəssisənin və işçilərin istehsalın nəticəsində maraqlı olmaması açıq-aşkar müşahidə olunurdu.

Heç bir təsərrüfat mexanizmi bu və ya digər uğursuzluq və çətinliklərdən sığorta olunmayıb. 80-cı illərdə əksər inkişaf etmiş ölkələrin iqtisadi inkişafında ləngimələr baş vermişdir. Onlar bazar təsərrüfat mexanizminə ehkam kimi deyil, dəyişilən inkişaf edən bir canlı orqanizm kimi baxaraq öz real gerçəkliklərinə uyğun gələn (bəzən hətta biri-birinin əksi olan) tədbirlər həyata keçirmişlər. Böyük Britaniyada təsərrüfat mexanizminə işlək bir ritm vermək məqsədi ilə dövlət bölməsinin böyük bir hissəsinin xüsusi əllərə verildiyi halda eyni məqsədlə 1985-ci ildə Fransada hakimiyyətə gəlmiş P.Morua hökuməti müəyyən qism müəssisələrin milliləşdirilməsini həyata keçirdi. ABŞ-da Reyqanın yeritdiyi iqtisadi siyasət təsərrüfat mexanizminin daha dinamik hərəkətə gətirilməsini təmin edən tədbirləri özündə əks etdirirdi. İlk baxışda saat əqrəbinin geriyə qaytarılmasına bənzəyən tədbirə, xırda və orta sahibkarlığın inkişaf etdirilməsi diqqət mərkəzinə çəkildi. Vergi islahatları həyata keçirildi. 1981-1989-cu illərdə əhalinin gəlir vergisi orta hesabla 23% aşağı salındı. Əmlakın kapital dəyərinin artımına vergi dərəcələri aşağı salındı. Bu islahatın əsas məqsədi əhalinin orta təbəqəsində yığıma maraq yaratmaq və bu yolla yığımın ümumi milli normasını yüksəltməyə nail olmaqdan ibarətdir. (ABŞ-da yığımın ümumi milli norması Yaponiya və Almaniya ilə müqayisədə aşağıdır). Reyqan hökuməti inzibati alətlərdən çox dolayısı ilə maliyyə metodları ilə tənzimləməyə üstünlük verdi. Hələ Federal Ehtiyat sistemi (FES) 1979-cu ildə bəyan etdi ki, öz fəaliyyətində çox da yüksək olmayan, pul kütləsinin nisbi sabit tempinin saxlanılması prinsipinə əməl edəcək. Keynsçilikdən fərqli olaraq (Keynsçilər hesab edirdilər ki, istehsalın aşağı düşdüyü şə-

downloaded from KitabYurdu.org

raitdə faiz dərəcələrini mümkün qədər aşağı səviyyədə saxlamaq lazımdır) FES hesab edirdi ki, monetarist siyasət əsasında faiz dərəcələrinin müəyyən edilməsini kortəbii bazara vermək lazımdır.

Nəticədə hər üç ölkədə həyata keçirilən iqtisadi tədbirlər toplusu təsərrüfat mexanizmində yaranan çətinlikləri aradan qaldırdı.

Bu ölkələrdən fərqli olaraq SSRİ-də təsərrüfat mexanizminin təkmilləşdirilməsi məqsədi ilə aparılan kosmetik tədbirlər nəinki heç bir nəticə vermədi, hətta digər obyektiv və subyektiv amillərlə birlikdə SSRİ-nin süqutuna gətirib çıxardı. Sosializmin dağılmasından sonra keçmiş sosializm lagerinə daxil olan Şərqi Avropa ölkələri, milli müstəqillik əldə etmiş keçmiş ittifaq respublikaları da sosialist təsərrüfat mexanizmindən imtina edərək sosial yönümlü bazar iqtisadiyyatına keçidi qarşılarına strateji məqsəd qoydular.

Sosialist təsərrüfat mexanizmindən keçmiş sosialist, indiki müstəqil dövlətlərə, o cümlədən də Azərbaycana «qıtlıq» iqtisadiyyatı miras qalmışdır. Müstəqillik hər şeydən əvvəl, ilk addımda ən zəruri yaşayış vasitələrinin çatışmazlığı ilə qarşılaşdı. Təbii ki, müstəqillik tam olmazsa, iqtisadi müstəqilliklə tamamlanmazsa, o uzun müddət davam edə bilməz. Ölkə qarşısında duran bu və ya digər problemlərin həlli düşdüyümüz böhranlı vəziyyətdən çıxmağımız sivilizasiyalı dünyanın müasir durumundan irəli gələn sosial yönümlü bazar iqtisadiyyatına keçidin müvəffəqiyyətliliyindən və onun işlək təsərrüfat mexanizminin yaradılmasından çox asılıdır. Formalaşmaqda olan yeni iqtisadi sistem keçid dövründə bir neçə mərhələni əhatə etdiyindən təsərrüfat mexanizminin formalaşması da təkamül yolu ilə baş verir. Köhnə iqtisadi sistemdən imtina etməklə, yeni bazar münasibətlərinin formalaşması xüsusi mülkiyyətin bütün çalarlarının formalaşdırılmasını tələb edir. Qeyri-leqal, lakin real xüsusi mülkiyyətdə olan müəssisə və obyektlər leqallaşır, vətəndaşlar şəxsi vəsaitlərindən istifadə

downloaded from KitabYurdu.org

imkanı əldə etməklə tədricən sahibkara çevrililər. Özəlləşdirmənin I və II Dövlət proqramlarının reallaşması əsasında ölkədə kiçik, orta və iri sahibkarlıq formalaşır. Bu proseslə paralel olaraq iqtisadiyyatda bazarın iqtisadi ilkin şərtləri və elementləri rüşeym şəklində meydana gələrək inkişaf edir. Sosialist təsərrüfatçılığının müəyyən elementlərinin keçid dövrünün ilkin mərhələsində saxlanılması obyektiv zərurətdən irəli gəlir. Lakin yeni iqtisadi sistemin formalaşdırılması üçün bazar elementlərinin fəaliyyətinə əlverişli şəraitin yaradılması köhnə təsərrüfatçılıq elementlərinin inkarı yolu ilə mümkün ola bilər. İqtisadiyyata yeni təsərrüfatçılıq elementlərinin daxil edilməsi isə iqtisadi sistemin və təsərrüfat mexanizminin özünün yeniləşməsinə gətirib çıxarır. Yeniləşən iqtisadi sistem şəraitində təsərrüfat mexanizminin rolu tədqiqatçıların həmişə diqqət mərkəzində olmuşdu. «Xalq təsərrüfatı sahələrinin tarazlı inkişafı, təsərrüfat mexanizmindəki mühüm dəyişikliklər, hər cür təsərüfatsızlıq hallarına qarşı mübarizə, yeni təsərüfat qərarlarının qəbul edilməsi idarəetmə məsələlərinə prinsipcə yeni qaydada yanaşmağı qarşıya qoyur». (73, s.3)

Keçid dövründə, ölkə iqtisadiyyatında bazar mexanizminin formalaşmasında diqqəti cəlb edən maraqlı cəhətlərdən biri də onun «milli iqtisadiyyatla» qarşılıqlı əlaqə və asılılıqda formalaşmasıdır. İqtisadi potensialın milli iqtisadiyyatın formalaşmasına cəlb edilməsi imkanı genişləndikcə, iqtisadiyyatın kompleksliliyi təmin edildikcə bazar elementləri iqtisadiyyatda stimullaşdırıcı, tənzimləyici funksiyanı yerinə yetirir. Bazar mexanizminin tədqiqatçıları hesab edirlər ki, «Keçid dövrünün əsas məzmunu yeni iqtisadi sistemin, vahid canlı bir orqanizm kimi milli iqtisadiyyatın bərqərar olunması yalnız real bazar iqtisadiyyatı, bazar mexanizmi vasitəsi ilə mümkün ola bilər» (125, s.7-8).

İqtisadçı alimlərin bazar mexanizminin formalaşması problemlərinə həddindən artıq diqqət verməsi bir daha göstərir ki, keçid dövrünün ilkin mərhələsi üçün ölkə iqtisa-

downloaded from KitabYurdu.org

diyyatının düşdüyü böhranlı vəziyyətdən çıxmasında və ümumiyyətlə müstəqillik dövründə milli iqtisadiyyat formalaşdırılmaqla sivilizasiyalı bir ölkə kimi respublikamızın inkişaf etməsində bazar mexanizminin alternativi yoxdur.

## 3.2. Keçid iqtisadiyyatında tələb və təklifin formalaşmasının ümumi prinsipləri və fərqli cəhətləri

Tələb və təklif bazar mexanizminin mühüm elementlərindən olub bazar mühitinin yaradılması ilə əmtəə və xidmətlər bazarının formalaşmasını zəruri edir. Bazar mexanizminin əsas elementlərindən olan tələb və təklif haqqında bazar münasibətlərinin yetkinlik dərəcəsindən asılı olaraq kifayət dərəcədə nəzəriyyələr yaranmışdır. Tələb və təklifin müxtəlif nəzəri problemləri klassik məktəbin «əmək-dəyər» nəzəriyyəsində şərhini tapsa da, tələb və təklif haqqında ilkin nəzəriyyələrdən biri Jan Batist Sey (1767-1832) tərəfindən yaradılmışdır. Kapitalist münasibətləri o dövrdə kifayət dərəcədə inkişaf etmədiyindən o, çox sadə quruluşa malik idi. Əmtəələrin dəyəri onların qiymətlərinə bərabər götürülür, tələb və təklifdəki dəyişiklik birbaşa qiymətdə əks olunurdu. Bazar münasibətlərinin kifayət dərəcədə yetkinləşdiyi X1X əsrin ikinci yarısında Avstriya məktəbi Karl Menqer, Fridrix fon Vizer, E.Ben-Baverk tərəfindən marjinalist nəzəriyyə yaradılmışdır ki, onun da əsasında son istehsal xərcləri, son tələb-təklif və qiymət durur. X1X əsrin sonlarında yaranan neoklassik məktəbin (A.Marşal) tələb-təklif nəzəriyyəsində qiymətin əmələgəlməsinin bazar mexanizmi mərkəzi yer tutur. İstehsal xərclərindən asılı olaraq təklif qiyməti formalaşır. Tələb qiyməti isə məhsulun faydalılıq dərəcəsindən asılıdır. Bunların uyğunluğundan asılı olaraq (bir qayçının iki ülgücü) bazar qiymətləri formalaşır. Son dövrlərdə formalaşan və birbaşa monetarist nəzəriyyə ilə bağlı olan A.Lafferin iqtisadi təklif nəzəriyyəsi tələb-təklif probleminin öyrənilməsində özünə-

downloaded from KitabYurdu.org

məxsus rol oynayır. Onun mahiyyəti məcmu təklifi stimullaşdırmaqla istehsalı inkişaf etdirmək və məşğulluğu təmin etməkdən ibarətdir.

Bazar iqtisadi sistemi şəraitində bazar üç müstəqil sferaya – istehsal vasitələri, istehlak şeyləri bazarı və xidmətlər bazarına ayrılır. Bazarın bu üç müstəqil sferaya ayrılmasının əsasını istehsalın nəticəsinin istehsal istehlakının və şəxsi istehlakın ödənilməsi müəyyənləşdirir.

Bazar iqtisadiyyatına keçid şəraitində istehlak predmetlərinin qıtlığının xüsusi kəskinliklə qarşıda durduğunu nəzərə alsaq istehlak predmetlərinə və xidmətlərə olan tələb və təklifin tədqiqinin xüsusi maraq doğurduğunu görərik. İlk baxışda bu münasibət daxili bazarda əmtəə təklifi ilə bu əmtəəyə əhalinin tələbini ifadə edir. Keçid mərhələsi üçün isə hələ daxili bazarın kifayət dərəcədə formalaşmaması bazar mexanizminin tələb və təklif ünsürlərinin spesifik formada fəaliyyətindən xəbər verir. Yəni tələbin bir hissəsi bazar prinsipləri əsasında ödənildiyi halda, digər hissəsi ya ödənilməmiş qalır (müəyyən növ məhsul ümumiyyətlə yoxdur) ya da daimi bazar prinsipləri pozulmaqla (əmtəə və xidmətlərin qiymətləri onların istehsal xərclərindən çox aşağıdır) həyata keçir. Ona görə də, tələb və təklifin bazar mexanizminin əsas ünsürünə çevrilməsi üçün hər şeydən əvvəl əmtəə və xidmətlər bazarı formalaşmalıdır. Tələb və təklif eyni bir predmetin müxtəlif tərəflərini əks etdirməklə qarşılıqlı asılılıqda mövcuddurlar. O, həmçinin istehsalçı ilə istehlakçı arasındakı münasibəti müəyyənləşdirməklə bu münasibətə daimilik xarakteri verir. Bu və ya digər əmtəə təklifinin, ümumiyyətlə aradan çıxması nəticə etibarı ilə həmin növ məhsula olan tələbin də tədricən aradan çıxmasına gətirib çıxarır. Yaxud digər şərtlər sabit qaldığı halda (xüsusi ilə qiymət amili) tələb və təklif bir-birini stimullaşdırır. Bazara keçid şəraitində tələb və təklifin uyğunsuzluğu isə qiymətin qeyri-sabitliyinə səbəb olur. Tələb və təklifin müvazinətliyi hər şeydən əvvəl əmtəə və xidmətlər istehsalçılarını öz iqtisadi fəaliyyətlərini bazar müvazinətini nəzərə almaqla qurmağa məcbur edir.

downloaded from KitabYurdu.org

Əmtəə və xidmətlər təklifi ictimai tələbatın və əhalinin tələbinin ödənilməsinin başlıca vasitəsi olub təkrar istehsal prosesinin fasiləsizliyini təmin edir. Deməli, təklifin mövcudluğu hələ hər şey demək deyildir, o tədavül sferasında reallaşdığından müəyyən tələbi ödəməyə yönəldilir, bunun nəticəsində təklif-tələb bazar mexanizminin ünsürü kimi istehsalçı və istehlakçı arasında iqtisadi münasibəti formalaşdıra bilir. Tələb və təklif nisbi müstəqilliyə malik olmalarına baxmayaraq bazar mexanizminin cüt kateqoriyası olub bazar subyektlərinin qarşılıqlı əlaqəliliyini, qarşılıqlı asılılığını müəyyənləşdirir. Ona görə də təklifin keyfiyyəti təklif olunan mal və xidmətin keyfiyyəti ilə deyil, hər şeydən əvvəl tələbi ödəməsi səviyyəsi ilə müəyyənləşir. Ona görə də təklifin məzmunu birbaşa deyil, dolayısı ilə tələb vasitəsi ilə açılır. Bu problemi tədqiq edən A.Y.Livşits yazırdı: «Tələb dedikdə tədiyə qabiliyyətli tələbat başa duşulməsinə baxmayaraq onun kəmiyyət, quruluş və dinamikasına digər iqtisadi, sosial, psixoloji amillər təsir göstərir. Və aydındır ki, insan tələbatını tələbə çevirərkən almaq istədiyinin neçəyə olması ilə maraqlanır, həmçinin arzularını maliyyə imkanları ilə müqayisə edir» (77, s.99). Bu tezis normal bazar iqtisadi münasibətləri üçün kifayət dərəcədə səciyyəvi olsa da keçid dövründə ziddiyyətliliklə müşahidə olunur. Bu ziddiyyətlilik, hər şeydən əvvəl sosializm cəmiyyətində əmtəə münasibətlərinin spesifik formada mövcudluğundan irəli gəlirdi. Əmtəə istehsalı planlı xarakter daşıdığından təklifin həcmi və tələbin ödənilməsi səviyyəsi də mərkəzləşdirilmiş qaydada planlaşdırma vasitəsi ilə müəyyənləşdirilirdi. Tələb və təklifin fəaliyyəti məhdud bir çərçivəyə salındığından istehsal və istehlaka fəal təsir göstərən bazar elementinə çevrilə bilmirdi.

Tələb-təklif əmtəə istehsalının kateqoriyaları olduğu üçün əmtəə-pul münasibətləri nə qədər inkişaf etmiş olarsa, onun inkişafına mane olan inzibati-amirlik bürokratik aparatının sındırılması ilə tələb və təklif bir o qədər bazar me-

downloaded from KitabYurdu.org

xanizminin daha fəal ünsürünə çevrilər. Tələb və təklif daha çox təkrar istehsalın ilkin və son həlqələrinin, istehsal-istehlak həlqəsinin əlaqələndiricisi kimi çıxış etmək imkanı əldə edir. Tələb və təklif istehsal-istehlak əlaqəsinin reallaşmasının xüsusi mexanizmini yaradır. Təklif istehsalla dialektik vəhdətdə çıxış edir və burada ilkinlik istehsala məxsusdur. İstehsal təklif doğuraraq onun maddi əsası kimi çıxış edir. Həmçinin təklif istehsala əks əlaqə şəklində də təsir göstərir. Tələb və təklifin qarşılıqlı əlaqəsi vasitəsi, bilavasitə təkrar istehsal tsiklinin mübadilə-istehlak fazası dolayısı ilə reallaşır. Əmtəə təklifi vasitəsi ilə cəmiyyətin məhsuldar qüvvəsi istehlaka təsir göstərir. Son nəticədə müəyyən tələbatın ödənilməsinə yönəldilir. Tələbatın həmişə yüksələn xətt üzrə inkişafı əmtəə təklifinin artaraq tələbatın daha dolğun ödənilməsini şərtləndirir. Tələbatla tələbin üst-üstə düşməməsi, tələbin tələbatın bir hissəsi kimi çıxış etməsi təklifi alıcılıq qabiliyyətinin yüksəlməsi ilə tələbatın ödənilməyən hissəsinin doldurulmasını stimullaşdırır. Təklif istehsalla tələbat arasında, o cümlədən də istehlak arasında zəruri əlaqələndirici kimi çıxış edir, həm də bu, ikitərəfli əlaqə formasında olur. Təklif məcmu tələbin dəyişməsi siqnalını qəbul edərək istehsala ötürür, tələb və tələbatlara həlledici təsir göstərir və istehsalın mütərəqqi meylli inkişafını stimullaşdırır.

Bazara keçid şəraitində əmtəə və xidmətlər təklifinin formalaşması əmtəə və xidmətlər resursunun fasiləsiz inkişafda olan tələbə maksimum uyğunluğunun təmin edilməsini, tələb və tələbatın maksimum səmərələşdirilməsi baxımından inkişafını şərtləndirir.

Milli müstəqillik əldə etmiş bütün ölkələrdə olduğu kimi Azərbaycanda da bazara keçidin ilk mərhələsində zəruri yaşayış vasitələrinin çatışmazlığı özünü xüsusi kəskinliklə göstərirdi. Ona görə də keçid dövründə ən zəruri tələbatların ödənilməsi baxımından şəxsi istehlak malları təklifinin formalaşması müəyyənedici rol oynayır. Şəxsi istehlak malları təklifi aşağıdakı mənbələr hesabına formalaşır:

downloaded from KitabYurdu.org

- istehsal fondlarını hərəkətə gətirməklə əmtəə istehsalı;
- əmtəə ehtiyatları;
- əmtəə idxalı;
- qeyri-ərzaq mallarının əhalinin istehlak sferasından bazara qayıtması.

Müəssisələrin təsərrüfat fəaliyyətinin iflic vəziyyətdə olması təklifin istehsal hesabına formalaşmasını minimuma endirmişdi. Zəif də olsa təklifin formalaşmasında əmtəə idxalı və əhalinin qeyri-ərzaq mallarının bazara qayıdışı əmtəə təklifinin spesifik formasını yaratmışdır. Təklifin araşdırılması zamanı maraq doğuran məsələlərdən biri də əmtəənin öz qiymətindən başqa təklifin həcminə təsir göstərən amillərdir. Bu amilləri sosializmdə «əmtəə istehsalı» tərəfdarları aşağıdakı kimi sistemləşdirmişdirlər: 1) Resursların qiyməti (resurslar alternativ tətbiq imkanına malik olduqlarından həmin resurslardan hazırlanmış mal təklifi fərqli olacaq); 2) Texnologiyanın səviyyəsi (mütərəqqi texnologiya istehsal məsrəflərini aşağı salır və təklifin həcmini artırır); 3) Bir əmtəənin təklifinin həcmi digər əmtəələrin qiymətlərindən asılıdır (biri-birini tamamlayan, əvəzləyici əmtəələr mövcud olduğundan); 4) Dövlət müxtəlif iqtisadi alətlərdən istifadə etməklə təklifi stimullaşdıra bilər (79, s.49-50).

Keçid dövrü bazar prinisplərinə əsaslanan əmtəə istehsalının yaranması və inkişafı baxımından kifayət dərəcədə fərqləndiyindən yeni iqtisadi sistemin formalaşdığı şəraitdə də əmtəə istehsalına daxilən xas olan kateqoriyalar və bu kateqoriyaların qarşılıqlı asılılıqda fəaliyyətinin məcmusu kimi çıxış edən bazar mexanizmi də fərqli formada fəaliyyət göstərirlər.

Azərbaycanda da təklifin formalaşması kifayət dərəcədə fərqliliyə malik olduğundan yuxarıda göstərilən amillərin nəzərə alınmasının nəzəri və praktiki əhəmiyyəti vardır.

Tələbin həddindən artıq təklifin təsiri altında məhdudlaşması (istehsalın kəskin şəkildə azalması) nəticəsində tələbin strukturunu ən zəruri ərzaq məhsulları təşkil etmişdi.

downloaded from KitabYurdu.org

Zəruri ərzaq məhsullarının ölkədə istehsalının kəskin şəkildə aşağı düşməsi onun təklifinin əhəmiyyətli hissəsinin yalnız idxal hesabına formalaşmasını zəruri edirdi. Həmin dövrdə aclıq və digər iqtisadi təhlükənin aradan qaldırılması dövlətin həyata keçirdiyi idxal əməliyyatları vasitəsi ilə təmin edildi. İdxal əməliyyatlarının dövlət siyasəti səviyyəsində həyata keçirilməsi dönərli valyuta tələb etdiyindən bu zaman valyuta ehtiyatlarının məhdudluğu barter əməliyyatlarını zəruri edirdi. Düzdür, barter əməliyyatları külli miqdarda neqativ hallara gətirib çıxarmışdır. Ölkəmizin ən qiymətli sərvətləri xaricə daşınmış, əvəzində isə o qədər də zəruri olmayan malları gətirmişlər. Bu barter əməliyyatı müəyyən qrupa, dövlət idarəetmə strukturunun və dövlət müəssisələrinin rəhbər vəzifələrində çalışanlara külli miqdarda varlanmaq imkanı vermişdir. İlkin mərhələdə sahibkarlığın formalaşmaması və əhalinin heç olmazsa məhdud miqdarının da əlində xarici valyutanın olmaması idxalın yalnız dövlət səviyyəsində həyata keçirilməsini zəruri etmişdir. Sahibkarlıq tədricən formalaşdıqca onlar valyuta qazanmaq imkanı əldə etmiş, dövlət xarici ticarətin liberallaşdırılması siyasətini həyata keçirmiş, xarici ticarət sahəsində sahibkarların fəaliyyət dairəsi genişlənməyə başlamışdır. İqtisadiyyatda liberallaşdırma tədbirlərinin nəticəsi olaraq təklif artıq bazarın tələblərinə uyğun formalaşmağa başlamışdır. Təklifin formalaşmasının mənbələri bazarın yetkinlik səviyyəsindən asılı olaraq tələbin ödənilməsində fərqli rol oynayırlar. Bu baxımdan da müəyyən bir dövrdə əhalinin qeyri-ərzaq mallarının bazara qayıdışı təklifin formalaşmasında əhəmiyyətli rol oynamışdır. Müstəqillik əldə etdiyimiz ilkin dövrdə əhalinin geniş kütləsinin məhdud miqdarda da olsa tələbatının ödənilməsi illər boyu topladıqları əmlakın zəruri yaşayış vasitələrinə mübadiləsi vasitəsi ilə ödənilmişdir. Hətta, bəzən onlar özləri üçün də zəruri olan bu və ya digər predmeti satmaqla özünün və ailə üzvlərinin zəruri tələbatlarını ödəməyə çalışmışlar. Lakin təklifin bu mənbə hesabına formalaşması

downloaded from KitabYurdu.org

müvəqqəti xarakter daşıyır. Əslində təklifin formalaşmasının əsas mənbəyi istehsaldır. İstehsalı kifayət dərəcədə inkişaf etdirmədən tələb və təklifin bazar mexanizminin əsas ünsürünə çevrilməsindən söhbət gedə bilməz. İstehsalın inkişaf etdirilməsi isə bir sıra iqtisadi tədbirlər kompleksinin həyata keçirilməsini tələb edir ki, bu da müəyyən bir müddət tələb edir. Deməli, təklifin formalaşması iqtisadi islahatlarla paralel şəkildə gedir. İslahatlar anına qədər cəmiyyətdə tələb və təklifin sabitləşmiş bir nisbəti formalaşmışdır. Lakin bu formalaşmış nisbət daha çox ictimai istehsalın sosialist xarakterinə uyğun gəlirdi. İstehsalın sosialist əsaslarının dəyişdirilməsi isə istehsalın nəticəsinin istehlaka düşməsinin bazar prinsipləri tədricən də olsa tələb və təklifə dinamik xarakter verdi.

Bazar mexanizminin mühüm elementlərindən biri kimi təklifin formalaşması problemlərinin tədqiqində maraqlı məsələlərdən biri də onun keyfiyyəti məsələsidir. Təklifin keyfiyyəti probleminin araşdırılması ingilis iqtisadçısı R. Qiffenin (1837-1910) araşdırmalarında mərkəzi yerlərdən birini tutmuşdu. İstehlakın quruluşunda böyük xüsusi çəkiyə malik olan aşağı keyfiyyətli əmtəə Qiffen əmtəəsi adlandırılır. Qiffen hesab edir ki, bu əmtəələrin qiymətlərinin yüksəlməsi belə müəyyən qrup əhalinin istehlakının tərkibində həmin əmtəələri azaltmır (Kasıb ailələr büdcələrini həmin əmtəələrin əldə olunmasına sərf etməklə digərlərindən tamamilə imtina edirlər) (65, s.110). Qiffen əmtəəsi adlandırdığımız bu əmtəələr Azərbaycan vətəndaşlarının tələbatının quruluşunda çox böyük xüsusi çəkiyə malikdir. Əhalinin quruluşunda aşağı gəlirli əhalinin müəyyən xüsusi çəkiyə malik olması (Azərbaycan əhalisinin 20-24%-i yoxsulluq həddində yaşayır) tələbimizin əhəmiyyətli hissəsinin aşağı keyfiyyətli məhsullar hesabına ödənilməsini şərtləndirir.

Təbii ki, cəmiyyət inkişaf etdikcə, yaxud da bir keyfiyyət halından digərinə keçərkən tələbin keyfiyətinin elmi cəhətdən araşdırılması maraq doğurur. Onun keyfiyyətini araşdırmaq üçün təklifin həcmi və quruluşunu öyrənmək lazımdır. İs-

downloaded from KitabYurdu.org

tehsalın inkişafının müxtəlif səviyyələrində təklifin keyfiyyəti fərqli olur. Məhsuldar qüvvələrin inkişafının aşağı səviyyəsi üçün təklifin kəmiyyəti müəyyənedici rol oynayır. Məhsuldar qüvvələr inkişaf etdikcə kəmiyyət dəyişmələri keyfiyyət dəyişmələrinə keçir. Ümumi şəkildə təklifin keyfiyyəti dedikdə tələbin ödənilməsi səviyyəsi, insanların maddi və mənəvi tələbatını ödəyən əmtəələrlə təminatı səviyyəsi nəzərdə tutulur. Məhsuldar qüvvələrin inkişafı təklifin yalnız kəmiyyətini deyil, həm də keyfiyyətini müəyyən edir. Təklifin keyfiyyəti, hər şeydən əvvəl istehlak səbəti vasitəsi ilə reallaşır. Məhsuldar qüvvələrin inkişafı baxımından müxtəlif ölkələrdə istehlak səbətinə müxtəlif miqdar əmtəələrin daxil edilməsi bu dediklərimizi bir daha sübut edir. Məsələn, ABŞ-da istehlak səbətinə 330-dan çox əmtəə və xidmətlər daxil edildiyi halda MDB ölkələrində bu əmtəə və xidmətlərin sayı 20-ə yaxındır. Nəzərə alsaq ki, istehlak səbəti insanların fizioloji, maddi və mənəvi inkişafını müəyyən edən başlıca şərtdir, onda ölkəmizdə təklifin nə dərəcədə bəsit səviyyədə olduğu haqqında aydın təsəvvür yaranır. Bu kəmiyyət fərqi ilə yanaşı istehlak səbətindəki əmtəə və xidmətlər keyfiyyətcə də bir-birindən fərqlənir. Yəni, məsələn, hər iki səbətə yağ məhsulu daxil edildiyi halda keyfiyyətli istehlak səbətində bu kərə yağının üstünlüyə malik olması ilə, MDB ölkələrinin vətəndaşlarının istehlak səbətində isə bitki yağının üstünlüyü ilə səciyyələnir. Təklifin keyfiyyəti alternativ, qarşılıqlı əvəzləyici məhsulların da istehsalını şərtləndirir. Gəlirlərin yüksələn xətt üzrə meylli olması təklifin stimullaşdırılması ilə yanaşı (təklifin kəmiyyət miqdarının artımı) təklifin quruluşunda keyfiyyətli məhsulların xüsusi çəkisinin artmasını maraqlı edir. Digər tərəfdən, tələbin quruluşunda zövqlərin dəyişməsi ilə yüksək keyfiyyətli məhsullara tələbi zərurətə çevirir. Məsələn, Azərbaycanda 90-cı illərin əvvəllərində mənşəyi məlum olmayan yağların (palma yağı, dəniz heyvanlarının yağı) istehlaka daxil olması təklifin kəmiyyət qıtlığından və keyfiyyətsizliyindən xəbər verir. Azər-

downloaded from KitabYurdu.org

baycan iqtisadiyyatının dünya bazarına inteqrasiyası ilə dünya bazarının səciyyəvi cəhətlərini özündə əks etdirən təklif də tədricən formalaşmaqdadır. Azərbaycan iqtisadiyyatı qapalı olmadığından təklif həm daxili, həm də xarici mənbələr hesabına formalaşır. Təklifin formalaşmasındakı bu amillərin nisbəti onların səmərəlilik dərəcəsindən asılıdır. Daxili istehsal kifayət dərəcədə inkişaf etdiyi şəraitdə təklifin böyük hissəsi milli məhsulların payına düşür. Əks təqdirdə, təklif idxalın hesabına formalaşar. Bu zaman dövlətin qəbul etdiyi bu və digər qərarlar da təklifin formalaşmasında əhəmiyyətli rol oynayır. Bu baxımdan ölkə istehsalçılarının mənafeyini qorumaq məqsədi ilə milli maraqlara uyğun gələn dövlət siyasəti yeridilməsi az rol oynamır. Ölkə daxilində istehsalını təşkil etməyin nisbətən asan olduğu məhsulların idxalına yüksək gömrük vergisi qoymaq yolu ilə ölkə sahibkarlarının mənafeyini qorumaq olar. Həmçinin ölkə daxilində hələlik istehsalı səmərəli olmayan (istehsal şəraitinin əlverişsizliyi) məhsulların idxalı isə stimullaşdırılmalıdır. 2005-ci ilin nəticələrinə görə iqtisadiyyatda nəzərə çarpacaq dəyişikliklər baş verib. Sənaye məhsulu istehsalının 33,5%, kənd təsərrüfatı məhsullarının 7,5%-dən çox artımı keçid dövrünün ilk illərində son on ildə istehsalın fasiləsiz olaraq aşağı düşməsinin qarşısının alınmasından, yüksək artım tempinə nail olunmasından xəbər verir. Təbii ki, bu meyl təklifin formalaşmasında daxili amilin də rolunun artmasında özünü göstərəcək.

Aşağıdakı cədvəli (3.1.) tərtib etməkdə məqsədimiz milli bazarın formalaşmasında iqtisadiyyatın əsas bölmələrinin rolunu, zəruri yaşayış vasitələrinə olan tələbin daxili təklif hesabına ödənilməsi imkanını və həmçinin şəxsi istehlakın ödənilməsində milli istehsalla idxalın nisbətinin müəyyənləşdirilməsinə cəhd etməkdən ibarətdir. Cədvəldən (3.1.) qabarıq şəkildə görünür ki, çox məhdud istehlak quruluşuna malik olan respublikamızın əhalisinin (rəsmi məlumatlara görə əhalinin 22%-dən çoxu yoxsulluq həddində yaşayır) ərzaq məhsulları

downloaded from KitabYurdu.org

ilə təminatı yaxşılaşdırılmaqdadır. 1990-cı illərin əvvəllərində çox kəskin şəkildə çörək problemi ilə qarşılaşdığımız halda bu problem tamamilə həll edilmişdir. 1995-2005-ci illərdə sənaye məhsulunun ümumi həcmi 5,5 dəfə artmışdı. Həmçinin taxıl istehsalı 881,5 min tondan 2126,7 min tona çatdırılmışdır ki, bu da 2 dəfədən çox artım deməkdir. Müqayisə olunan illərdə süd istehsalı 826,5 min tondan 1251,9 min tona, kartof istehsalı 155,4 min tondan 1083,1 min tona (6 dəfədən çox artıq), tərəvəz istehsalı 466,0 min tondan 1127,3 min tona çatdırılmışdır. Əsas ərzaq məhsullarının istehlakında da artım müşahidə olunmaqdadır. Ət və ət məhsulları 112,7 min t.-dan 184,2 min t-a, süd və süd məhsulları istehlakı 1044 min t-dan 1407,5 min tona çatdırılmışdır. Daxili istehsalın inkişafı ilə ərzaq mallarının Sənaye və kənd təsərrüfatı məhsulunun istehsalı, əsas ərzaq məhsullarının istehlakı və ərzaq mallarının idxalı (1995-2005-ci illər) idxalı arasında müəyyən qanunauyğunluq formalaşmaqdadır. Un idxalı 104 min tondan 10,0 min tona enmişdir. Kərə yağı idxalında artım müşahidə olunmuşdur.

**Cədvəl 3.1**

**(15, s. 94, 101, 103); (22, s. 479, 536-539)**

| | | 1995 | 2000 | 2002 | 2004 | 2005 |
|---|---|---|---|---|---|---|
| Sənaye məhsulunun həcmi (qüvvədə olan faktiki qiymətlərlə),mlyn.man. | | 1771 | 3639 | 4019 | 5961 | 9290 |
| Ət və ət məhsulları istehsalı (min t.) | istehsal | 82 | 108,7 | 124,6 | 143,7 | 149,6 |
| | idxal | 31,9 | 33,0 | 25 | 33,1 | 37,1 |
| | şəxsi istehlak | 112,7 | 138,9 | 148,4 | 175,1 | 184,2 |
| Süd və süd məhsulları (min t.) | istehsal | 826,5 | 1031,1 | 1119,8 | 1213,7 | 1251,9 |
| | idxal | 253,7 | 144,4 | 263,1 | 178,5 | 186,3 |
| | şəxsi istehlak | 1044 | 1146,2 | 1351,0 | 1363,3 | 1407,5 |
| | istehsal | 455,8 | 542,6 | 561,6 | 829,4 | 874,6 |

downloaded from KitabYurdu.org

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| Yumurta (mln. ədəd) | idxal | 158,8 | 81,4 | 29,5 | 10,6 | 17,9 |
| | şəxsi istehlak | 570,8 | 584,5 | 553,8 | 750,6 | 806,7 |
| Kartof (min. t) | istehsal | 155,5 | 469,0 | 694,9 | 930,4 | 1083,1 |
| | idxal | 59,3 | 49,4 | 89,2 | 38,8 | 41,9 |
| | şəxsi istehlak | 172,8 | 374,2 | 523,9 | 664,8 | 755,3 |
| Taxıl və taxıl məhsulları (min t.) | ümumi yığım | 881,5 | 1540,2 | 2195,9 | 2105,9 | 2176,7 |
| | idxal | 420,5 | 733,2 | 685,4 | 1188,3 | 974,5 |
| | istifadə | 1066,6 | 1255,4 | 1387,1 | 1490,3 | 1505,2 |
| Bitki yağları (min t.) | istehsal | 11,7 | 10,9 | 25,7 | 46,0 | 64,1 |
| | idxal | 10,0 | 13,5 | 17,3 | 37,0 | 36,2 |
| | şəxsi istehlak | 15,7 | 19,6 | 35,0 | 53,6 | 56,7 |
| Tərəvəz (min t.) | istehsal | 466 | 780,8 | 974,6 | 1431,5 | 1127,3 |
| | idxal | 70,9 | 13,3 | 31,6 | 15,9 | 24,3 |
| | şəxsi istehlak | 522,87 | 1024,0 | 1289,8 | 1395,8 | 1447,2 |

Cədvəl Azərbaycan kənd təsərrüfatı 2002 və Azərbaycan statistik göstəriciləri 2006 məcmuəsi əsasında tərtib edilmişdir.

11,8 min tondan 2,6 min tona), ət idxalı 31,9 min tondan 37,1 min tona çatmışdır. Tələbin keyfiyyəti yaxşılaşdıqca keyfiyyətsiz marqarin yağı idxalın quruluşundan çıxmaqdadır.

Doğrudur, daxili istehsal xərclərinin yüksəkliyi üzündən, aşağı keyfiyyətli və ucuz eyni çeşidli məhsulların idxalının mümkünlüyündən daxildə istehsal olunan məhsulların müəyyən bir qismi təklifin formalaşmasında iştirak imkanını itirir. Məsələn, ölkənin şərab zavodlarının anbarlarında milyon dekolitrlərlə şərab məhsulları yığılıb qaldığı halda bazarlarda qeyri-qanuni yolla idxal olunmuş və xarici ölkələrdə istehsal olunmuş külli miqdarda şərab məhsulları var. Kənd təsərrüfatında aparılan islahatlar və özəl sahibkarlığın formalaşması nəticəsində ərzaq məhsullarının müəyyən qisminin (ət, süd və süd məhsulları, tərəvəz və s.) təklifinin əhəmiyyətli hissəsi daxili istehsal hesabına formalaşır.

downloaded from KitabYurdu.org

Təklifin əsas mənbəyi kimi istehsal çıxış etdiyinə görə bazarda təklifin proporsiyalarını da o müəyyən edir. Bazarın «nədən nə qədər» istehsal etmək şərti də bu mexanizm vasitəsi ilə reallaşır. Ümumiyyətlə, müasir bazarın bolluğu və alıcının seçmə imkanı təklifin bilavasitə tələbin strukturuna uyğunlaşmasına zərurət yaradır. İstehsalda bir sıra yardımçı xidmətlərin yaradılması da (marketinq) təklifin bilavasitə tələbə yönəldilməsindəki kortəbiiliyin aradan qaldırılması vəzifələrini həyata keçirir. Tələb-təklif qanunun reallaşmasında marketinqin əhəmiyyətli rol oynadığını nəzərə alaraq prof.Ş.Axundov yazır: «Bu qanunun təsirindən asılı olaraq marketinqin vəzifələri də dəyişir. Ona görə də marketinqin vəzifələri alıcıların tələbatının real vəziyyətindən asılı olaraq müəyyən edilir». (9, s.38)

Təklif yalnız istehlak predmetləri və xidmətlərdən ibarət deyildir. Təklif maddi formasına görə istehlak predmetləri və istehsal vasitələri təklifinin məcmusundan ibarətdir. İstehsal vasitələri təklifinin mahiyyətini açmadan bütövlükdə təklifin bazar mexanizminin bir ünsürü kimi araşdırılması mümkün deyil. Hətta, iqtisadi inkişafın intensiv tipi şəraitində istehsal vasitələrinin təklifinin kəmiyyət və keyfiyyəti müəyyənedici rol oynayır. Bazar iqtisadi sistemi şəraitində istehsal vasitələri bazarının formalaşmasının spesifikliyi istehsal vasitələri təklifinin xarakterini də müəyyən edir. Bu spesifiklik istehsal vasitələri təklifinin bir qisminin (əmək, torpaq, xammal) resurslar bazarında, digər hissəsinin əmtəə bazarında (maşın, qurğu, avadanlıq və s.) formalaşması vasitəsi ilə təzahür edir.

Azərbaycanın müstəqilliyi ərəfəsində xalq təsərrüfatında əsas fondların köhnəlmə dərəcəsi elə bir səviyyədə idi ki, onun bütün avadanlıqlarının birdən-birə yeniləşdirilməsinə zərurət yaranmışdır. Məsələn, H.Z.Tağıyev adına toxuculuq kombinatında bəzi avadanlıqların yaşı yüz ilə çatırdı. Azərbaycan sənayesinin flaqmanı olan neft sənayemizin əsas fondlarının 70%-dən çoxu öz istismar müddətini çoxdan başa vurmuşdur. Güman etmək olardı ki, istehsal vasitələrinə kəskin tələb təkli-

downloaded from KitabYurdu.org

fi hədsiz dərəcədə stimullaşdıracaq. Bu qanunauyğunluğun tamamilə əksinə 10 il ərzində istehsal vasitələri təklifi günü gündən aşağı düşmüşdür.

Təklifin həcminə birbaşa təsir göstərən bir amil kimi, hətta dövlətin istehsal vasitələri idxalını stimullaşdırmaq məqsədi ilə onlara gömrük vergisi qoymaması və güzəştli vergi tətbiqi də istənilən nəticəni verməmişdir. Ölkə müəssisələrinin formalaşmış təsərrüfat əlaqələrinin qırılması müəssisələrin bütövlükdə istehsalının aşağı düşməsinə gətirmişdir ki, bu da tələbin azalması vasitəsi ilə istehsal vasitələri təklifinə marağı zəiflətmişdir. İstehsal vasitələrinin əsas istehlakçıları olan orta və iri müəssisələrin özəlləşdirilməsi də gözləmə mövqeyi yaradaraq təsərrüfat fəaliyyətinin canlanmamasına gətirib çıxartmışdır. İstehsal vasitələri təklifini stimullaşdıran başlıca mənbələrdən biri də investisiya imkanının mümkünlüyüdür. Bazara keçidin ilkin mərhələsi üçün əhalinin böyük əksəriyyəti malik olduqları vəsaiti yalnız zəruri yaşayış vasitələrinin əldə edilməsinə sərf etmək məcburiyyətində qaldıqlarından təbii ki, onlar istehsal vasitələri almaq haqqında belə düşünmürlər. İstehsal əsasən gündəlik tələbat mallarından ibarət olduğuna görə istehsal vasitələri təklifinin əsas mənbəyi fəaliyyətini ya dayandırır, ya da kəskin şəkildə ixtisar olunur. Şərab məhsulları istehsalındakı durğunluq üzümçülüyün iflic vəziyyətə düşməsinə gətirib çıxarmışdır.

Neft sənayemiz nisbətən inkişaf etməsinə baxmayaraq respublika neft maşınqayırma müəssisələri demək olar ki, fəaliyyətlərini dayandırmaq üzrədir. Bütün bunlar göstərir ki, bu və ya digər sahənin inkişafı həmin sahəni avadanlıq və qurğularla təmin edən sahənin də inkişafından çox asılıdır. İstehsal vasitələri təklifini stimullaşdırmadan bütövlükdə iqtisadi inkişafa nail olmaq mümkün deyildir.

Keçid mərhələsində heç də təklifin istehsal vasitələrini təşkil edən amilləri özlərini eyni tərzdə aparmırlar. Xırda sahibkarlığın inkişafı həmin sahəni xammal materialla təmin

downloaded from KitabYurdu.org

edən sahənin də inkişaf etdirilməsinə maraq yaradır. Hətta, ənənəvi olmayan sahənin belə iqtisadiyyatımıza daxil olması həmin sahənin təchizatının təşkilinin bazar mexanizminin yaradılmasını zərurətə çevirir. Dəri gödəkçələrin istehsalının genişlənməsi dəri məmulatlarının təklifinin çoxalmasına gətirib çıxardı. Ölkəmizdə tikintinin, əsasən şəxsi yaşayış evlərinin tikintisinin genişlənməsi tarixən həmişə qıtlığından əziyyət çəkdiyimiz tikinti materiallarının təklifinin çoxalması ilə nəticələndi.

İşçi qüvvəsi təklifinin də formalaşması özünü fərqli formada aparır. İstehsalın kəskin şəkildə aşağı düşməsi ilə müşahidə olunan iqtisadi islahatlar kütləvi işsizliyə gətirib çıxartdı. Digər tərəfdən də, inflyasiyanın baş alıb getməsi ilə onsuz da ucuz olan iş qüvvəmiz daha da ucuzlaşdı. Sanki iş qüvvəsi artıqlığı yarandı. Keçid dövrünün orta hesabla 4,5 mln. əmək qabiliyyətli əhalinin cəmi 1/4 hissəsi dövlət bölməsində əmək prosesinə cəlb edilmişdir. İqtisadi islahatların gedişi zamanı yeni iş yerlərinin yaradılması o qədər də asan olmadığından dövlət xüsusi sahibkarlığın hüquqi bazasını yaratmaqla iş yerlərinin yaradılmasını liberallaşdırdı. Bazarın tələbinə uyğun əmək birjaları yaradıldı ki, bu da sözün müəyyən mənasında iş qüvvəsi təklifinin formalaşmasına mütəşəkkil xarakteri verdi. Əmək qabiliyyətli əhalinin əksərinin (rəsmi hesablamalar görə ölkə əhalisinin 22-24%-i yoxsulluq həddində yaşayır) investisiya imkanı olmadığından onlar əmək təklifçisi kimi çıxış edir. Əmək təklifinin kəmiyyəti kifayət dərəcədə çox olmasına baxmayaraq heç də onun keyfiyəti müasir tələblərə cavab vermir.

Dünya iqtisadiyyatına qovuşmaq üçün iqtisadiyyatın strukturu yenidən formalaşdırılmalı, elmi-texniki yeniliklərin tətbiqini genişləndirməklə iqtisadiyyatımıza müasir texnologiyanın nüfuz etməsi stimullaşdırılmalıdır. Yeni texnologiyanın tətbiqi sferasının genişlənməsi iş qüvvəsi hazırlığının keyfiyyətinin də yaxşılaşdırılmasını şərtləndirir. İqtisadiy-

downloaded from KitabYurdu.org

yatımızda elmtutumlu sahələrin inkişaf etdirilməsi ağır əl əməyinin payının tədricən azalmasına (sənayedə tətbiq olunan əməyin 40%-dən çoxu heç bir hazırlıq tələb etməyən ağır əl əməyinin payına düşür) gətirib çıxaracaq. Müxtəlif formalarda həyata keçirilən iş qüvvəsinin yenidən hazırlanması vasitəsi ilə elmtutumlu sahələrin tələblərinə uyğun iş qüvvəsi təklifi formalaşacaq. İş qüvvəsi təklifinin kəmiyyət artımını göstərən amillərdən biri də iş qüvvəsinin bərpasının geniş təkrar istehsal şəklində baş verməsidir. Bir sıra Avropa ölkələrindən və qonşularımızdan fərqli olaraq bizim ölkəmizdə təbii artım sabit templə həyata keçir. 10 il ərzində ölkə əhalisi 1,5 mln. nəfər artaraq 8,5 mln. olmuşdur. Təbii ki, həmin insanlar müəyyən yaş həddinə çatdıqda əmək təklifçisi kimi çıxış edirlər. Respublikamızda əmək təklifinin dinamikası həmişə yüksələn xətt üzrə getmişdir.

Bizcə, əmək təklifinin səmərəliliyinin başlıca göstəricilərindən biri də onunla tələb arasında bir uyğunluğun olmasıdır. Milli iqtisadiyyatımız daxilində əmək təklifi ona olan tələbi dəfələrlə qabaqlayır. Ölkəmizin sərhədlərindən «dəmir barmaqlıqların» götürülməsi nəticəsində insanlar əmək hüquqlarını reallaşdırmaq məqsədi ilə xarici ölkələrdə əmək təklifçisi kimi çıxış etmək imkanı əldə etmişlər. Müxtəlif hesablamalara görə ölkəmizdən kənarda 1,5-2 mln əməkqabiliyyətli əhali müxtəlif əmək fəaliyyəti ilə məşğuldurlar ki, onların 90%-dən çoxu Rusiyanın payına düşür. Beləliklə, məcmu təklifin həcmi təklif amillərinin hamısını özündə cəmləşdirir. Baxmayaraq ki, cəmiyyətin iqtisadi durumundan asılı olaraq bu amillərin təklif strukturunda nisbətləri fərqli ola bilər. Azərbaycan iqtisadiyyatının müasir durumunda tələbin xarakterinə uyğun olaraq gündəlik tələbat malları təklifi üstünlük təşkil edir. Özəlləşdirmənin növbəti mərhələlərinin həyata keçməsi ilə sahibkarlığın fəaliyyət dairəsi genişlənir və istehsalın inkişafı ilə istehsal vasitələrinə tələbat artır. Çünki hər bir sahibkar istehsala başlamazdan əvvəl istehsal vasitələri əldə etməlidir.

downloaded from KitabYurdu.org

Təkliflə əlaqədar apardığımız araşdırmalar aşağıdakı qənaətə gəlməyə əsas verir:

1. Təklif bazar iqtisadi münasibətlərinə xas kateqoriya olub keçid dövründə tədricən bazar mexanizminin əsas ünsürünə çevrilir.

2. Təklif nisbi müstəqilliyə malik olsa da tələblə qırılmaz əlaqədə fəaliyyət göstərir.

3. Təklif tələb vasitəsi ilə reallaşır və yeni təklifə maraq yaradır.

4. Təklifin dəyişməsi ictimai tələbatın, əhalinin tələbinin və elmi-texniki tərəqqinin təsiri altında baş verir.

5. Təklifin həcmi məhsuldar qüvvələrin inkişaf səviyyəsi ilə müəyyən olunur.

6. Təklifin müasir quruluşu əmtəə və xidmətlər çeşidinin genişliyi ilə səciyyələnir.

7. Cəmiyyətin inkişafı ilə təklif daha çox ünvanlı xarakter daşıyır.

Bütün göstərilən amillərlə yanaşı, keçid dövründə özəlləşdirilən müəssisələrin iqtisadi fəaliyyətə cəlb edilməsi keçid iqtisadiyyatı ölkələrində təklifə təsir göstərən başlıca amillərdən biri kimi çıxış edir.

Yuxarıda göstərdiyimiz kimi bazar mexanizminin əsas ünsürlərindən biri də tələbdir. Tələb bazarda əmtəə təklifinə qarşı durur. İctimai əmək məhsulunun reallaşması tələbdə təmərküzləşdiyindən o bazar mexanizminin mühüm ünsürünə çevrilir. Tələb və təklif əmtəə ilə pul arasında, istehsalçı ilə istehlakçı arasındakı münasibəti əks etdirir. Tələb bazarın həcmini müəyyən edərək ya təklifi stimullaşdırır, ya da məhdudlaşdırır. Tələbatdan fərqli olaraq tələb təklifin reallaşan hissəsini əks etdirir. Tələbin ödənilməsi pərakəndə satış qiymətlərinin mövcud səviyyəsində ödəniş vasitəsinin səviyyəsi ilə müəyyənləşir. Tələb bunun vasitəsi ilə ictimai istehsalın artım tempinə və proporsiyalarına həlledici təsir göstərir. Tələb bazara çıxarılan pulla təmin olunmuş tələbat olduğundan təkli-

downloaded from KitabYurdu.org

fin reallaşma mexanizmini də müəyyənləşdirir. O, ümumi milli məhsulun istifadəsi (istehlakı) formasıdır. Tədiyə qabiliyyətlilik tələbin mühüm cəhəti və xüsusi xassəsidir. Bazarda tələb pul şəklində çıxış edərək əmtəə və xidmətlərin əldə edilməsinə sərf olunan ümumi məbləği əks etdirir. Tələbin əsas xassəsi onun təkcə pul vasitəsi ilə ifadə olunmasında deyil, həm də onun natural şəkildə ödənilməsini əks etdirir. Tələb təkcə pul məbləği deyil, o, həmçinin konkret istehlak mallarının toplusudur. Tələb ayrı-ayrı istehsal sahələrinin fərqli məhsullarının məcmusu kimi çıxış edir. Ona görə də tələb konkret məhsula tələbatın ödənilməsi vasitəsi ilə reallaşır.

Bütövlükdə tələbin formalaşmasında 5 ünsür iştirak edir:

- konkret tələbat;
- gəlirlər;
- ödəniş vasitələri;
- qiymət;
- əmtəə təklifi.

Bu qarşılıqlı asılılıqda fəaliyyət göstərən beş elementin toqquşması nəticəsində tələb əmələ gəlir. Konkret tələbat axtarılan istehlak predmetinin maddi-əşya obrazını yaradaraq axtarılan istehlak malını müəyyənləşdirir. Deyildiyi kimi bu istehlak predmetinin əldə edilməsi isə onun ekvivalenti olan ödəniş vasitəsinin olmasını zəruri edir. Əslində bu ödəniş vasitəsi istehlak predmetinin mənimsənilən həcminin məhdudlaşdırıcısı kimi çıxış edir. Tələbin daşıyıcısı olan istehlakçı ona lazım olan əmtəələrin əldə edilməsi üçün müəyyən alıcılıq qabiliyyətinə malik olduğundan onun tələbatının bir hissəsi tələb nisbətində ödənilmiş, digər hissəsi isə ödənilməmiş qalır. Onun tələbatının həmişə bir hissəsinin ödənilməməsi (tələbatın həmişə yüksələn xətt üzrə inkişafı xarakterikdir) istehlakçının onun üçün məqbul qiyməti axtarıb tapmağa sövq etdirir. Tələbatın daha dolğun ödənilməsi münasib qiymətli əmtəələrin tapılmasından asılı olur. Həm də bazarda münasib qiymətə

downloaded from KitabYurdu.org

tapılan əmtəə istehlakçının onun keyfiyyətinə olan tələbini də ödəməlidir. Bütün bu şərtlərin ödənildiyi şəraitdə tələb ödənilmiş hesab olur, o reallaşır, əks təqdirdə tələb reallaşmamış, ödənilməmiş hesab olur. Beləliklə, tələbin ödənilməsi onun tədiyə qabiliyyətliliyi ilə maddi-əşya məzmunu arasındakı ziddiyyətin həllindən başqa bir şey deyildir. Tələbin ödənilməyən hissəsi tələbin tədiyə qabiliyyətliliyi ilə onun maddi-əşya məzmunu arasındakı ziddiyyətin tam, yaxud da qismən həll olunmadığını göstərir. Məsələn, tələbin aşağı səviyyəsində zəruri tələbat məhsullarının bir qismi tələbatımızın strukturundan ya tamamilə çıxarılır /ət, süd məhsulları və s./, yaxud da məhdudlaşdırılır. Normal fizioloji sağlamlığın təmin olunması üçün adambaşına 70-100 kq ət istehlakı nəzərdə tutulduğu halda bəzən bu nisbət 30-40 kq səviyyəsinə düşür. Real gəlirlərin artımı şəraitində tələbin tərəfləri arasındakı bu ziddiyyət təklifi stimullaşdıran bir amil kimi çıxış edir. Məhsuldar qüvvələrin inkişafı bu tərəflər arasında əksliyin həlli səviyyəsini müəyyənləşdirir. Cəmiyyətin iqtisadi durumuna uyğun olaraq bu əkslik yumşala da, kəskinləşə də bilər. Zəruri tələbat mallarının qıtlığı şəraitində tələbin tərkibindən digər tələbat malları sıxışdırılıb çıxarıla bilər. Respublikamızda əhalinin əksər hissəsinin (60 faizdən çoxu) gəlirlərinin minimum istehlak səbətinin 20-30 faizini təşkil etdiyi tələbin çox sadə və primitiv quruluşu formalaşır. Bunun nəticəsində tələb tələbatı ödəyən məhdud çeşidli əmtəələrin alınması vasitəsi ilə reallaşır. Tələbin bir hissəsi «təxirə salınmış amil» şəklində tələbatın ödənilməyən miqdarının artmasına səbəb olur (ərzaq məhsullarına tələbimizi ödəməklə, geyimə, paltara olan tələbimizin yığılması onun kəmiyyət miqdarının artması ilə nəticələnir). Tələbat dəyişməsi istehsalın kəskin şəkildə azalmasının təsiri altında baş verdiyi kimi, istehsalın yüksəlişi ilə tələbin ödənilməsinin kəmiyyət miqdarı artır və strukturu daha müasir əmtəə çeşidləri ilə zənginləşir. Zövqlərin dəyişməsi, elmi texniki tərəqqinin təsiri altında əmtəə kütləsinin yeniləşməsi və ge-

downloaded from KitabYurdu.org

nişlənməsi də tələbin dəyişilməsini müəyyən edən başlıca amillərdən biri kimi çıxış edir. İstehlakdakı tarixi-milli və regional fərqlərin silinməsi də tələbatın strukturunu təkmilləşdirərək alıcı tələbinə təsir göstərir. Tarixən Azərbaycan üçün xəz-dəri geyimləri xarakterik olmadığı halda əhalinin müəyyən hissəsinin alıcılıq qabiliyyətinin əhəmiyyətli hissəsi onların vasitəsi ilə reallaşır. Tələbin dinamikliyi bir sıra amillərin təsiri altında baş verir:

- əhalinin alıcılıq qabiliyyətinin yüksəlməsi;
- əhalinin mədəni səviyyəsi və geyim əşyaları ilə təminatı;
- mədəni-məişət və təsərrüfat inventarlarına malik olmaları səviyyəsi;
- milli xüsusiyyətlər.

Keçid mərhələsinə qədər əhalinin tələbində müəyyən formalaşmış nisbət olsa da dinamikliyin cəmiyyətinin iqtisadi əsaslarını dəyişdirməyə başlaması ilə (ictimai mülkiyyət münasibətlərinin sındırılmasına başlanması ilə) bu formalaşmış tələb müvazinətini itirdi. Əhalinin alıcılıq qabiliyyəti kəskin şəkildə aşağı düşməyə başladı. Mədəni səviyyəni müəyyən edən göstəricilər (qəzet və jurnallarla təminat, nisbətən pullu təhsilə keçilməsi, ziyalıların gəlirlərinin aşağı səviyyəsi və s.) pisləşməyə başladı. Əhalinin müəyyən formalaşmış qarderobu zərurət üzündən (gəlirlərin yaşayış vasitələrinə kifayət etməməsi) tələbin quruluşundan bu predmetlərin çıxarılmasını şərtləndirmişdir. Sosializm dövründə əhalinin müəyyən qismi (kənd əhalisi və xırda əmək vasitələrinə malik olan əhali) xırda əmək alət və vasitələrinə malik olmalarına baxmayaraq qanunvericiliyin məhdudluğu üzündən onlardan əldə olunan gəlir tələbin quruluşunda əhəmiyyətli yer tuta bilməmişdir.

Dövlətin iqtisadi müstəqilliyinin bərpası onun iqtisadi islahatlar və fiskal siyasət vasitəsi ilə tələbin də dinamikliyinin bərpasına şərait yaradır. Tədricən gəlirlərin aşağı düşməsinin qarşısı alınır, bazar münasibətlərinin əsasları yaradılır, cə-

downloaded from KitabYurdu.org

miyyətin iqtisadi əsaslarının yenidən qurulması ilə (xüsusi mülkiyyətə keçid) sahibkarlıq stimullaşdırılır. Sahibkarlığın stimullaşdırılması tələbin quruluşunda xırda əmək alət və vasitələri ilə yanaşı, bütövlükdə istehsal vasitələrinin payının artmasına gətirib çıxarır. Təbii ki, tələbin quruluşunda iqtisadi sistemin sosial amilləri də həlledici rola malikdir. Sosializm öz iqtisadi inkişaf səviyyəsinə uyğun alıcılıq qabiliyyəti formalaşdırmışdı. Bazar sistemli ölkələrdə gəlirlərin formalaşmasının əsas mənbələrindən biri kimi çıxış edən əhalinin təsərrüfat inventarları ilə təminatı sosializmdə əhali arasında çox aşağı səviyyədə idi.

Bütün bu dediklərimiz bir daha sübut edir ki, cəmiyyətin iqtisadi inkişaf səviyyəsinə və keyfiyyət halına tələbin bir formalaşmış strukturu uyğun gəlir. Eləcə də keçid iqtisadiyyatında tələbin strukturu spesifik formada olur. Bu spesifiklik müxtəlif qrupun tələbinin strukturuna nüfuz etsə də əhalinin əksəriyyətinin (80%-ə qədər) tələbinin quruluşunda kəmiyyət və keyfiyyət oxşarlığı (tələbin bəsitliyi baxımından) daha səciyyəvidir. Bazar sistemli ölkələrdə isə tələbin quruluşu çoxçalarlıdır. Bu çoxçalarlılıq gəlirdəki fərqlilikdən (sosializm şəraitində əhalinin gəlirləri bir-birindən cüzi miqdarda fərqlənirdi) cinsə və yaşa görə fərqlilikdən və sairədən irəli gəlir. Tələbdəki bir çox çalarlılıq fərdi tələbə spesifik forma verərək bazarda xüsusi çeşidli əmtəələrin olmasını şərtləndirir. Tələb istehsalı tələbatın ödənilməsinə istiqamətləndirərək bütövlükdə iqtisadiyyatı hərəkətə gətirən qüvvəyə çevrilir. İqtisadiyyatın dirçəliş və inkişafı nisbətində tələbin strukturuna təsir göstərən bazarda dəbdə olan yeni və müasir əmtəə və xidmətlər təklif olunur. Tələbin quruluşunda tələbatı ödəyən məhsulların istehsalının sabitləşməsi prosesi güclənir. Bazar tələbatı ödəyən məhsullarla doydurulduğundan tələblə təklif arasında müəyyən bir uyğunluq yaranır. Bazarın həddindən çox doydurulması kəskin, yaxud da mülayim formada tələb və təklif arasındakı müvazinətin pozulmasına gətirib çıxara bilər. Tələb və təklif arasında-

downloaded from KitabYurdu.org

kı müvazinətin sabitliyinin təmin edilməsi bazara çıxarılan yeni məhsul və xidmətlərin əhalinin tələbinə uyğun gəlməsindən və əhalinin təminatı səviyyəsindən çox asılıdır. Sosializmdə sanki istehsalın da beynəlləşməsi istehlakçının heç bir milli xüsusiyyətini nəzərə almırdı. Milli respublikalarda tələbin ödənilməsi mərkəzləşdirilmiş bölgü vasitəsi ilə həyata keçirilirdi. Suverenliyin əldə edilməsi ilə iqtisadiyyatda aparılan quruluş dəyişiklikləri müəyyən sahələrdə milli xüsusiyyətlər nəzərə alınmaqla istehsalın təşkilini zərurətə çevirirdi.

Müstəqillik əldə etmiş ölkələrdə bazara yeni əmtəə və xidmətlərin çıxarılması kütləvi hal alır. Ənənəvi olmayan istehlak mallarının daxili bazarda hökmranlığı və pullu xidmətlərin (xüsusi ilə təhsil və səhiyyədə pullu sistemə keçid) genişlənməsi (bəzən xidmətlərin məbləği işçinin gəlirlərini ötüb keçir) tələb və təklifin həm keyfiyyət, həm də kəmiyyət göstəricilərinin pisləşməsinə səbəb olur. Ona görə də, keçid prosesində bazarın həddindən çox zəifliyini nəzərə alsaq tələb və təklifin formalaşmasına subyektiv amillərin həlledici təsirə malik olduğunu aydın görərik. Bu subyektiv amillərin təsirinin minimuma endirilməsi Azərbaycan iqtisadiyyatının dünya təsərrüfatına inteqrasiyası və dünya bazarına qovuşmasında əhəmiyyətli rol oynaya bilər. Dünya bazarı digər milli bazarlar kimi Azərbaycan iqtisadiyyatı üçün yeni təsərrüfatçılıq forması olan bazar münasibətlərini, xüsusi ilə bu təsərrüfatçılığın məxsusi ünsürləri olan tələb və təklifi subyektiv amillərin təsirindən daha çevik müdafiə etmək imkanına malikdir.

Bazar iqtisadiyyatına keçid şəraitində tələbat formalaşmasının tədqiqində mühüm əhəmiyyətə malik olan məsələlərdən biri də istehsal amillərinə tələbin formalaşması qanunauyğunluqlarının və xüsusiyyətlərinin araşdırılmasıdır. Ölkədə sahibkarlığın inkişaf etdirilməsinin strateji məqsədə çevrilməsi istehsal amillərinə tələbat yaratmaqla istehsal amilləri bazarının yaranmasını şərtləndirir. Ölkəmizdə həyata keçirilən özəlləşdirmə istehsal amillərinə tələbatın artmasına səbəb olsa

downloaded from KitabYurdu.org

da onun müəyyən pul ekvivalenti tələb etməsi keçidin ilkin mərhələsində tələbatın ödənilməyən hissəsinin daha çox xüsusi paya malik olmasına gətirib çıxarmışdır. Özəlləşdirmənin ilkin mərhələsi üçün xırda xüsusi sahibkarlıq daha çox səciyyəvi olduğundan o qədər də istehsal amilləri bazarının formalaşmasına qabarıq şəkildə təsir göstərməmişdir. Çünki özəlləşdirilən kiçik müəssisələr istehsal amillərinin primitiv də olsa əmək alət və vasitələrinin sahibi idilər. Fərdi sahibkarlıq fəaliyyəti ilə məşğul olanlar isə pul resurslarının məhdudluğu üzündən malik olduqları xırda əmək alət və vasitələri ilə kifayətlənməyə məcbur idilər (məsələn, fərdi tikiş atelyelərində 100-lərlə əməliyyatı yerinə yetirən Yapon tikiş maşınının alınması imkanının məhdudluğu hələ də mexaniki üsulla işləyən Rusiya istehsalı olan tikiş maşınlarından istifadə məcburiyyəti yaratmışdır).

Oxucuda yanlış təsəvvür yaranmasın deyə xatırlatmaq yerinə düşər ki, araşdırılan bu işdə normal bazar iqtisadi sistemi şəraitində deyil, keçid iqtisadiyyatında sahibkarlıq fəaliyyətinin ilkin təşkili baxımından resurslara tələbin formalaşması diqqət mərkəzində saxlanılır. İnkişaf etmiş bazar iqtisadi sistemində resurslara tələbin formalaşması faydalılığın son həddi (marjinalizm) nəzəriyyəsinin tələblərinə uyğun həyata keçirildiyi halda keçid iqtisadiyyatında sahibkarlığın son həddi nəzəriyyəsi o qədər də əhəmiyyətli rol oynamır. Resursların quruluşunun müxtəlifliyi (təbii resurslar, əmək resursları, investisiya) tələbin də formalaşmasında fərqliliyə gətirib çıxarır. Fəaliyyət dairəsindən asılı olaraq sahibkarların təbii və əmək resurslarına tələbinin formalaşması (təklifin kifayət qədər olmaması) əlverişliliklə səciyyələndiyi halda, investisiya tələbi haqqında bu fikir özünü doğrultmur. Ölkəmizdə iqtisadi islahatların qanunauyğun nəticəsi kimi formalaşan bazar mexanizmi makroiqtisadi sabitliyin təmin edilməsinin başlıca şərtlərindən biri kimi çıxış edir.

downloaded from KitabYurdu.org

Makroiqtisadi miqyasda tələb və təklif ayrı-ayrı əmtəə və xidmətlərə deyil, bütövlükdə maddi nemət və xidmətlərə tələb və təklifin formalaşması öyrənilir ki, bu da məcmu tələb və məcmu təklifin uyğunluğunu müəyyən edir.

İqtisadi ədəbiyyatda məcmu tələb dedikdə qiymətin istənilən mümkün səviyyəsində istehlakçıların, müəssisə və hökumətin milli məhsulu real almaq imkanı başa düşülür. Məcmu təklif dedikdə isə qiymətin hər cür mümkün səviyyəsində istehsal və xidmətin mövcud real həcmi başa düşülür. Ümumiyyətlə, bazar iqtisadi sistemi üçün, xüsusilə də bazara yeni keçən ölkələr üçün tələblə təklif arasında uyğunsuzluğun yaranması səciyyəvidir. Bu, hər şeydən əvvəl tələb və təklifin kənar amillərin təsirinə daha çox məruz qalmasının mümkünlüyündən irəli gəlir. Azərbaycan iqtisadiyyatında keçid dövrünün ilkin mərhələsində milli istehsalın kifayət dərəcədə inkişaf etməməsi üzündən xarici amillər, xüsusi ilə istehlak malları idxalı və xarici investisiyalar müəyyənedici rol oynamışdı. Ona görə də tələb və təklifin quruluşunu milli iqtisadiyyatın inkişafı deyil (istehsal), xarici iqtisadi əlaqələr müəyyən edirdi. Tələb və təklifin bu spesifik formalaşması təkcə Azərbaycan üçün deyil, bütövlükdə yeni müstəqillik əldə etmiş və iqtisadi inkişafında bazaryönümü seçmiş ölkələrin hamısı üçün xarakterikdir. Tədricən iqtisadi inkişafın dirçəlişi, bazar yönümlü milli iqtisadiyyatımızın formalaşması, siyasi müstəqilliyimizin iqtisadi müstəqilliklə möhkəmlənməsi, bazar mexanizminin bütün ünsürlərinin, o cümlədən də tələb və təklifin fəaliyyəti üçün əlverişli şərait yaradır. Bazar münasibətlərinin formalaşması ilə tələb və təklifin fəaliyyətinə əlverişli şəraitin yaradılması, qiymətin əmələgəlməsinin bazar mexanizminin formalaşmasının əsasını təşkil edir.

downloaded from KitabYurdu.org

## 3.3. Qiymətin əmələgəlməsinin bazar mexanizminin formalaşması xüsusiyyətləri

İnzibati-amirlik iqtisadi sistemindən bazar iqtisadiyyatına keçid dövründə bütün iqtisadi münasibətlər sistemində olduğu kimi qiymət sistemində də köklü dəyişikliklər baş verdiyindən dəyişilən ictimai-iqtisadi şəraitə uyğun onun elmi məzmununun yenidən araşdırılmasına zərurət yaranmışdır.

İqtisadi ədəbiyyatda biz tez-tez «qiymətqoyma» və «qiymətin əmələgəlməsi» ifadəsinə təsadüf edirik. Hər iki ifadə eyni bir iqtisadi kateqoriyanın (qiymətin) fərqli iqtisadi sistemlərdə yaranma baxımından spesifik məzmuna malik olduğunu göstərir. Qiymət əmtəə-pul münasibətlərinin aparıcı rola malik olduğu cəmiyyətlərin təsərrüfat mexanizminin əsas ünsürlərindən olmasına baxmayaraq, inzibati amirlik şəraitində bütövlükdə əmtəə-pul münasibətləri, o cümlədən də qiymət planlaşdırma vasitəsi ilə məhdud çərçivəyə salınmışdır. Azərbaycan iqtisadi ədəbiyyatında qiymət problemlərinin elmi cəhətdən əsas araşdırıcılarından olan professor X.H.Kazımlı, C.B.Babayev, Ş.A.Ağabəyov yazırdılar: «İqtisadiyyatın mərkəzləşdirilmiş inzibati-amirlik metodları ilə idarə edildiyi əvvəlki dövrlərdə dövlətin qiymət siyasətinin ən mühüm məqsədlərindən biri qiymətlərin sabitliyinin təmin edilməsi olmuşdur. Həmin məqsədə nail olmaq üçün isə qiymətlərin artımı planlaşdırılmış səviyyədə müəyyən olunur və yuxarıdan məhdudlaşırdı» (52, s.3).

Qiymətin əmələgəlməsində dövlət siyasəti müəyyənedici rol oynadığından (qiymətlər mərkəzi dövlət orqanları tərəfindən müəyyənləşdirilirdi) o «qiymət qoyma» əsasında müəyyənləşən planlı qiymət adlanırdı və sosialist təsərrüfat mexanizmində özünəməxsus bir yeri vardı.

Hər bir iqtisadi sistem kimi sosializm də öz sosial-iqtisadi təbiətinə uyğun təsərrüfat mexanizmi yaratmışdır. Burada qiymətin kifayət dərəcədə özünəməxsus yeri olmasına

downloaded from KitabYurdu.org

baxmayaraq o, özünün bütün funksiyalarını (istehsal xərclərinin uçotu, stimullaşdırıcı və yenidən bölgü) çevik yerinə yetirmək imkanından məhrum olmuşdur. Sosializm şəraitində subyektiv amillərin qeyri-məhdud səlahiyyətləri bütün iqtisadi proseslərdə olduğu kimi qiymətin əmələgəlməsinin də deformasiyaya uğramasına gətirib çıxarmışdı. Əmtəə-pul münasibətlərinin qalmasına, hər bir müəssisənin əmtəə istehsalçısı kimi səciyyələnməsinə baxmayaraq, əmtəə-pul münasibətlərinin əsas kateqoriyalarından biri olan qiymət demək olar ki, tamamilə öz iqtisadi məzmununu itirmişdi. Sözdə «qiymət qoymanın» obyektiv elmi prinsipə əsaslanmasından söhbət getsə də «qiymət qoymada» dövlət siyasətinin tətbiqi digər prinsiplərin rolunu heçə endirmişdi. «Qiymət qoymada» dövlət siyasəti göydəndüşmə qiymətlərə gətirib çıxarmışdır ki, bu da əsas xalq təsərrüfatı proporsiyalarının nisbətinin pozulması ilə nəticələnmişdi.

İstehsalla istehlak arasında, resurslarla istehsal arasında və bütövlükdə xalq təsərrüfatı sahələri arasındakı proporsiyaların pozulması qiymət qoymanın bilavasitə təsiri altında baş vermişdi. Qiymətin əmələgəlməsində obyektivliyin gözlənilməməsi bütün əmək və təbii resurslardan israfçılıqla istifadəyə gətirib çıxarmışdı. Bu israfçılıq 80-cı illərdə elə bir həddə gəlib çatmışdır ki, ölkənin (SSRİ) kifayət dərəcədə zəngin təbii və əmək resurslarına malik olmasına baxmayaraq bu resursların real tükənməsi təhlükəsi yaranmışdır. Qiymətin həddindən artıq deformasiyaya uğraması resursların sahələr arasında düzgün bölüşdürülməməsi ilə nəticələnmişdir. Əksər sahələrin məhsullarının çatışmazlığı şəraitində bəzi məhsulların özünə alıcı tapa bilməməsi digər şərtlərlə yanaşı /xüsusi ilə onların keyfiyyətsizliyi/ qiymət qoymanın düzgün həyata keçirilməməsindən irəli gəlirdi. Əgər həmin məhsullara düzgün qiymətlər qoyulardısa təbii ki, istehsalçılar heç olmazsa istehsal xərclərini nisbətən də olsa ödəyə bilərdilər. Qiymətqoyma sahəsindəki deformasiya istehsalçıların öz iqtisadi fəa-

downloaded from KitabYurdu.org

liyyətlərinin nəticəsində maraqlı olmamalarında da özünü qabarıq şəkildə büruzə verirdi. Məhsulun satış qiymətinin planlı şəkildə əvvəlcədən məlum olması onların istehsal xərclərinin aşağı salınmasına həvəsini azaldırdı. Hətta müəyyən qrup müəssisələrin, xüsusi ilə uşaq geyimi, ət, süd məhsulları istehsal edən müəssisələrin məhsullarına dövlət tərəfindən aşağı qiymət qoyulması yolu ilə onların əvvəlcədən ziyanla işləməsi nəzərdə tutulurdu ki, bu da əmtəə-pul münasibətlərinin fəaliyyətinə heç bir məhəl qoyulmamasına gətirib çıxarırdı. Qiymətqoymada bu cür inzibatçılıq digər neqativ hallarla yanaşı məhsulun da keyfiyyətinin pisləşməsi ilə nəticələnirdi. Bazarla (sosialist bazarı) əks əlaqənin həddindən artıq zəif olması nəticəsində məhsulun reallaşıb – reallaşmamasından asılı olmayaraq növbəti il üçün məhsul artımı planlaşdırılırdı. Əslində təklifin artıb azalmasını qiymət müəyyən etməli olduğu halda bu vəzifəni plan orqanları (Dövlət Plan Komitəsi) öz üzərinə götürmüşdü. Bazar iştirakçılarının (mütəşəkkil bazar) heç bir sərbəstliyinin olmaması uzun illər sabit qiymətlərin tətbiqinə imkan vermişdi. Məsələn, istehsal şəraitinin, əsas məhsuldarlığının, xərclərin səviyyəsinin dəyişməsinə baxmayaraq 60-cı illərdən 90-cı illərə qədər 1 kq qənd 1 rubla satılmışdır. Qiymət qoymanın ən neqativ nəticələrindən biri də istehsalçının elmi texniki tərəqqinin nailiyyətlərinin tətbiqində maraqsız olmalarındadır. Yuxarı plan orqanları təsərrüfat subyektlərinin iqtisadi göstəricilərinə heç bir məhəl qoymadan elmi texniki yeniliklərin tətbiqini də plan göstəricisi kimi verirdilər. Bir qrup müəssisə, hətta yeni texnologiyanın tətbiqi baxımından əlverişli iqtisadi göstəricilərə malik olsalar belə, istehsalın texniki quruluşunu təkmilləşdirmək məqsədi ilə istədikləri vaxt texniki yenilikləri istehsala tətbiq etmək imkanına malik deyildirlər. Əksər istehlak malları istehsal edən müəssisələrin avadanlıqları öz xidmət müddətlərini çoxdan başa vurduqlarından onlardan müasir, keyfiyyətli məhsul da gözləmək olmazdı. Digər müəssisələrin isə qiymət siyasəti nəticəsində ziy-

downloaded from KitabYurdu.org

anla işləməsi onları onsuz da sərbəst şəkildə müasir avadanlıq almaq imkanından məhrum edirdi. Ona görə də SSRİ-nin mövcudluğu dövründə müəssisələrin mülkü əhali üçün istehsal etdikləri istehlak malları heç bir rəqabət qabiliyyətinə malik deyildir. Çox güman ki, xarici ticarət sahəsində bütün sahələrdə olduğu kimi dövlət inhisarı olmasaydı xarici mallar daxili bazara nüfuz etməklə bütövlükdə istehsalın dayanmasına səbəb olardı. Daxili bazarın xarici bazardan kifayət dərəcədə təcrid olunmuş şəkildə fəaliyyət göstərməsi daxili qiymətlərin dünya bazarındakı qiymətlərdən heç bir prinsipə uyğun gəlməyən fərqliliyə (istehsal xərclərinin səviyyəsini əks etdirməmək baxımından) gətirib çıxarmışdır. Bütövlükdə sosializm şəraitində bazar məhdud çərçivəyə salınsa da, sərt qiymət qoyma iqtisadi fəaliyyətin əhəmiyyətli hissəsini əhatə etsə də, qeyri-mütəşəkkil bazar adlanan kolxoz bazarlarında qiymətin formalaşması spesifik formada baş vermişdir. Qiymət daha çox obyektiv amillərin, tələb və təklifin təsiri altında bazar konyukturasına uyğun formalaşmışdır. Təbii ki, qeyri-mütəşəkkil bazar da tam sərbəst deyildi. Qeyri-mütəşəkkil bazarın mal təklifçiləri fərdi istehsalçı və kolxoz-kooperativ müəssisələrindən ibarət idi. Kolxoz-kooperativ təşkilatlarının məhsullarının əksər hissəsi dövlət müəssisələrindəki qiymətlərdən əsaslı şəkildə fərqlənməyən tədarük qiymətləri ilə dövlət tərəfindən alındığından həmin müəssisələr məhsullarının cüzi bir hissəsini bazar qiymətlərinə reallaşdırmaq imkanına malik idilər. Əsasən fərdi, şəxsi yardımçı təsərrüfatlarda istehsal olunan məhsullara tətbiq olunan qiymətlər qiymətin əmələgəlməsinin bazar mexanizminə uyğun gəlirdi. Şəxsi yardımçı təsərrüfatda qiymətin əmələgəlməsinin bazar mexanizmi, hətta sosializm şəraitində onun stimullaşdırma funksiyasının fəaliyyətinə şərait yaratmışdır. 70-80-cı illərdə Azərbaycanda istehsal olunan bostan məhsullarının yarıdan çoxu, yunun 40%-i, ət-süd məhsullarının 50%-ə yaxını, 70%-ə yaxın yumurta, şəxsi yardımçı istehsalın payına düşmüşdür. Şəxsi yardımçı

downloaded from KitabYurdu.org

təsərrüfatın daha çox bazar yönümlülüyü, qiymət qoymadakı sərbəstlik dövlət bölməsi ilə müqayisədə özünü daha qabarıq şəkildə göstərirdi. Qeyri-mütəşəkkil bazara mal çıxaranlar daha çevik tələb və təklifə uyğunlaşaraq qiyməti artırıb-azalda bilirdilər. Dövlət müəssisələri məhsulun zay olacağı təhlükəsi ilə qarşılaşdıqları halda belə qiyməti aşağı sala bilməzdilər. Bu dediklərimiz, hətta eyni bir sistem daxilində qiymətin əmələgəlmə mexanizmindəki fərqliliyin istehsalın inkişafına necə təsir göstərdiyini qabarıq şəkildə göstərir. İnzibati-amirlik iqtisadi sistemində «dondurulmuş» qiymətlərin tətbiqi, qiymətin stimullaşdırıcı funksiyanı yerinə yetirməsinə imkan vermirdi. İnzibati-amirlik iqtisadi sistemində qiymətin əmələgəlməsinə təsir göstərən heç bir amil nəzərə alınmırdı. Bu məsələnin də tədqiqatçıların diqqət mərkəzindən kənarda qalmamasına baxmayaraq real həyatda bu elmi əsaslandırmadan istifadə edilmirdi. Bütün bunları nəzərə alaraq V.M.Taraseviç yazırdı: «Müəyyən növ məhsullar müxtəlif texnoloji üsullarla alına bilər, bir sıra istehsalda materialların əvəz edilməsi mümkündür, eyni bir avadanlıq müxtəlif məhsulların istehsalında istifadə oluna bilər. Hazır məhsul müxtəlif nəqliyyat vasitələri ilə daşına bilər. Hətta, hazır məhsulun istehlakçıya çatdırılması marşrutu yeganə deyildir» (119,s.3). Məhsulun istehsalı və istehlakçıya çatdırılmasında bu qədər fərqliliyə baxmayaraq eyni növlü məhsullara sabit qiymətlər, yaxud da bəzi məhsullar çox cüzi fərqli (qurşaq qiymətləri) qiymətlər qoyulurdu.

Sosializmin bir iqtisadi sistem kimi öz ömrünü başa vurması ilə iqtisadi islahatlar yolu ilə cəmiyyətin əsasları dəyişdirilməyə başladı. Bu iqtisadi islahatların əsas istiqamətlərindən biri yeni yaranan bazar strukturlarının çevik fəaliyyət mexanizmini yarada biləcək iqtisadi alətlərə sərbəstlik verilməsindən ibarətdir. Belə iqtisadi alətlərdən biri də qiymətdir. Qiymət tarixən əmtəə istehsalının meydana gəlməsi ilə yaranıb, əmtəə istehsalının ən yüksək inkişaf mərhələsinə çat-

downloaded from KitabYurdu.org

dığı kapitalizmdə də cəmiyyətin təsərrüfat mexanizminin əsas ünsürünə çevrilib.

Yuxarıda göstərildiyi kimi, sosializm şəraitində qiymətin həddindən artıq deformasiyaya uğraması iqtisadiyyatda çoxlu neqativ hallara gətirib çıxarmışdır, resurslardan israfçılıqla istifadəyə əlverişli şərait yaratmışdır. Yeni iqtisadi sistemə keçid bu israfçılığın qarşısını almaq və yeni yaranan iqtisadi sistemin sosial-iqtisadi təbiətinə uyğun gələn bazar mexanizminə uyğun qiymətlərin formalaşması obyektiv zərurətə çevrilir. Hətta, siyasi sistemi sosializmə daha çox uyğun gələn Çin kimi bir ölkədə qiymət sistemində islahatlar aparmaqla iqtisadi inkişafda qiymətin bazar mexanizminə xas stimullaşdırıcı funksiyasından geniş istifadə edilir. M.Solntseva yazır: «Çinin təcrübəsi göstərir ki, bu ölkədəki qiymət islahatı inzibati-komanda iqtisadiyyatından bazar tipli iqtisadiyyata keçidə istiqamətlənib və obyektiv olaraq qiymətin əmələgəlməsinin bazar modelini formalaşdırır» (117, s.89). Şərqi Avropa ölkələri sosializmdən imtina etməklə iqtisadi islahatlar yolu ilə bazar iqtisadiyyatının əsaslarını yaratdılar. Sosializmdən ilkin imtina edən ölkələrdən biri olan Polşa iqtisadi islahatların mühüm tərkib hissəsi kimi qiymət islahatı vasitəsi ilə iqtisadiyyatı liberallaşdıraraq bazar modelini formalaşdırmışdı.

Azərbaycan Respublikasında qiymət sistemində islahatlar aparılarkən dünya təcrübəsi öyrənilməklə yanaşı respublikanın real gerçəkliyi diqqət mərkəzində saxlanılmalıdır. Qiymət sistemi hüquqi və fiziki şəxslərin birbaşa maraqlarına toxunduğu üçün qiymət islahatı bazar mexanizminin formalaşmasına əlverişli şərait yaratmaqla bir sıra amillərə fikir verilməsini tələb edir:

1) Qiymətin liberallaşdırılmasında tələsgənliyə yol vermədən mərhələliyə əməl etmək;

2) Zəruri yaşayış vasitələrinin qiymətlərinin keçid dövründə dövlət tərəfindən tənzimlənməsi;

3) Enerji daşıyıcılarının qiymətlərinin yüksəldilməsinin

downloaded from KitabYurdu.org

qarşısını almaq (enerji daşıyıcılarının qiymətlərinin yüksəlməsi istər-istəməz istehlak predmetlərinin də qiymətlərinin yüksəlməsinə səbəb olur);

4) Qiymətin stimullaşdırıcı funksiyalarından istifadə etməklə hüquqi şəxslərin inkişafına şərait yaratmaq və s. Bu göstərilən prinsiplərə əməl edilərsə qiymət sistemindəki islahatlar sosial gərginlik yaratmadan qiymətin əmələgəlməsinin bazar mexanizmini formalaşdırır. Bazar iqtisadiyyatı şəraitində təsərrüfat subyektləri arasındakı əlaqə əsasən qiymət siqnalları vasitəsi ilə baş verdiyindən, hər şeydən əvvəl bazar subyektlərinin sərbəstləşdirilməsi, müstəqilləşdirilməsi həyata keçirilir. Bazar subyektlərinin sərbəstləşdirilməsi müəyyən bir vaxt tələb etdiyindən yeni yaranan müəssisələr arasındakı iqtisadi əlaqənin qiymət siqnalları vasitəsi ilə baş verməsi spesifik formada təzahür edir. Həddindən çox sərt qaydalarla mərkəzləşdirilmiş keçmiş sosialist iqtisadiyyatında liberallaşdırma həyata keçirilir, qiymətqoymaya müəyyən sərbəstlik verilir. Qiymətqoyma sahəsində həyata keçirilən ilkin tədbirlər, hər şeydən əvvəl keçid dövrünün mövcud durumunu əks etdirir. Uzun müddət sərt qiymətlərə uyğunlaşmış iqtisadiyyat və alıcılar qiymətdə baş verən bu keyfiyyət dəyişiklərinə o qədər də çevik uyğunlaşa bilmirlər. Digər tərəfdən də zəruri yaşayış vasitələrinin qıtlığı nəticəsindəki qiymətdəki dəyişkənlik (qiymətlərin vaxtaşırı yüksəlməsi) əhalinin planlı qiymətə nastaljisini (qüssəsi) gücləndirirdi. Ona görə də, dövlət təsərrüfat subyektlərinin, xüsusi ilə də əhalinin mənafeyini nəzərə almaya bilməzdi. Keçidin ilkin dövrlərində dövlət əsas ərzaq məhsullarına təsbit edilmiş (xüsusilə çörəyə) qiymətlər qoydu. Tədricən zəruri yaşayış məhsulları istehsal edən müəssisələr özəlləşdikcə həmin məhsulların sərbəst bazarı formalaşmış, nəticədə qiymətlər də liberallaşdırılmışdır. Qiymətlərin liberallaşdırılması yolu ilə qiymətin əmələgəlməsinin bazar mexanizminin formalaşması ərzaq və qeyri-ərzaq məhsullarının qiymət indeksi vasitəsilə qabarıq şəkildə təzahür edir.

downloaded from KitabYurdu.org

Azərbaycan iqtisadiyyatında islahatların dönüş nöqtəsi kimi qiymətləndirilən 1996-1997- ci illərdən başlayaraq qiymətin əmələgəlməsinin bazar mexanizmi üçün qiymətlərin tərəddüdlüyü öz əksini ərzaq və qeyri-ərzaq məhsullarının qiymət indeksində tapmışdır. Buğda ununun qiymət indeksi əvvəlki ilə müqayisədə 1996-cı ildə 119,3%, 2005 –ci ildə isə 90,9% təşkil etmişdi. Buğda çörəyinin qiymət indeksi 1996-cı ildə 170,3%, 2005-ci ildə 99,0% olmuşdur. Uyğun olaraq müqayisədə 2004-cü illə 2005-ci ildə mal əti (121,4%), qoyun əti (121,3%), toyuq əti (104%), kərə yağı(104%), kişi üçün palto (103,0%), kişi üçün kostyum(102,2%), qadın üçün qış paltosu (110,5%), qadın üçün yun kostyum (106,2%) və s. olmuşdur.

**Cədvəl 3.2**

**Bir sıra ərzaq və qeyri-ərzaq məhsullarının qiymət indeksi (əvvəlki ilə nisbətən %-lə) (21. s. 388-389, 390); (22. s. 410-414)**

| | 1996 | 1997 | 1998 | 1999 | 2000 | 2001 | 2004-cü ilə nisbətən 2005-ci ildə |
|---|---|---|---|---|---|---|---|
| Ərzaq məhsulları | | | | | | | |
| Təmizlənmiş düyü | 112,7 | 90,1 | 99,0 | 98,4 | 104,2 | 98,0 | 104,1 |
| Buğda unu | 119,3 | 95,7 | 93,3 | 99,6 | 106,9 | 99,7 | 90,9 |
| Buğda çörəyi | 170,3 | 113,3 | 95,8 | 87,2 | 110,6 | 100,3 | 99,0 |
| Mal əti | 107,6 | 104,3 | 114,8 | 84,6 | 107,9 | 104,3 | 121,4 |
| Qoyun əti | 110,1 | 104,1 | 119,2 | 78,6 | 103,3 | 97,8 | 121,3 |
| Toyuq əti | 106,5 | 86,9 | 105,6 | 95,2 | 102,1 | 106,1 | 100,4 |
| Diri və ya təzə balıq | 93,9 | 107,3 | 115,5 | 115,7 | 116,2 | 110,1 | 108,0 |
| Kərə yağı | 100,6 | 87,2 | 96,2 | 90,5 | 95,8 | 102,0 | 104,0 |
| Bitki yağı | 95,3 | 92,4 | 94,2 | 105,0 | 106,6 | 103,9 | 101,8 |
| Qeyri-ərzaq malları | | | | | | | |
| Kişi üçün palto | 107,9 | 100,0 | 99,3 | 92,8 | 96,4 | 94,8 | 103,0 |
| Kişi üçün gödəkcə | 127,1 | 109,8 | 17,4 | 100,4 | 107,5 | 103,3 | 102,4 |
| Kişi üçün | 105,8 | 100,3 | 100,1 | 100, | 98,2 | 102,3 | 102,4 |

downloaded from KitabYurdu.org

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| kostyum | | | | 2 | | | |
| Kişi üçün şal-var | 104,1 | 98,0 | 97,6 | 99,7 | 108,2 | 94,7 | 106,9 |
| Qadın üçün qış paltosu | 106,2 | 102,4 | 100,2 | 98,0 | 93,0 | 102,6 | 110,5 |
| Qadın üçün yun kostyum | 103,7 | 103,4 | 98,6 | 98,8 | 104,0 | 105,8 | 106,2 |
| Qadın üçün yubka | 106,8 | 93,5 | 92,6 | 98,1 | 94,6 | 97,2 | 100,4 |

Cədvəldən (3.2.) aydın görünür ki, ərzaq və qeyri-ərzaq məhsullarının qiymət indeksi kifayət dərəcədə tərəddüdlüdür. Bu tərəddüdlər bazar mexanizminin elementlərinin tələb və təklifin, rəqabətin təsiri altında formalaşır.

Dövlət bununla yanaşı müəyyən sahədə öz inhisarçı mövqeyindən istifadə edərək bəzi məhsullara, hətta dünya bazarından da yüksək qiymət qoymaqla, qiymət mexanizmindən istifadə etməklə müəyyən sosial vəzifələrinin yerinə yetirilməsinə əlverişli şərait yaratmağa çalışır. Bəzi məhsullara təsbit edilmiş qiymətlərin (çox hallarda neft məhsullarına dünya bazar qiymətlərindən yüksək qiymətlər qoyulur) qoyulması büdcə daxilolmalarının sabitliyini təmin etməklə büdcədən maliyyələşdirilən əhalinin həyat səviyyəsinin yüksəldilməsinin bir mənbəyi kimi çıxış edir. Digər tərəfdən, neft məhsullarına dövlət inhisarı nəticəsində dünya bazarında onların qiymətlərinin qalxıb enməsi daxili qiymətlərin səviyyəsinə heç bir təsir göstərməmişdir. Həm də nəzərə alsaq ki, qiymətin əmələgəlməsinin bazar mexanizmi kifayət dərəcədə iqtisadi inkişafın mövcudluğunu tələb edir, onda məlum olar ki, bazar iqtisadi sisteminin daha çox inzibatçılıqla yaradıldığı (özəlləşdirmə dövlət tərəfindən həyata keçirilir) şəraitdə qiymətin əmələgəlmə mexanizmini subyektiv amilin təsirindən təcrid etmək həm mümkün deyildir, həm də heç məqsədəuyğun da hesab olunmur.

Azərbaycan iqtisadiyyatının keçid dövrünün ilkin mərhələsindəki durumu (inzibatçılığın qalıqlarının güclü olması və özəl bölmənin istehsal sahəsində nisbətən zəif inkişafı) tələb və təklifin uyğunluğu baxımından əlverişsiz olduğundan qiy-

downloaded from KitabYurdu.org

mətin əmələgəlməsində də müəyyən özünəməxsusluğa gətirib çıxarmışdır. Keçid dövrünün ilkin mərhələsində qiymətin əmələgəlməsinin bazar mexanizminin formalaşması aşağıdakı səciyyəvi xüsusiyyətlərə malikdir:

- kifayət dərəcədə sərbəst təsərrüfat subyektlərinin formalaşmaması;
- keçid dövrünün ilkin mərhələsində iqtisadiyyatda dövlət bölməsinin böyük xüsusi çəkiyə malik olması;
- istehsal xərclərinin quruluşunda müəyyənedici rola malik olan yanacaq-enerji kompleksinin dövlət inhisarında olması;
- dövlət bölməsinin məhsullarına bazar prinsiplərinə uyğun deyil, inzibati yolla qiymət qoyulması;
- istehsalın kəskin şəkildə aşağı düşməsi nəticəsində təklifin minimuma enməsi;
- rəqabət mühitinin ləng formalaşması;
- hiper inflyasiyanın bir sıra təsərrüfat subyektlərinin sıradan çıxmasına səbəb olması;
- əhalinin alıcılıq qabiliyyətinin əsasən şəxsi istehlak predmetləri ilə məhdudlaşması;
- ölkə iqtisadiyyatının dünya təsərrüfatı və dünya bazarı ilə zəif əlaqəsi və s.

Təbii ki, bütövlükdə bazarın formalaşmasını, o cümlədən də qiymətin əmələgəlməsinin bazar mexanizminin formalaşmasını bu sadalanan amillərin təsirindən təcrid etmək mümkün deyildir. Ona görə də bu amillərin təsiri Azərbaycan şəraitində qiymətin əmələgəlməsinin bazar mexanizminin formalaşmasına spesifiklik verir. Sovet dövründən başlayaraq müstəqilliyimizin ilk 5-6 ili də daxil olmaqla Azərbaycanda istehsalın kəskin şəkildə aşağı düşməsi əhalinin əksər hissəsinin yoxsulluq həddində yaşamasına gətirib çıxarmışdır. Əhalinin böyük əksəriyyəti nəinki gəlirlərinin əsas hissəsini, hətta malik olduqları əmlakın bir hissəsini zəruri yaşayış vasitələrinin (çörək, qənd, ət və s.) qiymətinin qalxması nəticəsində di-

downloaded from KitabYurdu.org

gər məhsulları tələbatlarının quruluşundan çıxarmaqla yalnız onların əldə edilməsinə sərf edirlər. Çünki zəruri yaşayış vasitələrinin istehlakının elə minimum həddi var ki, qiymətin yüksəlməsindən asılı olmayaraq (gəlir və əmlakın yol verdiyi hədd daxilində) artıq o səviyyədən aşağı enmək mümkün deyil. Keçid iqtisadiyyatında istehsalın fasiləsiz ixtisarı və qiymətlərin yüksəlməsi insanların psixologiyasına da mənfi təsir göstərir. Əhalinin əksər hissəsində belə bir əhvali-ruhiyyə formalaşır ki, əmtəə və xidmətlərin qiymətləri heç bir vaxt ucuzlaşmayacaq. Onlar çalışırlar ki, qiymətlərin yüksəlməsində bir qanunauyğunluq tapmaqla gəlirlərin əksər hissəsini istehlak predmetlərinin əldə edilməsinə sərf etsinlər. Qiymətlərin yüksəlməsi və bu artımda kifayət dərəcədə anlaşıqlığın (qanunauyğunluğun) olmaması tələb və təklifdə də qabarıq şəkildə öz əksini tapır. Əhalinin gəlirlərinin, maraqlarının əsasən istehlak bazarına yönəldilməsi istehlak bazarında gərginlik yaratmaqla yanaşı qiymətin yüksəlməsinin mənbələrindən birinə çevrilir. Normal iqtisadi şəraitdən fərqli olaraq gəlirlər iki hissəyə istehlak və yığıma ayrılmadan zəruri yaşayış vasitələrinin əldə edilməsinə sərf edilir. Nəinki onlar cari gəlirlərini istehlak bazarlarına yönəldirlər, hətta mümkün olan hallarda yığım və əmanətlərini də zəruri yaşayış vasitələrinin əldə edilməsinə sərf edirlər. Bir tərəfdən istehsalın aşağı duşməsi nəticəsində mal təklifi azalır, digər tərəfdən isə pulun əsasən istehlak bazarına yönəldilməsi nəticəsində istehlak bazarında pulun kütləsi artır və qiymətlər yüksəlir. İqtisadi hadisələrin bu yönümdə cərəyan etməsi keçid dövrünü yaşayan ölkələr üçün, o cümlədən də Azərbaycan üçün səciyyəvidir. Tələb və təklifdə eləcə də qiymətin əmələgəlməsində yaranan bu cür uyğunsuzluq yalnız dövlətin yaxından müdaxiləsi və iştirakı ilə aradan qaldırıla bilər. Hər şeydən əvvəl, müvəqqəti tədbir də olsa inflyasiyanın qarşısını almaq məqsədi ilə inzibati yolla milli valyutanın dönərli valyutaya möhkəmlətməklə onun sabitliyini təmin etmək mümkün olmuşdur. Bu zaman inflyasiya qiymət indeksi ilə

downloaded from KitabYurdu.org

deyil milli valyutanın dönərli valyutaya nisbəti kimi görünən forma alır. Bu da tədricən istehlak bazarında ajiotaj tələbi azaltmaqla nisbi də olsa qiymətlərin sabitləşməsinə səbəb olur. Doğrudur, bu sabitliyi təmin etmək üçün dövlət kifayət dərəcədə dönərli valyutaya malik olmalıdır. Hal-hazırda Azərbaycan Respublikasının Milli Bankı təxminən 1,4 mld. ABŞ dolları həcmində ehtiyat fonduna malikdir ki, bunun vasitəsi ilə nisbi də olsa istehlak mallarının qiymətlərinin sabitliyinə nail olunub. Əslində qiymətlərin sabitliyinin saxlanılması istehsalın dirçəlişi hesabına əldə edilsəydi bu daha səmərəli olardı. Çünki daxili istehsalın hesabına təklifin artması milli valyutaya əsl pul məzmunu verərdi. Düzdür, milli valyutanın dönərli valyutaya bağlanması və onun kifayət dərəcədə təminatlı olması xarici mənbələrin də hesabına olsa təklifin çoxalmasına, qiymətlərin səviyyəsinin sabit saxlanılmasına, hətta bəzi istehlak predmetlərinin qiymətlərinin aşağı düşməsinə səbəb olur. Sahibkarlar dönərli valyutaya aldıqları məhsulları milli valyutaya satmaqda heç bir qəbahət görmürlər. Çünki iqtisadi durumumuz elədir ki, istənilən vaxt istənilən məqsədə milli valyutanı dönərli valyutaya dəyişmək mümkündür. Lakin qiymətlərin sabitləşməsinin, nəinki sabitləşməsinin onun tədricən aşağı enməsinin (çünki qiymətlər qısa bir vaxt ərzində çox yüksəlmişdir) əsas mənbəyi kimi maraqlarımıza daha çox uyğun gələn milli istehsalın inkişafıdır, daxili bazarda təklif nə qədər çox milli istehsal hesabına formalaşarsa qiymətin əmələgəlmə mexanizmi bir o qədər kənar amillərin təsirindən təcrid olar və bazar mexanizminə, tələb və təklif qanunlarına uyğun formalaşar.

Cəmiyyətin iqtisadi inkişafı uzunmüddətli dövr üçün məhsuldar qüvvələrin yüksələn xətt üzrə inkişafı kimi səciyyələndiyindən qiymət həmişə enməyə meylli olmalıdır. Doğrudur, bəzən bazar mexanizminin ünsürlərinin, tələb və təklifin, qiymətin əmələgəlməsində elə hallar baş verir ki, bunları heç bir qanunauyğunluqla izah etmək mümkün olmur.

downloaded from KitabYurdu.org

Qiymətin artması ilə tələbin azalması əvəzinə nəinki o sabit qalır, hətta artması da müşahidə oluna bilər. Eləcə də qiymətin azalması ilə heç bir tələbin artması müşahidə olunmur. Təbii ki, bu hallar ayrı-ayrı əmtəələrin qiymətlərinin artıb azalması zamanı özünü qabarıq şəkildə büruzə verir. Məsələn, bazarda elə əmtəələr satılır ki, onların satış həcmi qiymətlərindən ya çox az asılıdır, yaxud da ümumiyyətlə heç asılı deyil. Kibrit, duz və s. onların əvəzləyicilərinin olmamasından, yaxud da məhdudluğundan qiymətin dəyişməsi tələbə nəzərə çarpacaq dərəcədə təsir edə bilməyəcək. Başqa bir halda kifayət dərəcədə tələbin doydurulduğu malların bazarının doldurulduğu şəraitdə də yuxarıda göstərilən istisnaya təsadüf olunur. Satıcılar bu zaman qiymətin aşağı salınması yolu ilə satış həcmini artırmağa can atsalar da buna nail ola bilmirlər. İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, hətta kifayət dərəcədə keyfiyyətli malların mövsümü kütləvi satışı zamanı qiymətlərin aşağı salınması gözlənilən səmərəni vermir. Əhalinin müəyyən qismi bu prosesə çox şübhə ilə yanaşırlar. İqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə qiymətin aşağı düşməsi bütövlükdə tələbi tələbatın quruluşuna yaxınlaşmasına istiqamətləndirir. Tələbat dolğun ödənildikcə gəlirin bir hissəsi sərbəstləşmək imkanı əldə edir və yığıma çevrilir. Gəlirin istehlaka gedən nisbəti çoxaldıqca yığıma gedən hissə azalır və əksinə. Yığıma gedən hissəsinin sabitləşməsi istehlak bazarı vasitəsi ilə qiymətə də birbaşa təsir göstərir. İstehlak predmetləri bazarında pul kütləsinin sabitləşməsinin təsiri altında qiymətlər də sabitləşir. Yığım ya investisiya mənbəyi kimi çıxış edərək yeni təklif üçün əlverişli şərait yaradır, ya da uzunmüddətli istifadə predmetlərinə tələb yaradır. Azərbaycan iqtisadiyyatında keçid dövrünün spesifikliyindən irəli gələn (inzibati-amirlik tam sındırılmayıb, özəlləşdirmə başa çatmayıb, bazar subyektləri kifayət dərəcədə sərbəst deyil) xüsusiyyətlər qiymətin əmələgəlməsinin bazar mexanizminin formalaşmasına mənfi təsir göstərsə də bu proses qarşısıalınmazdır. Bazar iqtisadi sisteminin

downloaded from KitabYurdu.org

bazis münasibətlərinin, mülkiyyət münasibətlərinin yeniləşməsi bazar təsərrüfat mexanizminin formalaşmasını reallaşdırır. Tədricən bazar mexanizminin bütün elementləri, o cümlədən də qiymətlər bazar prinsipləri əsasında formalaşmağa başlayır. Artıq əmtəələr bazar qiymətləri vasitəsi ilə istehlaka daxil olur. Qiymətlərin formalaşmasında iqtisadi inkişafın mövcud səviyyəsinə uyğun gələn tələb və təklif əhəmiyətli dərəcədə təsir göstərir. Bazar qiymətləri reallığa çevrilir. Bazar qiymətlərinin nəzəri problemləri demək olar ki, əksər iqtisadi məktəblər tərəfindən araşdırılmışdır. Bugünkü araşdırma baxımından Marksist məktəb tərəfindən qiymətin əmələgəlməsinin araşdırılması, qiymətin əmələgəlməsinin marjinalist izahı və neoklassik məktəbin baxışları daha çox maraq doğurur. Marksistlər qiyməti dəyərin pulla ifadəsi, yaxud dəyərin çevrilmiş forması adlandıraraq qiymətin əmələgəlməsinin klassik ingilis iqtisad məktəbinin əmək-dəyər nəzəriyyəsi əsasında izah etməyə çalışırlar. Onlar hesab edirdilər ki, qiymət istehsal xərcləri və orta mənfəət əsasında formalaşır. Beləliklə, onlar qiymətin əmələgəlməsinin obyektiv xarakter daşıdığını söyləyərək tələb və təklifin təsirini, subyektiv amillərin qiymətin əmələgəlməsindəki əhəmiyyətli rolunu istisna edirdilər. Qiymətin əmələgəlmə mexanizmini araşdıran digər iqtisadi məktəb və cərəyanın nümayəndələri qiymətin dəyərlə izahındakı çatışmazlıqları açıq-aşkar görürdülər. İctimai zəruri əməklə heç bir əlaqəsi olmayan qiymətlərlə məhsulların alınıb-satılması, istehlaka bilavasitə bazar vasitəsi ilə düşməsi dəyər qanunu ilə izah oluna bilmirdi. Bütün bunlara görə qiymətin əmələgəlməsini marjinalistlər (XIX əsrin ikinci yarısı) məhsulun son faydalılıq həddi ilə izah etməyə çalışmışlar. Onlar qiymətin əmələgəlməsində subyektin psixologiyasının müəyyənedici rol oynamasını xüsusi ilə vurğulayırdılar. Qiymətin əmələgəlməsində alqı-satqı prosesinin hər bir iştirakçısının (alıcı-satıcı) şəxsi maraqları müəyyənedici rol oynayır. Son faydalılıq nəzəriyyəsinin tərəfdarları qiymətin əmələgəlməsin-

downloaded from KitabYurdu.org

də məhsulun faydalılığını, nadirliyi və məhdudluğu anlayışını önə çəkməklə əmək-dəyər nəzəriyyəsinin, xüsusi ilə iqtisadi ədəbiyyatda «Smit paradoksu» kimi tanınan problemin sanki həllinə nail oldular (su ona görə alınıb-satılır ki, faydalıdır, ucuzdur ona görə ki, ehtiyatı həddindən çoxdur). Marjinalistlər (Karl Menger, Fridrix fon Vizer, Yevgeniy fon Bem-Baverk) qiymətin əmələgəlməsində istehsal xərclərinin rolunu həddindən çox azaldırdılar.

Neoklassik məktəbin yaradıcılarından olan İngilis iqtisadçısı A.Marşal öz həmkarlarından fərqli olaraq son faydalılıq nəzəriyyəsini tələb və təklif nəzəriyyəsi və istehsal xərcləri ilə birləşdirərək göstərdi ki, qiymətin əmələgəlmə mexanizmi bu amillərin təcrid olunmuş şəkildə təsiri altında deyil, qarşılıqlı fəaliyyət və asılılığı ilə baş verir. Nəticə etibarı ilə A.Marşal belə qənaətə gəlir ki, əmtəənin qiyməti faydalılıq və istehsal xərclərindən eyni dərəcədə asılıdır. Faydalılıq alıcı qiymətinin (tələb qiyməti) əsası kimi çıxış edirsə, istehsal xərcləri də istehsalçı (təklif qiyməti) qiymətinin əsası kimi çıxış edir. İstehsalçını təmin edən qiymət istehlakçını təmin etmədikdə alqı-satqı baş tutmur. Ona görə də məhsullar tələb və təklif qiymətlərinə deyil, bazar qiymətlərinə reallaşır. Alıcını təmin edən qiymət maksimum dərəcədə istehsal xərclərinə yaxınlaşsa da uzunmüddətli dövrdə nə onunla üst-üstə düşə bilər, nə də ondan aşağı enə bilər. Tələb qiymətinin istehsal xərclərindən tərəddüd etməsi tələb və təklifin nisbətinin dəyişməsi ilə müəyyənləşir. Beləliklə, bazar qiymətləri dedikdə müxtəlif amillərin təsiri altında, xüsusi ilə tələb və təklifin təsiri altında formalaşmış elə qiymətlər nəzərdə tutulur ki, bu qiymətlər hər iki tərəfin maraqlarına uyğun gəlsin. Yəni cəmiyyətin məhsuldar qüvvələrinin inkişaf səviyyəsindən asılı olmayaraq tələblə təklif arasında müəyyən tarazlıq yaranır, bu tarazlığa tarazlıq qiyməti uyğun gəlir. Bu tarazlıq iqtisadi inkişafın aşağı səviyyəsində məhdud təkliflə məhdud tələb arasında, inkişaf etmiş şəraitdə isə keyfiyyətli kütləvi təklifin tələ-

downloaded from KitabYurdu.org

bin dolğun quruluşuna uyğunluğu ilə səciyyələnir. Ona görə də bütün ölkələrdə dövlətin ən başlıca qayğılarından biri sabit inkişafın təmin edilməsidir.

Qiymətin əmələgəlməsinin bazar mexanizmi tədqiq edilərkən cəmiyyətin iqtisadi inkişaf səviyyəsindən irəli gələn xüsusiyyətləri də diqqət mərkəzindən kənarda qoymaq olmaz. Qiymətin əmələgəlməsinin bazar mexanizmini araşdıran yuxarıda adı çəkilən iqtisadi məktəb və cərəyanlar daha çox əmtəə istehsalının yetkinlik dərəcəsindən, bazarın inkişafından asılı olaraq qiymətin əmələgəlməsində bu və ya digər amilin təsirinin əhəmiyyətliliyi dərəcəsindən asılı olaraq qiymətin əmələ gəlməsinin nəzəri əsaslarını işləyib hazırlamışlar. Qiymətin bu mövqedən izahı əmtəə istehsalının tarixi təkamüllə inkişafına daha çox uyğun gəlir.

Azərbaycanda isə iqtisadiyyat öz təbii tarixi inkişafından dəfələrlə sapdırıldığından iqtisadiyyatın bütün sahələrində olduğu kimi qiymətin əmələgəlmə mexanizmi də güclü deformasiyaya uğramışdır. Ona görə də, qiymətin əmələgəlmə mexanizmi haqqında mövcud biliklərin bazar münasibətlərinin əsaslarının yaradıldığı şəraitdə olduğu kimi iqtisadiyyata tətbiqi kütləvi neqativ hallara gətirib çıxara bilər. Qiymətin əmələgəlməsinin bazar mexanizmi onun klassik anlamına (tələb və təklifin təsiri altında yaranması) uyğun gəlməklə maksimum dərəcədə gerçəkliyi, keçid dövrünün xüsusiyyətlərini əks etdirməlidir. Azərbaycan iqtisadiyyatının bugünkü durumu qiymətin spesifik bir funksiya, sosial funksiya yerinə yetirməsini zərurətə çevirir. Əgər bu gün qiymətin əmələgəlməsi tam gücü ilə bazarın təsiri altında formalaşarsa təklifin məhdudluğu üzündən (xüsusi ilə daxili istehsalın zəif inkişafı) qiymətlər kəskin şəkildə yüksələr ki, bu da onsuz da kasıb olan əhalinin daha da yoxsullaşmasına gətirib çıxarar. Keçidin ilkin mərhələsində dövlətin imkanlarının məhdud olması əhalinin normal sosial müdafiəsinin həyata keçirilməsini qeyri-mümkün edirdi. Ona görə də qiymətin əmələgəlməsinin keçid dövrünü yaşayan ölkələrdə dövlət təsirindən kənarda qalması arzuolunmaz nəticələrə gətirib çıxa-

downloaded from KitabYurdu.org

rır. Xüsusi ilə inhisarçı müəssisələr əsaslandırılmamış gəlir götürmək məqsədi ilə yuxarı inhisar qiymətlərindən istifadə etmək imkanı əldə edirlər.

Qiymətin sosial funksiya yerinə yetirməsi üçün hər şeydən əvvəl müəyyən növ məhsullara, xüsusi ilə zəruri həyati tələbatı ödəyən məhsullara təsbit edilmiş qiymətlərin tətbiqi əhəmiyyətli rol oynayardı. Bu təsbit edilmiş qiymətlər mütləq həmin məhsulların dünya bazarındakı qiymətlərindən aşağı olmalıdır (Məhsulların maya dəyərində çox böyük paya malik olan enerji daşıyıcılarının qiyməti dünya bazar qiymətlərindən yüksəkdir). Azərbaycan iqtisadiyyatında bazar münasibətlərinin formalaşdığı şəraitdə bazar qiymətlərinin formalaşmasına əlverişli mühiti formalaşdırmaqla yanaşı istehsalçı (təklif) və istehlakçının (tələb) mənafeyini diqqət mərkəzindən kənarda qoymaq olmaz. Milli istehsalçımız həddindən artıq zəif olduğundan bazara rəqabət qabiliyyətli məhsul çıxara bilmir. Daxili bazara isə xarici istehsalçıların mal çıxarması qarşısında heç bir maneə yoxdur. Xarici istehsalçılar müqayisədə əlverişli istehsal şəraitinə malik olduqlarından istehsal xərcləri ilə qiymət arasındakı fərqə görə üstünlüyə malik olurlar. Bu zaman qiymət milli istehsalı stimullaşdırmaq əvəzinə ona mane olan amilə çevrilir. Ona görə də dövlət milli istehsalın rəqabətliliyini təmin etmək məqsədi ilə inzibati məhdudlaşdırıcılardan (gömrük siyasəti) istifadə etməklə yanaşı dövlət alışı və tədarükü yolu ilə müəyyən növ məhsulların qiymətlərinin həddindən çox aşağı düşməsinin qarşısını (tələbi stimullaşdırma) almalıdır. Çox maraqlıdır ki, 2002-ci ildə belə bir problemlə qarşılaşdıq. Müstəqilliyimizin ilk illərində ərzaq qıtlığı ilə qarşılaşdığımızdan dövlət ərzaq idxalını stimullaşdırmaq məqsədi ilə onu gömrük rüsumlarından azad etmişdir. Artıq ölkəmizdə kifayət dərəcədə taxıl istehsal edildiyindən taxıl istehsalçıları qiymətin çox aşağı olması üzündən (1 kq 350 manat) məsrəflərini ödəyə bilməzlərsə taxıl istehsalı azala bilərdi. Taxıl istehsalını stimullaşdırmaq və bu sahədə yarana biləcək problemin

downloaded from KitabYurdu.org

qarşısını almaq məqsədi ilə ölkə başçısı sərəncam qəbul etmişdir. Bu sərəncama əsasən taxıl idxalı rüsumları artırılmış (konkret şəraitdən asılı olaraq bu siyasət dəyişə bilər) və taxılın nisbətən yüksək qiymətə dövlət tədarükünün (dövlət ehtiyat fonduna təxminən 100 min ton) həyata keçirilməsi nəzərdə tutulur.

Bu tədbirlər elə nisbətdə həyata keçirilməlidir ki, ələbaxımlıq psixologiyası formalaşmasın, dövlət himayəsinə arxayınçılıq yaranmasın. Həm də nəzərə almaq lazımdır ki, Azərbaycan istehsalçısı kimi istehlakçılarımız da zəifdir. İstehsalın stimullaşdırılması məqsədi ilə qiymət himayəçiliyi nəticəsində onsuz da zəif ödənilən tələbatımız daha da məhdudlaşa bilər. Aydındır ki, qiymətin yüksəlməsi nəticəsində tələbatın məhdudlaşması nisbətən canlanan təklifin bir hissəsinin reallaşmasına gətirib çıxarar. Bu gün tələbin formalaşmış bir səviyyəsi mövcuddur. Bu formalaşmış səviyyə isə ona xüsusi diqqətlə yanaşmağı tələb edir. Cüzi bir diqqətsizlik tələb və təklifin nisbi uyğunluğunun pozulmasına gətirib çıxarar. Bugünkü iqtisadi gerçəkliyimiz qısa müddətli dövrdə milli istehsalımızın təklifini güclü şəkildə artırmaq imkanını istisna etdiyindən qiymətin yüksəlməsi inflyasiyanı stimullaşdırır. Bu da öz növbəsində tələbin ödənilməsinə öz mənfi təsirini göstərir. Azərbaycan iqtisadiyyatının bugünkü durumu keçid iqtisadiyyatı kimi səciyyələndiyindən keçid dövrü üçün qiymətin əmələgəlmə mexanizmində aşağıdakıların nəzərə alınması məqsədəuyğun hesab olunur:

- keçid dövrünün ilkin mərhələsində istehsalın kəskin şəkildə aşağı düşməsi nəticəsində təklif əhəmiyyətli dərəcədə aşağı düşmüşdür;
- təklifin əhəmiyyətli hissəsi xarici mənbələr hesabına həyata keçirilir;
- inflyasiyanın baş alıb getməsi (hiperinflyasiya) əhalinin alıcılıq qabiliyyətinə sarsıdıcı zərbə vurmuş; inflyasiyanın sabitləşməsi ilə əhalinin alıcılıq qabiliyyəti də bərpa olunmaqdadır;

downloaded from KitabYurdu.org

- sərbəst qiymətlərin formalaşması üçün kifayət dərəcədə əlverişli şərait tədricən formalaşır. Bazar subyektlərinin iqtisadi cəhətdən zəifliyi dövlət himayəsinə daha çox ehtiyac yaradır;
- qiymətin əmələgəlməsinin bazar mexanizminin yaradılması üçün dövlət tərəfindən müvəffəqiyyətli iqtisadi islahatlar (iqtisadiyyatın liberallaşdırılması) həyata keçirilmişdir;
- tələblə təklif arasında uyğunluq yaratmaq məqsədi ilə yol verilən hədd daxilində dövlət tərəfindən iqtisadi rıçaqlara üstünlük verməklə qiymətin tənzimlənməsi (xüsusi ilə pul tədavülü) həyata keçirməlidir;
- iqtisadiyyatda özəl bölmənin inkişafına uyğun qiymətlərin sərbəstləşdirilməsi həyata keçirilir;
- nəticə etibarı ilə, qiymətin əmələgəlməsinin elə çevik bazar mexanizmi yaradılmalıdır ki, o bütün funksiyalarını (xüsusi ilə istehsal xərclərinin uçotu, yenidən bölgü, stimullaşdırma və s.) real olaraq yerinə yetirə bilsin;
- qiymət diskriminasiyasına yol verмək olmaz.

Keçidin ilkin mərhələsi üçün qiymətin əmələgəlməsindəki bu səciyyəvi cəhətlər planlı qiymətdən bazar qiymətlərinə keçid zamanı yaranan problemlərin həllinə əlverişli şərait yaradır. Artıq özəl mülkiyyət münasibətləri iqtisadiyyatımızda həlledici rol oynamaqdadır. Ona görə də tədricən formalaşmaqda olan qiymətin əmələgəlməsinin bazar mexanizmi iqtisadi inkişafa fəal təsir göstərən amillərdən birinə çevrilir.

Azərbaycan iqtisadiyyatının dünya təsərrüfatının tərkib hissəsindən birinə çevrilməsini nəzərə alsaq Azərbaycan iqtisadiyyatında qiymətin əmələgəlməsinə dünya bazar qiymətlərinin təsirini diqqət mərkəzindən kənarda qoymaq olmaz. Bütün bu cəhətləri nəzərə alaraq İ.Ş.Qarayev və digər müəlliflər «Dünya bazar qiymətləri» monoqrafiyasında yazırlar: «İstehsalın beynəlmiləl qiyməti – dünya qiymətinin ilkin əsasıdır. Dünya qiymətləri dünya bazarında beynəlmiləl istehsal qiymətinin pulla ifadəsidir. Onun dünya bazarında formalaşma-

downloaded from KitabYurdu.org

sının əsasını beynəlmiləl dəyər təşkil edir». (68,s.28) Göründüyü kimi tədqiqatçılar dünya qiymətlərinin əmələgəlməsində dəyərin beynəlləşməsinə xüsusi diqqət verirlər. Təbii ki, Azərbaycan Respublikası da dünya bazarında beynəlxalq ticarətin əsas prinsipinə (qarşılıqlı səmərəlilik) uyğun əməkdaşlıq etmək istəyirsə istehsalın texnoloji quruluşunu təkmilləşdirməklə istehsal məsrəflərinin səviyyəsini aşağı salacaq, dünya standartlarına cavab verə biləcək rəqabətqabiliyyətli məhsul istehsal edəcək.

Nəticə etibarilə bu qənaətə gəlmək olar ki, Azərbaycan iqtisadiyyatında qiymətin bazar prinsipləri əsasında formalaşması milli iqtisadiyyatda bazar mexanizminin fəaliyyətinin qanunauyğun nəticəsidir.

Üçüncü fəsildə bazar mexanizminin elementlərinin ayrı-ayrılıqda və qarşılıqlı asılılıqda təhlili göstərir ki, iqtisadi inkişafın ən yüksək səviyyəsində bazar mexanizminin iqtisadiyyatın dövlət tənzimlənməsi ilə səmərəli nisbətini formalaşdırmadan inkişafa nail olmaq mümkün deyildir.

downloaded from KitabYurdu.org

# IV FƏSİL

# KEÇİD İQTİSADİYYATI ŞƏRAİTİNDƏ BAZAR MEXANİZMİNİN İQTİSADİYYATIN DÖVLƏT TƏNZİMLƏNMƏSİ İLƏ QARŞILIQLI ƏLAQƏSİ

## 4.1. Keçid iqtisadiyyatında iqtisadiyyatın dövlət tənzimlənməsinin bazar mexanizminin təkmilləşməsinə təsiri

İqtisadiyyata dövlətin müdaxiləsinin kifayət dərəcədə qədim tarixi vardır. Lakin dövlət tənzimlənməsi, yaxud öz dövrü üçün daha dəqiq desək iqtisadiyyata dövlət müdaxiləsi mütəşəkkil, davamlı bir proses olmaq etibarı ilə merkantilist nəzəriyyənin meydana gəlməsi ilə başlamışdır. Merkantilist təlimə görə dövlət himayəçilik siyasəti ilə sərvətin əsil daşıyıcıları olan qiymətli daş-qaş və metalların ölkəyə gətirilməsini stimullaşdırmalıdır.

Kapitalizmin XVII - XIX əsrlərdə sürətli inkişafı dövlətin iqtisadiyyata müdaxiləsi məsələlərində köklü dəyişikliklər etdi. Klassik nəzəriyyəçilər (V.Petti, A.Smit, D.Rikardo) kapitalizmin özünü avtomatik tənzimləmə («görünməz əl») mexanizminə üstünlük verərək dövlət müdaxiləsinin maksimum dərəcədə məhdudlaşdırılması tezisi ilə çıxış edirdilər (126, s.36). XX əsrin 30-cu illərində kapitalizmin inkişafındakı keyfiyyət dəyişiklikləri, fərdi kapitalın mühüm sosial problemlərin (işsizlik, inflyasiya, dövlət əhəmiyyətli iri həcmli işlərin yerinə yetirilməsi və s.) həllində gücsüz olması yeni bir nəzəriyyənin, iqtisadiyyatın elmi cəhətdən əsaslandırılmış şəkildə dövlət tərəfindən tənzimlənməsi nəzəriyyəsinin Keynsçiliyin yaranmasına səbəb oldu. C.M.Keyns (1888-1946) nəzəriyyəsinin əsasını dövlət tərəfindən məcmu tələbin stimullaşdırılması yolu ilə iqtisadiyyatın tənzimlənməsi təşkil edir. İqtisadiyyatın dövlət tənzimlənməsi ilk dəfə elmi cəhətdən C.M.Keyns tərəfindən əsaslandırılsa da digər iqtisadi məktəb və cərəyanlarda

downloaded from KitabYurdu.org

müasir kapitalizm üçün səciyyəvi olan bu problemin tədqiqindən yan keçməmişlər. İqtisadiyyata dövlətin müdaxiləsi problemi monetaristlərin də diqqət mərkəzində olmuşdu. Monetarizmin yaradıcısı M.Fridmen və onun həmfikirləri hesab edirdilər ki, iqtisadiyyata dövlət müdaxiləsi tədavül dairəsində pul kütləsinin tənzimlənməsi ilə məhdudlaşmalıdır.

Müasir iqtisadi ədəbiyyata və inkişaf etmiş kapitalist ölkələrinin təcrübəsinə əsaslanaraq «iqtisadiyyatın dövlət tənzimlənməsi» anlayışından geniş istifadə olunur. Bu və ya digər məktəblər iqtisadi inkişafın müxtəlif səviyyəsinə uyğun olaraq iqtisadiyyatın dövlət tənzimlənməsinin forma və metodlarının mahiyyətini açmağa, onun hüdudlarının müəyyənləşdirilməsinə çalışmışlar. Yeni müstəqillik əldə edən ölkələr də bazar iqtisadiyyatına keçidlə əlaqədar öz real gerçəkliklərinə uyğun iqtisadiyyatın dövlət tənzimlənməsinin elmi cəhətdən əsaslandırılması problemi ilə qarşılaşmışlar. İqtisadiyyatın dövlət tənzimlənməsinə H.B.Allahverdiyev, K.S.Qafarov və Ə.M.Əhmədov tərəfindən «İqtisadiyyatın dövlət tənzimlənməsi» dərsliyində verilən tərif maraq doğurur. Müəlliflər yazırlar: «İqtisadiyyatın dövlət tənzimlənməsi elə bir təsərrüfat sistemidir ki, dövlət bazarın ayrılmaz tərkib hissəsi olub kompleks hüquqi və sosial-iqtisadi vasitələrlə iqtisadi inkişafın effektivliyinə şərait yaradır» (12, s.47). Doğrudur tərifin müəyyən məqamları mübahisə doğura bilər (təsərrüfat sistemi deyil, təsərrüfatçılıq sistemi, dövlət bazarın tərkib hissəsi olması anlaşılan deyildir), lakin iqtisadi inkişafa dinamiklik vermək baxımından dövlət tənzimlənməsinin mahiyyəti çox yığcam şəkildə verilmişdir.

«İqtisadiyyatın dövlət tənzimlənməsinə» akademik Ə.M.Abbasov və professor T.Ə.Quliyevin elmi baxışları da problemə metodoloji cəhətdən yanaşmaq baxımından çox maraqlıdır. Onlar yazırlar: «İqtisadiyyat təbiəti etibarı ilə tənzimlənən olmalıdır. Tənzimləmə prosesi iqtisadi sistemin məqsədli funksiyası ilə üzvü surətdə bağlı olduğu üçün bu həm də bazar

downloaded from KitabYurdu.org

iqtisadiyyatına aiddir». (4, s.25) Qeyri-müəyyənlik şəraitində iqtisadiyyatda fəaliyyət göstərə biləcək qanunauyğunluqlar keçid iqtisadiyyatı üçün daha da səciyyəvidir. Keçidin strateji istiqaməti kifayət dərəcədə müəyyən olsa da (milli iqtisadiyyatın formalaşdırılması, sosial yönümlü bazar iqtisadiyyatına keçid) bu müəyyənliyin özündə də yetərincə qeyri-müəyyənlik var. İslahatlar proqramının mükəmməlliyi, milli iqtisadiyyatın formalaşmasına cəlb edə bilmək imkanımız, bütün bu məqsədlərin reallaşmasına əks təsir göstərən müharibə amili, sosial yönümlü bazara keçidlə səmərəli sosial müdafiə mexanizminin optimal nisbətinin yaradılması və sair keçid dövründəki qeyri-müəyyənlikləri daha çox səciyyələndirir. Bütün bu və ya digər iqtisadi qeyri-müəyyənliklər keçid iqtisadiyyatında inzibati və iqtisadi alətlərdən səmərəli istifadə etməklə dövlət tənzimlənməsini daha da zəruri edir. K.F.Sadıqov yazır: «Dövlət mülkiyyəti əsasında planlı təsərrüfatdan xüsusi mülkiyyətə əsaslanan bazar iqtisadiyyatına keçidi həyata keçirən sosialist ölkələrində, müstəqil iqtisadiyyat formalaşdıran inkişaf etməkdə olan ölkələrdə iqtisadiyyatın dövlət tənzimlənməsinin müstəsna rolu vardır» (111, s.7).

Keçid iqtisadiyyatı kifayət dərəcədə fərqli cəhətlərə malik olduğundan inkişaf etmiş ölkələrdə iqtisadiyyatın dövlət tənzimlənməsi problemlərinin nəzəri aspekti üzərində ətraflı dayanmadan Azərbaycan milli iqtisadiyyatının formalaşması prosesində iqtisadiyyatın dövlət tənzimlənməsindən nə dərəcədə səmərəli istifadə edə biləcəyimizi aydınlaşdırmağa çalışacağıq.

Müasir dünyada sivilizasiyalı bazar sistemli ölkələrdə dövlət inzibati və iqtisadi alətlərdən istifadə edərək iqtisadiyyatın tənzimlənməsini həyata keçirir. Bu tənzimləmə iqtisadi inkişafa təkan verdiyindən bazar mexanizminin fəaliyyətinə kifayət dərəcədə çeviklik verir. Bazar sisteminə keçən hər bir ölkə kimi Azərbaycan Respublikası da bazar mexanizminin formalaşmasına əlverişli şərait yaratmaqla yanaşı inkişaf etmiş ölkələrin təcrübəsinə uyğun və öz real gerçək-

downloaded from KitabYurdu.org

liyindən irəli gələn xüsusiyyətləri nəzərə almaqla dövlət tənzimlənməsindən geniş istifadə etməlidir.

Bu gün həm dövlət səviyyəsində, həm də bazar münasibətlərinə keçidi təmin etməli orqanlar arasında bazar münasibətlərinə keçid şəraitində dövlətin iqtisadiyyata müdaxiləsinə dair yekdil fikir yoxdur. Bəzi səlahiyyətli orqanlar, hətta özləri dövlət orqanları olduqların belə yaddan çıxararaq dövlətin iqtisadiyyatın idarə olunmasına müdaxiləsini heçə endirməyə çalışırlar. Bəziləri isə iqtisadiyyatın dövlət tənzimlənməsi dedikdə yalnız inzibatçılığı başa düşürlər.

Buna görə də, hər şeydən əvvəl, biz özümüz üçün aydınlaşdırmalıyıq: bütün səviyyələrdə elan olunduğu kimi Azərbaycan bazar iqtisadiyyatına keçirmi? Keçirsə, hansı bazar iqtisadiyyatına, XX əsrin əvvəllərinə qədər mövcud olmuş kortəbii inkişaf edib əhalinin əksəriyyətini var-yoxdan çıxaran klassik kapitalizmə, yoxsa qarışıq iqtisadiyyat kimi xarakterizə olunan sosial istiqaməti ilə səciyyələnən, inzibati və iqtisadi metodların ən əlverişli nisbətini yaratmaqla sıçrayışlı inkişafa nail olan tənzimlənən bazar iqtisadiyyatına?

İnkişaf etmiş kapitalist dövlətləri istisnasız olaraq hamısı iqtisadiyyata həm inzibati yolla, həm də iqtisadi metodlarla müdaxilə edirlər.

ABŞ dövləti iqtisadiyyata inzibati yolla müdaxilə etməzsə, Yapon avtomobil sənayesi qısa bir müddətdə Amerika avtomobil bazarını tutar. Yaxud, İngiltərə ABŞ-da istehsal olunmuş istehlak mallarının İngiltərəyə idxalını gömrük qanunları vasitəsi ilə stimullaşdırır, digər ölkələrdən isə həmin malların idxalını məhdudlaşdırır.

İnkişaf etmiş ölkələrdə iqtisadiyyatın dövlət tənzimlənməsi heç bir şübhə doğurmur.

Lakin həmin dövlətlər qarşısında duran başlıca vəzifə inzibatçılıqla iqtisadi metodların optimal nisbətini yaratmaqdır. İnzibati və iqtisadi metodların optimal nisbəti isə nəticədə bütövlükdə iqtisadiyyatın səmərəli fəaliyyət dərəcəsindən asılı

downloaded from KitabYurdu.org

olur. Bazar iqtisadi sistemində ölkələr kifayət dərəcədə inkişaf etdikcə dövlətin iqtisadiyyatı tənzimləməsinin inzibati metodunun payı tədricən azalır, lakin heç vaxt heçə enmir, iqtisadi tənzimlənmənin rolu isə getdikcə artır. Bu göstərdiyimiz cəhətlər kapitalizmin təbii tarixi qanunauyğunluqlarla inkişaf etdiyi ölkələr üçün xarakterikdir.

İnzibati-amirlik iqtisadi sistemindən müasir bazar iqtisadi sisteminə keçən bütün ölkələrin, o cümlədən də Azərbaycanın bazar münasibətlərinə keçidinin müvəffəqiyyəti dövlətin iqtisadiyyata nə dərəcədə səmərəli müdaxilə etməsindən asılıdır. Keçid dövründə dövlətin iqtisadiyyata müdaxiləsinin başlıca istiqaməti islahatların çevik həyata keçirilməsi olmuşdur. Keçid dövrünün ilkin mərhələsində yeni yaranmaqda olan özəl sektor iqtisadi islahatların həyata keçməməsi üzündən çox cüzi miqdarda məhsul istehsal edir və xidmətlər göstərirdi. İqtisadi islahatların həyata keçirilməsi ilə artıq özəl bölmənin payı əhəmiyyətli dərəcədə üstunlük təşkil edir.

Kapitalist ölkələrində dövlət özü xüsusi mülkiyyətçi kimi çıxış edir. Ona görə də keçid dövrünü yaşayan ölkələrdə dövlət xüsusi mülkiyyətçi kimi formalaşana qədər məhsulun bölgüsünü bütün xalqın mənafeyinə uyğun həyata keçirməlidir. Ola bilməz ki, məhsul istehsalı ictimai mülkiyyətin tələbləri ilə həyata keçsin. Həmin məhsulun bölgüsü isə bazar münasibətləri ilə tənzimlənsin.

Sosializm dövründə hər kəsin ictimai mülkiyyətə mülkiyyət hüququ ictimai istehsaldan əvəzli-əvəzsiz aldığı pay vasitəsi ilə reallaşırdı. Məhsullara sabit qiymətlər müəyyənləşdirildiyinə görə inflyasiya həyat səviyyəmizi aşağı salmırdı. Keçid dövründə isə bir sıra spesifik sosial problemlər yarandığından, köhnə cəmiyyət üçün yad olan inflyasiya baş verdiyindən dövlətin üzərinə böyük öhdəliklər düşür.

Bu bir daha göstərir ki, dövlət malik olduğu bütün inzibati-iqtisadi alətlərdən bacarıqla istifadə etməklə əhalinin sosial müdafiəsini həyata keçirməlidir.

downloaded from KitabYurdu.org

Kapitalist ölkələrində istehsal vasitələrinin sahibi kapitalistlər olduğuna görə onlar mənfəət götürürlər. Sosializmdə dövlət müəssisəsinin, istehsal vasitələrinin də sahibi xalqdır. Lakin istehsal vasitələrinin mülkiyyətçisi olan xalq mənfəətin bölüşdürülməsində iştirak etmirdi. Mənfəət götürmək bir yana, xalqın istehsal vasitələri ilə istehsal olunan məhsullar onun özünə bazar qiymətləri ilə satılırdı. Bəziləri etiraz edib deyə bilər ki, istehlak etdiyimiz məhsulların əksəriyyəti kənardan gətirilən məhsullardır. Unutmaq olmaz ki, heç bir məhsul əvəzsiz gətirilmir.

Keçid dövrü digər keçid ölkələrində olduğu kimi Azərbaycan Respublikasında da kifayət dərəcədə ziddiyyətliliyi ilə səciyyələnir. Bu ziddiyyətlilik əhalinin sosial vəziyyətinin pisləşməsinə qabarıq şəkildə təsir edir. Ona görə də, bazar münasibətlərinə keçid dövründə Azərbaycan dövlətinin qarşısında duran başlıca vəzifələrdən biri olan zəruri yaşayış vasitələrinin qiymətlərinin inzibati yolla tənzimlənməsi obyektiv zərurətdən irəli gəlmişdi.

İnkişaf etmiş kapitalist ölkəsi olan İsveçdə dövlət müəssisələri əsas fondların 4%-nə malik olduqları halda, ölkə miqyasında yaradılmış milli gəlirin 70%-i əhalinin sosial müdafiəsi nəzərə alınmaqla dövlət tərəfindən bölüşdürülür. Ona görə də İsveç modeli sosial yönümlülüyü ilə fərqlənir. Sosial yönümlü bazar iqtisadiyyatının formalaşdırılmasını özünə məqsəd seçən Azərbaycan Respublikası da bazar prinsiplərini pozmadan güclü sosial müdafiə mexanizmi yarada bilən bölgü münasibətləri formalaşdırmalıdır.

Bazar iqtisadi sistemində əsasən bazarı əmək və resurslar bazarı, hazır məhsul və xidmətlər bazarı şəklində qruplaşdırırlar. Ola bilməz ki, hazır məhsullar və xidmət bazarında qiymət liberallaşdırılsın, əmək bazarında qiymət liberallaşdırılmasın, bunun nəticəsidir ki, bazar münasibətləri ilə inkişaf edən bütün ölkələrdə nüfuzlu və yüksək təminatlılar kateqoriyasına daxil olan elmi işçilərin əməyinin ödənilməsi Azər-

downloaded from KitabYurdu.org

baycanda həddindən artıq aşağıdır. Xüsusi ilə ziyalıların əməyinin ödənilməsində uyğunsuzluğa yol verilir. Hətta, eyni bir mənbədən maliyyələşdirilən büdcə təşkilatlarında əməyin ödənilməsi fərqli formada həyata keçirilir. İdarəetmə təşkilatlarında əmək haqqı minimum əmək haqqının birbaşa tarif dərəcəsinə vurmaqla hesablandığı halda, təhsil müəssisələrində hər bir tarif dərəcəsinə bir əmsal uyğunlaşdırılıb ki, bu da süni surətdə təhsil işçilərinin əmək haqqını aşağı salır.

İnkişaf etmiş kapitalist dövlətlərindən misal gətirməklə heç də onların təcrübəsini olduğu kimi Azərbaycan iqtisadiyyatına tətbiq olunmasını təbliğ etmirik. Heç bir ölkə dünya ölkələrindən təcrid olunmuş şəkildə öz iqtisadi inkişaf modelini qurmur. Dövlət iqtisadiyyatın mövcud durumundan irəli gələn xüsusiyyətləri də nəzərə almaqla bazar sistemli ölkələrin təcrübəsini öyrənib dövlət tənzimlənməsinin bütün alətlərindən çevik istifadə etməklə bazar mexanizmini özününküləşdirərək iqtisadi inkişafın Azərbaycan modelini yarada bilər və yaratmalıdır.

Bu iqtisadi model, hər şeydən əvvəl Azərbaycanda məhsuldar qüvvələrin inkişafının müasir səviyyəsini nəzərə almaqla sosial yönümlü bazar iqtisadi sisteminə keçidi əsaslandırmalıdır.

Deməli, iqtisadi model keçid dövrünün iqtisadi qanunauyğunluqlarını nəzərə almaqla, həyata keçiriləcək iqtisadi tədbirləri müəyyənləşdirib, bu tədbirlərin həyata keçirilməsinin prinsip, metod və formalarını özündə cəmləşdirir. İqtisadi modeldə həyata keçiriləcək bütün iqtisadi tədbirlərin sosial istiqaməti xüsusi ilə qabarıq şəkildə öz əksini tapmalıdır. L.İ. Abalkin yazdığı kimi «bu modeldə iqtisadi artım və onun nəticələrinin sosial vəzifələrin həllinə istiqamətlənməsi iqtisadi siyasətin başlıca istiqaməti kimi çıxış edir.» (1.s.125).

İqtisadi inkişafın Azərbaycan modeli (Uğur modeli) yüksək iqtisadi artım tempi ilə, gəlirlərin artımının inflyasiyanı dəfələrlə qabaqlaması və s. ilə səciyyələnir.

downloaded from KitabYurdu.org

Həyatda bu iqtisadi modelin yaranmasına və reallaşmasına dövlətin iqtisadiyyata, inzibati və iqtisadi metodlardan aktiv istifadə etməklə, müdaxiləsi ilə nail olmaq mümkündür. Müasir dünyada inkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, kortəbii şəkildə iqtisadiyyata bazar mexanizminin tətbiqi avtomatik sıçrayışa gətirib çıxarmır. Yalnız iqtisadiyyatda işlək bazar mexanizmini dövlət tənzimlənmə alətləri ilə üzvi surətdə əlaqələndirən ölkələr sənaye cəhətdən inkişaf etmiş ölkələr səviyyəsinə qalxmışlar. Digər bazar sistemli ölkələr isə, hətta bəzən kifayət dərəcədə təbii zənginliyə malik olmalarına baxmayaraq zəif inkişaf etmiş ölkələr kimi səciyyələnirlər. Nəinki zəif inkişaf etmiş ölkələrdə, hətta inkişaf etmiş ölkələrin də iqtisadi inkişafını dövlət tənzimlənməsiz təsəvvür etmək mümkün deyildir. Bu tənzimlənmə, hər şeydən əvvəl dəyişilən iqtisadi şəraitdə Azərbaycan iqtisadiyyatının sabitləşməsi və inkişafına yönəldilən tədbirlərin məcmuu şəklində çıxış etməlidir. Azərbaycan iqtisadiyyatı bir sosial – iqtisadi sistemdən digərinə keçməklə yanaşı milli müstəqil iqtisadiyyat qurur. Ona görə də dövlət tənzimlənməsi qanunvericilik, icra və nəzarət xarakterli tədbirlər sistemini özündə əks etdirməlidir. Bu tədbirlər sistemi keçid dövrünün yetkinlik səviyyəsindən asılı olaraq az və ya çox təsir qüvvəsinə malik ola bilər. Təbii ki, keçid dövrünün ilkin mərhələsində qanunvericilik yolu ilə iqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsinə daha çox ehtiyac yaranır. Sosializmin dağılması ilə təsərrüfat subyektlərinin davranışı köhnə qanunlarla tənzimləndiyindən yeni hüquqi aktlar yaranır ki, bu da qanunvericiliklə iqtisadiyyatın tənzimlənməsini şərtləndirir. Təsərrüfat subyektlərinin mənafelərinin düzgün əlaqələndirilməsi isə tələb edir ki, bu hüquqi aktların yaradılması dövlət tərəfindən həyata keçirilsin. Əks təqdirdə sahə və nazirlik səviyyəsində hazırlanan qanunların milli iqtisadiyyat miqyasında müəssisələrin fəaliyyətinə bu və ya digər sahəyə üstünlük verməleri milli maraqların pozulmasına gətirib çıxarar. Ona görə də qanunvericilik

downloaded from KitabYurdu.org

yolu ilə tənzimlənmə keçid dövründə dövlət tənzimlənməsinin mühüm tərkib hissəsi kimi çıxış edir.

Azərbaycan iqtisadiyyatı SSRİ xalq təsərrüfatı kompleksinin tərkib hissəsi kimi plana uyğun proporsional inkişaf qanununun tələblərinə uyğun inkişaf etdirilmişdir. Azərbaycanın siyasi müstəqillik əldə etməsi ilə iqtisadi bazisin dəyişdirilməsi sərt mərkəzləşdirilmiş planlaşdırmadan imtinanı zəruri etmişdir. Lakin heç də bu mərkəzi dövlət orqanlarının iqtisadiyyata müdaxiləsindən, xüsusi ilə sivilizasiyalı tənzimlənmədən imtina demək deyildir. Ona görə də dövlət bütün inzibati və iqtisadi rıçaqları hərəkətə gətirməklə iqtisadiyyatda köklü dəyişikliklər həyata keçirməlidir. Keçidin ilkin mərhələsində iqtisadi artımın səviyyəsinin günü-gündən aşağı düşməsi, işsizliyin kəskin forma alması, istehsalın formalaşmış quruluşunun milli məqsədlərə o qədər də uyğun gəlməməsi, idxal-ixrac əməliyyatlarında təsərrüfat subyektlərinin kifayət dərəcədə səriştəli olmaması dövlət tənzimlənməsini Azərbaycan dövlətinin bilavasitə başlıca vəzifələrindən birinə çevirir. İnkişaf etmiş ölkələrdə dövlət tənzimlənməsinin yerinə yetirdiyi funksiyalar daha çox iqtisadi rıçaqlarla həyata keçirildiyi halda yeni müstəqillik əldə etmiş ölkələrdə ilkin mərhələdə inzibati metodlara daha çox üstünlük verilir. Bu inzibatçılıq yol verilən hədd daxilində həyata keçirilməlidir. İnzibatçılığın həddi isə, hər şeydən əvvəl həyata keçirilən islahatların səmərəlilik səviyyəsi ilə müəyyənləşir. Azərbaycan iqtisadiyyatında həyata keçirilən islahatlar inzibatçılığa əsaslansa da nəticə etibarı ilə özəl sektorun yaranmasına, bütövlükdə iqtisadiyyatın liberallaşdırılmasına istiqamətləndiyindən tədricən inzibatçılığın səviyyəsi aşağı düşür və iqtisadi rıçaqlar daha fəal amilə çevrilir.

Dövlət tənzimlənməsindəki inzibatçılıq özü də əsas üç formada: icazə, qadağa və məcbur etmə formalarında tətbiq olunur. Baxmayaraq ki, dövlət tərəfindən qanunvericiliklə qadağan olunmayan bütün fəaliyyət növü ilə məşğul olmaq olar, ancaq elə fəaliyyət növləri vardır ki, müəyyən dövlət or-

downloaded from KitabYurdu.org

qanlarının icazəsi olmadan həmin fəaliyyət növü ilə məşğul olmaq qadağandır. Həmin fəaliyyət növləri səlahiyyətli dövlət orqanları tərəfindən təsnifləşdirilir, qruplaşdırılır və siyahısı tərtib edilir. Bu siyahının hüquqi status alması üçün o ali qanunvericilik orqanı tərəfindən təsdiqlənir. Bu siyahıda göstərilən fəaliyyət növü ilə yalnız səlahiyyətli orqanların icazəsini (lisenziya) aldıqdan sonra məşğul olmaq olar. Müxtəlif ölkələrdə onlar öz strateji məqsədlərinə uyğun olaraq inzibatçılıq alətlərindən müxtəlif səviyyələrdə istifadə edirlər. Məsələn, bir sıra gəlirli və sosial əhəmiyyətli sahələri dövlət öz inhisarında saxlamaq məqsədi ilə həmin fəaliyyət növü ilə xüsusi sahibkarların məşğul olmasını qadağan edir. Silah istehsalı belə sahələrdən biridir. Əksər inkişaf etmiş ölkələrdə silah istehsalı dövlət inhisarındadır. Yalnız bu sahədə istehsalın cüzi bir hissəsi (xüsusi ilə xırda odlu və soyuq silah) lisenziyalaşdırma yolu ilə nüfuzlu sahibkarlar tərəfindən həyata keçirilir. Əslində dövlət həmin sahibkarların gəlirli işləməsini təmin etmək məqsədi ilə onlara lisenziya verir.

Dünya ölkələrinin təcrübəsini nəzərə alaraq keçmiş SSRİ məkanında olan indiki müstəqil dövlətlərin əksərində olduğu kimi Azərbaycanda da silah istehsalı dövlət inhisarında saxlanılmışdır. Burada məqsəd silah istehsalından kifayət dərəcədə gəlir götürməkdən çox bu sahədə pərakəndəliyə, özbaşınalığa yol verməməkdən ibarətdir.

Yaxud, dövlət dənizkənarı bulvarı «milli park» elan etməklə milli parkın statusuna uyğun olaraq orada ərazi baxımından sahibkarlıqla məşğul olmağı qadağan edilmişdir.

İnzibatçılığın alətlərindən biri də məcbur etmədir. Məcburetmə alətindən istifadə etməklə bütün ölkələr minimum əmək haqqının məbləğini müəyyənləşdirməklə qeyri-dövlət bölməsinin də təsərrüfat subyektlərini bu əmək haqqı səviyyəsindən istifadə etməyə onları məcbur edir. Dövlət həmçinin atmosferin çirklənməsinin qarşısını almaq məqsədi ilə müəssisələri təmizləyici qurğulardan istifadə etməyə məcbur edir.

downloaded from KitabYurdu.org

Əks təqdirdə qanunvericiliklə müəyyən edilmiş qaydada, müəyyən formada, hətta fəaliyyətinin dayandırılmasına qədər sanksiyalar tətbiq edə bilir.

İnzibati alətlərdən istifadə müxtəlif siyasi və iqtisadi şəraitdə fərqli səviyyədə reallaşır. Keçid dövrünü yaşayan, həmçinin müharibə vəziyyətində yaşayan Azərbaycan üçün inzibati alətlər üstünlük təşkil edir. Dövlət hətta iqtisadi alətləri inzibati yolla mövcud şəraitin mühüm sosial-iqtisadi problemlərinin həllinə yönəldir. Bu inzibatçılıq hər şeydən əvvəl dövlətsizləşdirmənin, özəlləşdirmənin, yeni cəmiyyətin iqtisadi əsaslarının yaradılmasına, islahatların müvəffəqiyyətlə həyata keçməsinə xidmət etməlidir.

Azərbaycan dövlətinin inzibati yolla həyata keçirdiyi iqtisadi islahatların mühüm tərkib hissələrindən biri də pul islahatı, milli valyutanın yaradılması olmuşdur. Dövlət milli müstəqilliyin mühüm atributlarından olan milli valyutanı yaratmaqla (manat) bir sıra əhəmiyyətli problemlərin həllinə nail oldu. Müstəqillik dövrümüzün ilk illərində dövriyyədə rus rublundan istifadə daxili bazarda güclü gərginlik yaratmışdır. Bu gərginlik bir tərəfdən texniki xarakter daşıyıb, ölkəyə valyutanın gətirilməsi çətinliyi ilə əlaqədar olsa da (Rusiyanın özündə rubl çatışmırdı), digər tərəfdən Rusiya valyutası vasitəsi ilə müxtəlif yönümlü təxribatlar aparmaqla (inflyasiyanı gücləndirmək, rubl verilməsini dayandırmaq, ləngitmək) Azərbaycan iqtisadiyyatını öz iradəsinə tabe etməyə çalışırdı. Ağır iqtisadi çətinliklərin olmasına baxmayaraq, dövlət milli valyuta buraxılışını xeyli vəsait hesabına da olsa təşkil etməyə nail olmuşdur. Makroiqtisadi sabitliyə nail olunması ilə manatın denominasiyası həyata keçirildi. Beləliklə, manatın alıcılıq qabiliyyəti daha da möhkəmləndi.

Bununla yanaşı Azərbaycan dövləti inzibatçılığı aradan qaldırmaq məqsədi ilə kifayət qədər nazirlik və baş idarələri ləğv etmiş və çevik idarəetmə strukturları yaradılmışdır. İqtisadiyyatın dövlət tənzimlənməsi özəl və dövlət bölməsinə fərqli səviyyədə təsir göstərir. Baxmayaraq ki, «Mülkiyyət haq-

downloaded from KitabYurdu.org

qında» Qanuna əsasən mülkiyyət formalarının arasında heç bir ayrıseçkiliyə yol vermədən bütün mülkiyyət formalarının inkişafına əlverişli şərait yaradılmasını dövlət bir öhdəlik kimi öz üzərinə götürür. Lakin dövlət bölməsindəki müəssisələrin idarəedilməsi fərqli formada həyata keçirilir. Dövlət müəssisələrinin idarəedilməsinin strukturunun formalaşdırılması daha çox səlahiyyətli dövlət orqanlarının birbaşa müdaxiləsi yolu ilə yaradılır. Bütövlükdə iqtisadiyyatın quruluşu təkmilləşdikcə dövlət öz müəssisələrinin səhmlərinin bir qismini satmaq yolu ilə ayrı-ayrı fərdləri də (özəl bölmədən) dövlət müəssisələrinin idarəedilməsinə cəlb etmək imkanına da malik olur. Bu yolla dövlət müəssisələrin fəaliyyətinin çevikliyini, səmərəliliyini artırmaq məqsədi ilə qarışıq mülkiyyətə əsaslanan müəssisələr də yaratmaq imkanı əldə edir.

İqtisadiyyatın dövlət tənzimlənməsinin başlıca istiqamətlərindən biri də istehsalın inkişafının proqramlaşdırılmasıdır. İstehsalın inkişafının proqramlaşdırılması daha çox dövlət mülkiyyətində olan müəssisələrə uyğun gəlir. Dövlət öz mülkiyyətində olan müəssisələri proqramlaşdırma vasitəsi ilə bilavasitə istiqamətləndirməklə onu bir sıra gözlənilməz nəticələrdən sığorta edir. Bunun nəticəsində, xüsusi ilə iqtisadi inkişafın qeyri-sabitliyi şəraitində dövlət müəssisələri özəl müəssisələrə nisbətən daha əlverişli iqtisadi göstəricilərə nail olurlar. Əksər ölkələrdə, o cümlədən də Azərbaycanda dövlət bölməsi strateji məhsullar istehsalı ilə məşğul olduqlarından (daha çox ictimai tələbatı ödəyən və birgə istifadə üçün nəzərdə tutulan) həmin sahənin dövlət tərəfindən inkişaf etdirilməsi milli maraqlarımıza uyğun gəlir. Həm də Azərbaycanın bugünkü gerçəkliyi dövlət bölməsi ilə özəl bölmənin optimal nisbətinin yaradılmasını tələb edir. Dövlət bölməsinin inkişafı sözün müəyyən mənasında keçid mərhələsində özəl bölmənin də inkişafının təminatçısı kimi çıxış edir. Fikrimizcə aşağıdakı verilən cədvəl son dövrdə iqtisadiyyatımızda dövlət və qeyri-dövlət müəssisələrinin formalaşmış nisbəti haqqıda tam təsəvvür yaradır.

downloaded from KitabYurdu.org

Cədvəldən (4.1.) göründüyü kimi xüsusi çəki baxımından iqtisadiyyatımızda dövlət müəssisələri əhəmiyyətli rol oynamaqdadır. Dövlət müəssisələri dövlət büdcəsinin formalaşmasında da özəl müəssisələrə nisbətən çox böyük xüsusi çəkiyə malikdir. Lakin bu heç də özəl müəssisələrin iqtisadi inkişafımızda oynadığı rola kölgə salmamalıdır. Artıq ümumi daxili məhsulun 80%-dən çoxu özəl bölmədə istehsal olunur. Özəl müəssisələrin sayı istehsal və xidmət sferasında artmaqdadır. 2002-ci illə müqayisədə 2006-cı ildə dövlət müəssisələrinin sayı nəzərəçarpacaq dərəcədə azalmış, özəl müəssisələrinin sayı artmışdı. 2002-ci ildə dövlət mülkiyyətindəki müəssisələrin sayı 13071 olduğu halda, 2006-cı ildə dövlət müəssisələrinin sayı 11771 olmuşdur. Sahələr üzrə də dövlət müəssisələrinin sayı azalmışdı. Müqayisə olunan illər ərzində təhsil müəssisələrinin sayı 438-dən 476-a çatmış, səhiyyə müəssisələrinin sayı isə 665-dən 606-a enmişdi. Tikintidə dövlət müəssisələrin sayı 2114-dən 1776-ya enmişdi. Kənd təsərrüfatında özəl müəssisələrin sayı 8268-dən 8280-a, emal müəssisələrinin sayı 3268-dən 4518-ə, mədənçıxarma sənayesi və karxanalarda isə 172-dən 386-a çatmışdır.

**Cədvəl 4.1**

**Mülkiyyət növləri üzrə müəssisələrin sayı (21, s. 686-687; 22, s. 762-764)**

| | 2002-ci il | | | | 2006-cı il | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | dövlət | bələdiyyə | xüsusi | qarışıq | dövlət | bələdiyyə | xüsusi | qarışıq |
| Cəmi | 13071 | 2623 | 40008 | 947 | 11771 | 2751 | 51965 | 1077 |
| O cümlədən: Kənd təsərrüfatı, ovçuluq və meşəçilik | 709 | 3 | 8243 | 2 | 665 | 5 | 8238 | 37 |
| Mədənçıxarma sənayesi və karxanaların işlənilməsi | 72 | 0 | 160 | 12 | 51 | 0 | 368 | 18 |

downloaded from KitabYurdu.org

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| Emal sənayesi | 957 | 1 | 3031 | 236 | 779 | 2 | 4236 | 280 |
| Tikinti | 2114 | 4 | 2064 | 73 | 1776 | 5 | 4002 | 84 |
| Təhsil | 438 | 0 | 123 | 2 | 476 | 0 | 219 | 2 |
| Səhiyyə və sosial xidmətlər | 665 | 0 | 539 | 6 | 606 | 0 | 751 | 9 |

İqtisadiyyatın dövlət tənzimlənməsinin iqtisadi alətlərinin mühüm vasitələrindən biri də vergilər ilə tənzimlənmədir. SSRİ-nin dağılması ilə cəmiyyətin iqtisadi əsaslarının dəyişdirilməsinə yönəldilən islahatlar yeni vergi sisteminin də yaradılmasını zəruri edir. Lakin vergi sistemini köklü surətdə yeniləşdirmək müəyyən vaxt tələb etdiyindən mövcud vergi qanunvericiliyinə əlavə və dəyişikliklər etməklə keçidin ilkin dövründə vergi bazaları yaradıldı. Sosialist təsərrüfatçılığına uyğun gələn vergi formaları tədricən sıxışdırılıb sıradan çıxarıldı, yeni təsərrüfatçılıq formalarına uyğun gələn vergi növləri tətbiq edilməyə başladı.

Bazar iqtisadi sistemi şəraitində, xüsusi ilə keçid mərhələsini yaşayan ölkələrin iqtisadi gerçəkliyi vergilərə xüsusi diqqətlə yanaşmağı tələb edir. İstənilən dövlət, vergilərdən dövlət tənzimlənməsində istifadə etməklə əsasən iki vəzifənin, büdcəyə kifayət dərəcədə vəsaitin cəlb edilməsi və istehsalın stimullaşdırılması vəzifəsini yerinə yetirir. Bu tənzimlənmə alətindən dövlət elə məharətlə istifadə etməlidir ki, nəticə etibarı ilə verginin yerinə yetirdiyi vəzifələr müvəffəqiyyətlə həyata keçsin.

Azərbaycan iqtisadiyyatının mövcud vəziyyəti vergi tənziminin yerinə yetirdiyi vəzifə baxımdan ziddiyyətli səciyyəyə malikdir. Bir tərəfdən dövlət büdcəsinin vəsaitini büdcə təşkilatlarında çalışanların minimum tələblərinin ödənilməsinə uyğun gəlməməsi vergi vasitəsi ilə büdcəyə daha çox vəsait cəlb edilməsini tələb edir. Digər tərəfdən isə, vergilərin artırılması onsuz da zəif olan yeni yaranan özəl təsərrüfatların dirçəlməsinə imkan vermir. İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir

downloaded from KitabYurdu.org

ki, vergilərin çox əhəmiyyətli hissəsini özəl müəssisələrin mənfəətlərindən vergilər təşkil edir. Ona görə də dünya ölkələrinin təcrübəsindən istifadə edərək vergi tənzimi elə həyata keçirilməlidir ki, vergi dərəcələrinin artırılması əvəzinə vergi stimullaşdırılması yolu ilə vergi verənlərin sayı artırılsın. Azərbaycanın sosial-iqtisadi inkişaf modelinin tədqiqatçılarından olan Q.İmanov və Y.Həsənli yazırlar: «Vergilərin azaldılması ilk baxışda elə görünür ki, bu dövlət büdcəsinə daxil olan vəsaitin azalmasına səbəb olacaq. Amma əksinə vergilərin azaldılması dövlət büdcəsinə daxil olan vəsaitlərin artmasına gətirib çıxarır. Birincisi vergilərin azalması vergi bazasını genişləndirir, ikincisi vergidən yayınma halları azalacaq» (49, s.76). Vergi verənlərin sayının artırılması həm büdcəyə cəlb olunan vəsaitin artırılmasında, həm də büdcədən maliyyələşməyə göz tikənlərin sayının azalmasına gətirib çıxaracaq. Bu gün əhalinin böyük bir hissəsi vergi ağırlığından çəkinərək ya özəl bölmədən uzaqlaşır, ya da sahibkarlığa həvəs göstərmir. Vergi vasitəsi ilə həyata keçirilən iqtisadi tədbirlərdən biri də gəlirlərin yenidən bölgüsünün həyata keçirilməsidir. Mütərəqqi vergi formalarının tətbiqi əhalinin gəlirlərinin formalaşmasında əhəmiyyətli rol oynayır. 1999-cu ildə əhalinin gəlirlərinin vergilərə cəlb olunması qaydasındakı dəyişiklik cüzi də olsa əhalinin az gəlirli təbəqəsinin real gəlirlərinin artmasına gətirib çıxardı. Hətta əmək haqqının artmadığı şəraitdə əmək haqqının əhəmiyyətli hissəsinin (150 min manat) vergiyə cəlb olunmaması nəticəsində nominal əmək haqqı mövcud səviyyənin 10%-i miqdarında yüksəlmişdir. İlk baxışda o qədər də əhəmiyyətli görünməyən bu dəyişiklik dövlətin vergi alətlərindən tənzimlənmə rıçaqı kimi istifadə etmək imkanı haqqında kifayət dərəcədə təsəvvür yaradır. Beləliklə, vergi dövlətin hüquqi və fiziki şəxslərin davranışına başlıca təsir vasitələrindən biridir. Ona görə də dövlət vergi dərəcəsi və növlərinin tətbiqinə xüsusi diqqətlə yanaşmalıdır. Vergi dərəcə və növləri hər şeydən əvvəl iqtisadi inkişafın mövcud səviyyəsinə uyğun

downloaded from KitabYurdu.org

gəlməlidir. Hər bir konkret halda real şəraitə uyğun vergi siyasəti yeridilməsi nəticəsində iqtisadiyyatı dirçəltmək, milli sahibkarlığı inkişaf etdirmək və milli məqsədlərə nail olmaq mümkündür. Bu məqsədlərə nail olmaq üçün isə hər şeydən əvvəl çevik vergi siyasəti həyata keçirilməlidir. Beynəlxalaq maliyyə qurumları tərəfindən birmənalı qəbul olunmayan regionların xüsusiyyətləri nəzərə alınmaqla tətbiq olunan diferensiallaşmış vergi siyasəti də sahibkarlığın inkişafı baxımından zəif inkişaf etmiş regionlarda sahibkarlığın inkişafının stimullaşdırılmasına yönəldilib. Tətbiq olunan vergilər cəmiyyətin iqtisadi əsaslarının dəyişdirilməsinə yardımçı olmaqla yanaşı tədricən obyektiv prinsiplər əsasında formalaşmaq imkanına da malik olmalıdır. Vergilər sırf dövlət siyasəti əsasında deyil, elmi prinsiplər əsasında formalaşmalıdır. Bu elmilik hər şeydən əvvəl öz əksini vergi dərəcələrinin müəyyən edilməsində, konkret növünün seçilməsində və bütövlükdə vergi sisteminin təkmilləşməsində tapmalıdır. Təbii ki, elmi əsaslara söykənən vergi sistemi bütövlükdə dövlət tənzimlənməsinin iqtisadi alətlərindən biri kimi iqtisadi inkişafın təkanverici qüvvələrindən birinə çevrilir.

Dünya ölkələrinin təcrübəsi göstərir ki, dövlət tənzimlənməsində kredit rıçaqlarından da istifadə bir sıra problemlərin həllində əhəmiyyətli rol oynayır. Bu problemlərdən önəmlisi kredit vasitəsi ilə iqtisadiyyatın mütərəqqi quruluşunun formalaşmasına və bütövlükdə iqtisadiyyatın inkişafına təsir göstərməkdir. Azərbaycan iqtisadiyyatının quruluşunun mütərəqqiliyini müəyyən edən müasir meyarlarla yanaşı (elm tutumluluğu, əməyin texnika ilə silahlanma səviyyəsi, elektronikanın iqtisadiyyata tətbiqi və s.) onun nə dərəcədə daxili resursları milli iqtisadiyyatın inkişafına cəlb etməsi imkanı da nəzərə alınmalıdır. Daxili resursların hərəkətə gətirilməsi ilə milli iqtisadiyyatın dirçəldilməsi ölkədə sahibkarlığın inkişafı ilə müəyyən olunur. Ölkə vətəndaşlarının maliyyə imkanlarının məhdudluğu isə onların milli maraqlara

downloaded from KitabYurdu.org

deyil, şəxsi mənafelərinə uyğun gələn sahibkarlıq formasına üstünlük vermələrinə gətirib çıxarır. Əgər onlar kifayət qədər böyük maliyyə imkanlarına malik olsaydılar, şəxsi maraq milli mənafelərə daha çox uyğun gələrdi. Çünki iri kapitalın xırda kapitala nisbətən gəlir gətirmək baxımından xeyli üstünlükləri var. İri kapital yeni iş yerlərinin açılması baxımından əhalinin müəyyən bir hissəsini yaşayış vasitələri ilə təmin etməklə milli mənafelərin də ödənilməsinə şərait yaradardı. Ölkə vətəndaşlarının sahibkarlıq fəaliyyətinə cəlb olunmaları üçün zəruri olan maliyyə imkanlarının məhdudluğu bütün digər mənbələrlə yanaşı dövlət krediti hesabına da yumşaldıla bilər. Bura da kredit siyasəti elə çevik olmalıdır ki, dövlət vəsaitindən israfçılıqla istifadəyə yol verilməsin. Kredit bilavasitə milli sahibkarlığın inkişafının yardımçısına çevrilsin. Dövlət Milli Bank vasitəsi ilə borc faizlərinin müəyyənləşdirilməsi üzərində nəzarət etməklə bank sisteminin hüquqi şəxslər üzərində hegemonluğuna yol verməməlidir. Əks təqdirdə təsərrüfat subyektləri iflasa uğrayıb sıradan çıxar. Konkret iqtisadi inkişaf səviyyəsinə uyğun olaraq dövlət strateji məqsədlərə uyğun gələn sahələrin kreditləşdirilməsinə üstünlük verməlidir. Məlumdur ki, sahibkarlıqla məşğul olmaq üçün kənd əhalisinin imkanları daha çox məhduddur. Sosialist kənd təsərrüfatı müəssisələrinin ləğvi və yeni özəl kənd təsərrüfatı müəssisələrinin yaradılması və kənd təsərrüfatı istehsalının təşkili kifayət dərəcədə vəsait (texnika, yanacaq, minerallar və s.) tələb edir. Kənd təsərrüfatı istehsalının dirçəldilməsi dövlətin mühüm həyati məsələlərindən olduğuna görə bu sahənin dövlət krediti hesabına dirçəldilməsi milli maraqlara uyğun gəlir. Azərbaycan dövləti daxili imkanları da nəzərə almaqla kredit tənzimlənməsi alətlərindən istifadə edərək kənd təsərrüfatında sahibkarlığı inkişaf etdirmək məqsədi ilə güzəştli kreditləşdirmədən, uzunmüddətli kreditlərdən istifadə edir.

Dövlət kreditin stimullaşdırma funksiyasından dövlət tənzimlənməsində məharətlə istifadə etməklə bütövlükdə digər

downloaded from KitabYurdu.org

rıçaqları da hərəkətə gətirməklə milli iqtisadiyyatımızın inkişafına təkan verə bilər. 2007-ci ilin dövlət büdcəsində sahibkarlığın, xüsusi ilə aqrar bölmədə sahibkarlığın inkişafına yardım məqsədi ilə 80 mlyn. AZN vəsait nəzərdə tutulmuşdur. Bu vəsait çox aşağı faiz dərəcələri ilə sahibkarlara verilir. Bu vəsaitlərin verilməsi özəl banklara həvalə olunmuşdur. Özəl banklara ödənilən haqqın 2%-nin ödənilməsini dövlət öz üzərinə götürmüşdür.

İqtisadiyyatın dövlət tənzimlənməsində mühüm istiqamətlərdən biri də xarici iqtisadi əlaqələrin tənzimlənməsidir. Dövlət əlində cəmləşdirdiyi müxtəlif alətlərdən istifadə etməklə xarici iqtisadi əlaqələri tənzimləməklə iqtisadiyyatın bu və ya digər sahəsinə təsir göstərir. Düzdür, dövlət xarici iqtisadi əlaqələrin mühüm tərkib hissəsi olan xarici ticarəti iqtisadi islahatların gedişində dövlət inhisarından çıxarmış və onun liberallaşdırılması haqqında kifayət dərəcədə hüquqi aktlar qəbul etmişdir. Lakin bu heç də o demək deyildir ki, iqtisadi fəaliyyətin mühüm sahələrindən biri olan xarici iqtisadi əlaqələr dövlət tərəfindən tənzimlənmir. Dövlət hər şeydən əvvəl xarici iqtisadi əlaqələrə çevik təsir vasitələrindən bacarıqla istifadə etməklə idxal və ixracı, ölkəyə kapital axınını, texniki yeniliklərin iqtisadiyyatımıza tətbiqi imkanlarının genişlənməsini stimullaşdıra bilər. İqtisadi inkişafın müxtəlif mərhələlərində qarşıya çıxan problemlər biri-birindən kəskin şəkildə fərqləndiyindən idxal-ixrac siyasəti də fərqli formada həyata keçirilir. Müstəqilliyimizin ilkin mərhələsində ölkəmizin mühüm problemlərindən biri ərzaq çatışmazlığı olduğundan dövlət həmin növ məhsulların idxalını stimullaşdırmaqla (gömrük vergisindən azad etməklə) bu problemin nisbətən yumşaldılmasına nail olmuşdur. Yaxud, ölkə iqtisadiyyatında xarici kapitalın tətbiqinə əlverişli şərait yaradılmışdır ki, bu da nəticə etibarı ilə ölkə iqtisadiyyatının investisiya təminatında əhəmiyyətli rol oynayır. Hal-hazırda Azərbaycan MDB məkanında adambaşına düşən xarici investisiyanın məbləğinə

downloaded from KitabYurdu.org

görə birinci yerdə gedir. Müasir texnologiyanın da idxalının stimullaşdırılması iqtisadiyyatımızın bütövlükdə modernləşdirilməsinə köməklik göstərir. İdxalın stimullaşdırılması kimi ixracın stimullaşdırılması da xarici iqtisadi əlaqələrin tənzimlənməsində diqqət mərkəzində saxlanılmalıdır. Bunu hər şeydən əvvəl ölkə istehsalçılarının mənafeyi tələb edir. Əks təqdirdə milli sahibkarlığın inkişafı məhdudlaşdırılır, dünya bazarı ilə əlaqəmiz birtərəfli istiqamətdə inkişaf edər və iqtisadiyyatımız xarici ölkələrin xammal bazarına çevrilər. Ölkə istehsalçılarını ixraca stimullaşdırmaqla dövlət iqtisadiyyatımızın dünya təsərrüfat sisteminə inteqrasiyasını gücləndirmiş olar.

Dövlət modern texnologiya istehsalı sahələrinə yüksək ixtisaslı mütəxəssisləri cəlb etməklə həmin sahədə çalışan ölkə vətəndaşlarının da əmək vərdişlərinin təkmilləşməsinə, ixtisas səviyyəsinin yüksəlməsinə əlverişli şərait yaradır. Beləki əlavə resurs sərf etmədən kadrların ixtisas səviyyəsi yüksəlir, əmək məhsuldarlığı artır, nisbətən keyfiyyətli və rəqabət qabiliyyətli məhsul istehsal etmək mümkün olur. SSRİ-nin tərkibində olduğumuz müddətdə xarici iqtisadi əlaqələrin mərkəzi dövlətin inhisarında olduğundan dövlət səviyyəsində həm də hüquqi və fiziki şəxslər səviyyəsində xarici iqtisadi əlaqələrin təşkili baxımından kifayət dərəcədə səriştə və təcrübəmiz yox idi. Ona görə də xarici iqtisadi əlaqələrin dövlət tənzimlənməsi və xarici iqtisadi əlaqələrlə iqtisadiyyata təsir düşünülmüş şəkildə xarici ölkələrin qabaqcıl təcrübəsi öyrənilməklə həyata keçirilməlidir ki, iqtisadiyyatımız riskdən maksimum dərəcədə sığorta olunsun.

İqtisadiyyatın dövlət tənzimlənməsi mexanizmində qiymət siyasəti özünəməxsus rol oynayır. O, sosializmdən fərqli olaraq (sosializmdə qiymət siyasəti qiymətin əmələgəlməsinin bazar mexanizmini bütövlükdə inkar edərək planlı qiymətləri qəbul edirdi) bazar sistemli ölkələrdə təsərrüfatçılığın bazar mexanizminə fəal təsir göstərən bir amil kimi çıxış edir. Bazar

downloaded from KitabYurdu.org

şəraitində qiymətlərin kortəbii formalaşması haqqında təsəvvürlərin tamamilə əleyhinə demək olar ki, bütün inkişaf etmiş ölkələrdə qiymət dövlətin diqqət mərkəzində saxlanır və müxtəlif alətlərdən istifadə etməklə tənzimlənir. Qiymət iqtisadi və sosial siyasi həyatın ən ziddiyyətli nöqtəsi olduğundan burada istehsalçı və istehlakçıların, topdan satış və pərakəndə satışla məşğul olanların, həmkarlar təşkilatları ilə müəssisələr birliyinin, idxalçılarla ixracat ilə məşğul olanların mənafeləri toqquşur. Ona görə də iqtisadiyyat üçün bu dərəcədə əhəmiyyətli olan bir problemin (qiymət problemi) dövlətin diqqət mərkəzindən kənarda qalması istehsal sahələri arasında mənafelərin toqquşmasına səbəb olar, bu isə milli iqtisadiyyat miqyasında xaosa gətirib çıxarar. Dövlət qiymət siyasəti vasitəsi ilə hər şeydən əvvəl konyuktura və struktur siyasətinə, inflyasiyaya, milli istehsalın rəqabət qabiliyyətliliyinin artırılmasına və ən əsas isə sosial gərginliyin zəiflədilməsinə təsir göstərir. İqtisadi inkişafın konkret mərhələlərində qiymət siyasəti çevik və dəyişkən olsa da əsas bir məqsədə, iqtisadi inkişaf sisteminin sabitləşdirilməsinin təmin edilməsinə istiqamətlənir.

Bu gün Azərbaycan iqtisadiyyatının quruluşu qiymətlərin uyğunsuzluğu ilə səciyyələnir. Kənd təsərrüfatı məhsullarının qiymətlərinin sənaye məhsullarına nisbətən aşağı olması və onun qiymətinin (maya dəyəri başa düşülür) böyük bir hissəsinin sənaye mənşəli olması aqrar bölmədə sahibkarlıqla məşğul olmağa marağı azaldır. Təbii ki, burada dövlətin qiymət siyasəti çevik tətbiq edilməzsə kənd təsərrüfatı istehsalının dirçəlməsindən söhbət gedə bilməz. Bu məqsədlə Azərbaycan dövləti 2006-2007-ci təsərrüfat ilində kəndli-fermer təsərrüfatlarını güzəştli qiymətlərlə (50%) yanacaqla və digər texniki və kimyəvi preparatlarla təmin etmişdir. Yəqin ki, 2007-ci ilin nəticələrində bü güzəştlər özünü qabarıq şəkildə göstərəcək, k/t məhsullarının yüksək artım tempi təmin ediləcək. Çünki əvvəlki illərdə yanacağın bahalığı üzündən hətta bir qrup kənd təsərrüfatı əməkçilərinin torpaqlarını əkib-becərmək imkanı belə olmamışdır.

downloaded from KitabYurdu.org

Məlumdur ki, dünya bazarında məhsulların rəqabətqabiliyyətliliyini müəyyən edən mühüm amillərdən biri də qiymətdir. Yüksək qiymətli məhsullar o qədər də rəqabət qabiliyyətli olmur. Baxmayaraq ki, məhsulların qiymətinin əsas hissəsi obyektiv olaraq məsrəflərə uyğun formalaşır, dövlət mütləq müxtəlif təsir vasitələrindən istifadə etməklə qiymətin əmələgəlməsini nəzarətdən buraxmamalıdır. Bu nəzarət hər şeydən əvvəl qiymətin əmələgəlməsinə dövlət orqanları tərəfindən müşahidə ilə başlayır. Müxtəlif ölkələrdə qiymətin əmələgəlməsi müxtəlif dövlət orqanlarının diqqət mərkəzində saxlanılır. Bizim ölkəmizdə də İqtisadi İnkişaf Nazirliyinin tərkibində qiymətlə bağlı dövlət qurumları fəaliyyət göstərir. Bu qurumlar qiymətin əmələgəlməsi ilə əlaqədar elmi araşdırmalar aparır və qiymət mexanizmində əmələ gələn bu və ya digər uyğunsuzluğu aradan qaldırmaq məqsədi ilə hökumət qarşısında konkret təkliflərlə çıxış edir. Bu təkliflər hər şeydən əvvəl dövlət səviyyəsində inflyasiyanın cilovlanması, qiymətin yüksəlməsinin qarşısının alınması nəticəsində sosial gərginliyin zəiflədilməsi məqsədi güdür. Məqsəd burada inflyasiyanın mexanizmini açmaq olmasa da onun bütövlükdə iqtisadiyyata vurduğu sarsıdıcı zərbə baxımından diqqət mərkəzindən kənarda qalmamasıdır. Keçid dövrünün ilkin mərhələsində inflyasiya nəticəsində qiymətin baş alıb getməsi ilə istehsalçıların maraqları tamamilə öldürülmüş, əhalinin böyük əksəriyyəti isə var-yoxdan çıxmışdı. Proseslərin bu cür getdiyi ölkələrin təcrübəsindən Azərbaycan dövləti də istifadə edərək inzibati metodlara əl ataraq bir sıra məhsulların qiymətlərini dondurmuş, inflyasiyanın vurduğu ziyanın nəticələrini yumşaltmaq məqsədi ilə isə indeksləşmə haqqında qanun qəbul etmişdir (125). Doğrudur, dövlətin maliyyə imkanlarının məhdudluğu hələlik bu qanunun çevik işləməsinə imkan vermir.

Qiymətin dövlət tənzimlənməsinin mühüm istiqamətlərindən biri də birbaşa deyil, dolayısı ilə dövlətin müdaxiləsi formasında həyata keçirilir. Məsələn, dövlət orqanlarının

downloaded from KitabYurdu.org

amartizasiya silinmələrinin məhsulun maya dəyərinə daxil etməyə icazə verməsi istər-istəməz qiymətin yüksəlməsinə, istehsal xərclərinin qiyməti qabaqlamasına gətirib çıxarır. Yaxud, dövlət orqanları müəyyən qrup müəssisələrin məhsullarının daimi alıcısı və sifarişçisi kimi çıxış etdiyindən qarşılıqlı razılıq əsasında «konkret qiymətlər» qoyulur ki, bu da eyni fəaliyyət növü ilə məşğul olan müəssisələr üçün baza qiyməti rolunu oynayır.

Bütün ölkələrdə olduğu kiimi, Azərbaycan dövləti də aksiz malları deyilən məhsullara qiymət qoymaqla qiymətin əmələgəlmə mexanizminə bir başa təsir göstərir. O, həmçinin əlavə dəyər vergisindən qiymətin səmərəli tənzimlənməsi vasitəsi kimi də istifadə edir. İstehsalçılar bu vergini məhsul və xidmətin qiymətinə bir başa daxil etməklə qiymətin əmələ gəlməsinə bilavasitə təsir göstərirlər.

İqtisadiyyatın bu və ya digər sahəsinin məhsullarına orta müddətli dövr üçün dövlət tərəfindən möhkəm (fiksasiya olunmuş) qiymətlərin qoyulması qiymətin dövlət tənzimlənməsinin mühüm istiqamətlərindən olub daha çox iqtisadi inkişaf səviyyəmizə uyğun gəlir. Bu müəssisələr əsasən inhisarçı müəssisələr olduğundan (Azərenerji, Abşeron Su Səhmdar cəmiyyətləri, poçt-telefon, Bakkanalizasiya və s.) qiymətqoyma sahəsindəki sərbəstlikləri qiymətlərin əsaslandırılmamış şəkildə yüksəldilməsinə gətirib çıxarar.

Bütün bu araşdırmalar bir daha göstərir ki, iqtisadi inkişafın bazar mexanizmi nəinki dövlət tənzimlənməsini istisna edir, hətta müasir sivilizasiyalı bazar sistemli ölkələrdə kifayət dərəcədə mükəmməl dövlət tənzimlənməsi olmadan iqtisadi inkişafın yüksək tempinə nail olmağın qeyri-mümkünlüyünü göstərir. Ona görə də Azərbaycanda milli müstəqil iqtisadiyyatın yaradılması bazar mexanizmi ilə dövlət tənzimlənməsinin qarşılıqlı fəaliyyətinin optimal nisbətinin yaradılmasından çox asılıdır.

downloaded from KitabYurdu.org

## 4.2. Makroiqtisadi sabitliyin təmin edilməsinində bazar mexanizmi və dövlət tənzimlənməsinin nisbəti

Sosializmin mövcudluğu dövründə uzun müddət belə hesab edilmişdir ki, sosialist iqtisadiyyatı sabit inkişaf edir və guya o, hər cür təsadüfdən sığorta olunduğuna görə kənar amillərin təsirinə məruz qalmır. Bu dediklərimizi də təsdiqləmək üçün həmişə SSRİ-nin mövcudluğu dövründə iqtisadi inkişafın sabit yüksək artım tempinə əsaslanmışıq. Baxmayaraq ki, ayrı-ayrı dövrlərdə (ikinci dünya müharibəsi illəri, 60-cı illərin ortaları və nəhayət 80-cı illərdə) ölkənin iqtisadi inkişafında ağılagəlməz dərəcədə çətinliklər yaranmış, əksər istehsal sahələrində istehsalın həcmi kəskin şəkildə aşağı düşmüş, əhalinin həyat səviyyəsi pisləşmiş, amma bu səbəbləri və aradan qaldırılması yollarını araşdırılmasının əvəzinə ya bu problemlər görməməzliyə vurulub, ya da kosmetik tədbirlərlə ört-basdır etməyə çalışılmışdır. Kapitalizmlə ideoloji yarışda «biabır olmayaq» prinsipinə əməl edərək qeyri-sabit inkişafın sosializmə yad olduğu iddia edilmişdir. Lakin elə dünyəvi iqtisadi problemlər var ki, heç bir ölkə, hətta dünyanın ən inkişaf etmiş ölkələri (ABŞ, Yaponiya, Almaniya, Fransa, İngiltərə və s.) belə öz iqtisadi inkişaflarında bu problemlərin yaranmasının qarşısını ala bilmirlər. Bu problemlərin mühümlərindən biri də iqtisadi inkişafın qeyri-sabitliyidir. ABŞ iqtisadiyyatı böyük durğunluq illərində (1929-1933-cü illər), Avropa ölkələri İkinci Dünya müharibəsi illərində və 70-ci illərdə iqtisadi inkişafın qeyri-sabitliyinin bütün ağırlığını tam gücü ilə öz üzərlərində hiss etmişlər.

Hal-hazırda keçmiş SSRİ-nin iqtisadiyyatının müxtəlif dövrünü araşdıran iqtisadçılar bu qənaətə gəlirlər ki, sosializm üçün iqtisadi inkişafın qeyri-sabitliyini qəbul etməmək obyektiv iqtisadi təhlilə deyil, ideoloji mənafelərdən irəli gəlirmiş. Tarix göstərir ki, sosializmə və o cümlədən də SSRİ iqtisadiyyatına dünya təsərrüfatın bərabər hüquqlu bir üzvü

downloaded from KitabYurdu.org

kimi uzunmüddətli dövr üçün (30-40 il) iqtisadi inkişafın qeyri-sabitliyi xasdır. Hətta, 70-ci illərin axırlarında «Ərzaq Proqramı» deyilən bir proqram qəbul edilərkən onun qıtlıqdan deyil, iqtisadi inkişafın qeyri-sabitliyindən deyil, resurslardan səmərəli istifadə zərurətindən irəli gəldiyini iddia edənlər belə öz yalanlarına inanmırdılar.

Azərbaycan da sosializmin mövcudluğu dövründə SSRİ-nin tərkibində olduğundan və vahid dövlət aparatının bütövlükdə iqtisadiyyata qeyri-məhdud müdaxilə səlahiyyəti Azərbaycan iqtisadiyyatın da nəinki obyektiv iqtisadi inkişafın nəticəsi olaraq qeyri-sabitliyə gətirib çıxarırdı, hətta subyektivizmin təsiri altında bu qeyri-sabitlik daha da güclənirdi. Azərbaycan iqtisadiyyatının obyektiv inkişaf tələblərini nəzərə almadan nə istehsal etmək və nə qədər istehsal etmək mərkəzi hökumət orqanları tərəfindən müəyyənləşdirildiyindən milli maraqlara heç bir məhəl qoyulmurdu. Respublikamızda SSRİ-nin strateji maraqlarına uyğun gələn məhsullar istehsal etdiyimizdən /neft, pambıq, tütün və s./ əksər ərzaq məhsullarına (taxıl, ət, süd və süd məhsulları və s.) tələbatımızı idxal yolu ilə ödəmək məcburiyyətində qalırdıq. SSRİ-nin mövcudluğu dövründə o qədər də əhəmiyyət kəsb etməyən bu məsələ milli müstəqilliyimizin ilkin dövrundə mərkəzi dövlətin iyrənc daxili iqtisadi siyasətinin iç üzünü bütün çılpaqlığı ilə açıb göstərdi. Yeni yaranmış (müstəqillik əldə etmiş) müstəqil dövlət ən ağrılı problemlərdən biri olan ərzaq problemi ilə təkbətək qaldı. Bütün sahələrdə hələ SSRİ-nin mövcudluğu dövründən başlayan istehsalın aşağı düşməsi təhlükəli bir həddə gəlib çatdı. Müstəqilliyimizin ilk illərində iqtisadiyyatı «qıtlıq» böhranı iflic vəziyyətə salmışdı. Qeyri-sabit iqtisadi inkişafın bütün səciyyəvi cəhətləri milli iqtisadiyyatdan irəli gələn xüsusiyyətlərlə birlikdə Azərbaycan iqtisadiyyatını çulğalamışdı. Ümumi daxili məhsul 1993-1994-cü illərdə 1985-ci ilin 25%-i səviyyəsinə qədər enmişdir. Müstəqilliyimizin ilk illərində ənənəvi təsərrüfat əlaqələrinin qırılması, müəssisələ-

downloaded from KitabYurdu.org

rin fəaliyyətini tamamilə, yaxud da qismən dayandırması ÜDM istehsalının kəskin şəkildə aşağı düşməsinə gətirib çıxarmışdı. Təbii ki, bütün bu amillər yenicə müstəqillik əldə etmiş Azərbaycan Respublikasında təkrar istehsal prosesinə öz təsirini göstərməyə bilməzdi. «Keçidin ilkin pilləsinin sonunda (1994) respublikamızın iqtisadiyyatı biri-biri ilə çox zəif təkrar istehsal əlaqəsi olan təxminən aşağıdakı bölmələrə parçalandı: dövlət himayəsində olan ənənəvi sənaye sahələri; maliyyə kapitalı; yeni yaranan kiçik və orta müəssisələr. Əlbəttə, bu cür bölgü bir növ nisbi xarakter daşıyırdı, çünki, islahatlar dərinləşdikcə, böhran mərhələsindən sabitləşmə mərhələsinə keçidikcə müvafiq olaraq qeyd olunan bölmələrin ümumi iqtisadiyyatın strukturundakı nisbəti də dəyişirdi» (37,s.144-145).

Bazar iqtisadiyyatının hüquqi bazasının yaradılması və bu hüquqi baza əsasında iqtisadi islahatların tədricən reallaşması, nəticədə bazar mexanizminin fəaliyyətinə əlverişli şəraitin yaradılması makroiqtisadi sabitləşdirmənin əsas göstəricilərindən olan ÜDM-in artımında özünü qabarıq şəkildə göstərir.

Professor N. Müzəffərli yazır: «İqtisadi artımın sürəti özlüyündə kifayət dərəcədə mürəkkəb anlayışdır və fərqli göstəricilər toplusu ilə ölçülə bilər. Onlar arasında ən universalı ümumdaxili məhsulun artım tempidir». (95, s.171) (2006-cı ildə ÜDM-un artım tempi 36% olmuşdur).

**Cədvəl 4.2**

**Azərbaycanda ümumi daxili məhsul (bazar qiymətləri ilə) (22, s.365)**

| İllər | (mlyn. ABŞ dolları) (cəmi) | Adambaşına $ | **Cəmi mlyn. manat** | **1$=manat** |
|---|---|---|---|---|
| 1990 | 2443,3 | 346,3 | 1,5 | 0,6 |
| 1991 | 703,1 | 98,3 | 2,7 | 3,8 |
| 1992 | 1309,8 | 180,4 | 24,1 | 18,4 |
| 1993 | 1326,9 | 179,9 | 157,1 | 118,4 |

downloaded from KitabYurdu.org

| | | | | |
|---|---|---|---|---|
| 1994 | 1629,3 | 217,9 | 1873,4 | 1149,8 |
| 1995 | 2415,2 | 319,3 | 2133,8 | 0,8835 |
| 1996 | 3180,8 | 416,2 | 2732,6 | 0,8591 |
| 1997 | 3960,9 | 513,2 | 3158,3 | 0,7974 |
| 1998 | 4446,6 | 570,6 | 3440,6 | 0,7738 |
| 1999 | 4583,6 | 583,0 | 3775,1 | 0,8236 |
| 2000 | 5272,6 | 665,0 | 4718,1 | 0,8948 |
| 2001 | 5707,8 | 714,3 | 5315,6 | 0,9313 |
| 2002 | 6235,9 | 774,4 | 6062,5 | 0,9772 |
| 2003 | 7276,0 | 896,8 | 7146,5 | 0,9822 |
| 2004 | 8680,4 | 1060,3 | 8530,2 | 0,9827 |
| 2005 | 12553,5 | 1517,7 | 11875,6 | 0,9460 |

Müstəqilliyimizin ilk ilində /1991-ci il/ 1990-cı illə müqayisədə ÜDM 3 dəfə (4.2) aşağı düşmüşdür. ümumi daxili məhsulun aşağı düşmə meyli uzun müddət davam etməsə də 1990-cı ilə nisbətən artıma yalnız 1996-cı ildən başlanılmışdır. ÜDM-in hətta nominal olaraq 1990-1995-ci illərdə (rubl və manatla müqayisədə) artımı müşahidə olunsa da real olaraq 1995-ci ildə ÜDM-də 1990-cı ilin səviyyəsi əldə edilmişdir. (uyğun olaraq 2443,3$, 2415,2$) 1990-cı illə müqayisədə 2005-ci ildə ÜDM-in 5 dəfə artımına nail olunmuşdur ki, bu da sabitləşdirmə proqramı vasitəsi ilə makroiqtisadi sabitliyin təmin olunmasına gətirib çıxarmışdır. Bu sabitliyin təmin olunmasının mümkün məqamlarını araşdırmazdan əvvəl dünyanın inkişaf etmiş ölkələrində makroiqtisadi qeyri-sabitliyin nəzəri problemlərinə diqqət verək.

Dünya ölkələrinin iqtisadi inkişafı üçün səciyyəvi olan qeyri-sabitliyin Azərbaycan iqtisadiyyatı üçün yad olmadığını nəzərə alaraq makroiqtisadi qeyri-sabitliyin nəzəri və praktiki problemlərinin öyrənilməsi və araşdırılması mühüm əhəmiyyət kəsb edir.

Cəmiyyətin iqtisadi inkişaf qanunauyğunluqlarını araşdıran iqtisadçılar nəticə etibarı ilə bu qənaətə gəlmişlər ki, uzun tarixi dövrlər üçün inkişaf yüksələn xətt üzrə getsə də heç də bu yüksəliş sabit, tərəddüdsüz olmur. İstənilən ölkənin

downloaded from KitabYurdu.org

iqtisadi inkişafının səciyyəvi cəhətlərindən biri də qeyri-sabitlikdir. Qeyri-sabit iqtisadi inkişaf ən sadə mənada bazar mexanizminin elementləri olan tələb və təklifin müxtəlif formada uyğunsuzluğudur. İqtisadi inkişafın qeyri-sabitliyinin araşdırılması, qanunauyğunluqlarının açılıb göstərilməsi X1X əsrin ortalarından başlayaraq bu günədək dünyanın məşhur iqtisadçılarının diqqət mərkəzində olmuşdur. Belə ki, A.Şpitqof, K.Marks, U.Mitçel, C.Klark. C.M.Keyns, İ.Şumpeter, N.Kondratyev, C.Kitçin və başqaları iqtisadi inkişafın qeyri-sabitliyini araşdırmağa və onun qanunauyğunluqlarını açıb göstərməyə çalışmışlar (26,s.290-291).

Təbii ki, onların tədqiqatlarında makroiqtisadi sabitliyin təmin edilməsi bu və ya digər ölkənin iqtisadi inkişaf səviyyəsinə uyğun həyata keçirilməsi zəruri olan tədbirlərin, bazar mexanizmi və iqtisadiyyatın dövlət tənzimlənməsinin real gerçəklikdən irəli gələn xüsusiyyətlərinin seçilib qruplaşdırılması tövsiyə olunur. Ona görə də Azərbaycan Respublikasında makroiqtisadi sabitliyin təmin edilməsi klassik təcrübəyə əsaslanmaqla real gerçəklikdən irəli gələn xüsusiyyətləri də nəzərə almalıdır. Rus iqtisadçısı S. Babiçev keçid iqtisadiyyatı dövründə hər bir ölkənin xüsusiyyətlərini nəzərə almaqla makroiqtisadi qeyri-sabitliyin aradan qaldırılmasının aşağıdakı ümumi amillərini müəyyənləşdirmişdir:

-iqtisadiyyatın ekoloji cəhətdən balanslaşdırılmış yenidən qurulması və innovasiyanın inkişaf etdirilməsi;

-vergi, kredit, subsidiya, tarif və rüsumların bir-birini inkar etməyən sisteminin yaradılması;

-təbii ehtiyatlara mülkiyyət hüququnun dəqiq müəyyənləşdirilməsi;

-keçid dövrünün mərhələlərinə uyğun özəlləşdirmə mexanizminin təkmilləşdirilməsi;

-xammal ixracından hazır məhsul ixracına keçmək (28.s.50).

Bu ümumi prinsiplərə əməl edilməsi Azərbaycan Res-

downloaded from KitabYurdu.org

publikasında da makroiqtisadi qeyri-sabitliyin aradan qaldırılmasına real təsir göstərər.

Dünya təcrübəsinin, o cümlədən də yeni müstəqillik əldə etmiş bazar iqtisadiyyatına keçən ölkələrin təcrübəsinin öyrənilməsi göstərir ki, makroiqtisadi sabitliyin təmin edilməsi ona əhəmiyyətli dərəcədə təsir göstərən daxili və xarici amillərlə yanaşı iqtisadi inkişaf modelinin sosial təyinatından da çox asılı olur. Azərbaycan gerçəkliyinə uyğun gələn inkişaf modelinin seçilməsi qeyri-sabitliyin daxili və xarici amillərinin təsirini milli maraqlara uyğunlaşdırmaqla (bəzən neytrallaşdırmaqla), iqtisadiyyatın dövlət tənzimlənməsi ilə bazar mexanizminin optimal nisbətini formalaşdırmaqla makroiqtisadi sabitliyə nail olmaq mümkündür.

Alimlər iqtisadi inkişafın qeyri-sabitliyinə təsir göstərən daxili və xarici amilləri aşağıdakı kimi qruplaşdırırlar:

1. Xarici amillər:
   - müharibə, inqilab və digər siyasi sarsıntılar;
   - qızıl, uran, neft və digər resursların nəhəng yataqlarının kəşfi;
   - yeni ərazilərin mənimsənilməsi və bununla əlaqədar əhalinin miqrasiyası, yer kürəsinin əhalisinin sayında tərəddüdlər;
   - ictimai istehsalın strukturunu dəyişə biləcək texnoloji yeniliklər, ixtiralar və innovasiya.

Makroiqtisadi qeyri-sabitliyin xarici amilləri keçid dövründə Azərbaycan iqtisadiyyatı üçün səciyyəvi olmuşdur. Xüsusi ilə müharibə amili nəinki ölkənin bütün iqtisadi potensialının hərəkətə gətirilməsinə imkan verməmişdir, hətta işğal zonasındakı resurslarımız daşınıb aparılmış (qızıl yataqları, mərmər ehtiyatlarımız, mineral sular, qiymətli meşə materialları, əhalinin əmlakı, və s.) və yaxud da vəhşicəsinə məhv edilmişdir.

Qeyri-sabitliyin digər amili olan yeni təbii ehtiyatlar yatağının kəşfi və istismara verilməsi, sözün müsbət mənasında

downloaded from KitabYurdu.org

iqtisadi inkişafımıza təkan verən qüvvəyə çevrilmişdir. Xəzərin Azərbaycan sektorunda xarici investorların cəlb olunması yolu ilə neft istehsalının artırılması, yeni texnologiyanın gətirilməsi daha çox dərinlikdən neft və qaz hasil etməyə imkan vermişdi. Həmçinin, yeni iqtisadi sistemə keçidlə əlaqədar struktur siyasətinə uyğun olaraq struktur dəyişikliyi həyata keçirilməkdədir ki, bu da iqtisadiyyatımızın mütərəqqi, səmərəli quruluşunun formalaşdırılmasına gətirib çıxarır.

2. Daxili amillər.

- əsas kapitalın fiziki xidmət müddəti;
- şəxsi istehlakın artımı və azalmasının istehsalın həcminə və məşğulluğa təsiri;
- əsaslı vəsait qoyuluşunun genişlənməsi, yaxud istehsalın genişləndirilməsinə, modernləşdirilməsinə, yeni iş yerlərinin açılmasına vəsait qoyuluşu;
- istehsala, tələbata və istehlaka birbaşa və dolayısı ilə dövlətin iqtisadi siyasətinin təsiri.

Azərbaycan iqtisadiyyatı qeyri-sabitliyin daxili amillərinin təsirindən də kənarda qalmamışdır. Daxili amillərdən biri olan əsas kapitalın fiziki xidmət müddəti Azərbaycan iqtisadiyyatının böhranlı vəziyyətə düşməsinin başlıca səbəblərindən olmuşdu. Azərbaycan sənayesinin flaqmanı sayılan neft sənayesi və kimya sənayesinin əsas kapitalı ömür müddətini çoxdan başa vurmuş, heç bir tələbatı ödəyə bilməyəcək məhsul istehsalı səviyyəsinə gəlib çıxmışdı. Dünya standartları baxımından bu məhsulları məhsul adlandırmaq belə olmaz. Azərbaycanın dünyaya açılması ilə bütün bu müəssisələr öz fəaliyyətlərini dayandırdılar. Şəxsi istehlakın artması və ya azalması Azərbaycan iqtisadiyyatında tamamilə fərqli formada təzahür etmişdi. Şəxsi istehlak daha çox passiv mövqe tuturdu. O, istehsalı stimullaşdırmaq funksiyasını yerinə yetirə bilmirdi. Onun özünün ödənilməsi aşağı düşən gəlirlərin səviyyəsindən və idxaldan asılı idi. Əsaslı vəsait qoyuluşunun daxili mənbələr hesabına həyata keçirilməsi çox məhdud idi,

downloaded from KitabYurdu.org

xarici investisiyanın cəlb olunmasına üstünlük verilirdi. Bu amillər arasında dövlət siyasəti əhəmiyyətli rol oynayır. Dövlət siyasəti vasitəsi ilə bu amillərin uzlaşdırılması qeyri-sabitliyin yumşaldılmasına istiqamətlənir. Makroiqtisadi qeyri-sabitliyin xarici və daxili amillərinin məhdudlaşdırılması hər bir ölkənin iqtisadi inkişaf səviyyəsinə uyğun olaraq reallaşdırıla bilər. İnkişaf etmiş ölkələr üçün iqtisadiyyatın dövlət tənzimlənməsi səciyyəvi olduğundan qeyri-sabitliyin aradan qaldırılması ilə makroiqtisadi sabitliyə nail olunması bazar mexanizmi və iqtisadiyyatın dövlət tənzimlənməsinin səmərəliliyindən əhəmiyyətli dərəcədə asılıdır. Azərbaycan Respublikasında keçid dövründə makroiqtisadi qeyri-sabitliyi doğuran obyektiv və subyektiv amillərin, bütövlükdə makroiqtisadi göstəricilərin tədqiqi göstərir ki, Azərbaycanın məhz özünəməxsus sabitləşdirmə proqramı olmalı və bu proqram makroiqtisadi göstəricilərlə yanaşı mikro göstəriciləri də diqqət mərkəzində saxlamalıdır. Mikroiqtisadiyyatın bazar mexanizminin fəaliyyəti genişləndikcə makrosəviyyədə iqtisadiyyatın dövlət tənzimlənməsinin miqyası da genişlənməlidir. Bazar mexanizminin törədə biləcəyi neqativ hallar dövlət tənzimlənməsi vasitəsilə məhdudlaşdırılmalıdır.

İqtisadçıların böyük əksəriyyəti hesab edirlər ki, iqtisadiyyatın qısamüddətli və uzunmüddətli dövrlər üçün inkişafını fərqləndirən başlıca cəhət həmin dövrlər üçün bazar mexanizminin elementlərindən olan qiymətlərin dinamikasındakı dəyişikliklərdən ibarətdir. Uzunmüddətli dövrlər üçün qiymətlər daha çevik olduqları üçün tələb və təklifin dəyişməsini çox tez özündə əks etdirirlər. Ancaq qısamüddətli dövrlər üçün əksər malların qiymətləri müəyyən səviyyədə «dondurulmuş» şəkildə olur. Qısamüddətli dövrdə qiymətlər özünü uzunmüddətli dövrdə olduğu kimi apara bilmədiyi üçün vaxt amilindən asılı olaraq iqtisadi siyasətin nəticələri müxtəlif olur. Bu problemi araşdırmaq üçün fərz edək ki, Milli Bank tərəfindən pul təklifi müəyyən nisbətdə azaldılıb.

downloaded from KitabYurdu.org

Uzunmüddətli dövrdə iqtisadi fəaliyyəti ətraflı izah edən klassik modelə uyğun olaraq pul təklifi həcmi real göstəricilərə deyil, nominal göstəricilərə, daha doğrusu pul ifadəsində göstəricilərə təsir göstərir. Buna görə də uzunmüddətli dövrdə pul təklifinin azaldığı nisbətə uyğun bütün əmtəə kütləsinin (nominal əmək haqqı da daxil olmaqla) qiymətləri aşağı düşə bilər. Lakin real əmək haqqı, işsizliyin səviyyəsi və istehsalın həcmi dəyişməz qalacaq. Qısamüddətli dövrdə əksər malların qiymətləri pul siyasətinə o qədər də həssas deyildir. İqtisadi tərəddüdlər modeli qısamüddətli dövrdə qiymətlərin qeyri-çevikliyini nəzərə almalıdır. Qiymətlərin çevik olmadığı hallarda da klassik modelə görə istehsalın həcmində dəyişiklik baş verə bilər. Klassik modelə görə istehsal olunmuş məhsulun kəmiyyət miqdarı əmək məsrəfləri və kapitaldan, mövcud texnika və texnologiyadan asılıdır. Həm də klassik modelə görə qiymətdə dəyişiklik tələb kəmiyyətinin təklifin həcminə uyğunluğunu təmin edir.

Beləliklə, müxtəlif amillərin, o cümlədən qiymətlərin (çevik, qeyri-çevik qiymətlərin) təsiri altında məcmu tələb və məcmu təklifdə baş verən dəyişikliklər (uyğunsuzluqlar) prinsipial olaraq qısamüddətli və uzunmüddətli dövrlərdə iqtisadi inkişafın qeyri-sabitliyini əks etdirir. Makroiqtisadi qeyri-sabitlik iqtisadiyyatın bütün sahələrinə nüfuz edir. Lakin nəzərə almaq lazımdır ki, iqtisadi inkişafın qeyri-sabitliyi ayrı-ayrı fərdlərə və iqtisadiyyatın bölmələrinə fərqli təsir göstərir. İqtisadi inkişafın qeyri-sabitliyinin təsirinə ağır sənaye sahələrinə nisbətən qısamüddətli istifadə üçün istehlak malları istehsal edən sahələr daha az məruz qalır.

İqtisadi inkişafın qeyri-sabitliyi Azərbaycan üçün də səciyyəvidir. Azərbaycanın iqtisadi inkişafındakı qeyri-sabitlik bir sıra ümumi amillərin təsiri altında baş versə də müəyyən özünəməxsus xüsusiyyətlər kəsb edir. Azərbaycan qısa bir tarixi dövrdə bir sıra taleyüklü məsələləri eyni vaxtda həll etmək məcburiyyətində qalıb. Bir tərəfdən Azərbaycan siyasi müstə-

downloaded from KitabYurdu.org

qillik əldə edib bazar iqtisadiyyatına keçid dövrünü yaşayır, digər tərəfdən zorla müharibəyə cəlb edilib. Siyasi müstəqillik əldə etmiş hər bir ölkə kimi Azərbaycan da bütün resurslarını milli iqtisadiyyatın formalaşdırılmasına, ölkənin iqtisadi inkişafının təmin edilməsinə yönəltmişdir. Zorla cəlb olunduğumuz müharibə isə ərazimizin bir hissəsinin qəsb olunması və həmin ərazilərdəki milli sərvətlərimizin məhv olunması nəticəsində iqtisadi potensialımızın inkişafımıza tam cəlb olunmasına imkan vermir.

Makroiqtisadi qeyri-sabitliyin səbəblərindən biri də struktur böhranıdır. Yeni iqtisadi sistemə keçidlə əlaqədar olaraq Azərbaycan iqtisadiyyatında da struktur böhranları baş vermişdir. Struktur böhranları iqtisadiyyatın ayrı-ayrı sahələri arasında uyğunsuzluqlar yaradır, uzunmüddətli xarakter daşıyır və heç də tsiklik böhranın başlanması ilə üst-üstə düşmür.

Keçid iqtisadiyyatı ölkələrində struktur böhranları inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdəki struktur böhranlarından keyfiyyətdə kifayət dərəcədə fərqli cəhətləri özündə əks etdirir. Bu ölkələrdəki struktur böhranı daha çox iqtisadiyyatın qeyri-səmərəli quruluşunun formalaşmasından irəli gəlirdi. SSRİ xalq təsərrüfatı kompleksinin maraqlarına uyğun formalaşmış Azərbaycan iqtisadiyyatının quruluşu milli müstəqil ölkənin maraqlarına cavab vermədiyindən təbii ki, böhranla qarşılaşmışdır. Bu böhranın aradan qaldırılması dövlətdən düşünülmüş struktur siyasətinin işlənib hazırlanmasını tələb edirdi. SSRİ-nin tərkibində olduğu dövrdə formal da olsa Azərbaycan iqtisadiyyatının müəyyən quruluşu formalaşmışdı. Bu quruluşda neft, neft maşınqayırma, neft-kimya sənayesi və kənd təsərrüfatı istehsalı üstünlük təşkil edirdi. Neft-kimya sənayesinin texnoloji cəhətdən dünya standartlarından geri qalması keçid dövründə kimya sənayesinin və neft avadanlıqları istehsal edən müəssisələrin ümumiyyətlə iflasa uğraması ilə nəticələnmişdir. Kənd təsərüfatının SSRİ dövründə aparıcı sahələri olan pambıqçılıq, tütünçülük,

downloaded from KitabYurdu.org

üzümçülük tamamilə sıradan çıxmaq təhlükəsi ilə qarşılaşmışdır. Bu gün Azərbaycanın dünya birliyinə inteqrasiyası tələb edir ki, inkişaf etmiş ölkələrin iqtisadi inkişafına istiqamətlənmiş milli iqtisadi struktur formalaşdırılsın. Bu milli iqtisadi struktur ÜDM-də maddi nemətlərin mütləq artımına əlverişli şərait yaratmaqla, elmtutumlu sahələri inkişaf etdirməli, iqtisadi inkişafın əsas göstəricilərindən xidmət sferasının inkişafını stimullaşdırsın.

Müasir dünyada əsas struktur böhranları olan neft, enerji, xammal, ərzaq böhranları ilə yanaşı son dövrlər qeyri-sabit inkişafa gətirib çıxaran maliyyə böhranları da geniş vüsət almışdır. Məsələn, Asiya regionunda 1997-1998-ci illərin maliyyə böhranları bir sıra ölkələrin pul-kredit sisteminə sarsıdıcı zərbə vurmuşdur. Rusiyanın iqtisadi həyatında 17 avqust 1998-ci il böhranı isə ölkənin pul – kredit sisteminin əsaslarını sarsıtmaqla yanaşı, onun dünya maliyyə bazarında nüfuzunun düşməsinə, beynəlxalq maliyyə təşkilatlarının yardımından məhrum olmasına gətirib çıxarmışdır. Son illər struktur böhranları daha mürəkkəb xarakter alır. Dünyada baş verən qlobal siyasi proseslər, vahid Avropa evinin yaradılması, dünya sosialist təsərrüfat sisteminin dağılması, regional və millətlərarası münaqişələr struktur böhranlarına qabarıq şəkildə öz təsirini göstərir. Bu proseslərin təsiri altında ənənəvi xammal bazarlarında dəyişiklik baş verir, bazar sisteminə yeni keçən ölkələrdəki hiper inflyasiyanın təsiri altında dünya bazarında, valyuta sistemində dəyişiklik təhlükəli həddə çatır, ekoloji proseslərə nəzarətsizlik güclənir ki, bunlar da struktur böhranlarının kəskinləşməsinə səbəb olur.

Keçid iqtisadiyyatı ölkələrində struktur böhranlarının dərinləşməsi, kapitalın hissələrinin dəyər və qiyməti nisbətlərinin dəyişməsi, istehsal xərclərinin quruluşunun deformasiyası, əmək məhsuldarlığının artım tempindəki nəzərə çarpacaq ləngimələr, dünya bazarındakı rəqabət mübarizəsinin kəskinləşməsi və digər amillər bütövlükdə iqtisadiyyatın, o cümlədən də sənayenin quruluşunun intensiv şəkildə yenidən qurulmasını zəruri edir.

downloaded from KitabYurdu.org

Böyük kapital qoyuluşu tələb edən sənayenin inkişafının müasir mərhələsi elektron texnikası, sənaye robotları və resurs qoruyucu texnologiya əsasında maddi istehsalın texniki cəhətdən yenidən silahlanmasını tələb edir. Bütövlükdə iqtisadiyyatın yeni texnoloji əsasa keçirilməsi maddi istehsalda köklü dəyişikliklərə səbəb olmaqla yanaşı sənayedə maşınqayırmanın rolunun artdığını göstərir. 70-ci illərin sonu, 80-cı illərin əvvəllərindən başlayaraq inkişaf etmiş ölkələrdə maşınqayırma müəssisələrinin avtomatlaşdırılmasının səviyyəsini yüksəltmək üçün maşınqayırma müəssisələrinin özünün texniki cəhətdən yenidən silahlandırılması həyata keçirilmişdir. Bütün bu tədbirlər struktur böhranlarının və bütövlükdə iqtisadi böhranların iqtisadiyyata vurduğu dağıdıcı zərbələrin nəticələrinin zəiflədilməsinə yönəldilib. Böhranlar hansı formalarda baş vermələrindən asılı olmayaraq bütövlükdə iqtisadiyyatda tənəzzülə gətirib çıxarır. Bu tənəzzül iqtisadi sistemlərin dəyişdiyi şəraitdə isə daha dağıdıcı olur. Bütün bunları nəzərə alaraq Ə.Allahverdiyev yazır: «Tənəzzül qanunauyğun proses olmasına baxmayaraq, onun dərinliyi, xarakteri, sosial çıxışları xeyli dərəcədə islahatlaşma prosesinin özünə yanaşmalar, onun məzmunu və idarəetmənin səviyyəsi ilə müəyyənləşir». (11,s.127)

Makroiqtisadi nəzəriyyədə mühüm əhəmiyyət kəsb edən problemlərdən biri də makroiqtisadi qeyri-sabitliyə iqtisadi artımın təsiri problemidir.

Biz paraqrafın əvvəllərində makroiqtisadi qeyri-sabitliyə ümumi şəkildə tələb və təklifin uyğunsuzluğu kimi baxmışdıq. İqtisadi artım isə makroiqtisadi qeyri-sabitliyin tam əksinə olaraq:

- təbii resursların kəmiyyət və keyfiyyəti;
- əmək resurslarının kəmiyyət və keyfiyyəti;
- əsas kapitalın həcmi;
- texnologiya və tələb (məcmu xərclər, bölgü) amillərinin

uyğunluğu şəraitində təmin olunur. Azərbaycan iqtisadiyyatında makroiqtisadi sabitliyin təmin edilməsi iqtisadi artımın

downloaded from KitabYurdu.org

amillərindən səmərəli istifadədən çox asılıdır. Bazar münasibətləri inkişaf etdikcə göstərilən amillərdən istifadəyə daha əlverişli şərait yaranır.

Artıq Azərbaycan Respublikasında həyata keçirilən bir sıra kompleks tədbirlərin qanunauyğun nəticəsi olaraq istehsalın aşağı düşməsinin qarşısı alınmış, 1996-cı ildən başlayaraq ÜDM-də artım müşahidə olunur. 2006-cı ilin nəticələrinə görə ən yüksək artım tempi əldə edilmişdi (36,6%) və tədricən makroiqtisadi sabitlik əldə olunmaqdadır. Azərbaycan iqtisadiyyatında makroiqtisadi sabitliyin formalaşdırılmasını təhlil edərək prof. Ə.Əlirzayev yazır: «Respublikanın iqtisadi və sosial inkişafının əsas meyarı onun əhalisinin hər bir nəfərinin həyat səviyyəsini yüksəltmək və respublikanın potensial iqtisadi imkanlarını yüksəltməkdən ibarətdir. Azərbaycan iqtisadiyyatının inkişafını üç mərhələyə «iqtisadi sabitləşmə», «tərəqqi» və «geniş təkrar istehsal mərhələsi»nə ayırmaq olar» (39, s.135). Müəyyən edilən bu mərhələlər öz əksini Azərbaycan Respublikasının iqtisadi təhlükəsizlik konsepsiyasında tapmışdır. İqtisadi təhlükəsizlik strategiyası yeni müstəqillik əldə etmiş ölkələrin aşağıdakı üç iqtisadi tədbiri həyata keçirmək məcburiyyətində qaldığını müəyyənləşdirmişdi.

1) Sabitləşdirmə;
2) Sağlamlaşdırma;
3) İqtisadi artım.

İqtisadi təhlükəsizlik strategiyasının həyat qabiliyyətliliyi, milli maraqlara uyğunluğu hər üç tədbirin müvəffəqiyyətlə yerinə yetirilməsindən çox asılıdır.

Sabitləşdirmə, sağlamlaşdırma və iqtisadi artım keçid dövründə dövlətin üzərinə çox mühüm öhdəliklər qoyur. Məlumdur ki, dövlət malik olduğu mülkiyyətlə sahibkarlıq fəaliyyəti ilə məşğul olur. Həm də dövlət sahibkarlığı iqtisadiyyatın ən mühüm sahələrini (neft, neft-kimya, yanacaq-enerji kompleksi, nəqliyyat və s.) əhatə edir. Bu sahəyə daxil

downloaded from KitabYurdu.org

olan müəssisələrin özəlləşdirilməsini müvəqqəti dondurmaqla onların istehsal fəaliyyətinin canlandırılması vasitəsi ilə ölkə iqtisadiyyatının sabitləşdirilməsinə nail olmaq mümkün olmuşdur. Özbəkistan təcrübəsi bu dediklərimizi real həyatda təsdiqləmişdir. Ümumdövlət mülkiyyətinin xarici sahibkarlara icarəyə verilməsi ölkə iqtisadiyyatında sabitləşdirməyə nail olmağın bir vasitəsi kimi çıxış edə bilər. Doğrudur, Azərbaycan Respublikasının prezidentinin sərəncamı ilə bir sıra müəssisələr xarici sərmayədarlara icarəyə verilmişdir. Xidmət sahəsində bu təcrübə özünü müəyyən səviyyədə doğrultsa da, istehsal sahəsində onun nəticələri o qədər də görünmür. İqtisadi İnkişaf Nazirliyi özəlləşdirmə üçün öz nəzarətinə götürdüyü müəssisələri də müvəqqəti olaraq xarici və ölkə sahibkarlarına icarəyə vermək imkanına malikdir. Burada əsas məqsəd ölkə iqtisadiyyatının inkişafına təsir göstərə biləcək bütün amillərdən səmərəli istifadədən ibarətdir. Bu zaman iqtisadi inkişafın əsasını təşkil edən milli sahibkarlığın inkişafı da diqqət mərkəzindən kənarda qalmamalıdır. Mülayim bir formada sahibkarlığı inkişaf etdirmək məqsədi ilə daxili bazarı qorumaq siyasəti həyata keçirilməlidir. Ölkəmizdə sahibkarlıq formalaşma mərhələsində olduğundan daha çox müdafiəyə və köməyə ehtiyacı var. Bir sıra ölkələrdə sahibkarlığa yol verilən hədd daxilində dövlət himayədarlığı öz müsbət nəticələrini verməkdədir. Xüsusilə yeni müstəqil ölkələrdə milli sahibkarlığın formalaşdırılması dövlət qayğısı olmadan mümkün deyildir. Milli sahiğkarlığın inkişafına dövlət qayğısı yeni müstəqillik əldə etmiş ölkənin iqtisadi imkanlarından çox asılıdır. Azərbaycan Respublikası hər il dövlət büdcəsində sahibkarlığın inkişafı üçün maliyyə vəsaitləri nəzərdə tutur. Bununla yanaşı keçid dövründə sahibkarlığın inkişafına mane olan amillər qanunvericilik yolu ilə aradan qaldırılır. 2006-cı ilin nəticələrinə görə ÜDM-in 80%-i özəl bölmədə yaradılmışdır. ÜDM-də özəl bölmənin böyük xüsusi çəkisi bazar mexanizminin fəaliyyəti ilə yanaşı özəl bölmədə həyata keçirilən dövlət tənzimlənməsinin sə-

downloaded from KitabYurdu.org

mərəlilik göstəricisi kimi çıxış edə bilər. Dövlət bazar mexanizminin fəaliyyətinə əlverişli şərait yaratmaqla yanaşı sərəncamında olan inzibati və iqtisadi tənzimləmə alətlərindən istifadə etməklə sahibkarlığın inkişafına fəal təsir göstərir (vergi-kredit güzəştlərindən və sairədən istifadə etməklə).

Müstəqillik əldə edən bütün ölkələr kimi Azərbaycan da müstəqilliyinin mühüm atributlarından biri olan milli manatı dövriyyəyə buraxmış və onun dönərliliyini yüksəltmək məqsədi ilə 2006-cı ildə denominasiya həyata keçirmişdi. Ölkədə manatın yeganə ödəniş vasitəsi olması haqqında dövlət qanun qəbul etmişdir. Təsərrüfat subyektləri hesablaşmaları manatla apardığından manatın möhkəmləndirilməsi dövlətin pul siyasətini həyata keçirən Milli Bankın başlıca vəzifələrindəndir. Manatın möhkəmləndirilməsi istehsalın inkişafı ilə təmin olunarsa bu daha məqsədəuyğun bir yol olar. İstehsalın inkişafı isə kifayət dərəcədə mürəkkəb bir proses olduğundan Milli Bank sabitləşdirmə fondu deyilən (dönərli valyutalardan yaradılmış ehtiyat fondu) fond vasitəsi ilə manatın qiymətdən düşməsinin qarşısını alır. Bakı Banklararası Valyuta Bircası vaxtaşırı valyuta hərracları keçirməklə manatın dönərli valyutalara kurslarını tənzimləyir. Sabitləşdirmə tədbirləri bilavasitə inflyasiya prosesinin qarşısının alınmasına yönəldilib. Ona görə də qiymətin liberallaşdırılması, qiymətə dövlət nəzarətinin zəiflədilməsi, yaxud da tamamilə götürülməsi inflyasiya prosesinin güclənməsi ilə nəticələnməməlidir. İnflyasiyanın cilovlanması dövlət büdcəsinin kəsirliliyinin azalmasına da səbəb ola bilər.

İqtisadiyyatda sabitləşdirmə tədbirlərinin həyata keçirilməsi aztəminatlı əhalinin, dövlət bölməsində çalışanların həyat səviyyəsinə mənfi təsir göstərməməlidir. İnflyasiyanın qarşısının alınması dövlətin sosial xərclərinin azaldılması hesabına həyata keçirilməməlidir. İqtisadiyyatda müəyyən sabitlik əldə edildikdən sonra dövlət öz üzərindən müəyyən məsuliyyətləri götürür.

downloaded from KitabYurdu.org

Dövlətin əsas vəzifələrindən biri də vergi-kredit və digər iqtisadi rıçaqlardan istifadə etməklə bazara nəzarətdən ibarətdir. Bazar iqtisadi sistemində dövlət bazarın (həm alıcı, həm də satıcı kimi) sadəcə iştirakçısına çevrilir.

Azərbaycan Respublikasında iqtisadi inkişafın sabitləşdirilməsi, sağlamlaşdırılması və iqtisadi artımı iki əsas amildən daha çox asılıdır. Birincisi institusional dəyişikliklər: dövlətsizləşdirmə, inhisarsızlaşdırma, sahibkarlıq və xüsusi təsərrüfatçılıq təşəbbüsünü həvəsləndirmək, müasir maliyyə-bank sisteminin tələblərinə cavab verə biləcək kapital bazarının yaradılması, aqrar islahatların reallaşması və bazar iqtisadiyyatına uyğun xidmət sferasının formalaşdırılması. İkinci – bütün iqtisadi fəaliyyət dairəsinin liberallaşdırılmasının başa çatdırılması.

Göstərilən hər bir amilin ayrı-ayrılıqda təhlili göstərir ki, iqtisadiyyatımızda nəzərə çarpacaq dəyişikliklər var. Bu dəyişikliklər iqtisadiyyatda makroiqtisadi sabitliyin təmin edilməsindən xəbər verir. Ölkəmizdə makroiqtisadi sabitliyin təmin olunması baxımından bütövlükdə əmtəə dövriyyəsinin makrostrukturunda baş verən dəyişikliyin təhlili maraq doğurur.

**Cədvəl 4.3**

**Əmtəə dövriyyəsinin makrostrukturu (mlyn. manat) (21, s. 305); (22, s. 326)**

| Göstəricilər | 1990 | 1995 | 2000 | 2002 | 2004 | 2005 |
|---|---|---|---|---|---|---|
| Cəmi əmtəə dövriyyəsi | 1176,6 | 10058,7 | 2119,9 | 2688,5 | 3729,9 | 4622,2 |
| Ərzaq malları | 551,6 | 794,5 | 1447,1 | 1803,4 | 2474,4 | 3040,5 |
| Qeyri-ərzaq malları | 625,2 | 264,2 | 672,8 | 885,1 | 1255,5 | 1581,7 |
| Kənd təsərrüfatı bazarı | 239,1 | 725,1 | 819,8 | 1077,9 | 1633,3 | 2154,9 |

Cədvələ (4.3.) uyğun olaraq 1990-cı ildə əmtəə dövriyyəsinin 2005-ci illə müqayisədə kiçik bir rəqəm olmasına əmtəə dövriyyəsinin mütləq artımı ilə izah etmək düzgün olmazdı. Yaxud da 1995-ci ildə əmtəə dövriyyəsinin 1990-cı ilə

downloaded from KitabYurdu.org

nisbətən astronomik şəkildə artımı əmtəə dövriyyəsinin artımından daha çox pul vahidindəki dəyişiklikdə (rubldan manata keçid) və hiper inflyasiyadan irəli gəlir. Lakin 1995-ci ilin göstəricilərini 2000-ci ilin göstəriciləri ilə, 2000-ci ilin göstəricilərini 2005-ci ilin göstəriciləri ilə müqayisə edərkən kənar amilərin təsirindən daha çox iqtisadi artım nəticəsində makroiqtisadi sabitliyə nail olunduğunu söyləmək mümkündür. Məsələn, cəmi əmtəə dövriyyəsi 2000-ci ildəki 2119,9 mlyn. manatdan artaraq 2005-ci ildə 4622,2 mlyn. manata çatmışdı. Müqayisə olunan illərdə ərzaq malları 1447,1 mlyn. manatdan 3040,5 mlrd. manata, qeyri-ərzaq malları 672,8 mlyn. manatdan 1581,7 mlyn. manata, kənd təsərüfatı bazarlarında əmtəə dövriyyəsi 819,8 mlyn. manatdan 2154,9 mlyn. manata çatmışdır. Makroiqtisadi sabitliyin təmin olunması mücərrəd anlayış olmayıb bir sıra göstəricilər vasitəs ilə təzahür edir. Makroiqtisadi sabitliyin ümumi göstəriciləri üzərində müəyyən səviyyədə də olsa dayandıq. Beləliklə, ümumi göstəricilərdən biri olan iqtisadi artımın ərzaq məhsulları ilə özünü təmin etməyə istiqamətlənən hissəsi makroiqtisadi sabitliyin keyfiyyət göstəricisi kimi səciyyələnə bilər.

**Cədvəl 4.4**

**Qida məhsullarının istehlakı**
**(il ərzində adambaşına kiloqram (21, s.331)**

| Qida məhsulları | 1990 | 1995 | 2000 | 2002 | 2004 | 2005 |
|---|---|---|---|---|---|---|
| Ət və ət məhsulları | 32 | 15 | 22 | 28 | 29 | 29 |
| Taxıl məhsulları | 153 | 141 | 158 | 166 | 182 | 182 |
| Bitki yağı | 2,5 | 2,1 | 3,1 | 8,5 | 8,3 | 8,3 |
| Balıq və balıq məhsulları | 4,2 | 1,3 | 2,7 | 6,2 | 6,6 | 6,6 |
| Süd və süd məhsulları | 295 | 138 | 154 | 252,4 | 277,6 | 274,8 |
| Kartof | 27 | 23 | 47 | 65 | 81 | 91 |

Cədvəldən (4.4) aydın müşahidə olunur ki, əksər zəruri ərzaq məhsullarının illik adambaşına istehlakı nəzərə çarpacaq dərəcədə yaxşılaşmışdı. Hətta 2000-ci illə müqayisədə 2005-ci ildə taxıl məhsulları istehlakı 158 kq-dan 182 kq-a,

downloaded from KitabYurdu.org

bitki yağı istehlakı 3,1 litrdən 8,3 litrə, balıq və balıq məhsulları istehlakı 2,7 kq-dan 6,6 kq-a, kartof istehlakı 47 kq-dan 91 kq-a çatmışdı. Yalnız ət və ət məhsullarının, süd və süd məhsullarının adambaşına istehlakında hələlik 1990-cı ilin səviyyəsinə çatmamışıq.

Azərbaycan Respublikası müstəqillik əldə etməklə yalnız daxili imkanlarını hərəkətə gətirməklə deyil, beynəlxalq əmək bölgüsünün üstünlüklərindən istifadə etməklə də iqtisadi inkişafa əlverişli şərait yarada bilər.

Azərbaycan Respublikası da artıq dünya birliyinin bərabərhüquqlu üzvünə çevrilməkdədir. Dünya ölkələri ilə qarşılıqlı əməkdaşlıqdan Azərbaycan Respublikası makroiqtisadi problemlərin həllində də faydalanır. Məhz bütün bunları nəzərə alaraq akademik A.Nadirov yazır: «Beynəlxalq aləmdə böyük nüfuzlu tərəfdaş kimi etibar qazanmış ölkənin sabit ictimai – siyasi mühitinin gündən-günə daha da möhkəmləndirilməsi dönməz xarakter almış, onun sosial-iqtisadi inkişafının çox istiqamətlərinə xarici dövlətlərin, müxtəlif maliyyə qurumlarının və şirkətlərin güclü investisiya qoymağa fəal can atmaları, respublikada milli sahibkarlığın inkişafı məqsədilə son vaxtlar yaradılan əlverişli şərait və onlara göstərilən hər cürköməklik ölkənin XXI əsrdə yeni vüsətli yüksəlişinin ümumi münasib mühitini təşkil edir» (96, s.389).

Azərbaycan iqtisadiyyatı inkişaf etdikcə onun beynəlxalq iqtisadi əlaqələrinin coğrafiyası da dəyişməkdədir. Müstəqilliyimizin ilkin illərində keçmiş SSRİ-yə daxil olan ölkələrlə (xüsusi ilə Rusiya Federasiyası) xarici əməkdaşlığımız üstünlük təşkil edirdi. Sonralar Türkiyə və İranla xarici ticarət əlaqələrimiz daha çox xüsusi çəkiyə malik idi. Son vaxtlar Azərbaycanın xarici ticarət əməliyyatlarında İtaliya, Yunanıstan, ABŞ, İsrail, Fransa, Yaponiya, Almaniya, Fransa, Sinqapur, Norveç, Tayvan, Tailand və digər ölkələrin payı artmaqdadır. Son illərdə uzaq xarici ölkələrlə əmtəə dövriyyəsi təxminən 5 mlrd. ABŞ dollarına çatmışdır. Həm də bu əmə-

downloaded from KitabYurdu.org

liyyatlarda ixracın artması müşahidə olunur. İxracın artması isə makroiqtisadi sabitliyin təmin edilməsinin bir göstəricisi kimi çıxış edə bilər. Makroiqtisadi sabitliyin əsas göstəricilərindən olan ÜDM-in artımına nail olmadan normal şəraitdə ixracı genişləndirmək də mümkün deyildir. Doğrudur, ixracın əsas hissəsi neft və neft məhsullarının payına düşür. Lakin bəzi məhsulların, kimya sənayesi məhsullarının, elektrotexnika avadanlıqlarının ixracının artımı müşahidə olunmaqdadır.

Keçid iqtisadiyyatını yaşayan ölkələr üçün xarici ticarət müəyyən problemlər də yaradır. Əmtəə istehsalçıları arasında rəqabət güclənir. Eyni növlü əmtəənin xarici istehsalçısına nisbətən milli istehsalçı kifayət dərəcədə zəifdir. Rəqabət qabiliyyətli olmayan milli müəssisələr bağlanır, onlar mənfəəti başqa sahələrdə axtarmağa başlayırlar. (Məsələn Azərbaycanın iri maşınqayırma və elektrotexnika müəssisələri, Bakkondisioner və s. rəqabətqabiliyyətli olmadıqlarından fəaliyyətlərini demək olar ki, dayandırmışlar). Lakin bu o demək deyildir ki, azad xarici ticarətdən imtina edilməlidir. Burada dövlətin müxtəlif alətlərdən istifadə etməklə xarici iqtisadi fəaliyyətə müdaxiləsinə zərurət yaranır. İdeal bazarda hansı məhsulların idxal və ya ixrac olunması dövlətin müdaxiləsi olmadan müəyyənləşir. Keçid iqtisadiyyatında isə bu mümkün deyildir. Dövlət tarif və kvotaların müəyyənləşdirilməsi vasitəsi ilə xarici iqtisadi əlaqələrin optimallaşdırılmasına, səmərəliliyinin yüksəldilməsinə nail olmalıdır. Rusiya alimlərindən R.Qumerev haqlı olaraq hesab edir ki, ərzaq məhsulları ixracı və idxalı xüsusi ilə dövlətin diqqət mərkəzində olmalıdır. O, yazır: «Ərzaq məhsulları ilə əlaqədar xarici ticarət əlaqələrinin tənzimlənməsi ilk növbədə xarici amillərlə deyil, milli iqtisadiyyatın mövcud vəziyyəti və real potensialı ilə, o cümlədən də ölkənin sosial-iqtisadi inkişafının tələbatına uyğun müəyyənləşdirilməlidir» (74.s.55). Keçid iqtisadiyyatı ölkələrində, o cümlədən də Azərbaycanda göstərilən prinsiplərə əməl edilməsi milli sahibkarlığın inkişafına əlverişli şərait yaratmaqla bütövlükdə iqtisadi inkişafı stimullaşdırır.

downloaded from KitabYurdu.org

İqtisadi inkişafımızın müasir mərhələsinin elmi cəhətdən araşdırılması belə bir qənaətə gəlməyə imkan verir ki, bazar mexanizmi ilə iqtisadiyyatın dövlət tənzimlənməsinin iqtisadi inkişafın real səviyyəsinə uyğun gələn səmərəli nisbətinin formalaşması əsasında iqtisadi inkişafın daxili və xarici amillərinin çevik hərəkətə gətirməsi nəticəsində Azərbaycan iqtisadiyyatında makroiqtisadi sabitliyin təmin edilməsi artıq reallığa çevrilməkdədir.

## 4.3.Bazar mexanizminin fəaliyyəti şəraitində iqtisadiyyatın inhisarsızlaşdırılması və dövlətin antiinhisar siyasətinin əsas istiqamətləri

Təbii tarixi iqtisadi inkişaf qanunauyğunluqlar əsasında formalaşan klassik kapitalizmdən fərqli prinsip, forma və metodlarla yaradılan müasir kapitalizmdə də bu və ya digər iqtisadi hadisə və prosesi onun genetik əsaslarını öyrənmədən müasir təzahür xüsusiyyətlərini təhlil etmək mümkün deyildir. Ona görə də inhisarçılığın klassik mahiyyətinə bir daha toxunmadan inzibati-amirlik iqtisadi sisteminin mahiyyətini əks etdirən dövlət inhisarçılığını araşdırmaq mümkün deyil.

İnhisarlar istehsalın, kapitalın təmərküzləşməsi və mərkəzləşməsinin nəticəsi olmaq etibarı ilə XIX əsrin ikinci yarısında meydana gəlməyə başlamışdır. Kapitalizmin inkişafındakı keyfiyyət dəyişiklikləri (kapitalın təmərküzləşməsi və mərkəzləşməsi, maliyyə oliqarxiyasının yaranması və s.) öz dövrünün iqtisadçılarının diqqət mərkəzindən kənarda qala bilməzdi. Klassik məktəbin nümayəndələri inhisarların hələ kifayət dərəcədə formalaşmadığı dövrdə (iqtisadi fəsadları üzə çıxmadığından) rüşeym şəklində mövcud olduğu şəraitdə onun müsbət tərəflərinə daha çox diqqət verirdilər. U.Petti inhisarlara yenilikçi kimi baxırdı. O, «Vergilər və rüsumlar haqqında» traktatında inhisarların bu müsbət tərəfini qeyd edərək göstərirdi ki, yüksək gəlir götürmək imkanı elmi-

downloaded from KitabYurdu.org

texniki yeniliklərin kəşf və tətbiqini stimullaşdıracaq. Hətta, bunun nəticəsində rəqabətə stimul yaranacaq. Başqaları inhisarların çiçəkləndiyini müşahidə etdikcə bu sirrin mənbəyini axtarıb taparaq, bütövlükdə cəmiyyət bu prosesin nəticəsindən bəhrələnəcəyini söyləyirdilər.

Sonralar inhisarların mahiyyətini araşdıranlardan biri də Hilferdinq olmuşdur. O, «Maliyyə kapitalı» əsərində bank kapitalı ilə sənaye kapitalının təmərküzləşməsi və qovuşmasını, bunun əsasında yaranan maliyyə oliqarxiyasını inhisarların daha mükəmməl forması kimi izah edirdi. O hesab edirdi ki, maliyyə oliqarxiyası inkişaf etdikcə daha çox dövlətlə qovuşacaq (dövlət kapitalizmi) mühüm iqtisadi və siyasi problemlərin həllində əvəzsiz rol oynayacaq.

İnhisarların sosial-iqtisadi təbiətinin araşdırılmasında Marksist məktəb və onun davamçıları da özünəməxsus rol oynamışlar. Marksist məktəb, inhisarların yaranması və inkişafının obyektiv qanunauyğunluqlarını araşdırmaqla yanaşı nəticədə obyektiv mahiyyətdən uzaqlaşıb, sinfi mövqelərini qabarıq şəkildə izah edərək subyektivizmə yuvarlanmışlar. V.İ.Lenin imperializm nəzəriyyəsi yaratmaqla inhisarçılığın sosial-iqtisadi, siyasi mahiyyətini («İmperializm kapitalizmin ən yüksək mərhələsidir» əsərində) tam açmağa çalışmışdır. Lakin imperializmin «sosialist inqilabı ərəfəsi» olması tezisi obyektiv iqtisadi inkişaf qanunlarına söykənməmişdir. İnhisarçılığın hakim mövqeyə malik olduğu imperializmin «tüfeyliliyi, çürüməkdə olması» (V.İ.Lenin) özünü doğrultmurdu. İnhisarlar mənfəətin yeni-yeni mənbələrini axtarmağa çalışırdılar. (Çünki qeyri-qanuni gəlir götürmək üçün qadağalar qoyulmuşdur. 1890-cı il və 1914-cü il Antiinhisar qanunvericiliyi).

İnhisarların yüksək mənfəət götürmək maraqları ölkə daxilində ödənilmədiyindən kapital ixracına üstünlük verirdilər.

Professor İ.AV.Kərimli yazırdı: «TMK-ın xarici ölkələrin ərazisində yerləşən filialları (qız şirkətləri) texnika və

downloaded from KitabYurdu.org

texnologiyanı yaratmaqda və satmaqda müstəqil deyillər. Onlar lisenziyalaşmış texnikanın istehsalına və satışına nəzarət edir, Baş korporasiyanın ümumi lisenziya siyasəti çərçivəsində fəaliyyət göstərirlər. Həmin hal Baş korporasiyanın işləyib hazırladığı ixtiraların lisenziyasının filiallar tərəfindən satışında daha çox özünü göstərir. Üçüncü tərəflə filialların bağladığı lisenziya müqavilələrinin bütün şərtləri Baş korporasiya ilə razılaşdırılır» (57. s.245). Kapital ixracı vasitəsi ilə inhisarların fəaliyyət dairəsi də genişlənirdi. Zəif inkişaf etmiş ölkələrin (XIX əsrin sonu – XX əsrin birinci yarısı müstəmləkə ölkələrinin mövcudluğu şəraiti) təbii sərvətlərinin zənginliyi və ucuzluğu, o cümlədən də ucuz iş qüvvəsi inhisarların yüksək gəlir mənbəyini təmin edirdi. İnhisarların bu ölkələrdə fəaliyyətinin müəyyən mənfi cəhətlərini nəzərə almasaq (xammaldan israfçılıqla istifadə, iqtisadiyyatın birtərəfli inkişafı, kənardan asılılıq) həmin ölkələrdə müasir texnoloji əsasda istehsal yaranır və ona uyğun infrastruktur formalaşırdı. Hətta, XX əsrin ikinci yarısında ABŞ-ın, Yaponiyanın və bir sıra inkişaf etmiş ölkələrin transmilli korporasiyalarının inkişaf etməkdə olan ölkələrdə (Malaziya, İndoneziya, Filippin, Qonkonq, Tailand və s.) filiallarının açılması bu ölkələrin sürətli inkişafına gətirib çıxarmışdı. XX əsrin ikinci yarısından başlayaraq iqtisadiyyatda inhisarların daha müasir formalarından biri olan korporasiyalar əhəmiyyətli rol oynamağa başlamışdır. Halhazırda ABŞ-da 20 mln-a yaxın xırda, kiçik, orta, iri, nəhəng müəssisələr var. Onlardan təxminən 1/7 müxtəlif ölçülü korporasiyalardır. Korporasiyaların nisbətən kiçik xüsusi çəkiyə malik olmalarına baxmayaraq bütün müəssisələrin ümumi gəlirinin 90%-i onların payına düşür. Hətta, korporasiyadaxili diferensasiya da güclüdür. Korporasiyaların cəmi 16%-i bütün korporasiyaların ümumi gəlirinin 92%-ni öz əlində cəmləşdirmişdi. Artıq dünyanın inkişaf etmiş ölkələrində inhisarların inkişafında yeni meyl müşahidə olunmaqdadır. Kapitalın təmərküzləşməsi və mərkəzləşməsi prosesi müəyyən sahənin ar-

downloaded from KitabYurdu.org

dıcıl, qarşılıqlı asılılıqda olan istehsalının şaquli inteqrasiyası və ya kombinələşməsi şəklində bir korporasiyada birləşməsi istiqamətində gedir. Məsələn, bir texnoloji proses olmaq etibarı ilə xammalın çıxarılmasından hazır məhsula çevrilməsinə qədər olan mərhələni nümunə göstərmək olar. Xammal çıxarılır, hazır məhsula çevrilir, istehlakçıya çatdırıldıqdan sonra ona xidmət həyata keçirilir. Bütün proses eyni bir birlik tərəfindən həyata keçirilir. Belə inhisarçı – kombinatlar metallurgiya, kimya, avtomobil, yeyinti, maşınqayırma və digər sahələrdə fəaliyyət göstərir. Şaquli inteqrasiya ümumi diversifikasiya prosesinin mühüm tərkib hissəsidir. İnhisar kapitalı artıq təkcə qohum istehsal sahələrinə nüfuz etməklə kifayətlənmir, əvvəlcə onunla texnoloji cəhətdən qohum sahələri, tədricən isə ümumiyyətlə onunla o qədər də əlaqəli olmayan sahələri də öz nüfuz dairəsinə daxil edir. Kapitalın diversifikasiyası nəticəsində onun aşağı rentabelli sahədən yüksək rentabelli sahəyə axması üçün əlverişli şərait yaranır. Bu və ya digər istehsal sahələrini sarsıdan böhranlar zamanı bu korporasiyalar kifayət dərəcədə sabitliyini qoruyub saxlaya bilir. Nəhəng, çoxsahəli sənaye korporasiyaları sənaye inhisarlarının aparıcı formasına çevrilir. Çoxsahəli sənaye korporasiyalarının bir çox ölkələrdə onlarla, yüzlərlə müəssisələri var. Kapitalın diversifikasiyası onun istehsal mövqeyini möhkəmlədir, bazara nəzarət səviyyəsini yüksəldir, resursların yenidən bölgüsü və səmərəli istifadəsinə şərait yaradır. ABŞ-ın 500 iri korporasiyasında çoxsahəli inhisarların payı 1950-ci illərdəki 66%-dən 1990-cı ildə 94%-ə çatmışdır. XX əsrin 80-cı illərindən kapitalın diversifikasiyası daha da güclənmişdi. Elmi-texniki tərəqqinin təsiri altında struktur dəyişiklikləri bu prosesin başlıca səbəblərindən biri olmuşdur. Kapitalların qovuşması prosesi daha da güclənmişdi. Bu cür sövdələşmənin nəticəsində ABŞ-da 10 il ərzində (1975-1985-ci illər) kapitalların qovuşması 12 mlrd. dollardan 200 mlrd. dollara çatmışdır. AFR-də kapitalların qovuşması iki dəfə yüksəlmişdi.

downloaded from KitabYurdu.org

XX əsrin sonu üçün kapitalın mərkəzləşməsinin iki cəhəti səciyyəvidir. Birincisi, kapitalın qovuşması, çulğalaşması nəticəsində kapital elmtutumlu prespektiv sahələrə axır. İkincisi, qovuşma əsasən inhisarçı bölmənin daxilində getdiyindən nəhəng kompaniyalar arasında mübarizə gedir. Nəticədə korporasiyaların strukturunda geniş miqyaslı dəyişikliklər baş verir. Məsələn, ABŞ-ın avtomobil konserni «Ceneral Motors» 1984-cü ildə 2,5 mlrd. dollara avtomatlaşdırılmış informasiya – hesablama sisteminə xidmət edən «Elektronik deyta sistems» korporasiyasını, 1985-ci ildə 5 mlrd. dollara elektron avadanlıqları və rabitə vasitələri istehsalı sahələrində ən nəhənglərdən biri olan «Xyuz eyrkraft» firmasını almışdı. 1982-1987-ci illərdə «Ceneral elektrikin» satış həcmi 50% artaraq 39 mlrd. dollara çatmışdı. Bütün bunlar bir daha göstərir ki, müasir inhisarlar dünyada baş verən hər bir siyasi-iqtisadi, qlobal hadisəyə çevik reaksiya vermək imkanına malikdir. «İnhisarçı dövlət kapitalizminin təkamülü»ndə yeni şəraitə uyğunlaşma fenomeni aydınca sezilir. Uyğunlaşma prosesi daxili siyasi çəkişmələrdən özünə yol açaraq müxtəlif amillərin təsiri altında inkişaf edir». (51.s.12)

Bu amillər inhisarlara siyasi-iqtisadi münasibətlər sistemində əhəmiyyətli rol oynamağa imkan verir. İnhisarlar nəinki dövlət siyasətinə təsir etmək imkanına, hətta onun formalaşmasında real iştirak imkanına malik olur. Dünyanın müxtəlif ölkələrində transmilli korporasiyaların maraqlarının qorunması dövlətin xarici siyasətinin prioritet istiqamətlərindən birinə çevrilir. Məsələn, ABŞ dövləti Amerikanın neft kompaniyalarının Xəzər regionunda maraqlarını qorumaq üçün bütün siyasi-iqtisadi amillərdən istifadə edir. Bir sıra dünya əhəmiyyətli problemlərdə Azərbaycanı dəstəklədiyini aşkarcasına bəyan edir. Xəzərsahili ölkələrin Xəzərin enerji resurslarından istifadədə maraqlarının gözlənilməsinə, Azərbaycanın mövqeyinə üstünlük verməklə (Azərbaycanın mövqeyi qərəzli olmadığından) Xəzərin hüquqi statusunun müəyyənləşdiril-

downloaded from KitabYurdu.org

məsinə tərəfdar çıxdığını bildirir. Birbaşa və ya dolayısı ilə maddi-texniki yardımlar göstərir. İnhisarlar isə öz növbəsində bu və ya digər aksiyalarda dövləti dəstəkləməklə onunla həmrəy olduqlarını bildirirdilər.

Dövlət birbaşa təsir rıçaqlarından da istifadə etməklə inhisarların iqtisadi göstəricilərinin yaxşılaşdırılmasına təsir göstərir. «Dövlət inhisarçı tənzimlənmənin inkişafı böhran tərəddüdlərinin amplitudasını zəiflədərək elm və texnikanın tərəqqisi ilə inhisarların sərəncamına yeni maddi resurslar verdi». (51, s.14) Qloballaşan dünyada müasir texnika və texnologiya tətbiq etməyən aparıcı kompaniyalardan birinə çevrilmək mümkün deyildir. Bu gün dünya iqtisadiyyatında hökmran mövqe, elmi-texniki tərəqqinin yüksək səviyyəsinə nail olmuş inkişaf etmiş postsənaye təsərrüfat sisteminə xas olan ölkələrə məxsusdur. Postsənaye təsərrüfat sistemində isə, iqtisadiyyatın bütün sahələrində demək olar ki, transmilli korporasiyalar hökmranlıq edir. Transmilli korporasiyalar texnoloji cəhətdən geri qalan regionlara nüfuz etməklə öz coğrafiyasını genişləndirir. Bütün digər iqtisadi-siyasi amillərlə yanaşı dünyanın aparıcı neft kompaniyalarının Azərbaycana gəlməsinin səbəblərindən biri də Azərbaycan neft sənayesinin texnoloji cəhətdən geri qalması, dənizdə daha çox dərinlikdə neft çıxara bilməməsidir.

Artıq XIX əsrin axırlarında inhisarın inkişafı elə bir səviyyəyə gəlib çıxmışdır ki, o, bütövlükdə iqtisadiyyatı əhatə etməyə başlamışdır. Beləliklə XX əsrin 30-cu illərindən iqtisadiyyatda inhisarçılıq hakim bir mövqeyə malik olmuşdur. İnhisarların iqtisadiyyatda hakim mövqeyə malik olması onlara qanuni yolla yanaşı qeyri-qanuni yolla (yol verilməz fənd və üsullar) gəlir götürməyə can atırlar. Beləliklə də inhisarçılıq yaranır.

İnhisarçılıq təsərrüfat subyektlərinin yolverilməz fənd və üsullardan istifadə etməklə yüksək mənfəət götürmək məqsədi ilə azad rəqabətə yol verilməməsinə, onun məhdudlaş-

downloaded from KitabYurdu.org

dırılmasına və aradan qaldırılmasına (bazar mexanizminin fəaliyyətinin məhdudlaşdırılmasına) yönəldilən fəaliyyətdir. Təsərrüfat subyektlərinin fəaliyyəti nəticə etibarı ilə azad rəqabətə qarşı yönəldilib. Azad rəqabətin məhdudlaşdırılmasına və aradan qaldırılmasına yönəldilmiş inhisarçılıq fəaliyyətini iki qrupa bölmək olar:

1. İnhisarların inkişafının ilkin mərhələsində inhisara daxil olan təsərrüfat subyektləri üçün qiymətqoymanın razılaşdırılması, xammal və satış bazarlarının bölüşdürülməsi və mənfət götürmək üçün əlverişli şərait yarada biləcək digər məsələlərdə razılıq əldə edilməsinə yönəldilən fəaliyyətlər.
2. Bazardakı hakim mövqelərdən istifadə edərək inhisar qiyməti aləti (aşağı inhisar qiyməti, yuxarı inhisar qiyməti) vasitəsi ilə rəqibin sıxışdırılmasına yönəldilmiş fəaliyyətlər.

Bu fəaliyyəti nəticəsində inhisarçı müəssisə istehsalda və satışda əsassız surətdə üstünlüyə malik olur. Bu cür üstünlük şəraitində müəssisənin davranışı inhisar nəzəriyyəsi ilə izah olunur. İnhisarçı müəssisənin istehsal xərclərinin formalaşdırılması, öz məhsuluna qiymətqoymanın prinsipləri və istehsal həcminin müəyyən edilməsi inhisar nəzəriyyəsinin məğzini təşkil edir. İnhisar nəzəriyyəsi inhisarı müəyyən növ məhsulun yalnız istehsalçısı kimi qəbul etməklə abstraksiya yolu ilə nəzəri ümumiləşdirmə aparır. Buna görə də xalis inhisarı nəzəri cəhətdən izah etmək olar, çünki müəyyən növ məhsulun yalnız bir müəssisə tərəfindən istehsalı və satışının həyata keçirilməsi abstraksiyadır. Ən azı ona görə ki, həmin növ məhsulun xarici istehsalçısı və satıcısı var.

İnhisar nəzəriyyəsinə görə inhisarçı müəssisənin davranışı aşağıdakı amillərin təsiri altında formalaşır:

1. Bazarın bir hissəsini itirmək təhlükəsi; bu təhlükə olmadıqda o qiymətin yüksəldilməsi qərarını qəbul etdikdə belə məhsul buraxılışının həcminə tam nəzarət edir.

downloaded from KitabYurdu.org

2. Qiyməti fasiləsiz yüksəltmək imkanının məhdudluğu; bütün digər istehsalçılar kimi inhisarlar da istehsal qərarını qəbul edərkən bazar tələbini, öz istehsal xərclərini nəzərə almaq məcburiyyətindədir.

İnhisarların meydana gəlməsi və inkişafını, onların iqtisadiyyatda oynadığı rolu tədqiq və təhlil edərək nəticə etibarı ilə bu qənaətə gəlmək olar ki, (əgər inhisarçı mövqelərindən sui-istifadə etmirlərsə) onların fəaliyyəti cəmiyyətin maraqları baxımından səmərəli, məqsədləri isə maksimum mənfəət götürməkdir. İnhisar nəzəriyyəsinə görə satıcıdan əldə olunmuş məbləğlə firmanın xərcləri arasındakı fərq yüksək olmalıdır. Burada istehsal xərcləri «iqtisadi mənada», buraxılmış imkan xərcləri (alternativ) firma mülkiyyətçisinin əməyinin ödənilməsi, «normal» mənfəət nəzərdə tutulur. Mənfəətin maksimumlaşdırılması iqtisadi mənfəəti nəzərdə tutur (iqtisadi mənfəət satışdan əldə olunmuş məbləğə buraxılmış imkan xərcləri arasındakı fərqdir). İnhisar nəzəriyyəsinə görə firmalar ümumi gəlirlə ümumi xərclər arasındakı fərqi yüksəltməyə çalışır. Hər bir əlavə vahid məhsul istehsalının artımı son hədd xərcləri kəmiyyəti miqdarında (MC) ümumi xərcləri artırır, eyni zamanda satışdan əldə olunmuş ümumi məbləği də satışdan əldə olunmuş məbləğin son həddi miqdarında (MR) artırır. Satışdan əldə olunmuş son hədd məbləği son hədd xərclərindən yüksək olduğu şəraitdə ümumi gəlir yüksəldiyindən firma istehsalı genişləndirir. Son hədd xərcləri satışdan əldə olunmuş son hədd məbləğini qabaqladığı andan ümumi mənfəət aşağı düşməyə başlayır. Satışdan əldə olunmuş məbləğin son həddi (MR) = son hədd xərclərinə (MC) olduğu halda mənfəətin kəmiyyəti ən yüksək həddə çatır. Beləliklə, inhisar nəzəriyyəsinə görə inhisarların davranışı inhisar şəraitində araşdırılır: 1) İnhisarlar təkmil rəqabət şəraitində də məhsul həcmi buraxılışına nəzarətlə mənfətini maksimumlaşdırıla bilər (firma özünün istehsal xərclərini və bazar tərəfindən qiymətin müəyyənləşdirilmiş kəmiyyətini); 2) xalis inhisar şəraitində firma iki para-

downloaded from KitabYurdu.org

metr, məhsul buraxılışı həcmi və qiymət əsasında mənfəətini maksimumlaşdıra bilər.

İnhisar nəzəriyyəsinə görə inhisarın maksimum mənfəət götürməsini təmin edən məhsul buraxılışının həcmi rəqabət şəraitində mövcud olan prinsipə, son hədd gəlirlərinin və son hədd xərclərinin bərabərliyinə əsaslanır.

Qloballaşan dünyada inhisarların ən mükəmməl formalarından biri olan konsorsiumlar dünyanın iqtisadi inkişafında həlledici rol oynamağa başlamışlar. Konsorsium – son zaman inhisarın daha geniş yayılmış bir formasıdır. Bu forma bir qayda olaraq iri miqyaslı layihələrin həyata keçirilməsi üçün yaranır. O, maliyyə, ticarət, texnika və ya başqa səbəblər üzündən bir neçə iştirakçıların qüvvəsini birləşdirməyi tələb edir. Bundan başqa, konsorsiumların yaranması haqqında müqavilələrin iştirakçıları ticarətdə, qurulan sənaye obyektlərinin rekonstruksiya və modernləşdirilməsində, adi xarici ticarət fəaliyyətində, həmçinin hər hansı xidmət növü, eyni zamanda injinirinq xidməti göstərilməsində müəyyən məqsəd daşıya bilər. Konsorsium iştirakçıları tam müstəqilliyi saxlayırlar. Birgə seçilmiş rəhbərliyə, fəaliyyətinin ancaq konsorsium məqsədlərinə yönəldilən hissəsi ilə tabe olurlar. Hazırda Azərbaycanda neft müqavilələri üzrə neftin hasili və nəqli ilə əlaqədar Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti (ƏBƏŞ) və Şimal Abşeron Əməliyyat Şirkəti (ŞAƏŞ) yaradılmışdır. Bu konsorsiumların tərkibində ARDNŞ və başqa xarici ölkələrin neft maqnatları birləşmişdir.

Yeni məhsulun ayrı-ayrı növlərinin inhisarlaşdırılması indi çox vaxt patentə sahib olmaq yolu ilə həyata keçirilir. Yeni istehsal texnologiyası, yaxud məhsulun yeni növünü işləyib hazırlamış inhisar öz təkmilləşdirilməsini, yaxud ixtiralarını patentləşdirir və patentdən istifadə hüququ olmaqla bu ixtiralardan yararlanmaq istəyənlərə özü üçün əlverişli olan şərtlərlə lisenziya verir.

downloaded from KitabYurdu.org

Tədqiqatda aydın şəkildə göstərilir ki, inhisarçılıq kapitalizmin iqtisadi inkişafının qanunauyğun nəticəsi kimi meydana gəlmişdir. Kapitalizmdən fərqli olaraq sosialist mülkiyyəti dövlət miqyasında ictimailəşdirməklə nəinki istehsalda, həmçinin idarəetmədə inhisarların yaranmasının əsasını qoymuşdu.

İdarəetmə inhisarçılığı: inhisarçılığın bu forması inzibati-amirlik sisteminin xarakterik xüsusiyyətlərindən biridir. Burada inhisarçı subyekt kimi dövlət çıxış edir. Dövlət bütövlükdə sosialist müəssisələrinin təsərrüfat müstəqilliyini məhdudlaşdırır və məsuliyyətlərini olduqca azaldır, həm də müəssisələrin təsərrüfat əlaqələrini məhdudlaşdırmaqla onların son nəticələrə olan maddi maraqlarını azaldır, sərbəst təsərrüfat əlaqələri yaratmağa imkan vermir. Beləliklə, iqtisadiyyat da qeyri-səmərəli fəaliyyət göstərir. Həddindən artıq mərkəzləşdirilmiş planlaşdırma bürokratik təsərrüfat mexanizminin və səmərəsiz iqtisadi əlaqələrin hökm sürməsinə səbəb olur. Eyni zamanda, iqtisadiyyatın idarə olunmasındakı inzibatçılıq təkrar istehsal fazaları arasındakı əlaqəni, təsərrüfat subyektlərinin mülkiyyət hüququnu pozur.

İnhisarçılıq çox hallarda – məhsulun keyfiyyət xüsusiyyətləri ilə əlaqədar olmadan onun qiymətinin süni surətdə artırılmasına və məhsulun tələb və təklifin təsiri altında yaranan bazar qiymətləri ilə deyil, inhisar qiyməti ilə satılmasına, istehsal həcminin azaldılmasına səbəb olur. Belə bir vəziyyət bazar iqtisadiyyatının ən vacib bir şərtinin – istehlakçının məhsul seçə bilmək hüququnun pozulmasına gətirib çıxarır.

İnhisarın sosial-iqtisadi nəticələri xalis inhisar baxımından daha qabarıq şəkildə təzahür edir. Bu zaman bazar mexanizminə real təsir göstərən aşağıdakı dörd amil diqqəti cəlb edir:

1. Qiymətlər, istehsalın həcmi və resursların bölüşdürülməsi: məlumdur ki, xalis rəqabət prosesi, «istehsal səmərəliliyi» və «resursların səmərəli bölüşdürülməsi» nəticələrini əldə

downloaded from KitabYurdu.org

edə bilər. İstehsalın səmərəliliyi o halda əldə edilə bilər ki, istehsalın son xərcləri minimum olduğu zaman firmanın sahəyə azad daxil olması və çıxması firmanı optimal istehsal norması ilə işləməyə məcbur etsin. Onda məhsulun qiyməti də razılaşdırılmış orta məcmu xərclərdən aşağı olar. İnhisarçı, rəqabət aparan istehsalçıdan fərqli olaraq yüksək qiymətə daha az həcmdə məhsul satmağı sərfəli hesab edəcək. Xalis inhisar rəqabəti şəraitində istehsal olunan məhsulun qiyməti müqayisədə inhisarçılar tərəfindən daha az həcmdə istehsal olunan məhsulun qiymətindən yüksək olacaq.

2. Rəqabət aparan və inhisarçı firmaların xərcləri arasında olan müqayisə ilə əlaqədar olan çətinliklər: xalis inhisarı qiymətləndirməyimiz bizi belə bir nəticəyə gətirib çıxarır ki, rəqabət aparan firmalardan fərqli olaraq, eyni xərclərlə xalis inhisarçı firma məhsulun istehsalının həcmini daha da azaldacaq, qiymətləri yüksəldəcək və iqtisadi resursların səmərəli bölünməsinə maneçilik törədəcək. Bu fərqli nəticələr inhisarı xarakterizə edən sahəyə daxil olmanı məhdudlaşdıran hədlərdən irəli gəlir.

3. Sahəyə daxil olmağı məhdudlaşdıran hədlərin hesabına inhisarçı daimi olaraq yüksək inhisar mənfəti əldə edir. Bu da onu göstərir ki, inhisarçı firmalara nisbətən digər müəssisələr ETT-nin inkişafı üçün daha çox maraqlı olacaqlar. Bəs inhisarçını texniki tərəqqiyə vadar edən nədir? Burada bir məqam vardır ki, inhisarçıların yeni texnika və məhsul əldə etmək marağı zəifləyə bilər; rəqiblərin olmaması o deməkdir ki, inhisarlaşdırılmış bazarda ETT-yə avtomatik stimul yoxdur. Özünün bazarda vəziyyətinin qorunmasına arxalanaraq inhisarçı səmərəsiz və tənbəl ola bilər. Rəqabətli bazarda kəskin mübarizə səmərəsiz olanları cəzalandırır; inhisarçı özünə güvənir və mövcud vəziyyətdə qalmaq hüququ vardır. İnhisarçıya istehsal və məhsul sahəsində təkmilləşdirmə aparmaqdan imtina etmək sərf edir. Yeni təkmilləşdirilmiş texnikanın tətbiq edildiyi andan istehsal xərclərini aşağı salır və mənfəəti yüksəldirlər.

downloaded from KitabYurdu.org

4. Əsas məsələlərdən biri də gəlirlərin bölgüsüdür. İnhisarçılıq gəlirlərin bölgüsündə qeyri-bərabərliyi şərtləndirir. Bazar hökmranlıqlarının sayəsində inhisarçı – firmalar rəqabət aparan firmalara nisbətən bazarda daha yüksək qiyməti tətbiq edirlər: inhisar faktiki olaraq istehsalçıları «xüsusi vergi» yolu ilə qarət etmək və bu yolla öz gəlirlərini yüksəltmək vəziyyətindədirlər. Bazar iqtisadiyyatının inkişafının müəyyən bir mərhələsində inhisarçılıq elə bir səviyyəyə gəlib çatır ki, ona qarşı tədbirlərin görülməsinə zərurət yaranır. Bu tədbirlər iki istiqamətdə aparılır.

1. Rəqabətin inkişafına müvafiq strukturlar tərəfindən əlverişli mühit yaradılır.
2. İnhisarçı mövqeyə malik olan təsərrüfat subyektlərinin fəaliyyəti hüquqi aktlarla müvafiq orqanlar tərəfindən məhdudlaşdırılır.

İnhisar fəaliyyətini tənzimləyən ilk hüquqi aktlar hələ XIX əsrin sonlarında ABŞ-da qəbul edilmişdir. Sonralar bir sıra ölkələrdə, o cümlədən Azərbaycanda da bazar münasibətlərinə keçidlə əlaqədar inhisarların fəaliyyətini tənzimləyən qanunlar qəbul edilmişdir.

Əvvəlki paraqraflarda müxtəlif problemlərlə əlaqədar (sahibkarlığın formalaşması, rəqabətin formalaşması) dövlətin antiinhisar fəaliyyətinə toxunsaq da keçid iqtisadiyyatında Azərbaycan dövlətinin antiinhisar siyasətinin formalaşması üzərində ətraflı dayanmağa böyük ehtiyac var.

Bazar iqtisadiyyatına keçid şəraitində antiinhisar fəaliyyəti mexanizminin formalaşdırılması kifayət dərəcədə hüquqi aktların qəbul edilməsi ilə reallaşdırılmışdır. Lakin həddindən artıq dərəcədə inhisarlaşmış inzibati-amirlik iqtisadi sistemindən bazar iqtisadiyyatına keçid dövründə qəbul edilmiş hüquqi sənədlərlə davranışlar arasında kifayət dərəcədə uyğunsuzluqlar var. Azərbaycanda keçid iqtisadiyyatında antiinhisar siyasətinin formalaşmasının əsas tədqiqatçılarından olan prof.R.Quliyev bu uyğunsuzluqları nəzərə alaraq

downloaded from KitabYurdu.org

yazır: «Bu və ya digər dərəcədə keçid cəmiyyətlərinə xarakterik olan qanunlarla konkret davranışlar arasındakı uyğunsuzluqlar bu sahədə də özünü göstərir. Buna görə də antiinhisar fəaliyyətinin qanunvericilik bazasının formalaşdırılması müvafiq problemlərin həlli deyil, bunun üçün zəruri hüquqi məkanın yaradılmasıdır.» (72,s.228) İnzibati-amirlik iqtisadi sistemində formalaşmış hüquqi məkanın ləğv edilməsi isə kifayət dərəcədə çətinliklərlə qarşılaşırdı. Bu formalaşmış hüquqi məkanın ləğv edilməsi yeni bazar təsərrüfatçılıq formalarının fəaliyyətinə əlverişli şərait yaratmadan mümkün deyildi.

Müstəqilliyin siyasi cəhətdən bəyan edilməsi ölkədə həyata keçiriləcək əsaslı islahatların başlanğıcını qoydu. Bu əsaslı islahatlar hər şeydən əvvəl köhnə cəmiyyətin iqtisadi əsaslarının sındırılmasına, ictimai mülkiyyətdən xüsusi mülkiyyətə keçidə istiqamətlənmişdi. Mülkiyyətin cəmiyyət miqyasında ictimailəşməsi, idarəetmə səlahiyyətlərinin mütləq mənada dövlətin əlində cəmlənməsinə gətirib çıxarmışdı. İnhisarçılığın spesifik forması, dövlət idarəetmə inhisarçılığı bütün neqativ təzahürləri ilə birgə cəmiyyətdə hakim mövqeyə malik idi. Bu inhisarçılığı aradan qaldırmadan keçid dövründə qarşıda duran müstəqillik problemlərini həll etmək mümkün deyildir. Keçid iqtisadiyyatı ölkələri qarşısında duran strateji vəzifələri Ə.Bayramov aşağıdakı kimi qruplaşdırmışdır. «1) Milli iqtisadiyyatın formalaşması və onun rəqabət qabiliyyətinin yüksəldilməsi fonunda dayanıqlı inkişafın təmini; 2) Real bazar münasibətlərinin təşəkkülü» (27, s.218).

Göründüyü kimi, hər iki problem digər amillərlə yanaşı əhəmiyyətli dərəcədə dövlətin idarəetmə inhisarçılığının sındırılması və antiinhisar siyasətinin formalaşdırılmasından asılıdır.

Uzun müddət komanda iqtisadiyyatı şəraitində yaşamış Azərbaycan Respublikası bazar iqtisadiyyatına keçmək üçün yeni iqtisadi sistemin bütün iqtisadi atributlarını yaratmaq zərurəti qarşısında qaldı. Milli iqtisadiyyatın formalaşdırılması kifayət dərəcədə ziddiyyətli problemlərin həlli fo-

downloaded from KitabYurdu.org

nunda baş verirdi. Dövlətsizləşdirmə, özəlləşdirmə, dövlət idarəetmə strukturlarında islahatlar yeni iqtisadi sistemin formalaşdırılması tələblərindən irəli gəlirdi. Yeni iqtisadi sistemin formalaşması isə rəqabət qabiliyyətli istehsalsız mümkün deyildir. Rəqabət qabiliyyətli istehsalın yaradılması isə bütün səviyyələrdə inhisarçılığın aradan qaldırılmasını və tənzimlənməsini tələb edir. Antiinhisar sahəsində yuxarıda göstərdiyimiz kimi kifayət dərəcədə təcrübə olmamasına baxmayaraq, yeni müstəqillik əldə etmiş ölkələrdə, o cümlədən də Azərbaycan Respublikasında antiinhisar siyasətinin formalaşdırılması real gerçəklikdən irəli gələn xüsusiyyətlər kəsb edir. Bu gerçəklik aşağıdakı amillərlə səciyyələnirdi:

1) İctimai dövlət mülkiyyətinin hakim olduğu komanda iqtisadiyyatından bazar iqtisadiyyatına keçid;

2) Təsərrüfat subyektlərinin heç bir müstəqilliyə malik olmaması və mərkəzi dövlət orqanları tərəfindən planlı şəkildə idarə olunması;

3) Sahibkarlığın qanunvericiliklə qadağan edilməsi;

4) Stimullaşdırıcı funksiyaya malik olan rəqabətin (sosializmə yad bir ünsür olduğundan) yerinə sosializm yarışının mövcudluğu;

5) Keçidin ilkin mərhələsində ölkə iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiyasının zəif olması, texnoloji cəhətdən geri qalması və sair.

Təbii ki, bu amillər Azərbaycan Respublikasında antiinhisar siyasətinin formalaşmasına təsir göstərməyə bilməz. Azərbaycan Respublikasının antiinhisar siyasətinin formalaşmasında antiinhisar qanunvericiliyinin formalaşdırılması həlledici rola malikdir.

Ölkəmizdə dünyanın qabaqcıl ölkələrinin antiinhisar qanunvericiliyi öyrənilməklə Azərbaycan iqtisadi-siyasi gerçəkliyini əks etdirən antiinhisar tənzimləməsini həyata keçirən hüquqi baza yaradılmışdır. «Antiinhisar fəaliyyəti haqqında», «Təbii inhisarlar haqqında», «Haqsız rəqabət haqqında», «İstehlakçı hüquqlarının müdafiəsi haqqında» Azərbaycan Res-

downloaded from KitabYurdu.org

publikasının qanunları, «İnhisarçı müəssisələrin dövlət reyestri» və digər normativ aktlar Azərbaycan dövlətinin antiinhisar siyasətinin formalaşdırılmasının hüquqi bazasını təşkil edir. Antiinhisar siyasətin formalaşdırılmasının ilkin bazası kimi çıxış edən «Antiinhisar fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanununda iqtisadiyyatımızda mümkün ola biləcək inhisarçılıq formaları müəyyənləşdirilmişdir. İnzibati-amirlik iqtisadi sistemindən bazar sisteminə keçən ölkələr üçün dövlət inhisarçılığı yeni iqtisadi şəraitdə təzahür edə biləcək inhisarçılığın əsas formalarından biri kimi müəyyənləşdirilmişdir. Məlumdur ki, antiinhisar siyasəti inkişaf etmiş kapitalist ölkələrində dövlətin başlıca iqtisadi funksiyalarından biridir. Dövlətin, dövlət hakimiyyət orqanlarının, icra strukturlarının rəqabətin məhdudlaşdırılmasına, istehsalçılara məcburi tapşırıqlar verilməsi, təsərrüfat subyektlərinin istehsal etdikləri məhsulların qiymətlərinə əsassız nəzarət, xarici iqtisadi fəaliyyətlərin məhdudlaşdırılmasına və digər fəaliyyətlərinə yönəldilmiş hərəkətləri dövlət inhisarçılığı kimi səciyyələnir və dövlətin antiinhisar qanunvericiliyinə uyğun tənzimlənir. İnhiarçılığın təzahür formaları: sahə inhisarçılığı, yerli inhisarçılıq, təsərrüfat subyektlərinin inhisarçılığı, maliyyə-kredit inhisarçılığı, bazar subyektlərinin üfüqi və şaquli birləşməsi (qovuşması) nəticəsində meydana çıxan inhisarçılıq, təbii inhisar, patent-lisenziya inhisarçılığı bu gün üçün xarakterikdir. İnhisarçılığın sadalanan bütün növləri antiinhisar qanunvericiliyi ilə tənzimlənir. Lakin burada elə problemlər vardır ki, onların diqqət mərkəzindən qaçırılması kifayət dərəcədə mənfi nəticələrə gətirib çıxara bilər. Əsas məsələlərdən biri inhisarçıların istehsal və satışda davranışının təhlilidir. Artıq Azərbaycan iqtisadiyyatı dünya iqtisadiyyatına kifayət dərəcədə inteqrasiya edib. Ölkə daxilində istehsalın əhəmiyyətli hissəsini öz əlində birləşdirən müəssisə satışda çox cüzi bir xüsusi çəkiyə malik ola bilər. Keçid iqtisadiyyatının ilkin mərhələsi «qıtlıqla» səciyyələndiyindən çox qısa bir müddətdə Azərbaycan bazarı heç bir müqavimətlə qarşılaşmadan dünya bazarında o qədər də nüfuzlu olmayan (məhsul-

downloaded from KitabYurdu.org

larının keyfiyyətinə görə) xarici firmalar tərəfindən tutuldu. Əksər xarici müəssisələr Azərbaycan bazarına keyfiyyətli məhsullar idxal etməsələr də daxili bazarın zəifliyindən istifadə edərək külli miqdarda vəsait əldə etdilər. Dövlət tərəfindən daxili bazarın qorunması istiqamətində görülən bir sıra tədbirlər bu sahədə də müəyyən qayda-qanun yaradılmasına gətirib çıxardı. Lakin bununla yanaşı bəzi müəssisələrin Azərbaycan istehsal və xidmət bazarında özbaşınalıqları müşahidə olunmaqdadır. «İnhisarçı müəssisələrin dövlət reyestri» bu müəssisələrin fəaliyyətinə nəzarət imkanına malik olsa da, bu nəzarətdən yayınmağa çalışanlar da az deyildir. Bu hal xüsusi ilə müştərək müəssisələrin fəaliyyətində tez-tez təkrar olunmaqdadır. Belə müştərək firmalardan biri Azersun Holdinqdir. Azersun Holdinq əsasən idxal-ixrac əməliyyatları ilə məşğul olur. O, Azərbaycan bazarını kifayət dərəcədə elmi əsaslarla öyrənərək (Azərbaycanda hansı mallara daha çox tələbat olduğunu, çay, qənd, pesok, bitki yağları və s.) həmin məhsulların qiymətləri ilə manipulyasiya edərək külli miqdarda gəlir götürür. Yaxud, telefon-rabitə sistemi sahəsində İsraillə birgə yaradılmış «Bakcell» şirkəti 30 mln. ABŞ dolları miqdarında qoyduğu investisiyanı dəfələrlə geri qaytarılmasına baxmayaraq əhaliyə xidmətin əsas göstəricisi olan tariflərdə əsaslı dəyişikliklər etməmişdir. Bu vəziyyət Türkiyə iş adamları ilə birgə yaradılmış «Azercell» telefon-rabitəsi müəssisəsində demək olar ki, daha acınacıqlı şəkildədir. Azərbaycan telefon-rabitəsi xidməti bazarının çox əhəmiyyətli hissəsini bu şirkətlər öz əllərində cəmləşdirmələrinə baxmayaraq tariflərin azaldılması haqqında müvafiq orqanların göstərişlərinə məhəl qoymurlar. Azərbaycan bazarına yeni daxil olan «Barmek» şirkəti də digərlərindən heç də geri qalmır. Azərbaycan enerji satışı bazarını tədricən öz əlində cəmləşdirən bu firma müxtəlif fırıldaqlara əl atır. Topladığı pulları aldığı enerjinin əvəzində «Azenerji»-yə ödəmək əvəzinə dövlətdən kreditlə ödəmələr aparır, yaxud da cüzi bir hissəsini ödəyir. Özü aldığı enerjinin haqqını ödəmədən – mühüm həyati-vacib müəssisələrin (dövlət müəssisələrinin) xəstəxanaların, metropolitenin, tədris

downloaded from KitabYurdu.org

müəssisələrinin və s. işıqlarını kəsir. Bakıda enerji satışı pulunun toplanmasından narazılığını bildirsə də – digər iri şəhərlərin enerji satışını (Sumqayıtın) icarəyə götürür (Məntiq yoxdur). Nəhayət ki, səlahiyyətli dövlət orqanları 2006-cı ildə «Barmek» şirkətinin özbaşınalığına son qoydu, fəaliyyəti tamamilə dayandırıldı. Qaradağ sement zavodu sement istehsalı və satışı sahəsində ölçüyə gəlməz özbaşınalıqlara yol verir. Müxtəlif yolverilməz fəndlərdən istifadə edərək ölkəyə xaricdən sement gətirilməsinin qarşısını alaraq sementin qiymətini süni surətdə artırır. Antiinhisar qanunvericiliyinin tələblərinə heç bir məhəl qoymur. Təbii ki, bu özbaşınalıqlar uzun müddət davam edə bilməz. Gec-tez müvafiq dövlət orqanları bu prosesləri də nəzarətə götürəcəklər. Gətirdiyimiz nümunələrlə əlaqədar prof. Aqil Əliyevin və prof. Arif Şəkərəliyevin fikri yerinə düşür: «Deməli inhisarlaşma mövcuddur, baxmayaraq ki, o müsbət, yaxud mənfi nəticələrlə müşayiət olunur. İnhisarçılıq labüd olduğu hallarda, yəni onu aradan qaldırmaq mümkün deyilsə, dövlət birbaşa təsir üsulu ilə mənfi nəticələri neytrallaşdırmağa çalışır» (40, s.32).

«Antiinhisar fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanunu inhisarçılıq fəaliyyətinin qarşısının alınmasının məhdudlaşdırılmasının və aradan qaldırılmasının təşkilati və hüquqi əsaslarını müəyyən edir.

Azərbaycan Respublikasının «Antiinhisar fəaliyyəti haqqında» Qanununa uyğun olaraq bir müəssisə satışını 33%-ə; 3 müəssisə 50%-ə; 5 müəssisə 66,6%-ə malik olduğu hallarda inhisarçı hesab edilir (13, s.7).

Yuxarıda göstərildiyi kimi antiinhisar fəaliyyətinin ilkin istiqaməti olan inhisarçılıq fəaliyyətinin qarşısının alınması aşağıdakı hərəkətləri özündə əks etdirir:

- bazarda hökmran mövqe tutan və rəqabəti məhdudlaşdıran yeni təsərrüfat subyektlərinin yaranmasının məhdudlaşdırılması tədbirləri;
- icra, idarəetmə orqanlarının və təsərrüfat subyektlərinin birgə fəaliyyəti haqqında sazişlər nəticəsində təsərrüfat

downloaded from KitabYurdu.org

subyektlərinin müstəqilliyinin pozulmasına yönəldilən fəaliyyətinin qarşısının alınması.

Antiinhisar fəaliyyətinin digər istiqaməti inhisarçı təsərrüfat subyektlərinin məhsullarının qiymətləri üzərində dövlət nəzarəti qoymaqla, onların bazardakı paylarına uyğun mütərəqqi vergi dərəcələrinin tətbiq edilməsi, təbii inhisarçıların öz mövqelərindən sui-istifadə hallarında kredit verilməsi şərtlərinin sərtləşdirilməsi və s. ilə inhisarçıların fəaliyyətinin məhdudlaşdırılmasından ibarətdir.

Antiinhisar fəaliyyətinin üçüncü istiqamətində inhisarçılar tərəfindən rəqabətin sıxışdırıldığı hallarda təşkilati, texnoloji və ərazi şəraitininin imkan verdiyi şəraitdə, səlahiyyətli orqanlar tərəfindən inhisarçı müəssisələrin bölüşdürülməsi haqqında qərarlar qəbul edilməklə inhisarçılıq fəaliyyətini aradan qaldırılmasının həyata keçirilməsi nəzərdə tutulur.

Dünya təcrübəsindən məlumdur ki, inhisarlar ölkələrin iqtisadi inkişafında (inhisarçı mövqelərindən sui istifadə etmirlərsə) çox əhəmiyyətli rol oynayırlar. Yeni müstəqillik əldə etmiş ölkələrdə də inhisarların fəaliyyətinin müsbət tərəfindən istifadə etməklə iqtisadi inkişafda artıma nail olmağa çalışırlar. Həm də iqtisadiyyata daha çevik təsir imkanına malik müəssisə və müəssisələr qrupu müəyyənedici həlqə kimi götürülür. Bu sahədə Rusiya Federasiyasının təcrübəsi təqdirə layiqdir. Belə müəssisələr qrupundan biri dövlət tərəfindən müdafiə olunan və formalaşdırılan maliyyə-sənaye qrupudur. Maliyyə-sənaye qrupundan istifadə edərək ölkədə iqtisadi sistemin transformasiyasına təsir göstərilir. Maliyyə-sənaye qrupu dövlət və ya qarışıq mülkiyyət əsasında yaranan, müəssisələrin müstəqilliyini saxlamaqla, fəaliyyətini baş kompaniyaya tabe edən holdinqdir. Bazarda tam olmaq etibarı ilə maliyyə-sənaye qrupu kartel funksiyasını yerinə yetirir. İştirakçıların mənfəətlərinin maksimumlaşdırılmasına xidmət edir. Bu kartelin daxili mülkiyyət münasibəti aşağıdakı sxem üzrə inki-

downloaded from KitabYurdu.org

şaf edir:

1) İstehsalın konsern və konqlomerat miqyasında birləşməsi;

2) Kapitalın holdinq çərçivəsində birləşməsi; (110,s.193-194)

Bütün bu birləşmələr Rusiya Federasiyasının iqtisadiyyatının inkişafında özünəməxsus rola malikdir. Azərbaycan iqtisadiyyatında bu istiqamətdə müəyyən addımlar atılmaqdadır. Məsələn, bir neçə müstəqil dövlət banklarının birləşməsi nəticəsində yaranan Birləşmiş Universal Səhmdar Bankının yaradılması hesab etmək olar ki, maliyyə mənbələrinin mərkəzləşməsi nəticəsində nisbətən iri həcmli kapital formalaşdırır. Bu bank sistemi istehsal sahələri ilə iqtisadi münasibətlərini düzgün qurarsa tədricən onların istehsal müəssisələri ilə qovuşması prosesi gedər. Nəticədə ölkənin iqtisadi maraqlarına uyğun müəssisələrin iqtisadi göstəriciləri yaxşılaşdırılar, bank sistemi isə öz gəlirlərini maksimumlaşdıra bilər. Yaxud, Azərbaycan dövləti özəl sektorun kreditləşdirilməsini həyata keçirən müvəkkil bank qruplarını müəyyənləşdirməklə özəl qurumlarla bank sistemi arasındakı münasibətlərə mütəmadilik xarakteri verməyə çalışır (kapitalizm mərhələsində bu proses bank kapitalı ilə sənaye kapitalının qovuşması kimi səciyyələnirdi). Artıq Azərbaycan iqtisadiyyatında bazara xas bütün atributlar özünəməxsus yer tutmaqdadır. Ona görə də dünyanın inkişaf etmiş ölkələrində həlledici rola malik olan inhisarların təsərrüfatçılıq təcrübəsindən müsbət mənada istifadə etmədən dünya birliyinə inteqrasiya etmək o qədər də asan məsələ deyildir. Bununla da bazar mexanizminin elementlərinin fəaliyyətinə mane olmayan və istehsalın təşkilinin zəruri nəticəsi kimi meydana gələn inhisarların üstünlüklərindən istifadə etməklə bütövlükdə iqtisadi inkişafa nail olmaq obyektiv reallığa çevrilir.

downloaded from KitabYurdu.org

## 4.4. Dövlətin antiinflyasiya siyasətinin bazar mexanizminin səmərəli fəaliyyətində rolu

Bazar iqtisadi sisteminə keçməkdə olan keçmiş ittifaqa daxil olan bütün respublikalarda olduğu kimi Azərbaycanda da ən mühüm iqtisadi və sosial bəlalardan biri də inflyasiya olmuşdur. İnzibati-amirlik təsərüfatçılığından bazar iqtisadiyyatına keçən ölkələrdə inflyasiyanın mahiyyətinin düzgün dərk edilməsi onun tarixən yaranma səbəblərini araşdırmadan mümkün deyildir. Onun yaranma səbəblərini elmi cəhətdən araşdırmadan keçid iqtisadiyyatında törədə biləcəyi fəsadların qarşısının alınması çətinləşir. İnflyasiya latın sözü (inflation) olub hədsiz artırılmış şişirdilmiş mənası verir. İnflyasiya ilk dəfə XVII əsrdə Fransada kağız pul buraxılması və kağız pulun qiymətdən düşməsi nəticəsində meydana gəlmişdi. Sonradan kapitalizmin inkişafı ilə iqtisadiyyatda daimi bir hadisəyə çevrilmişdir. İnflyasiya bazar iqtisadiyyatının çığırdaşı olub bazar iqtisadiyyatı yolu ilə inkişaf edən bütün ölkələrdə mövcuddur. Həmin ölkələrdə inflyasiyanın səviyyəsi biri-birindən fərqlidir. İnkişaf etmiş ölkələrdə inflyasiyanın səviyyəsi aşağı, inkişaf etməkdə olan və digər ölkələrdə isə onun səviyyəsi nisbətən yüksəkdir. Hətta, inkişaf etmiş ölkələrdə ABŞ-da, Yaponiyada, İngiltərə və Fransada inflyasiyanın yol verilən həddi anlayışından istifadə olunur ki, inflyasiyanın illik norması 5-12 faiz təşkil etdikdən normal hal hesab olunur. Lakin inflyasiyanın bu səviyyəsinin əhalinin gəlirlərinə mənfi təsirini aradan qaldırmaq üçün gəlirlər inflyasiyanın səviyyəsinə uyğun indeksləşdirilir, inflyasiya faizinə uyğun gəlirlər artırılır.

SSRİ 80-cı illərin axırlarından başlayaraq bir sıra böhran yaşayırdı. (Dövlət quruluşu və siyasi hakimiyyət, millətlərarası, iqtisadi və s.). Həmin dövrdə ittifaq dövlətinin böhranın həll edilməsi yollarından biri kimi qarşılıqlı asılılıqda həyata keçirilən qiymətlərin yüksəldilməsi və qiymət islahatları tədbirlərinin həyata keçirilməsi olmuşdur. Nəticədə pul və

downloaded from KitabYurdu.org

əmtəə kütlələri arasında balansın gözlənilməməsi iqtisadiyyatda təhlükəli vəziyyət yaratdı. Kartoçka sistemi, talon, ərzaq sifarişləri, «xüsusi xidmətlər» müəssisələrdə süstlük yaradırdı. İşçilərin əmək məhsuldarlığı aşağı düşürdü. Pul (rubl) tədricən ümumekvivalent funksiyasını, əmək haqqı isə stimullaşdırıcı funksiyasını itirirdi. Ümumittifaq bazarının dağılması, regional bazarların yaranması müşahidə olunurdu. Rubla etibarın itirilməsi nəticəsində əmtəə mübadiləsinin barter vasitəsi ilə həyata keçirilməsinə üstünlük verilir, istehsal müəssisələrində işçilərin əmək haqqı istehsal etdikləri məhsulla ödənilirdi. 1990-cı ilin mayında SSRİ hökuməti tərəfindən qiymətin yüksəldilməsi tədbirləri haqqında məlumat verildikdən sonra praktiki olaraq uzun müddət saxlanıla bilən bütün məhsullar mağazalardan yoxa çıxdı. Əhalidə iqtisadi inkişafa yaranan inamsızlıq tələbatın olub-olmamasından asılı olmayaraq satışda olan bütün mal kütləsinin alınması ilə nəticələndi. Y.Kornainin adlandırdığı kimi «qıtlığın» daimi yol yoldaşı olan «yığımcıllıq meyli» təhlükəli bir hal alır (59, s.44). Enerji daşıyıcılarının həddindən artıq ucuzluğu ondan istifadəni səmərəli etmir, istehsal rentabelli olmur. 1990-cı ilin axırlarında qiymətlərin 75-100% artırılması ilə pul kütləsi ilə əmtəə kütləsi arasında uyğunluğu təmin etməyə çalışırdılar. 1 yanvar 1991-ci ildə əsas xammal materiallarına yeni topdansatış qiymətlərinin tətbiqi ölkədə istehlak bazarında gərginliyi daha da kəskinləşdirirdi. 1989-cu ildən başlayaraq 1991-ci ilin ortalarına qədər uzunmüddətli istifadə mallarının (soyuducu, televizor, avtomobil, xalça və s.) qiymətləri bir neçə dəfə yüksəlmişdir. SSRİ iqtisadiyyatının belə bir vəziyyəti Azərbaycan üçün də səciyyəvi idi. Azərbaycan Respublikası belə bir şəraitdə müstəqillik əldə etmişdir. SSRİ bir iqtisadi məkan kimi dağılsa da Azərbaycan müəyyən müddət rubl məkanında qalmaq məcburiyyətində idi. Müstəqilliyin ilk illərində (qısa bir müddət olsa da) rubldan istifadə ölkəmizdə inflyasiyanı sürətləndirən bir amil kimi çıxış edirdi. Rusiya Federasiyası rublu heç də

downloaded from KitabYurdu.org

əvəzsiz vermirdi. Həm də Rusiyanın özündə rubl çatışmadığından vaxtlı-vaxtında, ən azı əmək haqqının ödənilməsi üçün Azərbaycana rubl gətirilməsi o qədər də asan olmurdu. Bu problemlər də Azərbaycanın daxili bazarında kifayət dərəcədə gərginlik yaradırdı. Bu gərginliklərin aradan qaldırılması istiqamətlərində atılan addımlardan biri də dövriyyəyə milli dövlətçiliyimizin atributlarından biri olan milli manatın buraxılması oldu. Bu sadəcə olaraq pul nişanının dəyişməsi deyildir. Dövlətimiz dövriyyəyə manatı buraxmaqla ona iqtisadiyyata başlıca təsir vasitələrindən biri kimi baxırdı. Təbii ki, həmin dövrdə tədavüldə həddindən artıq pul /rubl/ kütləsi toplanmışdır. Hökumət inzibati formada da olsa 10 rublun = 1 manata bərabər dəyişilməsi kursunu müəyyənləşdirdi. İlkin dövrlərdə əvvəlki illərlə (1990-1991) müqayisədə qısa bir müddətdə olsa da manatın dövriyyəyə buraxılması müəyyən çətinliklərin qismən də olsa həllinə şərait yaratdı. Xarici ölkələrin milli valyutasından (rubldan) ölkə daxilində hesablaşmalarda əsas pul vahidi kimi istifadəsinə son qoyuldu. Əmək haqqının ödənilməsindəki problemlər nisbətən yümşaldıldı. Lakin inflyasiya probleminin həllində nəzərə çarpacaq irəliləyişlər müşahidə olunmurdu. İstehsalın səviyyəsi aşağı düşməkdə davam edirdi, manatın sabitləşdirmə fondu (inzibati qaydada olsa da) yaradılmamışdır. İslahatların ilkin nəticələri o qədər də iqtisadi səmərə verməmişdir. Azərbaycan inzibati-amirlik iqtisadi sisteminin qalıqlarından tədricən xilas olurdu.

Bazar iqtisadi sisteminə inzibati-amirlik iqtisadi sistemindən keçən hər bir ölkə üçün inflyasiyanın yüksək tempi xarakterikdir. Ona görə də bazar iqtisadi sisteminə keçidin ilkin dövrlərində əhalinin sosial müdafiəsini həyata keçirmək məqsədi ilə gəlirlərin inflyasiyanın səviyyəsinə uyğun indeksləşdirilməsi çox hallarda mümkün olmur. Bu zaman ənənəvi yollardan deyil, dünya təcrübəsindən istifadə etməklə respublikamızın real gerçəkliyinə uyğun gələn metod, yol və vasitələrdən istifadə etmək lazım idi.

downloaded from KitabYurdu.org

İnflyasiya probleminin həllinə özfəaliyyət formasında ayrı-ayrı nazirlik və baş idarələrin təşəbbüskarlığı kimi deyil, Azərbaycan dövlətinin iqtisadi islahatlar konsepsiyasının mühüm tərkib hissəsi kimi yanaşmaq lazımdır.

Müstəqilliyimizin ilkin dövrlərində əhalinin sosial müdafiəsinin gücləndirilməsi və inflyasiyanın qarşısının alınmasına yönəldilən tədbirlər bu sahədə vahid konsepsiyanın olmaması, yaxud da bu konsepsiyanın müddəalarının ayrı-ayrı səlahiyyətli orqanlar tərəfindən düzgün başa düşülməsi təsəvvürü yaradırdı. Bazar mexanizminin elementlərinin iqtisadiyyatda təşəkkülü və onların inflyasiyaya təsiri imkanları yetərincə qiymətləndirilmirdi.

İqtisadi lüğətlərdə aydın formada göstərilir ki, inflyasiya qiymətləri ümumi səviyyəsinin artması deməkdir. Deməli müəyyən səlahiyyətli orqanlar qiymətləri yüksəltməklə inflyasiyanı stimullaşdırırdılar. Bazar mexanizminin təklif elementinin məhdudluğu digər elementin - qiymətin yüksəlməsinin (inflyasiyanın yaranmasının) başlıca səbəbinə çevrilirdi. 1990-1992-ci illərdə ölkəmizdə nağd pul kütləsinin qıtlığı şəraitində benzinin, çörəyin qiymətinin dövlət tərəfindən dəfələrlə yüksəldilməsi həmin məhsulların istehlakının miqdarı dəyişmədikdə belə (məlumdur ki, çörəyin qiymətinin yüksəldilməsi onun istehlakının məhdudlaşdırılmasına çox cüzi təsir edir, ya da heç təsir göstərmir) artıq nağd pul kütləsinə ehtiyac yaratdı ki, bu da inflyasiyanı gücləndirirdi. Bu məhsulların qiymətlərinin yüksəldilməsi müəyyən dövrdə məcburiyyət üzündən həyata keçirilmişdir. Çünki dövlət büdcəsinin formalaşmasının əsas mənbəyi kimi həmin məhsullar çıxış edirdilər. Çıxılmaz həlqə alınırdı, bir tərəfdən büdcəyə vəsait cəlb edilməli idi, digər tərəfdən isə inflyasiya güclənirdi.

Manatın alıcılıq qabiliyyətinin yüksəldilməsində və daxili dönərliliyin təmin olunmasında birbaşa maraqlı olmalı Milli Bank qiymətin yüksəldilməsinə rəvanc verməklə milli müstəqilliyimizin əsas atributlarından biri olan manatın sürət-

downloaded from KitabYurdu.org

lə qiymətdən düşməsinə şərait yaratmış, müstəqil Azərbaycan dövlətinin, o cümlədən Milli Bankın nüfuzuna güclü xələl gətirirdi. Sonradan Milli Bank bu istiqamətdəki hərəkətlərində köklü dəyişikliklər etməyə məcbur olmuşdur. Milli Bank tərəfindən inflyasiyanın yumşaldılması məqsədi ilə çevik tənzimlənmə siyasəti həyata keçirilmişdir. Dünya ölkələrinin əksəriyyətində dövlətin əsas bankı müxtəlif iqtisadi rıçaqlardan (kredit, bank faizi, uçot dərəcələri və s.) istifadə edərək istehsalı stimullaşdırır və milli pul vahidininin yüksək inflyasiyaya uğramasının qarşısını alır. Ona görə də iqtisadi islahatların qan-damar arteriyası kimi çıxış etməli olan Milli Bank ona məxsus olan iqtisadi alətlərdən istifadə etməklə bazar münasibətlərinə keçiddə fəal iştirak etməlidir. Bu fəallıq hər şeydən əvvəl düzgün pul-kredit siyasəti ilə inflyasiyanın tənzimlənməsinə istiqamətlənməlidir.

Dünya ölkələrinin təcrübəsi göstərir ki, ölkənin əsas bankı monetar siyasəti həyata keçirən başlıca dövlət strukturu kimi bir sıra iqtisadi proseslərə, o cümlədən də bazar mexanizminin fəaliyyəti şəraitində inflyasiyaya fəal təsir imkanına malikdir. Monetar siyasət dövlətin maliyyə siyasətinin mühüm tərkib hissəsi olub onun məqsədi milli gəlirin, digər makroiqtisadi parametrlərin artımıdır. Vaxtı ilə Fridmen monetar siyasətin müəyyən mənfi nəticələrə gətirib çıxara biləcəyini də nəzərə çatdırırdı. Əsasən monetar siyasətlə iqtisadiyyatımıza təsir etməli olan milli bank onun xüsusi ilə dövlətin sosial-müdafiə mexanizminə vura biləcəyi mənfi nəticələri də diqqət mərkəzindən kənarda qoymamalıdır.

70-ci illərdə Qərb ölkələrində inflyasiyanın yüksək tempi iqtisadçıları monetar siyasətə iqtisadiyyatda yaranmış reallığa uyğun yanaşmağa məcbur edirdi. Belə ki, monetar nəzəriyyənin tərəfdarları hesab edirdilər ki, dövlətin əsas bankı pul aqreqatlarının kəmiyyətinə nəzarətlə məşğul olmalıdır. Başqa sözlə nominal gəlirlərin səviyyəsi və mülayim inflyasiyanın təmin edilməsi uzunmüddətli dövr üçün (Milli Bankın) dövlə-

downloaded from KitabYurdu.org

tin əsas bankının pul siyasətinin əsasını təşkil etməlidir. Nəzəri cəhətdən sabit monetar siyasətin həyata keçirilməsinin iki üsulu var. Birincisi, qanunvericilik yolu ilə monetar siyasəti həyata keçirən dövlət orqanının statusunun müəyyən edilməsi; «Milli Bank haqqında» Azərbaycan Respublikasının Qanunu ilə monetar siyasəti həyata keçirən dövlət orqanının statusu müəyyənləşdirilmişdir. Həmçinin Milli Məclisin 28 mart 1995-ci ildə qəbul olunmuş «Respublikada pul dövriyyəsinin sabitləşdirilməsi tədbirləri haqqında» qərarı ilə monetar siyasətin məqsədləri müəyyənləşdirilmişdir. İkincisi isə, Milli Bank kifayət dərəcədə müstəqil olmalıdır. Milli Bank müstəqil olmasa çevik hərəkət edə bilməz, pul bazarına fəal müdaxilə edə bilməz və inflyasiyaya təsiri o qədər də səmərəli olmaz.

Ümumiyyətlə, dövlət büdcəsinin kəsirliliyinin azaldılmasına qiymətlərin yüksəldilməsi və dövlət bölməsində istehsal olunan məhsulların qiymətlərinin liberallaşdırılması yolu ilə nail olmağa çalışmaq sosial gərginliyin yüksək səviyyədə olduğu keçidin ilkin mərhələsində məncə doğru hesab oluna bilməz.

Keçid dövrünün ilkin mərhələsində Azərbaycan iqtisadiyyatı kəsirli (defisit) iqtisadiyyat kimi səciyyələnir. Kəsirli iqtisadiyyata da kəsirli büdcə uyğun gəlməlidir. Dünya təcrübəsində büdcənin kəsirliyinin aradan qaldırılmasının yeganə yolu qiymətlərin yüksəldilməsi deyil, bazar mexanizmini fəal hərəkətə gətirməklə istehsalın dirçəldilməsinə nail olmaqla vergi verənlərin sayının artırılmasıdır. İstehsalın səviyyəsinin aşağı düşdüyü şəraitdə büdcənin kəsirliyinin aradan qaldırılması mənbələri əhalinin sosial müdafiəsinin daha da zəifləməsinə gətirib çıxarar. Ona görə də büdcə kəsirliliyinin aradan qaldırılması sosial müdafiə mexanizmini zəiflətməməlidir.

Bazar mexanizminin formalaşdığı mərhələdə inflyasiya probleminin öyrənilməsində diqqəti cəlb edən məsələlərdən biri də dövlət borcları məsələsidir. Keçid iqtisadiyyatı ölkələrində dövlət xərclərinin artırılması real gerçəklikdən irəli gələn

downloaded from KitabYurdu.org

amillərin təsiri altında zərurətə çevrildiyindən dövlət borcları artmağa meyllidir. Demək olar ki, bütün keçid iqtisadiyyatı ölkələri üçün dövlət borcu problemi səciyyəvidir. Belə ki, Rusiya Elmlər Akademiyasının akademiki R.Niqmatulin yazır: «Dövlət xərclərinin azaldılmasının zəruri olmasına baxmayaraq Rusiyanın indiki vəziyyətində (ordunun saxlanılması, ictimai asayişin qorunması, təhsilin, səhiyyə və mədəniyyətin inkişaf etdirilməsi və s.) dövlət xərclərinin artırılmasını zəruri edir.» (99.s.131). Azərbaycan Respublikasının da müharibə vəziyyətində olması, sosial problemlər digər amillərlə yanaşı dövlət xərclərinin artırılmasının başlıca səbəbləri kimi çıxış edir. Dövlət öz xərclərini üç mənbə hesabına ödəyir. Birincisi, o vergi daxilolmalarını iqtisadi inkişaf səviyyəsinə uyğun olaraq artıra bilər; ikincisi, əhalidən borc götürə bilər; üçüncüsü, o sadəcə olaraq pul emissiyası həyata keçirə bilər. Hər bir ölkə iqtisadi inkişaf səviyyəsindən asılı olaraq dövlət xərclərinin ödənilmə mənbələrinin seçilməsində sərbəstdirlər. (33, s.5) Lakin bu sərbəstliyin meyarı kimi dövlət xərclərinin səmərəliliyi (xərcin istiqaməti), bütövlükdə xərclərin iqtisadi inkişafa, həyat səviyyəsinə, ümumi milli təhlükəsizliyə və sairəyə təsiri çıxış edir. Fikrimizcə dövlət xərclərinin artırılması sadalanan problemlərin həllinə yönəldiyi halda özünü doğrultmuş hesab oluna bilər.

Azərbaycan Respublikasında da dövlət xərclərinin hansı mənbələr hesabına ödənilməsinin araşdırılması maraq doğuran məsələlərdəndir. Yuxarıda göstərilən hər üç mənbədən istifadə məsələsinə çox ehtiyatla yanaşmaq lazımdır.

Bazar mexanizminin fəaliyyətinə inzibati müdaxilə yolu ilə vergi daxilolmalarını dövlət xərclərinin ödənilməsi üçün artırılması o qədər də məqbul mənbə hesab oluna bilməz. Çünki Azərbaycan Respublikasında sahibkarlağın formalaşması səmərəli vergi sisteminin qurulmasından çox asılıdır. 2002-ci ildən sadələşdirilmiş vergi sisteminə keçilməsi də bu istiqamətdə atılmış addımlardan hesab edilməlidir. Digər tə-

downloaded from KitabYurdu.org

rəfdən kifayət dərəcədə zəif olan Azərbaycan sahibkarlarına (xüsusi ilə kənd təsərrüfatında) güzəştli vergi sistemi tətbiq olunmazsa sahibkarlığın inkişaf etdirilməsinə dövlət tərəfindən əlverişli şərait yaradılmasından söhbət gedə bilməz. Yaxud 2002-ci ildə qəbul olunmuş qərarlara uyğun olaraq regionlarda sahibkarlığın inkişafına təkan vermək məqsədi ilə diferensial vergi sisteminə (regionlarda güzəştli vergi sisteminin tətbiqi) keçid də ölkəmizdə sahibkarlığın inkişafını stimullaşdırmağa yönəldilib. Doğrudur, 2003-cü ilin sonlarında beynəlxalq maliyyə qurumlarının təkidi ilə diferensial vergi sistemi özünü doğrultmayan bir iqtisadi alət kimi ləğv edilmişdir. Diferensial vergi sistemi regionlarda sahibkarlığın inkişafına əlverişli şərait yarada bilmədi. Deməli, dövlət xərclərinin vergi daxilolmalarının artırılması hesabına ödənilməsi imkanı çox məhduddur.

Dövlət dövlət xərclərinin ödənilməsi məqsədi ilə digər mənbə kimi əhalidən borc götürə bilər. Əhalidən borc götürmək üçün isə əhalinin etimadını qazanmaq lazımdır. Müəyyən vəsaitə malik olan əhali dövlətə borc verməkdənsə (dövlət uduşlu istiqrazlarının alınması, əmanətlərinin dövlət banklarında saxlamaq və s.) evdə saxlamağa üstünlük verirlər. Hələ SSRİ dövründən dövlətin əhaliyə olan borclarının ödənilməməsi, nəinki ödənilməməsi, hətta ödənilməsi mexanizminin indiyə qədər hüquqi bazasının olmaması, əhalinin dövlətə bu sahədə inamını azaldır. Yaxud müstəqilliyimizin ilk illərində inflyasiyanın yüksək səviyyəsi şəraitində əhalinin əmanət və gəlirlərinin hökumətimiz tərəfindən qorunmaması da əhalinin dövlətə etimadını zəiflədən amillərdən biri olmuşdur. Doğrudur, hələ 17 iyun 1992-ci ildə «Vətəndaşların pul gəlirlərinin və əmanətlərinin indeksləşdirilməsi haqqında» Azərbaycan Respublikasının Qanunu qəbul olunmuşdur. Lakin maliyyə mənbələrinin məhdudluğu üzündən bu Qanunun tətbiqi mümkün olmamışdır.

downloaded from KitabYurdu.org

Dövlət xərclərinin ödənilməsinin digər mənbəyi kimi çıxış edən pul emissiyası çox vaxt bazar mexanizminin fəaliyyətinin pozulması və inflyasiya ilə bağlıdır. Pul emissiyası vasitəsi ilə dövlət xərclərinin ödənilməsi (senyoraj) keçid iqtisadiyyatı ölkələrində inflyasiyanın əsas mənbələrindən biri hesab olunur.

Pul emissiyası tədavüldə pulun miqdarını artırır. Bu artım heç də iqtisadiyyatda baş verən iqtisadi artımla mütənasib baş vermir. Hətta Azərbaycan Respublikasında istehsalın səviyyəsinin aşağı düşdüyü şəraitdə belə /1991-1995-ci illər/ tədavül dairəsində pul kütləsinin artırılması məcburiyyətində qalmışlar. Dövriyyədəki pullar xərcləri ödəyə biləcəyi səviyyədə geri qayıtmadığından dövriyyəyə əlavə pul kütləsi buraxmağı (əmək haqqı, təqaüdlərin, dövlət idarəetmə xərclərinin, digər sosial xərclərin ödənilməsinə) zərurət yaranır. İlk baxışda asan görünən bu yolu seçən dövlətlər ölkələrində bazar mexanizminin fəaliyyətinə heç bir məhəl qoymadan inflyasiyanı stimullaşdırmış olurlar.

Bəzi dövlətlər senyorajdan geniş istifadə etməklə (xüsusi ilə Latın Amerikası ölkələrində) dövlət borclarından azad olmuşlar. Nəticədə isə inflyasiyanın bütün ağırlığı əhali üzərinə düşmüşdür.

Azərbaycan Respublikası keçidin ilkin mərhələsində bu yoldan istifadə etməyə bilməzdi. Lakin son illərin təcrübəsi göstərir ki, iqtisadiyyatımızda bazar mexanizminin fəaliyyəti nəticəsində sabitləşdirməyə, sağlamlaşdırmaya, iqtisadi artıma nail olunduqca demək olar ki, senyorajdan istifadə tədricən öz əhəmiyyətini itirir. 2007-cü ilin dövlət büdcəsi kəsirli nəzərdə tutulsa da (xərclər gəlirlərdən çox nəzərdə tutulmuşdur) bu kəsirliliyin digər mənbələr hesabına (pul emissiyası nəzərdə tutulmayıb) ödənilməsi planlaşdırılıb. Təbii ki, sahibkarlıq fəaliyyətinin büdcə ilində genişlənməsi büdcə ödəmələrini artıra bilər, dünya bazarında neftin qiymətinin qalxması, neft fondundan müəyyən məbləğin büdcəyə ödənilməsi büdcə kəsirliliyinin ödənilməsi mənbəyi kimi çıxış edə bilər.

downloaded from KitabYurdu.org

Bu gün əsas mübahisə doğuran məsələlərdən biri də bazar mexanizminin fəaliyyəti şəraitində ixracatı genişləndirməklə ölkəyə valyuta axınını stimullaşdırmaq, manatın valyuta təminatını yaratmaq və bu əsasda da inflyasiyanın qarşısının alınması məsələsidir. Məlumdur ki, Azərbaycanın ixracatı çox məhdud növ məhsullardır. Həmin məhsullar da əsasən xammaldan, neft, neft-kimya sənayesi məhsulları, xam pambıqdan və s.-dən ibarətdir. Digər tərəfdən bəzi məhsulların istehsalı ildən-ilə aşağı düşür. Ona görə də bu məhsulların ixracını genişləndirmək üçün onların daxili səmərəsiz istehlakını məhdudlaşdırmaq lazımdır. Daxili istehlakın məhdudlaşdırılmasına qiymətin yüksəldilməsi hesabına nail olunması qeyri-populyar yol hesab olunmalıdır. Burada üstünlük həmin növ məhsulların istehlakında dövlət bölməsinin israfçılığının aradan qaldırılmasına verilməlidir.

Bəzən müəyyən növ məhsulların qiymətlərin yüksəldilməsini həmin məhsulların qeyri-qanuni yolla respublikamızdan kənara daşınması ilə əsaslandırmağa çalışırlar. Dünya təcrübəsindən məlumdur ki, heç bir ölkə müəyyən növ məhsulun qeyri-qanuni yolla xaricə daşınmasının qarşısını almaq üçün qiymətin yüksəldilməsindən istifadə etmir. Sadəcə olaraq bu məhsulların kənara axıb getməsinin qarşısını ala bilən hüquqi aktlar və bu hüquqi aktların işlək mexanizmini yaratmaq lazımdır.

Qiymətlərin yüksəldilməsində istinad olunan səbəblərdən biri də daxili qiymətlərin dünya bazar qiymətlərinə uyğun gəlməməsidir. Məhsulların dünya bazarına çıxmasını stimullaşdıran keyfiyyət göstəriciləri ilə yanaşı onun istehsalına çəkilən xərclərin səviyyəsi əhəmiyyətli rol oynayır. Əslində daxili qiymətlər dünya bazar qiymətlərindən aşağı olmalıdır ki, istehsalçı bazar mexanizminin stimullaşdırıcı funksiyasından istifadə edərək malını dünya bazarına çıxarmaqda maraqlı olsun. ABŞ avtomobilinin qiyməti daxili və xarici bazarda eyni olsaydı heç vaxt ABŞ avtomobil şirkətləri dünya bazarına avtomobil çıxarmağa can atmazdı. Digər tərəfdən,

downloaded from KitabYurdu.org

hər bir məhsulun qiymətinin böyük bir hissəsi, bəzən 60-70%-i əmək haqqından ibarətdir. ABŞ-da neft sənayesi işçisinin orta aylıq əmək haqqı 2500 dollardan çox olduğu halda bizim neft sənayesi işçilərinin orta aylıq əmək haqqı manatın dollara olan nominal kursu ilə götürsək 300-350 dollar təşkil edir.

Bir məsələni də yaddan çıxarmaq lazım deyil ki, bütün hallarda belə qiymətin yüksəldilməsi zərurəti yarandıqda da əldə olunan vəsaitin 70%-indən çoxu müxtəlif formalarda əhaliyə qaytarılmalıdır.

Qiymətlə manipulyasiya yolu ilə daxili istehlaka, ixraca təsir bazar mexanizminin fəaliyyətinə əlverişli mühit formalaşdırılmadığından, keçid iqtisadiyyatının ilkin mərhələsi üçün səciyyəvidir. Azərbaycan indiki mərhələdə dünya iqtisadiyyatına kifayət dərəcədə inteqrasiya etdiyindən xarici iqtisadi əlaqələrin səmərəli quruluşu formalaşmaqdadır. Hətta xarici iqtisadi əlaqələrdə bəzi ölkələrlə müsbət ticarət saldosu formalaşmaqdadır. Müsbət ticarət saldosu ölkəyə valyuta axınının əsas mənbələrindəndir. Aşağıda göstərdiyimiz cədvəl (4.5) dediklərimizi bir daha təsdiqləyir.

**Cədvəl 4.5**

**2005-ci ildə Azərbaycanın əsas ticarət tərəfdaşları (22, s.689) (min ABŞ dolları)**

| Dövlətlər | İdxal | % | İxrac | % | Saldo |
|---|---|---|---|---|---|
| Cəmi | 4211207,3 | 100 | 4347151,2 | 100 | 135943,9 |
| İtaliya | 94574 | 2,25 | 1315742,0 | 30,27 | 1221168,0 |
| Rusiya | 717210,8 | 17,03 | 285416,1 | 6,57 | -431794,7 |
| Türkiyə | 313001,6 | 7,43 | 275959,3 | 6,35 | -37042,3 |
| Fransa | 1218110,5 | 2,89 | 406717,3 | 8,36 | 284906,8 |
| A B Ş | 141272,8 | 3,35 | 43158,0 | 0,99 | -98114,8 |
| Gürcüstan | 45498,8 | 1,08 | 208436,1 | 4,7 | 162937,3 |
| Böyük Britaniya | 384960,6 | 9,4 | 4500,0 | 0,10 | -380460,6 |
| İran | 76318,4 | 1,81 | 166468,0 | 3,83 | 90149,6 |
| Yunanıstan | 5028,3 | 0,12 | 9567,3 | 2,20 | 90644,8 |

* Ticarət tərəfdaşları olan bütün ölkələr göstərilməmişdir.

downloaded from KitabYurdu.org

Cədvəldən (4.5) aydın görünür ki, 2005-ci ilin nəticələrinə görə ölkəmizin ticarət balansı 135943,9 min ABŞ dolları məbləğində müsbət saldoya malik olmuşdur. Xarici ticarət dövriyyəsi genişlənməklə yanaşı, İtaliya, Fransa, Yunanıstan kimi ölkələrlə xarici ticarət əlaqələrində ixrac idxalı qabaqlamışdır. Müvafiq olaraq bu ölkələr üzrə idxal-ixrac nisbəti İtaliya üzrə 2,25; 30,27%; Fransa üzrə 2,89; 9,36%; Yunanıstan üzrə isə 0,12; 2,20% olmuşdur. Göstərilən rəqəmlər Azərbaycanın dünya birliyində mövqeyinin möhkəmlənməsindən xəbər verir. Bütövlükdə müsbət ticarət balansı inflyasiyaya öz təsirini göstərməyə bilməz.

Bizcə, cəmiyyətin əsas iqtisadi-sosial bəlalarından biri olan inflyasiyanın qarşısının alınması vahid iqtisadi strategiya əsasında işlənmiş iqtisadi islahat konsepsiyasında bazar mexanizminin tələblərinə uyğun konsepsiyanın bütün elementlərinin (özəlləşdirmə, dövlətsizləşdirmə, maliyyə-kredit siyasəti və s.) əlaqələndirilməsindən və düzgün həyata keçirilməsindən asılıdır.

İqtisadi islahatların mühüm tərkib hissəsi olan özəlləşdirmə əhalinin müəyyən təbəqəsində toplanmış artıq pul vəsaitinin özəlləşdirməyə istiqamətləndirilməsinə şərait yaradır ki, nəticə etibarı ilə tədricən dövlət büdcəsinin kəsirliyi aradan qalxır, istehlak bazarına istiqamətlənən pulun məbləği azaldığı üçün sabitlik yaranır və inflyasiyanın səviyyəsi özəl sektorun inkişafı və bütövlükdə istehsalın səviyyəsinin yüksəlməsinə uyğun olaraq aşağı düşür.

Azərbaycan iqtisadiyyatında müstəqilliyimizin ilkin dövrlərində qarşılaşdığımız inflyasiya haqqında icmal formada söhbət açmaqla kifayətlənmək olmaz. Azərbaycan iqtisadiyyatı müxtəlif cəhətlərinə görə həm MDB ölkələrindən, həm də digər dünya ölkələrindən fərqləndiyinə görə ölkəmizdə inflyasiyanın təzahür xüsusiyyətlərini diqqət mərkəzindən kənarda qoymaq olmaz. Doğrudur, əksər ölkələrdə inflyasiyanı artım sürətindən asılı olaraq onun üç əsas növünü: mülayim, sürətli (çaparaq) və ifrat (hiper) fərqləndirirlər.

downloaded from KitabYurdu.org

İnkişaf etmiş bazar sistemli ölkələrin iqtisadi inkişafı göstərir ki, bazar mexanizminin normal fəaliyyəti şəraitində bu ölkələr üçün mülayim inflyasiya səciyyəvidir, sürətli inflyasiya ifrat istehsal böhranlarının nəticəsidir, hiper inflyasiya isə kəskin sosial sarsıntılar və böyük müharibələr şəraitində baş verir.

Azərbaycanın bazar münasibətlərinə keçdiyi mərhələdə qarşılaşdığı sosial bəla olan inflyasiya hiper inflyasiya formasında baş vermişdir. Həm də bu inflyasiya miqyasına görə müqayisə olunmaz bir dərəcə almışdır. 1990-1992-cü illərdə inflyasiyanın illik norması hətta min faizlə hesablanırdı. Həm də bu inflyasiya ardıcıl olaraq istehsalın kəskin şəkildə aşağı düşməsi ilə müşahidə olunurdu.

Doğrudur, iqtisadiyyatda aparılan radikal islahatlar 90-cı illərin ikinci yarısından bazar mexanizminin fəaliyyətinə əlverişli şərait yaradıldıqca zəif də olsa öz müsbət nəticələrini verməyə başlamışdır. Bu müsbət nəticələrdən biri də (istehsalın səviyyəsinin aşağı düşməsi dayandırılmış, kənd təsərrüfatı, tikinti və sənaye istehsalında canlanma yaranmışdır) inflyasiyanın tədricən cilovlanmasıdır. Artıq Azərbaycan iqtisadiyyatında inflyasiya sürətinə görə mülayim inflyasiya kimi səciyyələnir. 1999-cu ilin əvvəlində bir ABŞ dolları 3900-4000 manat olmuşdursa, 2002-ci ilin sonuna bu nisbət 1:4900 olmuşdur, yəni manat üç il ərzində 10% inflyasiyaya uğramışdır. 2006-cı ildə Milli Bank tərəfindən həyata keçirilən denominasiyadan sonra manatın xarici valyutada nisbəti daha da möhkəmlənmişdir.

Təbii ki, Azərbaycan iqtisadiyyatı dünya iqtisadiyyatına inteqrasiya etdikcə orada baş verən dəyişikliklərə da həssas olur. Dünya bazarında enerji daşıyıcılarının qiymətlərinin yüksəlməsi inflyasiya törədən amilə çevrilməklə yanaşı bir sıra məhsul və xidmətlərin qiymət və tariflərini də yüksəldir.

downloaded from KitabYurdu.org

**Cədvəl 4.6**

**2005-ci ildə ayrı-ayrı ərzaq məhsullarının qiymət indeksi (keçən ilin dekabrına nisbətən faizlə) (22,s.410-144)**

| Məhsulun adı | |
|---|---|
| Təmizlənmiş düyü | 104,1 |
| Buğda unu | 90,9 |
| Əla növ buğda çörəyi | 99,0 |
| Sümüklü mal əti | 121,4 |
| Sümüklü qoyun əti | 121,3 |
| Toyuq | 104,0 |
| Kütüm, sazan, xəşəm | 108,0 |
| Kərə yağı | 98,6 |
| Təbii bal | 104,9 |
| Qara və yaşıl çay | 101,6 |

Müqayisə olunası illərdə göstərilən məhsulların qiymətləri nəzərə çarpacaq dərəcədə artmasa da (mal əti və qoyun ətindən başqa) 2006-cı ilin sonu 2007-ci ilin 1- ci altı ayında bu məhsulların qiymətləri ilə yanışı digər məhsulların da qiymətlərində yüksək artım tempi müşahidə olunmuşdur. Rəsmi mənbələrə görə inflyasiyanın səviyyəsi 1,7%-ə çatmışdır. Lakin bu o qədərdə təhlükəli hədd deyil. İqtisadi artımın yüksək tempi və əhali gəlirlərinin 2007-ci ilin I rübü ərzində 32% artdığı şəraitdə iflyasiyanın təhlükəliliyində söhbət gedə bilməz. Digər tərəfdən də hökumət konkret artiinflyasiya tədbirləri həyata keçirməkdə davam edir.

Ölkəmizdə keçidin ilkin mərhələsində bazar mexanizminin fəaliyyətinə əlverişli şərait yaradılması nəticəsində əldə edilən köklü dəyişikliklər, tədricən iqtisadi artıma nail olunması imkan verir ki, Azərbaycan Respublikasında inflyasiyanın səviyyəsinin dünyanın digər ölkələri ilə müqayisə olunsun.

downloaded from KitabYurdu.org

**Cədvəl 4.7**

**Dünyanın bəzi ölkələri ilə inflyasiyanın səviyyəsinin müqayisəsi %-lə (18, s.57)**

| | 1998-ci il |
|---|---|
| Azərbaycan[1)] | 1,8 |
| Avstriya | 0,9 |
| Braziliya | 3,2 |
| Macarıstan | 14,4 |
| Almaniya | 1,0 |
| Yunanıstan | 4,8 |
| Hindistan | 13,2 |
| Latviya | 4,7 |
| Litva | 5,1 |
| Polşa | 11,7 |
| ABŞ[2)] | 1,6 |
| Türkiyə | 84,6 |
| Rusiya | 27,7 |

1) 2000-ci il 2) 1996-cı il

Cədvəldən (4.7) göründüyü kimi inflyasiyanın səviyyəsini müqayisə etmək üçün dünyanın inkişaf etmiş, inkişaf etməkdə olan və keçid iqtisadiyyatı dövrünü yaşayan ölkələr nümunə gətirilmişdir. Doğrudur, Azərbaycanda inflyasiyanın səviyyəsi 2000-ci il üçün götürülsə də (1,8%) dünyanın inkişaf etmiş ölkələrindən o qədər də yüksək deyildir (ABŞ 1996-cı il 1,6, Avstriya 1998-ci il 0,9, Almaniya 1998-ci il 1,0 faiz olmuşdur). İnkişaf etməkdə olan ölkələrdən isə aşağı səviyyədədir (Braziliya 1998-ci il 3,2; Yunanıstan 1998-ci il 4,8; Türkiyə 1998-ci il 84,4 faiz olmuşdur).

Azərbaycan Respublikasında inflyasiyanın səviyyəsinin keçid dövrünü yaşayan Şərqi Avropa və keçmiş SSRİ məkanındakı indiki müstəqil dövlətlərlə müqayisəsi daha səhih məlumata malik olmağa imkan verir. Şərqi Avropa ölkələrindən Majarıstan da1998-ci ildə inflyasiyanın səviyyəsi 14,4 faiz; Polşada 11,7% olmuşdur. Keçmiş sovet respublikalarından Latviyada 4,7%; Litvada 5,1%; Rusiyada 27,7% olmuşdur.

downloaded from KitabYurdu.org

Təbii ki, inflyasiyanın nəzərə çarpacaq dərəcədə məhdudlaşdırılmasına nail olunması Azərbaycan hökumətinin həyata keçirdiyi kompleks tədbirlərin qanunauyğun nəticəsi olaraq formalaşan bazar mexanizminin reallaşması nəticəsində mümkün olmuşdur. O, inflyasiyaya qarşı mübarizədə bazar mexanizminin fəaliyyəti sahəsindəki dünya təcrübəsindən yararlanmaqla yanaşı, öz milli reallığını nəzərə almaqla beynəlxalq maliyyə təşkilatlarının da yardımından faydalanmışdır.

İnflyasiya törədən amillərin qısa bir müddətdə aradan qaldırılması o qədər də asan olmadığından Azərbaycan dövləti də digər ölkələrdə olduğu kimi inflyasiyanın əleyhinə bazar mexanizminin təbiətinə uyğun gələn tədbirlər hazırlamış və bu tədbirlərin məqsədyönlü şəkildə iqtisadiyyata tətbiqinə nail olmuşdur. Bu tədbirlər içərisində bütövlükdə iqtisadiyyatın dirçəlməsi, istehsalın inkişaf etdirilməsi mühüm əhəmiyyət kəsb edir. Əgər istehsalın dirçəlməsinə nail olunmazsa uzunmüddətli dövrdə süni yolla (manatla dolların kursunu tarazlamaq) inflyasiyanın qarşısını almaq mümkün olmayacaq.

Bütün bu tədbirlərin həyata keçirilməsi müəyyən nəzəri-elmi və praktiki mənbəyə söykənir. Antiinflyasiya tədbirlərinin formalaşdırılması baxımından əsasən iki nəzəriyyə monetarist və keynsçi nöqteyi-nəzərlər diqqəti cəlb edir. Monetarist nəzəriyyə daha çox azad bazar şəraitində pul kütləsinin məhdudlaşdırılmasına üstünlük verir. Keynsçilər də inflyasiyaya qarşı mübarizə baxımından monetaristlərdən prinsipial formada fərqlənmirlər. Onlar yalnız pul təklifinin məhdudlaşdırılması ilə deyil, həm də qiymətə nəzarətlə əmək haqqının artırılmasının qarşısının alınması vasitəsi antiinflyasiya tədbirlərinin görülməsini əsaslandırmışlar. Bu mövqe isə daha çox tənzimlənən iqtisadiyyata uyğun gəlir.

Antiinflyasiya tədbirlərinin formalaşdırılması iki tip iqtisadi siyasətin həyata keçirilməsini tələb edir:

1. Büdcə kəsirliyinin aradan qaldırılması, kredit ekspansiyasının məhdudlaşdırılması və pul emissiyasının dayandırılması;

downloaded from KitabYurdu.org

2. Əmək haqqını qiymət artımı ilə əlaqələndirən qiymət və gəlirlərin tənzimlənməsi. Hər bir ölkə öz iqtisadi inkişaf səviyyəsinə uyğun olaraq göstərilən variantlardan birini seçir.

Bu və ya digər antiinflyasiya tədbirlərinin həyata keçirilməsi yenicə müstəqillik əldə etmiş ölkələr üçün, o cümlədən də Azərbaycan üçün o qədər də asan deyil. Bu tədbirlərin həyata keçirilməsi kifayət dərəcədə maliyyə vəsaiti tələb etdiyindən beynəlxalq maliyyə qurumları ilə əməkdaşlığa zərurət yaranır. Doğrudur, bu qurumlarla əməkdaşlıq heç də həmişə müsbət nəticələr vermir. Beynəlxalq maliyyə təşkilatlarından biri olan BVF bütün ölkələr üçün eyni sabitləşdirmə proqramı hazırlayır və bu və ya digər ölkələrin xüsusiyyətlərini nəzərə almır. Bununla əlaqədar S.Məmmədov yazır: «Hər bir ölkənin özünə məxsus spesifik xüsusiyyəti vardır və sabitləşmə proqramları qurularkən bu xüsusiyyətlər mütləq nəzərə alınmalıdır» (86, s.66).

Azərbaycanın beynəlxalq maliyyə qurumları ilə əməkdaşlığının müəyyən neqativ nəticələrinə baxmayaraq onların maliyyə yardımından və tövsiyələrindən faydalanaraq bazar mexanizmini formalaşdırmaqla iqtisadiyyatda sabitləşdirməyə, inflyasiyanın qarşısının alınmasına nail olunmuşdur.

Azərbaycan Respublikası beynəlxalq valyuta maliyyə təşkilatlarına qoşulduqdan sonra ölkədə müəyyən iqtisadi inkişaf nəzərə çarpır.

1995-ci ildə Azərbaycan hökuməti inflyasiyanı məhdudlaşdırmağa, makroiqtisadi disproporsiyanı aradan qaldırmağa, həmçinin bazar iqtisadiyyatına keçidi sürətləndirməyə yönəldilmiş iqtisadi islahatlar proqramını həyata keçirməyə başlamışdır.

BVF-nin Azərbaycan hökuməti ilə birgə 1995-ci ildən həyata keçirdiyi birinci proqram üzrə ilkin təklifləri aşağıdakı kimi olmuşdur:

- Makroiqtisadi stabilliyin təmin olunması.
- Manatın kursunun sabitləşdirilməsi və inflyasiyanın minimuma endirilməsi.

downloaded from KitabYurdu.org

- Büdcə kəsirinin minimuma endirilməsi.
- Mülkiyyət münasibətlərinin transformasiyası.
- Struktur islahatlarının həyata keçirilməsi.

Azərbaycanda həyata keçirilməsi nəzərdə tutulan bu proqram 15 aylıq bir dövrü əhatə etmişdi. Azərbaycan bu müddət ərzində iqtisadiyyatda sağlamlaşdırma və strateji dəyişiklikləri həyata keçirməyi öz üzərinə götürmüşdü. Bununla yanaşı Azərbaycanın sadəcə pul siyasətinə üstünlük verilməsi, iqtisadiyyatda dəyişikliklərə gətirə biləcək siyasətlərin tətbiqində xeyli maneələr yaradırdı. Pul siyasəti içərisində əsas çəkini valyuta kursu siyasəti təşkil etməkdə idi.

1995-ci ilin payızından başlayaraq əldə edilmiş uğurların möhkəmləndirilməsi və islahatların dərinləşdirilməsi məqsədilə daha bir proqram həyata keçirilmişdir. Hər iki proqram BVF və ÜB-n maliyyə yardımı altında həyata keçirilmiş və nəticədə inflyasiyanın kəskin surətdə aşağı düşməsinə səbəb olmuşdur. Əgər 1994-cü ildə inflyasiya 1800% təşkil etmişdirsə, 1996-cı ildə 5%-lik həddi ötməmişdir.

İstehsalın aşağı düşmə tempi azalmış, 1997-ci ildən başlayaraq iqtisadi artıma nail olunmuşdur.

Struktur islahatlar xeyli sürətlənmişdir ki, bu da son illər ərzində həyat səviyyəsinin sabit saxlanılması üçün əlverişli şərait yaradır.

Azərbaycan hökumətinin BVF və DB ilə sıx əməkdaşlığı nəticəsində 1997-1999-cu illər üçün ortamüddətli inkişaf proqramı işlənib hazırlanmışdır. Bu proqramın uğurla həyata keçirilməsi BVF və digər beynəlxalq maliyyə qurumlarının ölkə iqtisadiyyatında bazar mexanizminin formalaşdırılması ilə inflyasiyanın qarşısının alınmasında iştirakını daha da genişləndirər.

Azərbaycanın BVF ilə birgə həyata keçirdiyi ikinci proqram sərbəst bazar iqtisadiyyatının təşkili üçün zəruri olan aşağıdakı tədbirlər proqramını əks etdirirdi:

- hökumət işlərində şəffaflığın artırılması;
- korrupsiyanın aradan qaldırılması;

downloaded from KitabYurdu.org

- yerli və xarici investorların sahibkarlıq fəaliyyəti üçün ümumi əlverişli mühitin yaradılması.

İkinci birgə proqram çərçivəsində BVF nümayəndələrinin Azərbaycana səfərləri zamanı (2002-ci ilin may ayının əvvəlində) Azərbaycanda makroiqtisadi stabilliyin qorunması, maliyyə vəsaitlərindən istifadə və parlamentə verilən hesabatların şəffaflığının təşkili, neft fondunun yaradılması, bank sisteminin, enerji sektoru və sosial sferanın strukturunun yenidən qurulması və eləcə də dövlət sektorunda və idarəetmədə təxirəsalınmaz islahatların zəruriliyi vurğulanmışdır. Eyni zamanda, dövlət sektoru ilə bağlı islahatlar içərisində dövlət xərclərinin idarə olunmasının yaxşılaşdırılması, hüquq və məhkəmə islahatlarının aparılması, dövlət xidməti islahatları, nazirlər kabineti və mərkəzi hökumət aparatının bazar iqtisadi sisteminin tələblərinə uyğun yenidən qurulması, vergi və gömrük xidmətinin təkmilləşdirilməsi təxirəsalınmaz tədbirlərdən hesab olunmuşdur.

Birinci və ikinci proqram üçün 500 milyon dollara yaxın kredit alınmış və bunun 70-80 milyon dolları qaytarılmışdır.

BVF ilə həyata keçirilməsi nəzərdə tutulan aşağıdakı proqram yoxsulluğa qarşı mübarizə proqramı (bu proqramın 3 illik olacağı gözlənilir) adlanır:

- makroiqtisadi sabitlik sahəsində əldə olunan nəticələrin davamlı xarakterə keçilməsi işinin dəstəklənməsi;
- kənd təsərrüfatı və digər neftdən kənar sahələrin inkişafı və dəstəklənməsi;
- dövlət idarəçiliyinin təkmilləşdirilməsi.

Beynəlxalq Valyuta Fondu Azərbaycanda üçüncü birgə proqram işləyib hazırlamışdı. 2001-2003-cü illərdə Azərbaycanın iqtisadi və maliyyə siyasəti proqramının son variantı, həmçinin Azərbaycanda yoxsulluğun azaldılması proqramını əks etdirir. Yoxsulluqla bağlı proqrama gəlirlərin artırılması ilə yanaşı, ətraf mühitin, su təchizatı və kanalizasiya sistemlə-

downloaded from KitabYurdu.org

rinin, səhiyyə xidmətlərinin, təhsilin yaxşılaşdırılması və s. məsələlərin həllinin də daxil ediləcəyi dövlət rəsmiləri tərəfindən bildirilir. Proqramlarla tanış olduqdan sonra BVF hər iki sənədi təsdiq olunmaq üçün Fondun Direktorlar Şurasına təqdim edəcək. BVF-nin ekspertləri perspektiv proqramda əksini tapmış yoxsulluqla mübarizə, dövlət strukturu, həmçinin maliyyə və bank sektorunda islahatlarla bağlı tədbirlərin səmərəliliyini müəyyənləşdirəcəklər. BVF üç illik proqramın gerçəkləşdirilməsi üçün Azərbaycana 100 – 150 milyon ABŞ dolları həcmində kredit ayırmışdır. Azərbaycanın digər böyük kreditoru olan Dünya Bankının xətti ilə isə respublikaya 300 milyon ABŞ dolları məbləğində vəsait daxil olmuşdur. Bu il Dünya Bankı Azərbaycana 50-100 milyon dollar kredit ayırmaq niyyətindədir. 3 illik proqramın həyata keçirilməsi üçün ayrılacaq kreditin ümumi həcmi 180-300 milyon dollara bərabərdir.

Azərbaycan Respublikası beynəlxalq maliyyə təşkilatları ilə birgə fəaliyyət göstərərək milli maraqlarımıza uyğun bazar mexanizmini fəal hərəkətə gətirməklə bir sıra iqtisadi problemləri, o cümlədən də inflyasiya problemini həll etməklə müstəqil milli iqtisadiyyatımızı formalaşdırır.

downloaded from KitabYurdu.org

# V FƏSİL

# MİLLİ İQTİSADİYYATDA BAZAR MEXANİZMİNİN FORMALAŞMASININ SOSİAL-İQTİSADİ NƏTİCƏLƏRİ

## 5.1. İqtisadi resurslara görə gəlirlərin formalaşması və dinamikasına bazar mexanizminin təsiri

Gəlirlərin yaranması və bölgüsünün elmi cəhətdən araşdırılması həmişə iqtisad elminin tədqiqat predmeti olmuşdur. Gəlirləri mülkiyyətin reallaşması forması kimi tədqiq edən iqtisadçı alimlər mülkiyyət münasibətlərinin dəyişilməsi ilə gəlirlərin yaranması və bölgüsündə də köklü dəyişikliklər baş verdiyini diqqət mərkəzində saxlayır.

Hər bir iqtisadi sistem öz sosial-iqtisadi təbiətinə uyğun iqtisadi qanunların fəaliyyət sistemini yaradır, bu sistemə uyğun olaraq istehsalın, istehlakın və gəlirlərin də formalaşmasının spesifik mexanizmi yaranır. Gəlirlərin formalaşması mexanizmi hər şeydən əvvəl istehsal amillərinin (əsasən istehsal vasitələri və işçi qüvvəsi) birləşməsi üsuluna və istehsalın xarakterinə uyğun gəlir. Ona görə də araşdırılan mövzuda gəlir anlayışı ümumi təsəvvür şəklində deyil, bilavasitə istehsaldan asılı bir iqtisadi nəzəriyyə kateqoriyası kimi araşdırılır. Ağırlıq mərkəzində müxtəlif iqtisadi sistemlərdə gəlirlərin kəmiyyət fərqliliyi deyil (baxmayaraq heç də bu az əhəmiyyətə malik deyildir) məzmunu və formalaşması mexanizmi durur.

Müxtəlif iqtisadi sistemlərdə gəlirlərin əmələgəlmə mexanizminin mahiyyətini açmaq üçün hər şeydən əvvəl gəlirlərin məzmunu, bu kateqoriyanın nüvəsində nələrin durduğu araşdırılmalıdır. Gəlir ümumi iqtisadi kateqoriya olmaq etibarı ilə aktiv və passiv fəaliyyətdə olan hüquqi və fiziki şəxslərin aldıqları və topladıqları pulun kəmiyyət miqdarıdır. Gəlirlərin ümumi kəmiyyət miqdarının artımı cəmiyyətin bütöv-

downloaded from KitabYurdu.org

lükdə iqtisadi inkişafı ilə müəyyən olunduğu halda (inkişaf etmiş ölkələrdə adambaşına düşən ÜDM 5000 dollar olduğu halda Azərbaycanda bu rəqəm təxminən 1517,7 dollar təşkil edir) bu kəmiyyət təsərrüfat subyektləri və fiziki şəxslər üçün onların fərdi fəallığından daha çox asılı olur. Bu isə hər şeydən əvvəl istehsal vasitələrinə münasibətlə, istehsal vasitələrinin mənimsənilməsi forması ilə müəyyən olunur. İstehsal vasitələrinin mənimsənilməsi forması bölgü qaydalarını da müəyyənləşdirir. Bölgü qaydaları isə gəlirlərin formalaşması mexanizmini yaradır. Hər bir iqtisadi sistemdə fərqli bölgü qanunu fəaliyyət göstərdiyindən gəlirlərin də yaranma mexanizmi həm prinsip etibarı ilə, həm də məzmunca köklü şəkildə fərqlənirlər. Gəlirlərin formalaşmasının bazar mexanizmini araşdırmaq üçün sosializm şəraitində gəlirlərin formalaşması qanunauyğunluqlarının nəzərdən keçirilməsinə tarixi ekskurs etmək yerinə düşərdi. Sosializm cəmiyyətində gəlirlərin formalaşmasının əsasını əməyə görə bölgü (sosializmin bölgü qanunu) təşkil etmişdir. Cəmiyyət miqyasında istehsal vasitələri üzərində ictimai mülkiyyət mülkiyyətə münasibətdə nisbi bərabərlik yaratdığından istehsal vasitələrinin mənimsənilməsi gəlirlərin formalaşmasının həlledici amilinə çevrilə bilməmişdir. İctimai sosialist mülkiyyətinin daha çox subyektiv amillərin təsiri altında reallaşma imkanının məhdudlaşdırılması gəlirlərin mülkiyyətdən asılı olmayaraq, nisbi müstəqil şəkildə formalaşmasına gətirib çıxarmışdır. Təbii ki, bütün iqtisadi sistemlərdə tədqiqatçıların göstərdiyi kimi gəlirlərin formalaşmasının əsasını mülkiyyət münasibətləri təşkil edir. Müxtəlif iqtisadi sistemlərdə gəlirlərin formalaşması xüsusiyyətlərini təhlil edərək prof. Ə.P. Babayev yazır: «Geniş mənada bölgü dedikdə, istehsal subyektləri arasında istehsal şərtlərinin və amillərin bölgüsü nəzərdə tutulur. Bu bölgünü çox vaxt istehsal vasitələri üzərində mülkiyyət də adlandırırlar. Dar mənada bölgü dedikdə, sadəcə olaraq, istehsalın nəticəsi olan məhsulların bölgüsü başa düşülür» (23, s.488). Dar mə-

downloaded from KitabYurdu.org

nada bölgü, (istehsal vasitələri üzərində ictimai dövlət mülkiyyəti olduğundan) istehsalın nəticəsinin bölgüsü olduğundan sosialist bölgü münasibətlərinə uyğun gəlir. Ona görə də sosializm şəraitində istehsal amillərinin bölgüsü deyil, istehsalın nəticəsinin (istehlak şeyləri) bölgüsü gəlirlərin formalaşmasının əsasını təşkil etmişdir. Sosializm şəraitində gəlir anlayışı daha çox işçiyə, işləyənə məxsusluğu ilə səciyyələnirdi. Əməyə görə bölgü qanunu sanki daha çox «işləməyən dişləməz» prinsipi əsasında fəaliyyət göstərirdi. Ancaq real gerçəklik tamamilə fərqli şəkildə səciyyələnirdi. Gəlirlərin əsas mənbələrinin (sahibkarlıq fəaliyyətinin məhdudlaşdırılması, yaxud da ümumiyyətlə qadağan edilməsi) fəaliyyət üçün şəraitin olmaması sosializm şəraitində əmək haqqına gəlirlərin əsas forması kimi çıxış etməyə imkan verirdi. Bəzən xalq təsərrüfatının ayrı-ayrı sahələrində (xüsusi ilə sənaye işçiləri arasında) işçilərin gəlirlərinin ümumi məbləğində əmək haqqı 90-95% təşkil edirdi. Əslində əməyə görə bölgünün əsasını əməyin kəmiyyət və keyfiyyəti təşkil etməli olduğu halda əməyin ödənilməsində həddindən çox bərabərçiliyə yol verilirdi. Əməyin ödənilməsindəki bərabərçilik əməyin keyfiyyətinin təkmilləşdirilməsinə marağı zəiflədir və nəticədə hər bir istehsalçıda özünün fərdi əməyinin nəticələrinə maraq da azalırdı. Xalq təsərrüfatının müxtəlif sahələrində çalışanların gəlirlərinin səviyyəsi fərqləndiyi kimi (sənaye işçilərinin orta aylıq əmək haqqı 215-230 manat, kənd təsərrüfatı işçilərinin orta aylıq əmək haqqı ilə 150-170 manat idi) mənbələri də çox əhəmiyyətli formada biri-birindən fərqlənirdi. Kənd əhalisi ictimai təsərrüfatlarda (kolxoz və sovxozlarda) çalışmalarına baxmayaraq onların gəlirlərinin əsas hissəsi şəxsi yardımçı təsərrüfatdan götürülən gəlirin hesabına formalaşırdı. İctimai təsərrüfatlarla müqayisədə şəxsi yardımçı təsərrüfatların şəxsi mənafeyi daha real ödəmək imkanı xüsusi mülkiyyətçilik meylindən də irəli gəlirdi. Kənd təsərrüfatı üçün yararlı torpaq sahəsinin cəmi 3 faizinin şəxsi yardımçı təsərrüfatların və həy-

downloaded from KitabYurdu.org

ətyanı sahələrin payına düşməsinə baxmayaraq bir sıra məhsulların istehsalının (bostan məhsulları, tərəvəz, meyvə, bəzi heyvandarlıq məhsulları) 60-70%-i bu təsərrüfatların payına düşürdü ki, onlar da həmin məhsulları dövlət tədarükü və kolxoz bazarları vasitəsi ilə reallaşdırırdı. Kənd yerlərində ictimai təsərrüfatlarda əmək fəaliyyəti mövsümi xarakter daşıdığından (5-6 ay işləyirdilər) həyətyanı sahədə və şəxsi yardımçı təsərrüfatda çalışmaq üçün kifayət dərəcədə vaxt qaldığından onlar gəlir götürmək maraqlarını bu sahənin inkişaf etdirilməsi hesabına reallaşdırırdılar.

Sosializm qanunvericiliklə xüsusi mülkiyyət münasibətlərini qadağan etsə də müəyyən hədd daxilində şəxsi sərəncamda olan xırda əmək alət və vasitələrindən istifadə etməklə fərdi əmək fəaliyyəti ilə (muzdlu əmək tətbiq etmək qadağan idi) şəxsi əmək əsasında məşğul olmağa yol verilirdi. Bu qrup əhalinin gəlirləri isə əhalinin şəxsi maraqlarına daha çox uyğun gələn formada, bazar prinsipləri əsasında formalaşmaq imkanı əldə edirdi. Xırda əmək alət və vasitələrinə malik olmaqla istehsal etmək, xidmət göstərmək imkanı onların fərdi qabiliyyətlərinin üzə çıxmasına gətirib çıxarırdı. Sosializm şəraitində gəlirlərin səviyyəsindəki nisbi bərabərlik prinsipi (minimum əmək haqqı ilə yüksək əmək haqqı cəmi 5-6 dəfə bir-birindən fərqlənirdi) fərdi əmək fəaliyyəti sferasında pozulurdu.

Sosializm cəmiyyətində hakim mülkiyyət forması ümumxalq dövlət mülkiyyəti və müəyyənedici mənafeyi formal da olsa ümumxalq mənafeyinin olduğunu nəzərə alaraq gəlirlərin bir spesifik forması kimi cəmiyyətin və müəssisənin gəlirləri probleminə də toxunmaq yerinə düşər. Sosializmdə gəlirlərin spesifik formalarından biri də cəmiyyətin və müəssisənin xalis gəliridir. Praktiki olaraq xalis gəlir reallaşan məhsulların topdansatış qiyməti ilə istehsal və satışla əlaqədar olan fərqin xərci kimi çıxış edir və zəruri əməklə yaranıb maddi istehsalda işçilərinin tələbatının ödənilməsinə gedən məhsulun dəyərinin bir hissəsini özünə daxil edir. SSRİ-də xalis gəlir

downloaded from KitabYurdu.org

iki formada mənfəət və dövriyyədən vergi şəklində mövcud olmuşdur. Dövriyyədən vergi dövlət tərəfindən topdansatış qiymətlərinin bir hissəsi kimi (müəssisənin topdansatış qiymətlərinə əlavələr etməklə) möhkəm qaydada müəyyənləşdirilirdi. Cəmiyyətin xalis gəliri iki hissəyə dövlətin mərkəzləşdirilmiş xalis gəlirinə və müəssisənin xalis gəlirinə ayrılırdı. Dövlətin mərkəzləşdirilmiş xalis gəliri dövriyyədən vergi, dövlət təsərrüfatlarının mənfəətdən ödəmələri və kolxoz-kooperativ təşkilatlarının gəlir vergisindən ibarət idi. Gəlirlərin bu spesifik formaları kifayət dərəcədə ziddiyyətliliyi ilə səciyyələnirdi. Bu ziddiyyətlilik hər şeydən əvvəl mülkiyyətçinin mülkiyyətə heç bir hüququ olmamasında öz ifadəsini tapırdı.

Əhalinin qeyri-istehsal sahələrində çalışan hissəsinin gəlirləri əmək haqqı şəklində dövlət büdcəsi vasitəsi ilə dövlətin mərkəzləşdirilmiş xalis gəliri hesabına formalaşdırılırdı. Bütün ödəmələr çıxıldıqdan sonra müəssisənin sərəncamında qalan mənfəət isə onun xalis gəlirini təşkil edirdi. Müəssisə bu xalis gəliri istehsalının inkişafı və maddi həvəsləndirmə fondlarına yönəldirdi.

Sosializm şəraitində gəlirlərin formalaşması mexanizmini nisbətən ətraflı şərh etməkdə məqsədimiz oxucuda (mütəxəssisdə) müəyyən təsəvvür yaratmaqla yanaşı onun çatışmayan cəhətlərini açıb göstərməkdir. Təbii ki, bu mexanizm sosializmə xas olduğundan sosialist təsərrüfat mexanizminin mərkəzi həlqəsi olan planlaşdırmanın təsirindən kənarda qala bilməzdi. Bu, hər şeydən əvvəl öz əksini gəlirlərin səviyyəsinin süni şəkildə tarazlaşdırılmasında, müəssisənin gəlirlərinin planlı qaydada onun əlindən alınmasında, gəlirlərin yüksək həddinin məhdudlaşdırılmasında tapırdı. Mənafelərin əsas reallaşma forması olan şəxsi gəlirlərin formalaşmasının ictimai mənafelərə üstünlük verilməsi ilə pozulması cəmiyyətin iqtisadi əsaslarının inkişaf etdirilməsinə stimulu zəiflətmiş və bütün digər kompleks amillərlə (obyektiv və subyektiv) birlikdə sosializmin dağılmasına gətirib çıxartmışdır.

downloaded from KitabYurdu.org

Milli müstəqillik əldə etdiyimiz ilk dövrlərdən sosializmdən imtina edib iqtisadi inkişafın bazar yönümünü seçdik. Bazar sistemli ölkələrin təcrübəsi göstərir ki, bazar mexanizmi vasitəsilə təşəbbüskarlıq fəaliyyətinə əlverişli şərait yaradılması gəlirlər vasitəsilə iqtisadi inkişafın sürətləndirilməsinə daha real təsir göstərməyə imkan verir. Azərbaycan iqtisadiyyatında gəlirlərin yaranmasının bazar mexanizminin formalaşması hər şeydən əvvəl bütövlükdə iqtisadiyyatımızda bazar münasibətlərinin formalaşmasından asılıdır. Artıq iqtisadiyyatımızda bazar münasibətləri keçid mərhələsinə uyğun gəlməklə kifayət dərəcədə formalaşmaqdadır. Ona görə də iqtisadi münasibətlər nisbətən bazar mexanizmi ilə tənzimləndiyi şəraitdə gəlirlərin formalaşması bazar mexanizmindən kənarda qala bilməz. Artıq bazar iqtisadi sistemi şəraitində gəlirlərin formalaşmasının əsasını sosializmdən fərqli olaraq (sosializmdə gəlirlərin formalaşmasının əsasını nəzəri olaraq əməyə görə bölgü təşkil edirdi.) istehsal amillərinin bölgüsü, onun mənimsənilməsi səviyyəsi müəyyən edir. İstehsal amillərinə sahibliyə uyğun olaraq gəlirlər əmək haqqı, faiz, renta və mənfəətdən ibarət olur. İstehsal amillərinin sahiblərinin gəlirlərinin formalaşmasının əsasını bu amillərə olan tələb və təklif, həmçinin amillərin son faydalılıq həddi müəyyən edir. Ona görə də bu proses gəlirlərin formalaşmasının bazar mexanizmi adlanır. Gəlirlərin formalaşmasının bazar mexanizmi inzibati-amirlik sistemindən fərqli olaraq subyektiv amillərə nisbətən daha çox obyektiv amillərə üstünlük verilməsini zərurətə çevirir. Ona görə də gəlirlərin formalaşmasını tədqiq edən iqtisadçılar onun obyektiv xarakter daşımasını xüsusi ilə vurğulayırlar. Gəlirlərin formalaşmasının bazar mexanizminin tədqiqatçılarından olan L.A.Romanova yazır: «Gəlirlərin bazar bölgüsü, dövlətin heç bir müdaxiləsi olmadan bir «ədalətliliyin» təmin edilməsini – istehsal amillərinin sahiblərinin gəlirlərinin tələb və təklif qanunu əsasında, amillərin məhsullarının həddinə uyğun formalaşmasını şərtləndirir». (109, s.441)

downloaded from KitabYurdu.org

Gəlirlərin formalaşmasının bazar mexanizminin hərtərəfli araşdırılması üçün amillər bazarının (iş qüvvəsi bazarı, kapital bazarı, torpaq resursları bazarı) və həmin amillərin qiymətlərinin formalaşması mexanizminin öyrənilməsi əhəmiyyətli rol oynayır.

Azərbaycan müstəqillik əldə etdiyi ilkin dövrlərdə qəbul etdiyi mühüm hüquqi aktlardan biri də «Əhalinin məşğulluğu haqqında» Azərbaycan Respublikasının Qanunu oldu. Artıq bu qanunla sosializmdən fərqli olaraq muzdlu əməyin tətbiqi, iş qüvvəsinin alınıb-satılması hüquqi cəhətdən qanunla təsbit edilirdi. Praktiki olaraq bu qanun digər müvafiq qanunlarla birlikdə (xüsusi ilə mülkiyyət haqqında qanun) əmək bazarının formalaşmasının əsasını təşkil edir. Baxmayaraq ki, əhalinin məşğulluğunun təmin edilməsi məqsədi ilə məşğulluq xidməti idarələri yaradılmışdır, bu idarələrin də vəzifəsi qanunla işçi qüvvəsinə olan tələb və təklifi (bazarı) öyrənmək, təhlil etmək, proqnozlaşdırmaq və əmək bazarının vəziyyəti haqqında proqnoz verməkdən ibarətdir. Onlar həmçinin öz səlahiyyətləri daxilində bazarın tələbinə uyğun olan vətəndaşların peşə hazırlığını, yenidən hazırlaşmasını və ixtisaslarını da artırmaq imkanına da malikdirlər.

Bazar sistemində iş qüvvəsi istehsal vasitələri ilə planauyğun şəkildə deyil, bazar mexanizmilə tələb və təklifə uyğun mənafelərin uzlaşdırılması yolu ilə birləşir. Artıq, əmək haqqı əməyin kəmiyyət və keyfiyyətinə görə verilən haqq deyil. O əmək bazarında tələb və təklifdən asılı olaraq formalaşan iş qüvvəsinin bazar qiymətidir.

Bazar iqtisadi sisteminə keçən hər bir ölkə əmək bazarının formalaşmasına dair müxtəlif iqtisadi məktəblərin baxışlarına diqqətlə yanaşmalı və öz real gerçəkliklərinə uyğun gələn nəzəri müddəalardan səmərəli istifadə etməlidir. Əmək bazarının və eləcə də əməyə görə gəlirlərin formalaşması mexanizminin araşdırılması bir sıra iqtisadi məktəblərin diqqət mərkəzində olmuşdur. Belə istiqamətlərdən biri mükəmməl

downloaded from KitabYurdu.org

rəqabət şəraitində məşğulluğun klassik konsepsiyasıdır. Klassik konsepsiyaya görə məşğulluq mükəmməl rəqabət şəraitində əməyə məcmu tələblə məcmu əmək təklifinin qarşılıqlı asılılığı şəklində təmin olunur. Əməyə tələb və təklifin formalaşmasının ilkin nöqtəsi kimi isə hər bir sahibkarın əməyə olan tələbi və fərdi işçilərin əmək təklifi çıxış edir. Əməyə tələbin subyektləri dövlət və biznes, təklifin subyektləri isə ev təsərrüfatı olur. Mükəmməl rəqabət şəraitində sahibkarın muzdla işə götürdüyü işçilərin sayı iki amillə, real əmək haqqı və əmək məhsulunun son həddinin dəyəri ilə (onun pulla ifadəsi) müəyyən olunur. Muzdla cəlb olunan işçilərin sayı artdıqca əməyin (işçi qüvvəsi) məhsul buraxılışı kəmiyyəti aşağı düşür. Əlavə işçi qüvvəsi cəlb edilməsi son hədd məhsulunun dəyərinin əmək haqqına bərabərləşməsi ilə, yaxud ona maksimum dərəcədə yaxınlaşması ilə dayandırılır. Sahibkarın mənfəət götürməsi marağının ödənilməsi səviyyəsindən asılı olaraq istehsalın digər amilləri kimi işçi qüvvəsinin də cəlb olunması hədləri müəyyənləşir. Əməyə tələblə əmək haqqı kəmiyyəti arasında əks asılılıq mövcuddur. Əmək haqqının artdığı şəraitdə (digər şərtlər, dəyişməz qaldığı şəraitdə) sahibkar yaranmış tarazlığı saxlamaq məqsədi ilə əməyə tələbi ixtisar edir, əmək haqqı aşağı düşdüyü şəraitdə isə əməyə olan tələb yüksəlir.

Əmək təklifi funksiyası da əmək haqqının kəmiyyətindən asılı olaraq dəyişir. Əmək haqqının artdığı şəraitdə əmək təklifi də çoxalır, əmək haqqının aşağı düşdüyü şəraitdə isə əmək təklifi azalır.

P.Samuelsonun fikrincə cəmiyyətdə məcmu əmək təklifi ən azı aşağıdakı 4 göstərici ilə müəyyənləşir:

1. əhalinin ümumi sayı;
2. əhalinin ümumi sayında öz fəaliyyəti ilə (əmək təklifçisi kimi çıxış etməyənlər) məşğul olanların payı;
3. həftə və il ərzində işçilərin iş saatlarının orta kəmiyyəti;
4. işçilərin sərf etdikləri əməyin kəmiyyət, keyfiyyət və ixtisas səviyyəsi.

downloaded from KitabYurdu.org

Bu amilləri sadalamaqda məqsədimiz əmək bazarının formalaşmasında bu amillərin də təsirini diqqət mərkəzində saxlamaqdır. Əhalinin ümumi sayının artımı istər-istəməz əmək qabiliyyətli əhalinin artımına gətirib çıxarır. Əmək qabiliyyətli əhali isə potensial olaraq əmək təklifçisi kimi çıxış edir. Əmək təklifinin çoxalması isə həmişə əmək haqqının (işçilərin gəlirlərinin) azalması ilə müşahidə olunur. Bundan fərqli olaraq əhalinin ümumi sayında özfəaliyyətlə məşğul olanlar, yaxud sərbəst peşə sahiblərinin (vəkillər, rəssamlar, ədəbi yaradıcılıqla və s. məşğul olanlar) sayı nisbətində əmək təklifi də az olur. Təbii ki, işlənilmiş adam-gün və adam-saatların ümumi miqdarı, ixtisaslı işçilərin əməyinin kəmiyyət, keyfiyyəti və ixtisas dərəcəsi də əməyə görə gəlirin ümumi həcminə biganə deyil. Bu göstəricilərin tətbiqi üçün nə qədər əlverişli şərait olmasından asılı olaraq əmək haqqı şəklində götürülən gəlirin ümumi məbləği formalaşır.

Əmək haqqı gəlirlərinin formalaşması mexanizmini kifayət dərəcədə araşdırdıqdan sonra bu qənaətə gəlmək olar ki, bazar şəraitində bu və ya digər əmtəələrə bazarda tələb və təklif əsasında qiymət formalaşdığı kimi əmək haqqı gəlirləri də bazar mexanizminə uyğun olaraq iş qüvvəsinin bazar qiymətləri əsasında (tələb və təklif) formalaşır. Əmək haqqına məhdud bir kateqoriya (yaşayış vasitələri ilə təmin olunmaq səviyyəsi) kimi baxmaq yanlış olardı. Makroiqtisadiyyatın tanınmış tədqiqatçılarından olan N.Qreqori Menkyu dünya ölkələrinin iqtisadi inkişaf səviyyəsindən asılı olaraq əmək haqqının əmək məhsuldarlığına təsirini öyrənən bir neçə nəzəriyyənin mövcudluğunu söyləyir. Bu nəzəriyyələrdən biri zəif inkişaf etmiş ölkələrə tətbiqən əmək haqqının qidalanmaya təsirini tədqiq edərək göstərir ki, yüksək əmək haqqı alan işçi yaxşı qidalandığından məhsuldar işləmək imkanına malik olur. İkincisi, səmərəli əmək haqqı nəzəriyyəsi isə hesab edir ki, yüksək əmək haqqı iş qüvvəsi axınının qarşısını alır. Üçüncü nəzəriyyəyə görə firma personalının əmək bacarığının

downloaded from KitabYurdu.org

orta keyfiyyəti onların əmək haqqından asılıdır. Firma əmək haqqını azaltdığı halda ixtisaslı işçilər iş yerini tərk edə bilər. Dördüncü nəzəriyyəyə görə yüksək əmək haqqı işçinin çalışqanlığını yüksəldir (83,s.218-219). Bütün bu əmək haqqı nəzəriyyələri bu və ya digər ölkənin konkret inkişaf səviyyəsinə uyğun gəlir.

Azərbaycan iqtisadiyyatında əməyə görə gəlirin formalaşmasının bazar mexanizmi spesifik formada fəaliyyət göstərir. Yuxarıda göstərildiyi kimi əməyə görə gəlirin formalaşmasının bazar mexanizminin ideal forması daha çox mükəmməl rəqabətin mövcudluğu şəraitinə uyğun gəlir.

Azərbaycan iqtisadiyyatı isə inzibati-amirlikdən hələ təzəcə xilas olur və bütövlükdə bazar münasibətlərinin formalaşmasının ilkin şərtlərini yaradır. Bu ilkin şərtlərdən biri də əmək bazarının formalaşması və əməyin istehsala, bazar mexanizminin mühüm alətlərindən olan tələb və təklifə uyğun cəlb edilməsinə şərait yaradılmasından ibarətdir. Bu problemlərin Azərbaycan gerçəkliyi bir sıra ziddiyyətliliyi ilə səciyyələnir. Keçid dövründə istehsalın kəskin şəkildə aşağı düşməsi kütləvi xarakter almışdır. Həmçinin keçid dövrü üçün əmək haqqının aşağı səviyyədə olması da səciyyəvidir. Kütləvi işsizlik əmək təklifini artırsa da iş yerlərinin həddindən artıq məhdudluğu üzündən hətta ən aşağı əmək haqqına işçilərin razı olduqları halda belə əmək istehsal prosesinə cəlb oluna bilmir. İşçi yeganə yaşayış vasitəsinə (əməyə) görə gəlir mənbəyindən də məhrum olur. Əhalinin əksər hissəsinin əsas gəlir forması əməyə görə gəlir olduğundan işsizliyin kütləvi xarakter daşıdığı şəraitdə cəmiyyət miqyasında məcmu gəlirlərin səviyyəsi də aşağı düşür. Əhalinin əksər hissəsinin gəlirlərinin aşağı olması (işsizlik və əmək haqqının ümumiyyətlə aşağı olması) istehlak bazarı və onların qiymətlərinə də mənfi təsir göstərir. Əməyə görə gəlir istehlak səbətinə uyğun gəlmir və ona görə də iş qüvvəsi kifayət dərəcədə keyfiyyətli bərpa oluna, təkrar istehsal oluna bilmir. İstehlak məhsullarının əksər hissəsinin daxili bazara idxal yolu ilə düşdüyündən onların qiymətləri

downloaded from KitabYurdu.org

müəyyən həddən aşağı düşə bilməz, ona tələb və təklif o qədər də real təsir göstərmir. Bunun nəticəsində əməyə görə gəlir məhdud tələbin də bir hissəsini ödəyə bilmir. Lakin uzun müddət belə davam edə bilməz. İstənilən iqtisadiyyatda istehsalın səviyyəsinin aşağı düşməsi sonsuzluğa qədər davam etmədiyi kimi Azərbaycan iqtisadiyyatında da istehsalın aşağı düşməsi müəyyən həddi ötüb keçə bilməz. Keçid dövründə həyata keçirilən islahatlar (dövlətsizləşdirmə, özəlləşdirmə, sahibkarlığın inkişaf etdirilməsi və s.) yeni cəmiyyətin iqtisadi əsaslarını yaratmaqla istehsalın canlanmasına, yeni iş yerlərinin açılmasına gətirib çıxarır. Yeni iş yerlərinin açılması tədricən əməyə olan tələbi stimullaşdırır. İstehsala (xüsusi ilə özəl bölməyə) cəlb olunanların sayının artması zəif də olsa müşahidə olunur. İş yerlərinin bərpası, əməyə cəlb olunmanın tədricən genişlənməsi əməyə görə gəlirin də yenidən canlanmasına, əsas yaşayış mənbələrindən birinə çevrilməsinə şərait yaradır. Onsuz da əhalinin çox hissəsi digər gəlir mənbələrindən məhrum olduğundan keçidin ilkin dövrlərində əməyə görə gəlir vasitəsi ilə özlərinin yaşayış mənbələrini formalaşdırırlar. İqtisadi inkişafda canlanma əməyə görə gəlirin də artımı ilə müşahidə olunmalıdır. Heç olmazsa əməyə görə gəlir minimum istehlak səbətinə uyğunlaşdırılmalıdır ki, işçi qüvvəsi fiziki və mənəvi cəhətdən minimum səviyyədə də olsa bərpa oluna bilsin.

Azərbaycan Respublikasında iqtisadi islahatların ilkin nəticələri 1995-ci ildən müşahidə olunmağa başlamışdır. Əmək haqqındakı artımı aşağıdakı cədvəldən aydın müşahidə etmək mümkündür.

downloaded from KitabYurdu.org

**Cədvəl 5.1**

**İqtisadiyyat sahələri üzrə işçilərin orta aylıq əmək haqqı AZN-lə (15, s. 47) (22, s. 130-137)**

| | | **Ondan:** | | | | |
|---|---|---|---|---|---|---|
| İllər | Cəmi | Sənaye | Kənd təsərrüfatı | Tikinti | Nəqliyyat | Rabitə |
| 1995 | 12,5 | 19,1 | 6,7 | 19,8 | 19,6 | 16,8 |
| 1996 | 17,9 | 29,2 | 7,6 | 33,4 | 30,1 | 23,9 |
| 1997 | 28,3 | 46,3 | 9,9 | 60,0 | 45,4 | 41,4 |
| 1998 | 33,7 | 55,4 | 8,8 | 83,3 | 58,2 | 52,7 |
| 1999 | 36,9 | 58,5 | 12,0 | 85,7 | 55,1 | 61,4 |
| 2000 | 44,3 | 87,5 | 13,8 | 83,3 | 58,5 | 58,5 |
| 2001 | 52,0 | 100,0 | 15,4 | 87,4 | 66,1 | 66,1 |
| 2002 | 63,0 | 113,5 | 18,0 | 109,0 | 73,6 | 84,5 |
| 2004 | 99,4 | 169,5 | 18,4 | 218,2 | 113,2 | 154,6 |
| 2005 | 123,6 | 233,6 | 28,7 | 237,2 | 137,2 | 211,8 |

Cədvəldən (5.1.) aydın görünür ki, iqtisadiyyatın bütün sahələrində orta aylıq əmək haqqı əhəmiyyətli dərəcədə artmışdır. 1995-2005-ci illərdə xalq təsərrüfatı miqyasında orta aylıq əmək haqqı 10 dəfəyə yaxın artmışdır. İqtisadiyyat sahələri üzrə artımda müəyyən fərqlilik nəzərə çarpsa da istisnasız olaraq müqayisə olunan bütün sahələrdə sabit artım müşahidə olunur. Müqayisə olunan illərdə orta aylıq əmək haqqı sənayedə 12 dəfədən çox, kənd təsərrüfatında 4 dəfəyə yaxın, tikintidə 12 dəfədən çox, nəqliyyatda 8,5 dəfə, rabitədə isə 13 dəfə artmışdır.

Göstərilən rəqəmlər iqtisadi inkişaf haqqında kifayət dərəcədə təsəvvür yaratsa da əhalinin real gəliri haqqında tam təsəvvür yaratmır. Cədvəldə əhalinin orta aylıq əmək haqqının artımı nominal formada öz əksini tapmışdır. Əhalinin real gəlirlərinin artmasını müşahidə etmək üçün müqayisə olunan illərdə istehlak qiymətlərinin indeksindəki qiymətlərindəki dəyişikliyi də araşdırmaq lazımdır. Doğrudur, burada da müəyyən çatışmazlıqlar (məsələn, inflyasiyanın səviyyəsinin nəzərə alınmaması) var. Lakin əhalinin istehlak səbətinin strukturu istehlak qiymətinin indeksi ilə nominal əmək haqqının müqayisəsi gəlirlərin səviyyəsi haqqında müəyyən təsəvvürlər yaranmasına imkan verir.

downloaded from KitabYurdu.org

**Cədvəl 5.2**

**1995-2002-ci illər üzrə əsas ərzaq məhsullarının orta illik qiymət indeksi (21, s. 397-398)**

| Mal və xidmətlər | 1995 | 1998 | 1999 | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 |
|---|---|---|---|---|---|---|---|---|---|
| Cəmi mallar və xidmətlər | 511,8 | 99,2 | 91,5 | 101,8 | 101,5 | 102,8 | 102,2 | 106,7 | 109,6 |
| Ərzaq məhsulları, içkilər, tütün | 522,4 | 98,7 | 89,0 | 102,3 | 102,7 | 103,7 | 103,3 | 110,0 | 110,9 |
| Qeyri ərzaq malları, xidmətlər | 481,2 | 101,3 | 99,4 | 100,9 | 99,6 | 101,3 | 101,5 | 101,2 | 107,2 |
| Qeyri ərzaq malları | 408,0 | 98,9 | 97,5 | 101,9 | 100,2 | 102,3 | 101,0 | 101,5 | 105,4 |
| Ərzaq və qeyri ərzaq malları | 502,0 | 98,7 | 90,3 | 102,2 | 102,0 | 103,3 | 102,7 | 107,8 | 109,5 |
| Xidmətlər | 601,3 | 106,3 | 102,3 | 99,5 | 98,8 | 99,8 | 99,7 | 100,8 | 109,7 |

Cədvəl 5.2. təhlili göstərir ki, bazar münasibətlərinin inkişafı ilə əhalinin zəruri tələbatını ödəyən ərzaq və qeyri-ərzaq məhsullarının qiymət indeksində də nəzərə çarpacaq dəyişikliklər baş vermişdi. Keçid dövrünün ilkin mərhələsində bu dəyişikliklər özünü, qabarıq şəkildə göstərmişdi. Əvvəlki illə müqayisədə 1995-ci ildə cəmi mallar və xidmətlərin qiymət indeksi 511,8%, ərzaq məhsullarının qiymət indeksi 522,4% təşkil etmişdi. Cədvəlin digər göstəriciləri ilə müqayisədə ərzaq məhsullarının qiymət indeksi yüksək faiz təşkil etmişdi. Müqayisədə olunan illərdə xidmətlərin də qiymət indeksi çox yüksək faiz (601,3) təşkil etmişdi. Bazar dəyişikliklərinin real nəticə verdiyi illərdən başlayaraq ölkənin iqtisadi inkişaf səviyyəsinə uyğun istehlak qiymətləri indeksində də bir mülayimləşmə müşahidə olunmaqdadır. Hətta bəzi illərdə ərzaq məhsullarının qiymət indeksi 1998-ci il, 2003-cü il) aşağı düşməyə meymeyylənib. Qeyri-ərazq mallarının qiymət indeksi digər kateqoriyaya daxil olan məhsulların qiymət indeksinə nisbətən daha mülayim formada artmışdı. Ən yüksək göstərici 2005-ci ildə 105,4% olmuşdu. Xidmətlərində qiymət indeksi

downloaded from KitabYurdu.org

2005-ci ildə yüksək olmuşdu (109,7%).

İstehlak qiymətləri indeksi cədvəlinin (5.2) təhlili göstərir ki, ən pis halda belə istənilən qrup məhsullarının qiymət indeksi 2004-cü illə müqayisədə 2005-ci ildə 10%-dən yuxarı artmamışdır. Bundan fərqli olaraq iqtisadiyyat sahələri üzrə işçilərin 2004-2005-ci illərdə orta aylıq əmək haqqının orta artım tempi 40-60%-dən aşağı olmamışdır (Bax cədvəl 5.1). Bu müqayisələr əhalinin real gəlirlərinin artması haqqında tam təsəvvür əldə etməyə imkan verir.

Cədvəl 5.1. və 5.2-nin məntiqi təhlili göstərir ki, müqayisə olunan illər ərzində (1995-2005-ci illər) iqtisadiyyatın bütün sahələrində orta əmək haqqı bir neçə dəfə artmış, əsas ərzaq məhsullarının qiymətlərində mənfi meyl müşahidə olunmamışdır. Həmçinin bu illər ərzində inflyasiyanın qarşısının alınması əhalinin istehlak səbətinin yaxşılaşdırılmasına göstərilən amillərlə birlikdə müsbət təsir göstərmişdir.

Kənddə aqrar islahatların uğurla həyata keçirilməsi; torpaq, mal-qara və əmlakın özəlləşdirilməsi kənd təsərrüfatının dinamik şəkildə inkişaf etdirilməsinə möhkəm zəmin yaratmış və məhsul istehsalı sahəsində ilbəil yüksək nailiyyətlər əldə edilmişdir. Belə ki, əgər 1992-1995-ci illərdə kənd təsərrüfatında ümumi məhsul istehsalı orta hesabla ildə 12% aşağı düşürdüsə artıq 1996-cı ildən başlayaraq (1997-ci il istisna olunmaqla) ümumi məhsul istehsalı orta hesabla ildə 7,1 faiz artmış və 2005-ci ildə 2004-ci ilə nisbətən bu artım 7,5 faizə bərabər olmuşdu. 2007-ci ili birinci altı ayında kənd təsərrüfatının ümumi məhsulunun artımı 5 faizə bərabər olmuşdur.

İqtisadiyyat sahələri üzrə orta aylıq əmək haqqı cədvəlinin təhlili göstərir ki, keçid dövrü ərzində, o cümlədən də 2005-ci ildə kənd təsərrüfatında orta aylıq əmək haqqı (28,7 AZN) digər sahələrdən (sənayedə 233,6 AZN, tikintidə 237,2 AZN, nəqliyyatda 137,1; rabitədə 211,8 AZN) 7-8 dəfə aşağı olmuşdur. Kənd təsərrüfatında əmək haqqının aşağı olması səbəblərini araşdırmaq üçün kənd təsərrüfatı müəssisələrinin fəaliyyətinin maliyyə nətcələrinin təhlilinin böyük əhəmiyyəti var.

downloaded from KitabYurdu.org

**Cədvəl 5.3**

**Kənd təsərrüfatı müəssisələrinin fəaliyyətinin maliyyə nəticələri (22, s. 544) (faizlə)**

| | 1990 | 1995 | 2000 | 2002 | 2004 | 2005 |
|---|---|---|---|---|---|---|
| Təsərrüfatların sayı vahid on-dan ziyanla | 1998<br>156 | 2229<br>1079 | 2158<br>1132 | 1863<br>541 | 1715<br>294 | 1782<br>203 |
| Faizlə | 7,9 | 47,0 | 52,5 | 29,0 | 17,1 | 11,4 |
| Ümumi gəlir min manat | 45 | 68921 | 1118 | 4936 | 10490 | 14757 |
| Balans gəliri min manat | 14 | -10586 | -3315 | 40 | 2872 | 5891 |
| Rentabellik faizlə | 29,8 | -6,3 | -19,2 | 0,1 | 5,1 | 9,1 |
| İşçilərin sayı min nəfər | 663 | 490 | 24 | 19 | 16 | 17 |
| Əmək haqqı fon-du min manat | 32 | 67293 | 3605 | 3980 | 5321 | 7219 |
| Bir işçiyə düşən orta aylıq əmək haqqı manat | 0,01 | 11,4 | 12,7 | 17,1 | 27,9 | 36,3 |
| Satışdan əldə olan gəlir min manat | 13 | -7881 | -2515 | 425 | 2946 | 5872 |

Cədvəlin (5.3) təhlili göstərir ki, iqtisadiyyatın digər sahələrinə nisbətən kənd təsərrüfatı müəssisələrində bazar dəyişiklikləri müəyyən müddət bu müəssilərinin maliyyə fəaliyyətinin yaxşılaşmasına əlverişli şərait yarada bilməmişdi. Hətta kənd təsərrüfatı müəssisələrinin yarıdan çoxu, 2002-ci ildə 29 faizi ziyanlı işləmişdir. Bu müəssisələrdə rentabellik səviyyəsi çox aşağı olmuşdur. 2004-2005-ci illərdən başlayaraq rentabellik səviyyəsi yüksəlməyə başlamışdır (uyğun olaraq 5,1; 9,1 faiz).

Bu bir daha göstərir ki, iqtisadiyyatımızda bazar dəyişiklikləri öz nəticələrini göstərməkdədir. Bazar mexanizminin iqtisadi rıçaqlarının fəaliyyətinə (tələb, təklif, rəqabət, qiymət) əlverişli şərait yaradıldıqca gəlirlərin artımı da müşahidə olunur. Lakin bu artımın artan tələbata nə dərəcədə uyğun gəlib-gəlməməsi məsələnin digər tərəfidir. Əmək hıqqı bu gün əhali-

downloaded from KitabYurdu.org

nin gəlirlərinin əsas mənbəyi olsa da yeganə mənbəyi deyildir.

İstehsalın amillərinə görə formalaşan gəlirlərin bir növü də kapitala görə (faiz) gəlirdir. İstehsalın əsas amilinin sahibi əmək haqqı şəklində gəlir götürdüyü kimi kapital amilinin də sahibi faiz şəklində gəlir götürür. İstehsal amilləri bazarında kapital dedikdə, ümumiyyətlə müəssisənin istehsal fondları nəzərdə tutulur. Hər bir sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq istəyən hüquqi və fiziki şəxs sahibkarlıq fəaliyyətinə başlamazdan əvvəl istehsalın maddi ünsürlərini əldə etməlidir. Bu isə ilkin formada maddi-əşya tərkibi etibarı ilə nə formada (pul, avadanlıq, qurğu, bina və s.) olmasından asılı olmayaraq kapital formasında çıxış edir. Sahibkarın kapital əldə etməsi həvəsi isə onun gəlir götürmək marağının ödənilməsindən irəli gəlir. Əgər sahibkarın kapitalsız da gəlir götürmək imkanı olsaydı o, heç vaxt kapital əldə etməyə həvəs göstərməzdi. Kapitala görə gəlirin formalaşmasının bazar sistemli ölkələrdə firma və ev təsərrüfatının davranışında özünü qabarıq şəkildə göstərir. Resurs bazarında ev təsərrüfatı istehsal amillərinin təklifçisi kimi çıxış edir, yaxud kapitalın təklifi subyekti ev təsərrüfatıdır. Kapitala tələbin subyekti kimi isə firmalar çıxış edir. Firma resurs bazarında ev təsərrüfatından resurs alınmasına xərc çəkir, məhsul və xidmətlər istehsalına başlayır. Firma hazır məhsul və xidmətlərlə hazır məhsullar bazarında yenidən ev təsərrüfatı ilə üzbə-üz qalır. Artıq bu dəfə firma hazır məhsullar və xidmətlərin təklifçisi kimi çıxış edir. Ev təsərrüfatı isə istehsal amilləri təklifindən əldə etdikləri gəlirləri hazır məhsulların və xidmətlərin əldə edilməsinə sərf edərək firmanın gəlirlərinin formalaşdırılmasını təmin edir. Beləliklə, istehsalın amilləri, hazır məhsul və xidmətlərin bir bazardan digərinə axını (resurs və hazır məhsullar bazarı) gəlirlərin axını şəklində baş verir və bir-birini tamamlayır. Kapitala görə gəlir, hər şeydən əvvəl ona olan tələblə müəyyənləşir. İnvestisiya vəsaitlərinin təklifinin artması ilə bütün digər şərtlər dəyişməz qaldığı şəraitdə kapitala görə

downloaded from KitabYurdu.org

məhsulunun son həddi aşağı düşür. Bu zaman biz gəlirliliyin azalması qanunu ilə üzləşirik. Müəyyən həddən sonra (elə bir hədd mövcuddur ki, hər əlavə cəlb olunan istehsal amili əvvəlkinə nisbətən yüksək gəlir verir, lakin bu proses sonsuza qədər davam edə bilməz) hər bir əlavə cəlb olunan kapital ünsürlərinin məhsuldarlığının aşağı düşməsi müşahidə olunur. Əlavə cəlb olunan kapitalın qiymətinin həmin cəlb olunan kapitalın verdiyi məhsulun qiymətinə maksimum yaxınlaşdığı anda əlavə kapital cəlbi dayandırılır. Bu isə kapitalın məhsuldarlığının son həddi kimi səciyyələnir. Belə ki, həm firma miqyasında, həm də ölkə miqyasında kapital təklifinin çoxalması kapitala görə faizin aşağı düşməsi ilə müşahidə olunur. Sənaye cəhətcə inkişaf etmiş ölkələrdə kapital təklifi çox olduğundan inkişaf etməkdə olan ölkələrə nisbətən kapitala görə faiz aşağıdır.

Nəzəri cəhətdən bu qənaətə gəlmək olar ki, bazar təsərrüfatı şəraitində faiz kapital bazarında istehsal amillərinin tarazlı qiymətinin nəticəsi kimi meydana gəlir. Faiz kapital sahibinin istehsal amilinə görə əldə etdiyi gəlirdir. Kapital təklifi subyekti üçün faiz gəlir kimi çıxış edir, kapitala tələb subyekti üçün isə faiz kapitalı borc alanın xərci kimi çıxış edir. Faizi xarakterizə edərkən yaddan çıxarmaq olmaz ki, o bir təsərrüfatçılıq subyekti üçün gəlir kimi çıxış etdiyi halda digəri üçün məsrəf kimi, xərc kimi çıxış edir.

Azərbaycan iqtisadi gerçəkliyi bazar mexanizminin fəaliyyəti şəraitində kapitala görə gəlirlərin formalaşması baxımından bir sıra səciyyəvi cəhətlərə malikdir:

- kapital təklifi mühitinin formalaşmasının hüquqi bazası tədricən formalaşdırılır;
- kapital təklifi məhdud xarakter daşıyır;
- kapitala görə gəlirin yüksək səviyyəsi müşahidə olunur. İnkişaf etməkdə olan bazar sistemli ölkələrdə kapital təklifinin məhdudluğu kapitala görə gəlirin yüksək olmasına gətirib çıxarır (tələb yüksək olduğundan);

downloaded from KitabYurdu.org

- kapitala real tələb və maraq zəifdir;
- əhalinin investisiya imkanları məhduddur.

Təbii ki, Azərbaycan iqtisadiyyatının mövcud durumunda kapital təklifinin bu xüsusiyyətləri kapitala görə gəlirin formalaşmasına təsir göstərməyə bilməz. Sahibkarlığın kifayət dərəcədə inkişaf etdiyi ölkələrdə gəlirlərin ümumi həcmində kapitala görə gəlirin çox böyük xüsusi çəkiyə malik olduğu halda respublikamızda gəlirlərin ümumi həcmində kapitala görə gəlir çox bir cüzi hissə təşkil edir. Lakin bazar iqtisadi sisteminin iqtisadi inkişafının tarixi təcrübəsi göstərir ki, inkişaf etmiş bazar mexanizmi kapitala görə gəlir üçün daha əlverişli şərait yaratmaq imkanına malikdir. Ona görə də, Azərbaycan iqtisadiyyatında bazar mexanizmi inkişaf edib təkmilləşdikcə kapitala görə gəlirin payı gəlirlərin ümumi həcmində artacaq. Kapitala görə gəlirlərin yüksək səviyyəsi kapital cəlbedici sahələri müəyyənləşdirir. Bu gün Azərbaycan iqtisadiyyatında əsas kapital cəlbedici sahə neft sənayesi hesab edilir. Neft sənayesi külli miqdarda investisiya qoyuluşu tələb etdiyindən milli kapital o qədər də bu sahəyə nüfuz edə bilmir. Həm də qanunvericiliklə dövlət bölməsinə (neft sənayesi hələlik dövlətin mülkiyyətidir) milli kapitalın nüfuz etməsi o qədər də aşkar şəkildə tənzimlənmir. Ona görə də neft sənayesinə qoyulan külli miqdar kapital (təxminən 40 mlrd. dollar) xarici investorların vəsaiti hesabına həyata keçirilir. Xarici sahibkarların kapitala görə gəlir götürmək imkanları daha da genişlənir.

Gələcəkdə əgər milli sahibkarların neft sənayesinə, o cümlədən də digər dövlət bölməsinə kapital qoyuluşu imkanları qanunvericiliklə dəqiq tənzimlənərsə milli sahibkarların kapital tətbiqi sferası da genişlənər və gəlirlərin formalaşmasının bazar mexanizmində kapitala görə gəlir əhəmiyyətli rol oynayar.

Bazar iqtisadi sistemi şəraitində gəlirlərin amillərə görə formalaşmasının əsas növlərindən biri də torpaq resurslarından istifadəyə görə götürülən rentadır. Torpaq rentasının

downloaded from KitabYurdu.org

bazar mexanizminin fəaliyyəti şəraitində amillərə görə gəlirlərin əsas formalarından birinə çevrilməsi üçün torpaqla əlaqədar olan münasibətlərdə köklü dəyişikliklər baş verməlidir. Bu münasibətlər, hər şeydən əvvəl torpağa sahib olmaq və torpaqdan istifadə münasibətlərinin bazar prinsipləri ilə tənzimlənməsini əhatə etməlidir.

Sosializm şəraitində torpaq dövlət mülkiyyətində olduğundan torpağın sahibi dövlət, istifadəçisi isə hüquqi və fiziki şəxslər idi. Torpağın sahibi dövlət olduğundan torpaqdan istifadə üçün haqq istifadəçilər tərəfindən renta şəklində dövlətə ödənilirdi.

Sosializmin devrilməsi ilə torpaq münasibətlərində də köklü dəyişikliklər baş verdi. Aqrar bölmədə aparılan iqtisadi islahatlar torpaq üzərində xüsusi mülkiyyət münasibətlərinin formalaşmasına gətirib çıxardı. Torpağın alqı-satqı obyektinə çevrilməsini tənzimləyən hüquqi aktların qəbul edilməsi torpaq bazarının formalaşmasını zəruri etdi. Torpaqla əlaqədar iqtisadi münasibətlərdə köklü dəyişikliklər renta münasibətlərinin də (torpaqdan istifadə üçün haqq) yeniləşməsinə gətirib çıxardı. Aqrar münasibətləri inkişaf etdikcə bazar iqtisadiyyatı şəraitində tədricən iri torpaq sahibliyi də formalaşacaq. İriliyi və kiçikliyindən asılı olmayaraq torpaq üzərində xüsusi mülkiyyətin formalaşması mülkiyyətçinin öz mülkiyyət hüququndan istifadə edərək torpağı istifadəçiyə icarəyə vermək imkanı yaranır.

Ümumiyyətlə torpağın məhdudluğu və xüsusi ilə torpaq təklifinin məhdud xarakter daşıması torpaq rentasının yaranmasının əsas şərti kimi çıxış edir. Torpaqdan fərqli olaraq işçi qüvvəsi və kapital sərbəst təkrar istehsal olunmaq imkanına malik olduğu üçün məhdud xarakter daşımır. Torpaq rentası bu xüsusiyyətinə görə digər istehsal amillərinə görə gəlirdən (əmək haqqı və faiz) fərqlənir. Kənd təsərrüfatı məhsulları istehsalı, hasilat və tikinti üçün yararlı torpaq sahələri məhdud xarakter daşıdığından bu sahələrdə qiymətlərin əmə-

downloaded from KitabYurdu.org

ləgəlməsinin bazar mexanizmi spesifik formada fəaliyyət göstərir. Torpaq təklifi məhdud və qeyri-elastik olduğuna görə burada yaranan məhsulların qiymətləri istehsal xərcləri, orta mənfəət və renta əsasında formalaşır. Torpaq sahəsinə görə gəlir təkcə torpaq rentasından ibarət deyildir. Bu gün bazar iqtisadiyyatına keçid şəraitində kənd təsərrüfatı sahibkarlığı ilə məşğul olan əhalinin gəlirlərinin bir mənbəyi də I diferensial rentadır. Torpaqlar təbii münbitliyinə görə biri-birindən fərqlənir, iri şəhərlərə və nəqliyyat qovşaqlarına yaxın və ya uzaq yerləşirlər. Ona görə də münbit torpağın daha məhsuldar olması, iri şəhər və nəqliyyat qovşaqlarına yaxın olması torpaq sahiblərinə I diferensial renta şəklində əlavə gəlir götürmək imkanı verir. Baxmayaraq ki, I diferensial rentanın yaranmasında torpaq sahibinin heç bir xüsusi xidməti yoxdur (I diferensial renta torpağın təbii xassəsinin nəticəsidir), lakin həmin torpaq rentası torpaq mülkiyyətçisi tərəfindən mənimsənilir. Mülkiyyətçinin sahibkarlıq fəaliyyəti şəraitində I diferensial renta istehsal qiyməti ilə bazar qiymətləri arasındakı fərq kimi yaranır və sahibkar tərəfindən mənimsənilir. Torpaq icarəyə verildikdə isə təbii münbit torpaq sahələri yüksək haqqla icarəyə verildiklərindən I diferensial renta icarə haqqına daxil edilməklə sahibkara ödənilir.

Bazar mexanizminin fəaliyyəti şəraitində torpaq rentasının məbləği bir sıra amillərin təsiri altında formalaşır. Yuxarıda göstərildiyi kimi renta anlayışı torpaq təklifinin qeyri-elastikliyi ilə səciyyələnir. Həqiqətən, əgər torpağa tələbin artması nəticəsində uyğun olaraq qiymətin artması ilə təklif də genişlənərsə tədricən rentanın səviyyəsi aşağı düşərdi. Lakin torpaq resursunun məhdudluğu onun qiyməti ilə təklifi arasındakı münasibəti qeyri-elastik edir. Torpaq rentasının səviyyəsinə təsir göstərən başlıca amillərdən biri də torpağa tələbin törəmə tələb olmasıdır. Yəni, bu və ya digər torpaq sahəsinə görə əldə edilən renta həmin sahədə istehsal olunmuş məhsuldan birbaşa asılıdır. Məsələn, şərab məhsullarına tələ-

downloaded from KitabYurdu.org

bin azalması üzümçülük üçün istifadə olunan torpaq sahəsinə tələbi azaldır, renta haqqı isə aşağı düşməyə başlayır.

Torpaq rentasına təsir göstərən başlıca amillərdən biri də torpağın qiymətidir. Bazar iqtisadi sistemində qanunvericiliklə müəyyən olunmuş qaydada torpaq müəyyən qiymətə alınıb satılır. Torpağın qiyməti torpaq rentasının həcmindən və borc kapitalının faiz dərəcəsindən asılıdır. Bu şərtlərin əlverişliliyindən asılı olaraq torpaq sahibi qərar qəbul edir. Ya torpağı satıb bank faizi ilə gəlir götürməyə üstünlük verir, ya da sahibkarlıqla məşğul olmaqla, həmçinin torpağı icarəyə verməklə torpaq rentası şəklində gəlir götürməyə üstünlük verir.

Bizim ölkəmizdə də kənd əhalisinin gəlirlərinin formalaşmasında torpaq rentası, xüsusi ilə I diferensial renta əhəmiyyətli rol oynayır. Təbii ki, torpaq bazarının formalaşması təkmilləşdikcə onun alqı-satqısının real bazar mexanizmi formalaşdıqca əhalinin gəlirlərinin (xüsusi ilə kənd yerində yaşayanların) ümumi həcmində torpaq rentasının xüsusi çəkisi getdikcə artacaq. Nəzərə alsaq ki, respublikamızda əhalinin təxminən 50%-i kənd yerlərində məskunlaşıb, onda məlum olar ki, renta münasibətlərinin inkişaf etdirilməsi və təkmilləşdirilməsi daha çox milli maraqlarımıza uyğun gəlir.

Amillərə görə gəlirlərin formalaşmasının mühüm elementlərindən biri də mənfəətdir. Mənfəət bazar təsərrüfatçılığı şəraitində sahibkarın maraqlarının ödənilməsi mənbəyi kimi çıxış edir. Mənfəət istehsalın digər amillərindən (kapital və torpaq) fərqli olaraq tarazlı qiymət forması almır. Mənfəətin mahiyyətini istehsal amillərinə görə (sahibkarlıq) gəlir kimi açmaq üçün mənfəətin araşdırılması üzərində ətraflı dayanmaq lazımdır. Məlumdur ki, mənfəət, ümumiyyətlə satışdan əldə olunmuş məbləğlə bütün xərclər arasındakı fərq kimi çıxış edir. Xərclərə isə firmanın pul məsrəfləri ilə əldə etdiyi istehsal vasitələrinin dəyəri və əmək haqqı daxil edilir. Mənfəətin hesablanması aşkar xərclərə əsaslandığına görə bu cür mənfəət mühasibat mənfəəti adlanır. Mühasibat mənfəətindən

downloaded from KitabYurdu.org

fərqli olaraq iqtisadi mənfəət aşkar (xarici) xərclərlə yanaşı alınıb-alınmamasından asılı olmayaraq bütün istehsal amillərinin (o cümlədən də sahibkarlıq qabiliyyətinin) xidmətlərinin nəzərə alınmasını tələb edir. Çünki alternativ xərclər tələb edir ki, sahibkarlıq qabiliyyəti maddi cəhətdən ödənilsin. Doğrudan da, əgər sahibkar başqasının firmasında fəaliyyət göstərirdisə müəyyən formada gəlir götürmək imkanı əldə edərdi. Beləliklə, sahibkarın gəliri iki mənbəyə uyğun formalaşacaq. Sahibkar sərf etdiyi əməyə görə əmək haqqı (istehsalın təşkili) və kapitalına görə faiz əldə edir. Bu hər iki mənbə mühasibat baxımından mənfəət kimi, iqtisadçının mövqeyində isə xərclərin elementi kimi çıxış edir. İqtisadi mənfəət satışdan əldə edilmiş məbləğin ümumi həcminin bütün xərclərdən (normal mənfəət də daxil olmaqla daxili və xarici xərclər) artıq olduğu şəraitdə yaranır.

İqtisadiyyatın həmişə inkişafda olduğunu nəzərə alsaq konkret bazar şəraiti qeyri-müəyyənliyi ilə səciyyələnir. Əhalinin sayı dəyişilir, yeni xammal mənbələri aşkar edilir, elm-texnika inkişaf edir, tələbatlar dəyişir. İqtisadi münasibətlərin iştirakçıları isə bu dəyişikliklər haqqında eyni dərəcədə vaxtlı-vaxtında məlumat toplamaq imkanına malik deyildir. Bazardakı bu qeyri-müəyyənlik ayrı-ayrı sahibkarlara satışdan əldə edilmiş bütün məbləğin tam xərclərdən artıq olması hesabına əlavə, üstəlik mənfəət götürməyə imkan verir. Deməli üstəlik mənfəət sahibkarların fərdi qabiliyyətlərinin nəticəsi kimi çıxış edir. Mənfəətin götürülməsi bir tərəfdən rəqabətin istehsal şəraitlərinin uyğunlaşdırılması təsiri altında daimi xarakter daşıya bilməz, digər tərəfdən isə üstəlik dəyəri doğuran amillər təkrarlandığından (yeni informasiya, iqtisadi təfəkkürün təkmilləşməsi və s.) o daimi xarakter də daşıya bilər.

Müasir Qərb iqtisadi ədəbiyyatı amillərə görə gəlirləri milli gəlirin əsası kimi götürürlər. Onlar hesab edirlər ki, hər bir fəaliyyət növü eyni cür gəlir gətirir, hər bir gəlir götürən subyekt eyni zamanda həm də onun yaradıcısı kimi çıxış edir.

downloaded from KitabYurdu.org

Yəni, onlar yaratdıqlarını (bir hissəsini) mənimsəyirlər. Fəaliyyət dairəsi və peşəsindən asılı olmayaraq aktiv fəaliyyətdə olanların hamısı milli gəlirin yaranmasında iştirak edirlər. Milli gəlirin isə bilavasitə əhalinin istehlak səviyyəsini müəyyənləşdirməsi üçün o bir neçə bölgü mərhələsindən keçməlidir. Milli gəlirdən sosial sığorta ödəmələri, korporasiyanın bölüşdürülməmiş mənfəəti çıxılır, üzərinə transfert ödəmələri gəlir və yerdə qalan hissə şəxsi gəlirləri formalaşdırır.

**Cədvəl 5.4**

**Azərbaycan Respublikasında milli gəlirin tərkibi (22, s. 374, 375) (milyon manat)**

| Göstəricilər | 1995 | 2000 | 2001 | 2002 | 2003 | 2004 |
|---|---|---|---|---|---|---|
| İşçilərin əmək haqqı | 482,6 | 1021,1 | 1067,7 | 1262,1 | 1620,4 | 2122,3 |
| İstehsala və idxala vergilər | 214,2 | 342,5 | 471,5 | 547,5 | 646,5 | 751,7 |
| Ümumi mənfəət | 1481,8 | 3365,7 | 3791,3 | 4267,5 | 4911,8 | 5683,5 |
| Mülkiyyətdən alınmış gəlirlər | 11,5 | 95,3 | 68,3 | 36,1 | 49,9 | 39,9 |
| Mülkiyyətdən verilmiş gəlirlər | -6,7 | -308,3 | -336,8 | -372,4 | -433,3 | -634,7 |
| Ümumi milli gəlir | 2130,4 | 4462,7 | 5003,1 | 5688,4 | 6712,3 | 7841,8 |
| Xalis milli gəlir | 1830,3 | 3872,7 | 4347,2 | 4920,4 | 5926,4 | 6931,1 |
| Alınmış cari transfert-lər | 114,2 | 815,2 | 834,8 | 921,8 | 928,1 | 936,6 |
| Verilmiş cari transfert-lər | -16,4 | -97,9 | -137,2 | -153,5 | -89,4 | -72,8 |
| Sərəncamda qalan xalis gəlir | 1928,1 | 4590,0 | 5044,8 | 5688,7 | 6765,1 | 7821,9 |

Cədvəlin (5.4) təhlilində araşdırdığımız problem baxımından işçilərin əmək haqqı, ümumi mənfəət, ümumi milli gəlir, xalis milli gəlir, sərəncamda qalan xalis gəlir göstəriciləri daha çox maraq doğurur. İşçilərin əmək haqqı müqayisə olunan illərdə 2 dəfədən çox artmışdır. Artımın bu tempi ümumi mənfəətdə (1995-ci ildəki 482,6 mlyn. manatdan 2004-cü ildə 2122,3 mlyn. manata) ümumi milli gəlirdə (1995-ci ildəki 2130,4 mlyn. manatdan 2004-cü ildə 7841,8 mlyn. manata), xalis milli gəlirdə (1995-ci ildəki 1830,3 mlyn. manatdan 2004-

downloaded from KitabYurdu.org

cü ildə 6931,1 mlyn. manata, sərəncamda qalan xalis gəlirdə (1995-ci ildəki 1928,1 mlyn. manatdan 2004-cü ildə 7821,9 mlyn. manata çatmışdır) müşahidə olunmuşdur. Ümumi milli gəlirin struktur elementlərindəki bu artım bazar iqtisadi sistemi şəraitində Azərbaycanın iqtisadi inkişaf səviyyəsindən xəbər verir. 2006-cı ilin nəticələrinə görə ÜDM 17 mld. ABŞ dollarını ötüb keçmişdir.

Cəmiyyətin iqtisadi inkişaf səviyyəsi haqqında tam təsəvvürü şəxsi gəlirlərin araşdırılması ilə əldə etmək olar. Vətəndaşların gəlirlərin müxtəlif mənbələr hesabına formalaşması həmişə diqqət mərkəzində olmuşdur. Hətta qədim dünyada da şəxsi gəlirlərin formalaşmasında zehni əməyin iştirakına normal bir hal kimi baxmışlar. Platon yazırdı: «Mənim pul alaraq insanları tərbiyə etməyim haqqında yayılan fikirlər yalandır: ancaq mənə elə gəlir ki, bacararaq tərbiyə ilə məşğul olanlar üçün bu heç də pis iş deyil» (102,s.72). Platonun bu fikrindən aydın olur ki, hələ qədim dünyada insanın intellekti, biliyi, bu gün intellektual mülkiyyət adlandırdığımız mülkiyyətin reallaşması gəlirlərin formalaşması mənbələrindən biri kimi çıxış edirdi. Gəlirlərin nə formada yaranmasından asılı olmayaraq o əsasən nəticə etibarı ilə əhalinin gəlirləri şəklində çıxış edir. Azərbaycan Respublikasının Prezidenti İ.Əliyev Nazirlər Kabinetinin 2007-ci ilin birinci yarısında sosial-iqtisadi inkişafın yekunlarına həsr olunmuş iclasda çıxış edərək göstərmişdi: «Əhalinin gəliri 6 ay ərzində çox böyük surətdə artıb. Pul gəlirləri 36 faiz, əmək haqqı 26% artmışdır. Bu onu göstərir ki, əhali də yaxşı yaşamağa başlayıb» (15, s.1). Əhalinin gəlirləri dedikdə milli gəlirin şəxsi sərəncamda qalan hissəsi nəzərdə tutulur. Şəxsi sərəncamda qalan gəlir iki istiqamətdə istifadə olunur. Onun bir hissəsi şəxsi istehlakın ödənilməsinə, digər hissəsi isə yığıma gedir. Bu hissələrin nisbəti cəmiyyətin iqtisadi inkişafından və gəlirlərin səviyyəsindən asılıdır. Cəmiyyətin təbii-tarixi inkişaf meyli yüksələn xətlə getdiyindən normal cəmiyyətlərdə uzunmüddətli

downloaded from KitabYurdu.org

dövr üçün şəxsi sərəncamda olan gəlirdə yığımın payının artımı müşahidə olunur. Təbii ki, yığımın payının artması üçün, hər şeydən əvvəl şəxsi sərəncamda qalan gəlirin istehlaka yönəldilən hissəsi tələbatın nisbətən dolğun ödənildiyi şəraitdə mümkündür. Daha doğrusu yığımın həcmi istehlakın (əsasən gündəlik tələbatın) ödənilməsi səviyyəsindən asılıdır. Baxmayaraq ki, əhali yığımı da tələbatın ödənilməsi məqsədi ilə həyata keçirir. Lakin bu tələbat uzunmüddətli dövr üçün istehlak malları olduğundan (avtomobil, məişət avadanlıqları və s.) ilkin tələbə daxil edilmir. Gəlirlərin aşağı olduğu şəraitdə isə bu məhsullar ümumiyyətlə tələbatın strukturundan çıxardılır.

Zəif inkişaf etmiş ölkələrdə, o cümlədən də keçid dövrünü yaşayan ölkələrdə əhalinin əksər hissəsinin (bəzən 80-90%) şəxsi sərəncamda qalan gəliri minimum istehlak səbətindən də aşağı səviyyədə olduğundan ilkin tələbat mallarına olan tələbi belə ödəmir (87).

İnkişaf etmiş ölkələrdə şəxsi sərəncamda qalan gəlirlərin 55-65%-i şəxsi istehlaka (gündəlik tələbat) qalan hissəsi isə yığıma yönəldilir. Əhali bu yığıma yönəldilən hissəni müəyyən müddət uzunmüddətli istifadə üçün nəzərdə tutulmuş istehlak mallarının əldə edilməsinə sərf edir. Sonradan yığımın əksər hissəsinin investisiya kimi istifadə etmək üçün imkan yaranır.

Respublikamızda da digər MDB respublikalarında olduğu kimi əhalinin əksər hissəsinin şəxsi sərəncamında qalan gəlirindən yığıma yönəldilən hissə demək olar ki, yox səviyyəsindədir. Əhalinin bu qrupunun şəxsi sərəncamında qalan gəlirləri, hətta zəruri yaşayış vasitələrinin əldə edilməsinə kifayət etmir. Gəlirlərlə istehlakın ödənilməsi arasındakı ziddiyyət keçid iqtisadiyyatı dövründə daha qabarıq şəkildə təzahür edir. Əhalinin çox böyük bir hissəsinin (xüsusi ilə büdcə təşkilatlarında çalışanların) əmək haqqı şəklində götürdükləri gəlirlərin (indiki dövrdə bir qrup əhalinin əsas gəliri əmək haqqıdır) çox böyük hissəsi xidmətlərin (işıq pulu, qaz pulu, su

downloaded from KitabYurdu.org

pulu, mənzil kirayəsi və s.) ödənilməsinə getdiyindən şəxsi istehlakın ödənilməsinə çox cürzi bir məbləğ qalır. Lakin bütün bunlara baxmayaraq minimum səviyyədə də olsa insanlar özlərini yaşayış vasitələri ilə təmin edir. Deməli keçid dövrü öz sosial-iqtisadi təbiətinə uyğun olaraq gəlirlərin o qədər də qabarıq şəkildə təzahür etməyən gizli mənbələrini (qanunla qadağan olunan və olunmayan) yaradır ki, bu da əhalinin yaşayış vasitələri ilə təmin olunmasının əsas mənbələrindən birinə çevrilir.

Dövlət əhalinin yaşayış vasitələri ilə təminatını yaxşılaşdırmaq məqsədi ilə bir sıra tədbirlər görür. Bu tədbirlər içərisində minimum əmək haqqının səviyyəsinin minimum istehlak büdcəsinə yaxınlaşdırılması, büdcədən maliyyələşdirilən təşkilatlarda çalışanların əmək haqqının qaldırılması, pensiya təminatının yaxşılaşdırılması tədbirləri diqqət mərkəzində saxlanılır. 2007-ci ilin 1-ci altı ayına görə Azərbaycanda orta əmək haqqı 196 dollar, avqustun 1-ə isə 215 dollar təşkil etmişdi.

İqtisadçıların hesablamalarına görə isə orta illik gəlirimiz adambaşına düşən ümumi daxili məhsulumuzdan 2-3 dəfə çoxdur. Ona görə də istehlakımızın ödənilməsində bu dərəcədə əhəmiyyətli rol oynayan gəlir mənbələrinin araşdırılması maraq doğurur. Təbii ki, tələbatın əhalinin sosial quruluşundan asılı olaraq gəlirlərin gizli və aşkar mənbələri tələbatların ödənilməsində fərqli rol oynayırlar. Korrupsiya əli çatanların, gizli iqtisadiyyatla məşğul olanların tələbatlarının ödənilməsində göstərilən mənbələr həlledici rol oynayır. Əhalinin zəif təminatlı təbəqəsi isə illər boyu topladıqları sərvət gündəlik tələbat mallarının əldə edilməsinə sərf etməklə tələbatlarını ödəyirlər.

Dövlət səviyyəsində də sirr deyildir ki, keçid dövründə kölgəli iqtisadiyyat geniş yayılıb. Bu yolla əldə edilmiş gəlirlərin çox hissəsi ÜDM-də uçota alınmayan qeyri-qanuni yolla əldə edilmişdir. Gömrük tariflərinin və vergilərin böyük

downloaded from KitabYurdu.org

bir hissəsinin dövlət xəzinəsinə ödənilməməsi məhdud qrup insanların əlində külli miqdarda sərvət toplanmasına gətirib çıxarır. Bu «işbazlar» isə öz iş yerlərini saxlamaq üçün gəlirlərinin bir hissəsini haqq şəklində ödəməlidirlər. Beləliklə, qeyri-qanuni yolla yaranmış və ÜDM-də uçota alınmayan gəlirlərin yenidən bölgüsü baş verir. Digər tərəfdən bu «işbazlarla» dil tapanlar özləri üçün əlverişli şərait yaratdıqlarından (nisbətən az gömrük və vergi ödəyirlər) üstəlik gəlir götürmək imkanı əldə edir. Təbii ki, bu fərqi də ÜDM-də uçota almaq mümkün deyildir. Ölkə rəhbəri səviyyəsində rüşvətxorluğa, korrupsiyaya qarşı kəskin mübarizə tədbirləri həyata keçirilir. Dövlət idarəetmə strukturlarında islahatlar aparılır. 2002-ci ildə ölkə prezidentinin sərəncamına uyğun olaraq Vergilər Nazirliyinin əməkdaşları 30 faiz ixtisar olunmuş, vəzifə borclarını vicdanla yerinə yetirmələri üçün əmək haqqları 3 dəfə artırılmışdır. Bu sahədə görülən dövlət tədbirləri öz müsbət nəticəsini verməkdədir. Rəsmi mənbələrə görə koorupsiyanın səviyyəsi 20 faiz təşkil edir.

Bu gün Azərbaycan gerçəkliyinin səciyyəvi cəhətlərindən biri də iş qüvvəsinin miqrasiyasının geniş xarakter almasıdır. Müxtəlif mənbələrin məlumatlarına görə 1,5 milyondan 2 milyona qədər əmək qabiliyyətli əhali Azərbaycandan kənarda əmək fəaliyyətinə cəlb olunub. Nəzərə alsaq ki, orta hesabla ailə 4 nəfərdən ibarətdir, onda məlum olar ki, hər bir Azərbaycanlı ailəsindən bir nəfər (Azərbaycan əhalisi 8,6 mln. 2006-cı il) Azərbaycandan kənarda çalışır. İş qüvvəsinin miqrasiyası Azərbaycanda yaşayanların gəlirlərinin yüksəlməsinə iki istiqamətdə təsir göstərir. Bir tərəfdən ÜDM-in istehlaka gedən hissəsi 8,5 mln. nəfərin deyil, 6,5 mln. nəfərin (2 mln. Azərbaycandan kənarda istehlak edir) istehlakına yönəldilir. Digər tərəfdən isə Azərbaycandan kənarda çalışanların gəlirləri onların respublikamızda yaşayan ailə üzvlərinin tələbatlarının ödənilməsinin əsas mənbələrindən biri kimi çıxış edir. 2003-cü ildə qəbul olunmuş dövlət proqramlarına uyğun ola-

downloaded from KitabYurdu.org

raq artıq 2007-ci ilin sonuna 572 min yeni iş yerləri açılmışdır ki, onlardan da 405 mini daimi iş yerləridir.

Dünya təcrübə göstərir ki, bazar mexanizminin fəaliyyəti şəraitində əhalinin gəlirlərinin formalaşması mənbələrindən biri də şəxsi əmlakdan (evlərin kirayə verilməsi, avtomobillə xidmət göstərməklə gəlir götürmək və s.) əldə edilən gəlirdir. Normal bazar sistemli ölkələrdə əmlaka görə gəlirin vergi vasitəsi ilə uçota alınması mümkün olduğuna görə o ÜDM-də öz əksini tapır. Bizdə isə vergi sisteminin qeyri-mükəmməlliyi üzündən əmlaka görə gəlir o qədər də dəqiq uçota alınmır və o öz əksini tam şəkildə ÜDM-də tapmır. 2004-cü ildə mülkiyyətdən alınmış gəlirlər 39,9 milyon manat təşkil etmişdir. Ona görə də əhalinin müəyyən bir qrupunun gəlirlərinin müəyyən hissəsi (bəzən hətta əsas hissəsi) ÜDM-də uçota alınmayan əmlaka görə gəlir hesabına formalaşır.

Bazar iqtisadi sistemində gəlirlərin formalaşması baxımından maraq doğuran məsələlərdən biri də əhali qrupları arasında gəlirlərin ədalətli nisbətinin formalaşmasıdır. İqtisadi ədəbiyyatda əhalinin müxtəlif qrupları arasında gəlirlərdəki fərqliliyi göstərmək üçün əhalini 5 qrupda hərəsi 20% olmaqla qruplaşdırırlar. Nəticədə məlum olur ki, ən az gəlir götürən 20% əhali ümumi gəlirin 5%-ni, ən varlı 20% əhali isə ümumi gəlirin 50%-ni əldə edirlər. Bazar sistemli ölkələrin iqtisadi inkişafının sosial yönümlülüyü bu əhali qruplarının gəlirlərinin biri-birinə nisbət baxımından yaxınlaşması ilə səciyyələnir. Yüksək gəlirli əhali qrupunun gəlirləri mütləq kəmiyyət olmaq etibarı ilə artsa da faiz nisbəti aşağı düşməyə başlayır, az gəlirli 20% əhalinin gəlirləri isə 5%-dən yüksəlməyə başlayır. Azərbaycan iqtisadiyyatında gəlirlərin əhali qrupları arasında bölüşdürülməsi spesifik formada baş verir. Azərbaycanda is tehlakın ödənilməsi baxımından (xərclərlə) gəlirləri hesablayan iqtisadçılar hesab edirlər ki, respublika əhalisinin bütün mənbələr əsasında formalaşan gəlirləri təxminən 10-12 mlyard dollar (8,5 milyon əhali adambaşına 1500 dollar) təşkil edir.

downloaded from KitabYurdu.org

Nəzərə alsaq ki, 2007-ci ildə gəlirlərin təxminən 7 milyard 500 milyon dolları büdcə vəsaiti ilə 2 milyondan çox adamın (800 min nəfərə yaxın sosial sfera, 1,2 milyona yaxın sosial təşkilat, dövlət idarəetmə strukturu işçiləri) gəlirlərini formalaşdırır, onda məlum olar ki, gəlirlərin 80%-i 25% büdcədən maliyyələşdirilən əhali qrupunun payına düşür.

Beynəlxalq maliyyə təşkilatlarının və rəsmi dövlət orqanlarının qəbul etdiyinə görə Azərbaycanda əhalinin 20%-dən çoxu yoxsulluq həddində yaşayırlar. Yoxsuluq həddi dedikdə əldə olunan gəlirlərin insanları minimum yaşayış vasitələri ilə təmin edə bilməməsi başa düşülür. Minimum istehlak səbəti 70-80 manat olduğu halda Azərbaycanda minimum əmək haqqı 60 dollar, orta pensiya 70 dollar səviyyəsindədir. Bu əvvəlki illərə nisbətən çox böyük irəliləyişdir. Ancaq hamımız bunu bilirik və etiraf etməliyik ki, bu, insanın gündəlik tələbatını ödəyə bilməz. İnsanların normal fəaliyyəti üçün, yaşaması üçün bu kifayət etməz.

Gəlirlərin bölgüsünün müxtəlif əhali qrupları arasında aşağıdakı sxemə uyğun təhlili də maraq doğurur.

**Sxem 1.**




Sxemdən aydın görünür ki, gəlirlərin yaranmasının yeganə mənbəyi istehsal və xidmət sahəsidir.Normal cəmiyyətlərdə gəlirlər istehlak tələbatının ödənilməsi xərclərinə

downloaded from KitabYurdu.org

və yığıma ayrılır. Respublikamızda ümumi milli gəlirin bölgüsünün təhlili göstərir ki, əhalinin böyük əksəriyyətinin gəlirləri istehlak tələbatının, xüsusi ilə zəruri yaşayış vasitələrinin əldə olunmasına sərf olunur. Əhalinin müəyyən qrupunun gəlirləri isə gündəlik tələbat məhsulları ilə yanaşı uzunmüddətli istifadə mallarının (yaşayış evlərinin tikilməsi, avtomobil, televizor, soyuducu və sair) əldə edilməsinə xərclənir. Şərti qruplaşdırdığımız «yüksək gəlir götürən» əhali gəlirlərinin çox böyük bir hissəsini investisiya kimi istifadə edirlər. Hətta ölkə rəhbərliyi dəfələrlə qeyri-qanuni yolla pul qazananlara müraciət edərək bildirmişdir ki, o pullar ölkə iqtisadiyyatına investisiya kimi sərf olunarsa mənşəyi araşdırılmayacaq. Külli miqdarda olan bu pulların istehlak bazarına yönəldilməsindənsə investisiya kimi istifadə olunması ölkə iqtisadiyyatının inkişafına daha çox kömək etmiş olar.

Gəlirlərdəki fərqlilik əhalinin tələbatlarının formalaşmasındakı fərqlilikdə də öz əksini tapır. Əhali qruplarının gəlirlilik səviyyəsindən asılı olaraq hər bir cəmiyyətdə onun yetkinlik səviyyəsindən asılı olaraq tələbatlar piramidası formalaşır. Özünütəsdiq baxımından bu tələbatlar piramidası müəyyən təsəvvür yarada bilər.

downloaded from KitabYurdu.org

**Sxem 2**

**Tələbatlar piramidası**




(Maslov piramidası)

Əhalinin tələbatının strukturuna uyğun tələbatların ödənilməsi ölkənin iqtisadi inkişaf səviyyəsindən asılıdır. Əhəmiyyətliliyi baxımından tələbatlar aşağıdakı kimi sıralanır. Fizioloji tələbat, özünüsaxlama, sosial tələbatlar, nüfuza tələbat, özünütəsdiqə tələbat. Ən başlıcası insan ən mühüm tələbatını fizioloji və maddi tələbatını ödəməyə can atır. İnkişaf etmiş cəmiyyətlərdə mənəvi tələbatların ödənilməsi ilkin sıraya çıxır. Hər bir tələbatın ödənilməsi növbəti tələbatın ödənilməsinə stimul yaradır. Gəlirlərin aşağı səviyyəsi ilkin tələbatların ödənilməsinə sərf olunur. Gəlirlər yüksəldikcə tələbatlar piramidasının növbəti elementləri ödənilir.

Təbii ki, gəlirlərin formalaşmasındakı bu ziddiyyətlilik (gəlirlə tələbatın ödənilməsi) və çatışmazlıq yalnız Azərbaycana xas deyildir. Nəinki indiki bazar sisteminə keçən Müstəqil Dövlətlər Birliyi ölkələrində (xüsusi ilə Rusiyada), hətta klas-

downloaded from KitabYurdu.org

sik kapitalist ölkələrində kapitalizmə keçərkən soyğunçuluq yolları ilə (dəniz quldurluğu «çəpərləmə» və s.) külli miqdarda sərvətin məhdud insanların əlində toplanması səciyyəvi olmuşdur.

Respublikamızda bir qrup maliyyə fırıldaqçıları da bank sistemindəki çatışmazlıq və keçid dövründəki nəzarətsizlikdən istifadə edərək həm dövlət vəsaitini, həm də əhalinin pul vəsaitlərini onların əlindən almaqla külli miqdarda gəlir götürmək imkanı əldə etmişlər. Təkcə «AzərInvest Bankın» rəhbər işçiləri və onlara himayədarlıq edənlər qısa bir müddət ərzində 40 milyon dollardan çox dövlət vəsaiti mənimsəmişlər. Yeni yaradılan özəl bank sistemi fırıldaqçılıqda heç də öz həmkarlarından geri qalmamışlar. Bunların əsas gəlir mənbəyi geniş əhali kütləsinin (bəzi özəl bankların müştərilərinin sayı yarım milyona çatırdı) illər boyu canı və qanı bahasına topladığı sərvət idi. Bu bank fırıldaqçıları xeyli insanların varyoxdan çıxmasına, müflisləşməsinə səbəb olmuşdur. Doğrudur bu banklar özləri də fəaliyyətlərini fırıldaq üzərində (bank piramidası) qurduqlarından uzun müddət fəaliyyət göstərə bilməmiş, iflasa uğramışlar, lakin onların qalan əmlakı (məhdud miqdarda olsa da) əmanətçilərə qaytarılmaq əvəzinə yenidən bürokratik dövlət orqanları işçiləri (xüsusi ilə hüquq mühafizə orqanları) tərəfindən mənimsənilmişdir.

İnkişaf etmiş, inkişaf etməkdə olan, xüsusi ilə yeni müstəqillik əldə etmiş ölkələrdə gəlirlərin qeyri-bərabərliyi səciyyəvidir. Gəlirlərin qeyri-bərabərliyinə təsir göstərən amilləri aşağıdakı kimi qruplaşdırırlar:

1) İnsanların qabiliyyətlərində, peşə zövq və ehtiraslarındakı fərqlilik;

2) Təhsil səviyyəsi və ixtisas fərqliliyi;

3) İrsən qalan və yığılmış sərvətə malik olmaq, ailə gəlirinin səviyyəsi;

4) Əmlaka malik olanlar.

Göstərilən amillərin təsiri altında əhalinin fərqli gəliri

downloaded from KitabYurdu.org

formalaşır. Keçid ölkələrində bu fərqlilik sosial gərginliyi gücləndirə bilər. Ona görə də əhalinin gəlirlərinin tənzimlənməsi dövlətin sosial siyasətinin mərkəzi həlqəsi olmalıdır. Keçid dövründə sosial siyasətin reallaşmasında dövlətin rolunu nəzərə alaraq V.Kriçenko yazır: «Keçid iqtisadiyyatı ölkələrində sosial problemlərin həlli və ictimai ehtiyacların ödənilməsi üçün gəlirlərin yenidən bölgüsündə dövlət böyük rol oynayır» (63. s.36).

Dünyanın bütün ölkələrində dövlət sosial siyasət vasitəsi ilə əhalinin gəlirlərinin formalaşmasına əhəmiyyətli dərəcədə təsir göstərir. Sosial siyasət əsasən üç istiqamətdə həyata keçirilir.

1. Gəlir və qiymət siyasəti.
2. Məşğulluq və peşə hazırlığı siyasəti.
3. Sosial təminat siyasəti.

Sosial siyasətin hər üç istiqaməti əhalinin gəlirlərinin formalaşmasında müəyyənedici rol oynayır. İnkişaf etmiş bazar sistemli ölkələrə nisbətən keçid dövrünü yaşayan ölkələrdə dövlətin sosial siyasət vasitəsi ilə gəlirlərin formalaşmasına təsir göstərməsinə böyük ehtiyac var. Sosializmin mövcudluğu dövründə minimum səviyyədə də olsa əhalinin sosial təminat sistemi olduğundan əhalidə ələ baxımlıq psixologiyası formalaşmışdır. Dəyişilən iqtisadi şərait isə əhalidən daha çox çeviklik tələb edir. Əhalinin əksər hissəsinin dəyişilən iqtisadi şəraitə (bazar münasibətlərinə) o qədər də asan uyğunlaşa bilməməsi əhalinin uzun müddət topladığı sərvətin qısa bir müddətdə onların əlindən çıxmasına səbəb olur. Dövlət minimum əmək haqqının səviyyəsini, qiymətlərin yuxarı və aşağı həddini müəyyən etməklə həmin qrup əhalinin, həm də istehsalçıların var-yoxdan çıxmasının qarşısını almağa çalışır. Keçid dövründə inflyasiyanın ciddi bir problem kimi baş alıb getməsi heç kəs üçün sirr deyildir. Əgər dövlət qiymətlərin yüksəlməsini məhdudlaşdırmaqla inflyasiyanın qarşısını ala bilməzsə, ümumiyyətlə uzun müddət iqtisadiyyatın sabitləşməsinə nail olmaqdan söhbət gedə bilməzdi. Yaxud, ölkə sa-

downloaded from KitabYurdu.org

hibkarlarının o qədər də rəqabət qabiliyyətli olmadığını nəzərə alaraq qiymət güzəştləri tətbiq edilməzsə özəl bölmənin inkişaf etməməsi nəticəsində əhalinin gəlirlərinin səviyyəsi daha da aşağı düşər. Dövlətin gəlirlərin formalaşması baxımından yeritdiyi sosial siyasətin müvəffəqiyyətliyi, həmçinin məşğulluğun və peşə hazırlığının təmin edilməsi səviyyəsindən də çox asılıdır. Keçid dövrunün ilkin mərhələsində təsərrüfat əlaqələrinin qırılması, istehsalın səviyyəsinin kəskin şəkildə aşağı düşməsi kütləvi işsizliyə gətirib çıxarmışdır. Bütövlükdə dövlətin iqtisadi siyasəti, o cümlədən də sosial-siyasəti yeni iş yerlərini yaratmaqla, əhalinin əmək prosesinə cəlb olunmasına, işsizliyin səviyyəsinin aşağı salınmasına, işsizliyin hüquqi statusunun müəyyənləşdirilməsinə və sairə yönəldilmişdir. Dövlət yeni iş yerlərinin açılmasına şərait yaratmaqla əhali üçün gəlir götürmək mənbəyi yaratmış olur. Əhalinin nə qədər çox hissəsi müstəqil gəlir mənbəyinə malik olarsa dövlət təminatına ehtiyacı olanlar bir o qədər də az olar. Dövlət cəmiyyət miqyasında gəlirlərin formalaşmasına aktiv və passiv formada təsir göstərir. Aktiv forma dedikdə:

1) məşğulluğun səviyyəsinin artırılması;

2) iş qüvvəsinin hazırlığı və yenidən hazırlığı proqramlarının tutulması və işçilərin əməyə cəlb olunmasına yardım proqramı nəzərdə tutulur.

Sosial siyasətin passiv tədbirlərinə isə işsizliyə görə müavinətlər aid edilir. İşsizliyə görə müavinətlərın ödənilməsi kifayət qədər vəsait tələb etdiyindən bu müavinətlərın kəmiyyət miqdarı ölkənin iqtisadi inkişaf səviyyəsindən çox asılıdır.

Azərbaycan əhalisinin gəlirlərinin formalaşması fiskal siyasət həyata keçirmədən, bazarın ümidinə qalarsa çox böyük sosial bəlalara gətirib çıxarar. Onsuz da yoxsulluq həddində yaşayan əhalinin sosial vəziyyəti daha da pisləşər, sosial gərginlik dərinləşər. Ona görə də Azərbaycan dövləti gəlirlərin formalaşmasında nisbətən ədalətlilik yaratmaq baxımından kifayət dərəcədə çevik sosial siyasət həyata keçirməlidir. Bu

downloaded from KitabYurdu.org

sosial siyasət hər şeydən əvvəl gəlirlərin yenidən bölgüsü mexanizmi vasitəsi ilə əhalinin aztəminatlı hissəsinin maraqlarına uyğun gəlməlidir.

Bu gün Azərbaycanda yoxsulluq probleminin qısa bir müddətdə həlli ölkə iqtisadiyyatının imkanı daxilində deyildir. Lakin bu problemin həllinə heç də o, passiv mövqe tutmur. Beynəlxalq maliyyə qurumlarının yaxından köməyi və iştirakı ilə (BVF, Dünya Bankı, Avropa Yenidən Qurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı) respublikamızda yoxsulluğun aradan qaldırılması proqramı hazırlamışdı. Bu proqrama uyğun olaraq müvafiq tədbirlər həyata keçirilir, nəticədə əhalinin böyük əksəriyyətinin gəlirlərinin səviyyəsinin artımı müşahidə olunur, bu isə öz növbəsində yoxsulluğun azaldılmasına fəal təsir göstərir. İlk baxışda inzibati tədbir kimi görünən yoxsulluğun aradan qaldırılmasının dövlət proqramı bazar mexanizminin fəaliyyətinə əlverişli şərait yaradılmadan reallaşa bilməz. Bazar mexanizmi yeni iqtisadi sistemin iqtisadi inkişafının təkanverici qüvvəsi kimi çıxış etdiyindən yoxsulluğun aradan qaldırılmasının maddi təminatının yaradılmasında o, əvəzsiz rol oynayır.

## 5.2. Milli iqtisadiyyatda əmək bazarının formalaşması və məşğulluğun təmin edilməsində bazar mexanizminin əhəmiyyəti

Hər bir iqtisadi sistem öz sosial-iqtisadi təbiətinə uyğun olaraq məşğulluğun təmin edilməsi, işsizliyin tənzimlənməsi problemlərinin həlli sistemini yaradır. Cəmiyyətdə sosial gərginliyin səviyyəsi birbaşa işsizlik və məşğulluq dərəcəsindən asılı olduğu üçün hər bir cəmiyyət bu problemlərin həllinin çevik mexanizmini yaratmağa çalışır.

İqtisadi sistemlər vaxtaşırı işsizlik problemləri ilə qarşılaşdıqlarından əvvəlcədən işsizliyi törədə biləcək amillərin qarşısının alınmasına çalışırlar. Eyni bir sistem daxilində işsiz-

downloaded from KitabYurdu.org

liyi törədən amillərin qarşısının alınması nisbətən mümkündür. İqtisadi sistemlərin dəyişilməsinin törəməsi kimi çıxış edən işsizliyin tənzimləmə çərçivəsinə salınması mümkün olmur. Azərbaycan Respublikasının müstəqilliyinin ilkin mərhələsi yeni iqtisadi sistemə keçidlə səciyyələndiyinə görə yeni iqtisadi sistemə xas kəskin formada təzahür edən problemlərlə, işsizlik problemləri ilə qarşılaşmışdır. Doğrudur, işsizlik bazar iqtisadi sisteminin cığırdaşı hesab edilir, lakin o heç vaxt inzibati-amirlik sistemindən bazar münasibətlərinə keçid dövründəki kimi kəskin forma almamışdır. İnzibati-amirlik iqtisadi sistemi məşğulluğun planauyğun şəkildə həyata keçirildiyini iddia edirdi. Baxmayaraq ki, sosializm şəraitində də kifayət qədər işsiz var idi. Sosialist əhali sakinliyi qanununun tələblərinə uyğun məşğulluq təmin edilir, işsizlik tənzimlənirdi.

İqtisadi sistemin dəyişilməsi ilə məşğulluq və işsizliyin tənzimlənməsi köhnə qanunlarla həyata keçirilə bilməzdi. Ona görə də ölkəmizin müstəqil iqtisadi inkişafını tənzimləyən hüquqi aktların, o cümlədən də əhalinin «Məşğulluğu haqqında» Azərbaycan Respublikasının Qanununun qəbul edilməsi bir sıra talehyüklü məsələlərin, həmçinin məşğulluğun təmin edilməsinin qanun bazasının yaradılmasına istiqamətlənmişdir. Bu qanuna uyğun olaraq ölkədə əhalinin məşğulluğunun hüquqi-təşkilati, iqtisadi şərtləri, onun ərazisində daimi yaşayan vətəndaşların əmək hüquqlarının həyata keçirilməsi üçün dövlət təminatları müəyyənləşdirilir. Bu qanunun tələbinə uyğun olaraq aktiv fəaliyyətdə olub (dövlət tərəfindən qadağan olunmayan) qazanc gətirən hər bir şəxs məşğul əhali kateqoriyasına daxil edilir. Əmək qabiliyyətli əhalinin məşğul əhali kateqoriyasına daxil edilməyən hissəsi (təhsilə, orduya cəlb olunanlar və azadlıqdan məhrum olunanlar da əmək qabiliyyətli əhalidən çıxılır) sərbəstləşdirilən işçilər kimi «işsiz» kateqoriyasına daxil edilir və işsizlərin hüquqi statusu müəyyənləşdirilir. İşsizlərin hüquqi statusu onlara dövlətdən müəyyən miqdar müavinət almaq imkanı verir. «Əhalinin məşğullu-

downloaded from KitabYurdu.org

ğu haqqında» Azərbaycan Respublikasının Qanununa uyğun olaraq formalaşmaqda olan bazar iqtisadi sistemində əhalinin ictimai istehsala cəlb olunmasının Azərbaycan üçün yeni olan «Əmək bazarının» formalaşdırılması və fəaliyyətinin hüquqi əsası yaradılmışdı (36, s.3). Əmək bazarı bazar mexanizminin tələblərinə uyğun olaraq iş verənlərlə (sahibkarlar) işsizlər arasındakı münasibətləri tənzimləyir. Bu tənzimləmənin kifayət dərəcədə çevik həyata keçirilməsi üçün əmək bazarının normal fəaliyyətini təmin edən yardımçı sahələrin yaradılması zərurətə çevrilir. «Əmək bazarının» normal fəaliyyəti daha çox məşğulluq xidməti idarəsinin (məşğulluq mərkəzləri) fəaliyyətindən asılıdır. İşverənlərlə işsizlərin bilavasitə təmasda olduğu məkan məşğulluq mərkəzləridir. Məşğulluq mərkəzləri iş yerləri təklifi ilə iş yerlərinə olan (bütün göstəricilər nəzərə alınmaqla) tələb uçota alınır. Həmçinin, işsizlər qeydə alınır və onların müəyyən qisminə işsizliyə görə müəyyən müddət müavinət verilməsinə şərait yaradır. 2005-ci ildə iqtisadi fəal əhalinin sayı 1995-ci illə müqayisədə 265,2 min nəfər artaraq 3906,5 min nəfər olmuşdur. 2006-cı il yanvarın 1-nə ölkənin məşğulluq xidməti orqanlarına müraciət edən şəxslərin 56,3 min nəfəri işsiz statusu almışdır ki, bunlardan da 5,6 min nəfərinə (10%) işsizliyə görə müavinət verilmişdir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi də məşğulluğun təmin olunmasına öz imkanları daxilində köməklik göstərməyə çalışırlar. Mövsümi olaraq, vaxtaşırı ölkənin iri şəhərlərində «əmək bazarları», «əmək yarmarkaları» təşkil etməklə məhdud miqdarda da olsa əhalinin iş tapmasına köməklik göstərirlər. Doğrudur, boş iş yerlərinin müəyyənləşdirilməsinə məşğulluq mərkəzlərinin müdaxilə edə bilməməsi boş iş yerləri haqqında tam təsəvvür yaratmağa imkan vermir. İş yerləri ilə iş axtaranlar arasında uyğunsuzluq olduğundan mütəxəssislərin iş yerlərinə cəlb edilməsi neqativ hallarla müşahidə olunur. Azərbaycanın dünya birliyinə inteqrasiyası əmək bazarının imkanlarını da genişləndirir. İşsiz əhali digər

downloaded from KitabYurdu.org

ölkələrin əmək bazarında iş tapmaq imkanı əldə edirlər. Nəinki işsiz əhali, aşağı əmək haqqı alanlar da (özünü və ailəsini yaşayış vasitələri ilə təmin edə bilmədiklərindən) nisbətən yüksək əmək haqqı ala biləcək ölkələrə miqrasiya edirlər. Müstəqillik şəraitində əsasən ölkəmizdə iş yerlərinin məhdudluğundan külli miqdarda əmək qabiliyyətli əhali (müxtəlif rəqəmlər söylənilir: təxminən 1,5 mln.-dan 2 mln. nəfərə qədər) xarici ölkələrə işləmək üçün (əsasən Rusiya Federasiyasına) getmişlər. İş qüvvəsinin miqrasiyası bazar sistemli ölkələrdə qeyri-adi hal deyildir. Hətta XIX əsrin 60-cı illərində Qərbi Avropanın inkişaf etmiş ölkələrindən ABŞ-a «beyin axını» kütləvi hal almışdır. Bu axından Qərbi Avropa ölkələrindən daha çox ABŞ gəlir əldə etmişdir. Ona görə də iş qüvvəsinin miqrasiyası zamanı əldə oluna biləcək gəlirlə real çəkilən xərclərin müqayisəsinin çox böyük əhəmiyyəti var. Məlumdur ki, başqa ölkəyə işləməyə gedən hər bir Azərbaycan vətəndaşı öz məhdud büdcəsindən müəyyən xərclər çəkir.

Miqrasiya edənlərin əksəriyyətinin o qədər də yüksək ixtisas hazırlığı olmadığından aydındır ki, aşağı əmək haqqı olan sahələrdə çalışırlar. Lakin mövcud əmək haqqı aşağı səviyyədə də, onların müəyyən gəlir götürməsinə (Azərbaycanda əmək haqqının səviyyəsindən nisbətən yüksək olduğundan) imkan verir. Onlar gəlirlərinin bir hissəsini Azərbaycana göndərməklə işlədikləri ölkənin ümumi milli gəlirinin Azərbaycanın xeyrinə bölgüsündə iştirak edirlər. Digər tərəfdən də, müəyyən vəsait əldə etdikdən sonra ölkəyə qayıdıb sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq imkanı da əldə edirlər. Yeni əmək vərdişləri əldə edirlər, mükəmməl texnologiyanı mənimsəyirlər. Təbii ki, bütün bu göstərdiyimiz amillər Azərbaycan vətəndaşının regional və beynəlxalq əmək bazarından bəhrələnmək imkanından irəli gəlir.

Məşğulluğun klassik modelindən fərqli olaraq Azərbaycan iqtisadiyyatında məşğulluq və işsizlik iqtisadi sistemin və cəmiyyətin iqtisadi bazisinin dəyişməsinin törəməsi kimi

downloaded from KitabYurdu.org

çıxış edir. Keçid dövründə dövlət müəssisə, idarə və təşkilatlarının kütləvi şəkildə ləğvi, özəlləşdirilməsi ilə səciyyələnir. Həm də sosializm dövründə ştat cədvəlləri süni şəkildə şişirdildiyindən keçid dövründə işçilərin ixtisar edilməsi kütləvi şəkil alır. Ona görə də Azərbaycan Respublikasında məşğulluğun təmin edilməsi real gerçəklikdən irəli gələn xüsusiyyətlər nəzərə alınmaqla uyğun gəldiyi dərəcədə həm klassik modeldən (çünki bazar mexanizminin elementlərinin formalaşması klassik kapitalizmə uyğun gəlir) həm də Keynsçi modeldən (müasir bazar iqtisadiyyatı dövlət tənzimlənməsiz mümkün deyildir) istifadə edilməklə həyata keçirilməlidir. Bazar iqtisadi sisteminə keçid dövründə məşğulluğun təmin edilməsinin hər iki modeli nəzərə alınmaqla inzibatçılıq prinsipi əsasında formalaşan məşğulluğun bazar prinsipləri təməlinə tədricən yönəldilməsi də diqqətdən kənarda qalmamalıdır.

Bir tərəfdən məşğulluğun təmin edilməsi daha çox dövlətin sosial siyasətinin mühüm tərkib hissəsi olduğundan o dövlət nəzarətindən kənarda qala bilməz, digər tərəfdən isə dövlət məşğulluğun təmin edilməsinə inzibati yolla müdaxiləyə üstünlük verməklə məşğulluğun bazar mexanizminin formalaşmasına etinasız yanaşa bilməz.

Azərbaycan gerçəkliyi kifayət dərəcədə fərqli olsa da (inzibati-amirlik sistemindən bazar sisteminə keçid, dövlətsizləşdirmə, özəlləşdirmə, iqtisadiyyatda qıtlığın yaranması) məşğulluq nəzəriyyəsinin nəzərdən keçirilməsinin Azərbaycan Respublikasında məşğulluq problemlərinin həm elmi, həm də praktiki cəhətdən böyük əhəmiyyəti var.

Ona görə də inzibati-amirlik iqtisadi sistemindən bazar iqtisadiyyatına keçən hər bir ölkə üçün, o cümlədən də Azərbaycan Respublikası üçün məşğulluğun öyrənilməsinə həsr edilmiş bütün iqtisadi-nəzəri baxışların elmi və praktiki əhəmiyyətini real gerçəkliyə uyğun istifadə etmək zərurətə çevrilir.

Klassik nəzəriyyə və onun davamçıları hesab edirdi ki, (yaradıcıları D.Rikardo, A.Smit, C.S.Mill, A.Marşal, A.Piqu

downloaded from KitabYurdu.org

və başqaları) azad kapitalizm şəraitində fəaliyyət göstərən bazar təsərrüfat mexanizminin elementlərinin sərbəst fəaliyyətinin nəticəsi olaraq iqtisadiyyatda bütün resurslardan, o cümlədən də iş qüvvəsindən tam istifadə üçün əlverişli şərait yaranır. Maddi resursların və iş qüvvəsinin maksimum dərəcədə istehsala cəlb olunduğu şəraitdə istehsal tam gücü ilə işləyir. İstehsalın tam gücü ilə işləməsi isə maksimum məşğulluq şəraitində mümkündür. Doğrudur cəmiyyətin siyasi üst qurumunda (çevriliş və inqilablar) və bazisində də köklü dəyişikliklər baş verdiyi hallarda tam məşğulluq pozula bilər. Lakin cəmiyyətin normal inkişaf məcrasına qayıtması ilə cəmiyyətdə iqtisadiyyatın tam gücü ilə işləməsi zərurətə çevrilir. Bu proses hər şeydən əvvəl azad kapitalizmin avtomatik özünü tənzimlənmə mexanizmi, bazar mexanizmi vasitəsi ilə həyata keçir.

Klassiklər azad kapitalizm şəraitində tam məşğulluğun təmin edilməsi məqsədi ilə iki əsas məsələnin diqqət mərkəzində saxlanılmasını xüsusi ilə vurğulayırdılar.

1. İstehsal tam gücü ilə işlədiyi şəraitdə maksimum maddi nemət istehsal edildiyindən məhsulların əldə edilməsinə sərf edilən xərclər (alıcıların tədiyə qabiliyyətli tələbi) kifayət dərəcədə olmalıdır ki, maddi nemətlərin reallaşmamış hissəsi qalmasın. Əks təqdirdə istehsalın növbəti təkrarlanma mərhələsində istehsal tam gücü ilə yüklənməz və tədricən istehsalın səviyyəsi aşağı düşər. Kapitalistin mənfəət götürmək məqsədinin reallaşması iş qüvvəsinə tələbin yüksək səviyyəsi ilə ödənildiyindən işçilər də yüksək əmək haqqına uyğun gəlirlər əldə edirlər. Bu gəlirlər isə istehsalın tam gücü ilə işlədiyi şəraitdə yaranan maddi nemətlərin reallaşmasının əsası kimi çıxış edir. Deməli, bazar mexanizmi bir tərəfdən resursları tam hərəkətə gətirməklə maddi nemətlər istehsalının yüksək artımını təmin edir, digər tərəfdən isə bu prosesin iştirakçılarının yüksək gəliri istehsalın nəticəsinin reallaşmasına əlverişli şərait yaradır, istehsalın nəticəsi istehlaka daxil olur. İstehsal edilmiş məhsulların əldə edilməsinə çəkilən xərclər gəlirlər şəklində əldə edilmiş vəsaitə uyğun gəlir.

downloaded from KitabYurdu.org

2. Məhsulların reallaşması xərcləri kifayət etmədiyi (faiz və əmək haqqı azalarsa) halda belə istehsal olunmuş məhsulun ümumi həcmi azalmayacaq. Çünki əmək haqqı və digər xərclərin azalması nəticəsində ümumi xərclər azalacaq. Ümumi xərclərin azalması məhsulların qiymətlərinin aşağı düşməsinə gətirib çıxarır. Məcmu təklifin qiymətlərinin səviyyəsinin aşağı düşməsi tədiyə qabiliyyətli tələblə təklifin uyğunluğu şəraitində baş verir. Qiymətin aşağı düşməsi təkliflə tədiyə qabiliyyətli tələbi kompensasiya etdiyindən maddi nemətlərin istehsalındakı artım meyli davam edəcək. Məşğulluq klassik anlamındakı xərclərin səviyyəsinin aşağı düşməsi baxışı öz mənbəyini J.B.Seyin nəzəriyyəsindən götürür.

J.B.Sey nəzəriyyəsinə görə istehlak olunan məhsullarla istehsalın nəticəsi olaraq yaranan gəlirlər qarşılıqlı asılılıqda mövcuddur. Klassik kapitalizm üçün kifayət dərəcədə əsaslandırılmış görünən bu nəzəri müddəa keçid dövründə ziddiyyətliliyi ilə səciyyələnir. İstehsalla istehlak, gəlirlərlə tələbatların ödənilməsi səviyyəsi sanki sərbəst şəkildə fəaliyyət göstərir. İstehsalın bilavasitə tələbatın ödənilməsinə yönəldilməsi prinsipi pozulur. Təbii ki, bu proses müvəqqəti xarakter daşıya bilər. İstehsal istehsal xatirinə deyil, son nəticədə istehlakın ödənilməsi məqsədi güddüyündən istehlakçıların müəyyən gəlirləri ilə təminatlı olmalıdır. Bu təminatlılıq istehsal olunmuş məhsulların mənimsənilməsinə şərait yaratmaqla məhsulların istehsalının da təkrarlanmasına stimullaşdırır. Avtomatik tənzimlənmə mexanizmi vasitəsi ilə resursların istifadəsində optimal nisbət yaradır. Bu optimallıq hər şeydən əvvəl özünü resursların maddi hissəsi ilə canlı hissəsində qabarıq şəkildə göstərir. Sahibkarın istehsalı genişləndirmək marağı hər cəlb olunan əlavə maddi resursa uyğun iş qüvvəsinin də cəlb olunmasını şərtləndirir. İstehsalın miqyasının genişləndirilməsi nəzəri cəhətdən qeyri-məhdud olduğundan (ən azı cəmiyyət miqyasında) ekstensiv inkişaf baxımından tam məşğulluğa qədər davam etdirilir. Nəticədə həm nemətlərin istehsalı

downloaded from KitabYurdu.org

yüksəlir, həm də gəlirlər çoxalır. Gəlirlər tədiyə qabiliyyətli tələbin əsası kimi çıxış etdiyindən təkliflə tələb arasında bir bərabərlik, yaxud optimallıq yaranır. Bu bərabərlik ideal bir şəraitdə mümkündür. Gəlirlərin bir hissəsi yığıma çevrildiyi halda təklifin bir hissəsi tələbin məhdudlaşdırılması nəticəsində reallaşmayacaq. Təbii ki, yığım istehlaka da yönəldilə bilər (uzunmüddətli istifadə mallarının əldə edilməsi), lakin əsasən o investisiya mənbəyi kimi çıxış edir. Kapitalizmin tarixi inkişaf təcrübəsi göstərir ki, yığım daha çox investisiya məqsədli olur. İnvestisiya kimi çıxış edən yığım yenidən digər istehsal amilləri ilə birgə iş qüvvəsinin geniş miqyasda istehsala cəlb olunmasının vasitəsi kimi çıxış edir. İlk baxışda bazar mexanizminin elementlərindən birinin, tələbin məhdudlaşdırılması kimi görünən gəlirin bir hissəsinin investisiyaya yönəldilməsi əslində istehsal istehlakını genişləndirir. İnvestisiya imkanları genişlənən müəssisələrin istehsal vasitələrinə olan tələbinin artımı istehsal vasitələri istehsalının artımını şərtləndirir. İstehsal vasitələri istehsalının artımı müəssisələrin istehsal vasitələrinə olan tələbini kifayət dərəcədə çevik təmin etməklə yanaşı işçi qüvvəsinə də tələb yaradır.

Klassiklərin məşğulluq nəzəriyyəsində yeni iqtisadi sistemə keçidlə əlaqədar maraq doğuran məsələlərdən biri də iş yerlərinin rəqabəti vasitəsi ilə tam məşğulluğun təmin edilməsidir. Bütövlükdə iqtisadi inkişafa məhsuldar qüvvələrin yüksələn meyli kimi baxsaq məlum olar ki, istənilən cəmiyyət üçün (digər şərtlər sabit qaldığı şəraitdə) qiymətlərin aşağı düşməsi səciyyəvidir. Qiymətlərin aşağı düşməsi təkcə istehlak predmetlərini deyil, həmçinin iş qüvvəsini də əhatə edir. Çünki iş qüvvəsinin qiyməti onu təkrar istehsal etmək üçün lazım olan istehlak şeylərinin qiymətləri ilə müəyyən edildiyindən istehlak şeylərinin qiymətlərinin aşağı düşməsi ilə onun da qiyməti aşağı düşür. İş qüvvəsinin qiymətinin aşağı düşməsi sahibkarlara imkan verir ki, əmək haqqının ödənilməsinə aşağı tarif dərəcələri tətbiq etsinlər. Bu isə sahibkarlara eyni

downloaded from KitabYurdu.org

bir məbləği daha çox işçinin əməyinin ödənilməsinə sərf etməyə imkan verir. Nəzərə alsaq ki, hətta cəmiyyət miqyasında iş yerlərinin kəmiyyət miqdarı məhduddur və ona görə də işçinin başı üzərində həmişə iş yerini itirmək təhlükəsi var. Onda məlum olur ki, işçi aşağı əmək haqqı şəraitində də işləməyə hazırdır. Deməli, bazar mexanizminin kifayət dərəcədə çevik fəaliyyət göstərdiyi şəraitdə məcburi işsizlik mümkün deyildir. Bazarda müəyyən edilən tarifə uyğun əmək haqqına işləmək istəyən işçi həmişə işləmək imkanına malikdir, ona görə də klassiklər hesab edirdilər ki, cəmiyyət miqyasında tam məşğulluğun təmin edilməsi azad bazar şəraitində daha realdır.

Kapitalist iqtisadiyyatı inkişaf etdikcə ifrat istehsal böhranları qaçılmaz bir hadisəyə çevrilirdi. İfrat istehsal böhranlarının vaxtaşırı təkrarlanması öz mənfi nəticələrini iqtisadiyyatın bütün sahələrində, o cümlədən də məşğulluğun səviyyəsində də qabarıq şəkildə göstərir. «Böyük Depressiya illəri» (1929-1933) bir daha inandırıcı şəkildə sübut etdi ki, artıq kapitalizmin özünü avtomatik tənzimləməsi haqqındakı baxışlar öz ömrünü başa vurub. İstehsalın inkişafının miqyası elə bir həddə gəlib çatıb ki, cəmiyyət miqyasında yaranan problemləri fərdi kapitallar həll etmək iqtidarında deyildir. İqtisadiyyatda baş verən bu keyfiyyət dəyişiklərini C.M.Keyns «Məşğulluğun, faizin və pulun ümumi nəzəriyyəsi» kitabında təhlil edərək bu qənaətə gəlmişdir ki, müasir iqtisadiyyat dövlət müdaxiləsi olmadan səmərəli fəaliyyət göstərə bilməz. Klassik nəzəriyyə hesab edirdi ki, iqtisadiyyata dövlət müxtəlif alətlər vasitəsi ilə müdaxilə edərsə iqtisadiyyat qeyri-səmərəli fəaliyyət göstərər, onun avtomatik özünütənzimləmə mexanizmi subyektiv amilin təsiri altında pozula bilər. Keyns isə bu iddianı rədd edərək göstərir ki, avtomatik tənzimlənmə təsadüfdür və xüsusi hal kimi səciyyələnməlidir. Bazar iqtisadi sistemi şəraitində məşğulluğun təmin edilməsi məqsəd olmadığından istehsalın optimal həcmi işsizlik və inflyasiyanın mövcudluğu şəraitində mümkündür. İşsizlik və inflyasiyanın tənzimlənməsi isə fərdi sahibkarların imkanı xaricində olduğundan iqtisadiyyata dövlət müdaxiləsinə zərurət yaranır.

downloaded from KitabYurdu.org

Keçid iqtisadiyyatı ölkələrində keçid dövrünün sosial-iqtisadi təbiətinə uyğun olaraq işsizlik və inflyasiya daha çox ifrat formada təzahür etdiyindən yalnız Keyns nəzəriyyəsinin nəzəri müddəalarından istifadə etməklə bu problemi həll etmək mümkün deyil.

Məşğulluğun klassik nəzəriyyəsinə görə işsizlik «könüllü» və friksion işsizlik formasında meydana gəlir. Klassik nəzəriyyəçilər məcburi işsizliyi qəbul etmirdilər. Klassiklərdən fərqli olaraq Keyns özünün məşğulluq nəzəriyyəsində məcburi işsizliyi kapitalizmin inkişafının müəyyən bir mərhələsinin reallığı olduğunu elmi cəhətdən əsaslandırılmışdır. O, göstərirdi ki, işsizlik kapitalizmin əsaslarını dağıtmaq həddinə də çata bilər. Ona görə də işsizliyin həcmini müəyyən edən amillərin dəqiqləşdirilməsi və sosial gərginlik yarada biləcək işsizliyin qarşısının alınması vasitələrinin seçilib qruplaşdırılması mühüm əhəmiyyət kəsb edir. C.M.Keyns məşğulluğu müstəqil dəyişənlərdən: «istehlakçılıq meylliyindən», «kapitalın səmərəlilik həddindən» və faiz dərəcəsindən asılı dəyişən kimi götürürdü. O, hesab edirdi ki, məşğulluq istehsal predmetləri və istehsal vasitələri bazarının həcmindən asılı kəmiyyətdir. Məşğulluğun həcmi Keyns nəzəriyyəsinə görə məcmu təklif funksiyası ilə məcmu tələb funksiyasının kəsişmə nöqtəsinə uyğun gəlir. Beləliklə, məşğulluq məcmu tədiyyə qabiliyyətli tələblə məcmu əmtəə təklifinin uyğunluğu ilə müəyyənləşdirirlər. Keyns öz tədqiqatında daha da dərinə gedərək göstərirdi ki, məşğulluğun həcmi sahibkarın səmərəli tələbindən çox asılıdır. Sahibkarın gəlirinin maksimum həddi məcmu tələb funksiyasından asılı olduğu kimi, məşğulluğun da səviyyəsi sahibkarın mənfəət götürmək imkanının genişlənməsindən asılıdır. Satışdan əldə olunmuş məbləğin istehlaka və investisiyaya ayrılan nisbəti sahibkarın mənfəət götürmək marağının ödənilməsi ilə müəyyənləşir. Bu müddəa riyazi olaraq aşağıdakı kimi ifadə olunur. $N = F |Dw|$ N – məşğulluğun həcmi; Dw – səmərəli tələbin həcmidir. Göründüyü kimi Keynsin məşğulluq nəzəriyyəsində məşğulluğa ikinci dərəcəli, sahibkar mənfətindən asılı rol verilmişdir. Keyns yazırdı: «Məşğulluğun sə-

downloaded from KitabYurdu.org

viyyəsi məcmu tələb funksiyasının məcmu təklif funksiyası ilə kəsişdiyi nöqtədə müəyyənləşir. Bu nöqtə isə sahibkarın ən yüksək gəlir gözlədiyi nöqtədir» (55, s.78). Azərbaycan Respublikasında sahibkarlığın inkişafı ilə sahibkarın gəlir götürə biləcəyi başlanğıc nöqtə ölkə iqtisadiyyatının iqtisadi inkişaf səviyyəsindən asılı olaraq dəyişə bilər. Sahibkarın ən yüksək gəlir götürdüyü nöqtə milli maraqlara uyğun gəlməlidir.

Məşğulluğun təmin edilməsi sahibkarın bilavasitə məqsədi olmadığından o məşğulluğa mənfəətə olan tələbinin ödənilməsi vasitəsi kimi baxır. O ən yüksək mənfəət götürə biləcək səviyyədə məşğulluq yaratmağa çalışır. Burada meyar kimi hər cəlb olunan əlavə iş qüvvəsinin ödənilməsinə gedən xərclə əmək məhsulunun son həddi arasındakı fərq müəyyənedici rol oynayır. Cəmiyyət miqyasında işsizliyin aşağı və yuxarı səviyyədə olmasından asılı olmayaraq sahibkar əmək qabiliyyətli əhalini əməyinin ödənilməsinə çəkilən xərcin əmək məhsulunun son həddinə maksimum dərəcədə yaxınlaşdığı miqyasa qədər istehsala cəlb etməkdə maraqlıdır. Əməyin ödənilməsinə çəkilən xərc əmək məhsulunun son həddinə yaxınlaşdıqca bu maraq zəifləyir və müəyyən həddən sonra istehsala əlavə iş qüvvəsi cəlb edilmir. Məşğulluğun səviyyəsi bu həddə uyğun gəlir. Deməli məşğulluğun müəyyən səviyyəsinin əldə edilməsi bazar mexanizminin elementlərinin fəal təsiri altında sahibkarın mənfəəti artırmaq marağı ilə üst-üstə düşür. Mənfəət götürmək marağı isə təkcə əlavə işçi qüvvəsinin cəlb edilməsi ilə deyil, həm də investisiya imkanlarının genişlənməsi ilə də reallaşır. O, yazırdı: «Məşğulluq yalnız investisiyanın artması ilə paralel şəkildə arta bilər» (55,s.232-233).

C.M.Keynsin «məşğulluq» nəzəriyyəsində maraq doğuran cəhətlərdən biri də dövlətin müxtəlif rıçaqlardan istifadə edərək cəmiyyət miqyasında məşğulluğun tənzimləməsidir.

Məlumdur ki, işsiz əhalinin sosial müdafiəsi dövlətin qayğısı olduğundan dövlət əhalinin əmək prosesinə cəlb olunmasında maraqlıdır. Əhali nə qədər əmək prosesinə çox cəlb olunarsa dövlət qayğısına ehtiyacı olanlar bir o qədər az olar.

downloaded from KitabYurdu.org

Keçid iqtisadiyyatı dövründə dövlət aşağıdakı tədbirləri həyata keçirərək, bazar mexanizminin fəaliyyətinə əlvenrişli şərait yaratmaqla məşğulluğun təmin edilməsinə təsir göstərir:

- sahibkarlıq təşəbbüsünün stimullaşdırılması;
- dövlət bölməsində sahibkarlığın yol verilən hədd daxilində inkişaf etdirilməsi, yeni müasir texnologiyaya əsaslanan müəssisələrin yaradılması;
- müəssisələrin özəlləşdirilməsi ilə əlaqədar işçiləri işdən çıxarmasını qanunla tənzimləyərək işsizliyi məhdudlaşdırır;
- müəssisələrə maliyyə-kredit rıçaqları ilə təsir göstərərək onların iflasının qarşısını alır;
- ixtisaslı işçilərin yenidənhazırlanmasının əhəmiyyətli hissəsi dövlət tərəfindən həyata keçirilir və s.

XX əsrin 70-80-cı illərində inkişaf etmiş kapitalist ölkələrində, o cümlədən də ABŞ-da işsizlik təhlükəli həddə çatmışdır. Dövlətin nisbətən qısa bir müddətdə həyata keçirdiyi tədbirlər nəticəsində işsizlik yol verilən hədd səviyyəsinə endirilmişdir. Bu tədbirlər içərisində dövlət tərəfindən «BOİNQ» kompaniyasına 1 milyard dollar maliyyə yardımı göstərilməsi nəticəsində müəssisənin iflasa uğramasının qarşısının alınmasını qeyd etmək kifayətdir. Firma iflasa uğrayardısa 10 minlərlə işçi öz iş yerini itirərdi.

Yaxud, elmi texniki tərəqqinin nailiyyətlərinin istehsalda geniş tətbiqi ənənəvi peşə sahiblərinin iş yerlərini itirmələri ilə nəticələnir. 80-cı illərdən sənaye robotlarının geniş tətbiqi (Yaponiya 13 min robot, ABŞ 12 min robot) bu sahədə işsizliyin artmasına səbəb olmuşdur. İşçilərin yenidən hazırlanması kifayət qədər vəsait tələb etdiyindən müəssisələr işçilərin yenidən hazırlanmasına o qədər də həvəs göstərmirlər. Dövlət müxtəlif təhsil müəssisələrində büdcə vəsaiti hesabına işçiləri yeni peşələrə öyrətməklə onların digər fəaliyyət dairəsinə cəlb olunmasına şərait yaradır. İşsizliyin məhdudlaşdırılması sahəsində dünyanın qabaqcıl ölkələrinin təcrübəsi göstərir ki, keçid iqtisadiyyatı ölkələri bu təcrübədən səmərəli bəhrələnməklə və öz real gerçəkliklərindən irəli gələn xüsusiyyətləri də nəzərə alaraq səmərəli məşğulluğu təmin edə bilərlər.

downloaded from KitabYurdu.org

Yeni müstəqillik əldə etmiş ölkələrdə məşğulluğun təmin edilməsinin nəzəri problemləri öyrənilərkən iqtisadi tsikllə məşğulluğun qarşılıqlı əlaqəsi diqqət mərkəzindən kənarda qalmamalıdır. Bazar sistemli ölkələrdə iqtisadi inkişaf tsiklik xarakter daşıdığından tsiklin müxtəlif fazalarına uyğun məşğulluq səviyyəsi formalaşır. Müxtəlif fazalarda (durğunluq, canlanma, yüksəliş, böhran) məşğulluq və işsizlik müxtəlif nisbətdə olur. Ya məşğulluq tam məşğulluğa yaxınlaşır, ya da işsizlik təhlükəsi yüksək həddə çatır. İstehsal böhran nöqtəsinə (ifrat istehsal böhranları) yaxınlaşdıqca iqtisadiyyat tam gücü ilə işlədiyindən maddi və canlı əmək resurslar maksimum dərəcədə hərəkətə gətirilmiş olur, təklif tədiyə qabiliyyətli tələbi qabaqladığı andan (böhran) başlayaraq istehsalın səviyyəsi aşağı düşməyə başlayır, iş qüvvəsinə tələb azalır və işsizlərin sayının artması durğunluq fazasına qədər davam edir. Durğunluq fazasından başlayaraq proses yenidən əks istiqamətdə gedir. Məşğulluğun Klassik və Keyns nəzəriyyəsi ilə həmçinin iqtisadi tsikllə izahı daha çox bazar iqtisadi sisteminə uyğun gəldiyindən bu məşğulluq nəzəriyyələrini şablon şəklində Azərbaycan gerçəkliyinə tətbiq etmək neqativ nəticələrə gətirib çıxarar. Azərbaycan bu gün iqtisadiyyatda köklü islahatlar həyata keçirməklə bazar münasibətlərinin əsaslarını yaradır. Bazar münasibətlərinin əsaslarının yaradılması isə işsizliyin yüksək həddi ilə müşahidə olunur. İşsizliyin bu yüksək həddi ifrat istehsal böhranlarından deyil, «qıtlıq» böhranlarından, sistem dəyişikliklərindən, «struktur» böhranlarından və sairədən irəli gəlir.

Respublikamızda məşğulluq və işsizlik probleminin təhlili zamanı əmək ehtiyatlarının say tərkibinin öyrənilməsinin böyük əhəmiyyəti vardır.

downloaded from KitabYurdu.org

**Cədvəl 5.6**

**Əmək ehtiyatları (min nəfər) (22, s. 95)**

| Əmək ehtiyatları | 1990 | 1995 | 1997 | 2000 | 2001 | 2002 | 2005 |
|---|---|---|---|---|---|---|---|
| Cəmi | 4014,5 | 4227,8 | 4336,0 | 4685,8 | 4700,0 | 4896,2 | 5098,9 |
| Əmək qabiliyyəti yaşında əmək qabiliyyətli əhali | 3859,9 | 4068,0 | 4182,8 | 4530,8 | 4545,0 | 4740,6 | 4942,4 |
| İqtisadiyyatda məşğul olan əmək qabiliyyəti yaşından yuxarı şəxslər | 143,0 | 149,5 | 142,8 | 143,0 | 143,0 | 142,6 | 143,0 |
| İqtisadiyyatda məşğul olan yeniyetmələr | 11,6 | 10,3 | 10,4 | 12,0 | 12,0 | 13,0 | 13,5 |
| Əhalinin sayı | 7131,9 | 7643,5 | 7799,8 | 8016,2 | 8081,0 | 8202,5 | 8436,4 |

Cədvəlin (5.6) təhlili göstərir ki, respublikamızın əhalisi 15 il ərzində (1990-2005-ci illər) 1 mln. nəfərdən çox artmışdır. Bu meyl əmək qabiliyyəti yaşında olan əmək qabiliyyətli əhalinin artımında da müşahidə olunmuşdur. Əmək qabiliyyəti yaşına çatmış əmək qabiliyyətli əhali 1990-cı ildə 3859,9 min nəfər olduğu halda, 2005-ci ildə 4942,4 min nəfər olmuşdur. Əmək ehtiyatları da müqayisə olunan illərdə 4014,5 min nəfərdən 5098,9 min nəfərə çatmışdır. Əmək qabiliyyəti yaşından yuxarı çalışanların (1990-cı il 143 min, 2005-ci il 143,0 min) və çalışan yeniyetmələrin sayı (1990-cı il 11,6 min, 2005-ci il 13,5 min) nəzərə çarpacaq dərəcədə dəyişməmişdir.

Ölkəmizdə bazar münasibətlərinin inkişafı, iqtisadiyyatda sabitliyə nail olunması, sağlamlaşdırma tədbirlərinin həyata keçirilməsi ÜDM – də artımın yüksək tempinə nail olunması (2006-cı ildə 36%-dən çox) məşğulluğa öz təsirini göstərməyə bilməz. Məşğulluq probleminin təhlilində maraq doğuran məsələlərdən biri də məşğul əhalinin mülkiyyət formaları üzrə bölgüsü məsələsidir.

downloaded from KitabYurdu.org

**Cədvəl 5.7**

**Məşğul əhalinin mülkiyyət formaları üzrə bölgüsü (min nəfər) (22, s. 100)**

| | 1990 | 1995 | 1997 | 1999 | 2000 | 2001 | 2002 | 2005 |
|---|---|---|---|---|---|---|---|---|
| cəmi iqtisa-diyyatda məşğulluq | 3703,4 | 3613,0 | 3194,1 | 3702,8 | 3704,5 | 3715,0 | 3726,0 | 3850,2 |
| o cümlədən mülkiyyət formaları üzrə: dövlət | 2618,9 | 2027,2 | 1717,7 | 1342,0 | 1278,2 | 1240,0 | 1192,0 | 1229,8 |
| qeyri-dövlət | 1084,5 | 1585,8 | 1976,4 | 2360,8 | 2426,3 | 2475,0 | 2534,5 | 2620,4 |
| Onlardan: kooperativ sektor | 395,5 | 340,9 | 93,4 | | | | | |
| fərdi sektor | 466,2 | 631,5 | 778,1 | 1426,5 | 1439,5 | 1450,0 | 1464,5 | 1466,3 |
| xüsusi və kollektiv | - | 7,0 | 32,2 | 370,6 | 271,3 | 218,1 | 259,1 | 358,7 |
| bələdiyyə | - | - | - | - | - | 14,7 | 19,1 | 17,7 |
| xarici inve-sti-siyalı və birgə müəs-sisələr | | | 8,2 | 28,0 | 35,1 | 31,5 | 32,7 | 59,7 |
| Dinə xidmət edən şəxslər | 0,6 | 5,0 | 5,5 | 35,0 | 35,0 | 35,0 | 33,0 | 30,8 |
| Sərbəst məşğul əhali | 222,2 | 601,4 | 1059,0 | 500,7 | 645,4 | 725,7 | 726,1 | 687,2 |

İslahatların nəticələri məşğul əhalinin mülkiyyət üzrə bölgüsündə də özünü qabarıq şəkildə göstərməkdədir. Cədvəl 5.7-dən aydın görünür ki, 1990-cı ildə dövlət bölməsində çalışanlar 2618,9 min olmuşdursa, bu rəqəm 2005-ci ildə 2 dəfədən çox azalaraq 1129,8 min nəfər olmuşdur. Baxmayaraq ki, müqayisə olunan illərdə məşğul əhalinin sayında elə ciddi dəyişikliklər baş verməmişdir (1990-cı il 3703,4; 2005-ci il 3850,2 min nəfər). Əsaslı dəyişiklik fərdi bölmədə və sərbəst məşğul əhalinin sayında baş vermişdir. Belə ki, fərdi bölmədə 1990-cı ildə 466,2 min nəfər əhali çalışdığı halda, 2005-ci ildə onların sayı 1466,3 min nəfərə çatmışdır. Müqayisə olunan illərdə sərbəst məşğul əhalinin sayı 222,2 mindən 687,2 min nəfərə çatmışdı.

Bazar münasibətlərinin əsaslarının yaradılması müəyyən dərəcədə klassik kapitalizmə uyğun gəldiyindən (tələb-təklif,

downloaded from KitabYurdu.org

rəqabət, bazar qiymətləri formalaşır) məşğulluq klassik nəzəriyyəyə uyğun formalaşır. Yeni yaranan bazar strukturları əmək bazarı vasitəsi ilə səmərəlilik dərəcəsinə uyğun işçi qüvvəsi cəlb etməkdə maraqlıdırlar. Onlar məhdud istehsal imkanlarına malik olsalar da maddi və canlı əmək resurslarının optimal nisbətini yaratmağa çalışırlar. İş qüvvəsi təklifinin ifrat dərəcədə olması müəssisələrə imkan verir ki, əmək haqqının tarif dərəcələrini aşağı salmaqla müəyyən dərəcədə gəlir əldə edə bilsinlər. Lakin baxmayaraq ki, Azərbaycan bazar münasibətlərinə keçir, məşğulluğun tənzimlənməsini bütövlükdə bazar mexanizminin sərəncamında qoya bilməz. Ən azı ona görə ki, sosializm dövründə iş qüvvəsi istehsal sahələri arasında planlı şəkildə bölüşdürüldüyündən iş qüvvəsini istehsal sahələrinə sərbəst cəlb etmək səriştəmiz kifayət dərəcədə deyildir. Əgər bu gün özəlləşdirilən müəssisələr məşğulluğun təmin edilməsində tam sərbəstlik əldə edərlərsə işçilərin sayını kəskin şəkildə ixtisar edərlər. Özəlləşdirilən müəssisələr özəlləşdirmə qanununun tələbinə uyğun olaraq müəyyən müddət işçiləri ixtisar etmək hüququna malik deyildir. Təbii ki, özəl müəssisələr uzun müddət sosializm şəraitində əsassız şəkildə işə götürülmüş işçilərin hamısını işdə saxlaya bilməz. Həm də bu prinsip bazarın təbiətinə yad bir prinsipdir. Bazarın mühüm şərtlərindən biri olan sahibkarın maddi və canlı əmək resurslarını sərbəst seçmək imkanının məhdudlaşdırılması kəskin neqativ hallara gətirib çıxarar. Ona görə də dövlət işçilərin sayının səmərəli həddə endirilməsinin qarşısını almaq əvəzinə çevik məşğulluq siyasəti yeritməklə yeni iş yerlərinin açılmasını stimullaşdırmalıdır. Azərbaycan iqtisadiyyatının bugünkü durumu yoxsulluğun müəyyən həddi ilə səciyyələndiyindən məşğulluğun dövlət tərəfindən tənzimlənməsi mühüm aktuallıq kəsb edir. Yeni iş yerlərinin açılması, səmərəli məşğulluğun tədricən təmin edilməsi yoxsulluq həddinin aşağı salınmasına birbaşa təsir göstərən amillərdəndir.

downloaded from KitabYurdu.org

Keçid dövrünün ilkin mərhələsində Azərbaycan iqtisadiyyatının böhranlı vəziyyəti ifrat istehsaldan deyil, «qıtlıq»dan irəli gəldiyindən onsuz da aşağı səviyyədə olan məşğulluq təsərrüfat əlaqələrinin qırılması, müəssisələrin bağlanması, dövlət idarəetmə orqanlarında iş yerlərinin ixtisarı və sair nəticəsində daha da aşağı düşmüşdür. Xalq təsərrüfatı miqyasında aparılan iqtisadi islahatlar yeni təsərrüfat formaları yaratmaqla yanaşı iş qüvvəsinin istehsal sahələri arasında yenidən bölgüsünü zərurətə çevirmişdir.

Respublikamızın müstəqillik əldə etdiyi ilkin dövrdə 4,7 milyon nəfər əmək qabiliyyətli əhalinin təxminən 50%-ə yaxını ictimai faydalı əməyə cəlb edilmişdir. Bunların da təxminən 70-75%-i büdcə təşkilatlarında, şəxsi yardımçı və ev təsərrüfatlarında çalışanlardan ibarət idi. Dövlət müəssisələrində çalışanlar isə kiçik bir faiz (25%-ə yaxın) təşkil edirdilər. Əmək qabiliyyətli əhalinin çox böyük bir hissəsi (Tələbə və hərbi xidmətdə olanlar çıxıldıqdan sonra) faydalı əmək prosesinə cəlb olunmaq imkanını itirmişdilər. Doğrudur, bu qrup əmək qabiliyyətli əhalinin müəyyən qismi fərdi əmək fəaliyyəti nəticəsində yaşayış vasitələri əldə edə bilərlər. Lakin çox vaxt bu təsadüfdən asılı olur.

Bazar sisteminə keçən ölkələrdə sənaye və kənd təsərrüfatı müəssisələrində çalışanların sayının azalması, xidmət sferasında və pərakəndə küçə ticarətində onların sayının artması məşğulluğun səciyyəvi cəhətlərindən hesab olunurdu. Bu meyl keçid dövrünün ilkin mərhələsində Azərbaycan iqtisadiyyatı üçün də səciyyəvi olmuşdur. Xalq təsərrüfatı sahələri üzrə məşğulluğu 1990-1996-cı illər üzrə müqayisə etdikdə məlum olur ki, uyğun olaraq sənayedə çalışanlar 500 mindən 300 minə, k/t-da çalışanlar 900 mindən 700 minə qədər azaldığı halda, ticarət və ictimai iaşədə çalışanların sayı 280 mindən 450 minə qədər artmışdır (20, s.27-29).

Məlum səbəblərdən keçid dövrünün ilkin dövrlərində respublikamızda iş yerlərinin həddindən çox məhdudluğu və

downloaded from KitabYurdu.org

ümumiyyətlə işləyənlərin də gəlirlərinin çox aşağı səviyyədə olması əmək qabiliyyətli əhalinin kütləvi miqrasiyasına gətirib çıxarmışdır. Təxmini hesablamalara görə əmək qabiliyyətli əhalinin 40%-dən çoxu respublikamızdan kənarda faydalı əmək prosesinə cəlb ediliblər. İşsizliyin klassik formaları keçid iqtisadiyyatı ölkələri üçün səciyyəvi olmasa da, zəif də olsa reallıqda onun bu və ya digər formalarına təsadüf olunur.

Məlumdur ki, cəmiyyətin iqtisadi inkişafının yetkinlik dərəcəsindən asılı olaraq işsizlik müxtəlif formalarda təzahür edir. Friksion işsizlik, struktur işsizliyi, institusional işsizlik, təbii və tsiklik işsizlik işsizliyin əsas formalarıdır. İşsizliyin bu formaları adətən bazar sistemli ölkələr üçün səciyyəvidir. Friksion işsizlik «iş arasında» qalmaqla səciyyələnir. İşsizliyin bu forması bazar münasibətlərinin kifayət dərəcədə inkişaf etdiyi ölkələrdə səciyyəvidir.

Bu ölkələrdə iş qüvvəsi ixtisas cəhətdən hazırlıqlı olduğundan həmişə yüksək əmək haqqı axtarışında olur, bir iş yerindən digərinə keçərkən itirdikləri vaxt zamanında friksion işsizlik yaradırlar. Azərbaycanda əmək haqqının səviyyəsi əksər iş yerlərində əsasən bir-birindən köklü şəkildə fərqlənmədiyinə görə friksion işsizliyin səviyyəsi çox aşağıdır.

Heç kəsə sirr deyildir ki, işçilər əməklərinin daha yüksək əmək haqqı ilə ödənilməsində maraqlıdırlar. İşçinin əmək stajı artdıqca onun bacarıq və iş təcrübə də təkmilləşir. O, əmək səriştəsinin təkmilləşməsinə uyğun yüksək əmək haqqı almadıqda yeni iş yerləri axtarır. Əmək haqqı onların maraqlarına uyğun gəlmədiyindən ya könüllü, ya da məcburi iş yerlərini tərk edir, yeni iş yerləri axtarırlar, «friksion» işsiz vəziyyətində olurlar (Məhsuldar işləmək marağı olmadığından, əmək haqqının yüksəldilməsi tələbi ilə çıxış etdiklərindən işdən çıxarılırlar). İşsizliyin bu forması Azərbaycan üçün səciyyəvi olmasa da müəyyən təzahür formaları müşahidə olunmaqdadır. Dövlət müəssisələrində çalışanların bəziləri çox həvəslə yüksək əmək haqqı olan özəl bölmədə fəaliyyətə üstünlük verirlər.

downloaded from KitabYurdu.org

Yüksək ixtisaslı neft sənayesi mütəxəssislərimiz xarici neft şirkətləri ilə yaradılmış birgə müəssisələrdə fəaliyyətə başlamaqla özlərini yüksək əmək haqqı ilə təmin edirlər. (Doğrudur, çox vaxt onların əmək hüquqları kobud şəkildə pozulur. Əmək haqqı, istirahət günləri, iş saatları qanunvericilikdə müəyyən edilmiş qaydada həyata keçirilmir). Bu çatışmazlıqlara baxmayaraq fəhlə və qulluqçular belə bir şəraitdə (yeni iş yerlərində) öz əmək qabiliyyətlərini daha səmərəli reallaşdırmaq imkanı əldə edirlər. Müasir Qərb iqtisadi ədəbiyyatında friksion işsizliy «könüllü», «arzu olunan» işsizlik adlandırırlar. Bu «arzu olunan» işsizlik iş yerlərinin qıtlığı üzündən Azərbaycan üçün o qədər də səciyyəvi deyil.

Bazar sistemli ölkələrdə işsizliyin əsas formalarından biri də struktur işsizliyidir. Qərb iqtisadi ədəbiyyatında struktur işsizliyi istehlakçı tələbatının və texnologiyanın dəyişilməsi ilə ümumi iş qüvvəsinin quruluşuna olan tələbin dəyişməsi ilə izah edirlər. Keçid iqtisadiyyatı ölkələrində, o cümlədən də Azərbaycan Respublikasında struktur işsizlik spesifik formada təzahür edir. R.Muradov struktur işsizliyinin ümumi işsizlik problemindəki rolunu nəzərə alaraq yazır: «Əhalinin məşğulluğu sahəsində baş verən dəyişikliklər bazar transformasiyasının əsas şərtlərindən biri olmaqla, çoxsahəli iqtisadiyyatın təşəkkülü, istehsalın sahə quruluşunun yeniləşdirilməsi və bazar sisteminin, onların infrastrukturunun formalaşması ilə sıx əlaqədardır». (89,s.195) SSRİ-nin mövcudluğu dövründə respublikanın xalq təsərrüfatı quruluşu ittifaq xalq təsərrüfatı kompleksinin tələblərinə uyğun formalaşmışdır. Müstəqillik dövründə isə struktur siyasəti ilə xalq təsərrüfatında quruluş dəyişiklikləri baş verir ki, bunun nəticəsində müəyyən qrup əhali işsiz qalır. Pambıqçılıq, üzümçülük və bu sahələrin emal müəssisələrinin diqqət mərkəzindən kənarda qalması həmin sahələrdə çaışanların kütləvi işsizliyinə gətirib çıxarmışdır.

downloaded from KitabYurdu.org

Keçid dövründə inzibati-amirlik iqtisadi sistemindən miras qalmış məhdud quruluşlu iqtisadiyyat milli maraqlarımıza uyğun struktur siyasəti vasitəsi ilə yenidən qurulmalıdır. Struktur siyasəti nəticəsində müəyyən sahələr (xüsusi ilə idarəetmə, kənd təsərrüfatının bəzi sahələri, neft-kimya kompleksinin müəyyən müəssisələri və s.) ya qismən, yaxud da bütövlükdə öz fəaliyyətlərini dayandırırlar. Nəticədə struktur işsizliyi işsiz əhali arasında böyük xüsusi çəkiyə malik olur.

Azərbaycan iqtisadiyyatı üçün səciyyəvi işsizlik formalarından biri də institusional işsizlikdir. İnstitusional işsizlik keçid iqtisadiyyatı ölkələri üçün mülkiyyət münasibətlərinin törəməsi kimi çıxış edir. Dövlət mülkiyyətinə xas müəssisələrin dövlətsizləşdirilməsi, özəlləşdirilməsi və digər dövlət təşkilat və idarələrində aparılan islahatlar Azərbaycan Respublikasında yaranan institusional işsizliyin əsası kimi çıxış edir. İnstitusional işsizlik əmək bazarının qeyri-səmərəli fəaliyyəti ilə bağlı olduğundan keçid dövrünü yaşayan ölkələr üçün daha çox səciyyəvidir. Bütövlükdə bazar institutları, o cümlədən də əmək bazarları yeni yarandıqlarından çevik fəaliyyət göstərə bilmirlər. İş yerlərinə olan tələblə iş qüvvəsi təklifi vaxtlı-vaxtında əlaqələndirilmədiyindən institusional işsizlik yaranır.

İnkişaf etmiş ölkələrdə ifrat istehsal böhranlarının nəticəsi kimi çıxış edən tsiklik işsizlik də keçid iqtisadiyyatı ölkələrində kifayət dərəcədə fərqli formada təzahür edir. Azərbaycan müstəqillik dövrünə «qıtlıq» iqtisadiyyatı ilə gəlib çıxmışdır. Müəssisələrin böyük əksəriyyəti ənənəvi istehsal əlaqələrinin qırılması üzündən fəaliyyətlərini ya tamamilə, ya da qismən dayandırmışlar, nəticədə işçilər iş yerlərini itirmək məcburiyyətində qalmışlar.

İqtisadi islahatların səmərəliliyindən asılı olaraq işsizlik əvvəlki cədvəllərdə göstərildiyi kimi, tədricən aradan qaldırılır, məşğulluğun Azərbaycan iqtisadiyyatında yüksək səviyyəsi təmin edilməkdədir.

downloaded from KitabYurdu.org

Müasir dünyada məşğulluğun yüksək səviyyəsi heç də klassik anlamda tam məşğulluq demək deyildir. Klassik məşğulluq nəzəriyyələrindən fərqli olaraq müasir Qərb iqtisadi ədəbiyyatında friksion və struktur işsizliyi labüd hesab edirlər və işsizliyin bu formalarının mövcudluğu şəraitindəki məşğulluğu tam məşğulluq adlandırırlar. Düşünmək olar ki, Azərbaycan da yeni iqtisadi sistemə keçdiyindən bazar münasibətləri üçün səciyyəvi olan cəhətlər (o cümlədən də işsizliklə bağlı) ölkəmiz üçün də xarakterik olacaq. Tam məşğulluq şəraitində işsizlik friksion və struktur işsizliyin cəminə bərabərdir. Tam məşğulluq şəraitində işsizliyin səviyyəsi həmçinin işsizliyin təbii səviyyəsi adlanır. İşsizli klassik nəzəriyyəyə görə itirilmiş imkanlar adlandırılsa da, bu gün yol verilən hədd daxilində işsizlik istehsalın səmərəliliyinin göstəricilərindən biri hesab olunur.

Azərbaycan iqtisadiyyatında işsizliyin təbii səviyyəsindən yüksək olmasına iqtisadiyyatımızda itirilmiş imkanlar kimi baxmaq olar. Özəlləşdirilmiş müəssisələrin fəaliyyətə başlamasındakı lənglik, struktur islahatlarının nəticəsi olaraq mütərəqqi texnologiyanın cəlb olunması imkanların məhdudluğu itirilmiş imkanlar kimi səciyyələnə bilər.

Bazar sisteminə keçid dövrünü yaşayan ölkələrdə bazar münasibətləri rüşeym şəklində olduğundan işsizliyin formaları da spesifik formada təzahür edir. Bu ölkələrdə işsizliyin kütləvi hal almasına baxmayaraq işsizliyin əsas hissəsi tsiklik işsizliyin (ifrat istehsal böhranları) deyil, «qıtlıq» iqtisadiyyatının payına düşür. Sosializmin yaratdığı «qıtlıq» iqtisadiyyatının ziddiyyətləri keçid dövrünün ilkin mərhələsində daha da kəskinləşir, işsizlik kütləvi xarakter alır. Özəlləşdirmə proqramlarının həyata keçirilməsi, özəl bölmənin tədricən iqtisadiyyatda həlledici rola malik olması yeni iş yerlərinini açılması ilə müşahidə olunur. Azərbaycan iqtisadiyyatında bazar münasibətləri inkişaf etdikcə bazar prinsiplərinə də uyğun məşğulluq problemləri də həll edilir. Dövlət yaxın illərdə (2003-2008-ci illər) 600 min yeni iş yerinin açılmasını qarşıya məqsəd qoy-

downloaded from KitabYurdu.org

muşdu. Artıq 2007-ci ilin birinci yarısına 572 min yeni iş yeri açılmışdı.

Keçid dövrünün ilkin mərhələsində məşğulluqla əlaqədar bütün bu neqativ hallara baxmayaraq ölkələrin iqtisadi inkişafının tarixi təcrübəsi göstərir ki, istənilən ölkənin iqtisadiyyatı uzun müddət durğunluq vəziyyətində qala bilməz. Belə ki, iqtisadi islahatların bazar mexanizminin fəaliyyətinə əlverişli şərait yaratması nəticəsində tədricən dirçələn Azərbaycan iqtisadiyyatı bütün resursları hərəkətə gətirməklə məşğulluğun da normal səviyyəsini təmin etmək imkanına malikdir. Milli iqtisadiyyatda bazar mexanizminin fəaliyyət dairəsinin genişlənməsi canlı resurslardan istifadəni yaxşılaşdırmaqla səmərəli məşğulluğu təmin edəcək və nəticədə məşğul əhali özünü kifayət dərəcədə yaşayış vasitələri ilə təmin edə biləcəkdir.

Azərbaycan iqtisadiyyatında yeni mülkiyyət münasibətlərinin formalaşması iqtisadi sistemdə keyfiyyət dəyişikliyinin ilkin şərti kimi çıxış edərək bazar iqtisadiyyatına uyğun təsərrüfat mexanizminin yaradılmasını zərurətə çevirir. Müstəqilliyin əldə edilməsi ilə milli iqtisadiyyatın bazar prinsipləri əsasında formalaşması və onun sivilizasiyalı dünyaya inteqrasiyasına təkan verə biləcək təsərrüfat mexanizminin elmi cəhətdən araşdırılması qanunauyğun olaraq aşağıdakı nəticələrə gəlməyə, həmçinin mövcud nəticələrdən irəli gələn tövsiyələrin irəli sürülməsinə imkan verir.

Keçidin ilkin mərhələsindən başlayaraq həyata keçirilən islahatlar milli iqtisadiyyatın formalaşdırılmasına yönəldilmişdir. İslahatların səmərəliliyi milli iqtisadiyyatın formalaşması səviyyəsindən asılıdır. Milli iqtisadiyyat iqtisadçı alimlər tərəfindən fərqli formada araşdırılsa da nəticə etibarı ilə o ümumi şəkildə milli mənafeyə uyğunluğu ilə səciyyələnir. Milli iqtisadiyyatın milli maraqlara uyğunluğunun təmin edilməsi, resurslardan istifadənin səmərəli mexanizminin formalaşmasına əlverişli şərait yaradır.

downloaded from KitabYurdu.org

Bazar mexanizmi haqqında klassik və müasir baxışların nəzəri metodoloji aspektdə tədqiqi göstərir ki, o, mövcud resurslardan səmərəli istifadə mexanizmi yaratmaqla keçid iqtisadiyyatı ölkələrində milli iqtisadiyyatın formalaşdırılmasında alternativi olmayan təsərrüfatçılıq mexanizmidir. Müstəqilliyin əldə edilməsi ilə milli iqtisadiyyatın formalaşdırılması Azərbaycanın beynəlxalq hüququn müstəqil bir subyekti kimi dünya birliyinə inteqrasiyasını mümkün edir. Dünya birliyinin tədricən bərabərhüquqlu üzvünə çevrilən Azərbaycan Respublikası dünya təsərrüfatının üstünlüklərindən öz milli maraqlarına uyğun istifadə imkanı əldə etmiş olur. Milli iqtisadiyyatın formalaşdırılması prosesində dünya bazarına çıxış əsasən xammal ixracı ilə həyata keçirilsə də, tədricən iqtisadiyyatda keyfiyyət dəyişikliyinə nail olmaqla (ölkəyə yeni texnologiya gətirilməsini stimullaşdırmaq, iş qüvvəsi hazırlığının keyfiyyətini yüksəltmək, müştərək müəssisələr yaratmaq və s.) hazır məhsul ixracına əlverişli şərait yaranır. Hazır məhsul ixracı milli iqtisadiyyatın rəqabət qabiliyyətliliyinin başlıca amilərindən biri kimi çıxış etdiyindən qarşılıqlı faydalılıq prinsipi əsasında əməkdaşlığa təkan verir.

Qloballaşan dünyada ümummilli təhlükəsizlik bütün dövlətlərin başlıca funksiyalarından hesab olunur. Hər bir ölkə öz tarixi, milli, iqtisadi inkişaf səviyyəsinə uyğun gələn ümummilli təhlükəsizlik konsepsiyası hazırlayır. İqtisadi təhlükəsizlik ümummilli təhlükəsizliyin mühüm tərkib hissəsi kimi çıxış edir. Ümummilli təhlükəsizlik konsepsiyasında iqtisadi təhlükəsizlik müəyyənedici rola malikdir. Keçid iqtisadiyyatı ölkələrində ümummilli təhlükəsizliyin təmin edilməsi kifayət dərəcədə ümumi prinsiplərə əsaslansa da, müəyyən fərqliliyi ilə səciyyələnir. Nisbətən qısa bir müddətdə ümummilli təhlükəsizliyin təmin edilməməsi siyasi cəhətdən ölkənin başqa ölkənin təsiri altına düşməsinə gətirib çıxarar. Ona görə də, müstəqillik əldə etmiş ölkələrin iqtisadi təhlükəsizliyinin təmin edilməsi milli iqtisadiyyatını formalaşdırılmasının mühüm şərtlərindən birinə çevrilir.

downloaded from KitabYurdu.org

Azərbaycan Respublikası SSRİ tərkibində olduğu dövrdən /1988-ci il/ çox ciddi təhlükə ilə qarşılaşmışdır. Müstəqilliyin ilk günlərindən bu proseslər təhlükəli bir həddə gəlib çatmışdır. Xarici təzyiqlər güclənmiş, vətəndaş qarşıdurması dövlətçiliyimizi məhv etmək təhlükəsi yaratmışdır. Kifayət dərəcədə ziddiyyətliliyi ilə səciyyələnən bu problemləri ümummilli təhlükəsizlik konsepsiyası olmadan həll etmək mümkün deyildi. Azərbaycanın ümummilli təhlükəsizliyində iqtisadi təhlükəsizlik aparıcı həlqə kimi müəyyənləşdirildi. İqtisadi təhlükəsizliyin təmin edilməsində keçid dövrünün ilkin mərhələsi üçün ərzaq təhlükəsizliyi önə çəkildi. İqtisadi alətlər bu problemin həllinə istiqamətləndirildi. Eyni zamanda iqtisadi islahatların hüquqi bazası və onların reallaşdırılmasının işlək mexanizminin yaradılması ilə iqtisadi təhlükəsizliyin təmin edilməsi üçün əlverişli mühit formalaşdırıldı.

Müstəqillik əldə etmiş hər bir ölkə kimi Azərbaycan Respublikasının qarşısında duran mühüm vəzifələrdən biri də milli ideologiyanın formalaşdırılmasıdır. Milli ideologiyanın formalaşdırılması marksist ideologiyadan imtina ilə paralel getdiyindən onun ümummilli maraqlara daha çox uyğun gəldiyi elmi cəhətdən inandırıcı şəkildə əsaslandırılır. Elmi araşdırmalar zamanı milli ideologiyanın iqtisadiyyata fəal təsir istiqamətləri müəyyənləşdirilmişdi. Milli ideologiyanın «ələ baxımlıq psixologiyasını» aradan qaldırmaqla milli iqtisadiyyatın formalaşdırılmasına, bütövlükdə iqtisadi inkişafa təkan verən bir qüvvəyə çevrilməsinə təsir edən amillər aşkarlanmışdır.

Tarixi təcrübə göstərir ki, dünya ölkələrinin iqtisadi inkişafında xüsusi mülkiyyət əvəzsiz rol oynamışdır. Klassik bazar sistemli ölkələr xüsusi mülkiyyətə mülkiyyət münasibətlərinin təkamülü nəticəsində gəldiyi halda, yeni müstəqillik əldə etmiş ölkələrdə keçid dövründə ictimai mülkiyyətin dövlətsizləşdirilməsi, özəlləşdirilməsi yolu ilə xüsusi mülkiyyət münasibətləri formalaşdırılır. Bu ölkələrdə xüsusi mülkiyyət tamamilə fərqli formada yarandığından bu fərqliliyin diqqət mərkəzində

downloaded from KitabYurdu.org

saxlanılması yeni yaranan mülkiyyət formalarının inkişafına əlverişli şərait yaradır.

Şübhəsiz ki, özəlləşdirmə zamanı özəlləşən əmlakın bütün xalqa məxsusluğu nəzərə alınmazsa kifayət dərəcədə neqativ hallara gətirib çıxara bilər. Ona görə də özəlləşdirmənin forma, metod və prinsiplərinin düzgün seçilməsi özəlləşdirmənin ədalətliliyini müəyyən edən başlıca şərtlərdəndir.

Azərbaycan iqtisadiyyatında yeni sistemə xas iqtisadi münasibətlərin formalaşdırılması xüsusi mülkiyyətin tarixən Azərbaycan iqtisadiyyatında oynadığı rol nəzərə alınmaqla həyata keçirilməlidir. Xüsusi mülkiyyətçilik psixologiyasının güclü olmasını nəzərə almaqla dövlət mülkiyyətinin özəlləşdirilməsi ümumi milli mənafelər baxımından həyata keçirilməlidir. Ümummilli mənafelərin əsas meyarı kimi resurslardan istifadənin səmərəli mexanizmini yarada biləcək çoxnövlü mülkiyyətin nisbəti formalaşdırılır.

Xüsusi mülkiyyət formalarının yaradılması keçid dövründə iqtisadiyyatın düşdüyü böhranlı vəziyyətdən çıxmağa təkan verməklə yanaşı yeni sistemə keyfiyyətcə uyğun gələn xalq təsərrüfatının quruluş dəyişikliyinə şərait yaradır. Xalq təsərrüfatında baş verən quruluş dəyişiklikləri dövlətin struktur siyasətindən irəli gəlməlidir. Struktur siyasəti isə hökumətin iqtisadi islahatlar proqramının öncürl istiqamətlərindən birinə çevrilməlidir. İqtisadiyyatda baş verən mütərəqqi quruluş dəyişiklikləri nəticə etibarı ilə xüsusi mülkiyyət münasibətlərinin çoxnövlüyünün yaranması və inkişafına əlverişli şərait yaratmaqla, milli iqtisadiyyatın formalaşmasında onun mütərəqqi rolunu müəyyənləşdirir.

Dövlətsizləşdirmə, özəlləşdirmə mülkiyyətin çoxnövlülüyünün formalaşdırılmasına əlverişli şərait yaratdığından mülkiyyət formaları arasında heç bir ayrıseçkiliyə yol verilmir, onların optimal nisbətinin formalaşması obyektiv zərurətə çevrilir. Mülkiyyətin bütün formaları sərbəst, maneəsiz reallaşma imkanına malik olduğundan Azərbaycan iqtisadiyyatı-

downloaded from KitabYurdu.org

nın tədricən dünyanın iqtisadi gerçəkliyinə uyğun səmərəli quruluşu formalaşır.

Keçid dövründə Azərbaycan Respublikasında aparılan iqtisadi islahatların başlıca vəzifələrindən biri də iqtisadiyyatımızda sağlam rəqabətin formalaşdırılmasıdır. Azərbaycan iqtisadiyyatında sağlam rəqabətin formalaşması aşağıdakı problemlərin həllinə köməklik göstərir:

- inzibati-amirlik iqtisadi sistemindən fərqli olaraq istehsalçı firmalar istehlakçı üçün faydalı olan, onun üstünlük verdiyi məhsulları istehsal etməyi stimullaşdırır;
- istehsal xərcləri cəmiyyət üçün minimum səviyyədə olduğu şəraitdə həyata keçirilməsinə şərait yaranır;
- tədricən dünya bazarına çıxış xammalla deyil, hazır məhsulla həyata keçirilir;
- hazır məhsulla dünya bazarına çıxan Azərbaycan dünya bazarının üstünlüklərindən dünya ölkələri ilə bərabərhüquqluluq prinsipi əsasında faydalanmaq imkanı əldə etmiş olur.

Araşdırmalar belə nəticəyə gəlməyə əsas verir ki, sabit və yüksək inkişaf tempinə nail olmaq üçün kiçik, orta və iri müəssisələrin inkişafına əlverişli şərait yaradan rəqabət mühiti formalaşdırılmaqdadır. Azərbaycan Respublikasının uyğun qanunvericilik aktları ilə bu rəqabət mühiti inkişaf etdirilir və qorunur.

Azərbaycan iqtisadiyyatında həyata keçirilən iqtisadi islahatların strateji istiqaməti bazar iqtisadiyyatının əsasını təşkil edən sahibkarlığın formalaşdırılmasıdır. Sahibkarlığın nəzəri-metodoloji problemlərini araşdıran iqtisadçı alimlər onu daha çox təşəbbüskarlıqla əlaqələndirirlər. Təşəbbüskar insanlar malik olduqları resursları başqalarına nisbətən daha fəal hərəkətə gətirirlər. (Məhsul istehsal edir, xidmət göstərir). Məhz islahatlar nəticəsində (dövlətsizləşdirmə, özəlləşdirmə və s.) formalaşan sahibkarlıq Azərbaycanın iqtisadi problemlərinin həllində real qüvvəyə çevrilməkdədir. İnzibati-amirlik iqtisadi sistemində sahibkarlıqla məşğul olmaq qanunla qadağan

downloaded from KitabYurdu.org

edildiyindən insanların təşəbbüskarlıq fəaliyyəti tamamilə boğulmuşdur. Araşdırmaların nəticəsi göstərir ki, hüquqi və iqtisadi maneələrin aradan qaldırılması ilə insanlar çox qısa bir müddətdə sahibkarlıq vərdişlərini aşılayırlar. Onlar çevik hərəkət etməklə resurslardan daha səmərəli istifadə edərək məhsul istehsal edir, xidmətlər göstərirlər. Sahibkarlığın hüquqi bazasının yaradılması ona aşkarlıq mühiti formalaşdırmaqla səmərəlilik dərəcəsinin yüksəldilməsinə yönəldilir.

Monoqrafiyada aparılan araşdırmalar göstərir ki, ölkəmizdə sahibkarlığın inkişafı bilavasitə ona əlverişli mühitin yaradılmasından asılıdır. Sahibkarlıq mühitinin formalaşdırılması onun hüquqi bazasının mükəmməlliyindən, hüquqi bazanın işlək mexanizminin mövcudluğundan, islahatlar zamanı sahibkarlığın inkişafına mane olan amillərin müəyyənləşdirilməsi və aradan qaldırılmasından çox asılıdır. Həmçinin sahibkarlıq mühitinin formalaşdırılmasında xarici və daxili amillərin də nəzərə alınması həlledici rola malikdir. Xarici sahibkarlığa nisbətən milli sahibkarlığın zəif olduğunu nəzərə alaraq keçid dövründə sahibkarlığa dövlət himayəsi sahibkarlığın formalaşdırılmasının zəruri amili kimi çıxış edir.

Ölkəmizdə özəlləşdirmənin I və II Dövlət Proqramlarına uyğun olaraq kiçik, orta və iri sahibkarlıq formalaşır. Birinci proqram həyata keçirildiyi dövrdə Azərbaycan üçün səciyyəvi olan kiçik və orta sahibkarlıq formalaşdırılmışdır. Kiçik və orta sahibkarlıq artıq Azərbaycan iqtisadiyyatında həlledici rola malikdir. Özəlləşdirmənin II Dövlət Proqramına uyğun formalaşan iri sahibkarlıq kiçik və orta sahibkarlıqla birlikdə ölkəmizdə bazar münasibətlərinin təşəkkülü səviyyəsini əks etdirir.

Baxılan mövzuda aydın olur ki, aqrar bölmədə sahibkarlıq fərqli şəkildə formalaşır. Aqrar bölmədə sahibkarlığın formalaşmasının hüquqi bazası olan «Aqrar islahatların əsasları haqqında», «Sovxoz və kolxozların islahatı haqqında» Azərbaycan Respublikasının qanunlarında mülkiyyət müna-

downloaded from KitabYurdu.org

sibətlərindəki fərqli xüsusiyyətlər müəyyənləşdirilmişdir. Aqrar sahibkarlıq digər sahibkarlıq formalarına nisbətən maliyyə imkanları baxımından çox zəif olduğundan dövlət köməyinə daha çox ehtiyacı olan fəaliyyət sahəsidir. Keçidin ilkin mərhələsində yaranan problemlərin həlli bilavasitə aqrar bölmədə sahibkarlığın inkişafından çox asılı olduğundan qəbul edilmiş bir sıra qərarlar bu sahənin inkişafını stimullaşdırılmasına yönəldilmişdir.

Azərbaycan dövləti tərəfindən aqrar bölmədə real qərarların qəbul edilməsi və kənd təsərrüfatı müəssisələrinin işlək mexanizminin yaradılması bu bölmədə islahatların müvəffəqiyyətlə başa çatmasında əhəmiyyətli rol oynamışdır. Artıq respublikamızda istehsal olunan kənd təsərrüfatı məhsullarının 95%-dən çoxu özəl kənd təsərrüfatı müəssisələrinin payına düşür. Əhalinin kənd təsərrüfatı məhsulları ilə təminatının əhəmiyyətli hissəsi daxili istehsal hesabına ödənilir.

Sözsüz ki, hər bir iqtisadi sistemin malik olduğu iqtisadi resursları çevik hərəkətə gətirə bilməsi onun öz sosial-iqtisadi təbiətinə uyğun yaratdığı təsərrüfat mexanizmindən çox asılıdır. Həm də formalaşan təsərrüfat mexanizmi üst qurumun istəyindən daha çox cəmiyyətin obyektiv iqtisadi inkişaf səviyyəsini əks etdirməlidir. İqtisadi inkişaf uzun müddətli dövr üçün yüksələn xəttlə getdiyindən təsərrüfat mexanizmi resurslardan istifadənin səmərəli mexanizmini yaratmaqla cəmiyyətin məqsədlərinin reallaşmasına istiqamətləndirilir.

Bazar mexanizminin tədqiqi göstərir ki, o, məhsuldar qüvvələrin inkişafının qanunauyğun nəticəsi kimi meydana gəlmiş və özünə qədər mövcud olmuş cəmiyyətlərin təsərrüfat mexanizmi ilə müqayisədə resurslardan istifadənin ən səmərəli mexanizmini yaratmışdır. Kapitalizmin inkişafının ilkin çağları üçün bazar mexanizmi «görünməz əl» kimi təzahür etmişdir. «Görünməz əl» vasitəsi ilə avtomatik özünütənzimlənmə bazar iqtisadiyyatının inkişafının müəyyən bir mərhələsində ziddiyyətlərlə qarşılaşır. Bu ziddiyyətlilik cəmiyyətin iqtisadi inkişaf xüsusiyyətlərinə və seçilmiş modelinə uyğun olaraq bu

downloaded from KitabYurdu.org

va ya digər səviyyədə dövlət tərəfindən həll edilir. Bazar mexanizmi ilə dövlət tənzimlənməsinin qarşılıqlı asılılıqda fəaliyyəti zərurətə çevrilir.

Bir sıra ölkələrdə mövcud olmuş sosialist təsərrüfat mexanizmi (planlı təsərrüfat) obyektiv iqtisadi inkişaf qanunlarından daha çox üst qurumun (dövlətin) iradəsini əks etdirirdi. Obyektiv iqtisadi inkişaf qanunlarının tələblərinə məhəl qoyulmaması resurslardan israfçılıqla istifadəyə gətirib çıxardı. Sosialist ölkələrində resurslardan səmərəsiz istifadə nəticəsində tələblə təklif arasında kəskin uyğunsuzluqlar yarandı. «Qıtlıq» iqtisadiyyatı hər bir sosialist ölkəsinin reallığına çevrilmişdir. Sosialist təsərrüfat mexanizminin təkmilləşdirilməsi istiqamətində aparılan kosmetik dəyişikliklər heç bir nəticə vermədi.

Keçid dövründə bazar mexanizminin yaradılması ilə bağlı bir çox iqtisadi qanunvericilik sənədləri qəbul edilsə də onların icra mexanizmi hələ axıradək formalaşdırılmamışdır.

Aparılan təhlil belə bir qənaətə gəlməyə imkan verir ki, bazar mexanizminin müxtəlif elementlərinə dair qəbul olunan qanunların səmərəli fəaliyyətinin təmin edilməsi üçün iqtisadi qanunlar biri-birini tamamlamalı və biri-birinə zidd olmamalıdır.

Yeni müstəqillik əldə etmiş ölkələr bazar iqtisadiyyatı yönümü seçdiklərindən keçid dövründə həlli zəruri olan problemlərdən biri də bazar mexanizminin formalaşdırılmasıdır. Bazar mexanizminin formalaşdırılması ilkin olaraq onun hüquqi bazasının yaradılmasını və bütövlükdə iqtisadiyyatda inzibati və iqtisadi alətlərin köməyi ilə bazar münasibətlərinə keçidi tələb edir. Bazar münasibətlərinin formalaşdırılması müəyyən müddət tələb etdiyindən köhnə təsərrüfatçılıq mexanizmi ilə (sosialist təsərrüfat mexanizmi) yeni yaranmaqda olan bazar mexanizmi yanaşı mövcud olur. Cəmiyyətin məqsədi bazar iqtisaiyyatına keçid olduğundan tədricən iqtisadi inkişaf bazar mexanizmi vasitəsilə reallaşır.

downloaded from KitabYurdu.org

Azərbaycan Respublikası da digər keçid iqtisadiyyatı ölkələrində olduğu kimi öz reallığından irəli gələn xüsusiyyətləri nəzərə almaqla, iqtisadiyyatının bazar təməlini yaratmaqla bazar mexanizmini formalaşdırır. İqtisadiyyatda bazar münasibətləri hakim mövqeyə malik olduqca bazar mexanizmi istehsalın sabit, səmərəli artımı funksiyasını yerinə yetirmək imkanı əldə edir. Bazar mexanizminin səmərəli fəaliyyəti ilə Azərbaycanın dünya birliyinə inteqrasiyasına əlverişli şərait yaranır.

Milli müstəqillik əldə etmiş bütün ölkələr yeni iqtisadi sistemin formalaşdırılmasına «qıtlıq» iqtisadiyyatından gəldiklərindən iqtisadiyyatda tələb və təklifin formalaşması bir sıra problemlərlə qarşılaşır: 1) İstehsalın səviyyəsi kəskin şəkildə aşağı düşdüyündən təklif tələbin formalaşmış səviyyəsinə uyğun gəlmir; 2) Hiperinflyasiyanın mövcudluğu əhalinin alıcılıq qabiliyyətinə /tələbə/ sarsıdıcı zərbə vurmuşdur. 3) Ən başlıcası keçidin ilkin mərhələsində istehsalda və istehlakda inzibati-amirlik prinsipləri üstünlük təşkil etdiyindən heç bir obyektiv qanunauyğunluğa məhəl qoyulmurdu. Hiperinflyasiya şəraitində istehsalın inkişafı (təklif) stimullaşdırılmır, istehlakın quruluşu bəsitləşir, çox məhdud miqdarda məhsullarla istehlak səbətinə daxil edilirdi.

Azərbaycan iqtisadiyyatında tələb və təklifin formalaşması müəyyən xüsusiyyətlərə malikdir. Bu xüsusiyyətlərin ən başlıca səbəblərindən biri keçid dövrünün Azərbaycan Respublikasında kifayət dərəcədə fərqli xüsusiyyətlərə malik olmasıdır. Azərbaycan Respublikasında digər keçid ölkələrinə nisbətən islahatlara gec başlanılması bazar münasibətlərinin formalaşdırılmasına ləngl ik gətirmişdi. Bu ləngl ik tələb və təklifin formalaşmasına öz təsirini göstərməyə bilməzdi. Sonradan (1995-1996-cı illər) islahatlardakı dinamiklik bazar münasibətlərinin formalaşdırılmasında həlledici rol oynadı, bazar subyektlərinin tələb və təklifini nəzərə almaqla fəaliyyət göstərmələrini zərurətə çevirmişdi.

downloaded from KitabYurdu.org

Aparılan araşdırmalar göstərdi ki, keçid dövrunun ilkin mərhələsində təklifin əsas mənbəyi idxal olmuşdur. Daxili bazarın zəifliyi xarici sahibkarların, həmçinin alqı-satqıda vasitəçilik edənlərin yüksək gəlir götürməsinə şərait yaratmışdır. Heç bir rəqabətlə qarşılaşmayan idxalatçılar keyfiyyətsiz məhsullarla daxili bazarı (əsasən gündəlik tələbat məhsulları) doldurmuşlar. Yeni yaranan və özəlləşdirilmiş müəssisələrin iqtisadi fəaliyyətinin dirçəlməsi, cəmiyyətdə makroiqtisadi sabitliyin təmin edilməsi və sağlamlaşdırma tədbirlərinin həyata keçirilməsi tədricən də olsa, bu problemləri həll etdi. Artıq əsas yaşayış vasitələrinin çox əhəmiyyətli hissəsi (ət, süd və süd məhsulları, çörək və s.) milli istehsalla təmin edilir.

Keçid dövrünün xarakterindən irəli gələn bir sıra problemlər (işsizlik, inflyasiya və s.) əhalinin gəlirlərini kəskin şəkildə azaltmışdır. Əhalinin bir qismi qiymətli əşyalarını bazara çıxarmaqla yaşayış vasitələri əldə etmək, tələbatlarını ödəmək məcburiyyətində qalmışlar. Əhalinin tədricən yeni iqtisadi sistemin tələblərinə, bazar münasibətlərinə uyğunlaşması, iqtisadi islahatların müsbət nəticələri yenidən sərf olunan əməyə görə gəlirləri əhalinin tələbatının ödənilməsinin əsas mənbəyinə çevirməkdədir. İctimai istehsaldan götürülən gəlirlərlə yanaşı tələbatın ödənilməsində sosial müdafiə tədbirləri də əhəmiyyətli rol oynayır.

Keçid dövrünün mühüm problemlərindən biri də bazar mexanizminin qiymət elementinin formalaşdırılmasıdır. İnzibati-amirlik iqtisadi sistemində formalaşan planlı qiymətlərdən bazar qiymətlərinə keçid bir sıra problemlərin həllini tələb edir: 1) Planlı qiymət sistemində islahatlar aparmaqla keçidin ilkin mərhələsinə uyğun gələn qiymət sisteminin formalaşdırılması (zəruri yaşayış vasitələrinə təsbit edilmiş qiymətlərin qoyulması, yanacaq-enerji daşıyıcılarının qiymətlərinin dövlət tərəfindən tənzimlənməsi və s.); 2) İqtisadiyyatda aparılan liberallaşdırma tədbirləri ilə bazar qiymətlərinin formalaşdırılması arasında mütənasibliyin gözlənilməsi; 3) Tələ-

downloaded from KitabYurdu.org

batın əhəmiyyətli hissəsinin idxalın hesabına formalaşdığı şəraitdə milli valyutanın dönərli valyutaya nisbətini gözləməklə tənzimlənməsini həyata keçirmək; 4) İqtisadiyyatda bazar dəyişikliyinə uyğun liberal (bazar) qiymətlərin əmələgəlməsinin iqtisadi mühitinin formalaşdırılması aktuallıq kəsb edir.

Azərbaycan iqtisadiyyatında bazar münasibətlərinin formalaşması səviyyəsinə uyğun olaraq inzibati müdaxilə nəticəsində qiymətin əmələgəlməsindəki deformasiya aradan qaldırılır. Qiymətin əmələgəlməsində tələb və təklif, rəqabət həlledici rola malik olur. İqtisadi əlaqələr təsərrüfat subyektləri arasında əsasən qiymət siqnalları vasitəsi ilə qurulur. Qiymət siqnalları alıcı və satıcı mənafelərinin uzlaşdırılmasına əlverişli şərait yaradır. Bazar mexanizminə uyğun olaraq satıcının istehsala çəkdiyi məsrəflər (istehsal xərcləri), alıcı tərəfindən isə məhsulun onun tələbatını ödəyə bilməsi qabiliyyəti (faydalılığı) qiymətin əmələgəlməsinin əsasını təşkil edir.

Azərbaycan iqtisadiyyatında qiymətin əmələgəlməsinin bazar mexanizmi qiymətin stimullaşdırıcı funksiyasının reallaşmasına əlverişli şərait yaratmaqdadır.

Azərbaycan iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiyası tələb edir ki, bazara keçidlə əlaqədar dünya qiymətlərində baş verən istənilən dəyişiklik diqqətlə izlənilsin. Dünya bazar qiymətləri heç bir ölkənin daxili bazar qiymətləri ilə üst-üstə düşmədiyindən müasir texnologiya tətbiq edən ölkələr dünya bazar qiymətlərindən daha çox faydalanmaq imkanına malikdirlər. Ona görə də qloballaşan dünyada dünya bazar qiymətlərindən daha çox faydalanmaq istəyən bütün ölkələr kimi Azərbaycan da milli istehsalını müasir texnologiya əsasında qurmalıdır.

Müasir qərb iqtisadi ədəbiyyatında iqtisadiyyatın dövlət tənzimlənməsi iqtisadi inkişafa mane olan amillərin aradan qaldırılmasının başlıca vasitələrindən biri kimi araşdırırlar. Hər bir dövlət öz iqtisadi inkişaf səviyyəsinə uyğun olaraq dövlət tənzimlənməsinin inzibati və iqtisadi metodlarından istifadə edirlər. İnkişaf etmiş ölkələrdə iqtisadi tənzimlənmə

downloaded from KitabYurdu.org

vasitələrinə üstünlük verilsə də minimum səviyyədə olsa da inzibati metodlardan da istifadə olunur. İqtisadiyyatın dövlət tənzimlənməsi bazar mexanizminin elementləri ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərərək iqtisadi inkişafın əsas amillərindən biri kimi çıxış edir.

İnzibati-amirlik iqtisadi sistemindən bazar iqtisadiyyatına keçən bütün ölkələrin, o cümlədən də Azərbaycan iqtisadiyyatında bazar münasibətlərinin formalaşmasının müvəffəqiyyəti dövlət tənzimlənməsinin səmərəlilik dərəcəsindən çox asılıdır. Azərbaycan dövləti iqtisadiyyatın mövcud durumundan irəli gələn xüsusiyyətləri nəzərə almaqla dünya təcrübəni öyrənib dövlət tənzimlənməsinin bütün alətlərindən çevik istifadə etmək qabiliyyətinə malik olmalıdır. Azərbaycan iqtisadiyyatında keçid dövrünün ilkin mərhələsində iqtisadiyyatın dövlət tənzimlənməsinin inzibati metodları üstünlük təşkil edir. Azərbaycan iqtisadiyyatında islahatların hüquqi bazasının yaradılması baxımından inzibatçılıq üstünlük təşkil etsə də, nəticə etibarı ilə özəl sektorun yaranması, bütövlükdə iqtisadiyyatın liberallaşdırılması tədricən inzibatçılığın payını azaldır, iqtisadi tənzimlənmə alətləri daha fəal olur.

Araşdırmalardan ki, hansı iqtisadi sistemdə yaşamasından asılı olmayaraq istisnasız olaraq bütün ölkələrin iqtisadi inkişafının qeyri-sabitliyi səciyyəvidir. Ən sadə formada tələb və təklifin uyğunsuzluğu kimi təzahür edən makroiqtisadi qeyri-sabitlik dünyanın ən inkişaf etmiş ölkələrinin də iqtisadiyyatını sarsıtmaq səviyyəsinə çatmışdır. Hər bir ölkə öz reallığından irəli gələn xüsusiyyətləri nəzərə almaqla iqtisadi inkişafın sabitləşdirilməsinə nail ola bilir. İqtisadi inkişafın qeyri-sabitliyi iqtisadi fəaliyətin bütün sahələrini əhatə etdiyindən sabitləşdirmə tədbirləri də kompleks xarakter daşımalıdır. Azərbaycan Respulikasında həyata keçirilən islahatların işlək mexanizminin yaradılması ilə ilkin olaraq istehsalın həcminin aşağı düşməsinin qarşısı alınmış, səmərəli məşğulluq təmin edilməkdədir.

downloaded from KitabYurdu.org

Ölkə iqtisadiyyatında aparılan islahatların qanunauyğun nəticəsi kimi formalaşan bazar münasibətlərinin ilkin nəticəsi keçid dövründə istehsalın həcminin aşağı düşməsinin qarşısı alınmasında, sağlamlaşdırma tədbirləri həyata keçirilməsində və qismən də olsa iqtisadi artıma nail olunmasında özünü göstərir. Makroiqtisadi sabitlik müşahidə olunur.

Tədqiqatın nəticəsi göstərdi ki, yarandığı ilkin dövrdə inhisarlar istehsalın təşkilinin mütərəqqi bir forması kimi ayrı-ayrı ölkələrin, o cümlədən də dünya təsərrüfat sisteminin inkişafında əvəzsiz rol oynamışdı. Müasir dövrdə transmilli korporasiyaların inkişaf etməkdə olan ölkələrdə filiallarının açılması həmin ölkələrin sürətli inkişafına səbəb olmuşdur. Nəhəng inhisarlar iqtisadiyyatı sarsıda biləcək böhranlar zamanı öz sabitliyini qoruyub saxlaya bildiklərindən iqtisadiyyatın bu və ya digər sahələri böhranın dağıdıcı zərbəsinə çox zəif məruz qalırlar.

Bazar sistemli ölkələrdə antiinhisar tədbirləri inhisarlara qarşı deyil, onların inhisarçı mövqelərindən sui istifadəsinin qarşısının alınmasına yönəldilib. İnhisarların yolverilməz fənd və üsullardan istifadə etməklə yüksək mənfəət götürmək cəhdi azad rəqabətin məhdudlaşdırılmasına, aradan qaldırılmasına yönəldildiyindən onların bu cür fəaliyyəti iqtisadi inkişafa mane olan bir amilə çevrilir. Ona görə də, inhisarçı fəaliyyətin qanunvericilik yolu ilə qarşısının alınması zərurətə çevrilir.

Təhlillər göstərir ki, yeni müstəqillik əldə edən bütün ölkələr kimi Azərbaycan Respublikası da idarəetmədə dövlət inhisarını sındırmaqla inhisarçılığın yeni yarana biləcək təzahürlərinin qarşısını almaq məcburiyyətində qaldı. Bu məqsədlə dünya təcrübəsi nəzərə alınmaqla Azərbaycan gerçəkliyinə uyğun antiinhisar tənzimlənməsinin hüquqi bazası rolunu oynayan «Antiinhisar fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanunu qəbul edildi. Yaradılmış hüquqi baza Azərbaycan Respublikasının antiinhisar siyasətinin formalaşdırılmasının əsasını təşkil edir və yeni yarana biləcək inhisarçı-

downloaded from KitabYurdu.org

lığın hər bir təzahür formalarının qarşısının alınmasında əhəmiyyətli rol oynamalıdır.

İnzibati-amirlik iqtisadi sistemində sosializmə yad, kapitalizmə daxilən xas bir element kimi öyrənilən inflyasiya Azərbaycan Respublikasının müstəqilliyinin ilkin illərində iqtisadiyyatımıza, əhalinin həyat səviyyəsinə çox böyük sarsıdıcı zərbə vurdu. İstehsalın həcminin kəskin şəkildə aşağı düşməsi, dövlətin bu sahədə elmi cəhətdən əsaslandırılmış konsepsiyasının olmaması keçid dövrünün ilkin mərhələsində hiperinflyasiyaya gətirib çıxarmışdır. Milli valyutanın dövriyyəyə buraxılması hiperinflyasiyanı müvəqqəti səngitsə də onun qarşısını ala bilməmişdir. İctimai istehsalı inkişaf etdirmədən, manatın alıcılıq qabiliyyətinin aşağı düşməsinin qarşısını almaq mümkün olmadığından bu meyl iqtisadi islahatların ilkin nəticələrinin müşahidə olunduğu dövrə qədər davam etmişdir.

Azərbaycan dövlətinin keçid dövründə həyata keçirdiyi iqtisadi islahatlar proqramının mühüm tərkib hissələrindən biri də antiinflyasiya tədbirləri olmuşdur. Antiinflyasiya tədbirləri ilkin olaraq manatın alıcılıq qabiliyyətinin aşağı düşməsinin qarşısının alınmasına, onun daxili dönərliyinin təmin edilməsinə yönəldilmişdir. Ölkənin pul-kredit siyasətini həyata keçirən Milli Bank sərəncamında olan inzibati və iqtisadi rıçaqlardan bacarıqla istifadə edərək milli manatın sabitləşdirilməsinə, inflyasiyanın səviyyəsini yol verilən həddə enməsinə və mülayim inflyasiyaya nail olmuşdur. Manatın sabitləşdirilməsi və inflyasiyanın qarşısının alınmasında Milli Bankın beynəlxalq maliyyə təşkilatları ilə səmərəli əməkdaşlığı əhəmiyyətli rol oynamışdı.

Gəlirlərin formalaşmasını tədqiq edən iqtisadçı alimlər göstərmişlər ki, hər bir iqtisadi sistem öz sosial iqtisadi təbiətinə uyğun gəlirlərin formalaşması mexanizmi yaradır. Hər bir iqtisadi sistemdə istehsal vasitələrinin mənimsənilməsi forması gəlirlərin əmələgəlməsində həlledici rol oynayır. Bazarın əsas səciyyəvi cəhətlərindən olan istehsal vasitələrinin mə-

downloaded from KitabYurdu.org

nimsənilməsinin xüsusi forması gəlirlərin də formalaşmasının bazar mexanizmini şərtləndirir. İstehsal amilləri bazarının iştirakçıları amillərin kəmiyyətinə və keyfiyyətinə görə gəlir götürürlər. Bazar münasibətlərinin inkişafının ilkin mərhələsində istehsal vasitələrindən məhrum olan azad işçilər yalnız əməyə görə gəlir (əmək haqqı) götürsələr də müasir sivilizasiyalı ölkələrdə onlar da digər istehsal amillərinin sahibləri kimi bir neçə amilə görə gəlir əldə etmək imkanına malikdirlər. İstehsal amillərinə görə gəlirlərin əsas forması olan əmək haqqı, faiz, renta və mənfəət hər bir ölkənin konkret inkişaf səviyyəsinə uyğun gəlir.

Azərbaycan Respublikasında gəlirlərin formalaşması keçid dövründən irəli gələn xüsusiyyətləri özündə əks etdirir. Uzun müddət inzibati-amirlik şəraitində yaşamış Azərbaycanda formal da olsa «əməyə görə bölgü» gəlirlərin (əmək haqqının) formalaşmasının əsasını təşkil etmişdir. Əmək haqqındakı bərabərçilik əhalidə əməyin nəticəsinə marağı zəiflətmişdir. Keçid dövründə xüsusi mülkiyyət formalarının yaranması əhalidə təşəbbüskarlığa, əmək vərdiş və qabiliyyətlərinin inkişaf etdirilməsinə marağı artırdı. Doğrudur, keçid dövrünün ilkin mərhələsində gəlirlərin mənbələri (müəssisələrin bağlanması, özəlləşdirmənin ləng getməsi) həddindən artıq məhdud idi. Bazar münasibətləri iqtisadiyyatda alternativsiz bir formaya çevrildikcə ona uyğun olaraq gəlirlərin də yaranmasının bazar mexanizmi (istehsal amillərinə tələb və təklif əsasında) formalaşmaqdadır.

Bazar iqtisadiyyatı şəraitində məşğulluğun təmin edilməsi iqtisadi inkişafın fərqli səviyyələrinə uyğun olaraq müxtəlif formalarda təmin edilir. Azad kapitalizm şəraitində fəaliyyət göstərən bazar təsərrüfat mexanizminin elementlərinin sərbəst fəaliyyətinin nəticəsi olaraq iqtisadiyyatda bütün resurslardan, o cümlədən də iş qüvvəsindən tam istifadə üçün əlverişli şərait yaranır. İstehsalın tam gücür ilə işləməsi tam məşğulluqla təmin olunur. Kapitalizm cəmiyyəti inkişaf

downloaded from KitabYurdu.org

etdikcə ifrat istehsal böhranları qaçılmaz olur və işsizlik cəmiyyətin əsas bəlalarından birinə çevrilir. Müasir bazar iqtisadiyyatı şəraitində məşğulluğun təmin edilməsi birbaşa məqsəd olmadığından istehsalın optimal həcmi işsizlik şəraitində də mümkündür. Həmçinin məşğulluğun təmin edilməsi sahibkarın bilavasitə məqsədi olmadığından o, ən yüksək səviyyədə mənfəət götürə biləcəyi məşğulluğun təmin edilməsində maraqlıdır.

Araşdırmalar göstərdi ki, iqtisadi sistemin dəyişilməsi ilə işsizliyin aradan qaldırılması və məşğulluğun təmin edilməsinin üsul və formaları da dəyişilir. Bazar iqtisadi sisteminə keçidlə əlaqədar keçid iqtisadiyyatlı ölkələrdə işsizlik bazar sistemli ölkələrdəki işsizlikdən daha çox fərqli səbəblərdən yaranır. Yeni iqtisadi sistemin əsaslarının dövlətsizləşdirmə, özəlləşdirmə vasitəsi ilə yaradılması nəticəsində (müəssisələr kütləvi şəkildə bağlanır) işsizlik kütləvi hal alır. Bazar iqtisadiyyatının əsaslarının yaradılması ilə də məşğulluğun təmin edilməsinin bazar mexanizmi formalaşır.

Keçid dövrünün ilk mərhələsində məşğulluq o qədər də yüksək gəlirlə səciyyələnmir. Nəinki işsizlər, hətta məşğul əhali minimum istehlak səbətini ödəyə biləcəyi məbləğdə də gəlir əldə edə bilmir. Keçid dövründə iş yerlərinin məhdudluğu üzündən digər keçid iqtisadiyyatı ölkələrində olduğu kimi Azərbaycan Respublikası üçün də iş qüvvəsinin miqrasiyası xarakterikdir. Miqrasiya etmiş iş qüvvəsinin əldə etdiyi gəlirlər ölkəmizdə iş qüvvəsinin təkrar istehsalında əhəmiyyətli rol oynayır.

Beləliklə, son olaraq qeyd etmək olar ki, bazar iqtisadiyyatına keçid şəraitində formalaşan milli iqtisadiyyatımızın tədricən sivilizasiyalı bazara uyğunlaşması bazar mexanizmi ilə iqtisadiyyatın dövlət tənzimlənməsinin qarşılıqlı səmərəli fəaliyyəti nəticəsində mümkündür. Bazar mexanizmi ilə iqtisadiyyatın dövlət tənzimlənməsinin iqtisadi inkişafa təkan verə biləcək nisbətinin formalaşdırılması bu gün məxsusi zərurətə çevrilir.

downloaded from KitabYurdu.org

## *İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT*

1. Abbasov A.B. Sahibkarlıq fəaliyyəti: növləri, təşəkkülü və inkişaf problemləri. Bakı: «ADİU», 1998, 221 s.

2. . Abbasov Ə.M, Qasımov Ə.C. Ərzaq və ekoloji təhlükəsizliyin aktual problemləri// İqtisad elmləri: Nəzəriyyə və praktika. Bakı: 2001, № 3-4.

3. Axundov M.F. Bədii və fəlsəfi əsərləri. Bakı: «Yazıçı»– 1987, 365 s.

4. Axundov Şəmsəddin. Marketinqin əsasları. Dərslik Bakı: Əbilov, Zeynalov və oğulları, 2001, 572 s.

5. «Aqrar islahatların əsasları haqqında» Azərbaycan Respublikasının Qanunu. Biznesmenin bülleteni. Bakı: 1995, № 10 /15/.

6. Allahverdiyev Ə. Q. Bazar iqtisadiyyatının təşəkkülü prosesində makroiqtisadi və struktur dəyişikliklərinin tənzimlənməsi problemləri// Bakı: Elm, 2001, 267 səh.

7. Allahverdiyev H.B., Qafarov K.S. , Əhmədov Ə.M.İqtisadiyyatın dövlət tənzimlənməsi: Dərslik. Bakı: Nasir, 2002, 447 s.

8.«Antiinhisar fəaliyyəti haqqında» AR Qanunu. Biznesmenin bülleteni. Bakı: 1994, № 6

9. Azərbaycan iqtisadiyyatı// İ.H.Alıyev və S.A. İbadovun redaktəsi ilə. Bakı: 1998, 396 s.

10. «Azərbaycan» qəzeti, 2007, 2 avqust, № 169

11. Azərbaycan Kənd Təsərrüfatı. Statistik məcmuə. Bakı: «Səda», 2003, 294 s.

12. Azərbaycan Respublikasında 1995-1998-ci illərdə dövlət mülkiyyətinin özəlləşdirilməsinin Dövlət Proqramı. Azərbaycan qəzeti 21 noyabr 1995, № 122.

13. Azərbaycan Respublikasının iqtisadi müstəqilliyinin əsasları haqqında Azərbaycan Respublikasının Konstitusiya Qanunu (25 may 1991-ci il)

downloaded from KitabYurdu.org

14. Azərbaycan rəqəmlərdə. Statistik məcmuə.Bakı: «Səda», 2006-cı il, 627 s.

15. Azərbaycanın Statistika göstəriciləri, Statistik məcmuə. Bakı: «Səda», 1996, səh. 27-29.

16. Azərbaycanın Statistik Göstəriciləri, Statistik məcmuə 2002. Bakı: «Səda», 2002, səh. 686-687

17. Azərbaycan Statistik Göstəriciləri. Statistik məcmuə 2006. Bakı: «Səda», 2006, səh. 867.

18. Babayev Ə.P. İqtisadi nəzəriyyə. Dərslik. Bakı: «Çaşıoğlu», 2000-ci il, 686 s.

19. Babayev Telman. Aqrar sahədə özəl qurumların təşkili və iqtisadi əsasları. Bakı: Azərnəşr, 1998, 258 s.

20. Bayramov Əvəz. İnhisarizm. Bakı: Elm, 2002, 389 s.

21. Cədvəl Azərbaycan kənd təsərrüfatı 2002 statistik məcmuəsi əsasında tərtib edilmişdir.

22. Cədvəl İqtisadi İnkişaf Nazirliyinin Analitik informasiya şöbəsinin materialları əsasında tərtib edilmişdir. 2005-ci il.

23. «Dövlət borcu haqqında» Azərbaycan Respublikasının Qanunu (29 dekabr 1992-ci il)

24. Əhmədov M.A. Qloballaşma və milli iqtisadiyyatın formalaşması. Bakı: Azərinəşr, 2003, 520 səh.

25. Əhmədov M.A. Milli iqtisadiyyatın iqtisadi təhlükəsizliyi və rəqabət qabiliyyətinin təmin edilməsinin nəzəri səpkiləri// (III məqalə) İqtisad elmləri: nəzəriyyə və praktika jurnalı. Bakı: 2001№1-2

26. Əlirzayev Əli. İqtisadi və sosial idarəetmə: Bazar iqtisadiyyatı, metodoloci prinsipləri, qanunauyğunluqlar. Bakı: «Diplomat» 1997, 208 s.

27. Əliyev Aqil, Şəkərəliyev Arif. Bazar iqtisadiyyatına keçid: Dövlətin iqtisadi siyasəti. Bakı: İqtisad Universiteti. 2002, 440 s.

28. Əliyev H.Ə. Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında. Bakı: «ADİU» 2001, 88 s.

downloaded from KitabYurdu.org

29. «Əhalinin məşğulluğu haqqında» AR Qanunu. 27 (iyun 1991-ci il)

30. Əliyev H.Ə. Xarici iş adamları ilə görüş. «Respublika» qəzeti, 2002-ci il 15 may. № 109

31. Əliyev H.Ə. Yerli sahibkarlarla görüş. «Respublika» qəzeti № 94, 26 aprel 2002-ci il.

32. Əliyev Ü.Q. Bazar mexanizmi. Bakı: Ünsiyyət, – 2000, 257 səh.

33. «Haqsız rəqabət haqqında» AR Qanunu. Biznesmenin bülleteni. Bakı: 1996, № 4

34. Həsənov Y.N. Azərbaycanda aqrar münasibətlərin təkamülü/ Akademik Əhməd Mahmudovun 75 illiyinə həsr olunmuş Elmi konfransın materialları. Bakı: «Bakı Universiteti» – 1998, 469 s.

35. «Xarici investisiyanın qorunması haqqında» Azərbaycan Respublikasının Qanunu /15 yanvar 1992-ci il/

36. İmanov Qorxmaz, Həsənli Yadulla. Azərbaycanın sosial-iqtisadi inkişafının modelləri. Bakı: Elm, 2001, 247 s.

37. İqtisadi İnkişaf Nazirliyinin analitik informasiya şöbəsinin materialları. 2003-cü il.

38. Kazımlı X.H., Babayev J.B., Ağabəyov Ş.A. Qiymətin əmələgəlməsi. Bakı: İqtisad institutunun mətbəəsi. 1994, 82 s.

39. «Kəndli (fermer) təsərrüfatı haqqında» Azərbaycan Respublikasının Qanunu /08 aprel 1992/. Biznesmenin bülleteni № 2 /7/.

40. Kərimli İ.A. Beynəlxalq iqtisadi münasibətlərin müasir problemləri. Bakı: «Çaşıoğlu», 2006, 300 s.

41. «Kiçik sahibkarlığa dövlət köməyi haqqında» Azərbaycan Respublikasının Qanunu. Biznesmenin Bülleteni. 1999, № 32.

42. Keyns C.M. Məşğulluğun, faizin və pulun ümumi nəzəriyyəsi. Bakı: Qanun, 2001, 478 s.

43. Qafarov K.S., Əhmədov Ə.M., Bağırov Z.A.,Mustafayeva G.M. Makroiqtisadi tarazlığın əsasları. Bakı: Ünsiyyət, 2001, 128 səh.

downloaded from KitabYurdu.org

44. Qafarov Ş.S. Müasir iqtisadi sistem və qloballaşma. Bakı: CBS, 2005, 631 s.

45. Qarayev İ.Ş., Ağabəyov Ş.A., Bayramov Q.S., Quliyev İ.Q., Əliyev Ə.R.Dünya bazar qiymətləri. Bakı: Az.DUU-nun mətbəəsi. 1997, 250 s.

46. Qasımov Ə.C. Babayev T.Q, Nəbiyev Ə.N. Bazar iqtisadiyyatı şəraitində kəndli (fermer) təsərrüfatlarının inkişaf problemləri// İqtisad elmləri: nəzəriyyə və praktika jurnalı 1997, № 1-2.

47. «Qiymətli kağızlar və fond birjaları haqqında» Azərbaycan Respublikasının Qanunu (24 noyabr 1992-ci il)

48. Quliyev R.İ. Böyük transformasiya: Azərbaycan təşəbbüsləri. Bakı: Nurlan, 2001, 255 səh.

49. Quliyev T.Ə. Menecmentin (idarəetmənin) əsasları: Dərslik. Bakı: «Nağıl evi», 2001, 520 s.

50. Lenin V.İ. Seçilmiş əsərlərinin tam külliyyatı, cild 36, səh. 157.

51. Manafov Q.N. Bazar iqtisadiyyatı nəzəriyyəsinə giriş. Bakı: ADİU nəşri, 1991, 61 s.

52. Manafov Q.N. Sahibkarlığın nəzəri və praktiki məsələləri. Bakı: «Zaman», 1997, 146 s.

53. Marks K., Engels F. Əsərləri, 19-cu cild, Bakı: Azərnəşr, 1969, s. 221-222.

54. Meybullayev M. X. İslam iqtisadiyyatı. Bakı: «Ünsiyyət» 2001, 669s.

55. Məlumat İqtisadi İnkişaf Nazirliyinin analitik informasiya şöbəsinin materiallarından götürülmüşdür.

56. Məmmədov S. İnflyasiya və maliyyə bazarı. Bakı: «Əbiov, Zeynalov və oğulları»,1998, 204 s.

57. «Minimum istehlak büdcəsi haqqında» AR Qanunu. 14 oktyabr 1992.

58. Muradov Rəşad. Müasir şəraitdə Azərbaycan Respublikasında əmək bazarı problemləri. Bakı: Elm, 2000, 338 s.

59. Muradov Ş.M. Bazar iqtisadiyyatına keçid şəraitində məşğulluq və işsizlik problemləri/ Azərbaycan iqtisadiy-

downloaded from KitabYurdu.org

yatının bazar münasibətlərinə uyğun qurulması və tənzimlənməsinin sosial – iqtisadi və hüquqi problemləri (kollektiv monoqrafiya) Bakı: Elm, 1996, 330 s.
60. Mustafayev K. Cəmiyyət və iqtisadiyyat. Bakı: ADİU, 2002, 270 s.
61. «Mülkiyyət haqqında» Azərbaycan Respublikasının Qanunu. Biznesmenin bülleteni, 1993, № 4
62. Müzəffərli N. İqtisadi etüdlər. Bakı: «Şuşa»– 1999, 238 s.
63. Nadirov Asəf. Müstəqil Azərbaycan iqtisadiyyatının inkişaf məsələləri. Bakı: Elm, 2001, 453 s.
64. «Milli iqtisadi inkişafın Azərbaycan modeli» mövzusunda eynəlxalq konfransın plenar iclasının materailları – II. Azərbaycan Dövdət İqtisad Universiteti, Bakı: 2007, 318 s.
65. Özəlləşdirmənin ikinci Dövlət Proqramı. Biznesmenin bülleteni. 2000-ci il № 51 /307/, 29 s.
66. Rəhimov Mail. Azərbaycan Respublikasının iqtisadi inkişafını tənzimləyən qanunlar /1991-1995-ci illər/. Bakı: Azərbaycan nəşriyyatı, 1996, 247 s.
67. «Respublika» qəzeti. 13 fevral, 2004-cü il.
68. Sadıqov K.F. Milli iqtisadiyyatın dövlət tənzimlənməsinin konseptual əsasları. Bakı: Azərnəşr, 1999, 72 s.
69. «Sahibkarlıq fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanunu. Biznesmenin bülleteni. Bakı: 1994, № 3
70. Səfərov Səttar. İqtisadi siyasətin straregiyası: konseptual əsaslar. Bakı: Azərnəşr, 2000, 263 s.
71. «Səhmdar Cəmiyyəti haqqında» Azərbaycan Respublikasının Qanunu /12 iyul 1994-cü il.
72. «Sovxoz və kolxozların islahatları haqqında» Azərbaycan Respublikasının Qanunu. Biznesmenin bülleteni. 1995, № 12.
73. «Torpaq islahatı haqqında» Azərbaycan Respublikasının Qanunu. Biznesmenin Bülleteni. Bakı: 1996, № 22.
74. Vəliyev D.Ə, Babayev Y.S. Türkiyə. Turqut Özal. İqtisadi möcüzələr. Bakı: «Kommunist» nəşriyyatı, 1990, 64 s.

downloaded from KitabYurdu.org

75. Vəliyev. T.S. İqtisad elminin nəzəri əsaslarının tarixi təkamülü. Bakı: Elm, 1999, 284 s.

76. Vəliyev T.S. Keçid dövründə iqtisadiyyatın formalaşmasının bəzi məsələləri// İqtisad elmləri: nəzəriyyə və praktika jurnalı. Bakı: 1997, № 3-4.

77. Vəliyev T.S. Müstəqil Azərbaycanda yeni cəmiyyət quruculuğunun funksional iqtisadi qanunauyğunluqları// İqtisad elmləri: nəzəriyyə və praktika jurnalı. Bakı: 2001, № 1-2.

78. «Vətəndaşların pul gəlirlərinin və əmanətlərinin indeksləşdirilməsi haqqında» Azərbaycan Respublikasının Qanunu. /17 iyun 1992/.

79. Müftüoğlu M.Tamer Türkiyede kiçik və orta ölçekli işletmeler. Sorunlar, öneriler. Ankara: 1991, 435 s.

80. Аббасов А.М., Кулиев Т.А. Экономика в условиях неопределенности. Баку, Изд. «Дом сказки», 2002, 109 стр.

81. Абалкин Л.И. Вызовы нового века М. Институт экономики РАН. 2001, 287 стр.

82. Абалкин Л.И. Сущность, структура и актуальные проблемы совершенствования хозяйственного механизма. Журнал экономические науки. 1978, № 8.

83. Абасова С.Т. Предпринимательство в новой социальной среде. Баку: Элм, 2003, 193 стр.

84. Ахмедуев А. Механизм хозяйствования государственных и миниципуальных предприятий// Журнал Вопросы экономики 1996, №10

85. Бабаев А.П. Разгосударствление собственности в Азербайджане. Государственная собственность в экономике России и других стран// Вопросы истории и теории/ Под редакцией В.И.Черковца. Москва «МГУ», 2002, 593стр.

86. Бартенев. С.А Экономические теории и школы. Москва: Изд. «Бек», 1996, 337стр.

87.Бабычев С. Россия на пути антиустойчивого развития// Журнал – Вопросы экономики. 2004, № 2.

88.Бункина М.К. – Национальная экономика. Издательство «Логос» Москва: 2002. 487 стр.

downloaded from KitabYurdu.org

89.Гаджиев Ш. Азербайджан к мировому сообществу стратегия внешноэкономического развития. Киев: 2000, 503 стр.

90.Экономика: Учебник/ Под ред. доц. А.С.Булатова. Раздел 21, 3; Москва: БЕК, 1994. 604 стр.

91.Экономика СНГ. Выпуск I. О ходе экономических реформ в государствах – участниках СНГ. М.: 1997, 244 стр.

92.Фериантс Ян. Хозяйственный механизм и экономия времени. Москва: Экономика, 1987, 193 стр.

93.Капитализм на исходе столетия/ Под ред. А.Н.Яковлева. Москва: Политиздат, 1987, 462 стр.

94.Кемпбелл Р. Макконнелл, Стенли Л. Брю. Экономикс. Т 1 Москва: Республика, 1992, 399 стр.

95.Кемпбелл Р., Макконнелл, Стенли. Брю. Экономикс. Т 2 Москва: Республика, 1992, 400 стр.

96.Корнаи Я. Дефицит. Москва: Наука, 1990, стр. 607

97.Королев В. Феномен предпринимательства// Российский экономиический журнал. 1992, № 4

98.Краткий политический словарь. Москва: Политиздат, 1987, 510 стр.

99.Криченко В.Н. СНГ: Диалектика единения и размежевания// Российский экономический журнал, 1993, № 10

100. Криченко В. Рыночная трансформация экономики: теория и опыт// Российский экономический журнал, 2000, № 11-12.

101. Кулиев. Т.А Регулируемая рыночная экономика Баку: 1999, 390 стр.

102. Курс экономической теории: Учебник/ Под редакцией проф.Чепурина М.П., проф.Киселевой Е.А. Киров: «Вятка», 1994, 624 стр.

103. Гегель соч. М.-Л.: 1935, т.1, стр.20

104. Гумерев Р. Аграрная политика: от диктанта либералистских догм к экономическому прагматизму// Российский экономический журнал, 2003, № 2.

105. Лившиц А.Я. Введение в рыночную экономику. 1 часть, Москва: Станкин, 1992, 152 стр.

downloaded from KitabYurdu.org

106. Лившиц А.Я. Введение в рыночную экономику. Москва, Изд. Станкин, часть II, 1992, 126 стр.

107. Махмудов А.А. Экономическая стратегия КПСС о хозяйственном механизме: Вопросы хозяйственного механизма (Материалы конференции 1980) Баку: Елм, 1983, 178 стр.

108. Малафеев А.Н. Толстая тетрадь: журнал экономическая школа, том 1, выпуск 1991, 240 стр.

109. Менкю. Н.Грегори Макроэкономика. Москва: Изд.МГУ,1994,736 стр.

110. Морозов И, Повенский С. Проблемы разгосударствления и приватизация /на материалах Молдовы/. Экономические науки. Москва: 1991, № 6

111. Müzəffərli N. Рейтинг Азербайджана. Баку: «Кавказ», 2006, 469 стр.

112. Национальная экономика/ под.общ.ред. В.А.Шульги. Гл.28, пр.2, Москва: 2002, 590 стр.

113. Нигматулин Р. Об оптимальной доле государственных расходов в ВВП и темпах экономического роста// Журнал Вопрос экономики, 2003, № 3.

114. Отто О.Э., Ташаев Б.Т. и др. Экономика – основа жизни общества. Ташкент: ИПК «Шарк», 1998, 252стр.

115. Платон. Собрание сочинений. Том 1, М.: Мысль, 1990, 861стр.

116. Плышевский Б. Реформирование экономики Государств СНГ Узбекстан// Российский экономический журнал, М.: 1993, №10.

117. Плышевский Б. Реформирование экономики государств СНГ Казахстан// Российский экономический журнал, М.: 1993, №9.

118. Политическая экономия: Учебник. Москва: Мысль, 1989, 736 стр.

119. Проблемы развития политической экономии и совершенствования ее преподавания. Москва: «Высшая школа», 1985, 336 стр.

downloaded from KitabYurdu.org

120. Романова Л.А. Социальная политика государства. Курс экономиической теории. Учебник. Киров: «Вятка», 1994, 441 стр.

121. Розанова Н.М. Собственность как основа хозяйствования государственного и частного предприятия. В книге Государственная собственность в экономике России и других стран// Вопросы истории и теории. Москва: 2002, стр. 193-194.

122. Сидорович А.В. Экономическая теория и национальная экономика/ Национальная экономика: Вопросы теории и проблемы преподавания (по материалам научно – практической конференции в Московском университете)// Российский экономический журнал, 2001, № 10.

123. Солнцева М. Уроки и перспективы реформы цен в Китае// Российский экономический журнал, 1993, № 3.

124. Современный капитализм. Москва. Политическая литература, 1985, 366 стр.

125. Тарасевич В.М. Экономико-математические методы и модели в ценообразовании. Часть II, Ленинград: Ленинградского финансово-экономического института, 1991, 144 стр.

126. Всемирная история экономической мысли. Т.2. Москва: «Мысль», 1988, 575 стр.

127. Зыков Й.А., Матвеев Л.А. Ориентация хозяйственного механизма. М.: Экономика, 1986, 213 стр.

128. Ясин Е. Структурный маневр и экономический рост// Журнал вопросы экономики, 2003, № 8.

downloaded from KitabYurdu.org

**Əliyev Ümüdvar Qənbər oğlu**

**------------------------------------------**

# Keçid dövrünün milli iqtisadi problemləri

**-----------------------------------**

Monoqrafiya

*Çapa imzalanıb 25. 02. 2008. Kağız formatı 60x84 1/16.*
*Həcmi 22,5 ç.v. Sifariş 11. Sayı 500.*
*-------------------------------------------------------------------------*
*" İqtisad Universiteti " nəşriyyatı.*
*AZ 1001, Bakı, İstiqlaliyyət küçəsi, 6*

downloaded from KitabYurdu.org